GÜLLÜ MƏMMƏDOVA

# KALBALI XAN

*(Tarixi roman)*

Bakı
«Nurlan»
2007

**Rəyçi:** **İsmayıl Hacıyev**
AMEA Naxçıvan bölməsinin sədri, akademik

**Məsləhətçi:** **Musa Quliyev**
AMEA Naxçıvan bölməsinin elmi işçisi, Naxçıvan xanlığının tədqiqatçısı

**Güllü Məmmədova. Kalbalı xan (tarixi roman).**
**Bakı, «Nurlan», 2007. – 460 səh.**

Yazıçı Güllü Məmmədovanın «Kalbalı xan» romanı Naxçıvan xanlığının ictimai-siyasi hadisələrlə zəngin olan tarixindən və tarixi şəxsiyyətlərdən bəhs edir. Əsərdə rus və İran arasında Türkmənçay müqaviləsinin bağlanması ilə Azərbaycanın ikiyə parçalanması və Ermənistan dövlətinin yaranma səbəbləri tarixi faktlarla təsvir olunur.

$$M\frac{4702000000}{N-098-2007}$$ *Qrifli nəşr*

© «Nurlan», 2007

*Çox istərdim ki, Naxçıvan xanlığının tarixi çox gözəl yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var.*

*Heydər ƏLİYEV*

## NAXÇIVAN XANLIĞI: TARİXİMİZİN BƏDİİ SALNAMƏSİ

Yazıçı Güllü Məmmədovanın «Kalbalı xan» romanı müəllifin Naxçıvan tarixinə həsr olunmuş ikinci əsəridir. Birinci romanı olan «Qarabəkir əfsanəsi» 1918-20-ci illərdə Naxçıvanda ermənilərin törətdiyi faciələrdən, soyqırımlardan bəhs edirsə, «Kalbalı xan» romanında bu faciələrin yaranma səbəbləri, kökü, mənbələri qələmə alınıb. Romanı oxuduqca məlum olur ki, ermənilər nəyə görə məhz Azərbaycan torpaqlarına göz dikib. Yurdsuz-yuvasız, vətənsiz olan bu millət necə oldu ki, İrəvan xanlığına yiyələnərək böyük bir ərazidə dövlət yarada bildilər? Əsrlər boyu bu zəhərli ilanlara ağu verən kimlərdir?

Müəllif tarixin qaranlıq səhifələri üzərindən sirli örtüyü götürür, real faktlar, sənədlər əsasında o dövrün mürəkkəb, ziddiyyətli hadisələrinə aydınlıq gətirir, bədii sözün gücü ilə onları təsvir edir. Düzdür, Naxçıvan xanlığının tarixi tədqiqatçılar tərəfindən öyrənilib, bu gün də bu sahədə ciddi elmi axtarışlar aparılır. Lakin yazıçının xidməti ondan ibarətdir ki, yalnız alimlərə məlum olan bu tarixi bədii ədəbiyyata gətirmiş, hər kəsin öz tarixini öyrənməsi üçün böyük zəhmət, istedad və bacarığını sərf etmişdir. Roman Güllü Məmmədovanın uzun illər apardığı axtarışların, zəngin təxəyyülün uğurlu nəticəsidir.

Romanda XVIII əsrin sonlarında və XIX əsrin əvvəllərində Cənubi Qafqazda, o cümlədən Naxçıvan xanlığında gedən ictimai-siyasi proseslər öz əksini tapıb. Naxçıvan xanlığının başında dayanan Kalbalı xan ağıllı, uzaqgörən siyasətçi, dövlət başçısı olmaqla yanaşı, eyni zamanda qeyrətli, öz torpağını sevən, Naxçıvanın müstəqilliyi uğrunda mübarizə aparan bir vətənpərvərdir. İran şahı Kəngərli tayfasının bu qorxmaz, igid oğlu ilə daim hesablaşır. Gözləri görməsə də yenə onu Naxçıvan xanlığının taxtına əyləşdirir. Müəllif bütün roman boyu Kalbalı xanın həyatını, fəaliyyətini, mübarizəsini, bir insan kimi daxili aləminin zənginliyini, bir diplomat, dövlət başçısı kimi müdrikliyini, yenilməzliyini maraqlı, yaddaqalan səhnələrlə təsvir edib.

Ta qədimdən məkrli düşmənlərin maraq dairəsində olan Naxçıvan xanlıqlar dövründə rusların və farsların döyüş meydanına çevrilir. Bir-birinə rəqib olan bu iki güclü dövlət Azərbaycan torpaqlarını işğal etmək uğrunda müharibə aparır. Rusların Azər-

baycana işğalçılıq yürüşü, xanlıqlarda törətdiyi vəhşiliklər çox təbii, real faktlar əsasında təsvir olunur. Romanda biz rus generallarının ətrafında daim erməni keşişlərini görürük. Sisianovun, Paskeviçin məsləhətçisi olan bu keşişlər Azərbaycanın işğalında mühüm rol oynamışlar.

Romanda II Rus-İran müharibəsinin nəticəsi olaraq Türkmənçay müqaviləsinin bağlanması, Azərbaycanın ruslar və farslar arasında bölüşdürülməsi faktı geniş şərh olunur. Türkmənçay müqaviləsi erməniləri rusların köməyi ilə böyük arzularına qovuşdurur. Onlar İrandan və Türkiyədən kütləvi surətdə Qarabağa, Naxçıvana və İrəvana köçürülür. İrəvan xanlığının yerində Ermənistan dövləti yaradılır. Bu hadisələrlə bağlı müharibə səhnələri, tarixi simalar müəllif tərəfindən ustalıqla təsvir olunub.

Roman «Taxt... uğrunda savaş», «Xacə şahın sonu», «Rus taunu», «İşğal və yaxud generalın ölümü», «Ermənistan belə yarandı», «Mübahisəli Naxçıvan», «Ölümə bərabər ayrılıq» bölmələrindən ibarətdir. Başlıqlardan da göründüyü kimi Güllü Məmmədova Naxçıvan xanlığının tarixini diqqətlə öyrənmiş, o dövrün ab-havası ilə yaşamış və sanballı bir əsər ərsəyə gətirmişdir. Yazıçının obrazlı dili, hadisələri təsvir etmək məharəti, istedadla zəhmətin birgə səyi öz bəhrəsini verib. Əlbəttə, romanda bəzi çatışmazlıqlar yox deyildir. Lakin bunlar əsərin bədii keyfiyyətinə xələl gətirmir.

«Qarabəkir əfsanəsi» kimi, «Kalbalı xan» romanı da Naxçıvanın ağrılı, lakin qəhrəmanlıq tarixi, o dövrdə yaşamış tarixi simalar, onların fəaliyyəti haqqında geniş bilgi verir. Tam yəqinliklə inanırıq ki, bu tarixi roman da oxucuların ciddi marağına səbəb olacaq, həmin dövr hadisələrinin obyektiv öyrənilməsinə əsaslı kömək göstərəcəkdir.

**İ.M.HACIYEV,**
**akademik**

# BİRİNCİ HİSSƏ

## TAXT... UĞRUNDA SAVAŞ

1

...Karvan ağır-ağır, yorğun-yorğun cənuba sarı gedirdi.

Dəvə karvanı İrandan adlayıb daha uzaqlara – ərəb ölkələrinə gedəcəkdi. Başı ağ sarıqlı, qara saqqallı karvanbaşı Ordubad ipəyi ilə yüklənmiş dəvələri gün batmamış Araza çatdırmağa tələsirdi. Amma Culfa düzünün isti boğanağı, bu isti azmış kimi toz-torpağı sanki ələkdən keçirərək üz-gözə çırpan dəli küləklər irəli getməyə aman vermirdi.

Dəvə karvanının arxasınca bütöv bir qafilə gəlirdi. Birinci nə qədər sakit və səssiz gedirdisə ikinci bir o qədər səsli-küylü idi. Dəli küləyin qopardığı tozanağa bürünmüş yüklü qatırlar, at qoşulmuş arabalar, aşağı-yuxarı qaçan, bağırmaqdan səsi kallaşıb boğazının damarları şişən, gözlərinin içində qəzəb və kin şöləsi titrəyən sərbazlar... Qafilə bununla bitmirdi. Ayaqyalın, üzgün, kirpiklərinin üstünə toz-torpaq qonmuş, qaralmış, boğulmuş kədərli sifətlər... Cavan və sağlam adamlar biləklərindən bir-birinə bağlanaraq qafilənin arxasınca gedirdilər. Bəzisinin qolunda, kürəyində, bəzisinin köynəyi pardaxlanaraq cırılmış və açıq qalmış sinəsində, hətta üzündə də qamçıların açdığı zolaqlar qızarırdı.

Əsirlərdən irəlidə – atın cilovundan möhkəm yapışmış gənc qız da gedirdi. O, çox gözəl idi. Bəlkə də şaha töhfə olduğundan onu atla aparırdılar. Sərbazlar həris baxışlarını gizlədə bilməyərək qızın yanından təkrar-təkrar ötüb keçir, bu çöllü-biyabanda ətir saçan çiçəyə ağızları sulanaraq tamaşa edirdilər. Qızı qoruyan yaşlı, kök sərbaz deyəsən rütbəcə onlardan böyük idi. Çünki cavan sərbazlar onu görən təki özlərini yığışdırırdılar. Kök sərbaz isə sifətindən zəhrimar yağa-yağa onları gözlərindən belə keyf eləməyə-gözələ doyunca baxmağa qoymurdu. Özünü tez yetirir, zəhmli baxışla sərbazları süzür, bir müddət atını qızla yanaşı sürürdü. Bununla da qızın təkcə ona aid olduğunu ağayana bir əda ilə cavan sərbazlara nümayiş etdirirdi.

Atlı gözəl isə ətrafında hər şeyə süst və laqeyd idi. Küləyin dağıdıb kürəyinə tökdüyü pırtlaşıq, pərişan saçlar, ağlamaqdan

şişib qızarmış gözlər, günəşin yandırdığı üzgün sifət... Qafilə Naxçıvandan uzaqlaşdıqca elə bil gözəgörünməz alov qızın içərisini bürüyür, taleyinin qaranlıq məchulluğu onu dəhşətə gətirir, kimsə rəhimsizcəsinə dünyanın bütün qəm-qüssəsini acımadan qızın gözlərinin içinə yığırdı.

...Külək birdən kəsdi. Çisələkli yağış sanki dəli küləklərin cilovunu yığıb saxladı. Havadan islanmış toz-torpağın ətri gəldi. Uzaq dağların zirvəsi qürub edən günəşin narıncı rəngi ilə örtüldü. Lakin qaralan buludlar bu narıncı rənglərin üstünə elə bil qara ətəklərini çəkdi. Karvan gedən yollara axşamın dinc, sakit sükutu çökdü.

Dəvə karvanı dayanmadan getdi.

Qafilə isə toxtadı. Şam vaxtıydı. Sərbazlar aclıq və yorğunluqlarını rəf etmək üçün atlarını irəli sürdülər. Qızın yanınca gedən kök sərbaz bir anlıq düşündü, tərəddüd içində dayandı. Lakin aclığa tab gətirməyərək ata bir qamçı çəkib qızdan uzaqlaşdı.

Sərbazlar çəkilib gedən kimi, əsirlər də rahatlıqla nəfəs alıb diz üstəcə çökdülər. Yalın ayaqları çınqıla-daşa dəyib əzildiyindən qançır idi. Amma onların gözü əsir qızdaydı. Bədənlərinin ağrısını, biləklərindəki kəndirlərin göynərtisini, ürəklərinə yığıb apardıqları dərdi unutmuşdular. Qızın əsir olmağı onların heysiyyatına toxunurdu. Yad məmləkətdə bu naxçıvanlı qızın taleyi necə olacaqdı? Zalım fələyin sərt rüzgarı onun başına hansı oyunları gətirəcəkdi? Bu əsir qız dünyanın o biri ucunda dayanıb onu gözləyən iblisin işləklərindən xəbərdar idimi?

Kaş onu qurtara biləydilər. Naxçıvandan əsir gedən qızın dərdi xəncər yarasından betərdir...

Bu anda əsirlərin arasından pəhləvan cüssəli bir cavan dişidırnağı ilə biləyinə bağlanmış kəndirin son telini qırıb özünü yorğa yerişlə gedən ata çatdırdı, ayağını üzəngiyə qoyub qızı da atın üstündən qamarladı və qucağına basdı. Əsirlər yalnız bircə anlığa qafilədən aralanan atı gördülər.

Cavan Culfa yolundan ayrılıb Əlincə tərəfə üz tutdu. Sonra qaranlıq bu iki cavanı sanki qara yaylığına büküb ovcunun içində gizlətdi. Qaranlığın içində yalnız uzaqlaşan at nallarının səsi gəldi.

Qaranlıq hər yeri bürüdü. Yer üzü elə bil bir əlçim ay işığına sığındı. Sanki bir əlçim ay işığı yeri, göyü, dərə-təpələri, ağır-ağır gedən dəvə karvanlarını – hər şeyi gecənin ixtiyarına verdi.

Sakitlik birdən çökdüyü kimi birdən də sanki tufan kimi qopdu. Qızın qaçırılmağından xəbər tutan sərbazlar quduz canavar kimi vəhşiləşdi. Qamçılar işə düşdü. Kök sərbaz isə vaxt itirmədən iki sərbazla qaçanların arxasınca düşdü. Əsirlər canlarının ağrısını unudub əllərini göyə açdılar, tanrıya üz tutdular: – ya Allah sən günahsız cavanları vəhşilərin qəzəbindən qoru. Əgər bu quduzlaşmış sərbazların əlinə keçsələr...

Qaranlıq çöllükdə isə qovhaqov başlanmışdı. Sanki kimsəsiz çöllükdə ilxı çapırdı. Cavan başını çevirib geriyə baxdı: arxasınca üç atlı sərbaz düşmüşdü. Cavanın qucağına sığınmış qız qorxusundanmı, həyəcandanmı titrəyirdi. Kirpiklərindən cavanın çılpaq qoluna düşən göz yaşı buz parçası tək soyuq idi. Cavan atını üzüyuxarı yoxuşa sarı sürdü və qızdan soruşdu:

– Ağlayırsan?

– Yox.

– Yalan demə. Qoluma göz yaşı düşdü.

– Onlar bizə çatırlar.

– Amma onlar bu yerləri yaxşı tanımırlar.

– Qorxum səndəndir. İstəmirəm ki, mənə görə güdaza gedəsən. Mən səni heç tanımıram. Heç üzünü də görməmişəm.

Əsən külək qızın saçlarını oğlanın üzünə dağıtdı. Cavan başını çevirdi:

– Nə fərqi, ikimiz də naxçıvanlıyıq. Naxçıvanlı qızın əsir getməsi ürəyimizi dağladı. Qeyrətimizə toxundu.

– Neyniyə bilərdiz? Əl-qolunuz bağlı... Sərbazlar da ki, quduz canavar kimi başınızın üstündə.

– O kök sərbaz yanından aralanan kimi heç bilmirəm canıma hardan quvvət və təpər gəldi.

Cavan susdu, dərindən nəfəs aldı, sanki qızın təmasını yaxından hiss elədiyinə utandı, üz-gözünə dəyən saçlarını yığışdırıb: – düş sən mənim tərkimdə otur – dedi. Yoxsa belə atı möhkəm sürə bilmirəm.

Qız hələ də titrəyirdi, səsi də sanki sinəsindən üşüyə-üşüyə çıxdı:

– Yaxşı,– yerə düşən kimi gur, pırtlaşıq saçlarını iki hörüb kürəyinə atdı, sonra da arxaya boylandı – sərbazlar çətinliklə

yoxuşa dırmanırdılar. Qız cəld oğlanın tərkinə qalxdı. Atın belindən sürüşüb düşməmək üçün oğlanın belini möhkəm qucaqladı. Cavan atı dəhmərlədi. Bu kimsəsiz gecədə, amansız qovhaqovda onlar quduz canavarların şikarıydı. Ələ keçsəydilər cavan üçün asan ölüm bəxtin gətirməyi kimi bir şey idi. Qız da ki... Quduzlaşmış sərbazların qəzəbindən Tanrı sən özün qoru...

Qulaqlarının dibindən güllələr çovuyub keçdi. Güllə səsindən at diksinib daşlıqda büdrədi.

...At yorulmuşdu.

Qızın qolları keyləşdiyindən oğlanın belindən sürüşüb düşürdü. Elə bil qollarından, biləklərindən pudluq daşlar asılmışdı. Yorğunluqdan kirpikləri də qapanırdı.

Cavan ərklə qıza hirsləndi:

– Özünü itirmə. Belimdən möhkəm yapış.

– Qüvvəm tükənib. Bacarmıram.

– Onları burda azdıracam. Bir az da döz.

Aşağıda sərbazların bağırtısı əks-səda verərək uzaqlara yayıldı:

– Qızı qoy get. Sənə toxunmarıq...

– Əlimizə düşsən səni tikə-tikə doğrayacağıq...

– Pədər suxtə...

Sərbazlar elə bil aşağıdan yuxarıya kəmənd atıb qızın boynunu əllərinə keçirdilər – nəfəsi bir anlığa gizləndi, dırnaqlarının ucuna qədər saraldı, vücudunu bürüyən buz kimi soyuq tərin içində üşüdü. Titrək səslə yalvardı:

– Allaha, tanrıya and verirəm, məni burax get. Heç olmasa özünü xilas elə. Onsuz da yaxamızdan əl çəkməyəcəklər.

– Səni sərbazların əlinə verim gedim? Məni qeyrətsizmi bildin? Ağlın başındadırmı?

İncimiş, acıqlanmış cavan bir anlıq susdu. Ağlı ildırım sürətilə işlədi: sərbazlardan necə yaxa qurtarsın? Nə fikirləşdisə atdan düşdü. Qızı da sinəsinə sıxıb düşürdü. Sərbazlar yavaş-yavaş yuxarı qalxırdılar. Fars dilində qəliz söyüşlər yağdıra-yağdıra, oğlanı hədələyərək addım-addım yaxınlaşırdılar. Cavan atın başını tumarladı, sanki onu qaranlıqda, kimsəsiz çöldə tək buraxdığına görə əfv dilədi və sarğısına yüngülcə şillə vurdu. Cilovu buraxılmış, yüngülləşmiş at fınxırdı, bir-iki addım irəli atdı, sonra da onu gözləyən təhlükəni duyurmuş kimi irəli getdi. Aşağı yenərək çöllüyə tərəf götürüldü.

Cavan qorxudan yumaq kimi bükülmüş qızı daşın arxasına çəkdi, nəfəsi od kimi qızın yanağını yandırdı:

– Elə biləcəklər ki, biz də atın üstündəyik. Atın arxasınca düşəcəklər.

– Birdən getmədilər, ətrafı axtardılar, biz də asanlıqla ələ keçdik?..

– Onlar əlimizdən zəncir çeynəyir. Atdan düşüb gizlənməyimiz ağıllarına gəlməyəcək. Onlar bu dəqiqə ağılın yox, kinin, nifrətin quludur.

Sərbazlar atları düz yanlarında saxladılar. Birinci kök sərbaz atdan düşdü. Atın yüyənini bərkitdi, əl-qolunu ölçə-ölçə nə isə dedi, farsca söydü, qəzəbindən elə bil nəfəsi tıxanırdı. İkisi də başa düşdü ki, onun əlinə düşsələr rəhm deyilən şeyi bu sərbaz yaxına qoymayacaq. Daşın dibinə qısılmış qız az qala qorxudan huşunu itirdi. Cızılıb qanamış əlini çat-çat olmuş dodağının üstə qoyub səsini uddu. Bütün bədəni soyuq tər içində islanmışdı. Paltarı buz kimi kürəyinə yapışmışdı.

Sərbaz kürəyini daşa söykəyib sanki bir anlıq yorğunluğunu almaq istədi. İri ağır çəkməsini qızın yalın ayağının üstə qoydu və sanki qəsdən daşı əzirmiş kimi onu möhkəm əzdi. Qızın ağrıdan ürəyi getdi, huşu dağıldı, istədi ki, ayağını tərpədib ağır çəkmənin altından çıxarsın, amma sərbazı duyuq salacağından qorxub dişləri ilə bərk-bərk dodaqlarını sıxdı. Bununla da sanki ağrıdan qıvrılsa da bağırtının, hönkürtünün ağzına daş basdı.

Kök sərbaz qaranlıqda güclə seçilən atı gözləri ilə izləyə-izləyə təəssüflə dedi:

– Onları tutmaq indi çətindi, aradan çıxdılar. Biz də bu yerlərə nabələdik.

Amma sərbazlar yenə də atları ehtiyatla yoxuşdan aşağı sürdülər. Sonra atlar yerindən götürüldü və irəlidə tək gedən atın arxasınca düşdülər...

Qaranlıqda qızın yaşlı gözləri gülümsəsə də çatlamış, az qala qanı süzən dodaqları göynəyirdi. Bir əli ilə də sərbazın çəkməsinin altında əzilib şişmiş ayağını ovuşdururdu. Qorxusunu dağıtmaq üçün fağır, çəkingən bir gülüşlə başını yırğaladı:

– Sərbaz az qala məni görəcəkdi. Çəkməsini ayağımın üstə qoyanda elə bildim ki, o, bunu qəsdən elədi. Allah, böyük Allah bizi qorudu. Bizi qansızların əlinə keçməyə qoymadı.

Cavan üzünü göylərə tutdu, içindən gələn şükranlıq duyğusu ilə dedi:

– Bizi xilas edən Allaha, müqəddəs Tanrıya minnətdarıq.

– Şükürlər olsun, Allaha. Yaxşı adın nədi sənin? – kənarda dizlərini qucaqlamış cavan utancaq soruşdu.

– Mahnur – Allaha dua etdiyi bu anlarda şükranlıq duyğusundan bir pay da oğlana ayırdı – yəqin ki, böyük Allah səni də mənim xilasım üçün göndərdi. Sənin də adını öyrənə bilərəmmi?

– Adım Muraddır. Şəhərin özündənsən, Mahnur?

– Hə.

– Hansı məhəllədən?

– Şahab məhəlləsindən.

– Orda hamını tanıyıram. Atanın ismi nədi?

– Baqqal Osman.

– Adı tanış gəlir. Amma... xatırlaya bilmirəm. Bəs onlar necə oldu ki, səni əsir aldılar? Axı sərbazlar vergi yığan kimi cavan qızları gizlədirlər. Çünki şaha peşkəş bəhanəsiynən gözəl qızları qənimət kimi İrana aparırlar.

– O kök sərbaz məni çoxdan qaralamışdı. Təsadüfən küçədə qabaq-qənşər gələndə külək çarşavımı üzümdən atdı, o, da məni gördü. Sonra demə arxamca düşüb evimizi bələdləyib. Vergi yığanda bir dəstə sərbaz həyətə soxuldu. Başçıları da bu imansız idi. Mən qaçıb samanlıqda gizləndim. Onlar hər yeri axtarıb məni samanlıqdan tapdılar. Acığa düşüb samanlığı yandırdılar. Ata-anamdan xəbərim olmadı.

– Evimizi dağıdan, yurdumuzu talayan İran sərbazlarına ürəyim kin-nifrətlə doludur. Əlimə silah alıb onlarla döyüşmək istəyirəm – Murad yumruqlarını düyünlədi – onlar təkcə malımızın yox, canımızın da sahibidir.

Mahnur qorxu içində ona baxdı:

– Səni asarlar. Belə qorxulu sözlər danışma.

– Səbr kasası dolub. Yaxşı, sərbazlar uzaqlaşdı, dur gedək.

– Mən evə getməkdən qorxuram. Sərbazlar təzədən məni yaxalar- Mahnur təkrar içini çəkdi.

– Mən səni təhlükəsiz yerə aparacam, Mahnur. Kalbalı xanın evinə.

– Kalbalı xanın? O sərbazların əlinə verməzmi məni?

– Kalbalı xan qeyrətli, mərd adamdır. Sənin Kalbalı xanın evində olmağın heç kəsin ağlına gəlməz. Eləcə də sərbazların.

– Bəs sən? Onlar indi hər yeri axtarırlar. Əllərinə keçsən səni asarlar.

– Kalbalı xan məni də gizlədər.

– Doğrudan?

Ay qapqara buludları qara örtük kimi üzündən götürdü. Elə bil atlı sərbazların gözdən itməsini gözləyirmiş... Başlarının üstündə dayandı və dərə-təpələrə sanki çıraq tutdu...

* * *

Gecəyarıdan keçmiş Mahnurla Murad Kalbalı xanın qapısını döydülər. Onları Kalbalı xanın hüzuruna apardılar.

Xan Təbriz xalıları ilə döşənmiş salonun baş tərəfində yastıqlara söykənərək oturmuşdu. Elə bil onları gözləyirdi. Sifətinin cizgilərində mülayimlik, gözlərində daxilini əks etdirən ağıl və müdriklik işıq saçırdı. Mahnur özünü itirərək adını eşidib, özünü ilk dəfə gördüyü Kalbalı xana heyrətlə baxırdı. Sanki onun baxışlarındakı mərdlik, riyasız, hiyləsiz, həris baxışlardan uzaq təəccüb və maraq qızı ovsunladı. Xan da üzünü ona çevirəndə elə bil ovsuna, sehrə düşdü: "İlahi bu nə qüdrətdi bu qızın sifətində göstərmisən? Bu nə ilahi boyadı bu qızın çöhrəsinə çəkmisən? Demək Naxçıvan bu cür gözəllərdən xalı deyilmiş... İran sərbazları onları şaha layiq bilirmiş..." Xan udqundu. Günaha batmaqdan qorxurmuş kimi tez üzünü Murada çevirdi:

– Bu gecə vaxtı xeyirdimi?

– Xeyir bizdən qaçaq düşüb, xan. İran sərbazları həmişəki kimi vergi adı ilə yığdıqları sərvəti aparırdılar. Üstəlik də cavan, işlək adamları... Qızlarımıza da göz dikirlər...

– Naxçıvan İranın tabeliyinə keçəndən başımız müsibətlər çəkir.

– Bunun bir sonu olacaqmı, xan? – Murad birdən nəyə gəldiyini xatırladı və tələsik dedi: – Mahnuru da əsir aparırdılar. Mən onu xilas elədim. Qaçırdım. Sərbazlar indi bizi axtarır. Sizə pənah gətirdik.

Mahnurun sinəsi qabardı:

– Mən döyüşmək istəyirəm xan. Ocağımızı yandıran, anamı-atamı qanına qəltan edən İran sərbazlarından qisas almaq istəyirəm.

– Sən? – Xanın sifəti ağrılı-acılı gülüşün işığına büründü.

– At sürməyi, güllə atmağı, hələ desən qılınc oynatmağı da bilirəm – Mahnur çılğınlıqla dedi.

– Vaxt gələr Naxçıvanı qorumaq haqqında düşünərik, Mahnur – Kalbalı xan şamların işığında yalnız indi qıza diqqət yetirdi – kol-kos, daş-kəsək əl-ayağını cızıb qanatmışdı, nimdaş paltarı neçə yerdən cırılmışdı, amma gözlərində düşmənə meydan oxuyan ilahi bir qüvvənin işığı vardı.

Xan məmnun halda qapıya tərəf səsləndi:

– Kərəm...

Pəhlivan gövdəli, köynəyinin qollarını dirsəyinə qədər çırmamış Kərəm o anda qapıda hazır oldu.

Xan gözünü Mahnurdan çəkdi: – bu qızı alt mərtəbəyə qulluqçuların yanına apar. Amma o qulluqçu deyil. Əziz qonaqdır. Bu cavan da yanınızda qalsın. Təlimlərdə iştirak eləsin.

Kalbalı xan tək qaldı. Salonun bəzəkli şüşədən salınmış pəncərəsinin qarşısında dayandı. Yuxusu qaçmışdı. Havadan xız və tüstü iyi gəlirdi. Şəhər ona məhzun və kədərli göründü. İçərisində qəribə bir duyğu oyanmaqda idi. Kalbalı xan əlini qara saqqalına çəkib fikrə getdi: "Ürəyim niyə belə çırpınır? Bu nə axmaq duyğuydu ağlımı başımdan aldı? Həmişə at belində savaşda, vuruşda olmuş, qəlbi daşlaşmış, ürəyinin qapıları gözəlliyə, sevgiyə bağlanmış adam niyə birdən-birə dəyişdi? Heç cavanlıqda da Tükəzban xanıma belə hisslər bəsləmədim..."

Xan qaşlarını düyünlədi, içərisində birdən-birə doğulmuş işıqlı nə vardısa sanki hamısını birdən amansızlıqla məhv elədi:

– Qapıma pənah gətirən bir qız haqqında gör nələr düşünürəm? Allahın yanında günaha batıram... Naxçıvanı xilas eləmək lazımdır. Naxçıvan taxtına yiyələnmək uğrunda hələlik qardaşım Cəfərqulu xanla Abbasqulu xan didişir. Xanlığa sahib çıxsalar da millətə sahib çıxan yoxdur. Naxçıvana ağıllı baş, uzaqgörən göz və milləti bir yerə yığan siyasət lazımdır. Naxçıvan yaranışdan başı bəlalar çəkib. Nəsillər gəlib gedib, lakin dinclik, sakitlik bu yerlərdən qaçaq düşüb. Torpağı qanla yuyulub, göz yaşı ilə suvarılıb. Görəsən bu torpağın taleyini tanrı niyə belə yazdı?

Naxçıvanın taleyini bəlkə heç tanrı özü yazmamışdı?

Çünki Arazın vadisində yerləşən Naxçıvanın novrağı XII əsrdən pozulmağa başladı. Naxçıvan sərhəddində osmanlılarla səfəvilər bir-birinə qan uddurdu. Bir-birinə güc gəlməyə çalışaraq Naxçıvanı qamarlamaq istədi. Bu gözəl məkanın üstündə döyüşlər, savaşlar bitib tükənmədi. Hansı qüvvətlənirdi ordusunu Naxçıvana çəkirdi, onu yağlı tikə kimi o birinin əlindən alırdı. Naxçıvanın üstündə döyüşlər, savaşlar da nə İranda, nə Türkiyədə gedirdi. Səfəvilərlə osmanlılar Naxçıvanı döyüş meydanına çevirir, məğlüb olan dağıdır, zəfər çalan talayırdı.

1554-cü ildə təzkirəçilərin yazdığına görə, osmanlılar on iki dəfə Naxçıvana hücum edib onu səfəvilərin əlindən çıxarmaq istədilər. Savaş Naxçıvana aid olduğuna görə də tarixdə bu yürüş "Naxçıvan yürüşü" adlanır. Lakin osmanlılar möhkəm dayanıb Naxçıvanı əldən verməldilər. Səfəvi şahı I Təhmasib türklərə uduzduğuna görə məğlubiyyətin acısını Naxçıvanın üstünə tökdü: daş-daş üstə qalmadı. Talandan sonra dağıdılmış yurdlar boş qucağını Sultan Süleymana açdı. I Süleyman zəmiləri buğdasız, teknələri çörəksiz görəndə qəzəbləndi. Ələ gətiriləsi, talan olası heç nə qalmamışdı. Aclıq atları da, əsgərləri də əldən saldı. Sultan Süleyman şəhərdən çıxmaq əmrini verdi. Türklər özlərindən nişanə məşəl kimi alovlanan şəhər qoyub getdilər.

Səfəvilərin taladığı, türklərin od qaladığı Naxçıvan yandı-yaxıldı, külü çıxdı.

Sultan III Murad I Sultan Süleymandan da qəddar və amansız oldu. Səfəvilərə məğlub olan sultan məğlubiyyətin acığını Naxçıvandan çıxdı. Bu kiçik, arxasız, köməksiz torpağın nəydi günahı? Nəydi günahı ki, III Murad döyüşdə uduzub qisasını səfəvilərdən yox, Naxçıvandan aldı, daşı daş üstə qoymadı, ağlar Naxçıvanın qırx min nəfər övladını da əsir apardı.

1590-cı ildə səfəvilərlə osmanlılar arasında müharibə ab-havası axır ki, yumşalmağa başladı. Sanki sultanlar, şahlar apardıqları ağılsız, səbəbsiz müharibələrin yalnız zərər gətirdiyini anladılar. Müharibələri dayandırmaq üçün səfəvilər Naxçıvanı osmanlılara güzəştə getdilər. Lakin Naxçıvanın sərt qışı özü ilə aclıq gətirdi. Soyuğa tablaşmayan, aclığa davam gətirməyən türk əsgərlərinin dizi qırıldı, sərt qış topsuz-tüfəngsiz döyüşərək onları məğlub etdi.

Zaman keçdikcə tarix yenə təkrarlandı: Naxçıvanın sahibi gah səfəvilər oldu, gah da osmanlılar.

Yenə qaliblər Naxçıvanı taladı.

Yenə məğlublar acığını Naxçıvandan çıxdı.

Qaliblərin tapdağı, məğlubların qılıncı altında inləyən, əzilən, lakin məhv olmayan yaşlı gözlərini silərək xarabalıqlar üzərində ayağa qalxan Naxçıvan öz üsyankar ruhu ilə yenə yaşadı...

* * *

Nadir şah Əfşar Səfəvilər dövlətinin sonuncu şahı oldu. Şah taxtına çıxana qədər o, şah ordusunda baş sərkərdə idi. Nadir xan orduda dəmir nizam-intizam yaratmışdı. Bu əzazil və qəddar adam artıq özünü qüvvətli və bacarıqlı sərkərdə olduğunu sübuta yetirmişdi. Onun hərbi istedadı İrana işğal olunmuş Ərdəbil, Təbriz, Xoy şəhərlərini yenidən qaytarmışdı. Türklər bu şəhərləri döyüşlə işğal etmişdilər. Şəhərlərin yenidən azad olunması Nadir xanın nüfuzunu artırdı və ona böyük etimad yaratdı. Bu elə bir vaxt idi ki, xalq və ordu şah II Təhmasibə ümidini itirmişdi. Şah Nadir xanın artan nüfuzundan qorxaraq, xalqın ümidlərini yenidən doğrultmaq, taxt-tacını qorumaq və möhkəmlətmək üçün daha bir təşəbbüs etdi: Nadir xanın köməyinə bel bağlamadan, orduya özü başçılıq edərək türklərlə savaşa girdi. Bu savaşda ümidləri yenə puça çıxdı. Nəinki İrəvanı və Naxçıvanı geri aldı, üstəlik İranın bir sıra şəhərlərini də əldən verərək türklərlə sülh müqaviləsi bağlamağa məcbur oldu.

II Təhmasibin məğlubiyyəti Nadir xanın taxt-taca yiyələnmək iştahını artırdı. Xalq fərasətsiz və qorxaq Təhmasibdən üz döndərdi. Bununla da şah sarayının möhtəşəm qapıları Nadir xanın üzünə açıldı. Xalq ona inandı. Lakin bilmədilər ki, onu taxta çıxarmaqla öz qara talelərini öz əlləri ilə yazdılar...

Nadir şahın hökmüranlıq etdiyi dövrdə aclıq, bahalıq, üsyanlar baş alıb getdi. Üstəlik hakimiyyət davası başladı. Və bütün bunlar onunla nəticələndi ki, şah qətlə yetirildi.

* * *

Nadir şah vahid Azərbaycan vilayəti yaratdı.

Lakin onun ölümündən sonra vilayət dağıldı, parçalandı. Azərbaycan on səkkiz xanlığa bölündü. Dini bir, dili bir olan bu xanlıqların başçıları bir-birini tanımaq istəmədi. Bir olmaq, vahid

düşmənə qarşı bir yumruq kimi birləşmək əvəzinə bir-birinə arxa çevirdi, bir-birinin başını əzmək, məhv etmək, torpağa sahib olmaq üçün bir-birinə qanlı düşmən kəsildilər. Düyünlənən yumruqlar millətin başına dəydi. Ağılın kütlüyü, nəfsin itiliyi yumruqları düşmənin başına vurmağa imkan vermədi.

* * *

...On səkkiz xanlığın içində tanrı sanki Naxçıvanı seçib ona xüsusi gözəllik bağışlamışdı. Ətəyinə Araz çayı baş qoymuşdu. Döşündən can dərmanı olan bulaqlar axırdı. Başının üstündə əbədi qalalar – əbədi dağlar vardı. Qışı sərt, baharı gül-çiçək yağışıydı.

Qərbi Azərbaycan torpaqlarının çoxu Naxçıvan xanlığının payına düşmüşdü. Şimal-şərqdən Dərələyəz dağları, cənub-şərqdən İlanlı dağ, şimal-qərbdən isə Böyük və Kiçik Ağrı dağları çiyin-çiyinə verərək taleyi ağrılı, tarixi qalmaqallı bu kiçik məmləkəti ovcunun içinə almışdı.

Naxçıvan İrəvan, Xoy, Maku və Qarabağ xanlıqları ilə qonşu idi. Naxçıvan çay, Əlincə çay, Gilan çay qan damarları kimi onun ürəyinin içindən axıb gedirdi. Urlusçay, Vənəndçay, Nükədiçay, Ordubadçay əkin-biçin işinə yarayırdı. Salvartı dağlarından axıb gələn Naxçıvançay isə Araza qarışırdı.

* * *

...İran şahlığından ayrılıb müstəqil xanlıq olan Naxçıvan yeni həyata qədəm qoydu. İllərlə İran şahlığından başı bəlalar çəkən, dağılan, yenidən qurulan Naxçıvan azad nəfəs aldı. Daha bu torpağa yadlar ayaq qoymayacaq, top-güllə səsləri eşidilməyəcəkdi. Xanlığın ilk başçısı Heydərqulu xan başa düşürdü ki, bunun üçün Naxçıvan kürəyini daha güclü xanlıqlara söykəməsə, özünə arxa tapmasa yenə də yaxasını ya osmanlı türklərinin, ya da İran farslarının əlinə verəcək. Buna görə də Heydərqulu xan on yeddi xanlığın içində yalnız Qarabağ xanı Pənahəli xanı güclü və qüdrətli bildi. Ona ürək qızdırdı. Pənahəli xanla görüşəndə dostluğunu təklif etdi. Pənahəli xan şəkili Çələbi xanla döyüşə gedəndə Heydərqulu xan da öz qoşunu ilə ona köməyə getdi.

Çələbi xan güclü çıxaraq Pənahəli xanı məğlub etdi. Bu məğlubiyyət ağıllı və tədbirli Heydərqulu xanı düşünməyə, yollar axtarmağa vadar etdi: Naxçıvan özü öz müdafiəsini möhkəmlən-











dirməli, xəzinəsini artırmalıdır və Heydərqulu xan yenidən ayaqları üstə qalxan Naxçıvanın dirçəlişi üçün çox iş gördü. (Heydərqulu xandan yadigar Şəkərabad körpüsü qaldı).

Heydərqulu xanın vəfatından sonra Naxçıvan xanlığı əldən-ələ keçdi. Onu Heydərqulu xanın oğlu Rəhim xan, qardaşları Əliqulu xan, sonra isə Vəliqulu xan idarə etdi. Lakin gündən-günə çiçəklənən, gözəl diyara çevrilən Naxçıvan xanlığı qonşuların yuxusuna haram qatdı. Onlar hiylə və məkrlə yavaş-yavaş öz hörümçək torlarını qurmağa başladılar. Tərəflər gizlicə bir-biri ilə mübarizə apararaq Naxçıvan xanlığının taxtına öz adamını çıxarmaq və onun köməyi ilə xanlığa yiyələnmək istəyirdi. İrəvan xanı Hüseynəli xan, Qarabağ xanı İbrahimxəlil xan, Kartli-Kaxeti çarı II İrakli Abbasqulu xanı, Xoy xanı Əhməd xanı isə Cəfərqulu xanı taxta çıxarmaq istəyirdi. Birinci tərəf güclü olduğundan Abbasqulu xan irəli çıxdı və Naxçıvan xanlığının başçısı oldu. Lakin xanlığı uzun müddət idarə etmək ona qismət olmadı. Abbasqulu xanın taxta çıxmasından və sözünün yerə düşməsindən qəzəblənmiş Xoy xanı Əhməd xan ordusunu Naxçıvanın sərhəddinə gətirdi. Abbasqulu xanı axıra qədər müdafiə etməyi qərara alan İrəvan xanı Hüseynəli xan da savaşa hazırlaşdı. Lakin gözlənilən tufan qopmadı – Hüseynəli xan nədənsə döyüşə girməkdən ehtiyat edərək ordusunu geri çəkdi. Naxçıvanlılar isə zülümkarlığı ilə ad çıxarmış Abbasqulu xanı taxtdan saldılar. Abbasqulu xan onu müdafiə etməyən naxçıvanlılara ürəyində kin bəslədi. Yenidən hakimiyyətə qayıtmaq ümidi ilə Kartli-Kaxeti çarına pənah apardı. Ürəyində qisas havası, başında hakimiyyət davası...

İranda isə Cəfərqulu xanın xeyrinə mühüm hadisələr baş verdi. İran şahı Kərim xan Zənd dünyasını dəyişdi. Əlimurad xan İranın qanuni şahı kimi hökmlər çıxarmağa başladı. Hətta siyasətdə daha irəli gedərək Osmanlı Türkiyəsi ilə müharibəyə başlamaq üçün rus çarından kömək istədi. Bunun əvəzində isə uşaq başı aldadırmış kimi İrana heç bir aidiyyatı olmayan Qarabağı, Naxçıvanı və İrəvanı Rusiyaya güzəştə getməyi vəd etdi.

Qeyri-qanuni şah Naxçıvan xanlığının başçısını da təyin etdi. Bu Əhməd xanın müdafiə etdiyi Cəfərqulu xan idi.

3

...Öylə namazından sonra Hacı Əbülqasımın karvansarasının çayxanası yavaş-yavaş adamla dolmağa başladı. Özgə

vaxtlarda burada ancaq karvansaranın öz müsafirləri olardı. Uzun yol gəlmiş dəvələr karvansaranın arxa tərəfində dizləri üstə bükülər, atlar yorğun-yorğun ot kövşəyərdi. Müsafirlər isə çayxanada çayçı Rəcəbin dəmlədiyi xoruzquyruğu çaydan ləzzətlə içər, yolun yorğunluğunu məmnunluq hissi ilə canlarından çıxarardılar. Tacirlərin uzaq ölkələrdən daşıyıb gətirdikləri növbənöv, çeşid-çeşid mallar sıra ilə düzülmüş dükanlara doldurulardı. Bu mallara çoxlu gömrük qoyulsa da tacirlər əliboş gəlmirdilər, çünki, Naxçıvandan, Ordubaddan apardıqları mallar onlara çoxlu mənfəət gətirirdi.

Amma neçə gün idi ki, müsafirlər görünmürdü. Sərbazlar vergi yığmağa başlayan kimi müsafirlər də yoxa çıxmışdı. Çünki bu vergi çox talan idi və çox güman ki, onun bir zərbəsi də uzaq ölkələrdən gəlmiş tacirlərə dəyirdi.

Şəhərin dördkünc bazar deyilən yerində Hacı Əbülqasımın karvansarasından savayı daha iki karvansara vardı. Şəhərin başqa yerlərində əlavə iki karvansara da vardı. Lakin nədənsə adamlar söhbətləşmək üçün Əbülqasımın karvansarasındakı çayxananı seçirdilər.

...Salavat soyumuş çaydan bir qurtum alıb qızarmış gözlərini qıydı, əlini dizinə çırpıb başını buladı:

– Sərbazlar yorğan-döşəyimizə qədər yığışdırıb apardılar. Bir yorğanı sərbazın əlindən zorla almışam. O çəkib özünə, mən çəkmişəm özümə.

– Onu neynirlər, Salavat? – Feyzullah qorxa-qorxa soruşdu – bundan belə yorğan-döşək də yığacaqlar?

– Belə od olar düşmüşük? Tüstü pulu, toy pulu, saqqal pulu... Gör nəyin vergisini alırlar? – Salavat yanıb yaxıldı.

– Bəyəm saqqala da vergi qoyublar, Salavat?– Feyzullah əlini qorxu ilə qapqara saqqalına çəkdi – vergi qoyublarsa sabahdan ləğv eləyim. Bir halda ki, saqqalın da vergisi var, mən imtina elədim o saqqaldan.

– Əşi, sən Allah, biz nə hayda, sən nə hayda?

Ələmşah ah çəkib əlini tay gözünün üstə qoydu:

– Allahına şükür elə, Feyzullah. Şükür elə ki, göz çıxartmırlar – Ələmşahın elə bil yumulmuş göz qapağının altı sızıldadı – Nadir şahın vaxtında vergini ödəyə bilmədim. O vaxt da göz çıxartmaq şallaq çəkmək kimi bir şey idi. Şah elə qərar vermişdi. Sərbazlar çəkdilər məni meydana. Gözləri çıxanların çığırtısı-bağır-

tısı meydanı götürmüşdü. Özü də iki gözü çıxarırdılar. Fərasətli tərpəndim. Məni aparan sərbaza bir inək vəd eləyib gözümün birini saxlatdım.

– Bu həmin çıxan gözdü? – Salavat soruşdu.

– Yaxşı ki, birini saxlatmısan – Feyzullahın ona ürəyi yandı.

– Yoxsa indi mən neyniyərdim? Uşaqlarım qalardı ac-susuz. Amma mənim də ahım Nadir şahı tutdu. Üç gün keçməmiş onu yatdığı yerdəcə öldürdülər. Başını kəsdilər. And olsun Allaha, yoxsa hələ çox gözləri kor qoyacaqdı. Allah dedi ki, sən kimsən ki, gözlü yaratdığım bəndəmin gözünü çıxarırsan?

– Heydərqulu xanın vaxtında keyf elədik ha... Bu İran sərbazlarının birinin də ayağı Naxçıvana dəymədi – Feyzullah qaynar çaydan bir qurtum aldı. Çay dilini-dodağını yandırdı.

– Cəfərqulu xan Naxçıvanın qapılarını açıb farsların üzünə. Tala ha taladı. Deyirlər dünən əsir gedənlərdən iki nəfər qaçıb. Bir oğlan, bir qız. Oğlanın qeyrəti yol verməyib ki, naxçıvanlı qızı İrana əsir aparsınlar. Cəfərqulu xan elə bil bu millətə düşmən kəsilib. Hakimiyyətdə qalmaq üçün qapıları açıb sərbazların üzünə. Xoylu Əhməd xana arxalanır. Əhməd xanın umacağı olmasa müdafiə eləyər Cəfərqulu xanı? – Ələmşah hirslə dedi.

– Mənim fikrimcə Kalbalı xan Cəfərqulu xandan və Abbasqulu xandan dəyərlidir. Əgər Naxçıvan xanlığının başında o dayansaydı millət belə zülüm çəkməzdi. İgid, mərd adamdır, Kalbalı xan. – Salavat Feyzullahın sözünü kəsdi:

– Abbasqulu xanla Cəfərqulu xan hələ taxt üstündə bir-biriylə didişir. Eşitdiyimə görə Abbasqulu xan Tiflisə gedərək İraklinin qoltuğuna sığınıb.

– Əşi, Salavat sən heylə incə şeyləri bilməzsən, Abbasqulu xan bic adamdır, o istəyir İraklinin köməyi ilə urusların ətəyindən yapışsın. Çünki İrakli uruslarla ittifaq bağlayıb. Uruslar onun arxasında dayanır.

– Ələmşah, bunları sən hardan bilirsən? – Salavat təəccüblə soruşdu.

Ələmşah həvəsləndi, bildiklərini bir nəfəsə dedi:

– Qarabağ xanı ilə İrəvan xanı da ki, müdafiə eləyir ha Abbasqulu xanı, onların da gözü bu torpaqdadır.

– Görəcəkli günlərimiz varmış... Millət dil bir olub Kalbalı xanı gətirsin hakimiyyətə.

– Bu xəmir hələ çox su aparacaq, Salavat.

– Ona görə də mən Kalbalı xanın tərəfindəyəm.

Ortalığa çökmüş sükut sanki həzin bir ağrıya bükülərək ürəklərinin içini göynətdi. Bu anda Hacı Əbülqasım içəri girdi. Təlaşla dedi:

– Sərbazlar karvansaranı alt-üst elədi. Qaçanları axtarırlar.

Salavat əlini tanrıya açdı:

– İlahi sən onlara kömək ol. İlahi sən zülümkarın qapısını bağla ki, o başqasını əziyyət və iztiraba salmasın...

4

Abbasqulu xan knyaz sarayına ayaq qoyandan çar İrakli Abbasqulu xana hiss elətdirmədən hiylə və məkirli dünyasının qapısını gizlicə açdı. Saatlarla özü ilə təkbətək qaldı, bu məkirli, hiylə dolu dünyadan arzularına çatmaq, xəyallarına yetmək üçün yollar aradı. Sanki içindəki qoca şeytan onun nəfsini qıcıqlandırdı, iştahasını itilədi: "Naxçıvanı işğal etmək üçün bundan yaxşı fürsət yoxdur. Cəfərqulu xanla Abbasqulu xan bir-birinin tükünü didir, qüvvədən düşür, zəifləyirlər. Fürsətdi... fürsətdi...

İrakli istehza qarışıq kinayə ilə qımışdı. Dodaqlarının ucunda zəif təbəssüm görünüb yox oldu: "Abbasqulu xan, mən burda sənin başını sığallayıram. Özümü sənə yaxın dost göstərirəm. Naxçıvanda sənin tərəfdarların Cəfərqulu xanı taxtından salmağa çalışırlar... Çox sadəlövhsən Abbasqulu xan. Mən 1783-cü ildə Rusiya ilə Georgevsk müqaviləsini bağlayıb onun himayəsinə keçdim. Bunun üçün mənə pənah gətirmisən. Məni özünə dost bilirsən ha... ha... Sən mənim niyyətimi çox gec başa düşəcəksən, Abbasqulu xan. O vaxt ki, Naxçıvan torpaqları gürcü torpaqlarına qarışacaq...".

Knyaz İraklinin uzunsov, zəhmli sifətində gülüş yox oldu. Qaşları düyünləndi. Naxçıvandan aldığı məktubu xatırladı. Məktubda yazılmışdı: *"Çar həzrətləri II İrakliyə salamlarımızı və dualarımızı yetirməyi özümüzə borc bilirik.*

*Tanrı həmişə başınızın üstündə olsun və onun kölgəsi sizi daim düşmənlərinizdən qorusun.*

*Sizin ürəkyumşaqlığınıza inanaraq yoxsul əhali hər gün Naxçıvanı tərk edir və bizim Abbasqulu xanın yanına gəlirlər. Onu müdafiə etdiyiniz kimi bizi də nəzər diqqətdən qoymayacağınıza inanırıq. Cəfərqulu xan bizi ölümə verir, evlərimizi isə talayır. Biz onun fikrini bildikdən sonra Abbasqulu xanın tərəfinə keçdik.*

*İmza: Naxçıvan əhli".*

İrakli fikrə getdi: Deməli, Naxçıvanda xanlıq taxtı uğrunda qan tökülür. Düşmən yaddan çıxıb. Düşmən isə başlarının üstündə hazır. Lap elə xoylu Əhməd xan... Naxçıvan torpağında gözü yoxdurmu? Yoxdursa niyə Cəfərqulu xanı müdafiə eləyir? Ordan Abbasqulu xanın arxasında dayanan Qarabağ xanı İbrahimxəlil xan... O, mənimlə birləşib Naxçıvanı işğal etmək və bu yağlı tikəni bölüşdürmək istəyir.

Amma yox. Knyaz ağıllıdır, uzaqgörəndir. Kartli-Kaxeti çarlığının bir ovuc torpağı var. Naxçıvan diyarı isə ucsuz-bucaqsızdır. Bu torpağı təkcə özü işğal edəcək. Rəqiblərinə fürsət verməyəcək". Knyaz öz fikrini rus imperatoruna da bildirmişdi: **"Azərbaycana sahib olmaq Rusiya üçün çox əlverişlidir. Onu işğal edin, əvəzində isə Naxçıvan xanlığını mənə güzəştə gedin"...**

Knyazın sifətinin sərt cizgilərini də xəsisliklə görünən gülüş yumşaltdı: "Azərbaycan xanlıqlarının başçıları mənə inanırlar. Rusiya dövlətinə arxalandığım üçün mənə həsəd aparırlar. Onlar bunun üçün mənimlə məsləhətləşir, dostluq etməyə çalışırlar. Sadəlövhlər... Mən Gəncənin, Naxçıvanın, İrəvanın hakimi olanda o zaman II İraklinin ağıllı siyasət yeritdiyini başa düşəcəklər.

Yox mən nə Abbasqulu xanı müdafiə eliyirəm, nə də Cəfərqulu xanı. Qoy didişsinlər, al qana qəltan olanda, zəifləyəndə, qüvvədən düşəndə Naxçıvanı işğal etmək asan olacaq..."

İrakli məmnun halda gülümsünərək pəncərənin qarşısına gəldi. Ona elə gəldi ki, bir fateh duyğusu, qalib ədası ilə ayağının altında Naxçıvan torpağını hiss elədi. Sərhədlərini genişləndirmiş, qüvvətlənmiş gürcü torpağının qüdrətli nəfəsini duymuş kimi oldu. Canında çılğın bir sevincin, döyüşdən qalib çıxmış cəngavərin gücünü hiss etdi. Ona elə gəldi ki, qayalıqlarda, təpələrdə yurd salmış gürcü evlərini yox, Naxçıvan xanlığının möhtəşəm qalasını görür. Heç kəsə bəlli olmayan, ürəyinin içində hələ gizli-gizli qaynayıb daşan sevinci, həyəcanı yalnız özü yaşayırdı. Xanlığın işğalından sonra isə bu sevinci bütün Kartli-Kaxeti çarlığı yaşayacaqdı...

* * *

Knyaz sarayında Abbasqulu xanın şərəfinə ziyafət verilirdi. Abbasqulu xan şad və məmnun görünürdü. Onun yaraşıqlı sifətində, iri, qara gözlərində sanki ürəyini coşduran, duyğularını təlatümə gətirən işıqlı bir fərəh vardı. Hərdən gözlərini dərin bir nəşə içində yumaraq gürcülərin oxuduğu mahnıları dinləyir, sözlərini başa düşməsə də ona elə gəlirdi ki, bu mahnıların coşqun sədasında bütün Naxçıvan əhli onun ayağına gəlir. Qüvvətli, qüdrətli əllər onun qolundan tutaraq xanlıq taxtına əyləşdirirdi.

Knyaz İrakli işıqda qıpqırmızı billur kimi bərq vuran şərab dolu badəni yuxarı qaldıraraq Abbasqulu xanı şirin röyasından-xəyalından ayırdı:

– Abbasqulu xan, badəni qaldır, nəyi gözləyirsən?

– Çar həzrətləri, Allah bizə şərabı haram buyurub– qara saqqalını tumarlayıb, knyazın qəlbinə dəyməkdən qorxurmuş kimi fağır baxışlarını onun üzünə dikdi.

– Lakin bura gürcü torpağıdır – İrakli incik səslə dedi və badəni yerə qoydu.

Abbasqulu xan üzünü ondan çevirərək qorxaq, titrək səslə dedi:

– Allah hər yerdə müsəlmanın başı üstədir.

Knyazın kinayəli gülüşü gözəgörünməz güllə kimi Abbasqulu xanın ürəyinə dəydi:

– Müsəlmanlar bir-birinin qanını tökəndə də Allahı başlarının üstə görürlər?

Abbasqulu xanın yaraşıqlı sifəti dəyişdi, o, xəfifcə gülümsünüb qara saqqalını tumarladı:

– Müharibə Allahı daim insanların içində vurnuxur. Müsəlmanla xaçpərəstə fərq qoymur. Siz də, biz də Allahımızın quluyuq. Əgər o sizə şərab içməyə izin verirsə, bizə qadağan edir. Biz onun işlərinə qarışa bilmərik. Biz peyğəmbərimizin bizə müəyyən etdiyi yoldan kənara çıxa bilmərik, çar həzrətləri.

Çar İrakli onun sözlərini səbrlə dinləyib birdən hiddətləndi. Hirslə badəni başına çəkdi və əlinin arxası ilə dodaqlarını silib Abbasqulu xanın gözlərinin içinə baxdı:

– Abbasqulu xan, mənə elə gəlir ki, bu an, bu saat, bizim Allahımız rus padşahıdır. Kraliça II Yekaterinadır. O, Allahın yerdə bizə göndərdiyi elçisidir. Biz onun himayəsinə sığınmalı, kö-

məyi ondan almalıyıq. Kartli-Kaxetiya rusların sayəsində rahat yaşayır. Müharibələrdən və talanlardan çariça bizi qoruyur.

– Düz deyirsiz knyaz həzrətləri. Naxçıvanda indi vəziyyət çox pisdir. Cəfərqulu xanın zülmü ərşə dayanıb. Dünən xeyli adam onun zülmündən qaçaraq mənim yanıma gəlib. Biz sizdən də, rus padşahından da kömək gözləyirik.

Knyazın uzunsov, seyrək qısa saqqallı sifətinə, ifadəsiz göy gözlərinə məkirli, hiyləgər bir gülüşün işığı düşdü. Gülümsünüb astadan dedi:

– Mən II Yekaterinaya məktub yazmışam – knyaz gözlərini yumub sanki məktubu oxuyurmuş kimi əzbərdən dedi: – *"Dəhşətli qaçqın vəziyyətində olan naxçıvanlı Abbasqulu xan bizdən xahiş edir ki, biz ona mülkiyyətinə qayıtmağa kömək edək və o, imperatriçaya tabe olacağını bildirir"*. Elədirmi, Abbasqulu xan?

– Çox düz buyurmusuz, çar həzrətləri. Mən ruslara, rus padşahına canla-başla xidmət edəcəm. Sizə də borclu qalmaram.

– O halda bu şərab badəsini imperatriçanın sağlığına iç.

Abbasqulu xan tərəddüdlə badəni götürdü, göyə baxıb dodağının altında nə isə dedi, sanki kimdənsə əfv dilədi, sonra gözünü yumub şərabı axıra qədər içdi. Çeçədi, öskürdü, sonra da əlini sinəsinə qoyub başını əydi:

– Rus padşahının şərəfinə zəhər də içərik.

Knyaz ikinci badəni də süzdü:

– Mən Gürcüstandakı rus qoşununun komandanı Burnaşevə də məktub göndərmişdim ki, Abbasqulu xanı Naxçıvan taxtına çıxarmaq üçün qoşun toplamağa icazə versin.

– Nə oldu, icazə verdimi? – Abbasqulu xan təlaş və intizar içində soruşdu.

– Burnaşev cənabları etiraz etmir. Çünki mən ona bildirmişəm ki, sən Naxçıvanın hakimi olan kimi Rusiyanın himayəsinə keçəcəksən. Mən ondan icazə alıb Şəmsəddin, Xəzani, Pəmbək və Dəmirçi Həsəndən dörd min nəfərdən çox azərbaycanlı toplamışam. Naxçıvana hərbi yürüşdə Qarabağ xanı İbrahimxəlil xan da öz qoşunu ilə iştirak edəcək.

– Qarabağ xanı mənim ən etibarlı arxamdır – sevinc içində çırpınan, göylərdə quş qanadında özünü hiss eləyən Abbasqulu xana elə gəldi ki, bu anda Naxçıvan taxtının sahibidir və Cəfərqulu xandan intiqam almağın məqamı yetişib. O, bilaxtiyar gü-

lümsədi. Bu gülüş onun içindəki nigarançılığı, təşvişi, qorxunu, ümidsizliyi sıxıb çıxardı.

Knyaz onu nifrət qarışıq kinlə, qəzəblə süzdü: "Axmaq, səfeh adam. Bu ağıllamı Naxçıvanın xanı olmaq istəyirsən? Qarabağ xanı sənin başını sığallayır, üzünə gülə-gülə ayağının altını qazır. Mənim kimi o, da gecə və gündüz Naxçıvanın işğalı barədə düşünür. İran və Türkiyə kimi iri dövlətlər zaman-zaman bu torpağı işğal etmək, bir-birinin əlindən almaq üçün qanlı döyüşlər aparıb. İndi biz kiçik məmləkətlər hiylə və siyasətlə onu işğal etmək istəyirik".

Knyaz xəyallandı: Naxçıvan... yuxusuna haram qatan, rahatlığını, dincliyini əlindən alan gözəl məmləkət. Onu ram etsəydi, İrəvan xanlığını Gürcüstan torpaqlarına qatsaydı onda vətəni gör necə qüdrətli, möhtəşəm olardı. Qüvvətlənən ordu, varlanmış, güc toplamış dövlət, aşıb daşan xəzinə... Gürcüstan çarlığı qərbdən şərqə hökmüran olardı... onda...

Knyaz əlçatmayan, ünyetməyən xəyalların dumanlı, çiskinli uzaqlığından sanki Abbasqulu xana boylandı: "Abbasqulu xan yaxşı ki, bizim iç dünyamız qapalıdır. Yaxşı ki, iç dünyamızın ağası, hökmüdarı özümüzük. Kimsə ora ayaq basa bilməz, kimsə duyğularımıza mərhəm ola bilməz. Eləcə də sən Abbasqulu xan"...

Bu anda knyaza yaxınlaşıb qulağına nə isə pıçıldadılar. Knyaz getdi və Abbasqulu xanı çağırdılar. Naxçıvandan çapar gəlmişdi. Gətirdiyi məktubu Abbasqulu xana verdi. Xan intizar içində səbrsiz məktubu açdı. Məktub yaxın dostu Şükurulla xanın oğlu Qara bəydən idi. Bəy pozuq fars əlifbası ilə yazmışdı: *"Salam olsun Abbasqulu bəyə.*

*Yazaraq sizə məlum edirəm ki, Naxçıvanda qarışıqlıqdır. Biz öz tərəfdarlarımızla Hacı Dəmir və Cari qalalarını ələ keçirdik. Cəfərqulu xan məğlub olmaq üzrədir. Səni gözləyirik.*

*İmza: Qara bəy".*

Abbasqulu xan gözlərinə inanmayaraq məktubu sətirbəsətir həyəcan içində təkrar oxudu. Qəfləti xəbər sanki onun içini altüst etdi. Həyəcandan, çılğın sevincdən əlləri əsdi, dizləri titrədi, ürəyi uçundu. Onunla üzbəsurət dayanan və cavab gözləyən knyazı qucaqlamaq, boynuna sarılmaq, hönkürtü ilə ağlamaq istədi. Amma onun donuq, sərt sifətini, qızarmış gözlərini görən-

də udqundu, özünü yığışdırdı və Qara bəyin məktubunu dinməzcə ona uzatdı.

...Lakin Abbasqulu xanın əli yenə Naxçıvan taxtına çatmadı. Çünki köməyə çağırılan İrəvan xanlığının başçısı Hüseynəli xan döyüş meydanına özünü çox gec çatdırdı. Abbasqulu xanın özü Qara bəyin dəstəsi ilə birləşəndə isə artıq yubanmışdı.

Cəfərqulu xan döyüşə davam gətirməyərək aradan çıxdı. Şükurulla xan əmin-arxayınlıqla boş qalmış xanlıq iqamətgahına ayaq basdı və taxta yiyələndi... Kim bilir, bəlkə də bu Naxçıvan xanlığının taxtına göz dikmiş Şükurulla xanın hiyləsi idi. Beləliklə, o, Naxçıvan xanlığını iki il– 1785-dən 87-ci ilə qədər idarə etdi. Lakin Cəfərqulu xanla Abbasqulu xan arasında taxt uğrunda mübarizə yenidən başlandı və Şükurulla xanın hökmüranlığına son qoyuldu.

5.

1787-ci ilin may ayı.

Gəncədən qayıdan İbrahimxəlil xan atının başını Naxçıvana döndərdi. Sürətlə, dayanmadan gedən suvarilərin başı üstə yaz günəşi şəfəq saçırdı. Naxçıvana yaxınlaşdıqca sanki yaz günəşinin istisi-hərarəti bir az da artır, kürə kimi alovlanırdı. Torpaq istini canına çəkərək, gecə yarısınadək havanı bürkülü saxlayırdı.

...İrəlidə gedən, atın üstündə şahanə oturmuş İbrahimxəlil xanı günəşin istisi, yolların uzaqlığı yorsa da görünüşündə bir məmnunluq, özündən müştəbehlik vardı. Sanki bu anlarda onun könlündə dünyanı ovcuna yığıb yumruq kimi bükmək, özünə ram etmək iddiası vardı. Tamahı, iştahı xanı Naxçıvana qovurdu. Çünki Gəncədə qüvvəsini, qüdrətini göstərib taxta Cavad xanı çıxarmışdı. İndi də arxayınlıqla ordusunu çəkib Naxçıvana aparırdı. Burda yenə taxt üstündə didişmə başlanmışdı. Cəfərqulu xan Şükurulla xanı taxtdan salıb hakimiyyətə yiyələnmişdi. İbrahimxəlil xan isə Abbasqulu xanı taxta çıxarmaq istəyirdi...

...Göylərin bir tərəfində sanki qalanmış ocağın son həniri, son şöləsi qaldı. Elə bil qaralmış kösövlərin qaranlığı yavaş-yavaş buludların üstünə çökdü. Lakin kösövlərin altı hələ də alovlanırdı. Bu alovun şöləsi qaralmış buludların altını narıncı közlə örtdü.

...İbrahimxəlil xan əsgərlərə dincəlmək əmri verdi. O anda qoşun dayandı. Əsgərlər çadırları qurmağa başladılar. Çox keçmədi ki, ocaqlar qalandı, aşbazlar işə başladı.

İbrahimxəlil xan öz çadırında dincəlirdi. İpək döşəkçələrin üstdə oturub kürəyini mütəkkəyə söykəmişdi. Gözləri yarıyumulu idi. Sanki xan kirpiklərini qapayaraq öz içinə çəkilmişdi, qazanacağı zəfərdən ruhlanaraq arxayın halda indidən o anı yaşayırmış kimi sifətini xoşhal bir ifadə bürümüşdü.

Bayırda isə süvarilər çöllü-biyabanda necə gəldi ətrafa səpələnmişdi. Təkcə çadırı qoruyan nəzarətçilərdən başqa. Süvarilər ac və yorğun idilər. Günlərlə at belində olduqlarından ayaqları, dizləri sızlayır, gözlərindən yuxu tökülürdü. Xan çadırından xeyli aralıda isə bir dəstə əsgərin pıçıltısı eşidilirdi. Qarayanız, arıq cavan səsini bir az da alçaldıb əlini yellədi:

– Xan bizi nahaq Naxçıvana aparır. Elə bilirəm ki, əlimiz ətəyimizdən uzun qayıdacağıq.

– Əşi bizə nə? Naxçıvanın hakimi Cəfərquludur, ya Abbasqulu? – başqa süvari onun sözünə qüvvət verib ətrafı ehtiyatla süzdü.

– Sus,– üçüncü süvari onun kürəyindən ərklə vurdu – istəyirsən ki, İbrahimxəlil xan bu sözləri eşidib dərimizə saman təpsin? Biz belə şeylərə qarışa bilmərik. Bizim başımızın ağası göydə Allah, yerdə isə İbrahimxəlil xandır. Əgər İbrahimxəlil xan Abbasqulu xanın taxta çıxmasını istəyirsə biz bu yolda başımızı qoymalıyıq... Bir də... burda xanın mənfəəti var. Bu torpaqdan umacağı var... Mən eşitdiyimə görə xoylu Əhməd xan bizim Naxçıvana yürüş etməyimizə razı deyil. O, xana məktub yazıb ki, nəbadə Naxçıvana üz tutasan. Yaxşısı budu ki, qoşunu çək Təbrizə, burda birləşib Təbrizi işğal eliyək – qarayanız süvari başını aşağı əyib bildiklərini bir nəfəsə dedi. Sonra xan çadırına tərəf boylandı. Nəzarətçilər əllərində tüfəng çadırın ətrafında dolaşırdılar. Yaxınlıqda kimsə yoxdu.

– Bunları sən hardan bilirsən Seyid Səməd?

– Bunu, deməzlər Əbdül Qafar.

– Axı Təbriz hakimi Əhməd xanın doğma bacısı oğlu deyilmi?

– Bəli, Əhməd xan Təbriz hakiminin dayısıdır, Əbdül Qafar.

– Ey gidi dünya – Əbdül Qafar əlini dizinə çırpdı-dayı bacıoğluya güllə atır, sərvətinə göz dikir.

Seyid Səməd Əbdül Qafarın çiyinlərindən tutub onu möhkəm silkələdi. Əbdül Qafar zorla onun əllərini çiyinlərindən götürüb hirslə ucadan dedi:

– Əşi, boğdun ki, məni.

– Səni qəflət yuxusundan oyatmaq istədim. Ey dünyadan bixəbər Əbdül Qafar. Nadir şah səltənətinə yiyələnməsin deyə doğma oğlunun gözünə mil çəkdirmədimi? Cəfərqulu xanla Abbasqulu xan da doğmaca əminəvəsidir. Amma hakimiyyət üstündə bir-birinin qanına yerikləyirlər.

Əbdül Qafar xeyli düşündü. Başını qaldırıb şam yeməyi paylayan aşbazları izlədi. Sonra pıçıltı ilə dedi:

– Mən biləni bu dəfə Abbasqulu xan taxta yiyələnəcək. Çünki onun arxasında İbrahimxəlil xan dayanıb. Özü də Abbasqulu xanın açmadığı qapı qalmayıb. Urusdan, gürcüdən belə.

– Əşi bizə nə. Durun getdik, xörək paylayırlar. Bir-iki saatlıq da yuxu payımız var – Seyid Səməd ayağa qalxdı.

...Şam yeməyindən sonra İbrahimxəlil xanın çadırında məşvərət başlandı. Xan qoşun başçılarına sərt bir nəzər salıb ağır-ağır dedi:

– Əslində ruslar xanlıqların qüvvətlənməsini istəmir. Eləcə də Qarabağ xanlığının. Ruslar bizim Naxçıvana yürüşümüzdən xəbər tutublar. Guya bizim özbaşına hərəkətimiz onları çox qəzəbləndirib. Buna görə də polkovnik Burnaşov Xoy və Urmiya xanlarına məktub göndərib ki, Qarabağ xanı Naxçıvana hücum edərsə onların hər ikisi Naxçıvanın müdafiə olunmasında Cəfərqulu xana kömək eləsinlər.

– Elə belə də deyib?– qoşun rəisi təəccüb və qorxu ilə soruşdu.

– Dəqiq məlumatdı. Belə başa düşürəm ki, Cəfərqulu xan onlardan kömək istəyib. Mən Kartli-Kaxeti çarı knyaz II İrakli ilə Naxçıvana hücum barədə məsləhətləşmək istədim. O, da Abbasqulu xanın tərəfdarıdır. Bilirəm ki, umacağı var, ona görə. Gürcü çarı çox bic siyasət yeridir. Amma ruslarla ittifaq bağlayandan knyaz çox dəyişib, özünü elə aparır ki, elə bil alçaq dağları özü yaradıb. Daha demir ki, rusların kölgəsində yatır, amma elə güman eləyir ki, öz kölgəsidi. Çünki xanlıqların başçıları ona yaranır, onunla hesablaşır. Amma mən İbrahimxəlil xan gürcü çarına əyilmirəm. Təkbaşıma Naxçıvana qoşun çəkirəm.

– Amma xan – qoşun rəisi ehtiyatla dedi:– Naxçıvandan qayıdanda gərək özümüzlə çoxlu mal-heyvan da götürək. Çünki Təbriz uzaqdır, əsgərləri yedirtməyə ərzağımız yetməz.

– Mən də elə düşünürəm.

Xeyli məşvərətdən sonra mənsəb sahibləri getdi. İbrahimxəlil xan tək qaldı.

Çöllük sakit və səssiz idi. Təkcə nəzarətçilər oyaq idi. Addım səsləri gah yaxınlaşır, gah da uzaqlaşırdı. Yatağına girsə də İbrahimxəlil xanın yuxusu gəlmədi. Gözlərini çadırın qapısından görünən ulduzlu göylərə dikdi. Bircə anlığa ona elə gəldi ki, süvariləri ilə yeri fəth edib indi də ulduzlu göylər səltənətinə at çapırlar. Qılıncları ilə ulduzları zəmi kimi biçib, daş-qaş kimi qoyun-qoltuqlarına yığırlar...

Çadırın yanından pıçıltı səsi gəldi, sonra at fınxırtısı, nal səsləri gecənin içinə doldu. Xan qəfildən ürəyinə düşən xaldan diksindi, bircə anda sanki ürəyinin içinə qədər şaxta vurdu, gözlərinin içi buz bağladı. Ayaqlarının ucunda çadırın qapısına yeridi, titrəyən əli ilə pərdəni gizlicə araladı. Çadırın ətrafında gəzişən sadiq adamını görəndə toxtadı, əlini ürəyinin üstə qoydu, sonra yatağını açıb yerinə girdi. Yatağından müşk-ənbər iyi gəlirdi. Xan ürəyində kəlmeyi-şəhadətini oxusa da oyanmış narahat, nigaran duyğuları halal yuxusunu gözünə yaxın qoymadı.

...Yaz gecəsi çadırın içini də çöllərin, yamacların çiçək qoxusu ilə doldurdu. Xanın duyğuları yaz seli kimi coşsa da şübhələr, gümanlar bu yaz selinin axınını lilləndirdi: Xoylu Əhməd xan niyə Naxçıvana yürüşdə ona qoşulmadı? Onlar axı razılığa gəlmişdilər. Əhməd xan "...qüvvələri birləşdirib Təbrizi işğal edək" dedi. Xan uşaq deyil. Siyasətdə saç-saqqal ağardıb. Xan başa düşür ki, Əhməd xan onu başından elədi. "Zaman gələr, şübhələr doğrular" və İbrahimxəlil xan gözlərini bərk-bərk yumdu. Sanki bununla da yuxunu gözlərinin içinə yığıb kirpikləri ilə örtdü...

* * *

Qarabağ xanı İbrahimxəlil xanın Naxçıvana yaxınlaşmaq xəbəri şəhərin başı üstdə ildırım kimi çaxdı. O anda karvansaralar qapandı, dükan-bazar bağlandı, küçələrdən əl-ayaq çəkildi. Sanki bir anda dəhşətli səmum yeli əsib hər şeyi ətəyinə büküb apardı. Xan sarayının həyətində qarışıqlıq düşdü, atlar hazırlandı. Cəfərqulu xanın tərəfdarları kimsəyə məlumat vermədən Naxçı-

vanı Qarabağ əsgərlərinin ümidinə qoyaraq atlarını naməlum tərəfə çapıb getdilər.

Sonra yaz yağışının dumanı-çəni şəhərin üstünə çökdü. Sanki bununla da hündür, palçıq hasarlı həyətləri, bu hasarların içinə qısılmış məyus, mükəddər evləri və başına gələcək fəlakətlərdən qorxuya düşmüş insanları çən-dumanında gizləmək istədi.

İbrahimxəlil xanın qoşunu şəhərə doldu. At nallarının səsi uğultu kimi küçələri bürüdü. Xan Mömünəxatun məqbərəsinin yanına çatanda dayandı, başını qaldırıb möhtəşəm məqbərəyə baxdı. İbrahimxəlil xanın qarşısına kimsə çıxmadı, qoşuna kimsə bir güllə də atmadı. Xan məğrur, fateh ədası ilə başını döndərib əsgərlərinə baxdı və istehzalı bir tərzdə gülümsündü. Xanın səssiz gülüşü dodaqdan-dodağa qondu, xəfif bir uğultu kimi qoşunun içindən keçib getdi və sanki səssiz güllə kimi şəhərin başına yağdı...

İbrahimxəlil xan təntənə ilə xanlıq iqamətgahına ayaq basdı. Pişvazına Abbasqulu xan çıxdı. İrəli yeriyib xanın qarşısında iki qat təzim etdi və xanın əlini sıxıb qucaqladı. Bununla da sanki öz xilaskarına şükran duyğularını bildirdi. Qolundan tutub saraya apardı, hörmətlə yer göstərdi. İbrahimxəlil xanın çöhrəsində məmnun, özündənrazı bir ifadə vardı. Xan qımışıb istehza ilə soruşdu:

– Cəfərqulu xan haraya qaçıb?

İkisi də ucadan güldü. Abbasqulu xan gözünün yaşını sildi, gülüşünü zorla cilovladı və az qala İbrahimxəlil xanın ayağına düşərək, yaltaq bir təbəssümlə dedi:

– Saray boş idi xan. O, sizin qüdrətli, möhtəşəm yürüşünüzü eşidib vahimədən, qorxudan özünə yer tapa bilmədi. Dəstəsi ilə birdən yox oldu. Aldığım məlumata görə xoylu Əhməd xana güvənərək Hacı Dəmir qalasında gizlənir. Amma...

Abbasqulu xan dilini sürüdü.

Xan hökmlə soruşdu:

– Nə amma... Sözünü de, gizlətmə.

– Xan qorxuram ki, o, Hacı Dəmir qalasında özünə qüvvə toplayıb möhkəmlənə, siz burdan gedən kimi yenidən Naxçıvana hücum edib xanlığa sahib ola.

– Qorxuna səbəb yoxdu. Çünki Əhməd xanın fikri Təbrizi almaq, Təbriz hakimini yerindən götürməkdir. O, bunun üçün mən-

dən kömək də istəyib. Mənim də fikrim burdan bir başa Xoya getmək, Əhməd xanla birləşib qoşunu Təbrizə yeritməkdir.

Abbasqulu xan sevindi:

– Naxçıvanda sakitlikdir, xan.

– Mən bunu gördüm. Ordumun qabağına kimsə çıxmadı – İbrahimxəlil xan qirrələndi. – Elə bil burda qeyrətli, igid adam yoxdu? Bəlkə var, qabağımıza çıxmaqdan ehtiyatlandı, hə, Abbasqulu xan?

– O igid adam xan həzrətlərinin qarşısındadır – Abbasqulu xan sinəsini irəli verdi, amma düşüncələrinin içindən soyuq sazaq kimi bir hiss keçdi: "Allah sən bizi Kalbalı xandan qoru".

İbrahimxəlil xan yanılmışdı...

Naxçıvan alovlanan, od püskürən nifrəti, təlatümü içinə çəkmişdi. Sanki düşmənin talanlarına, qəraətlərinə biganəydi. Amma tufan nə vaxt başlayacaqdı, qasırğa nə vaxt qopacaqdı, kimsə bilmirdi. Çünki Kalbalı xan igid, qorxubilməz cavanları başına toplayırdı. Kalbalı xan başa düşürdü ki, İbrahimxəlil xanın məkirli siyasəti Abbasqulu xanı taxta çıxardı. Amma gözə kül üfürən İbrahimxəlil xan yenidən Naxçıvana işğalçılıq tamahı ilə qayıdacaq... Ona görə də Abbasqulu xanın son hökmüranlığı, İbrahimxəlil xanın Naxçıvandan son gedişi olmalıydı.

* * *

...İbrahimxəlil xanın Cəfərqulu xanı devirib Abbasqulu xanı yenidən xanlığın başına gətirməsi Kartli-Kaxeti çarı II İraklini özündən çıxardı. Əli İbrahimxəlil xana çatmadığından qəzəbi alov püskürdü, acığını, hirsini cilovlaya bilmədi: "İbrahimxəlil xan istədiyinə nail oldu. Demək olar ki, Naxçıvanın Qarabağ xanlığı tərəfindən işğalının əsasını qoydu. Abbasqulu xanı taxta çıxarmaqla əslində xanlığı özünə tabe elədi. Onun qüvvətlənməsinə yol vermək olmaz... İbrahimxəlil xanın qoşunu ilə vuruşmağa mənim gücüm çatar. Mənim güclü ordum var..."

Gözləri qızarmış, boğazının damarları hirs-hikkədən şişmiş knyaz sanki birdən içinə sızan işıqdan dəyişdi, sifətinin sərt cizgiləri yumşaldı. Qoşun başçısı İvan Baqrationu hüzuruna çağırdı. Knyaz onu intizarda çox qoymadı:

– Qoşunu götür, Naxçıvan istiqamətində hərəkət et. Orada baş verən hadisələr xoşuma gəlmədi. Naxçıvanı Qarabağ əsgər-

lərindən təmizlə. İbrahimxəlil xanın özbaşına qərar verməsi məni qəzəbləndirib.

– Oldu, çar həzrətləri. Qoşunu elə bu dəqiqə ayağa qaldıraram.

Knyaz İvan Baqration vaxt itirmədən çar II İraklinin əmrini yerinə yetirdi. Qoşunu ilə gecə ikən Tiflisdən çıxdı.

* * *

İbrahimxəlil xanın ordusu isə Naxçıvanı tərk edirdi. Süvarilər Şərur düzündə atlarını çapırdılar. Yaz günəşi sanki bütün odunu, alovunu Şərur düzünə tökmüşdü. Göydə günəşin hərarəti, yerdə at nallarından qopan toz-duman, süvarilərin hayqırışı, arxadan əsgərlərin qənimət kimi kəndlərdən çaldığı qoyun sürüləri, inək naxırı... bir-birinə qarışmışdı. Boğanaq hava İbrahimxəlil xanı yorsa da uğurlu səfər canına bir rahatlıq, dinclik gətirirdi: bu yerlər başdan-başa Qarabağ xanlığının olacaq... Ətrafa bir fateh ədası, sahiblik duyğusu ilə nəzər salırdı. Uzaqda tək-tük kənd evləri görünürdü. Şərur çayı günəşin şəfəqi altında daş-qaş tökülmüş kimi bərq vururdu. İbrahimxəlil xan düşünürdü: "Naxçıvan ovcumun içindədir. Onu işğal etmək su içim kimi asanlaşdı. Lakin mən Əhməd xanla Təbrizi işğal etdikdən sonra mənə çatacaq sərvəti götürüb yenidən buraya qayıtmalıyam. Naxçıvan torpağının sayəsində Qarabağ xanlığı qüvvətlənib Azərbaycan xanlıqlarına meydan oxuyacaq. Onlar İbrahimxəlil xanı tanıyacaqlar..."

Xanın düşüncələrini qəfildən sanki od-alov qarsıb yarıda qırdı. Arxada düşən qarışıqlıq, qılınc səsləri, şahə qalxan atların kişnərtisi xanı bir anlıq çaşdırıb başında ildırım tək çaxdı. Çevrilib dəhşət və qorxu içində arxaya baxdı. Qoşunun səfi pozulmuşdu. Göyə qalxan toz-duman içində döyüşən əsgərlər, günəşin altında parlayan qılınclar görünürdü.

Xan özünü itirərək əndişə içində bağırdı:

– Bu yəqin Cəfərqulu xandır.

Döyüş meydanından özünü xana çatdırmış süvari al-qan içində xəbər verdi:

– Kalbalı xan hücum edib.

– Əsgəri çoxdumu?

– Çox olmasa da bizimkilər onların qarşısında duruş gətirmir.

Döyüş getdikcə qızışırdı. İbrahimxəlil xanın xəyalları sanki Şərur düzündə qılıncların zərbəsi altında çiliklənib tökülürdü. Çünki əsgərlər canlarının hayındaydı. Qaçıb qurtarmağa çalışırdılar. Sahibini itirmiş atlar irəli qaçırdı. Arxada isə cəsədlər, yaralı atlar, başına qalmış sürülər, naxırlar vurnuxurdu.

...Döyüş uzun çəkmədi. İbrahimxəlil xan məğlub oldu. Zəfər qazanmış Kalbalı xan isə Naxçıvan qalasına çəkildi. Qala möhkəmləndirildi.

* * *

İbrahimxəlil xan məğlubiyyətin acısını sinirə bilmirdi. Ruhdan düşmüş, xeyli əsgər itirmiş qoşuna dincəlmək əmrini verdi. İbrahimxəlil xanın özü isə çadırında qoşun rəisləri ilə məşvərət keçirdi. Sındığını, sarsıldığını biruzə vermədən gümrah səslə düşündüklərini dilə gətirdi:

– Mən belə başa düşürəm ki, bu döyüşdən sonra Kalbalı xan taxtı öz əlinə keçirəcək. Döyüşdən də göründüyü kimi o, igid adamdır.

Qoşun rəisi məğlubiyyətdən hələ də özünə gəlməmişdi. Günahkar bir təəssüflə dedi:

– Onda belə görünür ki, Naxçıvan əlimizdən çıxdı.

– Yox. Naxçıvanı işğal edəcəyik. Kalbalı xanı hakimiyyətə yaxın buraxmaq olmaz. Buna görə də Abbasqulu xana qüvvə göndərməliyik ki, o, Kalbalı xanla döş-döşə gələ bilsin. Elə bu dəqiqə məktub hazırlanmalıdır. Məktubda yazılsın ki, Abbasqulu xan möhkəm dayansın. Cəfərqulu xan kimi qorxub qalada gizlənməsin. Mən ona iki min nəfər döyüşçü göndərəcəyəm.

İbrahimxəlil xan məktubu yazdırıb ən tez gedən qasidlə Naxçıvana Abbasqulu xana göndərdi. Amma məktub sahibinə çatmadı. Çünki bu vaxt gürcülər Naxçıvan qalasına yaxınlaşmışdı. Onlar qalaya tərəf at çapan qasidi gördülər, qasid bir güllə ilə atdan aşırıldı. Gürcülər onun ciblərini axtaranda İbrahimxəlil xanın məktubunu tapdılar.

* * *

Gürcülərin Naxçıvan qalasına yaxınlaşmaq xəbəri Hacı Dəmir qalasında gizlənən Cəfərqulu xana da çatdı. Sanki tanrı bağlı qapıları qəfildən Cəfərqulu xanın üzünə açdı. Gözləmədiyi xəbər onun puç olmuş ümidlərini yenidən qaytardı. Cəfərqulu xan se-

vindiyindən yerində otura bilmədi: "Naxçıvanı gürcülərsiz işğal etmək istədiyinə görə knyaz İraklinin İbrahimxəlil xana acığı tutub. Çox şükür, araları dəydi. Onlar dost ikən düşmən oldular. Qoy gürcülər Naxçıvanı işğal etsinlər. Abbasqulu xanı taxtdan salsınlar. Mən gürcülərin köməyi ilə öz qanuni haqqıma yetişərəm. Təki gürcülərin qoşunu Naxçıvana girsin..." Cəfərqulu xan məktub yazıb gizlicə qasidlə Baqrationa göndərdi. Məktubda o, Naxçıvanı işğal etməkdə Baqrationa kömək edəcəyini vəd edirdi.

...Naxçıvan qalasından xeyli aralı gürcülər çadır qurmuşdu. İvan Baqration qalanı tezliklə alacağını düşünmüşdü. Lakin qalaya yaxın düşmək özünü oda çırpmaq kimi bir şey idi. Gürcülər qalaya hücum edir, üstlərinə yağan güllə yağmuru onları geriyə qaçmağa məcbur edirdi. Əsgərlər pərən-pərən düşürdü. Ərzağın tükənməsi, ruh düşgünlüyu əsgərlərin döyüş əzmini qırırdı.

Naxçıvandan xeyli uzaqlarda Kartli-Kaxetiyada çar II İrakli isə qələbə xəbərini gözləyirdi. Xəbər isə yollarda yubanır, knyaz dözümsüz səbrinə hökmüranlıq eləyə bilmirdi. Axır ki, İvan Baqrationdan məktub gəldi. Məktubda yazılmışdı: "*...Kalbalı xan güclü müqavimət göstərmək üçün qaladan çıxmışdı. Lakin mənim gəlişimlə əlaqədar yenidən qalaya çəkildi. Cəfərqulu xan Naxçıvanı asanlıqla alacağımı söyləsə də mən güclü müqavimətə rast gəldim. Qalanı iki min nəfər qoruyur. Lakin hərbi toqquşmalara baxmayaraq siz əlahəzrətin gürcülərdən və tatarlardan (azərbaycanlılardan) ibarət olan qoşunları sağ və salamatdır*".

Məktubu axıra qədər oxumağa knyazın hövsələsi çatmadı. Məğlubiyyətin acısı sanki zəhərli ilan tək ürəyinin başından çaldı. Məktubu parça-parça doğrayıb ayaqları altına atdı. Lakin çarə yox idi. Knyaz qoşuna geri qayıtmaq əmrini verdi.

...1787-ci ilin yazında Kalbalı xan Naxçıvan xanlığının taxtına əyləşdi. Kalbalı xanın hakimiyyətə gəlməsi ilə taxt uğrunda savaşa son qoyuldu.

## 6

Gecə yarıdan ötmüşdü. Dağların boz, nəmişli dumanı yavaş-yavaş şəhərin üstünə yenərək onu boz yaylığına bükmüş, şeh kimi torpağın üstünə çökmüşdü.

...Gecə yarıdan ötsə də xan sarayının işığı sönməmişdi. Zərif xalılarla döşənmiş salonun baş tərəfində Kalbalı xan Əli xanla üz-üzə oturmuşdu. Onlar gənclik illərindən yaxın müsahib, eti-

barlı dost idi. Kalbalı xan hakimiyyətə keçəndən sonra da Əli xandan ayrılmamışdı. Onu məsləhətçi kimi yanında saxlamışdı. İndi də gecənin sakit vədəsində evlərinə getməyə tələsməyərək dərdləşirdilər. Bu dərd isə Naxçıvanın ağır dərdi idi. Kalbalı xanın ürəyinin dərinliklərində sızlayan ağrı ağıllı, yorğun gözlərində əks olunmuşdu.

Divarlarda gümüş şamdanlarda yanan şamların işığı salonu yarı işığa, yarı kölgəyə bükmüşdü. Kalbalı xan başını aşağı salaraq asta-asta, ürəyinin içindən gələn həmin ağrı ilə dedi:

– Naxçıvan çox bərbad gündədir Əli. Taxt üstündə uzun sürən savaşlar, qovğalar, tez-tez dəyişən hakimiyyət, ara verməyən səbəbsiz müharibələr, amansız talanlar, kasıblığa, yoxsulluğa meydan açıb. Camaatın çörək təknəsi boşalıb, zəmilər at ayaqlarının altında qəhr olub gedib. Şərq ölkələrindən məmləkətimizə daha əvvəlki kimi tacirlər gəlmir. Onların gözü qorxub. Xanlığı dirçəltmək, boş xəzinəni doldurmaq, qalanı möhkəmlətmək lazımdır.

– Xanlıqlar dirçəlmək, qüvvətlənmək üçün zaman-zaman bir-birini əzib, Kalbalı.

– Mən o yolu seçmək istəmirəm. Şərqə açıq olan qapımızdan torpağımıza bərəkət, ruzi gəlir. Mən o qapının geniş açılması üçün Naxçıvanda əmin-amanlıq yaratmalıyam. Dünyanın bir çox ölkələrindən gələn tacirlər Naxçıvandan istədikləri malları alıb aparırlar. Moskva, Nijni-Novqorod tacirləri Ordubadda hazırlanan zərif ipək parçaların, rəngli ipək sapların aşiqidir. Onlar bu malları öz məmləkətlərində çox baha qiymətə satırlar. Qarabağ, İrəvan tacirləri ta qədimdən burdan bez parça daşıyıb. Naxçıvan toxucularının toxuduqları pambıq parçalar isə Bəyazitdə, Qarsda, Tiflisdə, hələ desən urusetdə də yaxşı qiymətə gedir.

– Bəs Naxçıvan duzunun adını niyə çəkmirsən, xan? Naxçıvan duzu ki, aləmdə məşhurdur. Ta qədimdən bizim duzumuz şah saraylarında süfrələrin tacı olub – Əli xanın gözünə düşmüş işıq ürəyinin içindən gəldi.

Kalbalı xan onun sözünü məmnunluqla təsdiqlədi:

– Düz deyirsən Əli xan. Duzumuzun tayı-bərabəri yoxdur. Naxçıvanın duzu, düyüsü, şərabı Mərəndə, Xoya, Təbrizə daşınır – xan köks ötürdü, xeyli fikrə getdi – gündüz şəhəri gəzdik. Gördünmü, şəhər yavaş-yavaş qaynayır. Beş karvansaranın hamısında xeyli müsafir var. Uzaq ölkələrdən tacirlər gəlməyə başla-

yıb. Ticarət qaydaya düşür... Amma xəzinə hələ boşdu. İran sərbazları vergi yığanda camaatı var-yoxdan çıxarıb. Cəfərqulu xan da... – Kalbalı xan istehza ilə başını buladı – xəzinənin qiymətli daş-qaşını Xoy xanı Əhməd xana bağışlayıb.

– Yəqin ona görə də Əhməd xan bu daş-qaşın müqabilində qardaşın Cəfərqulu xanı taxta çıxarmaq üçün yüz dona girirmiş.

– Xoylu Əhməd xan tülküdən bic, şeytandan qorxuludu. O həm daş-qaşa yiyələnib, həm də xanlığı işğal etmək niyyətinə düşüb. Qardaşımı maymaq, axmaq yerinə qoyub ona görə – Kalbalı xan hirsini cilovlaya bilmədi. Saqqalını tumarladı, qıyılmış ağıllı gözlərində sanki qığılcım kimi nə isə yanıb söndü:

– O daş-qaş xəzinəyə qaytarılmalıdı.

– Daş-qaşın qiyməti yoxdur, Kalbalı. Əhməd xan onları sənə xoşluqla verməz.

– O halda müharibə eliyərik.

– Müharibə eliyəcəksən? Sənin buna qüvvən çatarmı? Xanlıq çox zəifdir. Məğlub olub taxtı itirə bilərsən. Əhməd xan daş-qaş əlindən çıxmasın deyə Cəfərqulu xanı yenidən taxtda oturdar... Xalq ümidini sənə bağlayıb.

– Qarabağlı İbrahimxəlil xanın ordusunu Şərur düzündə məğlub etməyim yadından çıxıb, Əli xan? İş qoşunun çoxluğunda deyil, qoçaqlıq, igidlikdədir. İrəvan xanı Hüseynəli xanla aramız yaxşıdır. Onunla razılığa gəlib Xoya hücum edərik. Daş-qaşları da geri qaytararam.

(Kalbalı xan dediyi kimi də etdi. İrəvan xanı ilə birləşib Əhməd xanın üstə qoşun çəkdi. Məğlub olan Əhməd xan daş-qaşları geri qaytardı. Lakin İrəvan xanı Hüseynəli xanla aralarında ziddiyyət yarandı. Bu dəfə Kalbalı xan Əhməd xanla birləşib İrəvan xanlığına hücum etdi. Qan tökülmədən Kalbalı xan Hüseynəli xandan xərac alıb xəzinəni doldurdu).

Əli xan söhbəti dəyişdi:

– Azərbaycan xanlıqlarındakı siyasi ab-havadan savaş iyi gəlir.

Kalbalı xan onun gözlərinin içinə baxdı, sanki orda qorxunun, əndişənin gizli sazağını duydu, ağır-ağır təmkinlə dedi:

– Farslar bir tərəfdən, osmanlılar o biri tərəfdən Azərbaycanı, eyni zamanda Gürcüstanı işğal etmək istəyir. Bu savaşın necə qurtaracağı hamıya bəllidi, Əli xan. İran şahlarının və osmanlı Türkiyəsinin niyyəti xanlıqları işğal etmək olub. Bu sarıdan

Naxçıvanın taleyi ağrılı, başı müsibətlidir. Özgə torpaqlarda savaş getsə də bu savaşın alovu yenə Naxçıvana keçib. Bu torpaq bizim ata-baba ocağımızdı. Babalarımızın müqəddəs ruhları daim bu torpağın başında dolaşır. Biz öz ocağımızı düşməndən qorumasaq, onların ruhu bizi nə bu dünyada, nə də o dünyada rahat buraxmayacaq. Kəngərli tayfasının başçısı Heydərqulu xanlığın möhkəmlənməsi üçün çox iş gördü. İndi biz də...

Əli xan ona sözünü tamamlamağa imkan vermədi, səbirsiz soruşdu:

– Təcavüz olarsa neynəmək fikrindəsən, Kalbalı?

– Tarixən Naxçıvan İran şahlarının qəddarlığını görüb. Farslar indi də Naxçıvan kimi yağlı tikəni əllərindən çıxarmaq istəmirlər. Buna görə də elə bilirəm ki, Rusiya dövlətinin himayəsinə sığınsaq torpağımızı qorumuş olarıq.

– Səncə urus çarına inanmaq olarmı?

Əli xan udqundu. Gözünü Kalbalı xanın ağzına dikdi. Lakin ürəyində dumanlı bir nigarançılıq duydu. Ona elə gəldi ki, ruslara inanmaqla Kalbalı xan gözünü yumub ayağını dibsiz uçurumun üstünə qoydu. Ucundan tutub getdiyi bu sadəlövh inamın işığı ağıllı Kalbalı xanı yolundan çıxarıb aldatmır ki? Axı bu sınanmamış etibar, sadəlövh inam onu yalnış yolla aparar, uçurumdan başıaşağı yuvarladar. Və gizli qorxu, dumanlı nigarançılıq Əli xanın sanki içini laxlatdı. Lakin o, bunu biruzə verməyərək təmkinlə dedi:

– Urus çox bic siyasət yeridir, Kalbalı. Qorxuram ki, zalımdan qaçıb zülümkara pənah aparaq. Özümüz öz əlimizlə torpağımızı xristianlara peşkəş eliyək.

Aralığa çökmüş sükut ikisini də öz aləminə çəkdi. Kalbalı xan ürəyində düşündüklərini dilinə gətirdi:

– Kartli-Kaxeti çarı II İraklinin ruslarla bağladığı ittifaq onun başı üstdə qılınc kimi asılıb. Kim gürcü torpağına hücum etsə bu qılınc onu məhv eliyər. Buna görə də rusun sayəsində gürcü torpağı əmin-amanlıqdadır, savaş görmür, Əli xan.

– Lakin knyaz müsəlman deyil, dini rusun dinindəndir – Əli xan fikrindən dönmədi.

– Nə olar, biz də itlə dostluq eliyərik, lakin ona inanıb çomağı yerə qoymarıq.

Yenə də sükut yarandı.

Kalbalı xan yerindən qalxıb pəncərəyə sarı getdi. Baş tərəfi qövsvari bəzəkli naxışlarla işlənmiş pəncərələri açdı. Payızın təmiz, xəzan ətirli havası içəri doldu. Ay işığında yerə döşənmiş yarpaqların sarı işığı gəlirdi. Kalbalı xan ürəyində bir hüzn, səbəbsiz qəm havası, ürəyini üzən, duyğularını sacda qovurğa tək qovuran kədər hiss elədi. Sanki qəlbinin, könlünün qapıları xəzan ətirli, sevda həsrətli kainata açıldı. Bu kainat onun ürəyinin içindəydi. Kimsənin bilmədiyi, duymadığı, təmasda olmadığı hüzn dolu, qəm-kədər dolu, vüsalı yaxına qoymayan həsrət çəkməkdən, intizar çəkməkdən nəşə duyan, lakin bunu kimsəyə bildirməyən bir aləm idi o kainat. Kalbalı xanın gözləri yol çəkdi, ürəyi fırtınalı bir təlatüm içində çırpındı: görəsən hardadı Mahnur?

Tez də tələm-tələsik, sanki qəm havalı, şirin kədərli, xəzan işıqlı kainatın qapısını bağladı. Kal səslə öskürdü. Sanki əlini uzadıb ürəyinin içindəki naməhrəm duyğuları qönçə çiçək kimi sıxcalayıb əzdi, içindəki naməhrəm sevdanın işığını üfürüb keçirdi. Əli xan ayağa durdu. Əlini Kalbalı xanın çiyninə qoydu:

– Ruslar haqqında çox fikirləşmə.

Kalbalı xan ürəyindən çəkilməyən o qəm havası ilə gülümsündü:

– Rusların indi düşündüklərimə dəxli yoxdu, Əli xan.

Əli xan da pəncərəyə yaxın gəldi. Təmiz havanı sinədolusu çəkdi:

– Payız gəlib yetişdi, xəbərimiz yox – o, da gözlərini yerə döşənmiş sarı işıqlı payız yarpaqlarına dikdi, sonra Kalbalı xana baxıb əlini fikirli saqqalına çəkdi – Kalbalı, sənə bir söz də deməк istəyirəm.

– Deyəsən ruslar səni narahat eləyib Əli-Kalbalı xan qımışdı.

– Yox urusdan demirəm. Mən istəyirəm ki, sən Abbasqulu xanla barışasan. Onu saraya dəvət eləyib vəzifə verəsən. Qoy gözünün qabağında olsun ki, təzədən xan olmaq fikrinə düşməsin.

– Bu barədə mən sənnən məsləhətləşəcəkdim, Əli xan. İndi bizə birlik lazımdır, düşmənçilik yox. Düz deyirsən əgər o, kənarda olsa başına dəstə toplayıb təzədən xan olmaq fikrinə düşəcək, kənarda özünə müttəfiq axtaracaq. Bizə barışıq lazımdır.

– Onda vaxt itirmə günü sabahdan Abbasqulu xanı saraya çağırtdır.

...Aradan üç gün keçmiş Abbasqulu xan başının dəstəsi ilə xan sarayına gəldi. Dalğın və qaşqabaqlıydı. Kalbalı xan onu xoş təbəssümlə qarşıladı. İki əminəvəsi qucaqlaşdılar. Kalbalı xan onun qolundan tutub dəfələrlə sahib olduğu, tərk etdiyi, yenə də daim can atdığı kürsüdə oturtdu. Əlini onun çiyninə qoydu:

– Bizim Kəngərli tayfası qoçaqlığı, mərdliyi ilə özgə tayfalardan daim seçilib. Mənim məqsədim xanlığa yiyələnmək yox, ona sahib çıxıb torpağımızı düşməndən qorumaq, müstəqilliyini təmin etməkdir. Əgər biz taxt üstündə bir-birimizə arxa çevirsək, bir-birimizin qanını töksək düşmən bundan istifadə eliyəcək. Naxçıvan onda naxçıvanlıların əlindən çıxıb işğal olunacaq. Buna görə də Abbasqulu xan, mən səni dostluğa, birliyə çağırıram.

Kalbalı xan əlini Abbasqulu xana uzatdı. Abbasqulu xan onun gülümsəyən riyasız gözlərinə baxıb o, da zorla qımışdı, nifrətini yumaq kimi büküb ürəyinin dərinliklərində gizlətdi və Kalbalı xanın əlini sıxdı...

## 7

...At ayağını xırda, narın çınqılların üstə qoyduqca çınqıllar ayağının altından sürüşüb axır, çiliklənən şüşə kimi səs çıxarırdı. Mahnur Kalbalı xanın evindən gedəndən sonra Murad bəlkə də yüz dəfə bu çınqıl döşənmiş məhəllədən keçmişdi. İndi də atın yüyənini əlindən buraxmadan alaqapılara ümid qarışıq həsrətlə baxa-baxa keçirdi. Sanki Mahnur bu alaqapıların hamısından boylanır, gözlərindən gülə-gülə utancaq, səssiz bir həyəcanla özünü göstərirdi.

Bu anda arxada kimsə astadan öskürdü. Murad çevrilib baxmağa ürək etmədi. Çiyni səhəngli, qara çadralı, üzünə nazik rübənd örtmüş qız yanından keçəndə azca ayağını sürüdü, yenə təkrar öskürdü və irəli yeridi. Muradın gözü alaqapılarda idi. Qız geriyə baxmadan pıçıltılı səslə dedi:

– Salam, xoş gördük Murad. Buralarda nə işin var? Kimi axtarırsan?

Sinəsində sevinc elə coşdu, elə fırtına qopardı ki, Murad az qala aşırılıb atdan düşəcəkdi. Gücü təkcə səsinə çatdı:

– Mah...nur – ... Səs düyünlənib qırıldı. Mahnur gözaltı ətrafa baxıb qımışdı:

– Bağırma, eşidərlər.

– Neçə vaxtdı səni axtarıram.

– Şükür, axır ki, tapdın.
– Mən səni unuda bilmədim, Mahnur.
– Mən də o gecəni heç unutmadım.
– Mahnur... ayaq saxla.
– Səninlə burda danışa bilmərəm. Dayan gözlə, hansı qapıdan girdiyimi izlə, xeyli keçmiş sən də gəl.
– Atan, anan nə deyər, Mahnur?
– Onlar səni görmək istəyir.
– Mahnur... Birdən məni aldadarsan.
– Qorxma. Gözləyirəm.

Murad yolun ortasındaca ovsuna düşmüş kimi kirpik çalmadan, qızın arxasınca baxdı. Ona elə gəldi ki, ruhu da cismindən ayrılıb qızla birgə getdi. Addım atmağa taqəti tükəndi. Məhəllədə tək-tək çadralı qadınlar göründü. Çiyni səhəngli, üz-gözlərini qara çadranın altında gizlətmiş qızlar oğlanın yanından keçdikcə çadra alna tərəf sürüşür, gözlər bic-bic gülürdü. Muradın daha gözləməyə hövsələsi çatmadı. Sanki Mahnur ceyran kimi hürküb əlindən çıxacaqdı. Bu anda sıralama düzülmüş alaqapıların biri açıldı. Ucaboy, ağsaç kişi onu işarə ilə çağırdı. Darvaza taybatay açıldı. Murad atı həyətə sürdü. Bununla da elə bil neçə illər həsrət çəkdiyi doğma adamların içinə düşdü. Yaylığını alnına qədər çəkmiş, cavan, göyçək qadın utana-utana onu qucaqladı. Ağsaç kişi onu sinəsinə basıb üz-gözündən öpdü. Qoşa, yoğun hörüklərini sinəsinə atmış Mahnur ərköyün, şıltaq bir əda ilə onun qarşısında dayanıb gülümsədi.

Qadın ağlamsındı:
– Səni görmək istəyirdik. Dualarımızı, alqışlarımızı sənə çatdırmaq istəyirdik. Ayağının altında qurban kəsilim...

Murad özünü itirdi:
– Xala, bu nə sözdü? Biz naxçıvanlıyıq. Qızlarımızın qeyrətini biz çəkməmiş kim çəkəcək?

Ağsaç kişi qonağın qolundan tutub içəri apardı. Otaqların torpaq iyi verən sərin havası üzünə vurdu. Kiçik otağa cecim salınmışdı. Bu cecimlər də gəbə kimi evdə toxunardı. Bəziləri sadə, bəziləri isə əlvan naxışlı olardı. İçəri otaq isə iri gəbələrlə döşənmişdi. Kiçik otaqda dörd taxça vardı. Bütün evlərdə olduğu kimi burda da taxçalara lampa, qab-qacaq qoyulmuşdu. Yan otaqda isə divara məfrəc yığılmışdı (Məfrəcin içinə yorğan-döşək qoyulurdu).

Gəbələrin üstdə bardaş qurub oturdular. Osman kişi eşiyə səsləndi:

– Tez çay tədarükünə başlayın – sonra mütəkkələri götürüb onu zorla Muradın kürəyinə söykədi. Mahnur həya etdiyindən cavan qonağın gözünə görünə bilmirdi. Amma kölgəsi gah qapının, gah da pəncərənin ağzına düşürdü. Bu anlarda Murada elə gəlirdi ki, hər yerdən üzünə zillənən baxışlar ox kimi ürəyinin içinə yağır. Sanki həsrət bu baxışları da yorduqca yormuşdu. Hicran küləkləri isə öz könlünü boş qalmış viranəyə çevirmişdi... O boş viranədə duyğuları xəzan yarpaqları tək yağışa, çiskinə dönüb hələ də yağırdı...

Osman əlindəki təsbehin dənələrini şaqqıltı ilə tez-tez çevirməyə başladı:

– Nə var, nə yox?

Osman bilmədi ki, cavan qonağını fikir, xəyal içində hansı yoldan, hansı dolaydan qaytardı:

– Sağlıq, Osman əmi.

– Hardasan, nə iş görürsən, yoxsa sən də... – Osman təsbeh çevirməkdən əl saxlayıb Muradın üzünə baxdı.

– Yox, gizlənmirəm. Kalbalı xanın dəstəsindəyəm.

İçəri girən Fatimə yaylığını dodaqlarının üstə qədər çəkib ağlamsındı:

– Allah o gecəni ömrümüzə yazmasın.

Fatimə iki əlini göyə açıb sonra da sifətinə çəkdi. Sanki sifətində, ruhunda o gecədən qalma çoxlu nişanə vardı: – gözləri hələ də yağmurunu saxlamışdı, baxışı qorxaq, çəkingən idi. Elə bil hər an sərbazların evə soxulacağını, qızını aparacaqlarını gözləyirdi. Bu qorxu onun ruhuna qədər çökmüşdü. İndi birdənbirə Muradı görəndə sanki səksəkəli həyatında bir ümid işartısı gördü: bu dəliqanlı əgər qızını o qansızların əlindən alıbsa, demək indi də onu qorumağa qadirdir. Şükür Allaha!

– Sən bilirsən biz o gecə nə çəkdik? – Fatimənin dodağı titrədi, kirpiyinin ucundakı isti damlaları yaylığının ucu ilə sildi.

Osman qaşqabağını töküb ərklə arvadına acıqlandı:

– Sərbazlar qızı vəhşicəsinə sürüyüb aparandan sonra keyf eləməyəcəkdik ki.

Fatimə onun sözünü kəsdi:

– O gecə biz aynan, ulduznan qaldıq. Dizimizi yerə vurub Allaha, böyük Allaha yalvardıq, sızladıq. Allah gözümüzün yaşını,

parçalanan, yanan ürəyimizi gördü, yalvarışımızı eşitdi. Allah bizim xahişimizlə səni Mahnura göndərdi.

– Göndərmədi – Murad xəfifcə güldü – elə mən də əsir idim, əllərim bağlıydı. Biz çox idik. Onların başına nə gəldi, bilmirəm. Lakin Allah mənə güc və qüvvət verdi ki, həm özümü qurtarım, həm də Mahnuru.

– O gecə dərdimizlə baş-başa qalan təkcə biz deyildik, Fatimə.

– Sərbazlar çox ev yıxdılar. Çox ocağı kor qoydular – Fatimə yenə ağlamsındı.

– Sənin anan, atan yoxdurmu? – Osmanın birdən yadına düşdü.

Murad başını buladı:

– Xalis yetiməm, Osman əmi.

– Bağışla bala.

– Biz də sənin atan-anan – Fatimə yerindən qalxdı – gedim çay gətirim.

Mahnur bir gözü atasında çəkinə-çəkinə qapının ağzındaca oturdu. Murad özünü yığışdırdı. Mahnura baxmamağa çalışaraq şövqlə dedi:

– Kalbalı xan Naxçıvan qalasını möhkəmlədir. Qala qapıları düşmənin üzünə bağlanacaq.

Mahnur heyrətlə soruşdu:

– Sən də ordasan?

– Mən də sərbazam. Kalbalı xanın qoşununda xidmət eliyirəm. Hiss eliyirəm ki, xanın mənə xüsusi etimadı var. Ən çətin işlərə məni göndərir. Hər gün qalada təlim keçilir. Kalbalı xan daha İran sərbazlarını Naxçıvana buraxmaq fikrində deyil. İran şahını da tanımaq istəmir.

– Abbasqulu xanın zamanında qoyulan vergilər camaatın evini yıxdı.

– Düz deyirsən Osman əmi. Lüzumsuz vergilər xalqın çörək təknəsini çörəksiz, anbarını taxılsız, bucağını boş qoyur. Kalbalı xan yəqin ki, vergiləri azaldacaq. Bir də Naxçıvanı yaşadan ticarətdir. Uzaq ölkələrdən gələn tacirlər bizim məhsulları öz bazarlarında baha qiymətə satır.

– Amma biz hələ də qorxuruq ki, İran sərbazları yenə Naxçıvana ayaq qoya, Mahnuru axtaralar – içəri girən Fatimə yenə qorxusunu biruzə verdi, doluxsunmuş halda Mahnurun hörüklə-

rini tumarlayıb kürəyinə atdı – Biz Mahnurun Kalbalı xanın evində olduğunu bilmirdik. Kalbalı xan çox mərd adamdı. Mahnuru qorumaqla bizə təzədən həyat verdi, yaşamaq qüvvəsi verdi.

– Mahnur sənin haqqında bizə çox danışıb – Osmanın gözlərində nəmli işıq parladı, səsi titrədi.

– Biz namaz üstə daim sənə dua eliyirik. O dualar səni həmişə xata-bəlalardan qoruyar, inşallah. Anan-atan öz əcəli ilə ölüb?

– Yox. Məni əsir aparanda onlar sərbazlarla əlbəyaxa olub. İkisini də elə evin içindəcə doğrayıblar.

– Qəbirləri nurla dolsun. Onsuz da İran şahlarının qəddarlığından Naxçıvanda ziyan çəkməyən adam yoxdu.

Murad köks ötürdü, baxışını Mahnurdan çəkib Osman kişiyə baxdı:

– Deyirlər yenə İranda ara qarışıb. Şahlıq üstündə davadı.

– Başları özlərinə qarışsın. Allah Kalbalı xana elə bir güc, qüvvə versin ki, bir İran sərbazını da qaladan içəri buraxmasın.

Osman başını bulayıb ürəkdən dedi:

– Amin.

Mahnur Osmanla Fatiməyə gözaltı baxıb pıçıltı ilə dedi:

– Murad...

– Eşidirəm.

– Deyirsən qalada təlimlər gedir?

– Hə.

– Mən də yaxşı at çapıram, qılınc oynadıram. Amma düzü tüfəng atmağı bacarmıram.

– Yenə ağlına nə gəldi, Mahnur?– Osman yerindən dikəlib hövsələsiz soruşdu.

– Səni gözümüzə də etibar eləmərik – Fatimə sonra Murada sarı çevrildi, şəhadət barmağını onun gözləri qarşısında şax saxladı – gözümüzün ağı-qarası təkcə bir qızımız var. Allah hərəyə bir ətək uşaq verəndə, bizə bircəsi çatdı.

– Naşükür düşmə, Fatimə – Osman hirsləndi. Fatimə ona məhəl qoymadı:

– Mahnur da maşallah, ay parçası. Düz demirəmmi Osman?

– Əşi Allah bəxtini versin, yoxsa nə ay, nə gün – Osman əlini yellədi, üzünü yuxarı tutub dodağının altında mızıldandı.

– Onu yaraşıqlı bir oğlan istəyirdi. Bir ərəb taciriydi, qızılı pudla, dəvələri karvanla... Ölürdü Mahnurdan ötəri – Fatimənin

gözlərində işıq elə bil qığılcım kimi aşıb-daşdı. Muradı mərhəm bilib gözlərinin içindən tökülən qığılcımı sözünə, təbəssümünə büküb oğlana çatdırdı.

– Adı nəydi tacir oğlanın? – Murad qısqanclıqla soruşdu və gözaltı Mahnura baxdı.

Fatimə əlini çənəsinə qoyub fikrə getdi, adı tapmaq üçün yaddaşını ələk-fələk elədi:

– İbn Əli, İbn Mustafa, İbn... – Fatimə duruxdu, udqundu və kömək istəyirmiş kimi Osmanın üzünə baxdı.

Osman başını bulayıb nırç atdı:

– Elə mən də ora qədər bilirəm.

– Mahnur görmüşdü İbn Əlini?

– İbn Əlinin bizə gəlməyi belə oldu – Osman yerini rahatladı. – Şəhərdə İran sərbazları vergi yığırdı. Əslində soyğun, talan idi. Ara qarışıb məzhəb itmişdi. Mənim də dördkünc bazarda baqqal dükanım var. Dükanım Hacı Əbülqasımın karvansarasına yaxındı. Tacirlər də daim bu karvansaraya düşərlər. Bir də gördüm arıq, qarayanız bir oğlan, ərəb geyimində girdi içəri. Qorxudan rəngi ağarıb. Demək qiymətli şeyləri üstündə olduğuna görə karvansaraya gedə bilmir. Mən də onu evə gətirdim. Mahnur üzüaçıq çıxdı bunun qabağına...

– Biz evə gələn qonaqdan gizlənmərik. Qonaq Allah qonağıdı, biz də ki, Allah bəndəsi. Mahnuru da oğlansayağı böyütmüşük. Biz ona qadağa-zad qoymamışıq. Uşaqlıqdan oğlanlar arasında at minməkdə birinciydi Mahnur... – Fatimə fərəhlə gözüdolusu qızına baxdı.

– Eh, gör hardan başlayıb harda qurtardız – Mahnur gözünün içində gizlənmiş atəşin sanki faş olacağından qorxub baxışını Muraddan çəkdi.

– Söhbətdi eləyirik – İbn Əli deyəsən Fatimənin xoşuna gəlmişdi, gizli bir fərəh onun çöhrəsini çəhrayı işıq kimi bürümüşdü – ikinci dəfə o, özü gəldi. Bir ovuc qızıl da gətirmişdi. Bizi ərəb ölkələrinə aparmaq istəyirdi. Dediyinə görə biz orda sakit həyat keçirəcəkdik, yağ-bal içində yaşayacaqdıq.

– Amma biz yavan çörəyi qürbətin yağ-balından üstün tutduq – Osmanın üzünün cizgiləri sərtləşdi – bə nə bə.

– Qürbət bizi yandırıb külümüzü çıxarardı.

– Torpağımız bizə əzizdi. – Osman birdən kövrəldi – beşiyimiz burda, gor evimiz qürbətdə... Elə şey olar? Yox, yox...

Mahnur gülümsündü:

– Yaxşı ki, qürbətə getmədik.

– Bə nə bə.

– Amma mən tüfəng atmağı da öyrənmək istəyirəm. Birdən o sərbazlar qayıdıb gəldi? Qisas ürəyimdə qalsın?

– Təlimə gəlmək istəyirsən? Amma ordakıların hamısı kişi xeylağıdır. Kalbalı xanın oğlanları da gəlir, – Murad qısqanclıqla dedi.

– Mən gəlsəm qızların da ayağı açılar.

– Mahnur yüz igidə bərabərdir, Murad – Osman Mahnurun hörüklərini sığallayıb başını sinəsinə sıxdı – Ayağını üzəngiyə qoymağı ilə quş kimi qanadlanmağı bir olur. Mən razılığımı verirəm.

– Osmannn, sən xəriflədin?

– Fatimə yadına sal o günü ki, qızını sürüyə-sürüyə apardılar.

Murad sevincini biruzə vermədi:

– Çadra örtəcəksən?

Mahnur şıltaqlıqla çiyinlərini oynatdı.

Murad çaydan sonra ayağa qalxmaq istədi. Osman qoymadı:

– Bu görüşümüzə əmlik quzu saxlayırdım. Mahnuru xilas eləyib bizi yaşatdın, bizi özünə borclu saldın. Heç olmasa bir qismət çörəyimizi kəs.

– Osman əmi...

– Dedim ki, əhdim var.

...Murad gecəyarısından sonra çıxıb getdi. Fatimə qaranlığa qarışan atlının arxasınca xeyli baxdı, dərindən köks ötürdü:

– Nə bilim, bəlkə də qismətdi, gəldi qapıya. Göyçək, mərifətli oğlandı. Allah saxlasın. Amin.

...Ertəsi gün Murad Mahnurgilin qapısına gələndə bulağın başında qara geyimli, üzünü gizləmiş cavan oğlan gördü. Atın yüyənini çəkib gözlərini Mahnurgilin qapısına zillədi. Lakin hərdən diqqəti yayınır, cavan oğlanı qısqanclıqla süzürdü: "Bəlkə bu da Mahnuru gözləyir. Çıxıb getməsə davamız düşəcək. Deyəsən qoçaq adamdır. At bir himə bənddir ki, qanadlanıb uçsun. Bəlkə Mahnurun arxasınca özüm gedim? Gələnə oxşamır".

Atdan düşüb alaqapıya yetirəndə atlı yavaş-yavaş ona sarı gəldi. Murad dayanıb gözlədi. İçərisini isə qısqanclıq alovu bü-

rüdü: "Bu cavan oğlan kimdisə mənimlə haqq-hesab çəkməyə gəlir deyəsən. Gəlsin görək. Murada bələd deyil".

Atlı yaxınlaşdı. Sonra atın başını necə çevirdisə atın qabaq ayaqları yeri eşdi, kişnərtisi ətrafa yayıldı və Mahnur gülməkdən qəşş elədi:

– Gəl, getdik Murad.

– Bu sənsən, Mahnur?

Gözləri böyümüş, özünü itirmiş Murad sevincək atını onun arxasınca çapdı...

# İKİNCİ HİSSƏ

## XACƏ ŞAHIN SONU

1

İran şahlarının qəddarlığı tarixə məlumdur. Onların bəzisi baş kəsməkdə, bəzisi göz çıxarmaqda adı tarixə düşmüşdü.

Naxçıvanı daim öz himayəsində saxlayan, sərvətinə yiyələnən İran şahlarının qılıncı bu torpaqda da az qan tökməmişdi. Qılınclar baş kəsmiş, ocaq söndürmüş, evlər talamış və Naxçıvanın sərvətini İran xəzinəsinə daşımışdı.

Nadir şah Əfşar... Qorxu, vahimə mücəssəməsi. Hakimiyyət üstündə öz oğluna da rəhm etməyən, onu dünya işığına həsrət qoyan şah insanların beynində elə bir xof yaratmışdı ki, sanki onu öldürməyə Allahın da gücü çatmazmış. Lakin şah Allahın hökmü ilə yox, bəndələrin hiyləsi ilə qətlə yetirildi...

Bu hadisə 1747-ci ildə oldu. Nadir şah İranın Qaçan vilayətinə dincəlmək üçün getmişdi. Bu zaman xəbər tutdu ki, daim şübhələndiyi əmisi oğlu Əliqulu Mirzə ondan icazəsiz Tehrana gəlib və onu addım-addım izləməkdədir. Şah çox qəzəblənir. Gecə cəlladlarına sabahkı edam üçün hazır olmalarını tapşırır. Onlara qəssab kimi balta və kötükləri hazırlamağı əmr edir. Bu kötüklərin üstə çox başlar vurulmalıymış, onların da içində Əliqulu Mirzənin başı. Doğrudan da şaha sui-qəsd hazırlamaq fikrinə düşən Əliqulu Mirzə başını salamat saxlamaq üçün şahın inanılmış adamları Əfşar tayfasından olan Saleh bəy Əfşarı, Məhəmməd bəy Qacar İrəvanini, Musa bəy Əfşarı, Qoçu bəy Əfşarı öz tərəfinə çəkir və onların köməyi ilə şah öz çadırında qətlə yetirilir.

Lakin kimsə Nadir şahın ölümünə inanmır. İnsanları daim qorxu, vahimə içərisində saxlayan şaha "öldü" deməyə qorxurlar. Onu ruhlar qədər ölümsüz, əfsanə qədər əbədi saydıqlarından Nadir şahın daha həyatda olmadığı fikrini kimsə yaxına qoymur. Yalnız kəsilmiş başı gördükdə bütün İran heyrət içərisində iflic olur.

Nadir şahın sayı-hesabı bilinməyən, uzun illər işğal etdiyi ölkələrdən və topladığı vergilərdən əldə etdiyi sərvət Kəlatda yeraltı mağarasındakı xəzinəsində saxlanırmış. (Tarixdə yazıldığına

görə Nadir şah bu xəzinə ilə İranı başdan-başa abadlaşdıra və yaxud da İran xalqını on il azuqə ilə təmin edə bilərmiş).

Şahı qətlə yetirən Əliqulu Mirzə bu xəzinəni mənimsədi və taxta yiyələnərək özünü Adil şah elan etdi.

Adil şah taxta çıxan kimi Nadir şahın böyük oğlu – atası tərəfindən kor edilmiş Rzaqulu xanı, ikinci oğlu Nəsirulla xanı cəlladın əlinə verdi. Üçüncü oğlu Şahruxu isə qətlə yetirmədi. Çünki qızı Şahruxu bəyənmişdi.

Sonra Adil şah özü qətlə yetirildi. İranın əyalətləri parçalandı. Kimin qoşunu çox idi, kimin sərvəti çox, qolu qüvvətli idi, o, da şahlıq taxtına yiyələnirdi.

* * *

Sonra hakimiyyətə Kərim xan Zənd gəldi. İran taxtına Qacar sülaləsini gətirən, Azərbaycanda, eləcə də Naxçıvanda qəddar bir hökmüdar kimi tanınan Ağa Məhəmməd şah Qacarın gənclik illəri, hakimiyyət uğrunda mübarizəsi Kərim zan Zəndin şah olduğu dövrə düşdü.

* * *

Ağa Məhəmməd xan gəncliyində yaraşıqlı, gözəl üzlü bir cəngavər idi. Atası igid və mərd bir adam olan Ağa Məhəmməd Həsən xan İranın Esterabad vilayətində aşağıbaş tayfasının rəhbəriydi. Həsən xanın arvadı türkmən qızıydı. At minməkdə, qılınc çalmaqda bəlkə də Məhəmməd Həsən xandan çox-çox irəli getmişdi.

Ailənin beş övladı vardı. Ağa Məhəmməd xan ikinci övlad idi.

Bütün Qacar tayfasında olduğu kimi Məhəmməd Həsən xanın da bütün ömrü at belində keçdi, hakimiyyət üstündə mübarizə apardı və döyüşlərin birində öldürüldü. İkinci oğul Ağa Məhəmməd xan da şah olmaq iddiasına düşdü, lakin döyüşlərin birində yaralanaraq sonralar şah olduqda belə onun adına ləkə gətirən xacə adını aldı.

Ağa Məhəmməd xanın ordusu Kərim xan Zəndin qoşunu ilə döyüşlərdə məğlub oldu, özü isə əsir düşdü.

Ağa Məhəmməd xanı şahın hüzuruna gətirəndə Kərim xan Zənd yerində otura bilməyib dikəldi, gözlərini heyrətlə girovuna zillədi.

Ağa Məhəmməd xanın kini, nifrəti gözlərində əks olunmuşdu.

Şah isə hələ də heyrətdəydi. Qarşısında yaraşıqlı, uca qamətli cavan əvəzinə başqa bir adam gördü. Qırış-qırış olmuş tüksüz sifət, kirpiksiz kinli gözlər, qaməti əyilmiş, kişiyə bənzəməyən, qadına oxşamayan bu məxluq doğrudanmı bir vaxt yaraşığı ilə göz oxşayan Ağa Məhəmməd xan idi? O, rəngsiz, büzüşmüş dodaqlarını bir-birinə sıxaraq davakar bir tərzdə şahın fərmanını gözləyirdi.

Kərim xan Zənd handan-hana heyrətli baxışlarını ondan çəkdi, ürəyində bu bədbəxt məxluqa qarşı bir rəhm duyğusu hiss etdi, bəlkə də ona görə qəzəblənmədən dedi:

– Sən mənə, mənim hakimiyyətimə qarşı çıxdın. Sən qoşun toplayıb, bu yolda qılınc çalıb şahlıq taxtına doğru can atdın. Lakin Allaha şükürlər olsun ki, məqsədinə çatmadan məğlub oldun. İndi qarşımdasan və qorxunc görkəminlə mənim ürəyimi yumşaltdın. Nə kişisən, nə də qadın. Bu mağmun halınla bilmirəm necə şah ola bilərsən? Mənə qarşı çıxdığına görə mən səni ya öldürməli, ya da gözlərinə mil çəkdirməliyəm. Lakin səni gördüm, başa düşdüm ki, sən elə haldasan ki, çəkdiyin cəza sənə verəcəyim cəzalardan daha ağırdır. Yaxşı olar ki, sən şahlıq iddiasından bir dəfəlik əl çəkib Allaha ibadətlə məşğul olasan, heç olmasa axirət dünyanı qazanasan.

Ağa Məhəmməd xan ona sərt cavab verdi:

– Mən Allaha daim ibadət eləyirəm. Bunu yada salmağa lüzum yoxdur. Lakin əgər sən mənə yaxşılıq eləmək istəyirsənsə onda imkan yarat. Heç olmasa ömrümü havayı keçirməmək üçün kitab oxumaqla məşğul olum.

– Mən sənə istədiyin şəraiti yaradaram.

...Kərim xan Zənd Qacarın xahişinə əməl etdi: Ağa Məhəmməd xanı özü tikdirdiyi Ərk qalasında saxlatdı. Ağa Məhəmməd bütün vaxtını kitab oxumağa, elm öyrənməyə sərf etdi. Kərim xan Zəndin əsirliyində qaldığı on altı il ərzində bir alim kimi məşhurlaşdı. O, müəllimi Şeyx Əli Tərcimidən dərs alaraq biliklər xəzinəsinə yiyələndi.

Ağa Məhəmməd xan gənclik illərindən az yeyər, çörəkdən qənaətlə istifadə edərdi. Hətta o, yeyəcəyi çörəyi tərəzidə çəkər, artıq tikəni götürərdi.

Ərk qalasında yaşayarkən İranın bu gələcək şahı yeməyini də özü hazırlardı. Xörəyə saldığı kərə yağı qalanın yaxınlığındakı baqqal dükanından alardı. Kiflənmiş yağ hər dəfə Qacarı əsəbiləşdirərdi. Bir dəfə o, yağı baqqala göstərib dedi:

– Bu yağ xarab olub. Mənə təzə yağ verə bilməzsənmi?

Baqqal gözlərini ağardıb, hər dəfə də Ağa Məhəmməd xanın üstünə bağırardı:

– Rədd ol. Yağ elə budu ki, sənə vermişəm.

Baqqalın hərəkətindən, bağırtısından pərt, peşiman olmuş Ağa Məhəmməd hirsini zorla boğub geri qayıdardı.

(Zavallı baqqal nə biləydi ki, hərəkəti, çığır-bağırı ilə bu çirkin, qorxunc adamın yaddaşında ilişib qalacaq. Bunun hesabını ödəməli olacaq.

İllər keçdi. Ağa Məhəmməd xan Səfəvilərin axırına çıxıb şah taxtına yiyələnən kimi bir vaxt ona kiflənmiş yağ satan baqqalı xatırladı.

Baqqal yenə Ərk qalasının yanındakı dükanda çalışırdı. Aradan uzun illər keçmişdi və baqqal da qocalmışdı. Şahın adamları onu qəflətən yaxaladılar və özünə gəlməmiş şahın hüzuruna apardılar.

Taxtda oturan adamı görəndə baqqal saraldı. Qorxunc, çirkin adamın gözlərindən qəddarlıq yağırdı. Baqqal onu tanımışdı.

Şah bağırtı ilə soruşdu:

– Qoca məni tanıdınmı?

Qoca diz üstə çöküb əllərini sinəsinə qoydu:

– Şah sağ olsun, siz qüdrətli hökmüdar, mən isə baqqal, mən sizi hardan tanıya bilərəm?

Şah yenə bağırdı:

– Diqqətlə bax qoca. Yaddaşını vərəqlə. Ərk qalasında yaşayan və əlində də kitab olan cavan bir oğlan hər gün səndən yağ alardı.

Baqqalın dili-dodağı əsdi:

– Məndən yağ alardı? Hə xatırlayıram.

– Bəs sən ona nə verərdin?

– Yağğğ...

– Özü də kiflənmiş yağ.

Şah bağırdı:

– Tez olun kiflənmiş yağı qaynadın. Bu baqqalı da qaynar yağın içinə atın.

Şah baqqaldan qisasını belə aldı).

* * *

Ağa Məhəmməd şah Qacar qisasını Kərim xan Zənddən də aldı. Amma ölümündən sonra...

Kərim xan Zənd İranda şahlıq etdiyi dövrdə böyük abadlıq işləri gördü. Şərqin böyük şairləri Hafiz Şirazi və Şeyx Sədi üçün xüsusi olaraq məqbərələr inşa etdirdi.

(Uzun illər İranın şahı olmuş Kərim xan Zənd xəstəlikdən vəfat etdi... Nəşi ortalıqdan götürülüb dəfn olunmamış Zənd sülaləsi bir-birinə dəydi. Şahın yerinə keçmək üçün mübarizə başlandı.

Kərim xan Zəndin nəşi ortalıqda idi. Sərvət bölüşdürənlər, taxt üstündə savaşa qalxanlar, vərəsəlik hüququ tələb edənlər bir-birinə qarışmışdı. Aradan dörd gün keçdi. Vəfat etmiş şahın qardaşı Zəki xan yuxusunda Hafiz Şirazini gördü. Böyük şair şahı hələ basdırmadıqlarına görə Zəki xanı tənbeh etdi ki, qəbirdə rahat yata bilmirəm. Çünki mənə məqbərə tikdirmiş Kərim xan Zənd dörd gündür ki, gor evində yatmır. Zəki xan bu yuxunu görəndən sonra şah torpağa tapşırıldı.

...Ağa Məhəmməd xan şah olan kimi Kərim xan Zəndi məzardan çıxarıb şah sarayının pillələri altında dəfn etdirdi. Hər dəfə saraya girib çıxanda ayağını onun basdırıldığı yerə qoyur, söyüş söyür, bununla da ürəyi soyuyaraq qisasını alırdı. Rza şahın dövründə Kərim xan Zəndin sümükləri pillələrin altından çıxarıldı və yenidən Şirazda boş qalmış məzarında basdırıldı).

...Uzun savaşlardan, zəfərlərdən, məğlublardan keçib gələn, bu yollarda gah büdrəyib yıxılan, gah ayağa qalxıb qüvvə toplayan Ağa Məhəmməd xan Qacar nəhayət məqsədinə çatdı – 1791-ci ildə İran taxt-tacının sahibi oldu.

Kərim xan Zənd bir vaxt sifəti tüksüz, gözləri kirpiksiz, üzü qoca qarıların üzü kimi qırışlı adamın şah ola biləcəyini ağlına da gətirməzdi. Çünki xacənin şah ola biləcəyi müşkül idi.

Lakin Ağa Məhəmməd xan iradəli, ölümdən qorxmayan, öz məqsədi uğrunda döyüşən sərkərdəydi. Sonsuz inadı onu hakimiyyət taxt-tacına qədər gətirib çıxardı. Ağa Məhəmməd şah Qacar da bütün İran şahları kimi qəddar və amansız idi. Naxçıvan xanlığı bu zalım, rəhimsiz şahdan az zülüm və işgəncə görmədi...

2

Günortadan keçmiş eşik ağası Zülfəli bəy İran şahından qasid gəldiyini Kalbalı xana xəbər verdi. Xanın rahatlığı onsuz da Ağa Məhəmməd şahın taxta çıxdığı gündən pozulmuşdu. Şah onu tabeliyində saxlamaq üçün girov tələb edəcəkdi. Ya qardaşlarını, ya da oğullarını. Onun gücü yalnız oğullarına çatardı...

Kalbalı xan içindəki əndişəni, gözəgörünməz tufanı biruzə verməyərək qasidi qəbul etdi. Qasid dinməzcə şahın məktubunu ona təqdim etdi. Xan dərhal məktubu açdı, baxışları ilə səssiz oxudu və başının hərəkəti ilə qəbul etdiyini bildirdi.

Qasid getdi.

Kalbalı xanın içindəki qasırğa, tufan üzə çıxdı. Şimşəyi gözlərinin içində çaxdı. Yağışı yağmadığından sanki zəqqum kimi zəhər boğazını acışdırdı. Əlləri ilə gicgahlarını tutaraq fikrə getdi: "Naxçıvanı indi də Qacar sülaləsinin fəlakəti gözləyir. Təzə İran şahı Naxçıvanı yenidən öz hökmüranlığı altına almaq istəyir. Bunun üçün girov istəyir. Görəsən oğullarımdan hansını göndərim? Əgər cızığımdan çıxsam göndərdiyim girovun ya başı kəsiləcək, ya gözü çıxarılacaq. Mənim kiçik bir səhvim, günahım oğlumun fəlakətinə səbəb olacaq...".

Kalbalı xan dərdini bölüşmək üçün Əli xanın ardınca adam göndərdi. Amma Əli xan Ordubaddan qayıtmamışdı.

Xanlıq iqamətgahından evinə erkən qayıtdı. Dinib-danışmadan, əhval sormadan keçib taxtda uzandı, əllərini başının altında daraqladı. Gözlərini yumdu. Sanki qapanmış kirpiklər onu başqa aləmdən ayırdı. Kalbalı xan öz-özü ilə tək qaldı.

...Qacarın göndərdiyi qasidlər bütün Azərbaycan xanlıqlarının qapısını döymüşdü. Xanlıqların başçıları təşviş, vahimə içindəydi. Fəlakətin soyuğu addım-addım Azərbaycan xanlıqlarını bürüyürdü. Bu soyuq indi, bu anlarda Kalbalı xanın içindəydi, ovxarlanmış xəncər kimi içini doğramaqda, parçalamaqda idi. Necə eləsin, neynəsin ki, sinəsini sipər eləyib bu soyuğun qarşısını

kəssin? Necə eləsin ki, yenidən zülümkar, tamahkar, acgöz İran sərbazlarını torpağına yaxın buraxmasın? Kimə güvənsin, kimə inansın? Kartli-Kaxeti çarı Rusiyaya pənah apardı. Rusiya ilə bağladığı müqavilə onu Ağa Məhəmməd şah Qacarın hücumlarından qoruyacaq. Ruslar onu müdafiə eliyəcək. Çünki ruslar da, gürcülər də xristiandır. Bəlkə ruslar dinə fərq qoymadılar? Yox buna da bel bağlamaq olmaz. "Girovu göndərəcəm. Amma atalar demiş: itlə dostluğunu elə, çomağını yerə qoyma. Mən də qalanı möhkəmlədərəm. Qalanın müdafiəsi üçün mənə qoçaq, igid sərbazlar lazımdır".

Ağır duyğular içində ürəyi yenə sancdı: "İran şahına hansı oğlumu girov göndərim: Ehsanı, Şıxəlini, Nəzərəlini, hansını... hamısı ürəyimin bir parçasıdır. Bu parçanı qoparıb göndərsəm ağrısına dözə bilərəmmi? Bu nə sözdü Kalbalı, sən ağlına gətirdin? Əgər lazım olsa hamısı getməlidi. Əgər ürəyin ağrısa ürəyini daşa döndər, qaya parçasına döndər. Səsin çıxmasın, iniltin, fəryadın eşidilməsin. Gözün ağlasa göz yaşını yağış kimi ürəyinin içinə yağdır. Oğlanların bu yolda həlak olsa belə belin bükülməsin, qamətin əyilməsin Kalbalı xan. Naxçıvanlılar səni əyilməz, məğrur görüb. Sənə ümid, etimad bəsləyib. Sən ruhdan düşmüş mağmun halınla düşməni sevindirər, Kəngərli tayfasının məğrur, igid, əyilməz Kalbalı xanını diri-diri basdırarsan...".

Kalbalı xan ah çəkdi. Sanki özü öz savaşından yoruldu, usandı, ayağa qalxıb özünü havaya vermək, fikirlərin yorduğu beynini ayazıtmaq istədi. Amma yenə özü öz içindən çıxa bilmədi.

Onun arxasınca gələn Tükəzban xanım çəkinə-çəkinə soruşdu:

– Nə olub Kalbalı, çox fikirlisən?

Kalbalı xan özü-özündən, öz iç dünyasından qopmadan dalğın-dalğın Tükəzban xanımın çisələkli gözlərinə baxdı, cavab vermədən başını döndərdi.

– Kalbalı – qadın onu təkrar titrək səslə çağırdı.

Kalbalı xan sanki bu səsi – əndişə, həyəcan dolu, pərişan səsi eşitmədi. Tükəzban xanım onun hələ də yaraşığını saxlayan uca qamətinə, şax yerişinə arxadan baxa-baxa qaldı. Fikri dolandı, xəyalı çox-çox uzaqlara getdi: vaxt var idi Kalbalı xan at belinə qalxanda xan qızları onun tamaşasına çıxardı. Gizli, tamarzılı, sevdalı baxışlar üstünə çiçək tək yağardı. Amma Tükəzban

xanım bilirdi ki, xan qızlarının içində Kalbalı xan təkcə onu bəyənmişdi. Yorğun ala gözlü dəliqanlının pünhan duyğularının hakimi, hökmüdarı o idi. Gözünün atəşi, ürəyinin sevgi yağışı onun könlünə, qəlbinə yağırdı. Harda itdi, harda bitdi o hicran dolu şirin, əzablı günlər? Gözlərindəki atəş soyuyub buzamı döndü? Sevgi yağışları yağıb qurtardımı? Eh, Tükəzban xanımın qəlbi hələ də o yağış həsrətindədi, gözü hələ də xan qızlarının qəlbini çalan o dəliqanlının arxasındadı. Nə tez bitdi o günlər, dadını-tamını itirdi dəli sevdalar. Səbr qocaldı, hövsələ kökdən düşdü. Hər nə vardısa hicranı, vüsalı, həsrəti, dəli-dolu sevdası ilə o illərdə qaldı. İndi fikir-xəyal içində çırpınan, oturuşmuş Kalbalı xanla o dəliqanlı arasında sanki əsrlər dayanıb. At belində qanadlanan, Tükəzbanı görən təki gözləri qaynayan o dəliqanlı elə bil heç yerli-dibli yox imiş...

Tükəzban ötüb keçən o illərin həsrəti ilə yanıb yaxılaraq ah çəkdi. Kalbalı xan bu yanıqlı ahı eşitdi, bircə anlıq öz qapalı dünyasından ayrılaraq diqqətlə arvadının çiskinli gözlərinə baxdı, sanki bu gözlərdə keçmişdən üzübəri at çapan dəliqanlını – özünü gördü və o, da kövrəldi. İstədi Tükəzban xanımın saçlarını tumarlayıb xoş söz desin, amma bacarmadı, astadan köks ötürdü:

– Ağa Məhəmməd şah məndən girov istəyib.

Tükəzban xanıma elə gəldi ki, bir göz qırpımında odun-alovun içinə düşdü. Alov bütün vücudunu bürüdü, gözlərinin içinə qədər yandı, ürəyinin başına qədər qarsalandı. Kalbalı xanın çiyinlərindən tutdu:

– Kalbalı xanlığı burax, baş alıb gedək. hara gəldi gedək.

– Hara gedək Tükəz?

– İrana, Turana, hara gəldi...

Kalbalı xan Tükəzban xanımın üzünü əllərinin içinə aldı, gözlərinə dəyişilmiş qınaqlı baxışla nüfuz elədi:

– Sən nə danışdığını bilirsənmi Tükəz? Namərdliyimi, qorxaqlığımı gördün?

Tükəzban xanımı yaş boğdu:

– Oğullarımı vermə...

Tükəzban xanımın içində sanki zəlzələ qopdu, dağ-daş parçalandı, qayalar uçulub töküldü və Kalbalı xan hayqırdı:

– Camaatı güdaza verim? O, oğlumu girov istəyir. Başa düşdün, oğlumuuu...

Sonra Kalbalı xan Tükəzban xanımdan aralandı, pillələri yavaş-yavaş yendi, xanlıq iqamətgahına çatanda, sanki beyni ayazıdı və xan qərarını verdi: "Abbasqulu xan girov gedəcək".

* * *

Xanvəli özünü qaranəfəs evə yetirdi, otaqları bir-birinə vurdu:

– Mədinə, ay Mədinə hardasan?

Mədinənin səsi həyətdən gəldi:

– Gəldim, Xanvəli.

– Hə, gəl görək.

– Nə olub Xanvəli, birtəhərsən ey?

– Gəl içəri, təzə xəbər var.

– Sən Allah.

Otaqda yerə salınmış gəbənin üstə diz-dizə oturdular. Xəbəri deməmişdən Xanvəli boynunu irəli uzadıb ətrafa baxdı, udqundu, yumurlanıb hədəqəsindən çıxan gözlərinin gizli əndişəsi ilə təzə xəbəri arvadına çatdırdı:

– İranın təzə şahı bizimlə müharibə eləməyə gəlir.

– Biznən, yəni ikimiznən? – Xanvəli ilə özünü göstərdi.

Xanvəli bircə anlığa qorxunu unudub qəşş elədi:

– Aaaz şahın başı xarab olub ki, iki nəfərlə savaşa qoşun gətirsin?

– Həəə? – Mədinənin bayaqkı təmkini yox oldu. Dizinə döyə-döyə yerindən qalxdı, istədi qonşuya qaça, hay sala, Xanvəli qoymadı.

– Ay qız, Mədinə bir özünə gəl.

– Hara oturum, evim yıxılır.

– Mədinə...

– Hey.

– Sənə qurban.

– Qurbanlıqdan keçib, sözunü de.

– Bəyəm İran şahı birinci dəfədi ki, Naxçıvana hücum eləyir? Aaaz, belə şeyləri çox görmüşük.

– Görmüşük ki, qorxuram.

– Biz fəqir adamlarıq. Varı-dövləti olanlar qorxsun ki, müflis olacaqlar.

– Nə olsun bizim də canımız gedəcək. Bəs Qacar niyə gəlir?

– Deyirlər Kalbalı xan İran şahını tanımaq istəmir. Şah da deyir, indiki tanımırsan gəl savaşaq.

– İran sərbazlarının ayağı təzə yığışmışdı ki...
– Başımız çəkmədiyi müsibət qalmadı.
– Xanvəli...
– Haycan.
– Canın be bəla. Dayan görüm.

Mədinə içəri otağa keçdi. Taxçada nəyi isə axtardı, tapdı. Sonra fərməşin (yorğan-döşək yığılan yük) yanındakı iri, naxışlı qədimi sandığı açdı. Əlindəki qılıncla Xanvəlinin yanına qayıtdı. Qılınc pəncərədən düşən günəşin şüası altında bərq vurdu. Xanvəli heyrətlə Mədinəyə baxdı, sonra da əlini qılıncın qəbzəsinə toxundurdu.

– Bu hardandı, Mədinə?
– Şahlara layiq qılıncdı, eləmi Xanvəli?
– Koroğlunun misri qılıncına da oxşayır, Mədinə onu hardan almısan, harda gizləyib saxlamısan?

Mədinənin gözləri şövqlə parıldadı:

– Bunu mənə anam verib.
– Anan? Həmin mənim qaynanam Xanpəri?
– Hə da bə. Xanpəri. Bu qılınc ulu nənəm Ümbülbəni xanımındır. O, öləndə vəsiyyət eləyib ki, bu qılınc qız nəvələrinə nəsilbənəsil çatsın. Çünki ulu nənəm cavanlığında çox igid bir qız olub. Bu qılıncla da düşmən qabağına çıxıb. Ulu nənəm Ümbülbəninin qoçaqlığı bütün Naxçıvan mahalına bəlliymiş. Bu qılıncla o, osmanlı türkləri və İran farsları ilə döyüşüb.
– Doğrudan? Bəs indiyə qədər niyə demirdin, ulu nənəmiz Ümbülbəni ilə öyünək.
– Deyilənlərə görə Ümbülbəni bəy qızıymış. Nişanlısı da bəy oğlu. Amma o, könlünü başqasına veribmiş. Bəyin sürülərini otaran Qaya adlı bir oğlana.
– Pah, eşq, məhəbbət heylə olar.
– And olsun Allaha. Ümbülbəni də ayı, günü göy üzünə çıxmağa qoymayan gözəllərdən imiş.
– Yəqin Qaya da qaya kimi möhkəm bir oğlan imiş.
– İlk əvvəl Ümbülbəni görür ki, Qaya ona məhəl qoymur, lap gözünün ucu ilə də baxmır. Neynəsin o bəy qızı, bu da ki, fağır çoban. Aralarında görünməz-bilinməz sədlər, uçurumlar... Qız deyib: – Qaya, qorxma gəl qoşulaq, qaçaq. Oğlan deyib, məni xataya salma qız, qoy sürüləri otarıb bir parça çörəyimi qazanım.

Şeytan kimi məni yoldan çıxarma. Bəyin əlləri uzundu, hara getsək axtarıb tapacaq. Qız deyib – sən qorxma, düş qabağıma.

– Ümbülbəni oğlanı qaçırır?

– Hə da bə. Ümbülbəni evdən puldan-qızıldan götürür, bir də bu qılıncı. Sübh tezdən bəy xəbər tutur ki, qızı bir çobana qoşulub qaçıb. Bir nərə çəkir ki, dağ-daş lərzəyə gəlir.

– Yəqin qoşun götürüb düşür aşiqlərin arxasınca.

– Yox, bəy sandıqda qılıncı görməyəndə sustalıb yerində oturur. Peşiman qayıdır ki, qılınc Ümbülbəninin əlindədi, iş-işdən keçib, biz onunla bacara bilmərik. Xanvəli, eşidirsən nə deyirəm, o vaxtdan bu qılınc düşmənlə döyüşüb. İndi də Qacar Naxçıvana hücum eləsə, bu qılınc da sandıqda yatsa, nənəmin ruhu məni rahat buraxmaz, cəzalandırar. Deyirlər qalada hər gün təlim keçirlər. Osman kişinin qızı Mahnur da gedir. Bəlkə biz də gedək? Qılınc çalmağı, tüfəng atmağı öyrənək.

– At sürə bilərsən, Mədinə?

– Ümbülbəni nəslinin bütün qızları at minəndə el tamaşasına durub Xanvəli.

– Hardan dedim, ordan bağladın Mədinə.

– Sən şəhərli, mən elat qızı. Uşaqlıqdan dağlarda o qədər at sürmüşük ki.

– Şəhərli olmağıma baxma. Elə mən də yaxşı at çapıram. Sabahdan getdik.

Xanvəli ayağa qalxdı:

– Mən getdim Hacı Əbülqasımın karvansarasındakı çayxanaya.

– Axşam düşür Xanvəli.

– İrandan keçib gələn tacirlər Əbülqasımın karvansarasına düşürlər. Biz də təzə xəbərləri onlardan öyrənirik.

Bunu deyib Xanvəli otaqdan çıxdı.

## 3

1795-ci il.

İsti yay gecəsi dan yerinin qızaran gözündə əriməmiş Ağa Məhəmməd xan Qacarın əsgərləri Xudafərin körpüsünə çatdı. Qaranlıq getdikcə tünd mavi rəng alır, səmanın döşü qızılgül ləçəyi tək allanırdı.

Xudafərin ağaran dan yerinin fövqündə möhtəşəm görünürdü. Sanki o qollarını açıb cənubla şimalı qucaqlamış, onları

birləşdirmişdi. Bu əzəmətli körpü Eldəgizlər dövründən yadigar qalmışdı. On bir və on altı aşırımlardan ibarət olan Xudafərini zamanın küləkləri uçura bilməsə də İbrahimxəlil xanın əsgərləri onunla qəddarcasına davranmış, Ağa Məhəmməd xanın ordusunun qarşısını kəsmək üçün körpünü dağıtmışdılar.

Xudafərinlə üz-üzə dayanan Ağa Məhəmməd xan körpüdən keçə bilməyəcəyini görüb yollar axtardı. Onun altmış minlik qoşunu, üstəlik iyirmi topu dağılmış körpüdən adlaya bilməzdi. Əsgərlər sahilə səpələndi və Arazı keçmək üçün taxtadan qayıqlar düzəltməyə başladılar. Xeyli vaxt keçdi. Qayıqlar hazır olanda Ağa Məhəmməd xan atla Xudafərinin dağılmış körpüsündən qorxu bilmədən keçdi. Əsgərlər isə qayıqlarla sahilə adladı. Günəşin qürub çağında bu qayıqlar özlərini suya vuran nəhəng quşlara bənzəyirdi.

...Qoşunun yenə ucu-bucağı görünmürdü. İrəlidə Ağa Məhəmməd xan gedirdi. Qaşları yenə düyünlü, gözləri kədərli idi. Gənclik illərindən onu yaxalayan bədbəxtlik, alnına vurulan əbədilik damğa bütün həzz duyğularını əlindən aldı. Bununla da iç dünyasının işığını əbədilik söndürdü. Xacəlik damğası qəlbinin dərinliklərində elə bir yaraya çevrildi ki, ağrısı və hüznü daim yaşadı, qövr eləyib yuxularına çiləndi, müharibələrdə qazandığı zəfərlərə zəhər tamını qatdı. Bu yaranın sağalmayan ağrısını, sızıltısını Ağa Məhəmməd xan yumruq kimi büküb ürəyinin dərinliyində gizlədirdi. Kimsənin onu duymasını, hiss etməsini istəmirdi. Lakin kimsə onu alçaltmaq, nifrətini biruzə vermək üçün bu yaraya toxunanda, qəsdən onu basıb ağrısını içinə dağıdanda Ağa Məhəmməd xanın polad iradəsi sarsılırdı. İçində püskürən vulkanın zərbindən sanki iç dünyasının işıqsız göy qübbəsi uçub tökülür, zəlzələnin şiddətindən Qacar az qala havalanırdı. Bəlkə də bu uçqunlar, zəlzələlər üzündən xeyirxahlıq nurunu qəlbindən həmişəlik sildi, iç dünyasının soyuğundan üşüyərək sanki gözlərindən, dodaqlarından isti gülüşü birdəfəlik yox elədi.

...Ağa Məhəmməd xan İranın ən səfalı yaylaqlarından olan Sultaniyyə yaylağında dincələrkən Qarabağ xanı İbrahimxəlil xanın İrana tabe olmadığı və qoşun topladığı xəbərini aldı. Əslində o, Qarabağ, İrəvan xanlıqlarından və Tiflisdən yanıqlı idi. Bu xanlıqlar ona girov göndərməmiş, vergi verməkdən boyun qaçırmışdılar. Lakin Qacar bu tezlikdə savaşa getmək istəmirdi. Uzun

sürən Kirman müharibəsi onu yormuşdu. Kərim xan Zənd sülaləsinin son varisi Lütfəli xan Zəndlə müharibə axır ki, Kirman şəhərində başa çatmışdı. Kirmanlılar Lütfəli xan Zəndin arxasında dayanmış, üstəlik Qacarın eyibini üzünə vurmuşdular. Ürəyindən yaralanmış Qacar qövr edən yarasının şiddətindən məğlub olmuş kirmanlılardan amansız və dəhşətli intiqam almışdı: şəhər Qacar əsgərlərinin əlində talan olub dağılmış, bütün kişilərin gözləri çıxarılmışdı. (Tarixdə görünməmiş bu cəza əslində Ağa Məhəmməd xana şöhrət yox, töhmət gətirdi).

...Şah atını çapır, qoşunun əldən düşüb yorulduğunu hiss etmirdi. O, dəmir kimi möhkəm və iradəli idi. Qacar bunu hələ çox-çox əvvəl – İran şahı Kərim xan Zəndin əsiri olduğu vaxtlarda sübuta yetirmişdi. Xatirində, yaddaşında yaşayan "o fövqəladə gündə" iradəli və inadcıl olmasaydı şah olmaq xəyalı əfsanə kimi qalacaq, o, ya qətlə yetiriləcək, ya da ayaqlar altında sürünəcəkdi.

Qacar indi də "o günü" xatırladı: 1778-ci ildə Kərim xan Zənd ölüm yatağına düşdü, bir daha ayağa qalxmadı. Şirazda əsir olan Ağa Məhəmməd xana xəbər gətirdilər ki, şah artıq son gününü, bəlkə də son saatını yaşayır. Qacar vaxt itirmədi. Özü ilə bərabər inandığı iki nökərini də götürüb gecə ikən Şirazdan çıxdı. Məqsədi şahın ölüm xəbəri Tehrana çatmamış özünü ora yetirmək idi. Şirazdan Tehrana doqquz yüz kilometr yol idi. Bu uzun məsafəni atla getmək, özü də tez getmək ağlasığmaz idi. Lakin yolun uzaqlığı Qacarı qorxutmadı. O, dişi-dırnağı ilə çarpışaraq məqsədinə doğru can atırdı. O, mütləq şah olmalıydı. Səfəvi sülaləsinin axırına çıxmalı, Qacar sülaləsinin əsasını qoymalıydı. O, düşmənlərindən amansız intiqam almalıydı...

Yay isti keçirdi. Belə bir vaxtda at çapmaq özü də çətin idi. Buna görə də yollarda sürətlə getməkdən atların bağrı çatlayıb yollarda qaldı. Nökərlərin özləri də yorulub əldən düşdülər, irəli getməyə taqətləri qalmadı. Lakin Qacar inadcıl və möhkəm idi. Düşmənlərinə zəfər çalmaq ehtirası qoluna qüvvət, dizinə təpər verərək onu daim irəliyə apardı. Doqquz yüz kilometrlik yolu Qacar gecələr də dayanmadan at çaparaq beş günə getdi və Tehrana çatdı. Şahın ölüm xəbəri hələ gəlib çatmamışdı. Qacar ölüm xəbərini qabaqladı, hazırlıq işlərini gördü və axır ki, şahlıq taxtına yiyələndi...

Ağa Məhəmməd xan çevrilib arxaya baxdı. At ayaqlarının səsindən dağ-daş lərzəyə gəlirdi... Qacar xan qoşuna xüsusi

diqqət yetirirdi. Onun əsgərləri dan yerinə səda düşməmiş oyanar, təlim keçər, qılınc çalmağı və tüfəng atmağı öyrənərdi. Ağa Məhəmməd xanın fikrincə döyüşdə gülləsi yan keçən əsgərin əlində tüfəng silah deyil, dəyənəkdir.

...Ağa Məhəmməd xan ətrafa diqqətlə baxırdı. Çöllərin, dərə-təpələrin sükutunu qaçaraq gedən atların kişnərtisi, nal səsləri pozmuşdu. Qacar xan bir anlıq savaşa, qan tökməyə getdiyini unutdu. Ürəyi başqa bir hisslə çırpındı: bu yerlər ov ovlamaq üçün çox münasib idi. Ürəyinin dərinliyində dəli bir istək oyandı. Qacar xanı gənclik illərində ova çıxmağı xoşlardı. Xüsusi ilə tülkü ovuna getməkdən dərin bir zövq və nəşə duyardı. Ovladığı tülküləri isə nə öldürər, nə də hədiyyə verərdi. Heç kəsin ağlına gəlməyən bir işi görərdi: tülkünün boynuna zınqırov asar, sonra onu çöllü-biyabana buraxardı. Tülkü azadlığa çıxınca sevinərdi. Amma qaçdıqca zınqırov səslənər, ov qaçar, Qacarın aclığa məhkum etdiyi tülkü, əzablı-işgəncəli bir həyata başlayar, ölmək istəsə belə zınqırov səsləri ölümü ondan uzaq qaçırardı...

...Şahlıq taxtına yenicə əyləşdiyi günlər idi. Hər axşam Qacarın nədimlərindən olan Şeyx Cəfər Tonkabuni ona kitab oxuyardı. Belə gecələrin birində qulaqlarına indiyədək duymadıqları vəhşi, qorxunc bir səs gəldi. Qəribə bir heyvan aramsız ulayır, sanki kimi isə köməyə, haraya çağırırdı.

Qacar xanı diqqətlə səsə qulaq verdi, amma bu qorxunc səsin hansı heyvana aid olduğunu ayırd edə bilmədi. Şeyx Cəfərdən soruşdu:

– Bu səsi sən də tanımadın? Hansı heyvandır?

Şeyx Cəfər çiyinlərini çəkdi:

– Bu yəqin ki, azıb gəlmiş bizim tanımadığımız bir heyvandır. Şahı maraq götürdü. Həmin heyvanın tutulub onun hüzuruna gətirilməsini əmr etdi. Az keçmədi ki, heyvanı gətirdilər. Qacar heyvanın boynunda öz əli ilə asdığı zınqırovu görüb tanıdı və heyrətdən gözləri böyüdü. Aclıq tülkünü tanınmaz hala salmışdı...

* * *

Ordu Qarabağa tərəf irəliləyirdi. Gecə birdən-birə yağış yağmağa başladı. Sonra şiddətləndi. Sanki qapqara buludlar işıqlı ulduzların üzünə qapandı. Sonra şimşək çaxdı. Göy üzü bir anlıq işıqlanıb yenə qaraldı. Şimşək çaxdıqca yağış da şiddətləndi. Ağa Məhəmməd xan yalnız bu zaman qoşuna dincəlmək əmrini

verdi. O anda əsgərlər ətrafa səpələndi, çadırlar quruldu. Aşbazlar da öz işinə başladı.

Qacar xanın xüsusi alayında şam yeməyi hazırlandı. Sonra Qacar xanına şam yeməyi gətirdilər. Adi süfrədə kiçicik çörək parçasını götürdü, azlığını-çoxluğunu yoxladı və könülsüz bir tikə kəsdi. Qacar xanı hələ gənclik illərindən ləziz yeməklərdən nəfsini çəkmişdi. Çörəyi tərəziyə qoyub çəkmək vərdişi ilə artıq tikə yeməkdən imtina etmişdi.

Lakin Qacar xanı da bütün İran şahları kimi sərvət yığmağa aludə idi. İran tarixində ən böyük sərvəti Nadir şah yığmışdı. Onun Kəlatdakı yeraltı xəzinəsi bəlkə də dünyada ən böyük xəzinə olmuşdu. Nadir şah 1734-cü ildə Azərbaycana hücum edərək onu dağıtdı. Talan zamanı Lazar adında bir erməni şahın itaəti altına keçdi. O vaxt müsəlman xanlarının etimadını qazanmaq istəyən ermənilər "La iləha illəllah, Məhəmmədən Rəsul Allah" sözlərini əzbərləyərək guya müsəlmanlığı qəbul edirdilər. Erməni Lazar da bu yolla "müsəlmanlığı qəbul etdi". Nadir şahın qılığına girərək, onun etimadını qazandı. Şah bu çoxbilmiş erməniyə məliklik verdi, sonra isə yanına münşi-mirzə götürdü.

Nadir şahın qətlindən sonra Kəlatdakı xəzinəsi Əliqulu Mirzə tərəfindən dağıdılanda o vaxt orda olan Lazar da qiyməti hesablana bilməyən brilliantlar oğurladı. Lazar qorxusundan bu qiymətli daş-qaşı yanında saxlamağa ehtiyat etdi. Oğurluq sərvəti Rusiyaya yaxın qohumu Şefrasa göndərdi. Sonralar Lazarın oğlu Davud Lazarev həmin brilliantlara sahib oldu. Əldən-ələ keçən daş-qaşlar axırda II Yekaterinaya qismət oldu.

(Vaxtı ilə Nadir şahın olmuş bu qiymətli brilliantlar Moskvada "Silah palatası"nda saxlanılır və altında da yazılıb: bu brilliantları qraf Q. Orlov II Yekaterinaya hədiyyə etmişdir).

* * *

...Şuşaya yaxınlaşdıqca Ağa Məhəmməd xanın düyünlü qaşları bir az da sıxlaşır, soyuq gözlərinin içindən bir narahatlıq tufanı ötüb keçirdi. Öz iç dünyasına çəkilərək sanki öz-özü ilə məşvərət aparırdı. Xanın iti ağlı zehninə işıq tutaraq onu səhv düşüncələrdən, səhv addımlardan qoruyurdu. Qacar xanı düşünürdü: "Tezliklə Şuşanı işğal edib, qoşunu Tiflisə çəkməliyəm. Kirmanlılar kimi birdən şuşalılar da təslim olmaq istəmədi? Mən payızda Kirman şəhərinə qoşun çəkdim. Kirmanlılar qala qapıla-

rını açmayaraq müqavimət göstərdilər və Kirmanın uzun sürən sərt qışına bel bağladılar. Amma mən inadımdan dönmədim. Qala divarlarının yaxınlığında əsgərlərim üçün şəhərcik saldırdım ki, onlar soyuqdan və şaxtadan əziyyət çəkməsinlər. Yazda kirmanlıların inadını qırdım...

Kirman şəhərini işğal etmək üçün vaxt var idi. Şuşanın işğalı üçünsə vaxt yoxdur. Mən bu dağlarda qışı gözləyə bilmərəm. Bu dağlarda yubansam Gürcüstan çarı II İrakli rus çarı II Yekaterinadan kömək alıb qüvvətlənəcək. Sonra II Yekaterina İrana əl yetirəcək... Yox, Tiflisi işğal etmək daha vacibdir".

Ağa Məhəmməd xan qətiyyətlə irəli gedirdi. Qacar qoşunu sürətlə Şuşaya yaxınlaşırdı.

* * *

Şuşanın dağları isə sanki savaşın qoxusunu almışdı. Yağışını, duman-çənini ətək-ətək Şuşanın yollarına səpirdi. Dağların zirvəsindəki çən yollara, izlərə çökürdü. Sanki Qacar əsgərlərini irəli buraxmaq istəmirdi. Elə bil bununla da şuşalılara düşmənlə döyüşə vaxt fürsəti verirdi.

İbrahimxəlil xanın sarayında məşvərət gedirdi. Şuşalılar savaşa səfərbər edilmişdi. İbrahimxəlil xanın atası tədbirli Pənahəli xan Şuşanı binə edəndə onun müdafiəsini də düşünmüşdü: daş hasarlar şəhəri hər tərəfdən daş ovcunda saxlayırdı. Bu hasarlar elə möhkəm idi ki, hətta düşmən topları da ona kar edə bilməzdi. Əgər qalanın hasarlarının altından lağım atmaq istəsəydilər yenə əlləri boşa çıxardı. Çünki bünövrə də daşdan idi, onu deşib yol açmaq müşkül idi. Şuşanın içməli suyu öz içindən qaynayıb çıxırdı – burda da düşmənin əli boşa çıxırdı. Çünki suyu kəsib əhalini susuz qoya bilməzdi.

...Ağa Məhəmməd xan qala divarlarının yanında dayandı. Əsgərlər hasarları dağıtmaq üçün top atmağa başladılar. Lakin hasarlar möhkəm idi. Qacar hara əl atdısa əli boşa çıxdı.

Dağlar yaraşığı Şuşa düşmənlə döyüşə hazır idi.

* * *

Şuşanın mühasirəsi uzanırdı...

Ağa Məhəmməd xan Qacarın səbri tükənir, hövsələsi daralırdı. Toplar ara vermədən atəş açır, lakin şəhərə girmək üçün qala hasarlarını dağıda bilmirdi.

...Qacar yollar düşünərkən qəflətən qalanın darvazaları açıldı. İbrahimxəlil xan min nəfər süvari ilə Qacar qoşununa hücum etdi. Bu gözlənilməz həmlədən xanın əsgərləri özlərini itirdilər. Darvazaların açıldığını görən Qacar dərhal top atəşini dayandırmadan əsgərlərinə darvazalara tərəf hərəkət etməyi əmr etdi. İbrahimxəlil xan düşmənin niyyətini duyub başının dəstəsi ilə özünü darvazalara çatdırdı, qapılar yenidən Qacarın üzünə bağlandı. Hər iki tərəfdə xeyli təlafat oldu.

Qacar xanı qəzəbləndi. Şəhərə girmək fürsəti əlindən çıxdığından sanki içindəki zəhər gözlərinin kökünə çökdü. Şuşanı almaq üçün əlavə kömək gəlsə də Qacar Şuşanı məğlub edə, diz çökdürə bilmirdi. Havayı gedən vaxt isə onun əlindən Gürcüstanı çıxarırdı.

...Qacar xanı sarayında qulluq edən Pirqulu xanı yanına çağırdı. Pirqulu xan İbrahimxəlil xanla bir vaxt dost olmuşdu. İndi içəri girəndə Qacarın kinli gözlərindən canına üşütmə düşdü. Qacar ona əhəmiyyət verməyərək masanın üstündəki məktubu Pirqulu xana verdi:

– Oxu.

Pirqulu xanın bənizi ağardı, əlləri əsdi:

– Oxuyum, şəhriyar, baş üstə.

Qacar qaşlarının düyününü açmadan, gözlərini Pirqulu xandan çəkməyərək ağır-ağır dedi:

– İbrahimxəlil xana məktub göndərdim. Məktubda yazmışdım: "Əgər təslim olsan və vergi versən, müharibədən əl götürsən səni cəzalandırmayacağam". Sonra bu şeri də əlavə etmişdim:

**Fələyin mancanağı tökürkən fitnə daşını**
**Qaçıb əbləh kimi sən şişəyə soxdun başını.**

İbrahimxəlil xan mənim göndərdiyim məktuba iki sətir şerlə cavab verib. İndi həmin şeri oxu.

Pirqulu xan iki sətir şeri birnəfəsə oxudu:

**"Tanrı üstümdədir qoruyur məni**
**O lap daş qoynunda saxlar şişəni"**

Pirqulu xan başını buladı, qorxaq səslə dedi:

– Onun vəziri şairdir. Molla Pənah Vaqif. Bu şeri də o, yazıb.

Qacar ona məhəl qoymadı:

– Deməli belə çıxır ki, İbrahimxəlil xan təslim olmaq istəmir. Müharibəni davam etdirmək, Ağa Məhəmməd xana meydan oxumaq fikrindədir?

– Şəhriyar, siz qışı burda qalmaq niyyətindəsiz?

– Yox. Gürcüstan çarı II Yekaterinadan kömək istəyib. Rus çarı İranla müharibəyə başlamaq üçün girəvə axtarır. Çünki I Pyotrun vəsiyyətində İran haqqında xüsusi tapşırığı var. Pyotr öz varislərinə məsləhət görür ki, "cürbəcür tədbirlər görmək lazımdır ki, Rusiya dövləti istədiyi vaxt onu (yəni İranı) zəhmətsiz öldürməyə qadir olsun". Pyotr sonra vəsiyyətində yazmışdır: "Gürcüstan ölkəsi İranın şah damarıdır. Rusiyanın təsəllüt neştəri həmin damara yetişərsə, filfövr ürəyinin zəif qanı açılacaq və onu elə bihal edəcəkdir ki, min Əflatun dirilib gəlsə də onu islah eləyib sağalda bilməz. O vaxt İran ölkəsi Rusiya padşahlarına dəvə kimi müti olacaqdır..." Pirqulu xan sən mənim ən yaxın adamlarımdan birisən. İndi bildinmi ki, mən nə üçün Qarabağda müharibəni tez başa çatdırıb Gürcüstana getmək istəyirəm?

Qacar xanının etimadı Pirqulu xanı ruhlandırdı:

– İranla bağlı I Pyotrun vəsiyyəti II Yekaterinanın heç yadına da düşmürdü, Şəhriyar. İndi nə oldu, birdən-birə?

– Bilirsən nə üçün yada düşmürdü, Pirqulu xan? Çünki II Yekaterina rus deyil, o, alman şahzadəsidir. I Pyotr vəsiyyətində məsləhət görür ki, "Rusiya şəhzadələri həmişə Almaniya əsilzadələrindən, nüfuzlu adamlardan, valilərdən, rütbə sahiblərindən qız almağı unutmamalıdır. Belə qohumluq həmişə bizə fayda verər". Alman şəhzadəsi II Yekaterinanı rus şəhzadəsi III Pyotra aldılar. Rus şahzadəsi o qədər də ağıllı adam deyildi. III Pyotr hakimiyyətə keçəndən az sonra qardaşları tərəfindən öldürüldü və II Yekaterina onun yerinə keçdi. I Pyotrun İran haqqında vəsiyyətini rus çariçasının yadına salan hərbiçi Potyomkin oldu. Potyomkin Yekaterinanın sağ əli idi, o güclü rus ordusu yaradıb. Potyomkinin köməyi ilə Krım yarımadası rus torpağına qatıldı. Pirqulu xan, əgər Gürcüstan rus qoşunu ilə möhkəmlənsə bu qoşun sonra İranla müharibəyə qalxacaq. Ona görə də mən Şuşa qalasının işğalı üçün vaxt itirmək istəmirəm. Lakin geri çəkilmək də istəmirəm. Çünki buradan əliboş qayıtsam bu

Azərbaycan xanlıqlarını da itaətdən çıxarar, mənim hərbi şöhrətimə kölgə salar. Eşitdiyimə görə sən İbrahimxəlil xanla dostsan?

– Elədir, şəhriyar.

– Mən bu dağlarda qalıb qışlamaq, İranı rus ordusu ilə üz-üzə buraxmaq istəmirəm.

– Mən sizin nə dediyinizi başa düşdüm. Mən İbrahimxəlil xanla danışığa gedər, onu sizdən əfv diləməyə razı salar, bununla da müharibəni dayandırmağa səbəb tapasınız...

Qacar məmnun halda başını tərpətdi.

* * *

Ertəsi gün İbrahimxəlil xanla danışığa gedən Pirqulu xan taxtadan düzəldilmiş oturacağa oturdu və onu iplə hasardan yuxarı çəkdilər. Xan onu xoş sifətlə qarşıladı, qucaqlaşdılar, sonra xan onu yuxarı başa keçirdi.

Danışıq xeyli çəkdi. İbrahimxəlil xanın üzündə qətiyyətli və mərdanə bir ifadə vardı. Başını bulayıb istehza ilə gülümsədi:

– Biz təslim olmaq niyyətində deyilik, Pirqulu xan. Ərzaq ehtiyatımızı görmüşük. Qarabağın kəndləri Qacar əsgərləri ilə döyüşməkdən çəkinmir. Biz xacə damğası ilə damğalanan adama tabe olmaq istəmirik. Son nəfərə qədər vuruşacağıq.

Pirqulu xan dediyindən dönmədi:

– Ağa Məhəmməd xan inadcıl, özü də kinli adamdır. O, Şuşanın mühasirəsini o qədər uzadacaq ki, camaat acından qırılacaq. Kirmanlıların başına açdığı müsibət buna sübutdur. Camaatı havayı ölümə vermə. Onları Qacarın qəzəbindən qoru. Kirman şəhərini işğal edən Qacar bütün kişilərin gözlərini çıxartdırdı. İndi Şuşanı da belə bir faciə gözləyir. Onları xilas etmək sənin əlindədir, İbrahimxəlil xan.

– Onsuz da İran sərbazları ətraf kəndlərə qan uddurur.

– Lakin məğlub olsanız Qacar heç kəsə rəhm etməyəcək. Mən kəsdiyimiz duz-çörəyə görə Qacardan rüsxət alıb, buraya gəldim.

– Bəs camaat? Onlar məni qorxaq bilib töhmətləndirər.

– Sən camaatla danış, vəziyyəti başa sal.

İbrahimxəlil xan xeyli düşündü, qayğılı gözləri Pirqulu xanın üzünə zilləndi:

– Qərarımız bu idi ki, Qacar qoşunu qaladan içəri girsə uşaqlı-qadınlı hamısını özümüz öldürək ki, yağıların əlinə keçməsin.

– Görürsənmi xan, günahsız adamları öldürməklə Allahın yanında nə qədər günaha batarsız?

– Mən bilirəm, sən bizim yaxşılığımızı istəyirsən, Pirqulu xan.

– Həm sənin, həm də Qacar xanının. Kirman müharibəsi Qacar xanını rəhimsiz və zülümkar şah kimi tanıtdı...

– Yaxşı Pirqulu xan, mən elə indi bağışlanma məktubunu yazaram.

...Və Pirqulu xanın vasitəçiliyi müharibəyə son qoydu. İbrahimxəlil xanın əfv olunma məktubu və qala hasarının üstə çıxaraq bütün Qacar qoşununun qarşısında Qacar xanına bağışlanma müraciəti qəbul olundu. Şuşanın otuz üç günlük mühasirəsi sona yetdi.

Lakin Ağa Məhəmməd xan Qacar yarımçıq qalmış müharibəni öz məğlubiyyəti kimi qəbul etdi və kinə, nifrətə büküb ürəyinin dərinliklərində gizlətdi. O, qoşunu Gürcüstana çəkdi.

4

Gürcüstan çarı II İrakli Gürcüstana hərəkət edən Ağa Məhəmməd xanla müharibəyə hazırlıq görürdü. Lakin o, bütün ümidlərini rus çariçası II Yekaterinaya bağlamışdı. Günlər keçir, Qacarın ordusu addım-addım yaxınlaşır, rus qoşunlarından isə xəbər çıxmırdı. Knyaz sarayı qorxu və təşviş içindəydi. Üstəlik Qarabağ xanı İbrahimxəlil xandan aldığı məktub gürcü knyazının əndişəsini daha da artırmışdı. İbrahimxəlil xan yazmışdı: **"Məhəmməd şah qalanı işğal etməkdə aciz qalmışdır. Qoşuna və minik heyvanlarına çoxlu ziyan dəymişdir. Məğlubiyyəti düzəltmək üçün Tiflisi almaq və Gürcüstan kəndlərini işğal etmək fikrindədir. Onun fəsadının və istilasının qarşısını almaq tədarükündə olun".**

Knyaz düşünür, qəlbində ümid qor kimi alışır, lakin inamsızlıq, qorxu onu eyni anda da üfürüb keçirir, üzüüstə buraxırdı. Knyaz düşünürdü: "Qacar Şuşanı ala bilmədi. Şuşa dağlıq yerdədir. Şuşanın qalası möhkəmdir, bəlkə də ona görə. Tiflis də dağlıq yerdədir. Mənim sarayım ən uca dağın üstündədir. Amma burda çox əsgər saxlamaq olmaz. Su da dağın özündə yoxdur,

kənardan gəlir. Düşmən onu kəsməklə bizi susuz qoya bilər. Tiflisin evləri təpələrin üstündə, ətəyindədir. Hər ev düşmənlə döyüşə girə bilər. Lakin Qacarın çoxminlik qoşununa qalib gələ bilərmi? İnanmıram... Tiflisin qalası yoxdur ki, biz darvazaları bağlayıb düşməni içəri buraxmayaq. Yekaterina kömək göndərmədi... Biz düşmənlə təkbətək qaldıq. İsa, Məryəm köməyimiz olsun...". Knyaz xaç çevirdi. Ürəyinin içindən üşütməli sazaq keçdi: "Birdən məğlub olduq? Və yaxud özüm əsir düşdüm, oğullarım həlak oldu? Düşmən üstün gələn kimi oğullarımı, yaxın adamlarımı da götürüb Tuşetə çəkilməliyəm. Qacarın Tuşetə əli çatmaz". Knyaz özü öz qərarından yüngülləşdi, içindəki ümid qoru təzədən alışdı.

* * *

Qacar xanı sürətlə Tiflisə yaxınlaşırdı. Səksən minlik piyada və süvari qoşunu dayanmadan irəliləyirdi. Piyada qoşununun arxasınca zənburəklər gəlirdi (dəvələrə yüklənmiş toplar).

Şəhərə yaxınlaşanda dar yolda Qacar ordusu Gürcüstan çarının on beş minlik qoşunu ilə üz-üzə gəldi. Lakin döyüş çox çəkmədi. Gürcülər son nəfərinə qədər məhv oldu, sağ qalanlar əsir düşdü. Təmizlənmiş Tiflis yolu düşmənin üzünə açıldı. Öldürülənlər və əsir düşənlər arasında İraklini və oğlanlarını tapa bilmədilər. II İraklinin qaçıb gizlənməsi Qacar xanını qəzəbləndirdi Ordunun məğlubu, çarın gizlənməsi Tiflis əhalisinin döyüş əzmini qırdı. 1795-ci il sentyabrın 2-də Qacar qoşunu Tiflis şəhərinə girdi. Qacar xanının yanına yetmiş nəfər gürcü gəldi. Onlar təslim olduqlarını, əfv dilədiklərini bildirdilər. Xahiş etdilər ki, şəhər talan olmasın, kimsəyə toxunulmasın. Lakin Qacar xanı gürcü knyazından qəzəbliydi, onun rus çarından kömək istəməsi, üstəlik qaçıb gizlənməsi qisas hissini soyuda bilmədi. Qacar xanı yetmiş nəfərin başının kəsilməsinə fərman verdi. Tiflis Kirman şəhərinin taleyini yaşadı. Şəhər İran sərbazlarının ixtiyarına verildi. Talanlar, qətllər başladı. Günahsız adamlar ucdantutma qılıncdan keçirildi. Kilsələr dağıdıldı, evlər xarabazara çevrildi. İran sərbazları on beş min nəfər cavan oğlan və qızı əsir götürdülər. Sonralar onlar qul bazarlarında satılaraq sahiblərinə çoxlu pul qazandırdı. (Tiflis faciəsi də Kirman faciəsi kimi Ağa Məhəmməd xan Qacarın hərbi şöhrətinə xələl gətirdi).

* * *

Çayxana yenə tünlük idi. Xanvəli boş yer tapa bilməyib Salavatın yanında ayaqüstə dayandı. Ələmşah divarın dibindəki stulda dizlərini sıxıb yumaq kimi bükülmüşdü. Xanvəli onun fağır görkəminə, qırışlar içində itib batmış tək gözünə, ağarmış saqqalına, qaşlarının üstünə qədər düşən nimdaş papağına baxıb qımışdı: "Vallah bəlkə də bu Ələmşahın yüz yaşı var. Gözümü açıb onu necə görmüşəmsə eləcə də var. Zarafat deyil ey. Nadir şahı taxtda görüb. Bu yazığın gözü çıxanda görəsən neçə yaşı varmış? Bəlkə də iyirmi...".

Salavat Xanvəlinin qoluna toxundu:

– A bala Xanvəli, otursana.

Xanvəli gözünü Ələmşahdan çəkib hamısı ilə görüşdü. Ələmşaha əl verəndə qımışdı:

– Nə var, nə yox Ələmşah dayı?

– Tay bundan artıq nə olacaq, a bala?

– Təzə xəbər almısız, Ələmşah dayı? – Xanvəli içini çəkdi.

– Eşitməmisən? – Salavat qaşlarını dartdı. – Yəqin neçə gündü çayxanaya, məscidə gəlmirsən?

– Nasazıydım.

– Canına sağlıq – Salavat soyumuş çayı ağzına aparıb təkrar nəlbəkinin içinə qoydu – İranın şahı Tiflisi yandırıb külünü çıxarıb.

Xanvəlinin gözləri iriləndi:

– Deynən sən öl.

– Sən öl.

– Bura bax o qansız niyə heylə eləyib? Allahdan, tanrıdan qorxusu yoxdumu?

– Nə bilim, Qacar İranda, mən burda.

– Ölən çoxdu? – Xanvəlinin canındakı üşütmə bir az da artdı.

– Tiflis tərəfdən bir tacir gəlmişdi, deyirmiş ki, Qacar şəhərə girəndə yetmiş nəfər yanına gedib ki, ölüm-itim olmasın, əsgərlər namusu ayaqlar altına atmasınlar.

– Bir sözlə aman istəyiblər – Ələmşah başıaşağı hövsələsiz dedi.

– Hə da bə. Amma Qacar o yetmiş nəfərin başının kəsilməyinə fərman verib. Sonra da şəhəri verib cəllad, qaniçən əsgərlərin ixtiyarına.

Xanvəlinin əti ürpəşdi, gözləri böyüdü. Sanki qulağına fəryad səsləri gəlirmiş kimi ürəyi təlatüm içində çırpındı:

– Birdən Qacar Naxçıvana da hücum eliyər, Salavat, onda biz neyniyərik?

Salavat başını çayxanadakı adamlara çevirdi:

– Elə bayaqdan bu camaat da onu danışır, Xanvəli.

Salavatın sarımtıl qaşları gözlərinin üstünü örtdü, qaşların altından qonur gözləri parıldadı.

Ələmşah başını tərpətdi:

– İnanmıram, Kalbalı xan Qacarı Naxçıvana buraxa.

– Kalbalı xan Qacar qoşununa üstün gələmməz Salavat.

Salavat sanki təskinlik kimi inadından dönmədi:

– Kalbalı xan ağıllı, tədbirli adamdı. O, siyasət işlədib milləti qoruyacaq.

Qonşu masada oturub söhbəti dinləyən ahıl kişi Salavata sarı çevrildi:

– İrandan bir qonağım vardı. Tiflisin müsibətini eşidəndə çox mütəəssir oldu. Sonra Qacar xanının Kirman şəhərindəki camaatın başına açdığı müsibəti danışdı. Qacar çox rəhimsiz, qanіçən imiş. Allah sən saxla... Kirmanda nə ki, kişi xeylağı varmış ucdantutma gözlərini çıxartdırıb.

Ələmşah qeyri-iradi əlini tay gözünün üstə qoydu. Ona elə gəldi ki, çıxarılmış gözünün yarası təzədən qövr elədi. Dəyişilmiş səslə Salavatdan soruşdu:

– Əyə, bu şahın Allahı yoxdumu?

– Niyə yoxdu? Gündə üç dəfə alnını möhürə vurur...

– Bu zülmün qabağında onun orucu, namazı havayı gedir. Mən ölü, siz diri, bir gün onun da başı əllərdə qalar.

Çayxana getdikcə dolurdu. Səs-küy çoxalır, təşviş, həyəcan içində boğulan adamlar ürəklərini boşaltmaqla sanki bir ümid işığı axtarırdılar.

Salavat əlini Ələmşahın çiyninə qoyub pıçıltı ilə soruşdu:

– Neçə yaşın var, Ələmşah?

– Nə bilim, anam deyərdi ki, mən bərk qar yağan ili anadan olmuşam. O ili Naxçıvanda görünməmiş qar yağdı.

Salavat başını aşağı əyib xısın-xısın güldü:

– Əşi, o qardan Naxçıvana hər il yağır. Sənin yaşın çox olar, Ələmşah, bir şey ki, Nadir şahı taxtda görmüsən. Soruşduğum

başqa şeydi: Nadirdən bu tərəfə Qacardan zalım padşah olubmu?

Ələmşah cavab vermək istəyəndə içəri girən boyaqçı Kərimi gördü, sevincək onu çağırdı:

– Ay Kərim gəl bəri. Sən bizdən çox bilirsən.

Kərim oturanlara əl verdi, sonra da Ələmşahla üz-üzə durdu:

– De görək.

– Burda bilən yoxdu ki, Qacar Tiflisi niyə yandırdı, o binəva adamların başını niyə kəsdirdi?

Kərim içini artladı, öskürdü, sonra ucadan dedi:

– Çünki gürcü knyazı müharibədə uduzanda Qacara təslim düşmədi, oğlanlarını da götürüb qaçıb gizləndi. Gürcü knyazının ikinci günahı o idi ki, ruslarla ittifaq bağlayıb itaətində olduğu İrandan üz döndərdi. Gürcü knyazının üçüncü günahı o idi ki, Qacar Tiflisə qoşun yeridən kimi o rus padşahından kömək istədi ki, ruslarla birləşib Qacarı məğlub eləsin.

Kənarda oturanlar söhbəti kəsib boyaqçı Kərimə qulaq kəsildilər. Feyzullah da söhbətə qoşuldu:

– Urus da gürcüləri meydanda tək qoydu...

Kərim başını ona tərəf çevirdi:

– Urus gürcü ilə din qardaşıdı. Urus niyə yubandı, bilmirəm. Amma deyirlər Tiflisdə çoxlu erməni də ölüb.

Feyzullah əlini dizinə vurub vaysındı:

– Deynən sən öl. Tiflis yanandan mənim də bazarım yanıb. Ermənilər məndən nə qədər gön, dəri alıb aparırdılar.

– Tiflisdəki müharibə mənim də bazarıma od saldı Feyzullah, – Kərim başını buladı – boyadığım sapları tay vurmuşam. Yaxşı müştərilərim vardı, hayıf.

– Əşi hayıf Tiflisə ki, yanıb kül oldu. Camaat can dərdi çəkir, siz mal dərdi. – Ələmşah üzünü təkrar boyaqçı Kərimə tutdu: – Bəs nə təhər oldu ki, Qacar Şuşanı ala bilmədi? Hayy. Şuşaya bata bilmədi?

– Vallah burasını mən də bilmirəm. Amma deyilənə görə İbrahimxəlil xanın özü çox igid adamdır.

– Yəni Kalbalı xandan da igiddir?

– Yox, Kalbalı xana çatammaz, nədən ki, o ili İbrahimxəlil xan Şərur düzündə Kalbalı xanın dəstəsinə məğlub oldu. Yadına düşdümü? Amma mənə belə gəlir ki, Qacar bir də Şuşaya qayıdacaq.

– Ay onu görüm Şuşada gor evi tapsın, – Ələmşah sidq-ürəklə qarğış tökdü. – Kərim sən bizdən ağıllısan. Bu padşahlar ki, var ha, baş kəsib, göz çıxardır ha, görəsən onlar namaza oturanda Allahın qabağına necə çıxırlar? Günahlarını bağışlatmaq istəyəndə Allaha nə deyirlər?

– Mən padşahla oturub-dururam Ələmşah? Hardan bilim?

Yuxarı başdan kimsə soruşdu:

– Görəsən Kalbalı xan nə düşünür?

Kərim çiyinlərini çəkdi:

– Onu biz bilə bilmərik. Amma o var ki, Kalbalı xan İran şahı Qacara Abbasqulu xanı girov göndərdi, üstəlik vergi də verir.

Çayçı Rəcəb bir stəkan təzə dəmlənmiş çayı Kərimin qarşısına qoydu:

– Yəni Kərim qardaş, deyirsən Qacar Naxçıvana gəlməyəcək? Amma mən inanmıram. Nə qədər ki, müharibə başlamayıb camaat gərək başının çarəsini qılsın.

Kərim hirslə dolu stəkanı çayçı Rəcəbə tərəf itələdi:

– Düşmən qabağından qaçan naxçıvanlıya bu torpağın çörəyi haramdır. Torpaq bizim başımızdan qiymətlidi, bildin Rəcəb, camaatı yanlış yola çəkmə.

Ələmşah əlini Kərimin çiyninə qoyub onu sakitləşdirməyə çalışdı:

– Əşi, burda nə var özündən çıxırsan?

– Bu Rəcəb düşmən dəyirmanına su tökəndi.

Rəcəb qızararaq dili topuq çaldı:

– Kərim, ağzımdan çıxdı. Əşi Qacar gəlsə birinci qabağa özüm çıxacam. Sən öl, Kərim qardaş özüm çıxacam. İndi arxayınlaşdın?

Kərim gülümsəyib çayı qabağına çəkdi:

– Belə danış ürəyimə yatsın. Yoxsa Qacar kimdi ki, ə, naxçıvanlı onun qabağından qaçsın. Qacar bədbəxt bir padşahdı da...

Çayxananı xəfif gülüş götürdü.

5

Çariça Yekaterina son vaxtlar eyş-işrət məclisindən ayağını çəkmişdi. Onun möhtəşəm görünüşü, şax qaməti daha məclisləri bəzəmirdi. Pərəstişkarları hökmüdar xanımın intizarında idi. Barmağının bir hərəkəti ilə böyük və qüdrətli Rusiyanın altını üstünə çevirməyə qadir olan II Yekaterina qayğılı, fikirli, sərt idi.

...Bir dəfə çariça gecəyarısı birdən-birə gördüyü yuxudan diksinərək ayıldı. Yatağından qalxmadan xeyli düşündü. Gözlərini yumdu və təkrar eyni yuxunu görməyə başladı: daş-qaş içində bərq vuran, uzun xalat geymiş, başına imperator tacı qoymuş, əlinə toppuz almış ixtiyar onun qarşısında dayanmışdı. Çariça yalnız onun az qala sinəsinə düşən ağappaq topa saqqalını görürdü. Üzünə kölgə düşmüşdü. Yekaterina qorxa-qorxa soruşdu:

– Siz kimsiniz, nəçisiniz?

İxtiyar güldü:

– Bir vaxt sənin oturduğun kürsüdə mən oturardım. Mən I Pyotram.

– Aaa ərim III Pyotrun ulu babası?

– Katya! Sənə qarşı çox qəzəbliyəm. Keyf məclislərindən yığışıb Rusiyanın taleyi, gələcəyi barədə düşünmürsən?

– Lakin Rusiyada düşünən beyinlər, ağıllı başlar çoxdur Petruşa baba.

– Xanım Yekaterina, sən o başları lazımınca qiymətləndirmədin. Yoxsa Rusiya indi daha güclü və qüdrətliydi. Ona görə ki, sən hələ də mənim vəsiyyətnaməmi oxumamısan.

– Yəqin ki, bilirsən, Petruşa, mən rus deyiləm, alman şəhzadəsiyəm.

– Mənim vəsiyyətim əsasında III Pyotr səninlə evləndi. Mən vəsiyyətnamədə yazmışdım: "Rusiya şəhzadələri həmişə Almaniya əsilzadələrindən, nüfuzlu adamlarından, valilərdən, rütbə sahiblərindən qız almağı unutmamalıdırlar. Belə qohumluq həmişə bizə fayda verər".

Yekaterina dərin peşimançılıq hissi ilə köks ötürdü:

– III Pyotr ağlı başında olmayan bir adam idi. Bizim ailə həyatımız çox uğursuz oldu. O, mənə zülüm və işgəncədən başqa bir şey vermədi. Qardaşları Petyanı qətlə yetirdilər, bununla da tək mənim yox, bütün Rusiyanın canı bu ağılsız çardan qurtardı.

– Amma sən itirmədin, qazandın. III Pyotrdan sonra sən Rusiya kimi güclü və qüdrətli bir dövlətin başına keçdin. Bir vaxt bu dövləti mən idarə etmişəm. Mənim Rusiya haqqında, onun gələcəyi haqqında arzularım çox idi. Bu arzularım vəsiyyətnamədə də əksini tapıb: *"Rusiya dövlətinin hüdudu Avropadan şimala – Baltik dənizinə, cənubdan isə Qara dənizə qədər olmalıdır. Bunu mühafizə etmək və rus sərhəddini genişləndirmək övladlarımın*

*vəzifəsidir".* Mən səndən çox narazıyam Yekaterina. Əziz Katyuşa. İran şahı Ağa Məhəmməd şah Qacar xristianların yaşadığı Tiflisi yandırmaqla rusların İranla müharibə başlamasına bəhanə verib. Nəyi gözləyirsən Yekaterina? Mənim vəsiyyətnaməmi oxu, oxu və müharibəni başla..."

Yekaterina təlaş içində yuxudan ayıldı. Lakin ona elə gəldi ki, I Pyotr əlində toppuz hələ də onun başı üstündə dayanıb. Ruh çəkilib getmək bilmirdi.

..."Vəsiyyətnamə" I Pyotrun arzu və məqsədlərini özündə əks etdirmişdi: *"Bütün övladlarım bir-birindən sonra Avropa ölkələrində hökmüran olacaqdır. Lakin rus səltənəti inkişaf edir. Biz bu inkişafı ağılla tapmışıq. Mən aşağıdakı vəsiyyətnaməni vəsiyyət şəklində yazıram ki, gələcək nəsillərimizin əlində təlimat olsun".*

Vəsiyyətnaməni oxuyan hökmüdar xanım qımışdı: "Görək Petruşa İran haqqında bizə necə təlimat verir?" İran haqqında I Pyotr yazmışdı: *"Gürcüstan ölkəsi Qafqaz xəttinin, yeni İranın şah damarıdır. Rusiyanın təsəllüt neştəri həmin damara yetişərsə, filfövr ürəyinin zəif qanı açılacaq və onu elə bihal edəcəkdir ki, min Əflatun dirilib gəlsə də onu islah eləyib sağalda bilməz. O vaxt İran ölkəsi Rusiya padşahlarına dəvə kimi müti olacaqdır.*

*Maddi ehtiyaclar zonası olan Türkiyənin işini qurtardıqdan sonra İranı çətinlik çəkmədən məhv etmək və başını kəsmək mümkün olar. Ona görə də siz gərək vaxtı itirmədən Gürcüstanı və Qafqazı zəbt və işğal edib İranın daxili hakimlərini özünüzə xadim və müti edəsiniz".*

İmperatriça fikrə getdi: I Pyotr ağıllı və uzaqgörən adam imiş. Azərbaycanı işğal etməyə onun xüsusi tamahı varmış. Bu zəngin ölkəni işğal etməklə çar Xəzərə sahib olacaqdı. O zaman Volqa çayını Xəzərlə birləşdirər, Hindistana yol tapardı. Xəzər Rusiyaya Avropanın qapısını açacaqdı. Bu isə o demək idi ki, dünya bazarında rus ticarəti görkəmli yer tutardı. I Pyotrun arzusu beləydi...

* * *

Qafqazı işğal etməyi ermənilər də I Pyotrun yadına salmışdılar. Üstəlik bu işğalçılıq müharibəsində ona kömək edəcəklərinə söz vermişdilər. I Pyotr ermənilərə çox inanırdı... Qafqazın işğalında onlara arxalanırdı. Nəhayət I Pyotr arzusuna 1722-ci ildə

çatdı. Noyabrın 5-də Bakını işğal etmək haqqında general Matyuşkinə əmr verdi. 1723-cü ilin iyulun 26-da I Pyotr general Matyuşkindən səbirsizliklə gözlədiyi şad xəbəri aldı: "Bakı işğal olundu. Bakı Rusiyanındır" I Pyotr igid və qorxmaz generalına aşağıdakı məzmunda məktub göndərdi: *"Bakının alınması barədə göndərdiyin məktubu mən böyük sevinclə aldım. Xidmətinə görə sənə general-leytenant rütbəsi verirəm. Bu xəbəri aldıqdan sonra həmin gecə toplardan xeyli atəş açdıq...".*

Bununla da, I Pyotr xristianları acı toxum kimi Azərbaycan torpağına səpdi. Bu acı toxumlar göyərdi, bəhrə verdi: azərbaycanlılar ən yaxşı yerlərdən, münbit, zəngin təbiəti olan torpaqlardan zorla köçürüldü, onların yerində ruslar və ermənilər yurd saldı. Qafqazı bütünlüklə işğal etmək I Pyotra qismət olmadı. 1725-ci ildə vəfat etdi. Lakin Rusiyanın gələcək hökmüdarlarına öz vəsiyyətnaməsini ərməğan qoydu. Sanki məzarda yatdığı vaxt belə ruhu Azərbaycanı işğal etmək tamahından əl çəkmədi, vəsiyyətnamə əldən-ələ keçərək Pyotrun ruhunu da özü ilə daşıdı, işğalçılıq duyğularını ölməyə qoymadı.

* * *

...Çariça Yekaterina birdən-birə yaxın dostu, sonralar isə Rusiyanın hökumət başçısı olmuş Potyomkini xatırladı. Ürəyindən bir sızıltı, ağrı keçdi. Kaş Potyomkin bu anlarda sağ olardı. Yekaterina ona inanır və güvənirdi. Potyomkin Rusiyanın hərbi qüdrətinin möhkəmlənməsinə bütün hərbi istedadını və məharətini sərf etdi. Möhkəm dəmir intizamlı ordu yaratdı. Çariça dərindən köks ötürdü: kaş o vaxt Potyomkinin sözünə qulaq asardı. O, 1785-ci ildə Yekaterinanın diqqətini İrana çəkməyə cəhd etdi. Potyomkin istəyirdi ki, rus ordusu İrana qoşun yeridib onu işğal etsin, sonra isə Türkiyənin şərq vilayətlərinə sahib çıxsın. I Pyotr da İranla müharibə aparmışdı və zəfər çalmışdı. Çar 1723-cü ilin sentyabrın 12-də İranla sülh müqaviləsi bağladı və bu müqaviləyə görə Dərbəndlə bərabər bir çox yerlər Rusiyanın ixtiyarına keçdi. I Pyotr Dərbənddə xüsusi olaraq erməniləri yerləşdirdi: gələcək işğalçılıq müharibələrində onlardan istifadə etsin deyə.

Çariça sərkərdə Kutuzovun 1793-cü ildə İran haqqında yazılmış məktubunu da xatırladı. O vaxt Ağa Məhəmməd xan Qacarın vahiməsi Azərbaycan xanlıqlarını bürümüşdü. Bunu yaxşı bilən Kutuzov Peterburqa II Yekaterinaya göndərdiyi məktubda

yazmışdı: *"...şaha bildirmək lazımdır ki, o, Azərbaycana hücum edərsə ruslar tərəfindən heç bir müqavimət olmayacaqdır".* O vaxt çariça bu eyhamı başa düşmüşdü: yəni qoy Ağa Məhəmməd xan Azərbaycana hücum etsin, müharibə Azərbaycanı zəiflədib əldən salsın, qoy şah ordusu da bu müharibələrdə öz qüvvəsini itirsin, o zaman Azərbaycanı və İranı asanlıqla işğal etmək olar... Uzaqgörən, ağıllı rus sərkərdəsi işğalın ən asan yolunu göstərmişdi. Çariça gör nələr itirmişdi?

Gənclik illəri çox-çox uzaqlarda qalmış, lakin gəncliyinin ötdüyünü xatırlamaq istəməyən Yekaterina imperatorluğu dövründə ilk dəfə dərindən düşünürdü. I Pyotrun vəsiyyətnaməsi onun qarşısında sanki ehtiraslı arzulara yol açmışdı: ölkələr fəth etmək, torpaqları işğal etmək, Rusiyanın sərhədlərini genişləndirmək və bununla da I Pyotrun ruhunu şad etmək... Tiflis faciəsi müharibəni başlamaq üçün rusların əlinə fürsət verib... Azərbaycan xanlıqları Tiflis faciəsindən dəhşətə gələrək çariçadan kömək istəyir, rus təəbəliyini qəbul etməyə hazırdır. Bu fürsəti qaçırsa nə tanrı onu bağışlayar, nə də Pyotrun ruhu... Hökmdar xanım iki gün əvvəl onun yanında olmuş keşiş İosifi də xatırladı. Qısa saqqallı, hiyləgər baxışlı keşiş narahat və əsəbi görünürdü. Lakin çariça onun gözlərinin dərinliyində bir sevinc işartısı da duydu. Keşiş İosif Arqutinski Mokvada yaşayırdı. Dediyinə görə Tiflis faciəsi onu dərindən sarsıtmışdı.

Keşiş əlindəki məktubu çariçaya göstərdi:

– Əlahəzrət imperatriça, İran şahı Ağa Məhəmməd şah Qacarın Tiflisdə törətdiyi dəhşət biz erməniləri ürəkdən kədərləndirmişdir. Biz bu anlarda öz din qardaşlarımızın yanında olmaq, onlara təsəlli vermək istərdik. Lakin mən istərdim ki, qüdrətli rus dövləti onlara yardım etsin. Mən noyabrın 27-də Gürcüstan çarı II İrakliyə məktub göndərmişəm. Məktubda yazmışam.

Keşiş məktubu II Yekaterinaya oxudu: "Biz ruslarla din qardaşlarıyıq. Onlar Qafqazda yaşayan xristianları darda qoymazlar. Bizim də, yəni ermənilərin də borcudur ki, Qafqazda rusların kök salmasına imkan yaradaq". Sonra keşiş hərarətlə dedi: – İmperatriça həzrətləri, bizim ermənilər ruslara sədaqətlərini hələ I Pyotr zamanında sübuta yetirmişlər. Onlar Qafqazı işğal etməyi böyük Pyotra məsləhət bilmişlər. Əlahəzrət indi Qafqazın müsəlmanlardan azad olması zamanı gəlmişdir. Bu torpaqlar xristianlarındır. Əgər Qafqaza hücum olarsa əli silah tutan bütün ermə-

nilər rus əsgərləri ilə bərabər sizin haqq işiniz uğrunda döyüşəcəkdir. Əlahəzrət imperatriça, mən sizə öz köməyimi daim göstərməyə hazıram. Həştərxanda olan şəxsi mətbəəm, sərvətim bu yolda xərclənir. Mətbəədə erməni, fars və rus dillərində müraciətlər çap ediləcəkdir. Bu müraciətlər ermənilərin Azərbaycanda məskunlaşması üçün çox vacibdir. Bu məskunlaşma elə bilirəm ki, orda sizin dayaqlarınızın daha tez möhkəmlənməsinə xidmət edəcəkdir.

Çariça Yekaterina keşiş İosifi məmnunluqla dinlədi. Ayrılarkən keşiş incə bir nəzakətlə imperatriçanın əlini öpdü, xaç çevirdi və onların haqq işinə öz xeyir-duasını verdi.

...Rus çariçası ilə görüşdən razı qalan keşiş İosif 1795-ci il dekabrın 15-də knyaz Stepan Davudyana məktub göndərdi. Məktubda yazmışdı: *"...Rusların təkcə Gürcüstanda olmasının o qədər də əhəmiyyəti yoxdur. Bizim ermənilər üçün bu azdır, Ruslar Dərbənd, Şirvan və Gəncədə də möhkəmlənsələr işimiz asanlaşacaqdır. Bu hər şeydən əvvəl İranda yaşayan ermənilərin İrəvana gəlməsi üçün böyük imkan yarada bilər".*

* * *

General Valerian Zubov çar sarayına çağırıldığını eşidəndə əvvəl özünü itirdi, sonra gizli bir sevinc dalğası ürəyini çırpındırdı. Xaç çevirib əlləri ilə üzünü tutdu, az qala çığırmaq, bağırmaq, hamını öz sevincinə şərik etmək istədi: "İlahi" çox şükür. Şöhrətin və sərvətin qapıları üzümə açılmaqdadır". Onu imperatriça II Yekaterina ilə görüşün həyəcanı bürüyürdü. General özünə yer tapa bilmirdi. Yekaterinanın ona xüsusi hörməti vardı. Zubov çariça ilə olan görüşlərini təkrar-təkrar yada saldı. Həyəcan onun bütün duyğularını, hisslərini öz hökmü altına aldı.

...Hərbiçilik Valerian Zubovun iliyinə, qanına qədər işləmişdi. O, gənc yaşlarından Rusiyanın apardığı müharibələrdə şücaət göstərməyə çalışmışdı. Özünün yüksək hərbi hazırlığı və bacarığı ilə hətta Suvarovun da diqqətini cəlb etmişdi. Suvarov bu barədə rus çariçasına məktub yazmışdı. II Yekaterina da Rusiya üçün canını verməyə hazır olan bu hərbiçiyə etinasız qalmamışdı. Valerian xidmətlərinin mükafatı olaraq II Yekaterinanın əlindən Georgi ordenini alanda həyəcan hissindən gözləri yaşarmışdı.

...Sonralar general Zubov Rusiyanın apardığı müharibələrdə iştirak etdi. Polşada çara qarşı üsyan başlayanda nədənsə Ye-

katerina Suvarovun hərbi və döyüş qabiliyyətinə yüksək qiymət verdiyi Valerian Zubovu xatırladı. Çariça Polşa üsyanını yatırmağa Zubovu göndərdi. Valerian xislətindəki qəddarlığı biruzə verdi: yüzlərlə insan onun amansızlığının və qəddarlığının qurbanı oldu. General heç kəsə rəhm etmədi. Üsyançıları cəzalandırdı. Generalın əmri ilə rus əsgərlərinin ağlasığmayan vəhşiliyi alovun üstünə su tökülən tək üsyanı yatırtdı. Lakin rəhimsiz general özü də Tanrının qəzəbinə gəldi: döyüşdə ayağının birini itirdi. Onda II Yekaterina onu çar sarayında elə məhəbbətlə, nəvazişlə qəbul etdi ki, general bütün ağrı-acısını, tək ayaqlı olduğunu unutdu. Çariça isə sevimli generalına qızıldan protez ayaq düzəltdirdi, özünə isə general-mayor rütbəsi verdi. "Qızılayaq general" titulunu isə ona xalq verdi.

...Çariça II Yekaterina "İrana yürüş" əməliyyatına hazırlaşarkən Valerian Zubov yenidən yadına düşdü.

...O, sevimli generalını səmimiyyətlə qarşıladı. Generalın saçlarına artıq dən düşürdü. Apardığı savaşların, müharibələrin izi çöhrəsində qırışlarla yazılmışdı. Gözlərinin dərinliyindəki hiyləgərlik, görünüşündəki sadiqlik və mütilik Yekaterinanın xoşuna gəldi.

Çariça ilə ikilikdə söhbət xeyli çəkdi. Yekaterina əlini onun çiyninə qoydu:

– "İrana yürüş" əməliyyatı Azərbaycanı və Gürcüstanı əhatə edib, İrana adlayacaq. Azərbaycan xanlıqları İran şahının törətdiyi faciələrdən qorxuya düşüb. Mənə çox sayda məktublar gəlir. Buna görə də Ağa Məhəmməd şahın Azərbaycanda yaratdığı ab-hava bu torpaqların asanlıqla işğalına şərait yaradıb. İşğalı Dərbənddən başlamaq lazımdır.

General çariçanın sözünə qüvvət verdi:

– Əlahəzrət imperatriça, Dərbənd, Bakı əslində 1711-ci ildə Rusiya ilə müharibədə uduzmuş İranın bizə verdiyi torpaqlardır. 1725-ci ildə I Pyotrun vəfatından sonra, onun yeri behiştlik olsun, rus əsgərləri bu torpaqları buraxmağa məcbur oldular.

– Niyə?– Yekaterina təəccüblə soruşdu.

– I Pyotrun vəfatından sonra onun yerinə keçən Anna İvanovna şübhəsiz ki, bu torpaqları Rusiyanın tabeliyində saxlamaq üçün əlindən gələni etdi. Lakin o vaxt əsgərlərin arasında xəstəlik yayılırdı. Hər gün yüzlərlə əsgər məhv olurdu. Bundan nara-

hat olan Anna İvanovna rus qoşunlarını geri çağırmaq məcburiyyətində qaldı.

– Bu torpaqlar yenidən Rusiyaya qayıtmalıdır, general.

– Sizin arzunuz yerinə yetiriləcəkdir, əlahəzrət.

Çariça gülümsündü:

– Dərbənd ermənilər rusların gəlişini səbirsizliklə gözləyir. Keşiş İosif Arqutinskinin dediyinə görə ermənilər Qafqazda xristianların kök salmasına kömək edəcəklər. Ermənilər sizinlə çiyin-çiyinə vuruşacaq, eyni zamanda ağıllı və siyasətcil keşişlər sizin məsləhətçiniz olacaqdır. Onlara etibar edin, sözlərinə əməl edin. Onların köməyi ilə rusların Qafqazda hakimiyyəti tezliklə bərqərar olar.

– Baş üstə, əlahəzrət.

Çariça Yekaterina söhbətin bitdiyini bildirmək üçün ayağa qalxdı, xaç çevirdi, dodaqlarının altında nə isə pıçıldayıb yenə xaç çevirdi, Bununla da Rusiya üçün görəcəyi böyük işlərdə qızılayaq general Valerian Zubova xeyir-dua verdi...

Qafqaz rus ordusunun baş komandanı təyin olunmuş Valerian Zubov ertəsi günü tabeliyində olan generallarla birlikdə kilsəyə getdi. O, işə başlamamışdan əvvəl keşişlərin də xeyir-duasını almaq istəyirdi. Generallar kilsədə şam yandırdılar, sonra diz çöküb ikonanın qarşısında xaç çevirdilər, dua oxudular.

Allahın evində Allaha ibadət edən keşişlər özgə torpaqlarına yiyələnmək, insanları məhv etmək üçün işə başlayacaq xristian qardaşlarına sidq-ürəklə xeyir-dua verdilər, sonra rus çariçası II Yekaterinanın ömrünə uzun-uzadı dualar oxudular.

6

Azərbaycanın Şirvan xanlığı Qafqazın şərqində yerləşirdi. Çox qədim tarixi olan Şirvan hakimlərinə keçmiş zamanlarda Şirvanşahlar deyərmişlər. Nadir şahın dövründə Şirvanşah sözü qadağan edildi. Çünki Nadir şah ondan başqa kimsəyə şah deyilməsini istəmirdi.

Şirvanı məşhurlaşdıran onun qaynar çeşmələriydi. Rəvayətə görə bu çeşmələrin biri dirilik suyu idi. Makedoniyalı İskəndər bu dirilik suyunu axtara-axtara Şirvana qədər gəlib çıxmışdı...

Şirvan xanlığının Şabran və Dərbənd şəhərləri o vaxtkı səyyahların diqqətini cəlb edərmiş. Dərbənd xüsusi ilə həm iqtisadi, həm də strateji cəhətdən əlverişliydi. Xəzər dənizinə söykənən

Dərbənd limanı ticarətdə müstəsna rol oynayırdı. Hər gün limana onlarla gəmi gəlir və yaxud gedirdi. Vaxtı ilə Dərbənd şəhərini hasarlar, dəmir kimi hörülmüş sədlər qoruyarmış. Bu sədlər Xosrov Ənuşirəvanın vaxtında çəkilmişdi. Dəmir kimi möhkəm sədlər Dərbəndi düşməndən çox qorumuşdu. Dəmir qapılar bağlanan kimi Dərbəndi heç bir ordu ala bilməzmiş. Lakin əsrlər keçdikcə, zamanın dəyirmanı fırlandıqca sədlər də uçulub dağıldı, Dərbənd daha azğın düşməndən özünü qoruya bilmədi.

* * *

Rus əsgərləri Dərbənd yolu ilə Qafqaza doğru irəliləyirdi. Kızlarda Valerian Zubov dincəlmək əmrini verdi. Özü də çadırda Dərbəndin xəritəsini qarşısına qoydu. Lakin işə başlamamış yavəri Stepan Davudyan adlı bir keşişin onu görmək istədiyini xəbər verdi. General onunla görüşə razılıq verdi.

Uzun saqqallı, pırpız qaşlarının altından baxan xırda hiyləgər gözlü keşiş generalı görən təki iki qat əyildi, dizini yerə vurub generalın ayaqlarını qucaqladı, göz yaşlarını yağış təki źlədi. General onun qollarından tutub ayağa qaldırdı:

– Müqəddəs ata, bu nə ağlamaqdır, özünüzə gəlin.

Keşiş gözlərini sildi:

– Bağışlayın. Özümü saxlaya bilmədim. Sizin yolunuzu çoxdan gözləyirdim. Siz xristianların xilaskarısız. Siz başımızın tacı olan böyük bir millətin qüdrətli generalısız. Biz, bütün erməni milləti sizin qarşınızda diz çökür, səcdə edir və Allaha and içirik ki, sizin daimi sadiq qulunuz olacağıq.

– Dərbənddə müsəlman çoxdurmu?

– Çoxdur, general. Onlar bizi dədə-baba torpaqlarımızdan köçürməyə çalışırlar. Burda bizim ulu babalarımızın məzarları var. Müsəlmanlar yazıq, fağır ermənilərə göz verib işıq vermirlər, cənab general. Biz gözümüzə işıq axtarırıq. Çox şükürlər olsun ki, ruslar bu işığı Dərbənd torpağına gətirdilər.

– Ermənilər necə çoxdurmu?

– Çoxdur. Uşaqdan böyüyə hamı sizə kömək etməyə hazırdır. Cavanlarımız orduya daxil olacaqlar. Özümüz isə sizin əmrinizə müntəzirik.

Sonra keşiş cibindən səliqə ilə bağlanmış zərli qutu çıxardı, onu generala təqdim etdi:

– Cənab general, bu ermənilərin adından sizə kiçik töhfədir. Onu qəbul etmənizi xahiş edirəm.

Valerian Zubov qutunu açdı, göz qamaşdıran brilliantları görəndə gözləri güldü, keşişi qucaqladı:

– Mən çalışacam sizin etimadınızı doğruldum. Hələlik isə Davudyan, səni özümə məsləhətçi götürürəm. Ermənilərə güvənməyi imperatriça da mənə məsləhət görüb.

Keşiş udqundu, hiyləgər gözləri parıldadı. Dili söz tutmadığından generalın əllərindən öpdü.

Sonra nahar süfrəsi arxasında xeyli söhbət etdilər. Keşiş son sözünü dedi:

– Cənab general, Qafqazda erməni dövlətinin yaradılması Rusiyanın möhkəmlənməsinə, onun dünyada qüdrətli bir dövlət olmasına kömək edəcək.

Valerian Zubov onun sözünə qüvvət verdi:

– Rusiyanın Dərbənd limanı ilə dünyaya qapısı açılar. Ona görə də burada erməni dövlətinin yaradılması vacibdir. Mən bu barədə mütləq imperatriça ilə danışar, onun razılığını alaram.

Söhbətdən ikisi də razı qaldı. Keşiş daha vaxt itirmədi. Kilsəyə getmək, Allaha ibadət etmək yaddan çıxdı. O, Dərbənddə yaşayan ermənilərə məktub yazaraq böyük məqsəd uğrunda onları səfərbər etdi: Məktubda deyilirdi: *"Allah üzünü Qafqazda yaşayan xristianlara çevirmişdir. Birləşməliyik, Ali baş komandanı Allah özü göndərmişdir. Ona sədaqətimizlə biz Qafqazı müsəlmanlardan, yəni azərbaycanlılardan təmizləyə bilərik. Həddindən artıq ayıq olun, ey mənim həmvətənlərim..."*

Məktub əl-əl gəzdi, ev-ev oxundu, gözlər yaşardı, ürəklər sevindi. Əli silah tutan ermənilər dəstə-dəstə rus ordusuna daxil olmağa başladı. Rus ordusu qüvvətlənirdi. Bu ordunun içində azərbaycanlıların qanını içməyə hazır olan ermənilər vardı.

...Dəmir qapı Dərbənd alındı.

...Şirvan xanlığının bu qədim şəhəri qapılarını rusların üzünə açdı.

...1722-ci ildə Dərbəndin rəmzi açarını I Pyotr almışdı.

...1796-cı ildə ikinci dəfə bu açarı almaq II Yekaterinaya qismət oldu.

"Qızılayaq" general Valerian Zubov zəfər dolu sevinci Peterburqa II Yekaterinaya çatdırdı. İlk qələbə müjdəsini alan Yekaterinanın sevinci aşıb-daşdı. O, sevimli generalını müqəddəs Geor-

gi ordeni ilə təltif etdi, üstəlik ona brilliantla işlənmiş xaç hədiyyə verdi.

Dərbəndin alınması ermənilər üçün iki qat bayrama çevrildi. Keşiş İosifin Dərbəndə gəlişi ilə kilsələrin işığı gecələr də sönmədi. Kilsəyə gedənlər isə yaşlılar, dindarlar deyil, cavanlar idi.

Dərbəndin naibi Xıdır bəy şübhələr içində çırpınırdı: "Keşiş qızılayaq generalın yanında bütün günü sadiq köpək kimi vurnuxur, ətrafında şübhəli ermənilər dolaşır. Gecələr isə kilsəyə toplaşırlar... Ermənilər ibadət etmirlər. Bu gizli pıçıltılar sonralar azərbaycanlılar üçün qanlı faciələrin partlayışına çevrilməyə?".

* * *

...İosif Davudyan Valerian Zubovun ürəyinə yatmışdı. Onun məsləhətlərini İncilin ayəsi kimi qəbul edirdi. Keşişi generaldan uzaqlaşdırmağa cəhd etdilər. Amma mümkün olmadı.

Rus çəkmələri Azərbaycanın içərilərinə doğru addımlayırdı...

Qanlı çəkmələr torpağı əzir, şumlayır, gələcək faciələr üçün zəhərli toxumlar səpirdi.

Xanlıqların başçıları qanlı rus çəkmələrini görəcək, rusların bu torpaqlara zəhərli toxumlar səpdiyini duyacaq halda deyildilər. Onlar bu toxumların bir vaxt bəhrə verəcəyini, millətə bəla gətirəcəyini düşünmürdülər. Çünki Ağa Məhəmməd xan Qacarın qılıncından elə vahiməyə düşmüşdülər ki, sığınmağa işıq axtarırdılar. Bu işıq isə Rusiyadan axıb gəlirdi. Onlar arxalarınca gələn zülmətdən – Qacar zülmündən qaçaraq bu işığa doğru can atırdılar. Niyyət və məqsədinə bələd olmadıqları Rusiyaya sığınır, onun himayəsində yaşamağa qərar verirdilər.

...Dərbənddə qazandığı zəfər isə general Zubovun başını gicəlləndirmişdi. O, dincəlmək, qüvvə toplamaq və "İrana yürüş" əməliyyatına başlamaq üçün Muğanda düşərgə saldı.

Rus-İran müharibəsinin başlanmasına bir addım qalırdı. Buna kimsənin şübhəsi yox idi. Eləcə də Ağa Məhəmməd xan Qacarın...

## 7

Naxçıvan daha bir təlatümlü gecəsini yaşayırdı.

Ay buludların arxasından çıxıb bütün nurunu, ziyasını Eynalı dağının başına topladı. Dağlardan əsən küləklər sanki asta, sirli pıçıltı kimi şəhərə yayılırdı. Elə bil Ağa Məhəmməd xan Qacarın

əli qılınclı süvariləri dağlardan qəflətən aşıb Naxçıvanın küçələrinə, evlərinə doluşurdu. Başı bəlalı torpaq sanki səsini içinə salıb səksəkə, qorxu içində Qacarı gözləyirdi...

...Gecəyarısı xan sarayında Kalbalı xanın qoşun başçıları ilə məşvərəti qurtardı. Hamı dağıldı. Kalbalı xan getməyə tələsmədi. Oğlu Şıxəli xan və Əli xan da qaldı. Xan qayğılı idi. Lakin dərd-sərlə yüklənmiş ürəyi, çən-duman çökmüş gözləri, özü gizlətsə də, narahatlığını, təşvişini biruzə verirdi.

Xan fikirli, düşüncəliydi: üstünə gələn Qacar bəlasından Naxçıvanı necə qorusun? Kim deyə bilər ki, Tiflisin başına gələn müsibət onların başına gəlməyəcək? Qacarın qılıncının qorxusu onları ruslara tərəf qovur. Bəlkə o, da ruslara pənah aparsın, onların himayəsinə sığınsın? Kim zəmanət verə bilər ki, bir işğalçıdan qaçıb o birinə tuş olmayacaq?

Kalbalı xan bu qarmaqarışıq, ziddiyyətli duyğular içində çırpınırdı. Qacarı gözləsin, yoxsa ruslara addım atsın?

...Şıxəli xan içərinin ağır havasından darıxdı, qalxıb pəncərələri açdı. Bayırda torpağın, suyun, ağacların, çiçəklərin baharı gəlirdi. Kalbalı xan sinədolusu nəfəs aldı. Elə bil beyni ayazıdı. Ürəyinə dumansız-çənsiz xoş duyğular axdı.

Əli xan sükutu pozdu:

– Ağa Məhəmməd xan Qacarın Tiflisi xarabazara qoyması, gürcülərə divan tutması Azərbaycanın bütün xanlıqlarında böyük əndişə və qorxu yaradıb. Aldığım məlumata görə onlar rusların himayəsinə keçmək niyyətindədir.

Kalbalı xan xeyli danışmadı. Başıaşağı əlindəki təsbehin dənələrini düşünə-düşünə çevirdi, handan-hana cavab verdi:

– Qarabağ xanı artıq bu addımı atıb. İbrahimxəlil xan II İraklinin ruslardan kömək istədiyini eşidən kimi o, da rus padşahının yanına elçi göndərib. Bununla da Rusiyanın himayəsinə keçməyə hazır olduğunu bildirib. Rus padşahı II Yekaterina da qoşun böyüyü Valerian Zubovu Qafqaza göndərib. Qafqazı İran şahının zülmündən qorumaq istəyir.

– Eşitdiyimə görə rus qoşunu Muğanda düşərgə salıb. Ağa Məhəmməd xan Qacar da Tiflisi yandırdıqdan sonra qışı Muğanda keçirmək istəyirmiş. Amma rus ordusunun gəldiyini eşidən kimi çəkilib gedib.

– Yəqin ki, o qışı Muğanda keçirməkdə, niyyəti dübarə Şuşaya qayıdıb yarımçıq müharibəni davam etdirmək, şuşalıları

əzmək, ordan da ona tabe olmayan xanlıqlara hücum etmək imiş. Valerian Zubovun gəlişi onun planlarını pozub. Belə çıxır ki, Qacar Rusiya ilə savaşa girmək istəmir.

– Rusiyanın güclü ordusu var. Qacar ağıllı və uzaqgörən adamdır. O başa düşür ki, ruslarla müharibəni başlasa onun zülmündən cana doymuş Azərbaycan xanlıqları əlindən çıxacaq.

Şıxəli xan əllərini sinəsində çarpazlayaraq pəncərənin qarşısında dayandı, xəfifcə qımışıb astadan dedi:

– İbrahimxəlil xan ağıllı adamdı. O, rusların gəldiyini eşidən kimi oğlu Əbülfət ağa başda olmaqla rus generalının yanına nümayəndə göndərib. İbrahimxəlil xan Valerian Zubova qiymətli hədiyyələr, o cümlədən cins Qarabağ atları da bağışlayıb.

– Doğurdan? – Əli xan heyrətləndi.

– Rus generalı da xanın bu iltifatından razı qalıb – Şıxəli xan təkrar gülümsədi.

– Əlbəttə razı qalar. Cins Qarabağ atları dünyada məşhurdur. General da dübarə İbrahimxəlil xana hədiyyə və onun vəziri Molla Pənah Vaqifə daş-qaşla işlənmiş əsa göndərib – Kalbalı xan susdu, oğlunun üzünə baxdı, nə isə düşündü və ağır-ağır dedi: – İbrahimxəlil xanın Valerian Zubovla əlaqə yaratdığını və Rusiyanın himayəsinə keçmək istədiyini eşidən Şəki, Şirvan, Qaradağ, Xoy, Talış, Gəncə, Şahsevən, Təbriz xanlıqları da bu addımı atıb.

– Elə bilirəm ki, Qacar xanı təkrar Şuşaya qayıdacaq. O Şuşanı əzməsə, qisasını almasa əl çəkməyəcək. Üstəlik İbrahimxəlil xanın ruslarla yaxınlaşması Qacar xanının qəzəbini coşduracaq. O, xəyanəti bağışlamır, özü də amansız intiqam alır. Necə ki, Tiflisdən intiqam aldı.

– Bu intiqamdan qorxduğu üçün İbrahimxəlil xan rusların himayəsinə keçir. Belə olsa Qacar xanı ruslarla müharibəyə girişməyə cürət etməyib yerində oturacaq – Kalbalı xan fikrə getdi.

Şıxəli xan gözlərini atasının dalğın gözlərindən çəkmədən soruşdu:

– Bəs sən neyləmək fikrindəsən ata? Qarabağ uzaq, Naxçıvan isə İranın qulağının dibindədir.

– Biz qalanı möhkəmlətməliyik.

– Kirmanlılar da qala qapılarını Qacarın üzünə açmadılar.

– Onda nə məsləhət görürsən Şıxəli?

– Rusların himayəsinə keçək. Sən general Valerian Zubova məktub yaz. İbrahimxəlil xanın onunla əlaqəsi olduğuna görə məktubu xana göndər. O da generala çatdırsın.

– Yəni ruslar bizi İranın işğalından qoruya bilər? – Kalbalı xan inamsız soruşdu.

– Başqa yol yoxdur. Qacarın qılıncı bizim başımızın üstündədir. Rusların tabeliyini qəbul etməklə biz torpağımızı qorumuş oluruq. Tiflisi yandırmaqla Qacar xanı öz rəhimsiz və qəddar sifətini göstərdi. Gürcülərin başına gələn faciə Naxçıvanın, Şəkinin, Şirvanın da başına gələr.

– Mən də elə düşünürəm, Şıxəli. Bu qorxu bir an məni rahat buraxmır. Elə indicə iki məktub yazaram – birini İbrahimxəlil xana, o birini isə generala.

Kalbalı xan yerindən qalxıb masaya yaxınlaşdı. Qələm – kağız götürüb ilk cümləni yazmaq üçün düşündü. Amma içinə səbəbini bilmədiyi şübhəli bir rahatsızlıq doldu. Ruslara yaxınlaşmaq qərarı ağrılı, dumanlı nigarançılıq kimi qəlbinə çökdü...

## 8

1796-cı ilin martı...

On yeddi il İrana hökmüranlıq edən Ağa Məhəmməd xan Qacarın nəhayət ki, qovğalardan, savaşlardan, rəqibləri ilə apardığı müharibələrdən başı ayazıdı, hökmüdarlıq tacını başına qoymağa, rəsmi olaraq şah taxtında oturmağa hazırlaşdı.

Zərgərlər işə başladı. Əvvəlcə Qacarın istədiyi kimi qiymətli daş-qaşla işlənmiş üçmərtəbəli tac hazırlamaq istədilər. Lakin bu tacın ağırlığı qırx beş kilo yarım qızıl aparırdı. Bu ağırlıqda tacı Qacar xanı başında saxlaya bilməzdi. Ona görə də iki mərtəbəli tac hazırlatdı. Bu tac qaş-daş, cəvahiratla birlikdə dörd kilo yarım qızıl apardı. Sonra xəyyatlar şah üçün qəba tikdilər. Bu qəba da tac kimi qiyməti saya gəlməyən daş-qaşla, cəvahiratla, zümrüdlərlə işlənmişdi. Daş-qaşla işlənmiş toppuz bir şah kimi Qacarın xarici görünüşünü tamamlayırdı.

Qacar xanı mərasim başlamamışdan əvvəl qəbanı geyindi, tacı qoydu, toppuzu əlinə alıb taxtda əyləşdi. Daim at belində müharibələrdə, savaşlarda olan Qacar xanının sanki taxtda sakit oturmağa hövsələsi çatmadı. Gözlərini yumdu. Elə bil bununla da hökmüdarlığa can atdığı və arzusuna qovuşduğu bu mühüm, müqəddəs gündə öz iç dünyasında daim yaşayan, ona yol gös-

tərən, onunla təkbətək qalan ikinci Qacar xanından xeyir-dua almaq istədi. Amma iç dünyası əvvəl necə zülmət, soyuq idisə bu mühüm anda da eləcəydi. Sanki başındakı tacın işığı iç dünyasına düşmürdü və iç dünyası sevinə bilməyərək Qacar xanına soyuq sükutla cavab verdi.

Qacar xanına görə Tehran camaatı bayramı bayrama qatdı. Şahın şərəfinə qurbanlar kəsilib paylandı. Toplar şahın şərəfinə yaylım atəşi açdı.

Həmin gün Qacar xanının adı Ağa Məhəmməd şah Qacar kimi tarixə yazıldı.

* * *

Rusiyada isə Tiflis faciəsi II Yekaterinanı düşünməyə vadar etdi. Gürcüstan və Azərbaycan xanlıqlarının bir çoxu Qacar şahının istilasından qorxaraq ondan kömək istəyirdi. Bu İranla müharibəyə başlamaq üçün fürsət idi. O, bu fürsəti əldən qaçıra bilməzdi. Çariça düşünürdü. Potyomkini, onun İran haqqında dediyi sözləri xatırlayırdı. Hələ 1785-ci ildə Potyomkin onun diqqətini İrana çəkirdi. Məsləhət görürdü ki, İrana qoşun çəkməklə Türkiyənin şərq vilayətlərini asanlıqla işğal edə bilər. Lakin o vaxt Yekaterina Potyomkinin məsləhətlərinə qulaq asmadı. Başı eyş-işrətə qarışdı. Siyasi məsələlərdə vaxtı uduzdu. İndi isə çariça qəti addım atmaq istəyirdi.

...Rus qoşunu Dərbəndi işğal etdi və Arazı keçərək Muğanda düşərgə saldı.

...Lakin ruslar Muğana gedib çıxsalar da Rus-İran müharibəsi başlamadı.

1796-cı ilin noyabrın 6-da II Yekaterina 68 yaşında qəflətən vəfat etdi. Onun yerinə keçən oğlu I Pavel rus qoşunlarını İrandan, o cümlədən Azərbaycandan geri çağırdı.

Çünki Fransa ilə rus müharibəsi başlanmışdı. General Zubovun ağıllı başı orda daha çox lazım idi.

* * *

II Yekaterinanın cənazəsi günlərlə kilsədə qaldı. I Pavel anasının dəfn olunmasını sanki yadından çıxardı. Keşiş və çariçanın yaxın adamları həyəcan içindəydi. Deyəsən, I Pavelin nəslinin kökündə ruhi xəstəlik nişanələri vardı. Onun atası III Pyotr da

ağıldan kəm idi. Əgər qardaşlarının əli ilə öldürülüb dünyasını dəyişməsəydi kim bilir rus dövlətinin başına nələr gələcəkdi.

Keşiş 24 yaşlı çarın yanına getdi, mərhum çariçanın basdırılmasına icazə istədi. Onu da qeyd etdi ki, cənazənin torpağa tapşırılmaması xristian dinində günahdır. Pavel düşündü, sonra əmr etdi ki, atası III Pyotru da məzardan çıxarıb kilsədə anası ilə yanaşı qoysunlar. Nəhayət gənc imperator bundan sonra ata-anasının dəfn olunmasına icazə verdi.

(Və I Pavel bu ağılla uzun müddət dövləti idarə edə bilmədi. Onun verdiyi fərmanlar uğursuzluq gətirdi. Buna görə də I Pavel də atası kimi qətlə yetirildi və oğlu I Aleksandr Rusiyanın imperatoru oldu. Rus-İran müharibəsi isə məhz I Aleksandrın zamanında başlandı).

9

1797-ci il.

Ağa Məhəmməd şah Qacar ruslarla müharibənin sovuşduğundan arxayın olub, Şuşaya hücuma hazırlıq görməyə başladı. İki il əvvəl Qarabağdakı məğlubiyyət bütün acısı, kini, qəzəbi, nifrəti ilə ürəyinin dibinə gömülmüşdü, sanki zəhər kimi qanına axmışdı. Qacar tezliklə bu zəhəri qanından təmizləmək, məğlubiyyətin əvəzini İbrahimxəlil xandan çıxmaq istəyirdi. Lakin son günlər şah qəribə hisslər keçirirdi. Kirman və Tiflis faciəsindən sonra elə bil içindəki göy qübbəsinə özü toxunaraq onu lay-lay uçurub öz içinə tökürdü. Gecələr yuxusunda da sanki içində lərzəyə gələn göy qübbəsinin şimşək çaxmasına bənzər səsini eşidirdi. Adi insanlarda – ağlamağı, gülməyi bacaran adamlarda gözlə bərabər ürək də ağlayırdı. Ürək bulud kimi dolur, göz yağışını yağdırırdı. Ağa Məhəmməd şah Qacarın ürəyi daşlaşdığından göz də ağlamağı yadırğamışdı. Göz yaşı çeşmə kimi quruyub getmişdi. Şah Qacarın ağlaması qupquru səhrada çeşmənin qaynayıb üzə çıxması kimi bir möcüzə idi.

Lakin ağlaya bilməsə də Qacar əyilib namaz qılanda, əllərini sinəsində çarpazlayıb Allahın dərgahında qolu bağlı qula çevriləndə sanki çiyinlərində göy qübbəsinin ağırlığını hiss eləyərdi. Elə bil bu anlarda günahları da üst-üstə yığılaraq bulud kimi, kölgə təki başının üstə dayanardı. Alnını möhürə vurarkən, içindən qopub gələn duaları dodaqları pıçıldarkən sanki göy qübbəsi də günahların ağırlığına tab gətirməyərək uçub başına tökülərdi. Elə

bil bununla da alqışlarını, dualarını böyük tanrıya gedib çatmağa qoymazdı...

Ağa Məhəmməd şah Qacar Şuşaya yürüş etməyə hazırlaşarkən qəlbinin dərinliklərində qəribə, nagahani bir duyğunun da peyda olduğunu sezdi. Bu duyğu onun ürəyinin dərinliklərinə qədər yol tapdı, yuxularına qədər gedib çatdı. Bu ölüm qorxusuna işarət idimi? Bu ölüm onu harda yaxalayacaqdı?

Ağa Məhəmməd şah bu hissi özündən uzaqlaşdıra bilmirdi. Bu qəfləti, nagahani duyğunun təsiri ilə də axşamlar səltənətinin varisi olan qardaşı oğlu Xanbaba Cahanbanini yanına çağırırdı. Saatlarla əmi-qardaşoğlu ikilikdə söhbət edir, Qacar dövləti əldə saxlamağın və onu idarə etməyin sirlərindən Xanbaba Cahanbanini agah edirdi. Xanbaba Cahanbani özü yaxşı sərkərdə idi. Müharibələrdə daim hünər göstərərək zəfər qazanır, əmisinin etimadını doğruldurdu. Ağa Məhəmməd şah Xanbaba Cahanbaninin üç oğlunu, xüsusi ilə Abbas Mirzəni də daim yürüşlərə aparırdı. Müharibədə düşmənə zəfər çalmağın yollarını Abbas Mirzəyə öyrədirdi. (Sonralar Abbas Mirzə əmisindən öyrəndiklərini ruslarla müharibədə sınaqdan çıxardı və bunun bəhrəsini gördü).

Şuşaya səfər ərəfəsində ürəyinə daman ölüm hissinin təhriki ilə Ağa Məhəmməd şah Qacar Xanbaba Cahanbaniyə səltənətinə sahib çıxmaq ixtiyarını verdi... 1797-ci ilin yazında Qarabağa hücum edərkən şah, Abbas Mirzəni və onun iki qardaşını da özü ilə götürdü.

***

Ağa Məhəmməd şah Qacar ikinci dəfə Xudafərin körpüsündən adlayıb Arazın bu tayına keçdi. Lakin şahın arxasınca gələn süvarilər və piyadalar körpünü keçə bilmədilər. Çünki İbrahimxəlil xan Ağa Məhəmməd şahın hücumunun qarşısını almaq üçün körpünü yenə dağıdıb ona xeyli ziyan yetirmişdi. Şahın qoşunu Arazı keçib Qarabağa tərəf yürüş edəndə İbrahimxəlil xanın əsgərləri yollarda, gədiklərdə düşmən qoşununun qarşısını kəsmək istədi. Lakin qoşunun sayı-hesabı yox idi. İran sərbazları tələfat versələr də inadla irəliləyirdilər.

...Qacar qoşunu Şuşa yolunun üstündəki Əskəran qalasını çətinliklə aldı. Şuşanın qala darvazaları yenə düşmənin üzünə bağlandı. Ağa Məhəmməd şah birinci hücumdan bilirdi ki, qala hasarları çox möhkəmdir. Onu dağıtmaq, şəhərə yol açmaq

mümkünsüzdür. Buna görə də şah şəhərin yaxınlığında topları bir yerə yığdı, eyni vaxtda atəş açıb hasarı dağıtmaq əmrini verdi (həmin yer o vaxtdan Topxana adlanır). Toplar şəhərə, xüsusən hasara böyük ziyan vururdu. Qələbə lap yaxın idi. Lakin qəflətən darvazalar açıldı, İbrahimxəlil xan xeyli süvari ilə ildırım kimi qaladan çıxdı, topların yığıldığı yerə hücum edərək onları güclü atəşə tutdu. Bu qəfləti, gözlənilməyən hücumdan sərbazlar özlərini itirdilər. Toplar sıradan çıxdı. Lakin İbrahimxəlil xan geri qayıda bilmədi. Çünki onlar qaladan çıxan kimi arxalarınca darvazalar bağlanmışdı. Darvazaların yenidən açılması şəhərin işğalı demək idi. İran sərbazları da bu fürsəti əldən qaçırmazdılar. Yalnız indi İbrahimxəlil xan bir sərkərdə kimi səhv etdiyini anladı. O, şəhərdən çıxmamalı, qala darvazalarını açmamalı idi. Bu bağışlanılmaz səhv içəridə qoşunu başsız qoydu... beləliklə də şuşalıların məğlubiyyətinə yol açdı.

İbrahimxəlil xan dərin peşimançılıq içində atının başını sağ qalmış süvariləri ilə birlikdə Dərbəndə çevirdi. O, ailəsini müharibə başlamamışdan şəhərdən çıxarmışdı...

* * *

Şuşalılar odla-su arasında qaldılar: düşmənə müqavimət göstərsinlər, yoxsa qala qapılarını düşmənin üzünə açsınlar? Şuşalılar qorxu, təşviş, həyəcan içindəydi. Tiflis faciəsi onları dəhşətə gətirmişdi. Əgər şah şəhərə girərsə onların başına müsibət gətirməzdimi? Uşaqdan böyüyə hamısını qılıncdan keçirməzdi ki?

Şəhərin baş ruhanisini Ağa Məhəmməd şah Qacarın yanına göndərmək istədilər: qoy şah Qurana and içsin ki, təslim olanda şah onlara heç bir xətər yetirməyəcək. Birdən o, da şahın qəzəbinə gəldi, qətlə yetirilirdi? Lakin baş ruhani dedi: "Eşitdiyimə görə Ağa Məhəmməd şah Qacarın ruhanilərə böyük hörməti var. O, inanmıram ki, mənə bir zəfər toxuya".

Qacar doğrudan da Şuşanın baş ruhanisini hörmətlə qəbul etdi, əhaliyə heç bir zərər verməyəcəyinə söz verdi. Qala qapıları açılanda vədinə sadiq qalaraq şuşalılara toxunmadı, yalnız qoşuna dəymiş zərərin məbləğini onlardan aldı.

...İbrahimxəlil xanın dəftərxanasından rus ordusunun baş komandanı, general Zubova yazılmış məktublar tapıldı. Bu məktublar arasında Naxçıvan xanlığının başçısı Kalbalı xanın da mək-

tubu vardı. Kalbalı xanın ruslara yaxınlaşmaq meyli Ağa Məhəmməd şahı özündən çıxardı. Qacar qəzəbindən bir yerdə qərar tuta bilmir, düyünlü qaşları alnının ortasında iki ilan tək baş-başa gələrək sanki zəhərini soyuq və rəhimsiz gözlərinə sıxır, onu rahat olmağa qoymurdu. Qacar dişlərini qıcayaraq düşünürdü: "Deməк belə Kalbalı xan... Sən Nadir şah dövründən də çox-çox əvvəl İranın himayəsində olan Naxçıvanı bizdən qoparıb rusların himayəsinə keçirmək istəyirsən... Cürətə, cəsarətə bax... Sənə elə bir cəza verəcəyəm ki, bundan belə bir rusun da üzünə baxa bilməyəsən...".

Ağa Məhəmməd şah Qacar özü öz qərarından yüngülləşən kimi oldu. Naxçıvanlı Kalbalı xanı Əskəran qalasına hüzuruna çağırmağı əmr etdi.

10

Kalbalı xan başının adamları ilə məscidə girəndə səs-küy birdən kəsildi. Sağ tərəfində Əli xan, sol tərəfində polis rəisi işləyən oğlu Ehsan xan dayanmışdı. Nigaran baxışlar Kalbalı xanın üzündə qaldı. Xan camaatın toplaşdığı ibadət salonuna göz gəzdirdi. Bu məscid şəhərin ən böyük məscidlərindən idi. Xan camaata sözünü demək istəyəndə bu məscidə gələr, mömünlərlə, ağsaqqallarla söhbət aparardı. İndi də Kalbalı xanın məscidə gələcəyini eşidənlər ertədən buraya gəlmiş, günorta namazını qıldıqdan sonra xanı gözləmişdilər.

Qadınlar kişilərdən yaşmanaraq salonun bir küncünə çəkilmişdi. Lap qabaqda başına fəs qoyub, çiyninə əba salmış dindarlar oturmuşdu. Onların hərəsinin əlində bir təsbeh vardı, dodaqlarının altında zikr edə-edə gözlərini Kalbalı xandan çəkmirdilər.

Kalbalı xan haradan başlayacağını bilmədi. Başı daim bəlalar çəkən insanlara nə deyəcəkdi? Kalbalı xanın üzünə zillənmiş gözlərdəki parıltı sanki qorxu və təşviş içində çırpınan ürəklərin ümid, üsyan qığılcımları idi, üstünə yağırdı. Onların yeganə pənahı Kalbalı xanın ağlı, iti zəkasıydı. Camaat bilirdi ki, Kalbalı xan asanlıqla bu torpağı yağıya verməz. Onların hamısı Kalbalı xanın bir sözünə bənd idi, bir əmrinə müntəzir idi ki, silah götürüb ayağa qalxsın, son nəfərinə, son damla qanınadək qoca yurdun qeyrətini çəksin. Yox, qığılcım yağan baxışlarda düşməndən

mərhəmət, diz çöküb əfv diləmək istəyi yox idi. Onlar savaşa, amansız çarpışa hazır idilər.

Kalbalı xanın gizli qürur hissindən sinəsi qabardı. Adamları gözlətməyərək gümrah səslə dedi:

– Əziz qardaşlar, bacılar və bütün Naxçıvan əhli. Bildiyiniz kimi Ağa Məhəmməd şah Qacar Qarabağdadır. Onun əsgərləri gözəl Qarabağı viran qoyub. İki il bundan əvvəl Şuşa ətrafında məğlub olan şah indi bunun qisasını şuşalılardan almaq niyyətindədir.

Salon uğuldadı:

– Qacar müsəlmandır. Oxuduğu Quran onun cəzasını versin.

Kalbalı xan əlini yuxarı qaldırdı:

– Sakit olun. Bura gəlməkdə mənim məqsədim başqadır. Qacar mənə məktub göndərərək Əskəran qalasına çağırır.

Salon uğuldadı:

– Getməyin xan. Onun bədxah niyyəti var.

– Şah istəyir ki, Kalbalı xanı aradan götürməklə Naxçıvanı diz çökdürsün...

– Qacar bilir ki, biz, bütün Naxçıvan əhli Kalbalı xanın arxasınca gedib müqavimət göstərəcəyik...

– Getməyin. Biz sizin arxanızdayıq. Kalbalı xan...

– Qala qapılarını bağlayıb şah qoşununu içəri buraxmarıq...

Kalbalı xanın dodaqları qaçdı:

– Mən sizə qulaq asdım. İndi də siz məni dinləyin. Naxçıvan İran şahlarının yumruğu altında çox əzilib. Başı müsibətlər çəkib. Vergi sadə kəndlinin də, sənətkarın da dizini qırır. Mən bütün bunlara son qoymaq üçün rus padşahına məktub yazıb onun himayəsinə keçmək istədiyimi bildirmişəm.

Kalbalı xan susdu. Baxışları bütün salonu dolandı, gözləri ağsaqqalların üzündə qaldı. Sükut birdən pozulub pıçhapıç başlandı.

Salavat əlini yuxarı qaldırdı:

– Xan, birdən ruslar da farsların tayı oldu?

Başqası yerindən söz atdı:

– Yağışdan çıxıb yağmura düşmərikmi?

Salon yenə uğuldadı:

Şeyx Məhəmməd təsbehini yuxarı qaldırıb hirsləndi:

– Allahu Əkbər. Hər ağızdan bir avaz gəldi. Kəsin görək xan nə deyir.

Kalbalı xan gözü adamların üzündə qətiyyətlə dedi:

– Hər halda ruslar bizi farslar kimi çapıb talamayacaq.

Qara çarşav örtmüş qadınların arasından tanış, zərif səs Kalbalı xanın könlündə şimşək tək çaxdı:

– Kalbalı xan, vuruşa biz də varıq.

Kalbalı xan qımışdı. Bu səs onun idi. Sanki qəlbinin dərinliklərinə gur, isti bir şəfəq axdı. Gözləri ilə axtarıb Mahnuru tapmaq, baxışı ilə minnətdarlığını bildirmək istədi. Lakin çarşav örtmüş qadınlar burunlarının ucuna qədər üzlərini gizlətmişdilər. Kalbalı xan əlini qaldırıb sanki bir an içində ürəyini təlatümə gətirmiş Mahnurla səssiz vidalaşdı və dodaqları başqa söz dedi:

– Yerimdə Şıxəli xan qalır. Əgər geri qayıtmasam mənim ölümüm heç kəsi ruhdan salmasın. Ərzaq ehtiyatı görün və döyüşə hazır olun.

Kalbalı xan sanki ürəyinə daman bu şübhə ilə hər kəslə görüşdü, əllərini sıxdı, sonra məsciddən çıxarkən elin sevgisindən riqqətə gələrək yaşarmış gözünü sildi...

* * *

Naxçıvandan Kalbalı xanı Əskəran qalasına el yola saldı. Amma onunla uzaq yola çıxmağa Kalbalı xan iki-üç yaxın adamdan başqa kimsəni qoymadı. Onlar xandan xəbər gətirəcək, bəlkə də nəşini geri qaytaracaqdılar...

Atın belində gümrah oturmuş Kalbalı xanın şəhanə görünüşü vardı. Yaşlaşsa da hələ şuxluğunu, yaraşığını itirməmişdi. Çöhrəsinin sərt cizgilərindən mərdlik və cəsarət oxunurdu, gözlərindəki ağıl və zəka işığı sanki batindən gələn nurun ziyası idi. Onun zahirində ölümə gedən adamın əndişəsi yoxdu. Elə bil Kalbalı xan Ağa Məhəmməd şah Qacarın çağırışına zəfər çalmış sərkərdə ədası və qüruru ilə gedirdi.

Kalbalı xan son tapşırıqlarını verdi... Aralanıb getmək istəyəndə Əli xan atın üzəngisindən yapışdı:

– Bir də fikirləş, bəlkə getməyəsən, xan-dedi.

Kalbalı xan atın üstündə şəhanə duruşunu pozmadan Əli xanı qınadı:

– Nə danışdığındır, Əli xan? İki il bundan qabaq Ağa Məhəmməd şah Qacar Şuşaya hücum eləyib onu otuz üç gün mühasirədə saxladı. Amma şuşalıların iradəsini qıra bilmədi. Düzdü qoşunu geri çəkdi, amma bilirsənmi bunun acığını necə

çıxdı? Əsir aldığı yüz nəfəri xırmanda dərz kimi bağlatdırdı, sonra da nalları tərsinə nallanmış atları üstlərinə sürdürdü. Ta o vaxta qədər ki, binəvalar əzilib qanlarına qəltan oldular və torpağa qarışdılar. Ətraf kəndləri də viran qoydu. Tiflisin müsibəti də ki, sənə bəllidir.

– Allah da onun divanını elər, cəzasını verər, inşallah – Əli xan saxlaya bilmədiyi göz yaşlarını sildi.

Kalbalı xan son dəfə çevrilib göz bəbəyi tək sevdiyi şəhərə baxdı. Bu son baxışına yaz ətirli, bahar nəfəsli Naxçıvan həkk olundu...

* * *

Əskəran qalasının içi silahlı İran sərbazları ilə dolmuşdu. Burda qızğın döyüş getdiyi qala hasarlarından görünürdü. Hasarlar top güllələrindən dağılmış, çox yeri uçub tökülmüşdü. Qalanın baş tərəfində şah Qacarın bəzəkli taxtı qoyulmuşdu. (Ağa Məhəmməd şah Qacar döyüşə gedəndə onun şəhanə paltarları, zinyətləri, ləl-cəvahiratı da aparılardı. Şah taxta oturanda onları geyinər, bununla da ətrafdakılardan fərqlənərək görünüşü ilə zəhm yaradardı).

Qalanın nəhəng darvazalarından şahın taxtına qədər silahı döşünə söykəyərək başını dik tutmuş əsgərlər dayanmışdı. Şahın gəlişinə müntəzir olan sərbazların da baxışında qorxu, vahimə sanki kölgə kimi donub qalmışdı.

Əskəran qalasından aşağıda isə görünən vadilərin nubar çəmənləri, yaşıllaşan yal-yamacları, dumanın boz köynəyindən sıyrılıb çıxan dərin dərələri yaz günəşinin isti şəfəqinə bükülürdü. Dərələrdən tüstü kimi qalxan duman dağlara sarı sürünürdü. Dağların arasından keçən yol Naxçıvana gedirdi...

Kalbalı xan nəm çəkmiş gözlərini bu yollardan yığa bilmədi. Sinəsində elə bil odu-atəşi sönmək bilməyən ocaq qalandı. Bu dar məqamda sanki burnuna doğma dağların çiçək qoxusu gəldi. Hətta ürəyi Naxçıvanın çiçək yetirməyən, ağac bitirməyən boz tikanlı çölləri, dağı-daşı üçün də əsdi.

Bir qəriblik havası içindəki həsrəti körükləyib artırdı, sanki dünyanın çən-dumanını gözlərinin içinə yığdı. Kalbalı xan kirpiklərini yumdu və elə bil qarşısında doğma şəhərin dar, əyri küçələrini gördü. Şəhər başdan-başa bişmiş və çiy kərpicdən tikilmiş uca hasarlardan ibarət idi. Bu hasarlar hər evi qala kimi düşmən-

dən – xüsusən də İran sərbazlarının talanından, soyğunundan, top və gülləsindən qoruyurdu. Amma bu qala-hasarlar nə qədər uca olsalar da yenə də çox vaxt insanların köməyinə çata bilmirdi. İşğalçıların uzun əlləri hasarların içinə də girirdi...

...1735-ci ildə taxta çıxan Nadir şah qüvvətlənib Naxçıvanı osmanlıların əlindən aldı. Nadir şah diz çökən Naxçıvana farsların qəddarlığını göstərdi. Hasarlar bu dəfə nə evləri, nə də bu evlərə sığınmış adamları qoruya bildi. Hasarlar top atəşlərindən uçulub-söküldü, dəhşətli fəryad səsləri güllə, qılınc səsinə, at kişnərtisinə qarışıb dağlara, düzlərə yayıldı. Dağılmış ocaqlar, xaraba evlər, yollarda əsir gedən, əl-ayağı qançır, gözləri yaşlı, dili bayatılı talesiz naxçıvanlılar... Əfşar zülmünü yaşadı.

Nadir şah elə bil göz işığına aşiq idi. Göz çıxartmaqdan, günahkarın işıqlı dünyasını qaranlığa, zülmətə çevirməkdən zövq alardı, nəşə duyardı. Hətta doğma oğluna da güzəştə getmədi, günahı var idisə gözlərini günahına bağışlamadı, tanrının verdiyi işığı qəddarlıqla geri aldı...

Xəyalı keçmişə at çapan Kalbalı xan qəflətən ürəyinə düşən xaldan diksindi: birdən Qacar da onun gözlərini çıxartdırar... Özünü gözsüz, könlünü işıqsız təsəvvür eliyə bilmədi. Elə bil kimsə boğazından yapışıb boğdu, ürəyi partlayana, bağrı çatlayana qədər boğazını əlindən buraxmadı. Gözsüz, işıqsız yaşamaqdansa ölümü üstün bildi... Göz işığı və ölüm... Kalbalı xan soyuq zülmətin içində sürünə-sürünə yaşamaqdan qorxdu. Gözlərini yumdu. Sanki göz qapaqlarının altında gözlərinin giləsi göynədi. Ürəyi səssiz fəryad çəkdi, üsyan elədi: «Allah sən özün saxla...».

Gözünü açdı və bu dəfə ürəyinə daman qara şübhənin sazağı, ağrısı ilə Naxçıvana gedən yollara baxdı. Könlü qubarla doldu...

* * *

Qəflətən sərbazlar bir-birinə dəydi:

– Şah gəlir.

Kalbalı xan özünü topladı. Qəlbinə dolmuş kövrək, hüznlü duyğuları özündən kənar elədi. Şahın gözünə yazıq və miskin görünmək istəmədi. Zalımın divanında mərdanə dayandı. Çatılmış qaşlarında, ağıllı gözlərində, üzünün sərt ifadəsində səbr və

təmkin, görünüşündə əzəmət və qurur, baxışında mərdlik və cəsarət oxundu.

Şah Qacar başını dik tutaraq, kimsəyə baxmadan, sərt baxışlarında soyuq və rəngsiz ifadə ilə keçib yerində oturdu, yalnız indi başını çevirib ətrafa baxdı. Kalbalı xanın ürəyi üşəndi: «...Bu nə yaman çirkin addamış. Binəvanın zahiri kimi batini də çirkin». Şahın tüksüz sifətində təkcə canlı, bir yerdə qərar tutmayan iri, rəngsiz gözləriydi. Sanki qan tökməkdən bu gözlər istisini, şəfqətini, sevgisini itirmişdi. Bəlkə də ona görə bu gözlərdə insanı iliyinə qədər üşüdən bir ilan soyuqqanlılığı vardı. Seyrək kirpiklərinin arasında sanki sonu görünməyən kin, nifrət çeşməsi qaynayırdı. Qabaqdan üç dişi düşdüyündən üst dodağı içəriyə yastılanmış, alt dodağı isə sallanmışdı.

Gözlər soyuq kölgəsini Kalbalı xanın üzünə saldı, xeyli baxdı. Kalbalı xan gözlərini şahın gözündən çəkmədi, sanki bununla da gözlərini-ürəyinin içini yaralamaq istəyən zəhərli baxışlara sipər elədi. Xan şahın çirkin sifətinə baxır, ürəyində isə tanrı ilə danışırdı: «İlahi bu məxluqu bəd saatındamı yaratdın? Yoxsa üzündən-gözündən qansızlıq, qəddarlıq yağan bu məxluqu naşükür bəndələrin acığınamı xəlq elədin?».

Şah yerində qurcalandı. Kalbalı xanın mərdanə duruşu şahın xoşuna gəlmədi. Baxışlarından kin, nifrət dalğası keçdi. Dilinin zəhər düyünü açıldı. İstehzalı gülüşünə sanki baxışının rəngsiz soyuğu, dilinin zəhəri qarışdı:

– Kalbalı xan demək sənsən...

– Bəli, şahım, – Kalbalı xan gümrah səslə cavab verdi.

– Sən Naxçıvan mahalının xanısan. Naxçıvan isə bizimdir – şah sərt halda əlini sinəsinə vurdu – Naxçıvan farsların himayəsi altındadır.

– Bəli, şahım.

Şah Qacarın qəzəbdən, əsəbdən mumiyalanmış kimi görünən solğun sifəti qızardı, gözləri irilənib sanki qan çanağına döndü:

– Amma sən farsların sənə olan etibarını itirdin.

Kalbalı xan şahın daha nə deyəcəyini gözlədi.

Şah səsini qaldırdı:

– Sən etibarını itirmisən. Çoxdan itirmisən... Əvvəla Səfəvi dövlətinin qoyduğu qanunlara görə İran şahı Azərbaycanın və Gürcüstanın da hakimidir. Mən də 1791-ci ildə taxtda əyləşən ki-

mi Azərbaycan xanlıqlarına, o cümlədən Naxçıvan xanlığına məktub göndərdim ki, İran dövlətinə tabe olsunlar. Onlara etibar etməyim üçün də ən yaxın adamlarını girov istədim. Kalbalı xan sən Abbasqulu xanı girov göndərdin. O sənin əmin nəvəsiydi.

– Şahım...

Şahın qəzəbi getdikcə kükrədi. Coşmuş, gözləri hədəqəsindən çıxmış, məzəmməti, tənbehi hədəyə çevirən Qacar susmaq, dayanmaq bilmədən Kalbalı xanı məhşər ayağına çəkirdi:

– Abbasqulu xan sənin düşmənin və rəqibin idi. Sən onu xanlıq taxtından salıb yerinə keçmişdin. Sən onu mənə girov verməklə iki məqsəd güddün: həm məndən, həm də başağrısı gətirən rəqibdən yaxanı qurtardın. Sən elə o vaxtdan mənim gözümdən düşdün, Kalbalı xan. Mən sənə etibar etməməkdə haqlıydım. Çünki sən hiyləgər və yalançısan.

Şuşa qalasını alandan sonra İbrahimxəlil xanın dəftərxanasından Şamaxı, Şəki, Gəncə, İrəvan, Xoy, Qarabağ, Tiflis, Gürcüstan, Təbriz və Naxçıvan xanlarının rus qoşunlarının baş komandanı Valerian Zubova yazdığı məktublar çıxdı. Mənim xəbərim var. Qarabağ xanı İbrahimxəlil xan və onun vəziri Molla Pənah Vaqif II Yekaterina ilə məktublaşırmış. Hətta hökmüdar xanım İbrahimxəlil xana hədiyyə, vəzirinə isə daş-qaşla işlənmiş əsa göndərmişdi.

Kalbalı xan susurdu. Onun sükutundakı əzəmət və qürur da şahı hövsələdən çıxarırdı. Buna görə də Qacar səsini yenə qaldırdı. Səsində zəhər kimi istehza və kinayə vardı:

– 1796-cı ildə II Yekaterina ömrünü bağışladı sizlərə. Onun yerinə keçən I Pavel məndən – Ağa Məhəmməd şah Qacardan qorxaraq və üstəlik Fransa ilə müharibə etdiklərindən – şah bunu yavaş dedi – Azərbaycandakı qoşunlarını geri çağırdı. Amma sizin məktublar... bir xəyanət nişanəsi olaraq qaldı. Rusların himayəsi altına keçmək istəyirsən, niyə? Cavab ver, niyə?

Şah sanki bağırmaqdan yorulub sustaldı, seyrək kirpikli gözlərini yumdu. Bununla da elə bil ətrafa səpdiyi zəhəri yenidən öz içinə yığdı.

– Şahım – Kalbalı xan özünü itirməyərək sakit və təmkinlə dedi: – İran sərbazları Naxçıvanı daim talan və qəraət edirlər. Zülmün həddi-hüdudu yoxdur. Üstəlik də belə bir xəbər eşitmişik ki, siz naxçıvanlıları İran torpaqlarına köçürmək istəyirsiz.

– Doğru xəbərdi – şah istehza ilə qımışdı – bir vaxt Şah Abbas naxçıvanlıları Mazandarana və Astrabada köçürdü. Şəhəri isə dağıtdı. Mən də elə edəcəm.

Fəlakətin sazağı Kalbalı xanı üşütdü. Dərindən ah çəkdi. Bu anlarda duyduğu zəiflik və acizlikdən qəhr oldu. Sanki sinəsində qalanmış od-ocağın tüstüsündən boğuldu.

Şah elə bil təzədən onun duyğularına meydan oxudu;

– Kalbalı xan, güvəndiyin, pənah apardığın ruslar sənə kömək eliyə bilməyəcək. – şahın qızarmış gözlərində ilan soyuqqanlılığı əks olundu. – Mənim itaətimdən çıxmaq istəyənləri isə mən bağışlamıram – Şah Qacarın əlinin işarəsi ilə əmrə müntəzir dayanmış qara paltarlı, qolları dirsəyə qədər çırmanmış, saçları dibdən ülgüclənmiş iki yekəpər cəllad Kalbalı xanın qollarından tutub dik götürdülər. Kalbalı xan fürsət tapıb kəlmeyi-şəhadətin son cümləsini dedi: «...Əşhədi ənnə əmirəl mömininə əliyyən vəliyullah».

Xəyalı isə Naxçıvanı dolaşdı. Nədənsə ilk əvvəl arvadı Tükəzban xanımı xatırladı. Sanki arvadının gözlərindəki gizli incikliyi həyatının bu dar məqamında qəflətən gördü. Kalbalı xan bu incik baxışlardan son anda əfv dilədi.

...O son gecədə Tükəzban xanımı gözlərini yağışlı, könlünü yağmurlu gördü. Sanki bu yağışlı havanın çiskini onu da aldı. Onda hiss elədi ki, demə Tükəzban xanıma ürəyində yetərincə sevgi varmış... Amma başı xanlığın işlərinə, vuruşa, savaşa qarışdığından arvadının gözlərindəki sonsuz gileyi, qınağı, sevda tamarzısını, istəyini illərlə duya bilməmişdi. Qəlbində qalmış bu könlü qırıq sevda Kalbalı xanın təkcə öz içini qızdırmışdı, öz içinə işıq salmışdı... Tükəzban xanım isə yalnız onun ayazını, soyuğunu hiss eləmişdi.

Kalbalı xan xəyalən övladları ilə vidalaşdı. Nəzərəlini, Ehsanı, Şıxəlini, Fərəci, Mehdiqulunu, Gülşənbəyimi, İskəndəri bağrına basdı. Güvəndiyi Ehsan xanla Şıxəli xan idi. Ehsan xan yaraşıqlı, gözəgəlim idi. Zahiri görünüşü mərdliyi və cəsarəti ilə uyuşurdu. Hərb elminə xüsusi marağı vardı. Əvvəllər atasına məxsus olan xan qvardiyasında qulluq edirdi. Sonralar polis rəisi oldu (və Ehsan xan hərbdə qazandığı uğurları ilə atasının etimadını doğrultdu. 1809-cu ildə hərbi xidmətinə görə çar I Aleksandr ona polkovnik rütbəsi verdi. 1823-cü ildə isə Kalbalı xan Naxçıvan xanlığının idarə olunmasını Ehsan xana tapşırdı).

Kalbalı xanın son anda qəflətən ürəyində pünhan bir duyğu da gumuldandı. Kimsənin bilmədiyi, kimsənin xəbər tutmadığı, təkcə Tükəzban xanımın hərdən qadın hissiyyatı ilə ürəyinə şübhə sızdıran o qərib, pak duyğu Mahnuru xatırlatdı. Xan o anda qaniçən şahı da, onu gözləyən ölüm hökmünü də unutdu. Bu gizli, qərib duyğu onu sınmağa, qəhr olmağa, gözlərinin içinə yağış düşməyə qoymadı. Arxada qoyub gəldiyi həsrəti, nigarançılığı, peşimançılıqları yüngülləşdirdi.

Cəllad Kalbalı xanı edam meydanına çəkmək istəyəndə Ağa Məhəmməd şah Qacarın boğuq səsi eşidildi. Yumulu gözünü açdı nifrətlə Kalbalı xana baxdı və etinasızlıqla əlini yellədi:

– Öldürməyin, gözlərini çıxarın, sonra da altı il Tehran zindanında saxlansın – dedi.

Kalbalı xanın işıqlı dünyası bir göz qırpımında tarımar oldu. İçində başlayan zəlzələnin, uçqunun dəhşətli səsini, naləsini özü eşitdi. İzaholunmaz ağrısını özü duydu. Sanki min yerdən ürəyi oxlandı, könlü bərbad oldu. Başının üstündəki bəyaz, tərtəmiz göylərə baxdı: «İlahi, kömək ol, əlimdən işıqlı dünyam gedir. O, necə əziz imiş, müqəddəs imiş. İnsanın ölməyən ruhu demə işıqda imiş, gözlərini sevindirən ilahi qüvvə də işıq imiş. İlahi sən kömək ol...»

Kalbalı xan Əskəran qalasından aşağıda yazın sanki işıq içində yamyaşıl bir gözəlliyə bükülən çəməninə, dağına-daşına həsrətlə baxdı. Naxçıvana gedən dolama yolları isə gözlərinin son işığına büküb yaddaşının son işıqlı səhifəsinə köçürdü.

Cəllad yaxınlaşanda Kalbalı xan ürəyinin fəryad səsini soyuqqanlılıqla boğdu, gözlərini qapadı. Və işıq bir röya kimi qaranlıq dünyanın o biri üzündə qaldı...

* * *

Kalbalı xanı aparandan sonra da şah Qacar bir xeyli müddət taxtından qalxmadı. Gözləri yarıyumulu, fikri isə çapar idi: Kalbalı xanın xəbəri yoxdu ki, rus sərkərdəsi Kutuzov 1793-cü ilin noyabrında Peterbura rus padşahına göndərdiyi məktubda yazıb «şaha bildirmək lazımdır ki, o, Azərbaycana hücum edərsə ruslar tərəfindən heç bir müqavimət olmayacaqdır».

Azərbaycan xanlıqlarının başçıları başa düşmürlər ki, ruslar bununla da məni şirnikləndirib Azərbaycana hücum etməyə sövq edirlər. Onlar bic siyasət yeridərək Azərbaycanı gücdən salıb

zəifləṭməyə çalışırlar ki, sonra da onu asanlıqla işğal edə bilsinlər. Azərbaycan xanlıqlarının başçıları başa düşmürlər ki, onlar mənim himayəmə sığınmaqdan boyun qaçırmaqla, ruslara pənah aparmaqla bu torpaqlarda rus işğalına şərait yaradırlar.

Eləcə də sən Kalbalı xan...

* * *

...Kalbalı xanı Naxçıvana qaytarırdılar. İki at qoşulmuş rahat arabada Kalbalı xan arxası qatda uzanmışdı. Gözlərinin üstündən ağ sarıq bağlanmışdı. Rəngi qaçmış bənizində sanki həyat əlamətləri yoxdu. Lakin xan hərdən sızıldayır, əlini qeyri-iradi gözlərinin üstündəki ağ sarığa toxundururdu. Bütün vücudundakı ağrı, canının sızıltısı buradan başlayırdı. Elə bil oyulmuş gözlərinin çuxurunda qızdırması, istisi ürəyinin içinə qədər yayılan iki ocaq qalanmışdı. Kalbalı xan ağrıya dözməyərək huşunu itirir, özünə gələndə isə çabalayaraq, əl-qol artır, sanki bu iki ocağı var qüvvəsi ilə söndürməyə çalışırdı.

...Şıxəli xanla Əli xan Əskəran qalasına özlərini vaxtında yetirdilər. Cəlladlar işlərini qurtarıb Kalbalı xanın qollarından sürüyərək onu qaladan kənara atmışdılar. Xanı dişarıda gözləyənlər sifətinə sanki qıpqırmızı kəlağay çəkilmiş Kalbalı xanı görəndə özlərini itirdilər...

...Şıxəli xan gözlərini atasından çəkə bilmirdi. At üstündə şəhanə oturan, düşmənin canına lərzə salan pəhləvan cüssəli adam sanki yox olmuşdu. Onun əvəzində arxası qatda mağmun və zəlil bir adam astadan inildəyir, hərdən də huşunu itirərək sayıqlayırdı. Şıxəli xan dodaqlarını bir-birinə sıxaraq göz yaşını şüşə kimi göz bəbəyində saxlayır, kimsənin görməməsi üçün bu göz yaşlarını ürəyinin içinə yağdırırdı Hüznlə düşünürdü: «Bütün ömrünü at belində keçirmiş igid Kalbalı xan görəsən bundan sonra necə yaşayacaq? Korluğu ilə barışıb dustaqxana həyatına alışa biləcəkmi? Altı il də zindan... Yox, o bizim tanıdığımız Kalbalı xandırsa ya mübarizə aparıb yaşayacaq, ya da... öləcək».

Kalbalı xan inildəyib qurumuş dodaqlarını islatdı. Əli xan kuzədən su töküb verdi, alnının tərini sildi.

Şıxəli xan gözlərinin yaşını quruladı:

– Görəsən Qacar qan tökməkdən, baş kəsməkdən, göz çıxarmaqdan bezmədimi? Bu xacə şahı Allah bizə cəllad göndərdi.

– Darıxma oğlum, vaxt gələr Allah onu cəzasına yetirər – Əli xan ona təskinlik verdi. Əlini saqqalına çəkib göylərə baxdı, sanki tanrını uca göylərdə görürmüş kimi dodaqaltı nə isə pıçıldadı, sonra ah çəkdi:

– Bizim ruhumuz bədənimizdə Allahın verdiyi əmanətdir. Bu əmanəti Allahın özü yox, bəndəsi alırsa, bu tanrının xoşuna gəlmir.

– Xacə şahdan Allahın xəbəri varmı? – Şıxəli xan istehza ilə soruşdu.

– Allah onun işinə qarışanların cəzasını özü verir.

– Cəzanın müddəti çox çəkir. İnsanın səbri təhamül eləmir.

Əli xan ona fikir verməyərək asta, təmkinli səslə sözünə davam etdi:

– Allahın səbri böyükdür. O cəzasını verməmişdən əvvəl yolunu azmış bəndəsinə tövbə üçün bir daha vaxt verir.

– Əli xan, bu cür danışıb məni hövsələdən çıxarma. Tanrı xacə şahın cəzasını çoxdan verməliydi.

– Lakin oğlum, o əslində cəza içindədir. O bir hökmüdar kimi qüdrətli olsa da bir insan kimi bədbəxtdir. Dünyanın zövqü-səfasından məhrum olan bu bədbəxt adamı sevindirən heç nə yoxdur.

Şıxəli xan susdu. Başını qaldırıb ətrafa baxdı. Dolaylardan keçib getdikcə baharın can verdiyi gözəllik insanın ruhunu dindirir, ağlar gözünü güldürür, qəlbini coşdururdu. Dolaylardan aşağı qucağı gül-çiçəklə dolu dərin dərələr, uzaqlarda isə məxmər kimi göz oxşayan vadilər uzanıb gedirdi.

İrəlidə sərbazlar gedirdi. Onlar hərdən çevrilib baxır, sonra da yollarına davam edirdilər. Sərbazlar Kalbalı xanı Tehrana aparırdılar.

Əli xan dayanmaq işarəsi verdi. Sərbazların narazı baxışları Əli xanı sancdı:

– Qaranlıq düşür, biz özümüzü Naxçıvana yetirməliyik.

– Yollar çala-çuxur olduğundan yaralını atıb-tutur. Bir az dincəlsin. Sizdə müsəlman qanı yoxdurmu?

Sərbazlar atların cilovunu çəkdilər. Şıxəli xan atasının başını qaldırıb alnından öpdü. Əli xan üzünü göylərə tutdu: İlahi, gözünün işığı söndüsə, heç olmasa ruhunun işığını söndürmə.

...Batabat yaylağına çatanda Kalbalı xan canlandı, başını qaldırdı:

– Bu əsən Naxçıvanın küləyidir. Meşəyə çoxmu qalıb?

Əli xanla Şıxəli xan baxışdılar. Əli xan tələsik dedi:

– Meşəyə girgahirdəyik Kalbalı.

– Deyirəm axı, elə bil bədənimə qüvvət, canıma can gəldi. Şıxəli xan burdadımı? Bilirəm burdadır. Mən onun səsini eşidirdim.

Şıxəli xanın bir anda qəlbindəki ağrı səngidi: «Atam yaşayacaq. Kalbalı xanın nə səsi batacaq, nə də atının kişnərtisi bu dağlardan kəsiləcək...».

## 11

Ağa Məhəmməd şah Şuşada olduğu hər gecə yatağına uzananda sanki başının üstündə yenə də səssiz bir ölüm kölgəsinin gəzdiyini hiss eliyərdi. Bəlkə də elə buna görə ayıq yatar, quş yuxusu tək bir yuxu alardı. Sanki bununla da onu kölgə kimi addım-addım izləyən ölüm xofundan, iti caynaqlarını boğazına uzadan ölüm qorxusundan özünü hifz etməyə çalışardı.

Axşamlar vəliəhdi Xanbaba Cahanbaninin oğlu Abbas Mirzə ilə təklikdə söhbət edərdi. Bu saatlarda Ağa Məhəmməd şah savaşlarda, müharibələrdə bərkiyib daş ürəkli rəhimsiz adamdan ömrünün son günlərini yaşadığını hiss edən kövrək qəlbli bir adama çevrilərdi. Onun cəmi əlli səkkiz yaşı vardı. Lakin o, yaşından ixtiyar görünürdü. Tüksüz, çirkin sifətini qırışlar örtmüşdü. Az yeməkdən və az yatmaqdan cəld və çevik qalsa da içərisindəki zülmət qaranlığı bütün soyuqluğu ilə gözlərinin işığına çökmüşdü. Tale onun alın yazısını sanki düşməncəsinə, qəddarlıqla yazmışdı: onu dünya nemətlərindən və həyat zövqündən məhrum etmişdi. Abbas Mirzə ilə söhbətində ancaq müharibələrdə qazandığı hərb elminin sirlərindən onu agah edirdi. Əgər Xanbaba Cahanbani onun vəliəhdidisə Abbas Mirzə də Cahanbaninin vəliəhdi olacaqdır. Qoy Ağa Məhəmməd şah Qacarın on səkkiz il şahlıq etdiyi İran səltənəti etibarlı əllərdə olsun. Qacar sülaləsinin şöhrəti davam etsin...

...Ağa Məhəmməd şahın ürəyinə çökmüş ölüm xofu sanki onun xasiyyətindəki rəhimsizliyi və qəddarlığı sıxıb çıxarmışdı. Bunu Şirvan müharibəsi də təsdiq etdi...

Şah Şuşada ikən Şirvan hakimi Mustafa xanın İrana tabe olmaq istəmədiyi və müharibəyə hazırlıq gördüyü xəbərini aldı. Şirvan xanlığının paytaxtı Şamaxı şəhəri idi. Xanlıqda yalnız Şa-

maxı şəhərinin hasarları vardı. Mustafa xan darvazaları bağlayıb savaşa hazır dayanmışdı.

Ağa Məhəmməd şah Qacar Şamaxıya qoşun çəkdi. Hasarlar dağıdıldı, Mustafa xan duruş gətirə bilməyib qaçdı. Şamaxı alındı. Bəlkə də Qacar şahı içindəki ölüm xofunun təhriki ilə Şuşada olduğu kimi Şamaxıda da əsgərlərinin qətllər, qəraətlər törətməsinə izin vermədi. Şah bunu əsgərlərinə qadağan etdi.

Ağa Məhəmməd şah Qacarın əmrini yalnız bir nəfər pozdu. Bu naib Sadıq xan Nahəvəndi idi. O, varlı bir tacirin evinə girərək ondan pul və cəvahirat aldı. Sadıq xan Nahəvəndinin şah sarayında böyük hörməti və nüfuzu vardı. Tamahı şeytan kimi içinə girərək onu Allahın və şahın yanında günah işləməyə sövq etdi.

Şamaxılı tacir Şuşaya Ağa Məhəmməd şahın hüzuruna şikayətə gəldi və işin üstü açıldı. Şah kişinin şikayətini qəzəb hissi ilə dinlədi. Və Sadıq xan Nahəvəndi ilə birgə qəraətdə iştirak etmiş iki nəfərin də edamına fərman verdi.

...Ağa Məhəmməd şah Qacar o gecə çox narahat idi. Daxilindəki ölüm xofu şiddətlənərək sanki kölgəsini şahın üzünə, gözlərinin işığına salmışdı, həmin gecə ilk dəfə fikrini toplayıb Cəfər Tonkabuninin kitab oxumasına qulaq asa bilmədi. Kitabın səhifələri çevrildikcə elə bil özünün də ağrılı-acılı ömrünün son səhifələri çevrilirdi...

Ağa Məhəmməd şah Şuşanın aylı gecələrini seyr etdi. Xəyalı çox uzaq illərə qanad çaldı. O illərə ki, orda anası-türkmən qızı, qoçaq və cəsarətli, at minib qılınc oynadan, ağıllı və tədbirli Ceyran vardı. Atası – tayfa başçısı Ağa Məhəmməd Həsən xan vardı. Esterabadda keçən uşaqlıq illərini xatırladı. Uşaqlıq illəri ona çox əzizdi. Çünki onda damğalı adı yox idi. Qəlbindəki sevinc yaz çayı kimi aşıb-daşırdı. Damğalı olduğu illərdə bu sevinc, fərəh hissi çeşmə kimi qurudu... Ağa Məhəmməd şah uşaqlıq illərini, yeniyetməlik çağlarını heç bir vaxt indiki kimi xatırlamamışdı. Bəlkə də bu ölüm xofunu duyduğuna görə uşaqlıq illəri, atalı-analı günləri ilə son vidası idi...

Sonra şah qəlbindəki dumanlı nigarançılıq, narahatlıq hissi ilə yatağına uzandı, kəlmeyi-şəhadətini dodaqları qeyri-iradi, könülsüz pıçıldadı və gözünü yumdu.

* * *

Sadıq xan Nahəvəndi sabah iki şəriki ilə qətlə yetiriləcəkdi. Bu gecə də onlar üçün son gecə olmalıydı.

Lakin Sadıq xan Nahəvəndi sarayın nüfuzlu adamlarından olduğundan günahkarların heç birinin qoluna və ayağına zəncir vurulmamışdı. Üstəlik həbs olunduqları otağın da qapısını açıq saxlamışdılar. Saray adamlarının bu səhvindən qatillər bəhrələndilər...

Sadıq xan sarayın gizli fərraşları olan şərikləri ilə gözətçini öldürüb xəncərini götürdülər. Ayaqlarının ucunda ehtiyatla şahın yataq otağına yaxınlaşdılar. Yataq otağının iki gözətçisini aradan götürüb içəri girdilər.

Ağa Məhəmməd şah təzəcə yuxuya getmişdi. Sadıq xan vaxtı itirmədən səssizcə əlindəki bıçağı şahın hülqumuna sancdı. Şah bıçağın dəstəyindən yapışaraq qışqırmaq istədi. Bacarmadı. Üzü üstə düşdü.

Sadıq xan pıçıltı ilə dedi:

– Tez olun, indi ara qarışacaqdır. Pulu və cəvahiratları götürüb aradan çıxaq.

– İndi haraya qaçaq, Sadıq xan? Onun yerinə keçən Xanbaba Cahanbani harda olsaq bizi tapdırıb edam etdirəcək – şəriklərindən biri qorxa-qorxa dedi:

– Rusiyaya, ya da Türkiyəyə qaçarıq. Danışdığımız kimi. Amma şahın ölüm xəbəri yayılmamış qaladan çıxaq.

...Lakin qatillər qaçmağa fürsət tapa bilmədilər. Qaladan çıxarkən yaxalandılar.

* * *

Ağa Məhəmməd şah Qacar 1797-ci ildə Şuşada qətlə yetirildi.

İran taxt-tacına onun vəliəhdi Xanbaba Cahanbani yiyələndi. Lakin o, adını dəyişərək İran səltənətinə Fətəli şah ismi ilə sahib oldu.

İbrahimxəlil xan Qarabağ torpağında əmanət qalan Ağa Məhəmməd şah Qacarın cənazəsini hörmətlə İrana göndərdi (Şah Nəcəf şəhərində birinci İmamın məqbərəsinin yanında dəfn edildi)

İbrahimxəlil xanın əmisinə göstərdiyi ehtiram Fətəli şahın xoşuna gəldi. O, xana qiymətli hədiyyə və məktub göndərdi. Məktubda Qarabağ xanlığının başçısına hörmətini bildirən və dostluq təklif edən Fətəli şah yazmışdı: «hər iki tərəfin xatircəmliyi üçün

əziz və möhtərəm qızınız Ağabəyim ağanı bizim hərəmxanaya layiq bilməlisiniz. O, bizim hərəmxanamızın xanımı olmalıdır...».

Qarabağ xanı Ağabəyim ağa ilə bərabər oğlu Əbülfət ağanı da şah sarayına göndərdi. Bununla da İbrahimxəlil xan Qarabağ xanlığının müstəqilliyini qorumaq üçün şahla qohumluq əlaqəsi yaratdı (İbrahimxəlil xan sonralar qohumluğun möhkəmliyinə və şahın səmimiyyətinə inanmadı, üzünü yenidən ruslara çevirdi).

11

Zindanın ağır qapıları açıldı. Sərbaz Kalbalı xanın biləklərinə, ayaqlarına vurulmuş zəncirləri açdı. Yüngülləşmiş, zindanın ağır havasından azad olmuş Kalbalı xan dərindən nəfəs aldı. Sərbaz onun qolundan tutub zindanbaşının otağına gətirdi. Kalbalı xan nə baş verdiyini anlaya bilmirdi.

Zindanbaşının kobud səsində bir mülayimlik duydu:

– Səni təbrik eliyirəm ağa. Bu gün burdan mürəxxəs olursan.

Kalbalı xan qulaqlarına inanmadı:

– Burdan çıxmağıma hələ beş ildən çox var.

– Şah səni əfv elədi, ağa.

– İnanmaram.

– Düz sözümdü, ağa.

– Yəni Ağa Məhəmməd şah Qacarın mənə rəhmi gəldi?

– Allah ona rəhmət eləsin.

– Nə dedin, ağa?

– Ağa Məhəmməd şah Qacar Qarabağdan qayıtmadı. Onu Şuşada qətlə yetirdilər.

Kalbalı xan kirpiklərini tez-tez çaldı:

– Yəni Ağa Məhəmməd şah ölüb?

– Ölüb, ağa, ölüb.

– Bəs indi şahınız kimdi?

– Ağa Məhəmməd şahın qardaşı oğlu.

– Xanbaba Cahanbani?

– Bəli, ağa. Amma adını dəyişib. Fətəli şahdır.

– Ağa, bir söz də soruşmaq istəyirəm.

– Buyur.

– Gözlərim görmür. Ağır zəncirləri qoluma və ayaqlarıma niyə vurmuşdular? Kor halımla qaçmağa mənim imkanımmı vardı?

Zindanbaşı güldü:

– Üstəlik səni qaranlıq hücrədə saxlayırdılar, ağa.

– Niyə? Mən ki, elə qaranlığın, zülmətin içindəyəm – Kalbalı xan zindan qayda-qanunlarına nifrətini açıq-aşkar biruzə verdi.

Zindanbaşının səsində işindən zövq alan adamın nəşəsi duyuldu:

– İnsan görməsə də qaranlıq onu sıxır. Qaranlıqda insanı məhv eliyən, ruhdan salan bir hiss var. O ki, qaldı zəncirlərə. Burdan quş da səkə bilməz. Zəncirlər işgəncə üçün vurulmuşdu.

Kalbalı xan ayağa qalxdı:

– Mənim yanıma gələn varmı?

– Var. Oğlun Şıxəli xan gəlib.

Kalbalı xanı qolundan tutub həyətə çıxardılar. Sanki sövqitəbii ilə Şıxəli xanın hənirini aldı. Kövrəlib udqundu. Başını azca yuxarı qaldırıb kirpiklərini çaldı. Ata-oğul qucaqlaşdılar. Kalbalı xan özünü tox tutsa da bacarmadı. Dodaqları əsdi. Əlini Şıxəli xanın üzündə gəzdirəndə yanaqlarının islandığını duydu. Oğlunun çiyinlərindən tutub bağrına basdı, onun tanış, doğma qoxusunu burnuna çəkdi. Sonra da titrək səslə soruşdu:

– Tükəzban xanım yaxşıdımı? Uşaqlar... Mənim azad olmağımı bilirlərmi?

– Sağ-salamatlıqdır. Fətəli şahın səni bağışlamaq xəbərini eşidən kimi Tehrana gəldim.

Kalbalı xan başını buladı:

– Qacarı günahsız adamların qarğışı tutdu.

– Atalar deyir ki, su sənəyi suda sınar.

– Elədir. Atlar yaxındadımı?

– Çatmışıq.

Kalbalı xan ayaq saxladı:

– Naxçıvanın vəziyyəti necədir? Fətəli şah vergiləri çoxaltmayıb ki? Xanlığı indi kim idarə eləyir?

– Abbasqulu xan.

Kalbalı xan istehza ilə güldü:

– Abbasqulu xan görəsən taxta çıxıb düşməkdən bezmədimi?

– Camaat Abbasqulu xandan bezib.

– Bəs necə oldu ki, o, bir də hakimiyyət başına keçdi?

– İran şahı onu taxta çıxardı. Vergilər də xeyli artıb. Xanlıqda işlər ürəkaçan deyil. İran sərbazları az qala camaatın son tikəsini də ağzından çıxarır. Camaat səni gözləyir. Amma...

Şıxəli xan axırıncı sözü uddu. Səsindəki gümrahlığı saxlamaq üçün söz axtardı. Kalbalı xan acı-acı güldü:

– Məni gözləyirlər? Bu halımla... necə işləyə bilərəm?

Oğlu cavab vermədi. Atları dəhmərlədilər. Sübh tezdən Arazı keçəndə Kalbalı xan dayandı, dərindən nəfəs aldı, atının başını Naxçıvana çevirmək istəyəndə Şıxəli xan axırıncı ağır xəbəri verdi:

– Fətəli şah sənin Naxçıvana getmənə izin verməyib. İrəvana getməliyik.

Kalbalı xan nə oğluna cavab verdi, nə də xeyli müddət yerindən tərpəndi. Üzünü Naxçıvan səmtdən əsən küləklərə çevirdi. Havasını ətirli çiçək tək sinəsinə çəkdi. Sonra da astadan məzəmmətlə dedi:

– Heç olmasa Tükəzban xanımı görəydim.

– Darıxma ata. Anam da, oğul-uşaq da səni İrəvan xanı dayım Məhəmməd xanın evində gözləyir.

Kalbalı xanın eyni açıldı. Kirpiklərini tez-tez çaldı:

– Onda nəyi gözləyirik? Getdik.

İki atlı İrəvan səmtə sanki quşdan qanad taxıb getdi.

* * *

İrəvan xanı Məhəmməd xan Kalbalı xanı ürəkaçıqlığı ilə qəbul etdi. O, həm də xanın qaynı idi. Gündüz xanlığın işləri ilə məşğul olan Məhəmməd xan axşamlar Kalbalı xanın söhbətlərindən zövq alardı.

Yaşına görə ahıl görünən, çəkdiyi əziyyətlərdən ruhdan düşməyən Kalbalı xanın qaranlıq dünyasında işıqsaçan nəsə vardı. Sanki onun gizli hissiyyatı pünhan duyğuları dalğa kimi tuturdu. Məhəmməd xan onun ağıl və zəkasına heyran idi.

Tükəzban xanım intəhasız səbr və dözüm göstərərək qəlbinin dərinliklərində yaşayan sevgisini son damlasına qədər Kalbalı xana sərf eləyirdi. Körpəyə ilk addımlarını öyrədən ana kimi o, da Kalbalı xanın qolundan tutaraq onunla addım-addım dolaşır, ərinə sonsuz mehr və nəvaziş göstərərək onun qaranlıq dünyasına işıqlı gündüzü gətirirdi. Kalbalı xanla çiyin-çiyinə addımladıqca Tükəzban xanıma elə gəlirdi ki, sanki Kalbalı xanın qaranlıq dünyasından onun könlünə daim həsrətində olduğu mərhəm duyğular axır.

Kalbalı xan da sanki otuz il əvvəlki dəliqanlı idi. Elə bil Kalbalı xan gənclik günahlarını savab duyğusuna bükərək Tükəzban xanımdan nəyi əsirgəmişdisə, hansı sözü deməyi unutmuşdusa indi onu təzədən səxavətlə arvadına qaytarırdı. Kalbalı xanın varlığını yanında hiss elədikcə, səsini eşidib nəfəsini duyduqca Tükəzban xanımın ala gözlərində yaşına yaraşmayan bir fərəh şöləsi titrəyirdi. Bəlkə də bu onun dualarına cavab vermiş tanrıya şükran duyğusuydu: «Yaxşı ki, Qacar onu öldürmədi, yaxşı ki, göz işığını alsa da səsini, nəfəsini yaşatdı...» Tükəzban xanım həyatından məmnun, razı idi. Lakin yenə içində bir səksəkə boy verirdi: görəsən Kalbalı xan axıracan bu səbrin, hövsələnin yiyəsi olacaqdımı? Hər gün bəd xəbər aldıqları Naxçıvan onu təkrar burulğana salmayacaqdı ki?

...Burulğan isə başlanırdı... Əli xan, Mehdi xan, Süleyman bəy, Cəfərqulu xan kimi sayılan adamlar Kalbalı xana pənah gətirdilər. Məhəmməd xan Naxçıvan xanlarına sığınacaq verdi.

* * *

– Deməк Fətəli şah vergini iki qat çoxaldıb? Naxçıvanda dolanışıq yoxdur. Tacirlər gəlməyə qorxur, buna görə də ticarət zəifləyib. Gömrükdəki vergilər də artıb. Bəlkə bu vergilər tacirləri qane etmədiyi üçün gəlmirlər? Bəs Abbasqulu xan nə fikirləşir?

– Abbasqulu xanı hakimiyyətə İran şahı gətirib. Abbasqulu xan ona qarşı gedərmi? – Mehdi xan astadan deyib gözlərini Kalbalı xanın əlindəki təsbehə dikdi.

Əli xan əlavə etdi:

– Üstəlik Pirqulu xan dörd min nəfər sərbazla Naxçıvanda ətək salıb oturub.

– Pirqulu xan kimdir?

– Şahın qoşun başçısı.

– O, nə istəyir? Naxçıvanda qalmaqda məqsədi nədir?

– Şəhərdən getmiş xanları geri qaytarmaq.

Kalbalı xanın təsbehinin şaqqıltısı birdən dayandı. Üzünü xanlara tutub sərt səslə dedi:

– Yox, elə deyil. Mən Pirqulu xanın məqsədini bilirəm. O, Gürcüstana hücum etmək fikrindədir. Naxçıvanda da ona görə ətək salıb qalır ki, qoşuna əsgər toplasın. Əvvəla, naxçıvanlılar belə addım atmaz. İkinci Gürcüstan Rusiyanın himayəsindədir. Əgər iranlılar Gürcüstanla müharibəni başlasa Rusiyanın Cə-

nubi Qafqazdakı baş komandanlığı gürcülərə kömək edəcək. Onsuz da onlar İran şahlarının əlindən yanıqlıdır. Tiflis faciəsini heç vaxt unutmazlar. Bunu Pirqulu xan da bilir. Bir də mən İran şahlarının heç birinə inanmıram. Onlar başkəsən və gözçıxarandır. Fətəli şah da Qacar sülaləsindəndir. Mən axıracan onlarla düşmənəm.

– Ruslara necə, inanmaq olarmı Kalbalı xan? – Məhəmməd xan soruşdu.

– İlanın ağına da lənət, qarasına da. Onların ikisi də zəhərlidir. Lakin ruslar əmin-amanlıq vəd eləyir. Atalar misalı: itlə dostluq elə nəbadə çomağı yerə qoyasan. Məndən də sizə əmanət: çomağı yerə qoymayın haa...

– Ruslar gürcüləri hər cür müdafiə edir... – Məhəmməd xan sözünü axıradək deməyib Kalbalı xandan cavab gözlədi.

Kalbalı xan gülümsünüb başını yuxarı qaldırdı, kirpiklərini tez-tez çaldı:

– Onlar bir məzhəbdəndi ona görə. İt itin ayağını basdamaz və basdanmağa da qoymaz.

Soba gurhagur yanırdı. Bayırda şiddətlə əsən külək yağan qarı pəncərələrə çırpırdı. Kimsə ortalığa çökmüş sükutdan darıxan kimi oldu, özünü saxlaya bilməyib ortalığa söz atdı:

– Abbasqulu xan görəsən neyniyəcək?

Bu anda eşikağası başını içəri uzatdı, Məhəmməd xanın qulağına nəsə dedi. Oturanlar yerlərində qurcalanıb gözlərini Məhəmməd xana dikdilər. Məhəmməd xan qonaqlarını çox intizarda qoymadı:

– Abbasqulu xan neynəməlidi? O da şələ-küləsini yığışdırıb İrəvana Kalbalı xana pənah gətirməlidir.

Xəfif bir gülüş otağı bürüdü.

Abbasqulu xan sarayda gözləyirdi.

# ÜÇÜNCÜ HİSSƏ

## RUS TAUNU

...Yeni əsr başlanırdı.

Sanki ucu-bucağı görünməyən sonsuz səhrada dəvə karvanı qumu sovurub atan qara küləklərlə savaşa-savaşa yol gedirdi. Dəvə karvanı qumlu səhradan çıxmağa can atırdı. Amma...

Karvan yolunu azmışdı. Hayana, hansı səmtə gedəcəyini bilmirdi. Ucsuz-bucaqsız qumlu səhraların hökmüdarı qara küləklər idi. Dəvə karvanı hansı səmtə üz tuturdu, qumu sovruq ataraq yolları bağlayırdı.

Yeni əsr başlanırdı...

Köhnə əsrin savaşlarından, müharibə alovlarından, qovğalarından doğulan təzə əsr qumlu səhralarda yolunu azmış dəvə karvanına bənzəyirdi...

### 1

Xanvəli Nehrəmdən peşiman qayıtdı. Mədinənin üzünə baxmamağa çalışaraq astadan, xəcalət qarışıq səslə dedi:

– Nehrəmlilərin vəziyyəti bizdən də ağırdır, Mədinə. Pirqulu xan kəndlərdə dirrik qoymayıb. Taxıl anbarları boşdur. Deyirlər toxumluq buğdanın, arpanın da axırına çıxıb.

Mədinə gözləri ilə taxçaya işarə elədi. Xanvəli təzə çörəyin ətrini yalnız indi aldı. Udqunub, iştahını zorla boğdu, bir parça çörək tapmaq sevincindən gözləri yaşardı.

Mədinə hövsələsiz ah çəkdi;

– Amma o çörəyə əlimi vurmağım gəlmir, Xanvəli.

– Aaaz niyə? – sulanıb üst-üstə yığılmış çörəyin ətri Xanvəlinin başını gicəlləndirdi, mədəsini qurd kimi gəmirən aclıqdan gözləri dumanlandı, özünü çörəyə yetirmək, onu gözlərinə soxmaq, ac mədəsini doyurmaq istədi.

Mədinə əlləri qoynunda çörəyə baxmamağa çalışaraq çiyinlərini çəkdi:

– Nə bilim, ürəyim götürmür?

– Niyə aaaz, erməni əli dəyib ona?

– Hə da bə.

– Nə danışırsan aaaz, bu gül kimi çörəyə ermənininin əli dəyəmməz.

– Qağamın canı üçün.

Xanvəli sustaldı, içərisini qurd kimi gəmirən aclıq keyidi,az qala uşaq kimi ağlamağı gəldi:

– Bə ermənin çörəyi bizə hardan gəlib çıxıb aaz?

– Sultan Seda gilin həyətindən keçirmiş. Baxıb ki, təzə çörək ətri aləmə yayılıb Uşaq deyir ki, birdən baxdım ki, çörəyin iyi məni aparıb Seda xalagilin təndirəsərinə.

– Seda daşürək, əlibərk arvaddı. Nə təhər olub ki, Sultana qızıl qiymətində olan bu qədər çörək verib?

– Mən də elə bunu Sultana dedim. O, da qayıtdı ki, təndirəsərdə Seda bacının əri Davud, bir də ayrı erməni vardı. Tanımadığım erməni dedi ki, Seda bacı uşağa çörək ver aparsın. Seda bacı da qaş-qabağını töküb. Amma o biri erməni deyib ki, darıxma Seda, ruslar bizim arxamızdadır. Başqa varlı ermənilər də Naxçıvan ermənilərini taxılsız, çörəksiz qoymayacaq. Amma mən, Xanvəli, ermənin əli dəyən çörəyi istəmirəm. Sultana acıqlandım ki, gərək çörəyi almayaydın, Sultan məndən inciyib, küsüb getdi.

– Mədinə belədi də – Xanvəli çörəyə baxmamağa çalışaraq udqundu – aclıq bir il gedər, töhmət min il. Müsəlman ermənin minnətli çörəyini yeməz. Ona görə ki, müsəlmanlar elə özləri çörək verəndi. Əl tutandı. Peyğəmbərimiz buyurub ki...

– Xanvəli...

– Haycan.

– Xanvəli, biz həmişə özümüzü tox tutmuşuq.

– Çünki mən sizə belə tərbiyə vermişəm. Ölüb getsəm də qulağınızda qalsın: gözünüz özgə ocağında qalmasın.

– Xanvəli...

– Haycan...

– Xanvəli, ermənilər görəsən taxılı hardan alır?

– Uruslar, məzhəbləri bir olduğuna görə onları ac qoymur. Bir də varlı ermənilər kömək eləyir.

– Xanvəli-Mədinə vurğun-vurğun ərinə baxdı – sən çox ağıllısan. Vallah, qağamın canına, lap elə o Abbasqulu xanın özündən də ağıllısan.

– Aaaz, Mədinə gör sən məni kimnən bir tərəziyə qoydun? Abbasqulu xanın ağlı olsaydı Naxçıvan taxtına çıxmaqdan ötəri farsın, gürcünün üstə qaçardımı? Sonra da yapışdı Pirqulu xanın ətəyindən, dağıtmadıqları ocaq başı qoymadılar...

– Xanvəli, mən bir söz də eşitmişəm.
– Nə söz Mədinə?
– Deyirlər ki, Abbasqulu xan Mahnurdan ötəri ölürmüş.
– Ölürmüş, ya ölüb?
– Burax zarafatı.
– Qız ki, nişanlıdı.
– Hə da bə.
– Murad bir elin igididi.
– Qız da ondan qalan deyil, Xanvəli. Həm gözəl, həm igid. Heylə bir qız Abbasqulu xanı bəyənərmi? Utanmır, eşqi vurub topuğuna.
– Topuğunda eşqi deil, ağlıdı.
Xanvəli yenə çörəyə baxıb udqundu, nəfsini zorla boğub Mədinəyə tapşırıq verdi:
– Sultan evə gələn kimi erməninin çörəyini verirsən qoltuğuna, aparıb qaytarar. Onlara da deyər ki, Kalbalı xan hər evə iki tay un göndərib. Anam elə təndiri salıb ki, təzə çörək bişirsin.
Mədinə içini çəkdi, sanki yalan danışmaqdan qorxurmuş kimi gözlərini ağartdı.
– İki tay çoxdu Xanvəli.
– Yaxşı sənin xətrinə, bir tay olsun.
Mədinə başını buladı:
– Yenə çoxdu.
Xanvəli əlini sinəsinə qoydu:
– Mədinə xanım, bağışla, tay aşağı düşməyə yeri yoxdu. Sən də dadlı, ətirli kartoflardan seçib suda bişir, Kəklikotu çayı dəmləyib yaxşı bir süfrə aç. Oldumu Mədinə?
Bu anda qapı döyüldü. Xanvəli qapını açıb Salavatla üz-üzə gəldi. Qarlı külək sanki Salavatı süpürləyib içəri atdı. Salavat üşümüş əllərini hovxurdu, sonra da gülə-gülə şad xəbər verirmiş kimi ruh yüksəkliyi ilə soruşdu:
– Xəbərin var Xanvəli xəbərdən?
– Yox, nə olub ki, Abbasqulu xan təzədən qayıdır?
– Desəm inanmazsan.
– De görək.
– Kalbalı xan qayıdır.
– Nə Kalbalı xan? Nə danışırsan? Xana Naxçıvanda yaşamağa izin verdi şah?

– Fətəli şah üstəlik Kalbalı xanı Naxçıvan xanlığının taxtına əyləşdirir.
– Nə danışırsan ə?
– Əziz canım üçün.
– Şad xəbər olasan Salavat. Elə bildim Kalbalı xan gəldi, çörək təknəmiz bolhabol çörəklə doldu.
– Hə da bə. Nə durmusan? Geyin gedək Kalbalı xanı qarşılamağa. Bu dəqiqə Naxçıvan əhli məscidə yığışır. Sonra da gedəcəklər qalanın yanında Kalbalı xanı qarşılamağa.
Xanvəli geyinib papağını başına qoydu. Qapını açmaq istəyəndə nə düşündüsə əli üzündə qalıb hələ də eşitdiyi xəbərdən özünə gəlməmiş Mədinənin yanına qayıtdı. Bir də qapıya qaçdı. Sonra yenə Mədinənin üstə. Həyəcan içində ucadan dedi:
– Sultan erməniyə deyər ki, Kalbalı xan hər evə iki kisə un göndərib. Başa düşdün Mədinə?

* * *

Hacı Əbülqasım xan sarayından evə necə gəldiyini bilmədi. Sərt şaxtanın soyuğu iliklərinə qədər işləsə də sanki içində qalanmış ocaq bunu hiss elətdirmirdi. Xəcalət qarışıq günahkar duyğu elə bil onu məhşər ayağına çəkmişdi: «Kül başına, Əbülqasım. Hacca gedib qayıtmısan, amma ürəyində bir qırıq da insaf, mürvət deyilən şey yoxdur. Qonşun qulağının dibində aclıq çəkir, amma sən səxavət əlini açıb ona bir tikə çörək vermirsən ki, bu ağır gündə Allahın xoşuna gəlsin. İşə bax ha, çöllərdə qalmış bir erməni bunun uşağının əlinə çörək verir. Xanvəli bunları danışanda sən ölüb yerə girmədinmi, Hacı Əbülqasım... Amma sən un taylarını üst-üstə yığıb gizlədirsən. Niyə gizlədirsən? Qorxursan ki, aclıq gəlib qapını döyə? Bir arvaddı, bir qızdı, bir sən. Kül başına Hacı Əbülqasım...».
İç-içə açılan otaqlar xovlu xalılarla döşənmişdi. Buxarıdan qalxan isti bayırın şaxtasını hiss elətdirmirdi. Taxçalarda bahalı çinilər, hind çıraqları, xalıların üstünə Ərəbistandan gətirilmiş qotazlı mütəkkələr qoyulmuşdu.
Hacı Əbülqasımın səsini eşidən kimi Şəhrinaz xanım ərinin pişvazına çıxdı, lakin onun qaşqabaqlı sifətini görəndə tutuldu. İçini çəkib narahatlıqla soruşdu:
– -Hacı, nə olub, Allah eləməsin, elə bil qanın qaradı?
– Heç zad olmayıb.

– Ürəyimi üzmə.
– Dedim heç zad.
– Kalbalı xan gəldi?
– Gəldi də, xan taxtında oturdu da.
– Çox şükür Allaha. Canımız İran sərbazlarından qurtardı.
– Camaat bayram eləyir. Havanın soyuqluğuna baxmayaraq küçələr, məscidlər adamla doludur.
– Kalbalı xanın özü necədir?
– Çox gümrahdır. Məscidin qarşısında iynə atsaydın yerə düşməzdi. Kalbalı xan atla gəlib orda dayandı. Çox yaxşı sözlər dedi...
– Hacı dedimi ki, əcnəbi tacirlər Naxçıvana yenə gələcək?
– Naxçıvanın yaşayışı ticarətlədi. Əlbəttə ki, Kalbalı xan buna fikir verəcək.
Şəhrinaz xanım yenə də nə isə demək istədi. Amma ərinin əhval-ruhiyyəsini təlx görüb dilini sürüdü:
– Hacı...
– ...
– Hacı o uşaq yenə gəlmişdi.
– Hansı uşaq Səhri?
– O ərəbi deyirəm.
– Suat bəy? Suat bəy niyə uşaqdı?
– Çox mərifətli cavandı. Sən evdə yoxdun deyə getdi karvansaraya.
– Lap yaxşı, sabah görüşərik.
– Bizə də pay gətirib, Hacı. Özü də çox bahalıdı.
Hacı Əbülqasım gözləri ilə qızını axtardı. Amma qızı üzə çıxmadı: «Deyəsən bu ərəbin ayrı fikri var... hələ zirzəmiyə düşüm. Xanvəli gilə un çatdırım...».
Hacı Əbülqasım quzu dərisindən aşılanmış kürkünü, papağını çıxardı. Qapını açıb təkrar bayıra çıxmaq istəyəndə Şəhrinaz xanım qayğılı səslə arxadan çağırdı:

Hacı, yaxşı çay dəmləmişik.
Hacı Əbülqasım əlini etinasız yellədi:
– Siz narahat olmayın.
Yeyin addımlarla zirzəmiyə endi. Zirzəmi bayıra görə havalıydı. Hacı buranı həmişə səliqə-sahmanda saxlardı. Bura onun heç kəsə məlum olmayan gizli saxlancıydı. Üst-üstə yığılmış un

kisələri dar gün üçün idi. Kisənin birini ortaya çəkib tövşüyə-tövşüyə nəfəs aldı. Üz-gözünün tərini sildi. Yadına nə vaxtsa eşitdiyi bir rəvayət düşdü: Varlı bir tacir Həccə getməyə hazırlaşırmış. Qonşuluğunda Xanvəli kimi bir kasıb yaşayırmış. Bir gün kasıb evə əliboş qayıdır. Arvadına tapşırır ki, qara daşları qazana yığıb qaynadarsan. Ta o vaxtacan ki, uşaqları yuxu tutsun. Təsadüfən qazanın ağızını açan və məsələdən hali olan tacir çox pərişan olur: «Ey vah. Mən Allaha bəndəlik eləmirəm. Allah deyir ki, bir əlin səxavətdə. Amma mən səxavət əlimi yumub ibadət əlimi açmışam. Kasıblara əl tutmuram. Amma istəyirəm ki, Həccə getməklə savab qazanam. Yox, mən Həccə getmirəm».

Kişi Həcc ziyarətindən imtina eləyir. Səxavət əlini açıb kasıbların qarnını doydurur, onlara əl tutur.

Ziyarətdən qayıdan yoldaşları taciri iş başında görəndə təəccüblənirlər: «Ay kişi biz ki, səni Həccdə qoyub gəldik».

Hacı Əbülqasıma elə gəldi ki, bu anlarda Tanrının könlündə yandırdığı kiçik bir ziyadan içərisini nur seli bürüdü. Unu yarılayıb kisəni kürəyinə atdı.

...Xanvəli qapını açanda yarımçıq un kisəsini görüb özünü itirdi, – Mədinə.

– Nə olub Xanvəli?

Xanvəli Sultanın başını sığallayıb sinəsinə basdı:

– Gördünmü oğlum, erməninin çörəyini qaytarmağımız Allahın xoşuna gəldi...

2

Təzə əsr başlanırdı...

Köhnə əsrdən təzə əsrə çoxlu miras qalmışdı. Ən böyük miras rusların Azərbaycana doyumsuz iştahı, sərvət ehtirası və torpağına sahib çıxmaq istəyi idi.

Azərbaycana sahib çıxmaq istəyi... rusların və farsların əzəli arzusu əsrdən-əsrə adladı. Bu arzuyla üçüncü bir tərəf də canavar dişlərini qıcadı: bu ermənilər idi.

1800-cü ilin əvvəllərindən başlayaraq ruslar I Pyotrun vəsiyyətlərinə əməl edərək Azərbaycanı işğal etmək üçün səfərbər oldular.

* * *

Yeni əsrin ilk illərindən Azərbaycana əsən fəlakət küləkləri gücləndi. Bu fəlakət küləklərinin qarşısını kəsəcək möhkəm sədlər yox idi. Çünki taxt üstündə didişmələr, düşmənçilik, satqınlıq Azərbaycan xanlıqlarını içindən laxladır, onu düşmən qarşısına zəif, məğmun, zəlil kimi çıxarırdı. Düşmənçilik Azərbaycanı qüvvətlənməyə, vulkan kimi od püskürməyə, gözündən atəş yağdırmağa, düşmənə meydan oxumağa qoymurdu.

Azərbaycan xanlıqlarının içərisində yalnız Quba xanlığının başçısı Fətəli xan Azərbaycanın şimal-şərqində xanlıqlar arasında birlik yaratdı. Lakin bir çiçəklə yaz olmazdı. Gərək Azərbaycanın hər yerində birlik, dostluq, qardaşlıq duyğuları çiçək açaydı. Əllər birləşib, qollar qüvvətlənib vahid bir himndə düşmənin başına yumruq salaydı...

Amma çiçəklər açılmadı:

...Təzə əsrdə Azərbaycana bəd niyyətlə, sərvət ehtirası, torpaq iştahası ilə gələn ilk çar generalı Karl Fyodoroviç Knorrinq oldu.

* * *

General Knorrinqin Qafqaza gəlişi Naxçıvan xanlığının başçısı Kalbalı xanın rahatlığını pozmuşdu. Xan sarayında gecələr də işıq sönmürdü. Knorrinqin atdığı addımlar barədə Kalbalı xana məlumat verilirdi. O, da eşitdiklərini özünün qaranlıq dünyasında saf-çürük edir, düşünür, nəticə çıxarırdı.

...İndi də sarayın geniş salonunda məşvərət gedirdi. Bu, məşvərətdə İrəvan xanı Məhəmməd xan da iştirak edirdi.

Kalbalı xan son vaxtlar sınıxmışdı: göz çuxurları bir az da dərinləşmiş, geniş alnında qırışların sayı artmışdı. Danışıqlara, təkliflərə səbrlə qulaq asır, fikrini söyləməyə tələsmirdi.

Axırda Məhəmməd xan danışdı, içindəki yanğını biruzə verdi:

– Ruslar xanlıqların zəif yerini tapıb. Onlar yaxşı bilirlər ki, bir-birinə nifrət, düşmənçilik, bir-birinin torpağını zəbt etmək ehtirası bu xanlıqları içindən laxladıb, onları qüvvədən, gücdən salıb. Amma vaxtında biz bir yumruq kimi birləşsəydik bu yumruq bircə zərbədə düşmənin başını əzərdi.

Əli xan təəssüflə başını buladı:

– Qubalı Fətəli xan az da olsa qonşu xanlıqlar arasında birlik yaratdı, amma bu fayda vermədi.

– Ruslar xanlıqlar arasında qəsdən düşmənçilik toxumu səpirlər – Məhəmməd xanın yaraşıqlı çöhrəsindən, qonur gözlərindən ağrılı bir duyğu keçdi, sərt səslə əlavə etdi – nə qədər ki, İrəvan xanlığına başçılıq eləyirəm nə rusu, nə də farsı torpağımıza yaxın buraxmayacam.

– Sən çox mərd, həm də igid adamsan Məhəmməd – Kalbalı xan əlini yanında oturmuş Məhəmməd xanın çiyninə qoydu. Mən bunu İrəvanda sənin yanında yaşayarkən hiss etdim. O ki, qaldı Naxçıvana. Bizim işimiz çətindir. İnanmıram ki, İran şahı asanlıqla Naxçıvandan əl çəkə.

– Bu tərəfdən də ruslar çıxdı – Şıxəli xan istehza ilə qımışdı:– qorxuram ki, İranla Rusiya bizim torpağın üstə əlbəyaxa ola.

– Bəs çıxış yolu hardadı? – Məhəmməd xan səbirsiz soruşdu.

– Müstəqillik uğrunda mübarizədə – Kalbalı xan qətiyyətlə dedi: – bu yolda ölmək var, amma dönmək yoxdu.

Əli xan dedi:

– Mən də belə düşünürəm xan. Lakin eşitdiyimə görə Naxçıvanda bəzi xanları rusların vahiməsi basıb. Onlar ailələrini də götürərək başqa yerlərə köçürlər. Xalqı dar ayaqda qoyub qaçırlar.

Kalbalı xan öskürdü. Oturanlar onun nə isə deyəcəyini duyub gözlərini Kalbalı xanın ağzına dikdilər. Xan aram-aram, təmkinlə dedi:

– Qoca bir kişinin yeddi oğlu varmış. Amma paxıllıq, həsəd qardaşları bir-birinə düşmən eləmişdi. Bu qardaşların hamısının ümumi düşmənləri varmış. Qardaşları məhv etməyə fürsət axtarırmışlar.

Bir gün müdrik qoca oğlanlarını başına yığıb hərəsinə bir çubuq verdi və dedi:

– Çubuqları sındırın görək.

Qardaşlar çubuqları bir göz qırpımında tək-tək sındırıb atalarının qarşısına atdılar. Lovğa-lovğa atalarına baxdılar.

Kişi gülümsünüb bu dəfə oğullarının hər birinə yeddi çubuq verdi.

– İndi bunları sındırın görüm.

Qardaşlar nə illah elədilər yeddi çubuğu nəinki sındıra, heç əyə də bilmədilər.

Qoca onda dedi:

– Gördünüzmü oğullarım tək çubuqlar necə asanlıqla sındı. Bir dəstə çubuğu isə sındırmağa qüvvəniz çatmadı. Təklikdə siz də tək çubuq kimisiniz. Düşmən sizi asanlıqla sındıra bilər. Bir olsanız güclü, qüvvətli olarsız.

Kalbalı xan susub sonra sözünə davam etdi:

– Bir-birinə arxa çevirən xanlıqlar da indi tək çubuğa bənzəyir. Düşmən qapıdadır. Tək çubuqlar davam gətirməyəcək. Asanlıqla qırılacaq – Kalbalı xan içindəki narahatlığı, yanğını biruzə verdi.

Məhəmməd xan onun sözünə qüvvət verdi:

– Atalar demiş, el bir olsa dağı yerindən oynadar.

– El bir olsa zərbi kərən sındırar – Kalbalı xan fikirli halda əlavə etdi: – Mənə çatan məlumata görə Qarabağ xanı İbrahimxəlil xan Fətəli şahla dostluq əlaqəsi yaradıb.

– Təkcə dostluq yox, həm də qohumluq – Məhəmməd xan istehza ilə dedi – İbrahimxəlil xan qızı Ağabəyim ağanı şahın hərəmxanasına verib. Üstəlik oğlu Əbülfət ağanı da Tehrana göndərib.

– Belə de – Kalbalı xan fikrə getdi – İbrahimxəlil xan bu qohumluq əlaqəsinə görə də ruslardan müdafiə olunmaq üçün İran şahından kömək istəyib.

(İbrahimxəlil xan Fətəli şaha göndərdiyi məktubda yazmışdı. *«Əgər İran vaxtında Azərbaycana köməklik etməsə burada müsəlmanların vəziyyəti pisləşə bilər»).*

– Bir vaxt İbrahimxəlil xan ruslara da inanırdı.

– Ağa Məhəmməd şah Qacar Tiflisi elə ağlar günə qoyanda Azərbaycan xanlarının çoxu Qacar zülmündən qaçmaq üçün ruslara pənah apardı. Amma indi rusların iç üzü aşkardadı.

– Xristianlar həmişə müsəlmanlara düşmənçilik edib. – Məhəmməd xan nifrətini gizlətmədi – vaxtı ilə Pəmbək bizim torpağımız olub. İrəvan xanlığının. Sonralar xristianlar onu zorla alıb Gürcüstana verdilər. Deyilənə görə şah artıq əlli min nəfərlik qoşunu Azərbaycan xanlarının köməyinə göndərib. Özü də qoşuna oğlu şəhzadə Abbas Mirzə başçılıq eləyir. Əgər ruslarla müharibə başlasa onda biz də əlimizdən alınmış Pəmbəki tələb edəcəyik.

– Sən ruslarla döyüşmək niyyətindəsən? – Kalbalı xan soruşdu.

– Əgər ruslar İrəvana hücum etsələr...

– Biz də o fikirdəyik. Rusları Naxçıvan qalasına buraxmaq olmaz.

Kalbalı xan məşvərətin bitdiyini bildirmək üçün ayağa qalxdı.

– İndi isə vaxtı qazanmaq lazımdır, itirmək yox.

Məhəmməd xan da ayağa qalxdı:

– Bizi bağışla xan. Elə indi yola düşmək istəyirəm. Çünki düz deyirsən vaxtı itirmək olmaz.

Kalbalı xan Məhəmməd xanı bağrına basdı.

...Uzaqda dan yerində qızartı görünürdü. Qızartı get-gedə Eynalı dağının üstündən bütün səmaya yayılırdı.

İrəvan yolunda bir dəstə süvari atını dayanmadan çapırdı...

3

General Knorrinq son vaxtlar rahatlığını itirmişdi. Qorxu, həyəcan yuxusunu qaçırmışdı. Göy gözlərinin altı tuluqlanmış, baxışlarından yorğunluq tökülürdü. Beynini yoran suallar onu rahat buraxmırdı: görəsən İrəvan və Naxçıvan xanlıqlarını işğal edə biləcəkmi? Yoxsa rüsvayçılıqla məğlub olub çar sarayında gözdən düşəcək?

* * *

...Karl Fyodoroviç Knorrinq Rusiyanın bütün zədagan uşaqları kimi kiçik yaşlarından hərbə maraq göstərirdi. Sonra hərbi təhsil alaraq həyatını hərbi sənətə həsr etdi. Lakin hərbi bacarıqdan əlavə Knorrinqdə hiyləgərlik, yaltaqlıq və bununla bərabər qəddarlıq və amansızlıq da vardı. Bu keyfiyyətləri onu general rütbəsinə qədər gətirib çıxardı. Fransa müharibəsindən başı ayılan çar yenidən Azərbaycanın işğalı barədə düşündü və oraya ordunu idarə edən ağıllı, hiyləgər, qəddar general göndərmək lazım gələndə Knorrinq yada düşdü.

Karl Fyodoroviç həmin vaxt Peterburqda general-qubernator işləyirdi. Knorrinqi işindən ayırdılar. Bu dəfə ona işğalçılıq məharətini göstərmək üçün meydan verdilər. Knorrinq Cənubi Qafqaza göndərildi.

Valerian Zubov kimi Karl Fyodoroviçin də məsləhətçisi erməni keşişi oldu.

* * *

...Keşiş Qriqori şeytan kimi general Knorrinqin qəlbinə girir, onu İrəvana hücum etməyə şirnikləndirirdi:

– Cənab general-keşiş hərarətlə onu başa salmağa çalışırdı – İrəvanın işğalı rus və ermənilər üçün vacibdir. Siz vaxtı yubadırsız. Bu çar sarayında sizin nüfuzunuzu aşağı sala bilər.

Knorrinq etiraz etdi:

– Mən İrəvan xanı Məhəmməd xanla danışıqlar aparıram. Qoy onlar döyüşsüz, müharibəsiz Rusiyanın himayəsini qəbul etsinlər. İrəvan Rusiya üçün strateji əhəmiyyət daşıyır. Mən onun dağılıb viran olmasını istəmirəm.

Keşiş acığından ilan kimi fısıldadı:

– Siz müsəlmanları məhv edib İrəvanı birdəfəlik ermənilərə verməlisiz. Çünki ermənilər əzəldən rus imperiyasının dayağı, qulu, nökəridir. İndi sizin ordunuzda da xeyli erməni əsgəri var. Onlar sizə sədaqətlə xidmət edirlər.

General dediyində israr etdi:

– Məhəmməd xanı qoçaq, igid adam deyirlər. Eləcə də Kalbalı xanı. Onlar asanlıqla torpaqları güzəştə getməzlər. Burda siyasət lazımdır.

– Cənab general, rus ordusu çox güclüdür. Siz bir həmlədə İrəvanı, sonra da Naxçıvanı işğal edə bilərsiz.

General Knorrinq ona əhəmiyyət vermədən, öz-özünə söyləndi:

– Məhəmməd xan onsuz da şərtlərimizi qəbul etmir. O, bizdən gürcülərin əlində olan Pəmbəki tələb edir. «Pəmbək qaytarılmayınca ruslarla söhbətimiz baş tutmayacaq» – deyir.

Kindən, nifrətdən, keşişin üz-gözü əyildi:

– O, çox güman ki, şaha bel bağlayır, ona güvənir.

– Ona görə də hücum üçün məni tələsdirmə, müqəddəs ata.

Keşiş generalın yanından acıqlı çıxdı. Elə həmin gün rus çarına məktub yazıb göndərdi. O, məktubda narahatlıqla bildirirdi: *«...Xristianlıq naminə Qafqazda müsəlmanlara güzəşt ola bilməz. İndidən onun təməli qoyulmalıdır».*

Keşiş Qriqorinin məktibu təsirsiz qalmadı. General Knorrinqə İrəvana hücum etmək əmri verildi...

* * *

Rus toplarından atəş açılan kimi İrəvan xanı Məhəmməd xan xalqı ayağa qaldırdı. İrəvanlılar nəinki torpaqlarını müdafiə

etmək, üstəlik Pəmbək ərazisini də geri almaq üçün mübarizəyə qalxdılar.

Rus əsgərləri İrəvan qalasına yaxın düşə bilmədilər. General Knorrinqin və keşiş Qriqorinin arzuları daşa dəyib çilikləndi.

Ruslar məğlubiyyətin acığını ətraf kəndlərdən çıxdılar. Evlər yandırıldı, ocaqlar dağıdıldı. Günahsız insanlar qətlə yetirildi.

İrəvandan əli çıxan general çar çarayından aldığı əmrlə qoşunun başını Naxçıvana döndərdi. Onunla birlikdə Naxçıvana erməni generalı Lazarev və polkovnik Karyagin də gedirdi.

...Ermənilər artıq rus ordusunda ad-san, rütbə sahibi olurdular. Onlardan biri də İvan Petroviç Lazarev idi. 1799-cu ildə Knorrinq Tiflisdə rus ordusunun ali baş komandanı olarkən Lazarev generalla yaxınlaşmağa, onun etimadını qazanmağa yol tapdı. Tiflisdə hərbi qulluğa qədər isə o, artıq Valerian Zubovun ordusunda Azərbaycanda olmuşdu. Azərbaycanın füsunkar təbiəti, zəngin torpaqları onun doymaq bilməyən iştahını itilədi. Lazarev Azərbaycana yenidən qayıtmaq üçün Tiflisə hərbi qulluğa dəyişildi.

Lazarev siyasətbaz erməni keşişlərindən dərs alırdı. O, başa düşürdü ki, general Knorrinq gec-tez Cənubi Qafqaza göndəriləcək. Buna görə də bütün varlığı ilə onun etimadını qazanmağa səy göstərdi. Sadiq və vəfalı köpək kimi az qala gecə-gündüz onun qapısının ağzında yatdı və axır ki, generalın ürəyinə yol tapdı.

* * *

Son vaxtlar çar sarayında böyük narahatlıq vardı: gürcü şahzadəsi Aleksandr rus imperiyasına boyun əymək istəmirdi. O, ruslar üçün təhlükə idi. Çünki şahzadə qorxub çəkinmədən ruslar əleyhinə dəstələr yaradır, çara qarşı çıxırdı. Ruslar şahzadə kimi imperiya düşmənlərini səssiz-səmirsiz aradan götürürdülər. Knorrinq də çar sarayından Aleksandrın tapılıb cəzalandırılması tapşırığını alanda uzağa getmədi: Lazarev onun hər əmrini yerinə yetirməyə hazır idi.

Generalın tapşırığı Lazarevin ürəyincə olmadı. Lakin o, bunu biruzə vermədi. İncə bir nəzakətlə gülümsəyərək baş əydi və işinin arxasınca getdi. Bu hiyləgər erməni çox keçmədi ki, gürcü şahzadəsinin izinə düşdü və Knorrinqə sevinclə məlumat verdi: «Şahzadə Qazaxdadır». Lakin rus əsgərləri Aleksandrın izini itir-

dilər. Onun sorağı Qarabağdan gəldi. O, burada rus imperiyasına düşmən olan adamlarla birləşərək dəstələr yaratmışdı. Bu Knorrinqi narahat etdi. Onun əmri ilə Lazarevin başçılıq etdiyi hərbi hissə 1801-ci ildə Kakabetu kəndinə gəldi. Burada gedən ağır döyüşlərdə yüzlərlə adam məhv edildi. Lakin Lazarev şahzadənin izini yenə itirdi.

Şahzadənin yerini kimsə bilmədi.

Aradan xeyli keçdi. Lazarev Knorrinqlə bərabər Car-Balakən, Şəki xanlıqlarında gedən işğalçılıq yürüşlərində iştirak etdi. Qılıncından yüzlərlə insanın qanı süzüldü. Qəlbində müsəlmanlara nifrət hissi onu qaniçənə, cəllada çevirdi...

Sonra onu Naxçıvan kimi gözəl bir məmləkətə işğalçılıq yürüşü gözlədi. Erməni generalı bu yürüşə sevinc hissi ilə qoşuldu.

* * *

1802-ci ilin iyun ayında general Knorrinqin ordusu Naxçıvana girdi. Rus toplarının səsi dağı-daşı lərzəyə gətirdi. Dükan-bazar bağlandı. Küçələrdən əl-ayaq çəkildi. Kalbalı xanın sərbazları qəhrəmanlıqla vuruşaraq rus əsgərlərini şəhərə buraxmamağa çalışırdılar. Lakin naxçıvanlılar güclü rus ordusuna qalib gələ bilmədilər.

Kalbalı xan vəziyyətin çətinləşdiyini görüb iyun ayının 8-də Qars paşası ilə danışıqlar apardı. Rus təhlükəsindən qorunmaq üçün ondan kömək istədi. Qars paşası ruslarla təkbətək qalmış Naxçıvana on iki min süvari, iki min beş yüz nəfər piyada və iki top göndərdi.

Kalbalı xanın qüvvətlənmiş qoşunu rusları Naxçıvandan çıxardı. Rus əsgərləri şəhəri tərk edərkən özləri ilə altı yüz at qənimət apardılar.

Naxçıvanlılarla döyüşdə məğlubiyyəti Knorrinqin həyatını dəyişdi: onu vəzifədən götürdülər.

* * *

General Knorrinqdən sonra Cənubi Qafqaz rus qoşunlarına baş komandan general Pavel Dimitryeviç Sisianov göndərildi. Şahzadə Aleksandrın törətdiyi iğtişaşlar genişlənirdi. İmperiya bu iğtişaşlardan ziyan çəkirdi. Buna görə də yeni baş komandan bir vaxt gürcü şahzadəsinin axtarışı ilə məşğul olan Lazarevi yanına çağırdı və Aleksandrın tezliklə tapılıb ona təhvil verilməsini əmr etdi.

General Lazarevin yuxusuz gecələri, narahat gündüzləri yenidən başlandı. Bu iş onun ürəyincə deyildi. Lazarevi müsəlmanlar üzərinə hərbi yürüşlər daha çox cəlb edirdi. Erməni keşişlərindən dərs alan Lazarev müsəlman torpaqlarının bir vaxt onların olacağı xülyaları ilə yaşayırdı. Lakin indi o, bütün qüvvəsini şahzadənin axtarışına sərf edirdi. Sisianovun bu tapşırığını yerinə yetirsəydi generalın etimadını qazanacaqdı. Axır ki, bəxti gətirdi: Lazarevə xəbər verdilər ki, şahzadə Gürcüstan valisinin evində gizlənir.

...Gecədən xeyli keçmiş Lazarev gizləndiyi yerdən çıxdı. O, həyətdə xeyli gözlədi. Valinin yaşadığı binanın pəncərələrində işıqlar tək-tək söndü. Ətraf qaranlığa qərq oldu. Lazarev ürəyində dumanlı bir şübhə, qorxu duydu. Lakin həmişə günahsız insanların üstə qətiyyətlə gedən, qan tökməkdən zövq alan generalın dizləri əsirdi. O, qorxunu özündən kənar elədi, qapıya tərəf gedib onu şiddətlə döydü.

Qapı açıldı. General özü ilə gətirdiyi əsgərlərə evi axtarmağı əmr etdi.

Əsgərlər vəhşi kimi otaqlara cumdular. Valinin arvadı generalın qarşısına çıxdı. O, xanımlara məxsus incə bir nəzakətlə axtarışı dayandırmağı Lazarevdən xahiş etdi. Lakin erməni generalını dayandırmaq, nəyi isə başa salmaq çətin idi. O, erməni xislətini biruzə verdi: nə olursa olsun rusların tapşırığı yerinə yetirilməlidir.

Generalın qaba, sərt davranışından pərişan olan xanım çevrilib getdi. Lazarev təkəbbürlə onun arxasınca baxdı. Az keçmiş Lazarevlə üzbəüz pilləkanda xanım yenə göründü. O əlində tutduğu tapançanı yuxarı qaldırdı və güllə açıldı. Lazarevin sinəsi qana boyandı. O, çığırmağa da macal tapmadı. 1803-cü ilin aprelin 21-də dünya bir erməni cəlladından yaxasını belə qurtardı.

Naxçıvana işğalçılıq yürüşündə iştirak edən, lakin arzusu ürəyində qalan rus zabiti-polkovnik Pavel Mixayloviç Karyakin də buradan əliboş qayıtdı. Məğlubiyyət onu da sarsıtdı.

Karyagin Naxçıvana gələnə qədər artıq onun tərcümeyi-halının bir çox səhifələri qanla yazılmışdı. Pavel Mixayloviç Poltavada zədəgan ailəsində böyümüşdü. Bir çox varlı rus uşaqları kimi o, da hələ kiçik yaşlarından hərbə maraq göstərirdi. Sanki hiss etmişdi ki, bu sahədə yüksəlişi onu Azərbaycanla bağlayacaq, ona sərvət və şöhrət gətirəcəkdir.

Karyaginin ilk iştirak etdiyi müharibə Rusiya-Türkiyə müharibəsi oldu. Onun xislətindəki qəddarlıq bu savaşda özünü biruzə verdi. O, bu müharibədə xidmətlərinə görə 1791-ci ildə mayor rütbəsi aldı və Georgi ordeni ilə təltif olundu.

Qafqaz rus qoşunlarının ilk baş komandanı Valerian Zubov Azərbaycana yürüşü zamanı sərt, qəddar, hiyləgər zabitləri öz ətrafına yığırdı. Onların arasında Karyagin də vardı. 1796-cı ildə Valerian Zubovun Azərbaycana gəlişində bir çox xanlıqlar işğal olundu və günahsız insanların qanı töküldü. Bu yürüşdə qəraət və talanlarda Karyagin də fəal iştirak edirdi, topladığı sərvəti generala verirdi. Bununla o, bir daha Zubovun etimadını qazandı. Bu etimad onun Qarabağda hərbi hissənin komandiri kimi bir vəzifə tutması ilə nəticələndi. Ermənilər bu acgöz, tamahkar rus zabitini əldə saxlayır, onun vasitəsilə öz iblis siyasətlərini həyata keçirirdilər. Karyagin Qarabağda olarkən ermənilər bu torpağa axışır, azərbaycanlılar isə sıxışdırılırdı. Erməni keşişi çap etdirdiyi vərəqələrdə yazırdı: «Ruslar da ermənilər də xristiandırlar. Burada heç bir ayrılıq ola bilməz. Buna şərait yaradan Allahdır. Allahın iradəsinə uyğun xristianlığı hər yerdə yaymalıyıq. Qarabağ da bu yerlərdən biridir».

Qarabağda ruslar ermənilərin dayağı idi. Onlar rus ordusunu ərzaqla təmin edirdilər. Hətta Bakıda yaşayan erməni milyoneri Baba Tarulov rus hərbi hissəsinə əlli min manat pul və yüz pud taxıl göndərmişdi.

Lakin 1802-ci ildə Knorrinqlə Naxçıvana yürüş edən Karyaginin bəxti gətirmədi. Naxçıvanlılar bu qəddar rus zabitinin arzularını daşa vurdular.

(Pavel Karyagin 1807-ci ildə vəfat etdi. Öz əməlləri ilə ermənilərin qəlbində özünə əbədi heykəl qoydu. Ermənilərin fitvası ilə

yüzlərlə azərbaycanlının qanını tökmüş bu çar cəlladının adı illər sonra Azərbaycanda da əbədiləşdirildi. Karyagin qəzası yaradıldı. Karyaginin adı 1959-cu ilə qədər yaşadı. Çünki o vaxt sovet dövründə bu erməniпərəst rusun vaxtı ilə azərbaycanlıların başına açdığı müsibətlərdən kimsənin xəbəri yox idi. 1959-cu ildə axır ki, bu rus cəlladının adı silindi. Karyagin rayonunun adı dəyişilərək Füzuli adlandı).

5

Naxçıvanın başı üstə çaxan şimşək sanki küləyini əsdirib, yağışını yağdırıb tufan qopardı, sonra da göy üzünü tutmuş qapqara buludları nur ətəyinə yığıb səmanı təmizlədi, şəhərin üstünə çökmüş qaranlığı, sıxıntını yox elədi.

Rus atlarının kişnərtisi kəsildi, küçələrdən, dükan-bazarlardan əsgərlər çəkilib getdi, şəhər dərindən nəfəs aldı. Küçələr canlandı. Bazarlar alış-verişə başladı. Karvansaraların qapısı yenə uzaq ölkələrdən gələn müsafirlərin üzünə açıldı.

...Kalbalı xan kürsüsündən qalxıb pəncərənin önünə gəldi. Xan sarayından aşağıda görünən yaşıl vadilər sanki Arazı göy çalma kimi başına çəkmişdi. Arazdan o tərəfdə mavi çən-duman içində görünən qəlbi dağlar təbiətin möcüzə kimi yaratdığı əlvan bir lövhəni tamamlayırdı. Kalbalı xan pəncərənin qarşısında dayanan kimi yaddaşı bu lövhəni hafizəsində elə canlandırırdı ki, o, az qala Arazın səsini eşidir, yaşıl vadilərin məxmər sinəsinə sığal çəkən küləklərin təmasını duyurdu. Çən-duman içində görünən uzaq, qəlbi dağlar isə sanki daş əlləri ilə xanın ürəyinə toxunaraq duyğuları elə həzin, elə ahəstə dindirirdi ki, elə bil gözlərinin işığı ilə bərabər qurumuş çeşmə də qeybdən göz yaşı ilə dolaraq zülmətin içinə nur kimi yağırdı. Belə anlarda Kalbalı xan ətrafda hər şeyi unudurdu. Sanki içində çağlayan nur selinə qoşularaq Arazın o tayındakı qəlbi dağlardan aşıb, səmtini, yolunu tanımadığı yerlərəcən baş alıb gedirdi. Bu duyğu seli Kalbalı xanın ruhunu – ana öz körpəsini layla səsi ilə ovutduğu kimi ovudurdu. Elə bil içindəki işıq gözündəki qaranlığı əridirdi...

Əli xan onu düşüncələrdən ayırdı:

– Zəmilərə baş çəkdik, xan.

Kalbalı xan xəyalən getdiyi uzaq yollardan yarımçıq geri döndü:

– Yəqin ki, zəmilər rus atlarının dırnaqları altında qəhr olub gedib. Yaxşı ki, gözlərim kordur, Əli xan, mən onları görmürəm.

– Biz də qəhr olan sünbülləri görəndə qəlbimiz oxlanmış kimi dayanıb durduq. Bu dolu sünbüllər təknəmizin çörəyi idi.

Kalbalı xan öz-özünə söylənirmiş kimi astadan, az qala pıçıltı ilə dedi:

– Bəli, bir az əvvəl başını dik tutmuş sarı sünbüllər bağrında...həyat yaşadırdı. Bərəkət, bolluq saxlayırdı. İndi əzilərək torpağa qarışmış sünbüllər boş çörək təknəsi kimi ürək sıxıcıdır. Amma ruhdan düşmək olmaz. Sevinməliyik ki, Naxçıvan düşmən tapdağında əzilmədi – birdən səsini ucaltdı:– Osman, Osman...

Eşikağası Osman içəri girib əlləri sinəsində dayandı:

– Eşidirəm, xan.

– Sabah günortaya kəndxudaları hüzuruma çağır.

– Baş üstə, xan.

Kalbalı xan əlini saqqalına çəkib başını yuxarı qaldırdı, kirpiklərini tez-tez çaldı:

– Əlimizi əlimizin üstə qoyub gözləyə bilmərik. Ərəb ölkələrindən Naxçıvana çoxlu karvan gəlir. Yaxşı olar ki, bu karvanlar başqa mallar yox, mümkün qədər taxıl gətirsin. Qars paşası ilə də danışmaq lazımdır. Onun da köməyi dəyə bilər. Eyni zamanda Naxçıvan xanları, tacirləri kasıblara əl tutmalıdır. Öz süfrəsi dolu, qonşunun süfrəsi boş qalsa bu Allahın xoşuna gəlməz. Biz aclıqla üz-üzəyik. Lakin bazarlarda taxılın, unun qiymətini qaldırmağa razı deyiləm. Buna görə də xanları axşam saraya dəfət edin. Biz üstümüzə gələn bəlanı elliklə qarşılamalı, aradan qaldırmalıyıq.

Kalbalı xan yenidən pəncərənin qarşısına gəldi...

* * *

General Knorrinqdən sonra Cənubi Qafqaz rus qoşunlarına ali baş komandan Pavel Dmitryeviç Sisianov göndərildi.

Pavel Sisianov 1754-cü ildə Moskvada anadan olmuşdu. Onun atası Dmitri çar ordusunda xidmət etmişdi. Kiçik Pavel də gözünü açıb evdə intizam gördü. Atası kiçik yaşlarından oğlunda hərbi işə böyük maraq oyatdı. Bəlkə də ona görə ki, I Pyotrun vəsiyyətlərini yerinə yetirəcək varislər tərbiyə olunmalıydı. Pavel də atasının arzu etdiyi hərbiçi oldu. O, 37 yaşında artıq general-

mayor idi. Sisianov Azərbaycana ilk dəfə 1796-cı ildə Valerian Zubovla birlikdə gəldi. Hələ o vaxt Azərbaycan torpağı təbii gözəlliyi, sərvəti ilə rus generalını valeh etdi, ürəyinin dərinliklərində xoş xəyallar oyatdı, tamahını itilədi.

Aradan altı il keçdikdən sonra bu xoş xəyallar generalın könlündə çiçək açdı. 1802-ci ilin noyabr ayında generalı ali baş komandan təyin etdilər. Onu bu yüksək vəzifəyə çar I Aleksandr özü məsləhət gördü. Sisianova I Pyotrun vəsiyyətnaməsini oxutdu. Tapşırıqlarını verdi. Az sonra isə rus çarı Sisianova göndərdiyi məktubda yazdı: *«Nəyin hesabına olursa-olsun Azərbaycanın bu və ya digər xanlıqlarına hücumda ermənilərdən geniş istifadə etmək lazımdır. Xüsusi ilə Rusiyaya daha sədaqətli erməni keşişi ola bilər...».*

Lakin çarın ermənilər barədə tövsiyəsi artıq idi. Sisianov onsuz da ermənipərəst idi. Ermənilər onun canı-ciyəri idi və general yaxşı bilirdi ki, vaxtı ilə I Pyotr ermənilərə böyük etimad göstərmişdi. I Aleksandrın özü də ulu babası kimi ermənilərə xüsusi diqqət yetirirdi. Buna görə Sisianov Cənubi Qafqaza ali baş komandan gələn kimi erməni keşişi Danili və Xoca Muradyanı özünə məsləhətçi götürdü. Və bununla da iki erməni gürzə ilan tək Azərbaycan torpaqlarına buraxdı...

* * *

Sisianov ilk əvvəl iti neştərini Gəncə torpağına sancdı. Bunun da səbəbi o idi ki, Sisianovun atası gürcü idi. General rus torpağının çörəyini yesə də gürcü torpağının təəssübünü çəkirdi. Əlinə düşmüş fürsətdən istifadə edərək Gəncə torpağını işğal edib Gürcüstanın tərkibinə qatmaq istəyirdi.

...Gəncənin başında zaman-zaman qara buludlar dolaşmışdı.

Bu qara buludlar ilk dəfə Valerian Zubovun gəlişi ilə Gəncənin başı üstə dayandı. Rus generalı Gəncə xanlığının müstəqilliyini əlindən alaraq onu Gürcüstana tabe etdi. Gəncə gürcülərdən əmrlər, göstərişlər almağa başladı. Valerian Zubov baş komandanlıqdan gedən kimi ağıllı və uzaqgörən Gəncə xanı Cavad xan gürcü knyazına külli miqdarda pul ödəyərək yenidən xanlığı Gürcüstandan ayırdı.

General Sisianovun Azərbaycana gəlişi ilə Gəncənin başının üstünü yenə qara buludlar aldı. Sisianov Gəncə xanına məktub

yazaraq Gəncəni Gürcüstana birləşdirəcəyini bildirdi və qeyd etdi ki, Gəncə gürcü torpağıdır...

* * *

Rus əsgərləri Gəncə torpağına qədəm basan kimi Cavad xan gəncəliləri ayağa qaldırdı. Gəncə döyüşə hazır oldu. Gəncə xanı qala qapılarını rusların üzünə bağladı. Burada Sisianov keşiş Danillə Xoca Muradyanın «sədaqət və etibar»ından istifadə etdi. Onların köməyi ilə yerli ermənilər Cavad xanı diz çökdürmək üçün qalaya gedən su kanallarının yerini göstərdilər. Bununla da ermənilər suyu, çörəyi ilə yaşadıqları gözəl Gəncəyə arxadan ilk zərbəni yendirdilər: su kanallarını kəsərək qalanı susuz qoydular.

...Gəncəlilərlə qeyri-bərabər döyüşdə rusların 6 batalyonu, 3 eskadrası, iki kazak alayı, II topu iştirak edirdi. Qaladakılar düşmənə təslim olmurdular. Ruslar onların iradəsini qırmaqda, qalanı işğal etməkdə aciz qaldılar. Cavad xan üç oğlu ilə müdafiəçilərə başçılıq edirdi. Döyüşdə Cavad xanın arvadı Bəyim xanım da iştirak edirdi.

Qalanın alınması yubanırdı.

Çar sarayında I Aleksandrın səbri tükənirdi. Müdafiəçilərin əlində aciz qalmış Sisianov ilan kimi hər kəsi çalmağa hazır idi.

* * *

Sisianov növbəti hücum əmrini verib gözlədi. Atılan toplardan qalanın başı üstündə elə bil şimşəklər çaxdı. Atəş qalanın divarlarını uçurub dağıtdı, topun düşdüyü yerlərdə yanğın başladı. Lakin əsgərlər yenə irəli gedə bilmədilər. Yuxusuzluqdan gözləri qızarmış Sisianov bağırır, söyüş söyür, əsgərləri irəli getməyə məcbur edirdi.

Erməni keşişləri gözlənilmədən generala müjdə xəbəri gətirdilər:

– Cənab general, axşam qala təslim olacaq.

– Hardan bilirsiz? – general sevincdən özünü itirdi.

– Qalada bizim adamlarımız var. Yerli ermənilərdir. Onlardan məlumat almışıq ki, müdafiəçilərin suları və ərzaqları tükənib. Mübarizəni davam etdirməyə qüvvələri çatmır. Qoy sizin əsgərlər güllələri havayı atmasınlar. Bu güllələr bizə lazım olacaq.

General sevinc içində əsgərlərə atəşi kəsmək əmrini verdi.

...Qalanın müdafiə qüvvəsi daha tükənirdi. Aclıq və susuzluq müdafiəçilərin dizini bükür, gözlərindəki son işartı da sönməyə başlayırdı. Ortalıqda çoxlu cəsədlər vardı. Bunlar ruslarla döyüşdə həlak olanlar idi.

Cavad xanla oğlu da axırıncı döyüşdən çıxmamışdı. Onların ölümü müdafiəçiləri ruhdan salmışdı. Bəyim xanım kişilərə məxsus iradə və təmkinlə cəsədlərin arasından Cavad xanın və oğlunun nəşini tapdı. Onları qala bürcünün yanına qədər gətirdi. Bəyim xanım ağlamırdı. O, igid və cəngavər, mərd və qeyrətli Cavad xana son borcunu, son xidmətini göstərmək istəyirdi. Qoy düşmənin əli onun cəsədinə toxunmasın, qapanmış gözlərini, yaralı sinəsini görüb sevinməsin.

Bəyim xanım cəsədlərin yanında oturub xeyli gözlədi. Gecə yarıdan ötdü. Göyün ulduz səltənətində son ulduzlar da parlayıb üzə çıxdı. Bəyim xanım Cavad xanla, oğlu ilə vidalaşdı. Qapqara buludlar lay-lay axıb ulduzları gizlədəndə qalada sağ qalmış adamlar cəsədləri ehtiyatla aşağı endirdilər və qalanı tərk etdilər. Onların arasında Cavad xanın iki oğlu da vardı.

...Sübh tezdən ruslar qalaya hücum etdilər. Atəş qalanın üstə dolu kimi yağır, qala isə bu atəşfəşanlığa sükutla cavab verirdi. General qalaya çıxmaq əmrini verdi. Əsgərlər sel kimi içəriyə doluşdu. Lakin qala bomboş idi. Yerdə çoxlu cəsədlər vardı. Qəzəblənib özündən çıxmış Sisianov az qala ağzından atəş püskürdü:

– Qalada sağ qalan yoxdurmu?

Keşiş Danil irəli gəldi:

– Cavad xanın arvadı gizlənmiş olar. Bəyim xanım onların arasındaydı.

– Cavad xanın ölüsünü axtarın.

Xoca Muradyan yerli ermənilərlə cəsədlərin arasını, qalanın künc-bucağını axtardı. Cavad xanın cəsədi sanki qeyb olmuşdu. General özündən çıxdı, qışqırıb-bağırır, acığından göy gözləri az qala hədəqəsindən çıxırdı. Əllərində silah aşağı-yuxarı yüyürən əsgərlər isə nə edəcəklərini bilmirdilər.

Sisianov xan sarayına girdi. Cavad xansız boş qalan səssiz otaqlarda sanki şəhanə bir sükut vardı. Bu şəhanə sükut generalı əsəbiləşdirdi. Ayağı ilə vurub bağlı otaqlardan birinin qapısını açdı. Bu anda yerdə oturmuş, qara yaylıqla başını bağlamış qadını gördü. Bu Bəyim xanım idi. O, Cavad xanın başı üstə

oturaraq həzin-həzin ağlayır, mərd və igid ərinə sanki ana kimi son laylasını çalırdı. Bəyim xanım Sisianovu görən kimi ayağa qalxdı. O anda da göz yaşları qurudu. Gözləri nifrətdən alışıb yandı. Ərinin, oğlunun və gəncəlilərin qatili olan bu adamı az qala dişi-dırnağı ilə boğub öldürmək, parçalamaq istədi. Çevik və cəld hərəkətlə Cavad xanın qılıncını götürüb Sisianovun üstünə cumdu.

Sisianov nifrətin güclü hayqırtısından özünü itirdi. Bəyim xanım qılıncı yendirən anda əsgərlərdən biri Sisianovun qarşısına keçdi və general sağ qaldı.

* * *

Rus əsgərləri ilə döyüşən Gəncə məğlub oldu. Məğlub olduğuna görə də həm müstəqilliyini itirdi, həm də adını. General Pavel Sisianov Gəncənin adını dəyişərək I Aleksandrın arvadı Yelizavetanın şərəfinə Yelizavetpol qoydu.

...Və Gəncədə qazandığı zəfər Sisianova böyük sərvət və şöhrət gətirdi.

Sisianov qoşunu Samuxa yeritdi. Samux, Talış, Şəki, Şirvan xanlıqlarının başçıları bir güllə də atmadan Rusiyanın himayəsinə keçdilər. Çünki xanlar birləşməyi ağıllarına belə gətirməyərək sarı, zəhərli ilanların yolunu kəsib düşmənlə mərdliklə döyüşmədilər, qorxaraq ona boyun əydilər.

6

Hacı Əbülqasımın karvansarasının yanındakı çayxana tünlük idi. Günortaya yaxın Ələmşahla Nuru da özlərini çayxanaya yetirdilər. Nuru stulda yerini rahatlayan kimi ətrafa göz gəzdirdi. Sonra da pıçıltı ilə Ələmşaha dedi:

– Camaat narahatdı ha. Camaatın içi doludu.

– Hələ özümüzü demirsən – Ələmşahın tək gözü parıldadı. Nadir şahın vaxtında çayxanalar heç vədə belə dolu olmazdı.

– Niyə?

– Onda vergini çox alardılar.

– Guya indiki İran padşahı vergini bağışlayır?

Bu anda Xanvəli başını içəri uzatdı. Nuru ayağa qalxıb Xanvəlini çağırdı, sonra ətrafa baxıb səsini alçaltdı:

– Əyə burdayıq gəl.

Xanvəli üzündə ciddilik yaxınlaşıb görüşdü:

– Nə var, nə yox, Ələmşah dayı?

– Əşi nə olacaq? Hələ ki, fikir çəkməkdən savayı bir şey yoxdur. Ordan İran padşahı, burdan urus padşahı...

– Naxçıvan indi də urus padşahının gözünü çıxardır? – Nuru təəccüblə soruşdu.

Ələmşah tək gözünü qıydı:

– Bəs urus padşahının işləklərindən xəbərin yoxdu?

– Neyniyib ki? – Nuru qorxu içində gözlərini bərəltdi – üstümüzə yoxsa qoşun çəkir yenə ?

Xanvəli gülüb başını buladı:

– Ay yazıq yatmısan fil qulağında.

– Fil qulağından rahat yer yoxdur. Ac qulağım, dinc qulağım – Nuru çiyinlərini oynatdı, sonra da sanki üzürxahlıq eliyirmiş kimi astadan dedi: – neçə gündü çayxanaya gələ bilmirəm. Ona görə də təzə xəbərləri eşitməmişəm.

Xanvəli əsəbiləşdi:

– Ay xeyirsiz, rus padşahı bu dəqiqə meydan sulayır. Gəncə xanlığını darmadağın eləyib. Cavad xanı, oğlunu öldürüb. Çox adam tələf olub. Başa düşdün, ay xeyirsiz?

– Mənə niyə qəzəbin tutur, Xanvəli? Bəyəm mən rus padşahıyam ki, hirslənirsən? Bir də ki, vallah mən bu padşahlardan baş aça bilmirəm. Vallah çörəyə möhtac olan dilənçi bunlardan həyalıdı. Torpaq ver, mal ver...

– Nuru yavaş danış. Nitq eləmirsən – Xanvəli onun yanını basdı. Ələmşah isti çaydan bir hortum aldı:

– Nadir şahın vaxtında...

– Əşi, sən Nadir şahın yaralı goru, qoy Xanvəli desin görək urus padşahı Gəncənin başına nə oyun açıb?

– Heç zad. Gəncənin adı xoşuna gəlmədiyinə görə adın dəyişib. Özü də arvad adı qoyub. Yenə kişi adı qoysaydı adam yanıb tökülməzdi.

– Nə? Arvad adı? Nə danışırsan Xanvəli? Xanlığın adını dəyişib arvad adı qoyub? – Nurunun heyrətdən ağzı açıq qaldı.

– Hə da bə.

– Elə əməllicə? – Nuru əl çəkmədi. – Tükəzbandan-zaddan bir ad?

Ələmşah Nurunu kinayə ilə süzdü:

– Tükəzban nədi ə? Ağlın başındadı?

– Bəs demirsən arvad adı?

– Arvad adı elə bir Tükəzbandı?
– Tükəzban olmasın Fatmanisə olsun... Axır ki, arvad adıdı.
– Belə Gəncənin adını dəyişib urus padşahının arvadının adını qoyublar. Səni başa salmaq nə yaman çətin imiş Nuru? – Xanvəli dərindən nəfəs aldı.
Nuru əl çəkmədi:
– Niyə Gəncə urusundu ki, ad qoymaq ixtiyarı da onda ola. Vallah adamın bu dünyadan qaçmağı gəlir.
– Hara qaçassan ay Nuru. Bu dünyanın o biri ucunda ya cənnət var, ya da cəhənnəm.
– Əşi, buraxın ey boş söhbətləri. İş ondadı ki, Gəncənin adını dəyişib arvad adı qoyan urus generalı Azərbaycanın başqa xanlıqlarını ala-ala, yavaş-yavaş üzübəri Naxçıvana sarı gələcək – Xanvəli boş stəkanı nəlbəkiyə çırpdı.
– Yəni urusun Naxçıvana gəlmək iştahası yenə var Xanvəli?
– Bə nə bə.
– Məhv olduq ki, Xanvəli – Nuru əlini dizinə çırpdı.
– Yekə kişisən ə, məhv olduq nədi, urusu məhv eləməliyik, düşməni məhv eləməliyik, bildinmi?
Nuru hirslənmiş Xanvəlinin könlünü almağa çalışdı:
– Bə mən də onu deyirəm də. Ondakı kimi urusun hünəri var ayağını Naxçıvana qoysun görək necə qoyur? Ağlı Gəncəyə gəlməsin ki, adını dəyişib arvad adı qoya. Mən bu adı heç çəkə bilmədim. Adı nə oldu, Xanvəli?
Xanvəli fikrə getdi:
– Dedilər ey. Dayan görüm. Elizit... pol
– Bu nə dedi? Ələmşah dayı, sən bir şey başa düşdün? – Nuru təəccüblə soruşdu.
– Əşi, o adlar dilimizə yatmaz, Nuru. Mən qorxuram ki, İran padşahı ordan, urus padşahı burdan Naxçıvanın üstə əlbəyaxa olalar. Bir-birini qıralar.
– Harda qıralar? – Nuru sadəlövhlüklə soruşdu.
– Harda olacaq Naxçıvanda?
– Niyə savaşmağa yer qəhətdi başlarına?
– Nadir şahın vaxtında – Ələmşah tək gözünü qıydı – urus əl tərpədə bilmədi. Nədən ki...
Nuru onun sözünü kəsdi:

– Əşi, Nadir şah sənin bir gözünü çıxartdı da əl çəkmədin ondan Ələmşah dayı. Sən onu de ki, savaşın qoxusunu alıb arpanın, buğdanın məzənnəsi yenə qalxır.

Ələmşah əlini göyə açdı:

– Ümidimiz Kalbalı xanadır. Allah onun qaranlıq dünyasını işıqlandırsın.

– Amin – yan-yörədən Ələmşahın səsinə səs verdilər.

– Pulların da dəyəri düşür – Nuru fikirli dedi.

Xanvəli birdən özündən çıxdı:

– Əşi, bu pullardan da baş çıxarmaq olmur. Azərbaycan xanlıqlarının çoxunda pul kəsilir, Naxçıvandan başqa. Naxçıvanda da o qədər pul işlənir ki... İranın tümən, yarımtümən, sahibqıran, Qarabağın pənahabad, yarımpənahabad, türklərin para, mahmudiyyə, nə bilim şahı, yarımşahı, səksənlik, yüzlük... urus gəlsə urusun ... Onların pulunun adı nədi, Nuru?

– Mən nə bilim urusla alver eləmişəm? Onu yenə tacirlər bilər. Dünən əsasbaşı (gecə gözətçisi) Nağı dükanıma gəlmişdi. Mən ona aylıq 15 qəpik gümüş pul verirdim. Dedi incimə Nuru qardaş, bundan belə aylığa iyirmi qəpik gümüş pul alacağam. Dedim aylığı qaldırmaqda xeyir ola Nağı bəy? O da qayıtdı ki, xəbərin yoxdu Nuru qardaş, pullar dəyərdən düşür. Dedim, zəhmət çəkmə Nağı bəy, gümüş pulun dəyəri həmişə üstündədir. Al pulunu çıx get.

– Karvansaraya təzə müsafirlər gəldi – Xanvəli ayağa qalxdı, – gedək görək nə xəbər gətiriblər. Keçən dəfə gələnlər Gəncə xəbərləri ilə gəldilər. Görək indi nələr olub?

Hacı Əbülqasımın karvansarasının həyəti dəvələrlə dolmuşdu. Ağ çalmalı ərəblər yükləri boşaldır, dəvələri karvansaranın arxasındakı geniş həyətə çəkirdilər. Müsafirləri qarşılayan Hacı Əbülqasımın üzü gülürdü.

7

General Sisianov Nayruxini görəndə özünü itirdi. Heyran baxışlarını qızın göyçək üzündən, alışıb yanan gözlərindən çəkmədən xoşhallıqla gülümsündü: «Ah, müqəddəs ata Danil, Danil. Mən indi başa düşürəm ki, sənin simanda ermənilər dünyada tayı-bərabəri olmayan millətdir. Rusların ən yaxın dostu da onlardır. Danil, çar I Aleksandr səni mənə nişan verəndə səhv etmədi. Sən ruslara çox lazımlı adamsan, Danil.

Mən sənin köməyinlə Gəncəni işğal etdim. Danil. Sənin gətirdiyin erməni qızları isə mənim könül bağçamı işğal etdilər. Bu qız da elə bil göylərdən yerə yenmiş mələkdir...».

General qızın saçlarına sığal çəkdi:

– Adın nədir qız?

– Nayruxi.

– Keşiş Danillə qohumluğun varmı?

– Danil mənim dayımdır.

– Gələnlərin hamısı elə deyir.

Generalın gülüşü at kişnərtisi kimi baş alıb getdi. Qız incimiş kimi dodaqlarını büzüb nazla gözlərini süzdürdü:

– O mənim doğma dayımdır. Danil çox qeyrətli kişidir. Damarlarından əsil erməni qanı axır.

General gülüşünü kəsmədən başını buladı:

– İnanıram.

– O erməni millətinin mənəvi atasıdır.

– Danil həm də mənim mənəviyyatımın xəzinədarıdır, başa düşdünmü qız?

İkisi də gülümsündü. Generalın ağarmış saçlarında, qırışların iz saldığı, günəşin yandırdığı çöhrəsində bir qabalıq, sərtlik vardı. Lakin göy gözlərində elə doyumsuz bir iştaha vardı ki, sanki yüz illər də yaşasaydı, sərvət, para toplasaydı bu məkirli göy gözlərin aclığını rəf eliyə bilməzdi.

General ağ köynək geyib köynəyin ətəklərini qalifeli şalvarının içinə salmışdı. Daim özü ilə gəzdirdiyi tapançanı masanın üstünə atmışdı. Sisianovun əli Nayruxinin gur, pərişan saçlarını tumarladı. Özü isə gözlərini yumdu.

Generalın bu anda düşüncələri qonağından çox-çox uzaqlarda idi. Sanki o, işıq düşməyən qapalı, gizli aləmində ona tərəf sürünən qızılların sarı işığını görürdü. Sonra bu qızılların işığında Cavad xanın arvadlarının kədərli, qəmli simaları generalın gözünə görünürdü. Onlar generalın əsiriydilər. Sisianov onları heç kəsin ağlına gəlməyən gizli yerdə saxlayırdı. Sisianov onlardan Cavad xanın sərvətini tələb edirdi. Sisianov Cavad xanın azadlıqda qalan iki oğlundan da qorxurdu. Uğurlu ağa və Əliqulu ağa da ataları kimi igid, qorxmaz idilər. General qorxurdu ki, onlar bir gün generalı axtarıb tapar və atalarının qisasını alarlar.

Sisianov bu qisasdan yaxasını qurtarmaq, rahat yaşamaq üçün Cavad xanın oğlanlarının başına mükafat təyin etdi. Mükafat erməniləri şirnikləndirdi...

Nayruxi sanki onu təhqir edən sükutdan darıxıb soruşdu:

– Pavel Dmitriyeviç ailəniz varmı?

General mənalı gülümsündü:

– Ailəm? Azərbaycan torpaqları işğal edilib qurtardıqdan sonra ailə olacaqdır.

– Danil sizə kömək eliyər.

– Ailə qurmaqda?

– Yox, nə danışırsız Pavel Dmitryeviç? Azərbaycan torpaqlarını işğal etməkdə. Ermənilər arasında onun böyük nüfuzu var. Danil çox ağıllı adamdır.

– Bilirəm, Gəncənin işğalında o, bunu göstərdi. Üstəlik sübut etdi ki, ermənilər daim ruslara sadiqdir.

– Lakin azərbaycanlılar çox qaniçəndir Pavel Dmitryeviç. Onlar vəhşi və qəddar millətdir. Azərbaycanlılar rusları təkləmək üçün daim ermənilərə əzab və işgəncə verirlər. Onlar erməniləri öz halal torpaqlarında yaşamağa qoymurlar. Danil əsil Allah adamıdır. O, haqsızlığı qəbul etmir. O, ləyaqətli və vicdanlıdır. Əgər siz onun məsləhətləri ilə oturub dursanız o, bütün erməniləri rus bayrağı altına toplayaraq ordunuzun daha da qüvvətlənməsinə kömək edər.

– Düz deyirsən Nayruxi, əgər Gəncə erməniləri olmasaydı biz Gəncə xanını məğlub edə bilməzdik.

Cavad xanın adını çəkəndə general yenə fikrə getdi. Dərin bir sükut içində öz aləminə çəkildi. Sanki qeybdən Cavad xanın arvadları Bəyim xanımın və Şükufə xanımın qəmli, məhzun gözləri üzünə zilləndi. Yox bu gözlər ağlamırdı, yalvarmırdı, əfv diləmirdi. Bu gözlərdə qaynayan nifrət, qisas hissi o qədər güclüyüdü ki, general sanki xəyalən də onlara yaxın getməyə ürək eləmədi. Elə bil qadınlar gözünün qarşısında qeybdən çıxıb onu dirigözlü parçalayacaqdılar.

General gözünə görünən xəyalı rədd elədi. Və yenidən Cavad xanın sərvəti haqqında düşünərkən könlü açıldı: Cavad xanın böyük bir varidatı Rusiyanın xəzinəsinə verilmişdi. General isə qadınları və uşaqları əsirlikdən azad etmək üçün onlardan üç min manat qızıl pul istəmişdi...

General göy gözlərini açdı. Sanki fikri Danilin yanındaymış kimi qızın yumşaq, ağ əllərindən tutdu:

– Keşiş Danil indi İrandadır.

– İranda?

– Fətəli şahın keyfini soruşmağa gedib-general qədəhləri stolun üstünə qoydu, gürcü şərabı ilə doldurdu. Dumanlı bir nigarançılıq içində düşündü: «Görəsən keşiş tapşırıqlarımı yerinə yetirə bildimi? İran ermənilərini bir yerə toplamağa fürsət tapdımı?».

Şərab qədəhlərini keşiş Danilin şərəfinə içdilər.

Bu anda qapı döyüldü. Yavər İrandan göndərilmiş məktubu Sisianova təqdim etdi.

Nayruxi getdi.

General yavəri ilə qaldı. Bayırda soyuq iliklərə işləyirdi. Külək toz-torpağı pəncərələrə çırpır, canavar ulartısı kimi bir səs sanki burulğanın içindən ətrafa yayılırdı. İçəridə isə gurhagur yanan sobadan şam ağacının ətri gəlirdi. Məktubdan məlum olurdu ki, Fətəli şahın göstərişi ilə keşiş Danili həbs edib zindana salmışlar. İran xəfiyyəsi ayıq idi. Çox güman ki, keşişin kilsələrdə din adı altında apardığı söhbətlər gizli qalmamışdı.

Keşiş Danilin tutulması generalın ovqatını pozdu. O, otaqda xeyli gəzindi, düşündü. Necə etsin ki, keşişi zindandan çıxara bilsin? Çünki keşiş hələ ona lazım idi. Sisianov düşünürdü ki, keşiş İrandan qayıtdıqdan sonra o, İrəvan xanlığının başçısı Məhəmməd xana hədə-qorxu gəlməklə keşişi qovulduğu Ararat kilsəsinə yenidən qaytarar. Keşişin burada görüləsi işləri çox idi. O İrəvanda yaşayan erməniləri öz ətrafına yığacaq, rusların İrəvana hücumu zamanı isə onların qüvvəsindən istifadə edəcəkdi. Əgər keşiş Ararat kilsəsində yoxdursa generalın da İrəvan haqqında xəyalları boşa çıxacaq...

Yavər generalın əhvalının pozulduğunu görüb ehtiyatla dedi:

– Cənab general, deyilənə görə Fətəli şahın Naxçıvan xanlığının başçısı Kalbalı xana xüsusi ehtiramı var. Çünki şah onu zindandan çıxardı, üstəlik kor olmasına baxmayaraq yenidən Naxçıvan xanlığının taxtına əyləşdirdi. Mənə elə gəlir ki, Kalbalı xan Gəncə xanlığının taleyindən xəbərdardır.

– Cavad xanın məğlubiyyətinə və ölümünə görə deyirsənsə inanmıram bu onun gözünü qorxuda – Sisianov könülsüz dedi: –

onu igid və qorxmaz adam deyirlər. Hətta kor halinda belə. Başqa yol tapmaq lazımdır.

– Bir də onu deyirlər ki, Kalbalı xan Qacar sülaləsinin düşmənidir. O, İran şahına nifrət bəsləyir.

– Hər halda ruslarla da dost deyildir.

– Lakin əlahəzrət imperatriçə II Yekaterinanın vaxtında, onun qəbri nurla dolsun, Kalbalı xan Rusiyanın himayəsinə keçmək istəyirmiş. Hətta general Valerian Zubovla da məktublaşırmış.

– Elə bu məktuba görə də İran şahı Ağa Məhəmməd şah Qacar onun gözlərini çıxartdırdı.

– Cənab general, bəs indi nə üçün Kalbalı xan rus dövlətindən üz çevirib?

– General Knorrinqin Naxçıvana hücumu onun düşüncələrini alt-üst edib. Onun inamını öldürüb. Buna görə.

Yavər dediyində israr etdi:

– Lakin mənə elə gəlir ki, siyasi ab-hava yenə yumşalmağa başlayıb. Kalbalı xan var qüvvəsi ilə çalışır ki, İranın himayəsindən çıxsın. O, deyəsən üzünü yenidən ruslara çevirmək istəyir. Siz ona məktub yazın. Mənə elə gəlir ki, o, mütləq sizin xahişinizi yerinə yetirəcəkdir. Hər halda ruslarla münasibəti saxlamaq istəyər.

...Və general Pavel Sisianov Naxçıvana göndərdiyi 1803-cü il 6 fevral tarixli məktubunda rus nəzakəti ilə Kalbalı xandan Danilin zindandan azad edilməsi üçün köməklik etməsini xahiş etdi. Məktubun axırında xüsusi olaraq qeyd etdi: *«Mənə gəlib çatan xəbərə görə inanıram ki, sizin katalikos Danilin geri qaytarılması üçün imkanlarınız var».*

...Kalbalı xan generalın məktubunu aldı. Amma cavabı generala yox, arxiyepiskop Ohanesə göndərdi. Ohanes generala çatacaq məktubu yubatmadı. Kalbalı xanın məktubunun ruhundan Sisianov başa düşdü ki, Kalbalı xanın yenidən ruslara yaxınlaşmaq meyli var. Çünki o, yazmışdı: *«...Mən iranlılardan o qədər incimişəm ki, onlar Allah olsalar belə onlara boyun əyməyəm... Əgər mən dəqiq bilsəm ki, ruslar Gürcüstanı tərk etməyəcəklər, necə ki, qraf Zubov qayıtdı və bunun nəticəsində bizim evlər dağıldı. O zaman mən ruslara xidmət edərəm. Mənim haqqımda Sisianova pis cəhətdən məlumat verilmişdir. Əgər*

*mənə yazıldığı kimi ruslar Gürcüstanda möhkəmlənsələr mən də dövlətinizin xidmətində olaram.*

*Mən ayın 28-də İrana şahın yanına gedəcəm. Bu səfərdə əsas məqsədim patriarx Danili Naxçıvana gətirməkdir və buna siz əmin ola bilərsiniz.*

*Hörmətlə:*

*Kalbalı xan Kəngərli».*

Kalbalı xan sözünün üstündə dayandı...

* * *

...Hacı Əbülqasım namazını qılıb qurtarsa da ayağa durmağa tələsmədi. Çünki ürəyində hələ oxunmamış duaları çox idi. Allahın dərgahı ilə üz-üzə qaldığı anlarda sanki Hacı Əbülqasım özündə qüdrətli bir qüvvə hiss eləyərdi. Elə bil duaların işığı dodaqlarından axıb qəlbinə tökülərdi. Sanki nigarançılığı, intizarı duaların hökmü ilə qəlbindən götürülərdi, günəş kimi qüdrətli bir işıq içərisini ümidlə doldurardı.

Hacı Əbülqasım qarğışı, nifrini canamazını yığışdırandan sonra elərdi. Çünki qorxardı ki, namaz üstə onun qarğış və nifrini tanrının xoşuna gəlməsin. Qarğışını əvvəllər İran şahına və onun Allahı tanımayan, ürəyində tanrının xofu olmayan İran sərbazlarına tökərdi. Amma ruslar Gəncəyə qan uddurandan sonra İran şahı və onun qaniçən, qəddar sərbazları yaddan çıxdı. Hacı Əbülqasım əllərini göyə qoşa açaraq qarğışı, nifrini ruslara göndərirdi və ona elə gəlirdi ki, bu qarğış və nifrinlər Allahın dərgahında möhürlənib güllə yağışı kimi müsəlman xanlıqlarına bəd niyyətlə gələn kafirlərin üstünə yağır, üstəlik Naxçıvana gələn yolları onların üzünə bağlayır.

Hacı Əbülqasım əlini alnından çənəsinə qədər çəkib axırıncı salavatını çevirdi və yüngülləşmiş halda canamazını yığışdırdı.

Qonşu otaqda Ərəbistandan gəlmiş qonağı Suat bəy Hacını gözləyirdi. Suat bəy müsafir olduğundan namazın qəzasını öz evində qılacaqdı.

Hacı Əbülqasım içəri girən kimi ağbəniz, qısa qara saqqalı çöhrəsinə çox yaraşan ala gözlü cavan azca dikəlib Hacının əlini sıxdı:

– Allah namazını qəbul eləsin, Hacı – dedi.

– Sağ ol Suat bəy, darıxmadın ki?

– Darıxmaq nədi, Hacı. Çox xoşdu.

Suat bəy gizlicə gözaltı qonşu otağa baxdı. Oğrun baxışların parıltısı sanki ürəyinin başına köz saldı. Cavan elə bil gözlərinin içinə qədər alışıb yandı. Üzünü Hacı Əbülqasıma çevirdi. Ona elə gəldi ki, gözlərinin içində üzünə zillənən gizli baxışların istisi qaldı.

Hacı Əbülqasım yastığa söykənib təsbehini çevirə-çevirə cavan qonağını sorğu-suala tutdu:

– Gəldiyin yerlərdə nə var, nə yox, Suat bəy?

– Çox şükür, sağlıq-salamatlıqdır.

– Yəqin Naxçıvanın ipəyi sizin yerlərdə yaxşı gedir ki, tez qayıtmısan.

– Bu dəfə fikrim rəngli sap aparmaqdır, Hacı. Naxçıvanda hazırlanan rəngli şüşələrin də biz tərəflərdə misli yoxdur. Amma onları aparmaq çətindir.

– Düz deyirsən, Suat bəy. Bizdə hazırlanan rəngli şüşələrin misli yoxdur. İrəvan xanı Məhəmməd xan öz sarayının pəncərələrinə bu rəngli şüşələrdən saldırıb – Hacı Əbülqasım iftixar duyğusu ilə gülümsünüb öz evinin də rəngli şüşələrdən salınmış pəncərələrinə baxdı. Amma dodaqlarının ucunda görünən təbəssümü qəfildən elə bil ayaz, şaxta vurdu, yadına nəsə düşüb, qaş-qabağını tökdü – Ruslar Gəncəni dağıdandan, bir çox xanlıqları işğal edəndən sonra Naxçıvana da əcnəbi ölkələrdən gələn müsafirlərin sayı azalıb – dedi.

– Onlarda günah yoxdur, Hacı – Suat bəy qonşu otağa zillənən baxışlarını zorla çəkdi – Azərbaycanda qarışıqlıq çoxdur. Tacirlər qorxurlar ki, Naxçıvanda da vəziyyət pisləşər, onlar da mallarından, pullarından olub müflisləşərlər.

– Naxçıvanı yaşadan ticarətdir. Şərqdən Naxçıvana gələn yollar bərəkət, ruzi, bolluq gətirir. Vaxt var idi ki, Naxçıvan uzaq ölkələrdən gəlmiş tacirlərlə dolu olardı. Karvansaralarda yer tapılmazdı. Naxçıvan şəhərindəki beş karvansaranın beşi də dolu olardı.

– Mən eşitmişəm ki, babamın babası, bəlkə də ən ulu babası da daim Naxçıvana böyük dəvə karvanları ilə gələrmiş. Naxçıvandan ipək parça, sap, kətan, hətta duz da alıb apararmış.

Suat bəy qəflətən sözünü kəsib dayandı. Əlini qoltuq cibinə atıb xırda dəsmal bükülüsünü çıxardı, sonra da onu utana-utana Hacı Əbülqasıma uzatdı:

– Səbihə xanımla Dərya xanıma kiçicik bəxşeyişidir – dedi.

Hacı Əbülqasım bükülünü açdı. Ovcunun içində daş-qaş bərq vurdu. Daş-qaşı təkrar Suat bəyə qaytarmaq istədi:

– Suat bəy inciyərəm səndən. Naxçıvanlılar hörmətləri müqabilində qonaqdan bəxşeyiş almazlar. Bu ev yiyəsini təhqir eləməkdi.

Suat bəy alındı. Alnında xırda tər damlası göründü. Yanaqları çəhrayı rəng aldı:

– Hacı bizdə də bəxşeyişi geri qaytarmaq təhqirdi. Mən bu evi öz evim bilirəm. Səbihə xanımı öz anam bilirəm. Neçə illərdir Naxçıvana gəlib gedirəm. Həmişə də sənin karvansaranda düşürəm. Amma aramızda elə bir ünsiyyət yaranıb ki, sən özün mənim karvansarada qalmağıma izin vermədin.

Hacı Əbülqasım utanıb başını aşağı saldı, sonra da Suat bəyin incimiş könlünü almaq istədi:

– Düzdü, Suat bəy. Mənim ərəb ölkələrindən gələn müsafirlərim çoxdur. Amma sən onlara bənzəmirsən. Ürəyimə yatmısan. Sən gələndə Səbihə xanım görürsənmi necə əl-ayağa düşür. Məxsusi səndən ötəri plov süzür.

– O halda aramızda belə söhbət olmamalıdı, Hacı.

Hacı Əbülqasım bəxşeyiş ovcunda Suat bəyin gözlərinə xeyli baxdı. Cavanın mərd və yaraşıqlı çöhrəsi, qalın qaşlarının altından baxan incik gözləri saf bulaq suyu təki dumduru və aydın idi. Bu gözlər riyakarlıqdan çox-çox uzaqdı. Hacı Əbülqasım cavan qonağına ürəyində bir şəfqət, istək duydu. Gülümsünüb arvadına səsləndi;

– Səbihə...

– Gəldim, Hacı.

– Dəryanı da çağır.

Səbihə xanımın arxasınca gələn Dərya başını qaldırıb kimsənin üzünə baxmadı. Hacı Əbülqasım onun pörtmüş sifətini görəndə heyrətləndi: «Bu qıza nə oldu belə?» Amma üstünü vurmadı. Bükülünü arvadının ovcuna qoydu:

– Suat bəy sizə bəxşeyiş gətirib.

– Nə zəhmət çəkirdin Suat bəy, – Səbihə xanım qımışdı.

– Sağ olsun,– Dərya sözləri astadan pıçıldayıb, göz altı bircə an Suat bəyə baxdı, çıxıb getdi.

Suat bəy məmnun halda gülümsədi.

## 7

Keşiş Danil Arazdan adlayıb ilk dəfə Naxçıvana ayaq basanda heyrət və heyranlıqdan özünü unudaraq atı saxlayıb dayandı. Başı dumanlı, ayağı yaşıl yelənli dağlar, Arazdan üzüyuxarı görünən yamyaşıl vadilər, külək vurduqca köz kimi alovlanıb ləpələnən laləli çöllər... keşişin ağlını başından aldı. İştahı, tamahı kinli ürəyini sanki ilan tək çaldı: «Müsəlmanlar lap cənnətdədir ki. Yazıq mənim millətim, vətənsiz millətim. Allah özü məni bura göndərdi. Ermənilər burda yaxşı yurd-yuva salar. Onun üçün də azərbaycanlıları burdan köçürmək, bu yerləri işğal edib bizimkilərə vermək lazımdır. Biz rusların qılığına girib ermənilər üçün gözəl məmləkət yaratmalıyıq... Dənizlərdən-dənizlərə böyük və qüdrətli ölkə... Biz onu rusların sayəsində qazanacağıq»...

Kalbalı xan xeyli aralanmışdı. Onunla bərabər on nəfər süvari də gedirdi. Ətrafa baxdıqca keşişin doyumsuz gözləri geniş açılır, ürəyi təlatüm içində çırpınırdı: «Kor Kalbalı xan məni şah zindanından azad elədi. Elə bildi ki, bununla da Sisianovun etimadını qazandı... Naxçıvanı rus işğalından qurtardı... Başa düşmədi ki, məni xilas etməklə başını bəlaya saldı...»

...Keşiş Danilə Hacı Əbülqasımın karvansarasında səliqəli, rahat hücrə ayırdılar. İrəvana-Ararat kilsəsinə gedənə qədər burda qalacaqdı. Amma uzun saqqallı, göy gözlü keşiş dinc oturmurdu, gah dördkünc bazarda, gah karvansaralarda, gah da şəhərin Əlixan, Qurdlar, Sarbanlar, Şahab məhəllələrində görünürdü. Bu məhəllələrdə ermənilər də yaşayırdı.

Keşişin gözləri hər yerdə erməniləri axtarır, tapır, bir yerə yığır, söhbət aparırdı. Axşamlar isə yorğun-arğın hücrəsinə qayıdırdı. Boş vaxtlarında hamamlara da baş çəkirdi. Naxçıvanın hamamları keşişin xoşuna gəlmişdi. Tez-tez Mirzə Əli hamamına gedirdi. Bu qədim hamam yerin altındaydı. Üstü künbəzlərlə işlənmişdi. Hamamın iri istirahət salonu həmişə tünlük olurdu. Keşiş sarımtıl qaşlarının altından baxan nifrətli gözləri ilə hamıya göz qoyurdu, danışıqlara qulaq verirdi. O, Fəzli, Şıxəli bəy hamamlarına da baş çəkirdi. Lakin bu hamamların heç birində çox dayanmırdı. Eləcə hamamın içərisində bir az ləngiyir, sonra da çıxıb gedirdi. Sonra yerli ermənilər onu başa saldılar ki, müsəlmanlar öz hamamlarına ömründə erməni buraxmazlar. Çünki dindar müsəlmanların namazları batil olar... Keşiş qeyzlənirdi,

lakin ruhdan düşmürdü. O, tez-tez Mömünəxatun məqbərəsinin yanına da gəlirdi. Məqbərənin möhtəşəmliyi keşişi heyrətə salırdı. Firuzəyi rənglər günəşin altında alışıb yanırdı. Paxıllıq, kin, nifrət keşişin ürəyini qurd kimi yeyirdi: «Ola bilməz ki, bu məqbərəni müsəlman tiksin. Vaxt gələr, biz sübut elərik ki, bu məqbərəni ancaq ermənilər tikə bilər».

...Şəhərin dördkünc bazarı keşişin xoşuna gəlirdi. Saatlarla baqqal dükanlarını gəzirdi, nə isə arayırdı, axtarırdı. Ürəyinin iblis səsini, gözlərinin nifrət alovunu kimsə görmürdü, duymurdu. Keşiş düşünürdü: «Müsəlmanlar dördkünc bazara çox bağlıdır. Sisianov Naxçıvanı işğal edən kimi mən bu bazarın yerində kilsə tikdirəcəyəm. Ermənilər burda ibadət edib rus padşahının ömrünə dua oxuyacaqlar... Hacı Əbülqasımın da karvansarası xoşuma gəlir. Bəlkə orda da bir kilsə tikdirək? Axı Naxçıvanda çoxlu erməni yaşayacaq. Onlara bir kilsə azlıq edər...».

Keşiş hücrəsinə qayıdandan sonra da rahat olmurdu. Şəhərdəki beş karvansaradan ən böyüyü Hacı Əbülqasımın karvansarası idi. Bura uzaq ölkələrdən tacirlər gəlirdi. Gürcüstandan da erməni tacirləri gəlirdi. Karvansaranın həyəti dəvələrlə və qatırlarla dolu olurdu. Danil tacirlərlə ünsiyyət yaradırdı, sadəlövh keşiş kimi onları sorğu-suala tuturdu: «Vaxt gələcək bu tacirlər bizimkilərlə ticarət əlaqələri yaradacaqlar. O vaxt bu əlaqələr Rusiyaya bağlanaraq daha da genişlənəcəkdir...».

Sonra keşiş yatağına girib möhkəm və şirin yuxuya gedirdi.

* * *

Xanlıq sarayında sakitlik idi. Qaladan qayıdan Kalbalı xan keşiş Danili hüzuruna çağırtdırdı. İrəvandan Məhəmməd xandan aldığı cavab onu düşündürmüşdü. Məhəmməd xan yazırdı: «Kalbalı xan, Sisianovun Ararat patriarxı göndərmək istədiyi Danili mən yenidən ora qaytara bilmərəm. Nədən ki, keşiş Danil İrəvanda əvvəllər xanlığa ziyan gətirən işlərlə məşğul idi. Erməniləri ayağa qaldırır, zərərli söhbətlərlə və işlərlə onların beynini zəhərləyirdi. Knyaz Sisianov Cənubi Qafqaza gəldikdən sonra keşiş bilmərrə İrəvanı tərk etdi. Mənim ürəyim hökm etmir ki, o təzədən buraya qayıtsın və həmin zərərli işlərinə davam etsin...».

Əli xan məktubu təkrar oxudu. Kalbalı xan başını yuxarı qaldırıb istehza ilə dedi:

– Demək keşiş Allaha yox, şeytana ibadət eləyir.

– Allahın bu cür keşişlərdən xəbəri yoxdur. Danil şeytanlara qoşularaq bu dünyaya təşrif gətirib.

– Aldığım məlumata görə Gəncə xanlığının işğalında keşiş Danilin xidməti çox olub. Rus generalı Sisianovun sağ əli olan Danil Gəncədəki yerli erməniləri gəncəlilərə qarşı ayağa qaldıraraq xəyanət yolunu tutmağa təhrik edib. Əgər satqınlıq olmasaydı Cavad xan axıra qədər döyüşəcəkdi. Buna görə də Əli xan, keşiş ayağını Naxçıvana basan kimi Ehsana ona göz yetirməsini tapşırdım. Polislər onun hər addımını nəzarətə aldılar. Mənə çatdırdılar ki, keşiş hər yerə baş vuraraq tülkü kimi imsiləyir, tarixi abidələrə baş çəkir, adamlarla məkirli söhbətlər aparır, çox vaxtı ermənilərin evində gecələyir. Məhəmməd xan onu İrəvana buraxmamaqda haqlıdır – Kalbalı xan düşündü, fikrə gedərək bir xeyli müddət danışmadı sonra da fikirli halda dedi: – amma qorxuram ki, bu addımına görə Məhəmməd xan rusların qəzəbinə gələ.

– Kalbalı, sən inanırsan ki, Sisianov Naxçıvanı rahat buraxacaq? – Əli xan ehtiyatla soruşdu.

– Mən suyun axarına qulaq asıram, Əli.

Keşiş Danil səssizcə içəri girdi. Bir anlıq sükut çökdü və Əli xan qonağı təqdim etməmiş Kalbalı xan başını yuxarı qaldırıb kirpiklərini tez-tez çaldı, sonra da mülayim səslə dedi:

– Ayaqüstə durma keşiş Danil, keç əyləş.

Keşiş yerindəcə qurudu. Gah Əli xana, gah da Kalbalı xana baxaraq heyrətlə düşündü: «Bu görürmüş ki...».

Kalbalı xan üzündə gülümsər ifadə gümrah səslə soruşdu:

– Əyləş. Nə var, nə yox?

Xanla qoltuq kürsüsündə üzbəüz oturmuş keşiş gözləri ətrafda könülsüz cavab verdi:

– Sayənizdə yaxşıyam. Mən sizin qonaqpərvərliyinizi cənab generala çatdıracam.

– Naxçıvanı gəzib dolaşdın, axtardığını tapa bildinmi?

Keşiş diksindi. Ona elə gəldi ki, Kalbalı xan işıqsız gözləri ilə onun bədxah niyyətli iç dünyasını aydınca görərək istehza etdi. Keşişə elə gəldi ki, xan indicə qüvvətli əllərini irəli uzadıb onun boğazından yapışacaq, var qüvvəsi ilə, gözləri hədəqəsindən çıxıncayadək hülqumunu sıxacaq... Dili-dodağı qurumuş, gözləri heyrətlə Kalbalı xana baxaraq düşündü: «Bu deyəsən hər şeyi bilir».

Keşişdən cavab çıxmadığını görən Kalbalı xan sözünü dəyişdi:

– İrəvanda Eçmiədzin kilsəsinin yepiskopu indi Daviddir. Buna görə də İrəvan xanı Məhəmməd xan sənin ora getməyinə razılıq vermədi.

Keşiş ilan çalmış kimi yerindən qalxdı:

– Məhəmməd xan razılıq vermədi? Hansı cürətlə, hansı cəsarətlə? Məni İrəvana göndərin.

Kalbalı xan keşişin özündən çıxıb qəzəblənməsinə əhəmiyyət vermədən təmkinlə dedi:

– O, səni İrəvana da buraxmaq istəmir.

Keşiş Danil bir anlığa harda olduğunu unudub bağırdı:

– İrəvan mənim vətənimdir.

Əli xan onun qolundan tutub kürsüyə oturtdu:

– Yadından çıxarma, sən xanın hüzurundasan. Özünü ədəbli apar.

Keşiş Danil sustalmış yerində oturdu:

– Bağışlayın.

Kalbalı xan özünü onda qoymadı:

– Biz İrəvan xanının işinə qarışa bilmərik, keşiş. O, qərar çıxarmaqda müstəqildir.

Ürəyində tüğyan edən qəzəb, kin keşişin nitqini bağladı, beynini dumanlandırdı, Kalbalı xanın sözü iti xəncər kimi qəlbinə işlədi, könlünü yaraladı. Ona elə gəldi ki, üzünə yüzlərlə məlul-müşkül göz zilləndi. Bu gözlər xeyli vaxt idi İrəvanda onu gözləyirdi. Onun nicat gətirəcəyinə inanırdı.

Kalbalı xan sükutdan darıxdı.

– İndi neynəmək fikrindəsən, Danil?

Söz yumuşaq və qayğılı deyilsə də yenə xəncər kimi keşişin ürəyinə işlədi. Sanki Kalbalı xan özünü o yerə qoymayaraq eyni ilə Məhəmməd xan kimi «şələ-küləni yığışdır get» dedi. Keşiş də hikkəsini içində boğub əlini saqqalına çəkərək təmkinini saxlamağa çalışdı və üstüörtülü Kalbalı xanla Məhəmməd xanı hədələyirmiş kimi astadan dedi:

– Mən general Sisianovun yanına qayıdacam. Mən onun məsləhətçisi idim, elə bilirəm ki, generalın indi mənim məsləhətlərimə daha çox ehtiyacı var.

Kalbalı xanın sərt sifəti mülayimləşdi. Çiyinlərini çəkdi:

– Qərar qəbul eləmək sənin öz işindir, Danil.

...Keşiş Danil Kalbalı xanla vidalaşdı. Bayıra çıxanda çevrilib xan sarayına, onun pəncərələrinə baxdı. Ona elə gəldi ki, rəngli şüşələrə Kalbalı xanın nəhəng kölgəsi düşüb. Sanki Kalbalı xan işıqsız gözlərini ona tərəf çevirərək istehza ilə gülürdü. Keşiş dodağının altında nə isə mızıldandı və saqqalını tumarlayaraq düşündü: «Sisianov onu görəndə fağır və zəlil bir adam zənn edəcəkdir. Tülküdən də bic olan rus generalını onun kor gözləri aldadacaq. Başa düşməyəcək ki, Kalbalı xan ən qüvvətli rəqibini məğlub edəcək ağıla və zəkaya qabildir. Düşmən də olsam bunu etiraf eliyirəm...».

Sonra keşiş hücrəsinə qayıdıb tələm-tələsik yığışdı və atı minib yola çıxanda boz duman içində görünən dağlara təkrar baxdı. Sanki ürəyindən bir vida ağrısı, bir ayrılıq həsrəti ötüb keçdi: «Biz qayıtmalıyıq. Hökmən qayıtmalıyıq. Bu yerlərin sahibi bizik. Hələlik Naxçıvan...».

* * *

...Çox keçmədi ki, Kalbalı xan general Sisianovdan məktub aldı. Keşiş Danilin geri qayıtması Sisianovu özündən çıxarmışdı. Sanki İrəvan xanı Məhəmməd xan knyazın niyyətlərindən xəbərdar olaraq xanlığı və özünü qorumuşdu.

Sisianov qəzəbindən, acığından od-alov püskürürdü. Məktubun əvvəlində Məhəmməd xanı hədələyir, axırında isə Məhəmməd xanın qarşısında öz qərar və şərtlərini qoyurdu. Bu şərtlər belə idi:

*«1. Patriarx Danil mütləq öz yerinə qayıtmalıdır.*

*2. İrəvan qalası rus qoşunları tərəfindən tutulduqdan sonra xana qalada və ya qaladan kənarda yaşamağa sərbəstlik veriləcəkdir.*

*3. Xan rus imperatorunu özünün dövlət başçısı kimi qəbul etməli, sədaqətli olacağına and içməlidir.*

*4. Xan Rusiyaya səksən min manat həcmində xərac verməli və hər il bu xəracı iki müddətdə – birinci yarısını Novruzdan bir gün keçdikdən sonra, ikinci yarısını isə iyul ayından sonra ödəməlidir. Bunun müqabilində xan öz əvvəlki hüququnda qalacaq və rəisliyini davam etdirəcəkdir».*

Məktubu oxuyan Əli xan nəfəsini dərib dayandı. Kalbalı xan əlini saqqalına çəkib gülümsündü:

– Bu ruslar tülküdən bicdir, Əli xan. Məktubu oxuyanda fikir verdinmi sözünə top-tüfənglə başlayan, hədə-qorxu gələn Sisianov məktubun axırında şərtlərini qoyarkən elə bil Məhəmməd xanın başını aldatmağa çalışır.

– Demək ruslar İrəvan xanlığının işğalına hazırlaşır – Əli xan köks ötürdü.

– Əgər Məhəmməd xan ruslarla savaşa qalxsa onu da gəncəli Cavad xanın taleyi gözləyir. Mən belə düşünürəm. Çünki İrəvanda çoxlu erməni yaşayır. Generalın da fikri əvvəlcədən keşiş Danili Eçmiədzinə göndərmək idi ki, keşiş orda erməniləri başına yığıb ayağa qaldırsın və rus qoşunları İrəvan qalasına hücum edərkən, onların köməyindən istifadə etsin.

– Yaxşı ki, Məhəmməd xan da ağıllı tərpənib keşişi İrəvana buraxmadı.

İkisi də susdu. Kalbalı xan öz qaranlıq dünyasının səssizliyi, sükutu ilə sanki baş-başa qaldı. Sonra da saqqalına tumar çəkərək ağır-ağır dedi:

– Amma bu tezlikdə ruslar İrəvana getməyəcək.

Sanki Kalbalı xanın çatılmış qaşlarında, alnının sıxlaşmış qırışlarında bir münəccim müdrikliyi və uzaqgörənliyi özünü biruzə verdi:

– Çünki indi İran şahı Fətəli şah ingilis və fransızlarla əlbir, dilbir olub. Onlar birləşərək Rusiyanı təkləmək, onun qüvvətlənməsinə mane olmaq istəyirlər.

– İranın Rusiyadan umacağı var? – Əli xan soruşdu.

– Rusiyanın Azərbaycan xanlıqlarını bir-bir işğal etməsi Fətəli şahı qəzəbləndirib. Nadir şahın vaxtında bu torpaqlar İranın himayəsində idi və ildə İran xəzinəsinə külli miqdarda vergi ödəyirdi. Nadir şahın Kəlatdakı bitib-tükənməyən xəzinəsi hardan idi? Bu xəzinə haqqında hələ də dillərdə dastan gəzir. Bir də Fətəli şahın narahatlığına səbəb odur ki, birdən ruslar Naxçıvan xanlığına da sahib çıxmaq istəyər. Naxçıvan daim İranın himayəsində olub. Sərvəti də İran xəzinəsinə axıb.

– İran Rusiya ilə müharibəyə başlasa, qorxuram, Naxçıvan yenə tapdaq altında qala, Kalbalı.

– Suyun axarından belə başa düşürəm ki, onların arasında müharibə labüddür – Kalbalı xan susdu, sonra düşüncələrini, qayğılarını Əli xanla bölüşdü – Biz indidən Naxçıvan qalasını

möhkəmlətməli, qala qapılarını həm rusların, həm də farsların üzünə bağlamalıyıq.

– Düz deyirsən, Kalbalı.

– Sabah cümə namazını məsciddə qılarıq. Sonra da camaatla söhbət apararıq.

...Gecədən xeyli keçmiş Kalbalı xanla Ehsan xan qapıdan içəri girəndə Tükəzban xanım irəli yeriyib onun qoluna girdi:

– Bayaqdan gözləyirəm, Kalbalı, yemək-içmək yadından çıxıb.

– Mən sənə dedim ki, gözləmə yıxıl yat.

– Onun xasiyyətini bilmirsən ata? – Ehsan gülümsünüb otağa keçdi.

– Sən narahat olma, Tükəz.

– Mən sənin üçün həmişə narahatam, Kalbalı.

Xan dayandı. Sanki qəlbinin artan döyüntüsünü, könlünün havalanan duyğularını biruzə verməmək üçün öskürdü, udqundu, lakin coşmuş hisslərini cilovlaya, ram edə bilmədi. Qolundan yapışmış Tükəzban xanımın əlini sıxdı, sonra da üzünü yanağına sıxıb alnından öpdü...

* * *

Və Kalbalı xan səhv etmədi. İki qoçun başı bir qazanda qaynamadığına görə 1804-cü il iyunun 10-da birinci Rus-İran müharibəsi başlandı.

## DÖRDÜNCÜ HİSSƏ

## İŞĞAL VƏ YAXUD GENERALIN ÖLÜMÜ

1

...Gecənin yarısına qədər davam edən məşvərət axır ki, qurtardı. Rusiyanın İranla apardığı müharibə Tehranın şah sarayında böyük narahatlıq doğurmuşdu. Çünki cəbhədən ürəkaçan xəbərlər alınmırdı. Məşvərətdə iştirak edən qoşun fərmandehi, qoşun rəisləri təkliflərini verdi. Fətəli şah xeyli düşündü. Vəliəhd Abbas Mirzə ilə təkbətək qalanda şah soruşdu:

– Səncə biz rus ordusuna qalib gələrik, ya məğlub olarıq?

Abbas Mirzə «hə» deməyə də çəkindi, «yox» deməklə də atasının ümidlərini qırmaq istəmədi:

– Ruslar bicdi, şəhriyar. Onlar əvvəl Azərbaycan torpaqlarını işğal etməklə bu torpaqlarda özlərinə dayaq tapdılar. Əgər xanlıqların başçıları birləşib ruslara qarşı çıxsaydı nə torpaqları əldən gedərdi, nə də biz məğlubiyyət qorxusu ilə yaşardıq. Rusların Car-Balakəndə, eləcə də Gəncədə törətdiyi vəhşiliklər xanların gözünü qorxutdu. Onlar könüllü olaraq Rusiyanın himayəsinə keçdilər. Şəki, Şamaxı, Qarabağ xanlıqları da eləcə. Naxçıvanlı Kalbalı xan da elə bilirəm ki, ruslara meyillidir. O, elə əvvəldən bu yolu tutmuşdu. Ruslarla yazışmanın üstündə əmin Ağa Məhəmməd şah Qacar onun gözlərini çıxarmadımı?

Fətəli şah qəzəblə başını buladı:

– Əgər mən olmasaydım Kalbalı xan hələ də Tehran zindanında zillət çəkirdi.

– Üstəlik şəhriyar, sən onu yenidən Naxçıvan xanlığının taxtına əyləşdirdin – Abbas Mirzə sual dolu baxışlarını atasının üzünə dikdi:

– Naxçıvanda o böyük nüfuz sahibidir. Mən onu yenidən taxtda oturtmaqla naxçıvanlıların etimadını qazanmaq istədim. Eyni zamanda düşündüm ki, Kalbalı xanı yenidən hakimiyyətə gətirməklə mənə sədaqətli olacaqdır. Demə o, hələ də Qacar sülaləsinə nifrət edir. Mən onun axırıncı xahişini də yerinə yetirdim. Burda pozuculuq işi aparan keşiş Danili onun xahişi ilə zindandan buraxdım və Kalbalı xana təslim etdim. Demə o, rus qoşunlarının baş komandanı Sisianovun xahişini yerinə yetirirmiş.

– Mənə elə gəlir ki, Kalbalı xan Sisianovun arzusu ilə keşiş Danili azad etməklə Naxçıvanı rus işğalından qorumaq istəmişdir, şəhriyar. Bizim də Rusiya ilə başladığımız müharibə çox güman ki, Naxçıvanın ruslar tərəfindən işğalına əngəl oldu.

– Səfəvilər hakimiyyəti dövründən Naxçıvan daim İranın himayəsi altında olub. İndi də var.

– Ruslar çox qüvvətlənib. Əllərini də Cənubi Qafqazın üstünə qoyublar. Onların bir silahı top-tüfəngdirsə, o biri silahı yalançı vədləri, riyakar dilləridir. Ruslar xanlıqların başçılarını yalan vədlərlə aldadır. Rus generalı knyaz Sisianovun bu sahədə rolu böyükdür – ehtiraslı danışıqdan Abbas Mirzənin gözləri parıldadı. Fətəli şah səssiz baxışlarla oğlunu süzdü. Sanki onun gözlərində öz əksini gördü – hakimiyyət ehtirasını gördü...

– Sisianovun ayağı Naxçıvana dəyə bilməz. – Abbas Mirzənin hədəsi şahın xoşuna gəldi. – Sisianov xanlıqları əlimizdən çıxardı. Vaxt var idi Nadir şah Azərbaycan torpaqlarını ovcunda saxlardı. Qorxudan kimsə onun qılıncının qarşısında səsini çıxarmağa cürət etməzdi. Ağa Məhəmməd şah Qacar qalsaydı indi o, Azərbaycanın bütün xanlıqlarını İranın himayəsi altına almışdı. Fəqət onun ölümü bu arzunu yarımçıq qoydu.

Fətəli şah ah çəkdi. Əlini Abbas Mirzənin çiyninə qoydu:

– Lakin biz varıq. Biz Qacar sülaləsinin davamçıları, İran taxt-tacının varisləriyik.

Abbas Mirzə qəflətən soruşdu:

– Xoy xanı Cəfərqulu xandan xəbərin varmı?

Fətəli şah səbirsiz dedi:

– Xoy xanı yolunumu azıb?

Abbas Mirzə atasının çallaşmış saqqalına, çöhrəsinin qırışları içində itib batmış, lakin cavanlıq ehtirası ilə yanan gözlərinə diqqətlə baxdı, ürəyindən isə bir təəssüf ağrısı keçdi: «Yaşlandın da eyş-işrətdən əl çəkmədin Fətəli şah. Ağa Məhəmməd şah Qacarın vaxtında sən böyük bir sərkərdəydin. Ağa Məhəmməd şahın tökdüklərini, uzun illər müharibədə qazandığı savaş təcrübəsini mənimsəmişdin. İti ağlın, parlaq zəkan vardı Fətəli şah. Lakin sən zəkanı İranın daha da qüvvətlənməsinə, çiçəklənməsinə sərf etmədin. Eyş-işrətlər sənin nə qədər vaxtını oğurladı, düşünməyə, İranın parlaq gələcəyi üçün yollar axtarmağa qoymadı. Halbuki sən sərkərdə hünərinlə Şərqin ən qüdrətli hökmüdarı ola bilərdin. Amma sən hərəmxanaları artırmaq, arvadlarını

çoxaltmaq haqqında düşündün. Sənin sərvətinin çoxu hərəmxanaların saxlanmasına getdi. O hərəmlərdən nə qədər oğlun-qızın var, bilirsənmi? Sayını-hesabını itirmisən. (Fətəli şahın çoxsaylı arvadlarından iki yüz altmış beş övladı vardı. Onların yüzdən çoxu Fətəli şahın sağlığında dünyasını dəyişmişdi).

Şah bu dəfə əsəbi soruşdu:

– Eşidirəm səni Abbas Mirzə.

Abbas Mirzə xəyaldan ayrıldı:

– Xoy xanı Cəfərqulu xan general Sisianovla yazışır. Deyəsən rus generalı ona da şirin vədlər verib.

Abbas Mirzə xəbərin Fətəli şahın gözlərində necə qığılcım yaratdığını, sifətinin qaralıb boğulduğunu gördü. Şah əsəbi qışqırdı:

– Xoy xanının xəyanəti səhihdirmi?

Abbas Mirzə onun qəzəbini soyutmağa çalışdı:

– Səhihdir. Lakin şəhriyar, əsəblərinizi qorumaq gərək.

– İran şahları heç vaxt xəyanəti bağışlamır. Xəyanət fikirli başlar həmişə vurulub. Xoy xanını mənim hüzuruma çağırtdır, Tehrana.

– Şəhriyar, qorxuram ki, Cəfərqulu xan əmrə tabe olmasın. Fikrimizi başa düşüb Tehrana gəlməkdən imtina eləsin. Çünki Xoyda onun möhkəm arxası var. Biz elə nəqşə cızmalıyıq ki, o özü saraya gəlib sənin ayağına düşsün, səndən əfv diləsin, şəhriyar. Çünki ruslarla müharibə apardığımız bir vaxtda Xoy xanı ilə düşmənçilik fayda verməz.

Fətəli şah ilan kimi qıvrıldı. Sanki qisas almaq üçün vaxtı gözləməyə səbri, hövsələsi çatmadı. Bu anlarda Xoy xanı əlinə düşsəydi, onun üçün ölümlərin ən qəddarını, ən amansızını seçərdi. Abbas Mirzə onun qiymətli daş-qaşla işlənmiş tacına, hirsindən xırdalaşmış, lakin od kimi alışıb yanan gözlərinə, ətli yanaqlarına, hökmüdar oturuşuna xeyli baxdı. Şahı təzədən qəzəbləndirməyə qorxurmuş kimi çəkinə-çəkinə dedi:

– Mənim məsləhətim budur ki, Cəfərqulu xanın Xoydan çıxıb bir yerə getməsini gözləyək. Elə ki, çıxdı, onun külfətini əsir edib Tehrana gətirək. Cəfərqulu xanın gözünün ağı-qarası bircə oğlu var.

Şah şübhə ilə soruşdu:

– Səncə oğlunun arxasınca gəlib başını xəncərin altına qoyarmı?

– Hər halda oğlunu canından çox istəyər.
– Yaxşı gözləyərik. Onda oğlu ilə bərabər qardaşını da girov götürərsiz.
Abbas Mirzənin gözləri güldü:
– Bilirdim ki, mənimlə razılaşacaqsan, şəhriyar. Elə indicə çaparlarım xəbər gətirdi ki, Xoy xanı iki yüz atlı ilə cənuba tərəf getdi.
– Deməк Xoy indi başsızdır...
– Bəli, şəhriyar.
Fətəli şah qiymətli üzük taxılmış barmağını silkələdi:
– Amma istəmirəm Xoy camaatı məndən incik düşsün. Onlara toxunmayın.
– Oldu şəhriyar.
Abbas Mirzə ayağa qalxdı. Sağollaşanda Fətəli şah oğlunun alnından öpdü. Ürəyində bir anlıq oyanan atalıq şəfqəti sanki intizarın, nigarançılığın soyuq havasını gətirdi. Hər dəfə Abbas Mirzə uzaq səfərə çıxanda, savaşa gedəndə ürəyini səbəbsiz, bəlkə də səbəbli qüssə bürüyürdü. Şah öz vəliəhdi, şahzadəsi üçün narahatlıq keçirirdi. Bu vida anında şah yenə qəlbinin dərinliklərində o qərib, nagahan hissi duydu, öz qəlbini sakitləşdirmək üçün üzünü tanrıya tutdu, dua oxudu və oğlunun arxasınca baxaraq bu duaları sanki bir içim su kimi onun arxasınca atdı...

* * *

Günün günorta çağı Xoy şəhərini elə bil qəflətən qapqara duman aldı. At nallarından qopan səslərdən, kişnərtidən yollarda qalxan toz-dumandan xoylular dəhşətə gəldilər. O anda darvazalar qıfıllandı, qapılar örtüldü. Gizlənməyə macal tapmayanlar at ayaqlarının altında qaldılar. Dəhşətli bağırtı, qışqırtı səsləri tük ürpətdi. Sərbazlar hara gəldi baş vurur, qəraət edir, ipə-sapa yatmayanları yerindəcə susdururdular.
Süvarilər Cəfərqulu xanın sarayının qarşısında dayandılar. Cəfərqulu xanın arvadı oğlunu da götürüb Xoydan çıxmağa çalışdı. Amma yubandı. Sərbazlar onun qollarını bağlayaraq atın üstünə atdılar. Sonra Cəfərqulu xanın oğlu ilə bərabər döyülmüş, qanına qəltan olmuş qardaşını da sürüyə-sürüyə gətirdilər.
Axşama yaxın Xoya sakitlik çökdü. Talan qurtardı. Yenə yollarda toz-duman qalxdı. Sərbazlar girovları götürüb Tehrana

doğru atlarını çapdılar. Arxada dağılmış evlər, talan könüllər və yaşlı gözlər qaldı...

2

...Qalada sakitlik idi. Hərdən at fınxırtısı, it hürüşməsi ay işığına bələnmiş sükutu pozur, sonra yenidən qalanı səssizlik bürüyürdü.

Təkcə gözətçilər oyaq idi. Murad da gecə növbəsində idi. Silahı çiyninə aşırıb asta, səssiz addımlarla ətrafı dolanıb arxayınlaşdı. Növbədə olan sərbazlar xısın-xısın danışıb gülüşürdülər. Murad onlara məhəl qoymadan bir tərəfə çəkilib yerə salınmış nimdaş palazın üstündə uzandı. Əllərini başının altında daraqlayıb sanki könlünün qapılarını qalanın soyuq aylı gecəsi ilə uyuşmayan sevda, şəfqət, hüzn, həsrət qoxulu aləmə açdı. Bu aləmin ətrini alan kimi ürəyinə xoş, şirin bir duyğu axdı. Gözləri göy qübbəsində xəyalı yüyrək at kimi sanki onu qaladan götürüb getdi. Qaranlıq dar küçələrdən, ensiz döngələrdən keçirdi. Elə bu anda da gözlərinin aynasına Mahnurun əksi düşdü. Səssiz pıçıltı meh kimi duyğularını coşdurdu:

«– Qalada sənsiz qala bilmirəm, Mahnur.

– Sənsiz mənim də qərarım gəlmir Murad. Hərdən ağlımdan keçir ki, atı minib qalaya çapım, səni görüb geri qayıdım.

– Hər halda ağlından keçir, ürəyindən yox.

– Ürəyimin hökmüdarı ağlımdır.

– Onda ürəyinin hökmünə qulaq as.

– Ürəyimin?

– Hə.

– Niyə susdun?

– Fikirləşirəm.

– Nəyi?

– Hələ başımıza nə gələcək, bilmirəm.

– Lakin biz sevdamızın əsiriyik, Mahnur.

– Əsir sözünü dilinə gətirmə. Mən ki, sənə demişdim. Əsir getdiyim o günü və sərbazların əlindən qaçdığım o müdhiş gecəni unuda bilmirəm. Yuxularımda elə hey qaçıram. Amma yenə də o şeytana oxşarlardan yaxamı qurtara bilmirəm. Onlar məni daim təqib etməkdədir.

– Nə qədər ki, sağam, kimsə sənə yaxın düşə bilməz, Mahnur.

– Yoxsa məni qorxaq bildin?

– Yooox. Sözümdən incidin?
– Əksinə ürəyimin telləri pərvazlandı. Kiminsə sənin haqqında düşünməyi, həyəcanlanmağı, hətta qorxu keçirməyi gözəl bir hissdir.
– Mənim üçün də xoşdur ki, daim yolumu gözləyirsən... Dünən Kalbalı xanla xeyli söhbət elədik. Hər gün qalaya baş çəkir. Müdafiə mövqelərini yoxlayır. Mahnur, hərdən mənə elə gəlir ki, Kalbalı xan görür.
– Doğrudan?
– Əllərini bir şeyə toxundurmaqla elə söz deyir ki, onu ancaq gözlü adam deyə bilər.
– Qala üçün darıxmışam. Düşmənlə savaş üçün ovuclarımın içi göynəyir.
– Kalbalı xan səni də soruşdu. Dedi ki, Mahnur qorxubilməz igiddir. İftixar eləyirəm ki, belə mərd, cəngavər qızlarımız var. Ona görə də Naxçıvan heç vaxt düşmənə basılmaz.
– Kalbalı xan mənim at çapıb, qılınc oynatmağımı, tüfəngdən atəş açmağımı görüb ona görə.
– Axşam üstü bulaq başında görüşəkmi Mahnur?
– Axşam üstü bulaq başı tünlük olur. İstəyirsən məni diləağıza salasan? Evimizə gəl. Atamgil şad olar.
– Utanıram sizə gəlməyə.
– Təzə xəbər. Niyə?
– Deyərlər umacağı var.
– Əvvəl-axır biləcəklər.
– Mahnur...yəni doğrudan... sən məni...
– Sevdamızı dillərə saldın. Yenə şübhədəsən?
– Mahnur...»
Xəyalında sanki öz səsinin kəpənək qanadı kimi səssiz harayı qaldı. Həsrəti elə qüvvətləndi, ürəyinin içini elə od-alovla doldurdu ki, sanki göz bəbəyi də göz yaşından tor bağladı. Səssiz gecə... ulduzlu səma... qaranlıq, uzaq dağlar... Elə bil bir anlıq aralarında min illik sədd yarandı. Murad ah çəkib göy səltənətinə baxdı. Göydə ulduz çox idi. Sanki gecənin qara köynəyini çırtıb ulduzların hamısı üzə çıxmışdı.
Bu anda Murad xışıltı səsi eşidib başını səs gələn səmtə çevirdi, diqqətlə qulaq kəsildi. Yatmış sərbazların arasından bir qaraltı səs salmamağa çalışaraq qala divarlarına tərəf sürünürdü.

Sonra dizləri üstə qalxıb aşağıya tərəf üz tutdu. Murad yanında yatmış Qəribcanı dümsüklədi:

– Qəribcan, oyan, qalx, Qəribcan.

Qəribcan diksinib qalxdı, yumruğu ilə gözlərini ovuşdurub təşvişlə soruşdu:

– Uruslar hücuma keçdilər?

– Yox ey.

– Farslardır gələn?

– Əstəğfurullah. A bala ayıl gör nə deyirəm? İndicə sərbazlardan biri qala divarlarından aşağı getdi.

Qəribcan hirslə əlini yellədi:

– Əşi getdi, getdi də. Qanbağır elədin ki, məni.

– Belə iş ondadı ki, adam kimi getmədi, tülkü kimi gizlicə sivişib getdi, qandın indi?

– Yəni deyirsən aramızda düşmən olar? – Qəribcanın şübhə dolu baxışları qaranlığın içindən fəhmlə qala divarlarından aşağı zilləndi.

– Yaxşı özümüzünküdürsə niyə gizlənir?

– İndiki şübhən var, getdik. – Qəribcan dik ayağa qalxdı – Kalbalı xan da tapşırıb ki, ayıq-sayıq olun, düşmən içimizə adam göndərər.

İkisi də qaranəfəs özlərini qala divarlarından aşağıya – şəhərə tərəf gedən qaraltıya çatdırdılar. Qaraltı qaladan xeyli uzaqlaşıb dayandı. Arxayınlıqla bir neçə addım atdı. Qara buludların altından çıxan ay başlarının üstdə dayandı. Qaraltı ay işığından qorxaraq aşağı əyilib kolluqların arasında gizləndi. Murad pıçıltı ilə dedi:

– Görürsənmi bunun fikri şəhərə yenməkdir.

– Görünür.

– Qəribcan içimizdə yad adam olduğunu niyə görmədik?

– Bəlkə də tanıyırıq.

– Bu gizlənməkdə mənim ağlıma ayrı şeylər gəlir. Bu ya rusların adamıdır, ya da farsların.

– Yaxınlaşıb tutsaq, bilərik.

– Özümüz sorğu-suala çəkməyək, Qəribcan. Bir başa aparaq Kalbalı xanın yanına. O, bir kəlməsindən hansı yuvanın quşu olduğunu anlayacaq.

– Birdən bizimkilərdən oldu, Murad, onda necə?

– Ağlım kəsmir, Qəribcan.

Qaraltı hənirti duyub dayandı. Ətrafa baxdı, sonra təhlükəni duyub kol-kosa ilişə-ilişə üzüaşağı götürüldü. Murad onun arxasınca qaça-qaça Qəribcana qışqırdı:

– Gördün ki, namərddi.

İmamzadə türbəsinin yanında qaraltını haqladılar. Həyəcan, qorxu onun dizlərini qırmışdı. Yerə oturub boğula-boğula nəfəs alırdı. Murad onun başının üstünü aldı:

– Əyə sən kimsən?

Bu – üzünü saqqal basmış cavan adam idi. Zəif, qorxaq səslə dedi.

– Mən də müsəlmanam, məzhəb haqqı.

Qəribcanı gülmək tutdu:

– Ə müsəlmanlar məzhəb haqqı demir. Ermənisən?

– Tutaq ki...

– Tutaq ki, yoxsa nağdı ermənisən? Adın nədi?

– Arşak – qəflətən yerindən qalxıb Qəribcanın dizlərini qucaqladı:– sizi and verirəm Allaha, məni öldürməyin, uşaqlarım var.

Qəribcan hirslə ayaqlarını çəkdi:

– Bunun ki, oldu qarğa məndə qoz var. Görək qoz nətəhərdi?

– Urus qozu – Muradı gülmək tutdu.

Qəribcan erməni Arşakın qolundan tutub ayağa qaldırdı:

– Ay kişi bilmək istəyirik ki, sən kimsən, hansı dinə, məzhəbə qulluq eləyirsən? Qalada neynirdin?

– Desəm məni buraxarsız?

– Baxır sənin günahına – Murad Arşakla üz-üzə dayanıb baxışlarını onun gözünün içinə zillədi.

– Məsələ belədi – Arşak dili-dodağı təpimiş qorxaq baxışlarını gah Muradın, gah da Qəribcanın üzünə zillədi – keşiş Danil ki, Naxçıvana gəlmişdi ha, biz ondan məsləhət və tapşırıq aldıq.

– Keşişdən haa...

– Danil bizə tapşırıq verdi ki, biz müsəlmanların etimadını qazanaq, qalaya yol tapaq, Kalbalı xanın qoşunu, silahları barədə, qalanın müdafiə mövqeləri barədə məlumatlar toplayaq. Qalada bir neçə erməni də var.

Qəribcanla Murad baxışdılar. Murad nifrətlə Arşakı başdan-ayağa süzdü:

– Naxçıvanda doğulmusan Arşak?

– Hə.

– Naxçıvanın çörəyini yemisən də.

– Hə.
– Müsəlmanların dilinə qədər öyrənmisən.
– Hə də.
– Çörəyimiz tutsun səni.
– ...
– O birilərə hansı tapşırığı verib keşiş Danil?
– Biz qala divarlarının altına kağız yazıb qoymalıydıq. Guya vaxtı ilə bu qalanı ermənilər tikib. Danil deyirdi ki, vaxt gələr bu məlumatlar millətimizə lazım olar.
– Bizi bağışla Arşak, biz səni buraxa bilmədik – Murad silahını çiyninə saldı.
Arşak ayaqlarını sürüdü.
Qəribcan onu kürəyindən itələdi:
– Yeyin get. Biz səni başına buraxa bilmərik. Səni azad eləmək Kalbalı xanın işidir.

* * *

...Salavat boyaqxanadan çıxıb pərişan halda qapıda oturdu. İri tiyanda qaynayan boyaq suyunun buxarı qalxdıqca içərinin nəmi və istisi bayıra vururdu. Təzəcə boyanmış rəngli saplar qurumaq üçün qapıdan asılırdı. Salavat sapları rəngləmək üçün otlardan, çiçəklərdən toplayıb gətirirdi. Ən çox işlətdiyi boymadərən idi. Buna görə də sapların rəngləri uzaq ölkələrdən gələn tacirlərin xoşuna gələrdi. Tay-tay yığıb aparardılar. Lakin indi sakitlik idi. Tacirlərin ayağı Naxçıvandan kəsilmişdi. Rus-İran müharibəsinin başlanması ticarəti xeyli zəiflətmişdi. Dördkünc bazarda dükanlar ertədən bağlanırdı.
Ələmşah boyaqxananın qapısında oturmuş Salavatı bikef, dərd-qəm içində görüb ayaq saxladı:
– Neçə gəmin dəryalarda qərq olub, Salavat?
Salavatın dodaqları qaçdı:
– Gəmilərdən qalan var ki?
Ələmşah tək gözünü qıyıb qınaqlı baxışlarla onu süzdü:
– Nə olub ə, sənə Salavat elə bil Rus padşahı səndən yeddi ilin bac-xəracını istəyib?
– Elə onun kimi bir şeydi.
– Yenə olsun.
– Eh, sənə nə var Ələmşah, qazanc gətirənin evdə. Üçdə alacağın yox, beşdə verəcəyin.

– Düz demirsən Salavat. Verəcəyim boğazacandır. Sən ildə dörd manat 80 qəpik vergi verirsən. Həmin vergini mən də ödəyirəm. Canım sənə desin – Ələmşah ikinci barmağını bükəndə Salavat hövsələsiz dedi.

– Əşi o tərəfdən nə xəbər var? Uruslar üstün gəlir, yoxsa farslar?

– Onu bilmirəm, Salavat. Çünki hərə bir söz deyir. Əsası odu ki, un bahalaşır. Gərək əlimizdə olan pulu una verib unluğu dolduraq ki, sabah aclığın qorxusunu çəkməyək.

Salavat çiyinlərini çəkdi:

– Urus gəlsə dolu unluqlarımızı əlimizdən alacaq. Onlara çörək tədarükündə olaq, Ələmşah?

– Bəs deyirlər uruslar insaflıdı?

– İnsaflıdılar ki, Gəncəni kor qoydular?

– Deyirlər Kalbalı xan yaranalla dostdu? – Ələmşah gözünü Salavatın ağzına dikdi. Sanki ondan ürəyini sakit edəcək ümidli bir söz eşitmək istədi. Salavat gülüb başını buladı:

– Yaranal nədi ə, yekə kişisən. General.

– Əşi olsun general. Urus generalı.

– Nə bilim vallah, Ələmşah, onu bilmirəm – Salavat boynunun ardını qaşıdı, Ələmşahın onu məlumatlı bilməsi keyfini açdı – bəlkəm də xanla dostdu? Çünki Kalbalı xan onun xahişi ilə keşiş Danili Tehran zindanından azad elətdirmişdi. Özü də keşişdən ötəri Fətəli şahın yanına getmişdi.

– Mənim aləmimdə urus Naxçıvandan əl götürməz.

– Olan bizə oldu Ələmşah – Salavatın ürəyinin dərinliklərindən bir ah nidası qopdu – Misirdən tacir gəlməliydi. Mənin ən pullu, yaxşı müştərilərimdən biriydi. Sapları boyadıb hazır saxlamışdım.

– Hacı Əbülqasımın karvansarası eyzən boşdu. Hacı Əbülqasımın gəmiləri də orda batıb.

Salavat sapların nəmliyini yoxlayıb yenidən ah çəkdi və dodaqaltı zümzümə elədi:

– İrandan, Turandan gələn gəmilər... hey gəmilər...

Ələmşah gülümsündü:

– Salavat, yaxşı qal salamat, mən getdim.

* * *

...Cəfərqulu xan qaçıb gizləndiyindən Fətəli şahın qəzəbi soyumaq bilmirdi. Abbas Mirzənin adamları Cəfərqulu xanı hər

yerdə axtarırdılar. Sanki yağlı əppək olub göyə çəkilmişdi, Şah acığını girovlardan çıxmaq, oğlunun, qardaşının qətlinə fərman vermək istədi. Abbas Mirzə şahı fikrindən döndərdi:

– Şəhriyar, onları qətlə yetirsən özümüzə düşmən qazanmış olarıq. Bizim işimiz onu tapmaq, onu qətlə yetirməkdir. Girovlar öldürülsə Cəfərqulu xan da azadlıqda qalsa başımıza bəla açmış olarıq. Deyilənlərə görə o, igid adamdır.

Şah fikrə getdi, sonra da ağır-ağır dedi:

– Sözündə həqiqət var. Amma iş ondadır ki, Cəfərqulu xan tapılmır.

Bu anda Abbas Mirzəni çağırdılar. Az keçmədi ki, gülərüzlə qayıtdı. Atasına çoxdan gözlədiyi müjdə xəbərini verdi:

– Gördünmü şəhriyar, axır ki, Cəfərqulu xanın gizləndiyi yeri tapdılar.

Şah səbirsiz soruşdu:

– Harda gizlənirmiş bu əbləh?

– İrəvan qalasında. Məhəmməd xan ona sığınacaq verib.

Fətəli şahın sifəti qızardı, gözlərinin içindən sanki alov püskürdü:

– Demək Məhəmməd xan onu gizlədirmiş... Məhəmməd xan bilə-bilə ki, bu nankor İran taxt-tacının əleyhinə çıxıb.

Abbas Mirzə şahın qəzəbinə rəvac verdi:

– Çünki Məhəmməd xan da Cəfərqulu xanla eyni əqidə sahibidir. İkisi də ruslara meyillidir.

– Məhəmməd xana inanmıram. Çünki Məhəmməd xan Sisianovun ordusunu İrəvana yaxın buraxmadı. Kalbalı xan Sisianovun xahişi ilə keşiş Danili Tehran zindanından azad elətdirdi, lakin Məhəmməd xan keşiş Danili də İrəvana qoymadı. Bilə-bilə ki, keşiş Danili oraya Sisianov göndərir.

– Mənə çatan məlumata görə Kalbalı xan Cəfərqulu xana bu xüsusda məktub yazıb. Deyib ki, ruslardan uzaqlaşsa İran şahından onun bağışlanmasını xahiş edər, girovları da azadlığa buraxdırar.

– Demək Kalbalı xan onu düz yola çəkib?

– Bəli, şəhriyar.

– Yəqin ki, Cəfərqulu xan da səhvini anlamış olar.

– Cəfərqulu xan razılaşmayıb.

– Yəni ruslardan əl çəkmək niyyəti yoxdur?

– Belə görünür, şəhriyar.

Fətəli şah var-gəl edib düşündü, Abbas Mirzənin qarşısında dayanaraq hökm qarışıq qəzəblə dedi:

– Qoşunu hazırlayın. İrəvana gedirik. Cəfərqulu xana sığınacaq verən Məhəmməd xan cəzalanmalıdır.

– Baş üstə, şəhriyar.

Abbas Mirzə getdi.

İki gündən sonra şahın on beş minlik qoşunu İrəvana hərəkət etdi.

...Uzaqlarda toz-dumana qarışdı. Sanki gömgöy səmanın bir tərəfini boz duman tutdu. Sonra at ayaqlarının səsi ətrafı bürüdü. Sürü otaran qoca əlini gözlərinin üstə qoyub duman qalxan, at nallarının səsi gələn səmtə baxdı. Bir anda bənizi ağardı, gözləri böyüdü, dili-dodağı qurudu. Qoca sürünü başına qoyub qaçmaq istədi. Amma süvarilər sanki düzü-dünyanı tutmuşdu. Lakin onlar qocaya sarı yox, qərbə tərəf çapırdı. Qoca dərindən köks ötürüb, rahat nəfəs aldı. Sonra salavat çevirib toz-dumanın arxasınca baxdı: «Şükür ilahi, bəla bizdən sovuşdu» dedi.

* * *

Atlar qərbə-İrəvan xanlığına çapırdı.

Fətəli şahın on beş minlik qoşunla İrəvana yetişmək xəbəri xan sarayında çaşqınlıq, əndişə yaratdı. Məhəmməd xan qoşunu İrəvan qalasının müdafiəsinə göndərdi.

Cəfərqulu xan qaladan yenicə qayıtmışdı. Dincəlməyə macal tapmadı. Qılıncını, tüfəngini götürüb ayağa qalxdı. Ailəsinin girov aparıldığını eşidən gündən çəkdiyi əzab arıqlamış sifətində, çuxura düşmüş gözlərində, dalğın, pərişan baxışlarında əks olunurdu. Məhəmməd xanı günahkar, xəcalətli baxışlarla süzdü:

– Mən gərək burdan gedəydim. Sizi İran şahı ilə üz-üzə qoymayaydım. Vaxtında Kalbalı xanın da sözünə qulaq asaydım gərək. O, mənə məktub yazaraq bildirmişdi ki, əgər ruslarla əlaqəni kəssəm Fətəli şahın yanına gedər, ailəmi və qardaşımı girovluqdan azad etdirər. Üstəlik şah məni yenidən Xoy xanlığına başçı göndərər.

Məhəmməd xanın yaraşıqlı simasında istehzalı bir təbəssüm gülüşdən çox ağrıya oxşadı:

– Şahlar onların taxt-tacına qarşı çıxan adamları heç vaxt bağışlamır.

– Lakin şah Kalbalı xanın sözünü eşidir.

– Kalbalı xan mərd adamdır. Mərdlər isə namərdlərə tez aldanır.

– Əslində mənim də şaha etibarım yoxdur. Əgər gedib ondan əfv diləsəydim, o mənə rəhm etməzdi. Üçümüzün də başımızın kəsilməyinə fərman verərdi. Geriyə yol yoxdur – Cəfərqulu xanın gözlərində ağrılı, dalğın bir ifadə göründü – İrəlidə bizi məlum olmayan məchul gələcək gözləyir.

Və Cəfərqulu xan başının atlıları ilə sərbazlarla döyüşmək üçün yenidən qalaya qayıtdı.

* * *

İrəvan qalasının müdafiəsi uzun sürmədi. Məhəmməd xanın qoşunu Fətəli şahın ordusuna üstün gələ bilmədi. İran sərbazları qala divarlarından aşaraq içəri girdilər. Döyüş bu dəfə qalanın kənarında yox, içində getdi.

İranlılar qalanı ələ keçirən kimi Cəfərqulu xanı axtarmağa başladılar. Lakin onun nə ölüsü, nə də dirisi tapılmadı. Cəfərqulu xan qeyb olmuşdu.

Şəhərdə talanlar başladı. Sərbazlar Məhəmməd xana gizlənməyə aman vermədilər. Onun əl-qolunu bağlayıb atın üstünə aşırdılar. Zəfər qazanmış ordu Cəfərqulu xanı tapmasa da qiymətli əsiri ilə Tehrana üz tutdu.

...Cəfərqulu xanın yenidən qaçdığını eşidən Fətəli şahın içindəki qəzəb vulkan kimi od püskürdü. Şah Məhəmməd xanı Tehran zindanına göndərdi.

İrəvan xanlığı başsız qaldı...

Fətəli şah çox düşündü. Ağlına gəlmiş fikirdən zehninin dumanı ayazıdı. İrəvan xanlığının idarəsini müvəqqəti olaraq Kalbalı xana tapşırdı. Fətəli şah bununla da iki incə siyasi məqsəd güdürdü: Kalbalı xana etimad onun İran şahı ilə yaxınlığının sübutu idi və onu rusların gözündən salırdı.

İkinci – Kalbalı xanın hörmət və etimadını qazanırdı. Hər iki halda Naxçıvan xanlığı İrandan asılı vəziyyətə düşürdü.

Fətəli şahın təklifini qəbul edən Kalbalı xan isə nə düşündü, bunu kimsə bilmədi...

### 3

Knyaz Sisianov iqamətgahında keşiş Danili gülərüzlə qarşıladı. Keşiş onun yumşaq əllərindən öpüb alnına, gözünün üstünə qoydu:

– Sizi görmək üçün çox tələsirdim, knyaz. Allah çarın müqəddəs kölgəsini biz erməni millətinin üstündən götürməsin. Müqəddəs İncildə yazılıb ki, ermənilər məhz çarın köməyi ilə ağ günə qovuşacaqlar. Sizi Allah bizə göndərib, knyaz. Daim sizin qulluğunuzda dayanmaq, sizə xidmət etmək bizim üçün böyük şərəfdir.

Keşişin qıyılmış gözlərindən sanki yüz şeytan boylanırdı. Bu şeytanlar onun içini hiylə və məkrlə doldururdu. Bu şeytanlar generalı da sanki tilsimə salırdı, ovsunlayırdı.

Knyazın sarışın sifəti, göy gözləri təbəssümlə doldu. O, içəri otağa səsləndi:

– Nayruxi... dayın gəlib.

Nazik zərli xalatda Nayruxi özünü keşişə yetirdi, ağappaq qollarını qaldırıb keşişin boynunu qucaqladı:

– Dayı... axır ki, gəlib çıxdın. Darıxmışdıq sənin üçün, dayı.

Knyaz xəfifcə qımışdı:

– İlk dəfədir ki, dayını bu qədər sevən bacıqızı görürəm.

Keşişin baxışları Nayruxinin gözlərinə sancıldı. Sanki iki şeytan baxış görüşdü, anlaşdı və gizlicə qımışdı.

Knyaz keşişə yer göstərdi. Özü isə dəsmalı çiyninə atıb yuyunmağa getdi. Keşiş Nayruxinin əlindən tutub pıçıltı ilə soruşdu:

– Knyazın ürəyinə yol tapdınmı?

Nayruxi şaqqanaq çəkdi:

– Mən onun ürəyinə yox, düşünən beyninə yol tapdım, müqəddəs ata.

Keşiş qorxu ilə içini çəkib əlini dodağının üstə qoydu, gözü ilə otağa işarə etdi. Qızın sərxoş gözləri süzüldü:

– Biz erməni millətinə xidmət edirik müqəddəs ata. Sənin tapşırığın bizim üçün qanundur. Çünki sən yerdə Allahın iradəsini yerinə yetirirsən.

Keşiş onu qucaqladı, alnından öpdü.

– Otur dayı.

– Çox sağ ol, bacıqızı.

Nayruxi badələri gürcü şərabı ilə doldurdu. Birini keşişin qarşısına qoyub bir gözü qapıda pıçıltı ilə dedi:

– Knyaz İrəvana qoşun yeritmək fikrindədir.
– İrəvana? Düzmü deyirsən?
– Knyaz gələcək planlarını mənə elə həvəslə danışır ki, sanki mənə sevgi məktubları oxuyur.
– Afərin bacıqızı. Knyaz daha nə etmək fikrindədir?
– İrəvanı işğal etdikdən sonra istəyir ki, Eçmiədzində bir polk əsgər qoyub oradan da Gürcüstana adlasın.
Keşiş fikirli halda əlini sinəsinə düşən uzun saqqalına çəkib tumarladı. Dinib-danışmayaraq içindəki şeytanla baş-başa qaldı, sonra da şərabı aramla içən Nayruxiyə üz tutdu:
– Onda mən də generalla İrəvana gedim. Eçmiədzin kilsəsinə baş çəkim. Məhəmməd xanın əsir alınaraq Tehrana aparılmasından çox sevindim. Eşitdiyimə görə o, indi zindandadır. Mən onu Allahımıza tapşırmışdım. O, məni İrəvana buraxmadı. Allahımız da keşiş Danilin qəlbinə dəydiyinə görə onu cəzalandırdı. Bəs general Naxçıvan barədə nə fikirdədir? – Keşiş ah çəkdi – Naxçıvanda ermənilərin az olması məni narahat elədi. Mən Naxçıvanda olarkən onları bir yerə yığıb tənbeh elədim. Nə üçün bu gözəl məkanda ermənilərin sayı artmasın? Gürcüstanda yaşayan erməni tacirləri tez-tez Naxçıvanda olur, uzaq ölkələrə satlıq mal alıb aparırlar. Naxçıvanın özündə kök salmaq, yurd salmaq lazımdır, vacibdir. Bu yerlər sonradan bizim də ola bilər.
Nayruxi knyazın ayaq səsini eşidib susmaq işarəsi verdi. Lakin keşiş oyanmış hisslərini cilovlaya bilmədi:
– Bir də Kalbalı xanı rusların gözündən salmaq lazımdır.
– Kalbalı xanı? – Nayruxinin gözlərindəki şeytan sanki çəkilib getdi, saf bir heyrət göründü – o ki, sizi şah zindanından qurtarmışdı, müqəddəs ata.
– Həyatın bir ucu yaşamdırsa, o biri ucu ölümdür. Ağlı olsaydı, o məni zindandan qurtarmazdı. Qurtarıbsa bu onun səhvidi...
Knyaz üzünü dəsmalla silə-silə içəri girdi. Şərab içməkdən şişib qızarmış gözləri Nayruxi ilə keşişi süzdü:
– Keşiş Danil, de görək nə var, nə yox?
– Sizə yaxşı xəbərlərim var, knyaz.
– Eşidirəm.
– İrəvana hücum edən Fətəli şah...
– Məhəmməd xanı əsir edərək Tehrana aparıb,– knyaz onun verəcəyi xəbəri tamamladı.

– Elədi. Halbuki Məhəmməd xan sizə qarşı çıxmışdı – keşiş düşünüb xaç çevirdi, üzünü göyə tutdu. Gözləri yaltaq təbəssümdən işıqlandı – Allah bizim ömrümüzdən kəsib rus padşahının ömrünə bağışlasın. Çünki o tanrı qədər böyük və qüdrətlidir. Sizin ordunuz Qafqazda sülh və əmin-amanlıq yaratdı. Fağır erməni milləti çarın mərhəməti sayəsində tatarların (azərbaycanlıların) zülm və işgəncəsindən azad oldu. Qoy çarın könlümüzdə yandırdığı işıq əbədi və sönməz olsun.

Knyaz müqəddəs atanın gözləri yumulu xaç çevirə-çevirə dediyi sözlərdən, təmtəraqlı nitqlərindən sanki yorularaq bezdi, usanmış halda əlini etinasız yellədi:

– Mədhiyyələr lazım deyil.

Keşiş təkrar xaç çəkdi:

– Baba xan (ruslar Xanbabanı Baba xan adlandırırdılar) İrəvan xanlığının idarəsini Kalbalı xana tapşırıb. Belə başa düşmək olar ki, Kalbalı xan Baba xanın sağ əlidir. Deyəsən şah Kalbalı xanın köməyi ilə Azərbaycan torpaqlarını yenidən İrana qaytarmaq niyyətindədir.

– Bu səhv fikirdir. Azərbaycan xanlıqlarının başçıları Baba xanı istəmirlər.

Knyaz bir neçə gün əvvəl rus komandanlığının qərargahına göndərdiyi məktubda da bu barədə yazaraq bildirmişdi: «...*Təbriz xanı Əhməd xan və bundan əlavə Azərbaycanın və İranın daha on xanı Babaxandan üz çevirmişlər. Yaranmış vəziyyət şahı xeyli narahat etmişdir. Əgər şah Azərbaycana gəlsə Azərbaycan xanları sözləşiblər ki, müqavimət göstərib onu məğlub etsinlər və İran qoşunlarına Aflantu (Qaflankuh) dağı istiqamətindəki hərəkatının qarşısını alsınlar*».

Knyaz əlini keşişin çiyninə qoyub onu bir az da aşağı basdı. Sarışın sifətində, göy gözlərində özündən müştəbeh, ağayana bir gülüşlə güldü:

– Müqəddəs ata, Azərbaycan torpaqları artıq Rusiyanın himayəsinə keçməkdədir. Biz ermənilər barədə düşünəcəyik. O ki, qaldı Kalbalı xana, şahla yaxınlıq etdiyinə görə o, cəzasına çatacaqdır. Mən onu diz çökdürəcəyəm. Mən general Sisianov...

Keşiş Danil ürəkləndi:

– Mən sizə borcluyam, general... Siz məni şahın zindanından azad etdirdiz. Mən bu yaxşılığı unutmaram. Mən Kalbalı xanı

gördüm. Onu yaxından tanıdım. Buna görə də onun haqqında bir həqiqəti sizə çatdırım: o, özünü bicliyə vurub.

– Necə bicliyə?

– Kalbalı xanın gözləri görür. O kor deyil.

– Hardan bilirsən? Öz gözünlə gördün?

– Gözlərim şahiddir.

– Deməmk Ağa Məhəmməd şah Qacar onun gözlərini çıxartdırmayıb.

– Elə bilirəm ki, Kalbalı xanla Ağa Məhəmməd şah arasında anlaşma olub. Çünki şahın qardaşı oğlu Fətəli şah taxt-taca yiyələnən kimi Kalbalı xanı zindandan çıxardı və Naxçıvan xanlığının taxtına oturtdu. Halbuki həmin vaxt xanlığı Abbasqulu xan kimi ağıllı bir adam idarə edirdi...

Nayruxi söhbətin uzandığını görüb çəkilib getdi. Generalla təklikdə qalan keşiş Danil topladığı məlumatları knyaza çatdırdı.

Sisanov hələlik Naxçıvanın işğalı barədə qərar çıxarmağa tələsmədi. Kalbalı xana dərin nifrət bəsləsə də gözləməyi üstün tutdu. Çünki, Rusiya İranla müharibə aparırdı. Naxçıvanın işğalı üçün qüvvələrin parçalanması xeyirdən çox ziyan gətirərdi.

4

Keşiş Danil Abbasqulu xanı Sisianovun yadına saldı.

Abbasqulu xanla generalın sıx əlaqələri vardı. Kalbalı xan Naxçıvan taxtına yiyələndikdən sonra Abbasqulu xan üzünü ruslara çevirdi. Elə güman etdi ki, general Sisianovun qüdrətli əlləri onu yenidən Naxçıvan taxtına qaytaracaqdır...

...Abbasqulu xanın ürəyində Kalbalı xana nifrət korun-korun yanan ocaq kimiydi. Bu ocağın alov qarışıq tüstüsü onun gözlərinin içini yandırır, ürəyinin başına köz salır, hökmüran olmaq ehtirasını coşdururdu. Bu ehtiras qarşısıalınmaz qüvvə kimi daim onun duyğularını əsir edir, ağlını çaşdırır, ürəyini paxıllıq, həsəd hissi ilə doldururdu. Paxıllıq... zaman-zaman ac qurd kimi içində baş qaldırır, ən işıqlı duyğularının üstünə qara, soyuq kölgə salır, qəlbinin içini sökürdü. İçində yaşayan bu paxıllıq qurdu Abbasqulu xanın bütün sağlam duyğularını məhv edərək başqalarına da ziyan yetirirdi, fəlakət gətirirdi. Paxıllıq, həsəd, acgözlük mərdliyi, böyüklüyü, qeyrəti əlindən alırdı, onu sürükləyib özgə qapılarına aparırdı, əydikcə əyirdi, sındırırdı, alçaldırdı.

Naxçıvan xanı olmaq iştahası gözlərinə elə pərdə çəkmişdi ki, Abbasqulu xan üzünə gülən təbəssümlərin saxtalığını hiss etmirdi, yalançı vədlərin arxasındakı hiyləgər, məkirli, ikiüzlü siyasətlərin iç üzünü görmürdü. Hökmüranlıq ehtirası gözlərini bağlamışdı, ağlını, zəkasını, düşüncəsini iflic kimi vurmuşdu. Və Abbasqulu xan üzü həlim, içi burulğan olan gizli siyasətlərin üstündən gözüyumulu keçərək xain əllərdən tutub xanlıq taxtına əyləşirdi. Lakin bu xain əllər onu axıradək bu taxtda hökmüran saxlaya bilmirdi... Abbasqulu xan yıxılırdı və sürünə-sürünə yenidən xanlıq taxtına can atırdı... Yıxılırdı... yenə qalxırdı...

* * *

Abbasqulu xanın köhnə xatirələrinin içində Mahnurun öz yeri vardı. Mahnurla bağlı xatirə bəlkə də yeganə əl toxunmayan, nəfəs dəyməyən tərtəmiz bir işıq idi ki, bu işıq daim Abbasqulu xanın ürəyini hüzn, qəm qarışıq bir həsrətlə doldururdu. Mahnuru xatırlamağı ilə də sanki Abbasqulu xan boğazacan batdığı çamurdan silkinib çıxırdı, dünyaya təzə gəlmiş körpə kimi günahlardan uzaq olurdu. Lakin Mahnur xəyallarında da ona yaxın getmirdi və o qədər uzaq, əlçatmaz olurdu ki, Abbasqulu xanın həsrət çəkməkdən savayı əlindən heç nə gəlmirdi.

...Mahnuru ilk dəfə Kalbalı xanın sarayında görmüşdü. O vaxt qız vəhşi ceyran tək ürkək idi. Əl-ayağı qançır olmuşdu. Ala gözlərində tez-tez yağış yağdıran qara buludlar hökmüran idi.

Abbasqulu xan sarayda gəzən pıçıltıdan istədiklərini öyrəndi. Demə bu qızı İran sərbazları şaha töhfə kimi aparırmış. Amma qızla bərabər əsir gedən bir dəliqanlı nağıllarda olduğu kimi qollarındakı kəndiri qırıb qızı bir cəngavər hünəri ilə sərbazlardan alaraq dağlara qaçırmışdı. Sonra hər ikisi güclü, qüdrətli və qeyrətli Kalbalı xana pənah gətirmişdi...

Hər dəfə Mahnuru xatırlayanda Abbasqulu xanın ürəyindən bir həsəd hissi keçirdi: kaş o dəliqanlının yerinə özü olaydı. Bu qızı qaçırıb bütün yer üzündən ilim-ilim itərdi. Dəliqanlının yerinə olmasa da kaş Kalbalı xanın yerinə olaydı. Mahnur ona pənah gətirəydi.

Mahnurun ağılı başdan çıxaracaq gözəlliyi və şəhanə görkəmi vardı. Sıx hörülmüş qara uzun hörüklərini sinəsinə atmışdı. Gözlərində hər kəsə meydan oxuyacaq bir itaətsizlik vardı. Abbasqulu xan ona yaxın getməyə, söz soruşmağa cəsarət etmədi.

Lakin Mahnurun xəyalı bir həsrət təşnəsi tək könlündə düşüb qaldı. Gözləri daim onu axtardı, bir dəfə görmək üçün ürəyi əsdi...

...Sonra Mahnuru qalada at belində gördü. Abbasqulu xanın ürəyi atlandı. Xəyallarında yaşayan, bir baxışla ürəyini çalmış qıza heyran-heyran baxdı. Həyəcan içində atını məhmizləyib onunla yanaşı sürdü:

– Xoş gördük, Mahnur xanım.

– Xoş gördük.

Abbasqulu xan qıza elə baxdı ki, sanki çəkdiyi intizarın əvəzini çıxmaq, qızın baxışlarını özünə ram etmək istədi. Mahnur başını dik tutub gözucu ona baxdı:

– Kimsiniz, tanımadım?

– Abbasqulu xan.

– Abbasqulu xan?

Mahnur sanki kinayəsi ilə Abbasqulu xanın ürəyinin başına iti neştər sancdı.

İncik bir hökmlə dedi:

– Mən Naxçıvan taxtının varisiyəm.

– İndi də Kalbalı xanla döyüşmək fikrindəsən? Amma... mən inanmıram.

– Nəyə inanmırsan?

– Sənin yenidən Naxçıvan xanı olmağına.

– Mahnur...

– Naxçıvanlıların sənə etibarı yoxdur, Abbasqulu xan. Biz Kalbalı xanın tərəfindəyik. Kalbalı xan da səni saraya gətirdi ki, onunla əl-ələ verib Naxçıvan torpağını qoruyasız.

– Mahnur...

– Eşidirəm.

– Xan söhbətini qurtaraq.

– Xan olmaq istəyən sənsən, Abbasqulu xan.

– Səni birinci dəfə görəndə ağlım başımdan çıxdı.

Mahnur əlini ağzına qoyub pıqqıldadı.

Abbasqulu xan sözləri bir nəfəsə dedi:

– O vaxtdan rahatlığım pozuldu. Mən səni heç cürə yadımdan çıxara bilmədim, Mahnur. Əgər razı olsan birdəfəlik Naxçıvanı tərk edərik. Üz çevirmərik bu başı bəlalı torpağa.

– Atam yaşındasan, Abbasqulu xan.

– Sevgi, məhəbbət ürəyin hökmüdür, yaşın yox.

– Sənin üç arvadın var.
– Peyğəmbərimiz dörd arvad almağı məsləhət bilib.
– Məndən sənə yar olmaz, Abbasqulu xan.
– Yarı yar eliyən paradır. Mənim sərvətim aşıb-daşır. Bu sərvət səni xanım eliyəcək, pərilər səltənətində yaşadacaq.
– Mən o cür həyata alışmamışam.
– At belində qılınc çalmaq, tüfəng atmaq xoşunamı gəlir?
– Mən bunda bir mərdlik, mərdanəlik görürəm, Abbasqulu xan. Xanlıq uğrunda savaşmaqdansa torpaq uğrunda savaşmaq gərək.

Mahnur atın yüyənini çəkdi. At şahə qalxıb kişnədi, sonra da ayaqlarını yerə vurub irəli şığıdı. Abbasqulu xan arxadan baxa-baxa qaldı. Qızın saymamazlığı Abbasqulu xanın ürəyini yaraladı, izzəti-nəfsinə toxundu. İçini alov kimi bürüyən intiqam hissi bir anda sevda duyğusunu məhv etdi...

Mahnur qalaya tərəf gələn bir dəstə atlı ilə üzləşəndə atını saxladı. Sonra atdan düşüb kiminləsə görüşdü. Abbasqulu xan yaşarmış, nifrətlə silələnmiş gözlərini qıyıb diqqətlə baxdı: Kalbalı xan idi. Bu dəfə duyduğu paxıllıq, qısqanclıq duyğuları burulğan kimi oyanıb içini zəhərlə doldurdu. Bu zəhərdən özü də rahatsız oldu, amma nə qədər elədi, onu içindən sıxıb çıxara bilmədi.

* * *

...Abbasqulu xanın həyatının ən dəhşətli günü İran şahı Ağa Məhəmməd şah Qacara girov göndərilən gün oldu. Demə, Kalbalı xan onu saraya çağırıb dostluq əlini uzatsa da düşmənçilik hissindən əl çəkməmişdi. Oğlunun əvəzinə onu girov göndərməklə yaxasını Abbasqulu xandan qurtarmaq istəmişdi...

Tehranda isə ötən hər gün onun üçün cəhənnəm əzabına çevrildi. Hər axşam dizlərini qucaqlayıb gözlərini qapıya zilləyərək ölüm qorxusu ilə yaşadı. Bu qorxu Kalbalı xana nifrəti, kini, intiqam hissini alovlandırdı.

Və Kalbalı xan, Abbasqulu xanın təbirincə, ədalətsizlik, haqsızlıq etdiyinə görə tanrının lənətinə gəldi, ruslara yaxınlaşdı və bununla da Qacar şahını qəzəbləndirdi. Lakin Qacar şahı bu səhvə görə Kalbalı xanın girovu Abbasqulu xanı qətlə yetirmədi, qisası elə onun özündən aldı – gözlərini çıxarıb üstəlik altı illiyə Tehran zindanına göndərdi. Kalbalı xanın aldığı cəza Abbasqulu

xanı sevindirsə də qisas almaq hissini yox eləmədi, kor xana qarşı nifrəti bir az da artırdı...

Ağa Məhəmməd şah Qacarın qətlindən sonra hakimiyyətə gələn Fətəli şah Abbasqulu xanı girovluqdan azad etməklə Kalbalı xanı da zindandan çıxardı. Abbasqulu xan daha Naxçıvana qayıtmadı, Qafqaz rus qoşunlarının baş komandanı, general Sisianova pənah apardı.

O, Sisianda gizlənmişdi, yerini kimsə bilmirdi. Abbasqulu xan başının dəstəsi ilə burada karvanların yolunu kəsərək onları soyur, var-yoxlarını əllərindən alırdı. Özü də Sisianovla məktublaşaraq onu Sisiana qoşun çəkməyə şirnikləndirirdi. Çünki, buradan Naxçıvana hücum etmək asan idi.

* * *

...Abbasqulu xan sübhün gözü açılmamış yuxudan oyandı, geyinib çadırdan çıxdı. Abbasqulu xan həmişəki yerinə – qayanın üstünə qalxdı. Aşağıdan gəlib keçən karvanlar burdan aydın görünürdü. Alatoran vadilərin, yal-yamacların üstündən duman çəkilir, uzaq səma çəhrayı rəng alırdı. Bu çəhrayı rəng üfüq boyu yayılırdı.

Abbasqulu xan dizlərini qucaqlayıb aşağıda görünən dolama yollara baxa-baxa ürəyində qaynayan, gözlərinin işığına, qəlbinin döyüntüsünə qarışan həsrət çeşməsinin səsinə oyalandı. Bu anlarda duyğuları sanki dağlardan axıb gələn billur bulaq suyu kimi tərtəmiz idi. Abbasqulu xan Naxçıvana gedən yollara baxdıqca elə bil özgələşdi, nifrət dolu ürəyi, şeytan havalı beyni çeşmə kimi qaynayan göz yaşında təmizlənərək onu uşaq kimi kövrəltdi...

Bu anda karvan gəldiyini görüncə yerindən qalxdı və qışqırdı: – Tez olun, karvan gəlir.

Bayaqkı Abbasqulu xandan əsər-əlamət qalmadı. Sanki daxilindəki dumduru çeşmə bulandı, acgözlük, tamah ürəyini vəhşi bir sevinclə doldurdu, gözlərində yırtıcı ehtirası şölələndi:

– Karvan yəqin Qarabağdan gedir – Əziz əlini gözünün üstə qoydu.

– Qarabağdan, Şəkidən, ya Bakıdan nə təvafütü var. Adamları çağır, tələsin, karvan uzaqlaşmamış...

Birdən dağ-daş sanki lərzəyə gəldi. Toz-duman qalxdı, at nallarının səsi sübhün sakitliyini pozdu. Əzizin dəstəsi aşağıda karvanın qarşısını kəsdi.

Yükləri boşalmış karvan düzün ortasında xeyli dayandı. Sonra peşiman, pərişan yoluna davam etdi.

Qulu bəy qənimətlə qayıtdı. Əzizin gözləri gülürdü:

– Abbasqulu xan gör nələr var?

Abbasqulu xanın üzü tutuldu, qaşları çatıldı, gözucu ipək taylarına baxıb köks ötürdü:

– Bu dağların başında tacirlik edəcəyik Qulu bəy?

– Bazarlarda Qarabağ ipəyi yaxşı qiymətə gedir, xan.

Abbasqulu xan başını buladı:

– Quldurluq eləməkdən bezmişəm. Gecə sübhədək yatma, karvan yolu gözlə... Bezmişəm, yorulmuşam, başa düşdüz?.. Mən Naxçıvan xanlığının başçısıydım. Mən oraya qayıtmalıyam. Mən Kalbalı xandan qisasımı, intiqamımı almalıyam. Amma burda karvan yolunun üstə dayanıb günü-günə satıram.

Qulu bəy onun yanında oturdu:

– Abbasqulu xan səbrin olsun.

– Sisianov deyəsən vədinə xilaf çıxır. O, indi çoxdan burda olmalıydı.

– Abbasqulu xan,– Qulu bəy onu sakitləşdirməyə çalışdı – mənə gəlib çatan məlumata görə Sisianov ona görə bura qoşun çıxartmır ki, bu dağlarda aclıq çəkməkdən qorxur. O, bunu sənə məktubunda da yazmışdı. Bu məktubdan sonra elə bilirəm ki, xan, sən generalın yolunu nahaq gözləyirsən.

– Qulu bəy axı mən də ona cavab məktubu yazaraq bildirmişdim: *«...yazdığınıza görə Naxçıvanda ərzaq və yem tapmaq çətindir. Lakin əlahəzrətin nəzərinə çatdırıram ki, Rusiya ordusunu lazım olan bir sıra ləvazimatla yanaşı on il müddətində hər cür ərzaqla təchiz edə bilərəm»*. Sisianovun göndərəcəyi qoşunla mən Naxçıvan taxtını ələ keçirmək istəyirdim. Mənə elə gəlir ki, bu məktubumdan sonra o, buraya qoşun göndərər. Ruslar Naxçıvan taxtına çıxmaqda mənə kömək edərlər. Amma...

Qulu bəy çaşqın halda soruşdu:

– Abbasqulu xan, ordunu saxlamaq üçün sənin on illik ərzaq ehtiyatın var? Onu harda saxlayırsan? Gizli anbarların, yaxud o qədər sərvətin var?

Abbasqulu xan Qulu bəyin sadəlövhlüyünə kinayəli gülüşlə cavab verib başını buladı:

– Niyə yoxdu Qulu bəy. Neçə vaxtdı uzaq ölkələrdən gəlib keçən karvanları soymuruqmu? Bəs bu qazanc haraya gedir? Bir də üst-üstə neçə illər xanlığı idarə eləmişəm...

Qulu bəy yenə də inadla sözünün üstdə durdu:

– Yenə də sənin on il ordu saxlayacaq qüvvən yoxdur, Abbasqulu xan. Bəyəm sən padşah-zadsan...

Abbasqulu xan nifrətlə güldü, bu gülüş onun ürəyindəki nifrət dalğasını, qisas duyğusunu dalğın gözlərinə yığdı. Gözlər irilənib az qala hədəqəsindən çıxdı, Abbasqulu xanın yumruqları düyünləndi:

– Kalbalı xan gündən-günə qüvvətlənir. Gör o, necə etimad qazanıbsa İran şahı İrəvan xanlığının da idarəsini ona tapşırıb. O, bic və hiyləgərdir. O, gərək korluğu, qaranlıq dünyası ilə barışıb dinc oturaydı. Amma qaranlığın gor əzabına qatlaşmadı, işıqlı dünyanın işlərinə əl yetirdi. Mənimlə – Abbasqulu xanla taxt davasına çıxdı və onu mənim əlimdən aldı.

– Sən unutma ki, Kalbalı xan güclü, iradəli adamdır, Abbasqulu xan.

– O, məni Ağa Məhəmməd şaha girov göndərdi. O, məni sındırdı, əzdi. Mən bunun hayıfını ondan çıxacam. İntiqamımı alacam. Ya farsların, ya da rusların əli ilə yenidən Naxçıvan taxtına çıxacam. Mən Kalbalı xanın tərəfdarlarından da amansız intiqam alacam, Qulu bəy. Mən Kalbalı xanı diz çökdürəcəm.

– Yadından çıxarma ki, Kalbalı xan Ağa Məhəmməd şah Qacarın qarşısında əyilmədi.

– Sən də bəlkə onun tərəfindəsən Qulu bəy? Məni yolumdan döndərib, ruhdan salıb gözümü qorxutmaq istəyirsən?

– Yox, Abbasqulu xan. Mən sənə düşmənini necə var eləcə də göstərmək istəyirəm. Sən onun korluğuna aldanıb səhv eləmə.

Abbasqulu xanın gözləri Qulu bəyin baxışında ilişib qalsa da dərin fikrə getdi, susqun, məyus halda öz içinə çəkildi.

* * *

Abbasqulu xanın məktubunu alan Sisianov tərəddüd keçirdi: Naxçıvan taxtını ələ keçirmək, Kalbalı xanı ortadan götürmək üçün Abbasqulu xana əsgər göndərsin, ya göndərməsin? Knyaz

bu barədə ordu qərargahına göndərdiyi raportda yazdı: *«Bizim əleyhimizə olan kor Kalbalı xanın əmisi oğlu naxçıvanlı Abbasqulu xan, Ağa Məhəmməd şahın dövründə Naxçıvanda olmuş və sonra kor əmisi oğlu tərəfindən qovulmuşdur. Hazırda o, Göycə gölü yaxınlığında, yüksək dağlıq hissədə yerləşən Sisiyan adlanan kiçik qalada yaşayır və gözləyir ki, mənim göndərəcəyim beş yüz nəfərlik ordu və 4 topla, habelə öz adamları ilə Naxçıvanı tutsun. Lakin yollar qarlı və sıldırımlı dağlardan keçdiyi üçün may ayından əvvəl ora qoşun göndərmək mümkün deyil».*

...Abbasqulu xan isə gözləyirdi. May gəldi, sonra yayın isti günləri başladı, yal-yamacların qarı əriyib getdi. Yollar açıldı. Lakin Sisianovun əsgərləri yenə də gəlib çıxmadı. Hövsələsi tükənmiş, səbri daşan Abbasqulu xan İran vəliəhdi Abbas Mirzəyə məktub göndərdi. Bu məktubda o, Abbas Mirzənin köməyi ilə Naxçıvan taxtına çıxacağı təqdirdə Abbas Mirzəyə sadiq olacağını və İranın himayəsinə keçəcəyini vəd edirdi.

Abbasqulu xan fikrini Qulu bəyə bildirdi:

– Həm rus generalı, həm də Abbas Mirzə ilə məktublaşıram. Onların hansının mənə kömək edəcəyinin fərqi yoxdur. Təki bu güclü əllərdən biri məni taxtda oturtsun. Hansı əl bu xidməti göstərmiş olsa Naxçıvan xanlığı da onun himayəsinə keçəcəkdir...

* * *

Abbasqulu xanın şahzadə Abbas Mirzə ilə məktublaşması pünhan qalmadı. Qazdan ayıq olan ruslar bundan xəbər tutdular. Məlumat ordu qərargahına da sızdı...

Knyaz Sisianov köməkçisi Aristov ilə üz-üzə oturaraq ordu qərargahından aldığı xəbəri oxudu. Xəbər generalı çaşdırdı: Abbasqulu xan iranlılara xidmət edir! Aristov birdən-birə özündən çıxan knyazın zəhər yağan gözlərinə baxıb çəkinə-çəkinə soruşdu:

– Cənab general, siz Abbasqulu xanın səmimiyyətinə inanırsız?

– Abbasqulu xan rusların tərəfindədir. Onun mənə göndərdiyi məktubların birində yazdığı bir cümlə yadımdadır. *«...Cəfərqulu xanla müqayisədə mənim Baba xana münasibətim daha pisdir».* Bu eynilə Abbasqulu xanın sözüdür. O, İran şahına nifrət

edir. Abbasqulu xan taxta çıxan kimi də Naxçıvan xanlığı Rusiyanın himayəsinə keçəcəkdir.

– Abbasqulu xan bəlkə ikili siyasət işlədir? O rusların köməyi ilə hakimiyyətə gələcək, amma İranın himayəsinə keçəcəkdir.

General Artistovu qınaqlı baxışlarla süzdü:

– Aristov, biz kimlərlə işlədiyimizi bilirik. Abbasqulu xan bu addımı ata bilməz, – sonra fikrə getdi – Bizim əsas düşmənimiz Kalbalı xandır. Onu xalqın gözündən salmalıyıq. Palıdın kökünü torpağın dərinliyindən çəkib çıxaran kimi Kalbalı xana olan sevgini adamların zehnindən, beynindən, ürəyindən çıxarmaq lazımdır. Onlar xanı satqın, xain kimi tanımalı, Abbasqulu xanı müdafiə etməlidirlər.

Aristov inamsız halda başını buladı:

– Çətin olar, general. Çünki naxçıvanlılar Kalbalı xana peyğəmbər kimi baxır.

– Bu inamı öldürmək lazımdır, Aristov.

Aristov otaqdan çıxdı. Knyaz ağlına gəlmiş fikirdən ruhlandı. Xeyli düşündü. Sonra masanın arxasına keçərək qələm, kağız götürdü. Qımışaraq Naxçıvanın ağsaqqallarına, bəy və xanlarına müraciət yazdı. Müraciətdə əvvəl İran şahını gözdən salmağa çalışdı: ***«İran rəislərinin etibarsız olduqlarını, hətta eyni dindən olmağınıza baxmayaraq sizə əziyyət və əzab verdiklərini xatırlamağa ehtiyac yoxdur. Bu barədə misal gətirməyə də lüzum qalmır. Özünüz görürsünüz ki, məkirli iranlılar Baba xanın oğlu Abbas Mirzənin göstərişi ilə Mustafa xanın qoşunları öz din qardaşlarını soyub qərəət etdilər.***

***Baba xanın xəyanətini irəvanlı Məhəmməd xanın başına gətirdiyi əhvalatdan gördünüz. O, məni satıb iranlılara üz çevirdi. Nəticədə iranlılara etibar etdiyinə görə xanlıqdan əli çıxdı. Həbs edildi və qərəət olundu. Mənim bu günlərdə aldığım dəqiq məlumata görə onun qohumları və yaxın adamları da İrana sürgün ediləcəkdir.***

***Bax, budur iranlıların məkirli siyasətlərinin nəticəsi. Başqa cür desək onlar əvvəlcə baş tumarlayır, sonra isə ata-babalarının ev tikdikləri yerlərdən, becərdiyi torpaqlardan zorla ayırırlar. Əlbəttə, sizin üçün yaxşı olar ki, öz torpaqlarınızda qalıb ata-babalarınız tərəfindən əkilmiş ağaclara tamaşa edəsiniz və iranlıların zorla sizi köçürüb başqa yerlərə aparmasına imkan verməyəsiniz.***

*Siz orda mal-dövlət sahibi olan kimi hər şeyi əlinizdən alacaqlar. Əksinə siz yumuşaq ürəkli və insanpərvər böyük bir dövlətin himayəsi altında olsanız rəisi olduğum məğlubedilməz ordunun köməyi ilə günəş şüaları altında olanlar kimi qızına bilərsiniz. Mən ümumrusiya dövlətinin imperatoru tərəfindən müdafiə ediləcəyinizə, əmin-amanlığa və hüquqlarınızın qorunacağına zəmanət verirəm.*

*Rusiya qanunu və müqəddəs rus dövlətinin sərbəstliyi ondan ibarətdir ki, hər bir hökumətin sərbəst həyatı saxlanılsın, qorunsun və müdafiə edilsin. Əgər siz öz sakitliyinizi və xoşbəxtliyinizi qorumaq üçün bu imkandan istifadə etmək istəyirsinizsə, məsləhətim budur ki, şəxsən sizin xeyrinizə olaraq yüksək dərəcəli rəis Abbasqulu xanla birləşin, onunla birlikdə mənim vasitəmlə özünüzə insanpərvər dövlətin simasında himayədar tapın.*

*Kalbalı xana gəldikdə isə görürsünüz ki, o, nə qədər dağıntılar yaradıb, sizin çörəyinizi əlinizdən alır, sizi doğma torpaqlarınızdan köçürür.*

*Mən müqəddəslərə and içirəm ki, sizin həyatınızın təhlükəsizliyi qorunacaq, heç kim sizin dininizə, adətinizə toxunmayacaqdır. Çünki Rusiya imperiyasında dinlərə toxunulmur və hər bir xalqa azad şəkildə öz dini ayinlərini yerinə yetirmək imkanı verilir.*

*Bundan başqa öz şəxsi məqsədləri üçün sizi soyub talayan İran rəislərinin zülmündən xilas olacaqsınız.*

*Rusiya öz hakimiyyəti altında olan xalqların maddi-məişət vəziyyətinin yaxşılaşmasına çalışır, ticarətin inkişafına yardım göstərir. Naxçıvan diyarında bu imkandan istifadə edərək istənilən qədər məhsul istehsal etməklə əhalinin daha da varlanması üçün şərait yarada bilər.*

*P.D. Sisianov,*
*Cənubi Qafqaz rus*
*qoşunlarının baş komandanı.*
*14 avqust 1805-ci il.*

5

General Zavallişin – dəniz hissələrinin baş komandanı son günlər Bakını tez-tez yuxusunda görürdü. Bakı sanki möcüzə dolu aləmi ilə bu acgöz, tamahkar, üstəlik qəddar, qaniçən generalı

özünə çəkirdi. Xəyallar aləminə qapılan Zavallişin özünü şərq saraylarında hiss edirdi: yastığa dirsəklənib sulu qəlyan çəkir, qarşısında isə musiqinin ahənginə uyğun rəqs edən yarımçılpaq rəqqasələr salonda əlvan, rəngbərəng çiçəklərə bənzəyir... O, ümidlə, xoş xəyallar içində komandanı olduğu hərbi gəmilərin Xəzərə daxil olacağı günü səbirsizliklə gözləyirdi.

1803-cü ilin qışında ali baş komandan general Sisianov axır ki, Zavallişinə Xəzər dənizindən Bakıya yaxınlaşmaq əmrini verdi.

Zavallişin gəmilərin istiqamətini Həştərxandan Bakıya döndərdi. Xəyalları çin olan, var-dövlət, sərvət toplamaq xulyaları həqiqətə çevrilən general bir gün də olsun vaxt itirmək istəmədi. Gəmilər Gilana, sonra isə Rəştə daxil oldu. İran şahı Fətəli şah rus gəmilərinin Rəştə girməsindən narahat olduğunu bildirdi. General Zavallişin bu narahatlıqdan məmnunluq duydu və İran şahının qarşısında çarın tapşırığı ilə tələblər qoydu. Bu tələblər ondan ibarət oldu ki, şah gürcü şahzadəsi Aleksandrı təhvil verməli, eyni zamanda Ağa Məhəmməd şahın dövründə əsir düşmüş rus əsgərlərini rus dövlətinə qaytarmalıdır.

Fətəli şah generalın tələblərinə əməl etmədi. Bundan qəzəblənmiş general Ənzəli dəniz limanını toplardan atəşə tutdu. Ənzəli işğal olundu.

Qələbədən ruhlanmış Zavallişin 1805-ci ilin iyulun 26-da Lənkəran limanına daxl oldu və Bakıya istiqamət götürdü.

* * *

Xəzər dənizində rus hərbi gəmilərinin görünməsi Bakı xanlığında narahatlıq və əndişə yaratdı. Bakı xanı Hüseynqulu xan gəmi komandanlığına müraciət edərək Xəzərdən çıxmağı tələb etdi. Lakin ondan cavab ala bilmədi.

1805-ci ilin dekabrın 15-də rus hərbi gəmiləri gecəyarısı Bakını toplardan atəşə tutdu. Bakı qalasına aramsız atəş yağmuru yağırdı. Hüseynqulu xan rusların məqsədini çoxdan duysa da yalnız atəş səslərindən sonra hərəkətə gəldi. Xan ehtiyatlı tərpənmişdi: gizlicə köməyə gələn qüvvələr rus əsgərləri ilə döyüşə girdilər. Bu qızğın döyüşdə ruslar məğlub oldu. Zavallişin dərin bir məyusluq içində gəmiləri Bakı limanından çəkdi. Onun gəmilərinin bir hissəsi Sarı adasında saxlanırdı. Zavallişin yalnız in-

di səhv etdiyini anladı: gərək gəmilərin hamısına döyüşdə iştirak etmək əmri verəydi. Sonrakı peşimançılıq fayda vermədi...

Dəniz qoşunlarının məğlubiyyəti baş komandan general Sisianovu özündən çıxardı. O, dərhal Zavallişinə Sarı adasında saxladığı gəmiləri çıxarmağı və yenidən Bakı limanına qayıtmağı əmr etdi.

Gəmilər yenidən Bakıya istiqamət götürdü. Bu dəfə məğlubiyyətin acısını bakılılar gördü. Zəfər qazanmış rus əsgərləri Abşeronda lövbər saldılar və talana başladılar. Bakı için-için sökülür, dağılır, qətllərin, qəraətlərin sayını-hesabını itirirdi. Bakı işğalçıların qəddar sifətlərini, canavar gözlərini və qanlı əməllərini görürdü.

Bakı qan ağlayırdı...

Bakını diz çökdürən Zavallişin bu dəfə sevinclə general Sisianovun yolunu gözləməyə başladı.

* * *

1806-cı ilin qışı.

Şaxta iliklərə işləyir, sazaq qılınc kimi kəsirdi. Aramsız yağan qar ərimək bilmir, üst-üstə qalanaraq yol-rizi bağlayırdı.

Bakıya rus ordusu yeriyirdi...

Bir vaxt bu yollarla I Pyotrun ordusu getmişdi.

İndi bu yolla general Sisianov gedirdi. Qara, şaxtaya, borana baxmayaraq Bakının ürəyinə rus bayrağını sancmağa gedirdi. O, burda Zavallişinin ordusu ilə birləşəcək, Bakı xanlığının işğalını başa çatdıracaqdı.

* * *

Süvarilər dayanmadan gedirdi. General üz-gözünü sarımış, əyninə qoyun dərisindən aşılanmış kürk geymişdi. Sazaq gözlərini yaşartsa da bu göy gözlərdə iblissayağı bir təbəssüm görünürdü. Bunun da səbəbi o idi ki, Zavallişin ona xoş xəbər çatdırmışdı: içindən sınmış, qəhr olmuş Bakı işğala hazırdır...

Generalı Bakıda şöhrət və tükənməz sərvət gözləyirdi (amma knyaz hardan biləydi ki, Bakıya səfər onun son səfəridir) Knyazla çiyin-çiyinə keşiş Danil də atını sürürdü. Keşişin Bakıdan umacağı generalın istəklərindən daha çox idi: Bakı ermənilərindir. Ruslar Bakını işğal edən kimi onu ermənilərin ixtiyarına verə-

cək. Xəyallar keşişi qanadlandırır, soyuğu, uzaq yolların yorğunluğunu unutdururdu.

...Knyaz Sisianov hələ Bakıya yola düşməmişdən Zavallişinin sıxma-boğmaya saldığı Hüseynqulu xana məktub göndərmişdi. Bu məktubda general xanın qarşısında şərtlər qoymuş, vədlər vermişdi:

*1. Bakıdan neftin və duzun göndərilməsində Baş komandanın razılığı olmalıdır.*

*2. Gömrükdən başqa bütün gəlirlər Bakı xanlığınındır.*

*3. Rus əsgərləri evlə təmin olunmalıdır.*

*4. Hüseynqulu xanın nəsli əsilzadələr kimi tanınacaq.*

*5. Bakı xanlığında dini inam saxlanılır.*

*6. Məhkəmə işlərində Bakı xanı iştirak etməlidir.*

*7. Hüseynqulu xan arxayınçılıq üçün oğlunu girov verməlidir.*

Və 1806-cı il fevralın 2-də generalın ordusu Zavallişinin hərbi hissəsi ilə birləşdi. Az keçmədi ki, hələ təslim olmamış Bakı qalasına rus toplarından zəfər atəşi açıldı. Sonra rus əsgərləri qalanı mühasirəyə aldılar.

Hüseynqulu xan təslim oldu.

Qalanın qapıları rusların üzünə açıldı.

...Sisianov qalada açarların təqdimetmə mərasiminə hazırlıq görmüşdü. Ziyafət veriləcəkdi. Mərasim başlamamışdan əvvəl Hüseynqulu xan Bakı qalasına gəldi, qala açarlarını knyaza təqdim etdi və çıxıb getdi.

...Qalada musiqi çalınır, badələr dolub boşalır, sərxoş səslər, dumanlanmış beyinlər, qızarmış gözlər... yavaş-yavaş çoxalırdı. Knyaz da nəşələnmişdi. Rus mahnılarının qol-qanadını qıra-qıra oxuyur, içərinin səs-küyü şüuruna gedib çatmırdı. O, səndələyə-səndələyə yuxarı çıxmağa çalışdı, amma bacarmadı. Ensiz dar pillələrdə az qala səndələyib arxası üstə yerə düşəcəkdi. Köməkçisi Avetisov onun qoluna girib qaldırdı. Sisianov sərxoş baxışlarla Avetisova baxdı, sonra qəliz rus söyüşləri yağdırdı. Bu anda keşiş Danil də Avetisovun köməyinə gəldi. Keşişi görən kimi knyaz dayandı, sərxoş baxışları bir nöqtədə qərar tutmağa çalışdı. Dili zorla kəlmələri bir yerə yığdı:

– Sən...sən...mi...sən Daniiil? Müqədddəəs aaata...

– Bəli mənəm, cənab general.

– Gene...ral ...yox...Pav...lu şaaa

– Mən sizə elə deməyə cürət etmərəm Pavel Dmitryeviç. Siz mənim üçün dahi adamsız. Qələbənizi görmək şərəfi mənə də nəsib oldu. Bakının işğalı ilə əlaqədar erməni milləti sizi təbrik edir.

– Bur...da ermə...ni...lər va...r...mı?

Danil onu qucaqlayıb yuxarı çıxarırdı. Şərab iyindən başı gicəllənsə də generalı bağrına basmışdı. Knyazı sərxoş bir yuxu aparırdı. Lakin o, gözlərini zorla açıb soruşdu:

– Bur...da er..məni...lər yaşa...yıırmı?

Keşiş dərhal cavab verdi:

– Bəli Pavel Dmitryeviç. Bura əsasən bizim torpağımızdır. Azərbaycanlılar gəlmədir. Lakin onlar bizim fağır milləti üstələdi.

– Ba...kı səniin xo...şu...na gə..lir...mi Daaan...il?

– Vətəni hamı sevir general

– Sa...bah er...mə...niləri to...plar...san...

Knyaz sözünü axıra çatdıra bilmədi. Gözləri axdı, başı sinəsinə düşdü. Keşiş sərxoş knyazı kürəyinə aldı. Addım atdıqca knyaz bütün ağırlığını onun üstünə salır, kəskin şərab iyi keşişi boğur, lakin o, səsini çıxarmadan, müti bir itaətkarlıqla dözür, xəyalında isə ermənilərə müjdə xəbəri aparırdı.

Sisianovu yatağa uzatdı. Az keçmədi ki, dəhşətli xorultu səsi ətrafa yayıldı. Keşiş Danil generalın başının üstə dayandı. Fikri isə yenə çapar at kimi uzaqlara getdi: "Ruslar şəhəri talayır. Yaxşı fürsətdir. Mən ermənilərin hamısını ayağa qaldırmalıyam. Qocaya, cavana, körpəyə rəhm olunmamalıdır. Yalvarsalar, aman istəsələr belə. Törədilən qətllər, talanlar onsuz da rusların ayağına yazılır. Bakının küçələri qan dənizinə çevrilməlidir.

Şükürlər olsun, tanrıya. Bu qan dənizini görmək mənə də qismət olacaq. Müsəlmanların qanını ovuclayıb gözlərimin qarşısına gətirəcəyəm, lazım gəlsə içəcəyəm.

Sabah bizim üçün Bakıda təzə günəş doğacaq. O bizim günəşimizdir. Bu günəş azərbaycanlıların gözünü qapayacaq, bizim isə yeni həyatımıza doğacaqdır.

Xəzər bizimdir...".

Sisianov birdən diksinib ayıldı, qızarmış gözləri ilə ətrafda kimi isə axtardı, sonra da təlaşla keşişə baxdı:

– Nayruxi har...dadır?

Keşiş yaltaq-yaltaq gülümsündü:

– Nayruxi burdan çox-çox uzaqdadır Pavel Dmitryeviç. Nayruxi kimi burda o qədər pərilər, mələklər var ki. Sabah görəcəksiz...

Generalın sərxoş bağırtısı keşişin sözünü kəsdi:

– Mə...n Nay...ru...xini is...təyirəm.

Keşiş təəccüblə Avetisovdan soruşdu:

– Mən indi Nayruxini hardan tapım?

Avetisov gülüb başını buladı:

– Bilmirəm.

Sisianovun başı sinəsinə düşdü, astadan mızıldandı:

– Mən Ba...kının qa...la... aça...rla...rını aldım. Ba...kı, Xəzər bi...zimdir.

Keşiş gizlicə qımışdı: "Bağışla Pavluşa. Bakı ermənilərindir. Mən sənin qılığına girib Bakını ermənilərin əlinə verəcəyəm. Sabah...sabah Bakı qan ağlayacaq...Pavluşa...".

General barmağını keşişin az qala gözlərinin içinə basıb bağırdı:

– Ba..kının qala aça...rını 74 il əvvəl I Pyotr alıı..b. İndi isə ...mən al..dım. Keşiş de...din ki. Nay...ruxi yox...dur? O halda ayaq...larımı soyuq suya ...yox, ılıq su...ya kim qoyacaqqq? Ah, müqəddə...s ata, bəlkə sən... Deyəsən mən sərxoş olu...ram.

– Ayaqlarını suya qoymaq lazımdır? Mən bu dəqiqə eliyərəm, Pavel Dmitryeviç.

Keşiş sevincərək getdi, hardansa ləyən tapdı, soyuq su töküb generalın qarşısında iki qat oldu. Generalın tozlu corablarını çıxardı, suya qoyub həvəslə, ciddi-cəhdlə ovmağa başladı. Kəskin şərab iyi keşişi vururdu. Amma o, bunun fərqinə varmırdı. Bütün varlığı ilə aşağı əyilərək knyazın ayaqlarını sığallayır, könülaçan sözləri astadan pıçıldayırdı. Danilin ürəyində bu anlarda elə bir sevinc dalğası vardı ki, o tərtəmiz yuduğu ayaqları öpməyə, bağrına basmağa, əzizləməyə hazır idi.

Sisianov canında xoş bir rahatlıq hiss elədi, dumanlı başı ayazıdı, ayaqlarını canfəşanlıqla ovan keşişə təkəbbürlü bir nəzər salıb qımışdı, sonra da əlini onun çiyninə qoydu.

– Müqəddəs ata, bu ayaqlar bütün Azərbaycanı dolaşıb. Rusiyaya qələbələr qazandırıb. Bu ayaqlar sənin başından çox, çox qiymətlidir, doğrudurmu keşiş?

– Doğru buyurursuz, çox düzdür Pavel Dmitryeviç.

– Bu ayaqlar siz ermənilərə də gün ağlayacaq.

– Biz ermənilərə həyat gətirən bu ayaqlara minnətdarıq knyaz. Bakı bizim qədim torpağımızdır. Bu ayaqlar... Bakını da bizə...

Keşiş udqundu. Altdan yuxarı knyazın gözlərinin içinə baxdı.

– O halda nə durmusan, ayaqlarımı öp, öp-general hökmlə dedi və sağ əli ilə keşişin başını çılpaq ayaqlarının üstə əydi – dua elə, ayaqlarımı qucaqla və öp.

– Pavel Dmitryeviç...

– Sabah bizim üçün müqəddəs gündür keşiş.

– Pavell...

Keşişin sevincdən ürəyi atlandı, gözləri yaşardı.

– Nəyi gözləyirsən, öp və dua et. Sabahkı uğurlarımız üçün.

Keşiş gözlərini yumdu, ayaqları dəsmalla quruladı, sonra da öpərək gözlərinin üstə saxladı.

Knyazın sərxoş gülüşü sanki dəmir pullar kimi qalanın divarlarına dəyib cingildədi, əks-səda verdi. Keşiş gülüşünü onun gülüşünə qatdı.

Avestisov otağa sulu qəlyan gətirdi. Ayılmış, keyfi durulmuş knyaz yerdə döşəkçələrin üstə oturdu. Danil onun kürəyinə yastıq qoydu.

Aşağıdan hələ də musiqi səsləri, sərxoş gülüşlər axıb gəlirdi.

Sisianov keşişə işarə elədi:

– İki stəkan tünd çay gətir.

Keşiş qapının arxasında yox oldu.

Knyaz dedi:

– Avestisov, qala açarlarının alınması xəbərini indicə çar sarayına yetirmək lazımdır.

Avestisov onu ayağa qalxmağa qoymadı:

– Səhər açılır, cənab general, tələsməyin...

Və Avetisovun sözü tikə kimi boğazında qaldı. Qəflətən bənizi ağardı, dəhşətdən gözləri iriləndi. Nitqi tutulduğundan əlini qapıya uzatdı və lal adamlar kimi nəyi isə başa salmağa çalışdı. Knyaz yalnız bir an üzünü qara parça ilə sarımış, əlində xəncər tutmuş adamı yalnız bir an başının üstündə gördü. Avetisov dəhşət içində yerindən qalxıb özünü qapıya atmaq istədi. Amma iti xəncər göydə parıldadı və onun köksünə sancıldı. Qara örtüklü adam onu bir göz qırpımında çıxardı, qanı süzülə-süzülə zərblə Sisianovun boynuna vurdu. Bir gözü qapıda ikinci ağır zərbəni

endirdi. Baş bədəndən üzülüb xeyli aralı düşdü. Bir vaxt qanlar tökmüş, qan görməkdən nəşələnmiş gözləri qan örtdü...

Üzü qara örtüklü adam qoltuğundan kisəni çıxardı, kəsik başı kisəyə saldı, qılıncını götürdü və qapının arxasında qeyb oldu...

/Pavel Dmitryeviç Sisianovu qətlə yetirdən İran şahzadəsi Abbas Mirzə oldu. Generalın başını kəsən İbrahim bəy adlı adam onu Abbas Mirzəyə apararaq əvəzində şahzadədən mükafat və xan adını aldı/.

Keşiş Danil üzündə xoş təbəssüm iki stəkan çay gətirərkən qapının ağzındaca sanki iflic oldu. Çaylar əlindən düşdü. Gördüyü dəhşətli mənzərədən ürəyinin şah damarından vurulmuş kimi səntirlədi. Sanki vahiməni, dəhşəti bədəninin bütün əzaları keçirdi – gözləri, ürəyi, əlləri, dizləri, ayaqları titrədi. Böyümüş, qan çanağına dönmüş gözlərini Sisianovun başsız bədənindən çəkə bilmirdi. Özünə gəlib kəsilmiş başı axtardı... Baş yox idi...

Keşiş Danil ağlı yerindən oynamış, havalanmış adam kimi otaqdan çıxdı, üzü aşağı qaçdı. Ona elə gəldi ki, kimsə indi də onun arxasınca qaçır, dar, qaranlıq pillələrdə kimsə onu haqlayacaq və Sisianovun boynunu vuran qılınc indi də onun boynunun kökünə saplanacaq. Vahimə, qorxu sanki keşişin içindən gələn bağırtı səsinin düyününü açdı və keşiş var qüvvəsi ilə qışqırdı:

– Generalı öldürdülər. Qalada qatil var. Generalın başını kəsdilər. Qatili yaxalayınnn...

Aşağının səs-küyü o anda dayandı. Zabitlər bir-birinə dəydi. Sərxoş başlar ayıldı. Zabitlər bir-birini itələyə-itələyə, söyüş söyə-söyə yuxarıya dırmandılar.

Qalanın qapıları bağlandı. Rus əsgərləri ətrafı mühasirəyə aldılar. Qalanın hər yerində qatili itmiş iynə kimi axtardılar. Qatil tapılmadı: hardan qaçdı, necə oğurlanıb qala qapısından çıxdı– kimsə bilmədi.

...Qalada ziyafət yarımçıq qaldı. Stolların üstündə şərab badələri dağılmışdı. Hər yerdə pərakəndəlik, hüznlü bir pərişanlıq vardı. Bayırda əsən xəzri yağan qarı sovurur, küləyin uğultusu iliklərə işləyən səs çıxarırdı.

Keşiş Danil içəridə tək qalmışdı. Başını aşağı dikərək ağrıyan başını, ağlayan gözlərini, sinəsində daş kimi asılmış ürəyini sakitləşdirmək istəyirdi. Lakin gözlərinin önündən başsız bədən dəhşətli xəyalat kimi çəkilib getmirdi. Keşişə elə gəldi ki, başsız

bədən qalanın dar pillələri ilə aşağı sürünərək onu haraylayır, köməyə, imdada çağırır. Başını qaldırıb baxır, sanki ölüm sükutu çökmüş salondan, qaranlıq pillələrdən başqa heç nə görmürdü. Keşiş tez-tez gözlərini yumub açır, gözünə görünən, tez də yoxa çıxan qorxulu xəyalatı özündən kənar etmək istəyir, lakin başsız bədənin vahiməsi onun bütün vücuduna sirayət edərək onu tir-tir titrədirdi.

Keşiş Daniil axır ki, özündə qüvvə toplayıb ayağa qalxdı, yuxarı çıxan pillələrə baxıb dodaqaltı mızıldandı və xaç çevirdi, yuxarıda qalan başsız bədənin ruhuna dua oxudu və qaladan çıxmaq istədi. Bu anda ətəyi nəyəsə ilişib onu geri çəkdi. Sanki bu anda qulağına knyazın səsi gəldi: "Keşiş məni atıb hara gedirsən? Dostluğun, sədaqətin budurmu? Allahın qarşısında günaha batarsan. Axı mən siz ermənilər üçün əlimdən gələni elədim. Onları nə tez unutdun, keşiş?"

Bayırda əsgərlər hələ də qatili axtarırdılar.

Keşiş geri qayıtdı. Dar pillələrlə xaç çevirə-çevirə yuxarıya qalxdı. Otağa girəndə qan gölməçəsinin yanında arxası üstə yıxılmış başsız bədən onu təzədən vahiməyə saldı. Keşiş dua oxuyaraq xaç çəkdi. Başını Avetisovun cəsədinə çevirmədən başsız bədənin çiyinlərindən yapışdı, gözlərini yumaraq, ürəyi ağzına gələ-gələ onu aşağı sürüdü. Sonra bayıra çıxıb əsgərləri çağırdı. Sisianovun nəşini kilsəyə apardılar. Keşiş onu elə buradaca kilsənin bir küncündə basdırdı. Başının üstə dayanıb generalın ruhuna dərin kədər içində dua oxuyub xaç çevirdi, sonra da ah çəkdi: "Yerin behişt olsun Pavel Dmitryeviç. Əziz Pavluşa, bizi yetim qoydun. Sənə qəsd edənin əlləri qurusun, əziz general. Axı biz səninlə böyük işlər görməliydik. Mən bilirəm, səni Bakı xanı Hüseynqulu xan öldürtdürdü. Azərbaycanlılar səndən qisas aldı. Sənin ruhuna and içirəm ki, bu qisası onlarda qoymayacağam..."

* * *

Generalın öldürülməsi əsgərlər arasında, şəhərdə, həm də çar sarayında böyük şaşqınlıq yaratdı. Şəhər sanki səsini içinə salıb dərin sükuta getdi. Küçələrdə başsız qalmış rus əsgərləri avara, sərkərdan dolaşırdı. Talandan, qırğından yaxasını qurtarmağa çalışan bakılılar qapıları möhkəm bağlayıb bayıra çıxmır-

dılar. Lakin yenə də şəhərdə yanan evlərin tüstüsü boz burulğan kimi şəhərin üstündən əskik olmurdu.

...Kilsələr ruslarla, ermənilərlə dolub boşalırdı. Keşiş Danilin göz yaşları qurumaq bilmirdi. Sisianovun başsız bədəni yuxusunda da daim onu təqib etməkdəydi. Yuxudan hərasan ayılan keşiş dua oxuyur, xaç çevirir, lakin qarabasmadan xilas ola bilmirdi. Kilsəyə gələnlər keşişə də başsağlığı verirdilər. Keşiş kallaşmış səslə bağırırdı:

– Qatil Hüseynqulu xandır. Azərbaycanlılar generalı öldürdülər. Onlar rus imperiyasının sədaqətli oğlunu əlimizdən aldılar. Ah, canım, onlar bizi yetim qoydular...

Keşiş bununla da yanan ocağı bir az da alovlandırır, azərbaycanlılara qarşı kin, nifrət toxumlarını səpirdi. Keşiş bu toxumların bir gün bəhrə verəcəyinə inanırdı...

* * *

Rus çarı Bakını əldən verməmək, başıpozuq rus əsgərlərinin ordudan yayınmaması üçün general Bulqakovu təcili Bakıya göndərdi.

...General hələ yerində toxtamamış keşiş Danil onun görüşünə gəldi. Ağlamsındı, sonra da dəsmalı gözlərinə basdı:

– Cənab general, mən sizə Sisianovun qatili haqqında məlumat verməyə gəldim.

– Siz kimsiniz? – general soruşdu.

– Mən erməni keşişi Danil. Sisianov daim mənim məsləhətlərimə qulaq asardı. Çar ona xüsusi olaraq mənimlə yaxın olmağı tapşırmışdı... Mən generalın sağ əli sayılırdım.

– Siz qatili tanıyırsız? – Bulqakov səbirsiz soruşdu.

– Qatilin kim olduğu hamıya məlumdur. O, Bakı xanı Hüseynqulu xandır. O, həmin gün Bakı qalasının açarını Sisianova təqdim etdi. Həmin gecə qalanın alınması şərəfinə mərhum general ziyafət verirdi. Pavel Dmitryeviç mənə çox bağlıydı. O, ermənilərə güvənirdi. Həyatını da büsbütün mənə etibar etmişdi. Lakin mən onu qoruya bilmədim. Mən...

General Bulqakov onun sözünü kəsdi:

– Generalın hansı şəraitdə qətlə yetirildiyini gördünmü?

Keşiş yenə ağlamsındı, dəsmalını gözünə sıxıb titrək səslə dedi:

– General ziyafətdə içib sərxoş olmuşdu. Biz Avetisovla onu yuxarı çıxardıq. Mən generala qulluq edirdim. Qəflətən qapı açıldı. Üzünü sarımış Hüseynqulu xan və iki nəfər azərbaycanlı içəri girdilər. Mərhum Avetisova səsini çıxarmağa aman vermədilər. Sonra Sisianovu vurmaq istəyəndə mən sinəmlə onu qorumaq istədim. Axı o, general, mən isə sıravi keşiş idim. Amma mən generalı xilas edə bilmədim. Rəhmsiz Hüseynqulu xan məni top kimi götürüb kənara atdı, sonra isə xəncəri generalın boynundan vurdu. Bir zərbə ilə knyazın qiymətli başı bədənindən ayrıldı... Bu əsil dəhşət, faciə idi. Kaş məni də öldürəydilər, generalı o halda görməyəydim... Doğrudur, mən yenə özümü qılıncın altına verdim. Mən ölümdən qorxmurdum. Lakin onlar mənə məhəl qoymadan çıxıb getdilər.

– Sonra – general qorxu içində soruşdu.

– Onlar knyazın kəsilmiş başını özləri ilə apardılar.

– Baş onların nəyinə gərək idi?

– Bilmirəm, cənab general. Bu azərbaycanlıların törətdiyi dəhşətli bir qətl idi. Mən özümü itirmişdim. Mən başsız bədənin yanında dayanmadan xaç çevirirdim...

– Əsgərlər ki, lap yaxında idi. Onları çağıra bilərdin.

– Mən çığırmaq istəyirdim. Amma səsim batmışdı, cənab general. Axırda özümü toplayıb əsgərləri generalın ölümündən xəbərdar etdim. Onlar elə həmin an qatilləri axtarmağa başladılar. Lakin qatillər elə bil yerə girdilər və yaxud göyə çıxdılar. Bilmədim...

– Demək belə... Qətl törədən azərbaycanlılar olub.

– Sisianov mənə demişdi: keşiş Danil Bakı ermənilərin torpağı olduğuna görə onu yenə də ermənilərə verəcəyəm. O ermənilərin sədaqətini görmüşdü. Orduda indi çoxlu erməni var... Cəsədi soruşmadınız, cənab general. Mən Sisianovun başsız bədənini kilsəyə aparıb onun bir küncündə dəfn etdim.

– Deməli onu sən götürüb gizlətmisən? Mən sənin xidmətini imperatora çatdıraram, keşiş Danil.

– Biz daim sizin sadiq qulunuzuq. Lakin mən istərdim ki, mərhum generalın cənazəsini öz doğma torpağında – Tiflisdə dəfn edim.

– Biz sənə kömək edərik keşiş Danil. Mən sənin xidmətlərin haqqında saraya məlumat verəcəyəm.

(Keşiş Danil sözünə əməl etdi. General Sisianovun başsız nəşini kilsədən çıxararaq Tiflisə apardı və orda da torpağa tapşırdı).

# BEŞİNCİ HİSSƏ

## ERMƏNİSTAN BELƏ YARANDI...

1

...Qraf Qudoviç imperator sarayından çıxanda çisələkli yağış başlamışdı. Boz duman çisələki yağışa bükülərək yuxarı çəkilir, getdikcə sıxlaşırdı. General üzünə düşən soyuq damcıdan diksindi, başını qaldırıb qaralmış göylərə baxdı: kitelinin yaxasını qaldırdı və tələsmədən Peterburqun möhtəşəm küçələrindən birinə döndü. Çisələkli yağış birdən gücləndi. Lakin general bunu hiss etmirdi. Ürəyi elə bir sevinc içində çırpınırdı ki, sanki göydən yağan yağış nur seli kimi onun üç dünyasına yağırdı. Onun iç dünyası isə bu anlarda qarmaqarışıq idi: oyanmış hissiyatı sevincin bütün çalarlarını yaşayırdı. Göy gözləri şölələnir, könlü təlatüm içərisində çırpınır, şöhrət və sərvət vəd edən təzə vəzifəsi isə başını gicəlləndirirdi. Bir saat əvvəl rus imperatoru onu Sisianovun yerinə Cənubi Qafqaz rus qoşunlarının baş komandanı təyin etmişdi...

Baş komandan... Çin olan yuxunun aşkar gerçəkliyi... Barmağının bir işarəsi ilə güclü və qüdrətli bir ordu ona tabe olacaqdı. Qraf bu ordu ilə ilk əvvəl Bakıya gedəcək, onu işğal edəcək, Sisianovun qisasını bakılılardan alacaqdı. Qraf Qudoviç xəyalən Sisianovun ruhuna xaç çevirdi: «Pavel Dmitryeviç, rahat yat. Ermənilərin köməyi ilə azərbaycanlılardan alacağım qisas amansız olacaq...».

Qraf Qudoviçin yadına bir erməni hərbiçisi ilə etdiyi söhbət düşdü. Erməni demişdi:

«– İvan Vasilyeviç, kaş sizi Sisianovun yerinə göndərəydilər.

– Baş komandan?

– Siz o vəzifəyə layiqsiz, İvan Vasilyeviç. Böyük hərbi şöhrətiniz və təcrübəniz var.

– Bəli, mən feldmarşal Rumyantsevlə böyük bir döyüş yolu keçmişəm. Larra çayı, Jorşi yaxınlığında, Odessa uğrunda, Annan qalası, Arpaçay vuruşlarında mən öz qabiliyyət və hünərimi göstərmişəm. Mənim hərbi uğurlarım imperatora da məlumdur.

– Siz baş komandan kimi Azərbaycanda hərbi şöhrətinizi daha da artırardız...

– Azərbaycana getmək bir rus generalı kimi mənim də arzum olub.

– Azərbaycanı elə də zəif bilməyin. Azərbaycan... dişlərini qıcayan və hər an hücum etməyə hazır olan vəhşi pələngə bənzəyir. Lakin siz... ermənilərin köməyinə bel bağlaya bilərsiz. Sisianovun uğurlarında ermənilərin rolu çox olub.

– Ermənilər ruslarla din qardaşı, məslək dostudur.

– Buna görə də baş komandan olsanız erməniləri unutmayın. Onların sizə və sizin də onlara ehtiyacınız var...».

...İndi general baş komandan idi. Coşan qanı, çırpınan ürəyi onu Bakıya-sərvət toplamağa, şöhrət qazanmağa çəkirdi. General hərbi işə otuz beş ildən çox əmək sərf etmişdi. Döyüş meydanlarında, rusların işğal etdikləri yerlərdə, qətllərdə və qəraətlərdə çoxlu insan tələfatı görmüşdü. General ölümə təslim olmaq istəməyən, aldığı öldürücü zərbədən əzab çəkən, gözlərində son işıq, dodaqlarında son fəryad səsi qalan adamları da görmüşdü. Və gördükləri qraf Qudoviçin könlünü oxşamış, nəşələndirmiş, göy donuq gözlərində istehzalı təbəssüm oyatmışdı. Sanki ölümün caynağında əzab çəkən adamın gözlərinə kinayəli, nəşəli təbəssümü ilə son gülləsini atmışdı.

General baş komandan əmrini alan kimi ağlından ilk keçən Azərbaycan oldu: gözləri qan görəcəkdi, ayaqları işğal edəcəyi torpaqlara fəlakət aparacaqdı, əlləri...əllərini sərvət sevindirəcəkdi...

* * *

Tiflis. 1806-cı il, iyun.

Cənubi Qafqaz rus qoşunlarının baş komandanı İvan Vasilyeviç Qudoviç vaxt itirmədən Bakını işğal etmək üçün yeni plan hazırladı. Planı gözdən keçirən I Aleksandr onu bəyəndi. Lakin qraf Qudioviçin işğalçılıq tamahı təkcə Bakını yox, əjdaha kimi bütün Azərbaycanı udmaq idi. Buna görə də saraya göndərdiyi ilk raportda yazdı: «*...İmperator həzrətlərinə bildirməyi vacib bilirəm ki, gözləmək vaxtı keçmişdir. Gözləməkdən heç bir fayda yoxdur. Azərbaycan xanları könüllü tabe olmayacaqlar. Burada güclü təzyiq lazımdır. Belə olarsa Azərbaycanın müstəqilliyinə son qoyulacaqdır*».

* * *

Stefan içəri girəndə generalı yazı masasının arxasında məşğul gördü. Stefanın üzündəki yaltaq təbəssüm bütün sifətinə yayıldı, belini ikiqat əyib generalın əlini öpmək istədi. Qraf Qudoviçin gözləri gülsə də sarımtıl, qırışmış sifəti sərt bir ifadə aldı:

– Stefan, mən əsgərəm...

– Cənab general, sizin əllərinizi yox, ayaqlarınızı da öpməyə hazırıq. Təkcə mən yox, bütün ermənilər...

General ayağını ayağının üstə aşırıb Stefanı mülayim baxışla süzdü:

– Stefan, biz hələ sizinlə təzə işə başlayırıq.

– Siz ermənilərin sədaqətini, dostluğunu qiymətləndirəcəksiz, general. Hələlik isə mən sizə bacım qızı Luizanı gətirmişəm. O, sizə qulluq edəcək.

– Luiza? – Qudoıiç qapıya boylandı. Yalnız bu zaman Stefanın arxasında gizlənmiş yeniyetmə, qarasaçlı, ucaboylu qızı gördü. Qızın cavan, yaraşıqlı üzündəki uşaq sadəlövhlüyü sifətinə çəkdiyi boyaların altında itməmişdi. Luiza irəli yeriyib çoxdan tanıyırmış kimi generalın əllərini sıxdı və qrafın üzünə elə çəkici işvə ilə gülümsündü ki, bu mərhəm baxışdan, sözsüz təbəssümdən generalın əsgər ürəyinə yığılmış daşlar əriməyə başladı. Qızın yumuşaq tellərini alnından yığışdırıb arxaya daradı, sonra da mülayimliklə soruşdu:

– Neçə yaşın var Luiza?

– On səkkiz.

– On altı, cənab general – Stefan tələsik qızın səhvini düzəltdi.

Qraf Qudoviç üzünü Stefana çevirmədən qızı sorğu-suala tutmaqda davam etdi:

– Bəs harda yaşayırsan?

Luiza birdən əllərini üzünə tutub çiyinləri atıla-atıla hıçqırdı:

– Mehridə yaşayırdım. Mehri bizim dədə-baba torpaqlarımız idi. Lakin azərbaycanlılar onu bizim əlimizdən aldılar. İndi orda az sayda erməni yaşayır. Lakin onlar azərbaycanlıların işgəncə və zülmünə tab gətirməyərək köçüb gedirlər.

İçinə dolan hiddət generalın əhvalını pozdu. Qızı özünə tərəf sıxıb yaşlı gözlərini sildi:

– Səbr et, gözəlim, o torpaqlar sizin özünüzə qayıdacaq.

Stefan özünü acıqlanmış kimi göstərdi, qıza gözlərini ağartdı:

– Luiza, mən sənə dedim ki, artıq sözlər danışıb generalın qanını qaraltma. Sən bura İvan Vasilyeviçə xoş əhval-ruhiyyə bəxş etmək üçün gəlmisən. O ki, qaldı torpaqlara, general başımıza gələnlərdən xəbərdardır. Amma sən gör neynədin?

– Stefan... qızı tənbeh eləmə.

– Mən sizə görə...

– Stefan, mənim məsləhətçim ermənidir. Mənə məlumdur ki, Azərbaycan torpaqlarının çoxu vaxtı ilə ermənilərin olub.

Stefanla Luizanın baxışları toqquşdu, kişi göz işarəsi ilə qıza nə isə anlatdı və tapşırıq verdi:

– Keç içəri. Yaxşı süfrə aç.

Luiza Stefanın gətirdiyi ağır bağlamaları içəri apardı. General onun arxasınca baxıb məmnun halda qımışdı, sonra da ağayana bir əda ilə dedi:

– Bir neçə gündən sonra Bakıya hərəkət etmək əmrini almışam. Sisianovu qətlə yetirdiklərinə görə azərbaycanlıları dəhşətli cəza gözləyir.

Stefan əlindəki bükülünü masanın üstə qoydu:

– Onlar ən ağır cəzaya layiqdir. Cənab general, bu sizə Tiflis ermənilərindən hədiyyədir.

Bükülünü açmağı sonraya saxlamağa Qudoviçin səbri çatmadı. Əlində tutduğu daş-qaşın ziyası gözlərini qamaşdırdı. Stefan qrafın daş-qaşa zillənmiş heyran baxışlarından nəşələnərək generalın tamahını daha da itilədi:

– Bakıda yaşayan ermənilər sizin yolunuzu gözləyir, general. Onlar daha qonaqpərvərdi. Orda gözəl qadınlar, pul, sərvət və üstəlik şöhrət var. Bunları ermənilər sizə bəxş edəcək. Bakı... bizim qədim şəhərimizdir. Amma onu bizim əlimizdən vəhşicəsinə aldılar. Hələ İrəvan, Naxçıvan... – Stefan ağlamsındı, cib dəsmalını çıxarıb gözlərinə basdı – bu qədər torpağımız ola-ola biz vətənsizik. Bu dərd bizim ciyərimizi dağlayır...

– Darıxma, keşiş. Mənim fikrim Ermənistan adlı bir dövlət yaratmaqdır.

– Ah, İvan Vasilyeviç necə savab iş görərsiz. Fağır və yazıq bir millətin taleyini düşündüyünüzə görə bizim Allahımız sizi mükafatlandırar – Stefan ağlamsınaraq generalın dizlərini qucaqlamaq istədi.

General onu rədd etdi, əllərini arxasında çarpazlayıb, otaqda var-gəl etdi, sonra Stefanın qarşısında dayandı:

– Məsələ sən düşündüyün qədər də asan deyil, Stefan. Mən bunu sizin keşişlərə də demişəm. Azərbaycan torpaqlarında az, çox az sayda erməni yaşayır. Xüsusən ən gözəl torpaqları olan Qarabağda, Şamaxıda, İrəvanda, Naxçıvanda... Mən bunu öyrənəndə çox rahatsız oldum.

– Demək istəyirsiz ki, artıq gecdir? – Stefan qorxu ilə soruşdu.

– Nə bilim, bilmirəm.

– Bəs bizim keşişlər bu məsələyə necə baxır?

– Onlar bunu gözləmirdi. Ermənilərin o torpaqlara köçüb gəldiyi aydındır – qraf göy gözlərini Stefana zillədi. Stefan bu gözlərdə doyumsuz bir iştah, tamah gördü.

Cibindən ikinci bükülünü çıxarıb açdı, sonra da generalın gözlərinin qarşısına tutdu. Qiymətli üzük qrafın ağlını başından çıxardı, sanki üzüyün brilliant qaşlarından min ulduz axıb göy gözlərin tamahlı parıltısında qərq oldu.

– Bu deyəsən çox qiymətli üzükdür – qraf üzükdən gözlərini ayıra bilmədi. Onu işığa tutub xeyli baxdı.

– Bu üzük Nadir şahın xəzinəsindəndir.

Qraf şübhə ilə keşişi süzdü, sonra yenə diqqətlə üzüyə baxdı.

Keşiş hərarətlə dedi:

– Hər halda mənə belə deyiblər. Lakin gördüyünüz kimi üzüyün dəyəri yoxdur.

– Elədir, Stefan bu üzük qiymətlidi... Demək belə... Mən vəziyyəti bilən kimi imperatora belə bir məktub göndərdim: *«İmperator həzrətləri. Rusiyada yaşayan ermənilərin siyahısı tərtib olunmalı, onların harada yaşamasından asılı olmayaraq Azərbaycana gəlməsinə imkan yaratmaq lazımdır. Ermənistan dövləti yaratmaq üçün Azərbaycanda ermənilərin sayı kifayət qədər olmalıdır. Başqa bir imkan yoxdur. Xristianlıq naminə bu işi sürətləndirmək lazımdır». Mənim bu məktubum imperator sarayında böyük razılıqla qarşılanıb. İndi mən bütün ölkələrdə yaşayan ermənilərə müraciət etmək istəyirəm. Müraciət belə olacaqdır: «İmperator ermənilərə qayğı göstərmək istəyir. Ermənilər bir ərazidə olmalıdırlar. Onların vətəni isə Azərbaycandır».*

– Sizin bu fədakarlığınız unudulmayacaq – Stefan yenə nə isə demək istədi. Amma sözlər sanki tıxanıb tikə kimi boğazında qaldı. Generalın etirazına baxmayaraq onun at minməkdən, cilov

tutmaqdan codlaşmış əllərindən öpdü, sonra diz çöküb üzünü qrafın tozlu çəkmələrinə sürtdü. Bu anda Luiza qapını açıb nazla gülümsündü:

– Süfrə hazırdır, cənablar...

* * *

...Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi Qarabağdan başlandı.

Qraf Qudoviç ayağını Qarabağdan çəkmirdi.

Gizlicə, səssiz-səmirsiz Qarabağ torpağına zəhərli ilanlar sürünüb gəlir, zəhərli toxumlar səpilirdi. At belində şəhanə bir vüqarla oturan qraf Qudoviçin ətrafında ermənilər sanki Qarabağın ətrafına zəhərli hörümçək toru hörürdülər.

* * *

Generalın adyutantı içəri girib Stefanın gəldiyini xəbər verdi. Qraf Qudoviç yorğun olduğundan dincəlmək istəyirdi. Lakin Stefanın hər gəlişi generalı sevindirirdi. İndi də qırışların içində itib-batmış göy gözləri yorğun-yorğun adyutantın üzünə dikildi, sonra əlini yellədi:

– Burax, gəlsin.

Stefan üz-gözü təbəssüm içində özünü içəri saldı. Arxasında dayanmış qızın sanki gülüşlə siləlƏnən, parıltı ilə dolub-daşan gözləri heyrət və maraq içində generala zilləndi. General yorğunluğunu unutdu, əlini qıza uzatdı:

– Tanış olaq, İvan Vasilyeviç Qudoviç.

– Cənab general, sizi tanımayan varmı? Mən Anitayam.

– Qarabağ gözəlidir – Stefan xoşhallıqla deyib qızın saçlarını tumarladı

General öskürüb pəncərədən bayıra baxdı, günəş qarlı dağların zirvəsində bir əlçim işıq kimi ilişib qalmışdı. Aşağıları qaranlığın soyuq kölgəsi bürüyürdü.

– İşlər necədir, Stefan? Ermənilər köçdüklərinə peşiman deyillər ki? Gərək olmasınlar. Qarabağ cənnətin bir güşəsidir,– generalın sifəti ciddiləşdi, lakin tamahkar gözlərini qızın yaraşıqlı sifətindən çəkə bilmədi.

– On beş gündə üç yüzdən çox ailə ancaq Şuşaya köçüb.

– Təkcə Şuşaya yox. Şuşadan aşağılarda çox səfalı yerlər, torpaqlar var. Mən o yerləri atla qarış-qarış gəzmişəm. Ermənilər

bütün Qarabağ torpağına toxum kimi səpilməlidir, anladınmı? Rusiyadan, Türkiyədən, İrandan, dünyanın hər yerindən Azərbaycana təcili ermənilərin axını başlamalıdır. Onlar o qədər çoxalmalıdır ki, azərbaycanlıları sıxışdırıb öz ərazilərindən çıxara bilsinlər. Sözsüz ki, bu işdə rusların böyük köməyi olacaqdır. Yalnız bundan sonra Ermənistan dövləti yaratmaq olar. Gizlətmirəm, Stefan bu işdə Rusiyanın da marağı vardır. Gələcəkdə yaradacağımız bu dövlət Cənubi Qafqazda Rusiyanın mənafeyini qoruyacaq və onun dayağına çevriləcəkdir.

– Keşişlərimiz bu fikirdədir ki, Naxçıvan işğal olunmasa Ermənistan qüvvətli və qüdrətli dövlət ola bilməz.

– Ruslar Mehrini də işğal edəcəkdir.

– Mehri gələcəkdə Naxçıvanı Qarabağla birləşdirəcək. Ermənistan dövlətinin sərhədləri dağlar aşıb böyük bir ərazini tutacaqdır, general – Stefan gözlərini yumub iştahla qollarını açdı.

Qraf Qudoviç Anitaya gözucu baxıb qımışdı:

– Stefan düzünü de, bu qız nəyindir?

Stefan əlini qızın qapqara, gur saçlarına çəkdi: – Ermənilər hamısı bir-birinə qohumdur İvan Vasilyeviç. Biz hamımız amalımız və məqsədimiz yolunda çarpışırıq.

Stefan gətirdiyi bükülünü generalın qarşısına qoydu:

– Bu daş-qaşları isə sizə erməni məlikləri göndərib.

Daş-qaşın parıltısında sanki bir şeytan ovsunu vardı. Qraf istəsə də gözlərini onlardan çəkə bilmirdi. Sanki bu parıltıdan generalın içindəki şeytanlar baş-başa gəlir, onu şirnikləndirir, doyumsuz gözlərində tamahı artırır, lakin ürəyindəki insani hissiyyatı öldürərək onu daş-kəsək parçasına çevirirdi.

Stefan cəvahiratı onun gözləri bərabərinə gətirdi:

– Hələ bir diqqət edin, general.

– Bu da Nadir şahın xəzinəsindəndir? – Qudoviç gözlərini parıltıdan ayırmadan gülümsünərək soruşdu.

– Nadir şahın xəzinəsindən olmasa da çox dəyərlidir.

– Qarabağda həm də yaxşı cins atlar varmış.

– Erməni məlikləri sizə yaxşı cins atlar gətirəcəklər – Stefan ah çəkdi – Qarabağın cins atlarının tayı-bərabəri dünyada yoxdur. Lakin ən yaxşı atlar yenə də müsəlmanların əlindədir.

– Hmm – general fikrə getdi.

– Cənab Qudoviç, az qala yadımdan çıxmışdı – ermənilərin Qarabağ xanlığına axını Mehdiqulu xanı narahat edib. O, bütün

qüvvəsini toplayaraq bu axının qarşısını almaq niyyətindədir. Bu barədə erməni məlikləri sizinlə danışmaq istəyir.

General qeyzləndi:

– Mehdiqulu xanı xanlıqdan çıxararam.

...Aradan çox keçmədi ki, general Qudoviç Mehdiqulu xanı xanlıqdan uzaqlaşdırdı. Qarabağın tüstülənən, alovlanan ocağının başında sarı şeytanlarla, yastıbaş iblislər baş-başa qaldı...

* * *

Qaş qaralan kimi Davudun evinə ermənilər toplaşmağa başladı. Onlar Qarabağdan gəlmiş keşişin görüşünə tələsirdilər. Pırpız, qonur qaşlarının altından gələnlərə göz qoyan xırda, hiyləgər gözlü keşiş evin yuxarı başında qalın yun döşəkçənin üstündə oturmuş, kürəyini mütəkkəyə söykəmişdi. İçəri girənlər onun əlini öpür, əhvalını soruşur, sonra dizlərini qatlayıb əyləşirdilər.

Axırıncı adam içəri girəndə ev yiyəsi qapıdan küçəyə boylandı, Xanvəli gilin darvazasına xeyli müddət tamaşa elədi, sonra qapını çəkib bağladı. İçəriyə səssiz bir sükut çökdü. Sevinən, qaynayan gözlər keşişin ağzına dikildi. Keşiş öskürdü, əlini sinəsinə düşmüş saqqalına çəkdi, baxışını müdrikcəsinə hər kəsin üzündə ayrıca saxladı, sonra yorğun, xırıltılı səslə dedi:

– Əziz erməni qardaşlarımız. Bizim xilasımızın vaxtı gəlib çatmışdır. Rus qardaşlarımız xristianlıq naminə bizə yeni həyat bəxş etmək istəyirlər, – keşiş bəlağətlə danışmağa cəhd edirdi, amma səsi xırıltılı olduğundan sözlər sanki ilişərək çıxırdı – Artıq müsəlmanlar Azərbaycan torpaqlarından qovulur. Çox keçməyəcək ki, xanlıqlar ləğv olacaq. Ən əsası İrəvan xanlığının yerində böyük və qüdrətli Ermənistan dövləti yaradılacaqdır. Cənubi Qafqazda Rusiya ona görə Ermənistan dövləti yaradır ki, bu dövlət daima onların arxasında dayansın, onların məqsəd və əqidəsinə xidmət etsin. Bu dövlətin yaradılması ilə biz də onu qazanırıq ki, daha özgə torpaqlarda yaşamayacaq, bizim öz vətənimiz, torpağımız, suyumuz, çörəyimiz olacaqdır.

Keşiş sanki içərisində yanan işığı ovuclayıb onu dörd gözlə izləyən ermənilərin gözünə atırdı. Söhbət o qədər şirin və həyəcanlı idi ki, vaxtın necə keçdiyi hiss olunmadı. Keşişə yaxın oturanlar onun əllərindən öpüb çiyinlərini qucaqlayırdılar. Ləmədə yanan çıraqların zəif işığında keşişin divarlara düşən nəhəng kölgəsi titrəyirdi.

Arxadan kimsə səsləndi:

– Biz Naxçıvandan İrəvana köçməliyik?

Keşiş əlini yellədi:

– Yox övladım. Naxçıvan da bizim olacaq. Ruslar onu işğal edib Ermənistan dövlətinin tərkibinə verəcəklər.

Qoca erməni əlini yuxarı qaldırıb inamsızlıqla soruşdu:

– Yəni ermənilərin öz padşahı olacaq?

– Bəli övladım. Tarixdə ilk dəfə olaraq erməni padşahı olacaq. Bu padşah Ermənistan dövlətini idarə edəcəkdir. Rusların köməyi ilə erməni padşahı qüvvətlənib bütün Azərbaycan torpaqlarını işğal edə bilər. İndi ermənilər ən çox Qarabağ torpağına köçürülür. General Qudoviç özü bu köçürülmə işinə nəzarət edir.

Yer-yerdən soruşdular:

– Bəs Naxçıvana erməni ailələri köçürülmür?

– Elə mən də buna görə gəlmişəm, övladlarım. Siz əli-əl üstə qoyub rus generalının Naxçıvana təşrif gətirməsini gözləməyin. Müsəlmanları bu torpaqdan qovmaq üçün siz gizlicə iğtişaşlar törətməli, onları qorxu, vahimə içində saxlamalısız.

Davud keşişin sözünə qüvvət verdi:

– Keşiş Danil də bizə belə tapşırıq vermişdi.

Keşiş acıqlandı:

– O halda nəyi gözləyirsiz övladlarım? İğtişaş törətmək, müsəlmanlara qarşı qiyam qaldırmaq üçün bəhanə axtarın. Məsələn, öz içinizdə xəstə, sağalmağa gümanı olmayan erməniləri öldürüb, bu qətli müsəlmanların üstünə atın. Xanlıq sarayına hücum edib qatillərin tapılmasını tələb edin. Sözsüz ki, qatillər yoxdur. Onda siz üsyan edərək bazar-dükanlara hücum edin, igid və qoçaq müsəlmanları aradan götürün.

Davud qorxu içində gözlərini ağartdı:

– Müqəddəs ata, Naxçıvan xanı Kalbalı xan ağıllı adamdı. Qorxuram ki, bizim hiyləmizi başa düşüb, özümüzü zindana ata. Meydana çəkib edam etdirə.

– Bu kimsənin ağlına gəlməz. Bir də böyük işlər böyük qurbanlar tələb edir.

– Keşiş Danil deyirdi ki, Kalbalı xan özünü qəsdən korluğa vurub... Eh Abbasqulu xanı yola gətirmək asan idi... Rusları gözləmədən ermənilər özləri də Naxçıvanı işğal edə bilərdi.

Başqa bir erməni iştahla dedi:

– Danil deyirdi ki, Hacı Əbülqasımın karvansarasının yerində yaxşı kilsə tikmək olar.

Keşiş fikrə getdi:

– Bəlkə karvansaranı da yandırasız? Müsəlmanlardan birinin üstə atasız.

Davudun üzü güldü:

– Qonşum Xanvəlinin. O, bizim evə göz qoyur. Mən onu aradan götürmək istəyirdim.

Keşiş nə isə düşünüb fikrini dəyişdi:

– Yox, övladım, karvansaranı yandırmaq, məhv etmək lazım deyil. Biz öz kilsələrimizi başqa yerlərdə də tikə bilərik. Amma karvansara bizə gərəkdir. Çünki uzaqdan gələn əcnəbi tacirlər harda qalar? Şərqə yollar Naxçıvandan keçir. Bu yollarla dünyanın hər yerindən Naxçıvana ermənilər axışacaq. Naxçıvan dünyanın ən qüdrətli ticarət mərkəzlərindən biri olacaq.

Şölənən gözlər, tamahlanan baxışlar sevindi. Suren adlı üz-gözünü saqqal basmış cavan erməni ayağa qalxdı:

– Müqəddəs ata, siz dediniz ki, xəstə, qoca erməniləri özümüz öldürüb qətli müsəlmanların üstə ataq?

Keşiş təmkinlə başını buladı:

– Mən hər şeyi sizə dedim.

Keşişin yanında oturub deyilənlərə diqqətlə qulaq asan kök erməni arıq, sısqa ermənininin qulağına pıçıltı ilə dedi:

– Səsini çıxarsana. Biri sənin atan Vazgen...

– Nə danışırsan Mesrop?

Davud hirsləndi:

– Yox, məni öldürüb başsız qalın.

Keşiş xaç çevirdi:

– Vazgenin ruhu şad olsun – sonra üzünü gözləri qorxudan böyümüş arıq erməniyə çevirdi – qəm eləmə övladım, bu müqəddəs işimizdə yeri gəlsə mən də qurban getməliyəm.

Erməni yalvardı:

– Onda elə eləyin ki, ruhu inciməsin.

Davud əlini onun kürəyinə çəkdi:

– Qəm eləmə.

Aleksey burnunu çəkib mızıldandı:

– Elə mənim atam ölməlidi?

Davud əyilib onun başına qapaz saldı:

– Biz uşaqlarımızın gələcəyi üçün çalışırıq, keçmişin qocaları üçün yox.

Ortalığa çökmüş sükut sanki qorxuya, vahiməyə büküldü, ilan kimi sürünüb hamısını çaldı. Suren amiranə, hökmlə içəridəki cavan erməniləri ayağa qaldırdı, sonra da soyuqqanlılıqla dedi:

– Bizim işimizdə rəhm deyilən şey yoxdur. Biz rusların Naxçıvana gəlişini gözləmədən müsəlmanları dəhşət, vahimə içində saxlamalıyıq.

Yerdən səs-küy qalxdı:

– Kalbalı xanla bacarmaq olar?

Keşiş əlini yuxarı qaldırıb səs-küyü kəsdi:

– Davud, övladım, mən ermənilərin açıq-aşkar iğtişaş törətməsini istəmirəm. Belə olsa Kalbalı xan bir erməni ailəsini də Naxçıvana buraxmaz. Siyasət olmasa ibadətin əhəmiyyəti yoxdur, övladım. Naxçıvan erməni dövlətinə daxil ediləcəkdir. Lakin indiki halda biz Naxçıvana çoxlu erməni ailəsini köçürməliyik. Bu qraf Qudoviçin fikridir.

– O halda Vazgenin ömrünü özünə bağışlayaqmı?

– Mən onun ruhuna xaç çevirdim. Lazım gəlsə şəhərin ermənilər yaşayan məhəllələrində yanğınlar törədin. O halda mən də rus padşahına məktub yazaraq Ermənistan dövlətinin yaradılmasını sürətləndirməsini xahiş edərəm.

Söhbətlər, pıçıltılar xeyli uzandı. Qonaqlar dağılışanda göydə dan ulduzu doğdu. Eynalı dağından əsən küləklər sanki dağların sazağını, soyuğunu şəhərə qovub gətirdi...

* * *

Gecə yarıdan ötmüş Alekseyin həyətindəki ağacların altından iki kölgə sürünüb keçdi. Onlar qapının arxasında dayanıb nəfəs çəkmədən içərinin sükutuna qulaq verdilər. Yuxunun ölüm sükutu hər yeri öz hökmünə almışdı. Aleksey qəsdən qapını açıq qoymuşdu. İki nəfər qapını səssizcə açıb içəri girdi. Ləmədə çıraq zəifcə közərirdi. Vazgenin sızıltılı səsi gəlir, gah kəsilir, gah da artırdı. Orda da ləmədə çıraq yanırdı. Vazgen arvadından su istədi. Anuş ayağa qalxıb yuxusu gözlərində dəhlizə çıxdı, bir parç su doldurub otağa qayıtmaq istəyəndə hənirti, yad nəfəs duyub ayağını sürüdü. Gələnlər nəfəslərini içlərinə çəkib qaranlıqda gizləndilər. Anuş diqqətlə künc-bucağa nəzər saldı. Heç

kəsi görməsə də vahimələndi. Canından soyuq gizilti keçdi. Astadan oğlunu harayladı:

– Aleksey, Alekseycan...

Aleksey özünü yuxuluğa vurdu.

Anuş əl çəkmədi. Ona elə gəldi ki, künc-bucaqdan qaraltılar üstünə yeridi. Qorxu içində bir də səsləndi:

– Aleksey, elə bil kimsə var içəridə.

Oğlu hirsləndi:

– Ay arvad, səni qara basır. Bağlı qapıdan içəri kim girə bilər? Yıxıl yat.

Aleksey üzüüstə çevrilib guya dərindən xorultu çəkdi.

Anuş əlində su dolu parç xeyli dayandı, sonra qorxaq addımlarla içəri keçib suyu Vazgenə vermək istəyəndə kimsə onu arxadan qucaqlayıb dəsmalı ağzına basdı. Arvad çırpınıb qışqırmaq istədi. Amma macal tapmadı.

İkinci adam yorğanı Vazgenin başına çəkdi və ona tərpənməyə imkan vermədi.

Aleksey qonşu otaqda xırıltılı səsləri eşidib yerinin içində xaç çevirdi, başını yuxarı qaldırıb sanki işlədiyi günah üçün tanrıdan əfv dilədi.

Sonra qapı astadan örtüldü. Aleksey dərindən nəfəs aldı. Lakin kölgələrin vahiməsi onu basırdı. Ona elə gəldi ki, bu dəfə də əllər onun boğazına uzandı. Alekseyi soyuq tər basdı. Yanında yatmış arvadını dümsüklədi:

– Sonya... Sonya...

– Aleksey... yata bilmirsən?

– Sonya, yaxşı yuxu görürdüm – Aleksey qaranlıqda vahimə içində qonşu otağa baxıb udqundu, ona elə gəldi ki, indicə anası vay-şivən qoparacaq, amma otaq ölü sükut içindəydi – hə, Sonyacan, gördüm ki, bizim öz torpağımız, öz dövlətimiz, öz padşahımız var. O dövlətdə ancaq erməni milləti yaşayır. Bizim çoxlu var-dövlətimiz, sərvətimiz var. Uşaqlarımız...

– Sən həmişə səfeh yuxular görürsən, Alekseycan.

– Sən buna səfeh deyirsən? Sən inanmırsan ki, ermənilərin də müsəlmanlar kimi öz torpaqları olacaq?

– Mən sənin sərvət, var-dövlət sahibi olacağına inanmıram.

Aleksey şübhə ilə qonşu otağa baxdı: görəsən anası niyə çığırmadı, niyə vay-şivən salmadı? Yəni belə dərin yuxudadı? Görəsən atasının qətlə yetirildiyini görəndə neyniyəcək? Oğlundan

şübhələnməzmi? Şübhələnsə... hardan biləcək? Yəqin ki, ermənilər bunun müqabilində ona çoxlu pul da verərlər...

Sonya ayağa qalxıb su içməyə getdi. Qəflətən onun bağırtısı Alekseyi ayağa qaldırdı:

Aleksey atan... anan... Onları öldürüblər...

Az keçmədi ki, bütün məhəllə həyətə axışdı.

* * *

Erməni məhəlləsindəki qətli eşidəndə Kalbalı xan dərin fikrə getdi. Sonra da saqqalını tumarlayıb kirpiklərini tez-tez çaldı:

– Qocaları niyə öldürsünlər ki?

Əli xan da çaş-baş qalmışdı:

– Özü də guya bu qətli müsəlmanlar törədib.

– Burda bir hiylə, kələk olmaya Əli xan? Sənin ağlın bir şey kəsir?

– Sən nədənsə şübhələnirsən, Kalbalı?

– Bu ermənilər deyəsən nəsə bir iş görmək istəyir, Əli.

– Nə iş, Kalbalı?

– Mənə çatan məlumata görə Qarabağa, Gəncəyə, Şəkiyə erməni ailələri köçürülür. Deyilənə görə Qarabağın yolları eyzən yüklənmiş at arabaları, ulaqla, qatırla doludur. Mehdiqulu xan bu köçürülməyə etiraz elədiyinə görə onu xanlıqdan uzaqlaşdırıblar. Deyilənə görə erməni məlikləri toy-bayram içindədir. Onlar qraf Qudoviçi qızıla, daş-qaşa bükürlər. Hətta namuslarını, qeyrətlərini belə iki paralıq eləyirlər, Əli xan. Yadındamı, İrəvan xanı Məhəmməd xan keşiş Danili İrəvana yaxın buraxmadı. Ona görə ki, keşiş Danil orda dinc oturmurdu. Keşiş Danil İranda da erməniləri başına yığıb İran dövlətinə zidd siyasət aparırdı. Buna görə də onu zindana salmışdılar. Keşiş Naxçıvanda olanda burdakı ermənilərin başını sarsaq fikirlərlə doldurdu. Elə bilirəm ki, bu qoca erməniləri də onlar özləri qəsdən qətlə yetirmişlər. Amma niyə? Bax bunu başa düşə bilmirəm. Mərhəmət Allahın işidir, məkr, hiylə şeytandan gəlmədir. Ermənilərin Allahı bu dəqiqə şeytanlardır. Onlar daim şeytana ibadət eləyib yollarını azırlar. Qatili ermənilərin öz içində axtarmaq lazımdır.

– Ruslarla farsların əlində qalmışıq. Bu yandan da erməni özünü yetirdi ki, düşmənçilikdə mən də varam.

– İçimizdə yaşayan qurd bizi öz içimizdən sındıra bilər. Əli xan, tapşır uşaqlara sərvaxt olsunlar. Qaladakı sərbazların arasına bir erməni dığası da buraxmayın.

– Arxayın ol, xan. Ehsan xan Alekseyi dindirir. İnşallah qatili tutmaq mümkün olacaqdır...

* * *

Şəhər polis idarəsinin həyəti tünlük idi. Şəhərdə yaşayan bütün ermənilər qəzəbdən, hikkədən boğularaq qatilin tapılmasını hökm edirdilər. Bu qəzəb, kin-küdrət elə bil alov kimi şəhərin küçələrini bürüyərək hər kəsi öz daxmasına qatmışdı, kimsə bu alovun qorxusundan, vahiməsindən başını bayıra çıxara bilmirdi.

...Polis şöbəsinin rəisi Ehsan xan otağında Alekseyi özü sorğu-suala tutmuşdu. Alekseyin tüklü sifətindən, qızarmış gözlərindən fağırlıq, məzlumluq yağırdı. Sorğu-sual arasında kirli yumruqları ilə gözlərini ovur, iki damla yaş çıxarmağa çalışırdı. Ehsan xan sanki onun günahkar baxışlarını tutdu, sonra da sərt səslə dedi:

– Qatillər çox asanlıqla içəri girib Aleksey...

– Elədi Ehsan xan. – Aleksey mızıldandı.

– Qapı bağlı olsaydı, gərək onu sındıraydılar.

– Elədi Ehsan xan.

– Bəlkə qəsdən kimsə qapını açıq qoyub? Kim bağlamışdı qapını?

– Arvadım.

– Arvadın səni dedi.

– Düzü yadımda deyil. Nə bilim, bəlkə də yadımızdan çıxıb bağlamamışıq.

– Kimdən şübhələnirsən, Aleksey?

– Xanvəlidən,.. bir...də Muraddan...

– Hansı Muraddan?

– Cəlaloğlu Muraddan.

Ehsan xan sanki içində tufan kimi kükrəyib əsəblərini yerindən oynadan qəzəbini zorla cilovladı. Qaşlarını düyünləyib qəzəbini biruzə vermədən təmkinlə soruşdu:

– O Vazgen kişini tanıyırdı?

– Tanıyırdı, Ehsan xan.

– Düşmənçiliyin səbəbi nəydi?

Alekseyin dili dolaşdı. Gözlərini iti baxışlardan yayındırıb mızıldandı:

– Uşaqlıqda mən onu döymüşdüm. O, kinli bir adam idi. Gözləyib axır ki, intiqamını aldı. Üstəlik rəhm etməyərək qoca anamı da qətlə yetirdi.

Aleksey qızarmış burnunu çəkdi.

– Murad intiqamını səndən alaydı da, qocalarla nə işi?

– Bəlkə də məndən qorxub...

– Ağlım bundan bir şey kəsmədi, Aleksey. Danışdığın nağıla yəqin özünün də inanmağın gəlmir. Murad aylarla qaladan aşağı yenmir. O, Kalbalı xanın igid, qoçaq sərbazlarından biridir – Ehsan xan Alekseylə üz-üzə dayandı. Birdən onun yaxasından tutub var gücü ilə silkələdi, boğazından tutub sıxdı:

– Sən bilirsənmi ki, xanlıqda oğrunun qolu, böhtançının dili kəsilir. Düzünü de görək atanı, ananı kim öldürüb? Gözlərin günah işləmiş adamların gözü kimi kölgəlidir. Sən qatilləri tanıyırsan. Əgər düzünü deməsən səni meydana çəkdirəcəm. O halda dilin açılar.

Alekseyin yaşı qurumuş gözləri sanki dirənib bir nöqtədə qaldı, bənizi saraldı və birdən Ehsan xanın ayaqlarına düşdü:

– Düzünü deyəcəm. Ehsan xan, məni cəzalandırma...

* * *

Xanlıqda toplantı gec qurtardı. Dağılışanda Kalbalı xanın sözü bu oldu:

– Hərgah Naxçıvandan erməni ailələri köçüb gedirsə qoy getsinlər. İşiniz olmasın. Arxalarınca da bir qara daş atın. Amma erməni ailələrinin Naxçıvana köçməsinə izin vermək olmaz. Ermənilər ruslarla əlbirdir. Qorxuram ki, başımız müsibətlər çəkə.

3

...Şıxəli xan içəri girəndə atasını üzü pəncərəyə tərəf qaranlıqda tək-tənha oturmuş gördü. İçərinin qaranlığı, Kalbalı xanın təkliyi sanki sıxıntı kimi ürəyinə sızdı. Şıxəli xan ağzını açmaq istəyəndə Kalbalı xan arxaya çevrilmədən gümrah səslə soruşdu:

– Şıxəli nə var, nə yox? Ordubaddan indicəmi gəldin?

Şıxəli xan gözlərini döydü: «Az qala deyəcəkdim ki, qaranlıqda niyə oturmusan? Atamın zehni əvvəlkindən də itidir. Hər kəsi addımından, nəfəsindən tanıyır».

Şıxəli atasını qucaqladı:

– Elə indicə yetirmişəm.

Tükəzban xanım oğlunun səsini eşidib özünü yetirdi. Onu çoxdan görmürmüş kimi qucaqlayıb bağrına basdı. Şıxəli xan onun nəmli gözlərində daim gizli bir qəm işartısı görərdi. Sanki Tükəzban xanım korun-korun yanan ocaq kimiydi – tüstüsü içini boğurdu, alovu, gözünün işığında əks olunurdu. O, şamları yandırıb süfrəni hazırlamağa getdi.

Şıxəli xan sükutu pozdu:

– Sisianovun Bakıda öldürülməsini eşitdinmi, ata? Görəsən bu işi kim görmüş ola? Deyəsən qətli azərbaycanlıların üstə atırlar.

– Bəlkə də ermənilərdir – Kalbalı xan başını çevirmədən dedi – ermənilər ara qatır. Rusları bizə qarşı qaldırmaq istəyirlər. Erməni Danili görmədinmi? Mən onu şahın zindanından qurtardım, amma o, Naxçıvanda erməniləri ayağa qaldırmaq istədi...

– Bəs ruslardan ağlın nə kəsir, ata?

– Ağlım indi küt balta kimidir. Heç nə kəsmir, korşalıb. Qacar sülaləsinə nifrətim olduğuna görə Fətəli şahın heç bir sözünə, vədinə inanmıram. Onun fikri Naxçıvanı çapıb-talamaqdır. Əgər İranın himayəsinə keçsək millət ayaq altında tapdanacaq, əziləcək – Kalbalı xan ucadan, yanıqlı köks ötürdü – Nadir şahın vaxtından İran sərbazları Naxçıvanın başına müsibətlər açıb. Mən istəmirəm millət bir də o müsibətləri yaşasın.

Şıxəli xan atasına baxaraq ehtiyatla soruşdu:

– Bəs rusların himayəsinə keçsək necə? Sonra peşiman olmarıq ki?

Kalbalı xan cavab vermədi. Başını sinəsinə əyərək sanki səssiz-səmirsiz qaranlıq dünyasına çəkildi və düşünməyə başladı: rüslara yaxınlaşsalar bundan fayda olarmı? Zəkasının işığında götür-qoy elədi. Sonra handan-hana dedi:

– Mənim Sisianovu görməyə gözüm yox idi. Əgər Sisianov sağ olsaydı mən rusların himayəsinə keçmək barədə düşünməzdim. O, Gəncəni qana bələdi. İndi bu əli qanlı cəllad yoxdur. Tanrı əməllərinə görə onu cəzalandırdı. Bir də Rusiya İranla apardığı müharibədə İrana üstün gəlir.

İranlılar ruslarla müharibə apararkən Azərbaycan xanlıqlarına çox ziyan vurub. Ev-eşiyi yanıb kül olan adamlar yurdundan

didərgin düşüb. Dağıntıların sayı-hesabı yoxdur. Buna görə də heç kəs Fətəli şahı istəmir.

– Yüz ölçüb bir biçmək lazımdır, Şıxəli. Tələm-tələsik çıxardığımız qərarın güdazına gedərik.

– Elə bilirəm ki, rusların himayəsinə keçsək Naxçıvanda əmin-amanlıq olar. Özün bilirsən ki, Naxçıvanı yaşadan ticarətdir. Müharibə başlayan vaxtdan bir tacir də Naxçıvana gəlmir. Yoxsulluq son həddə çatıb. Vəziyyət belə davam eliyə bilməz. Görəsən Qudoviç necə adımdır? Onunla dil tapmaq olarmı?

– Sən rusların tərəfindəsən, Şıxəli?

– Mən bu yaxınlaşmada Naxçıvanın gələcəyini görürəm. İranlıların işi soyub-talamaq, vergi yığmaqdır. Ruslar isə...

– Onda mən rus komandanlığına məktub yazaram. Amma qorxuram ki, mənə inanmayalar. Çünki Sisianov rus komandanlığına məni İran şahının tərəfdarı kimi qələmə verib.

Şıxəli xan onu ruhlandırdı:

– Onlar sənə inanar. Çünki ruslar səni ağıllı dövlət başçısı kimi tanıyır, ata.

– Olsun, oğlum. Deyirlər Xoy xanlığının keçmiş xanı Cəfərqulu xan rusların yanında yaxşı nüfuz sahibidir. Vaxtı ilə mənim ona yaxşılıqlarım keçib.

– Yox ata, ona məktub yazmağın məsləhət deyil. Çünki o, səni şahın yaxın adamı bilir. Cəfərqulu xan özü başının dəstəsi ilə ruslara qoşulub farslarla döyüşür.

– Mən Maku xanı Hüseynqulu xana məktub göndərərəm. O, Cəfərqulu xanla qohumdur. Rus komandanlığı ilə əlaqə yaratmaqda mənə kömək etməsini xahiş edərəm.

– Onda sən yubanmadan məktubunu hazırlayıb göndər.

...Çox keçmədi ki, rus ordusunun qərargahında yüksək rütbəli zabitlər Kalbalı xanın məktubunu aldılar. Bu məktubu ilə rusların himayəsinə keçməyə hazır olduğunu bildirən Kalbalı xan eyni zamanda məsləhəti ilə ruslara gələcək döyüş planlarında kömək etdi: İrəvan qalasını işğal etməyə hazırlaşan rus generalını bu fikirdən daşındırdı. Onları xəbərdar etdi ki, İrəvan qalasında azuqə yoxdur, üstəlik qala dağıdılaraq sıradan çıxarılıb. Qalanın vəziyyətindən xəbərdar olan iranlılar döyüşdə rusları üstələyə bilər.

Kalbalı xanın məktubu rusları düşündürdü. Məktubda deyilənləri əsas götürərək onlar İrəvana hərbi yürüşü dayandırdılar.

Bununla da rus komandanlığında Kalbalı xanın səmimiyyətinə inandılar. General-leytenant Rozen qərargahdan ali baş komandan Qudoviçə göndərdiyi 1806-cı il 10 oktyabr tarixli raportunda yazmışdı: *«Naxçıvanlı Kalbalı xan öz xalqı ilə birlikdə rus ordusunun İrəvana gəlişini gözləyir ki, əlahəzrət imperatorun himayəsini qəbul etsin...»*.

* * *

Kalbalı xanın rusların tərəfinə keçməsi Fətəli şahı özündən çıxardı. O, Kalbalı xanın təcili Tehrana gəlməsini əmr etdi. Kalbalı xan şahın çağırışına məhəl qoymadı. Şah ona tabe olmayan bu məğrur adamı diz çökdürmək, cəzalandırmaq üçün ikinci dəfə yanına çağırdı. Çağırışı yenə cavabsız qaldı.

Fətəli şah yalnız bu zaman Kalbalı xanı zindandan çıxarıb Naxçıvan xanlığının taxtında oturtmasına peşiman oldu. Əgər o anlarda əlinə keçsəydi şah onu ən ağır, dəhşətli cəza ilə cəzalandırardı. Qəzəblənmiş şah Abbas Mirzəyə dedi:

– Min nəfər sərbaz götür Naxçıvana yola düş, Kalbalı xanı qolu bağlı hüzurumda istəyirəm. O, bu dəfə cəzadan yaxasını qurtara bilməyəcək. Şahın çağırışına gəlmir... Ruslara bel bağlayır? Bu müharibədə ruslar məğlub olacaq... Amma Kalbalı xan kor gözləri ilə bunu görməyəcək. Mən təkcə ondan yox, bütün Naxçıvan əhlindən dəhşətli, çox dəhşətli intiqam alacağam. Qoy Kalbalı xan əlimə düşsün...

İran ordusu Naxçıvana hərəkət etdi.

(General-mayor Portnyagin həmin vaxt ali baş komandan Qudoviçə göndərdiyi 1806-cı il 14 noyabr tarixli məktubunda bu barədə yazmışdı: *«Naxçıvanın sahibi Kalbalı xan Tehrana getmək barədə Baba xanın təklifini qəbul etməmiş, bununla da Baba xanı özündən narazı saldığı üçün şah zorla onu ələ keçirmək istəyir...»).*

...Naxçıvanın qala qapıları bağlandı. Kalbalı xan bütün qüvvələri qalanın müdafiəsinə topladı. Çox keçmədi ki, iranlılar qalaya yaxınlaşdılar. Toplar atıldı, süvarilər döyüşə girdilər. Lakin qalanın müdafiəçiləri sərbazları yaxına buraxmadı...

* * *

Abbas Mirzə Tehrana – şahın çağırışına yubanırdı... Fətəli şah onu sarayda gözləyirdi. Səbirsiz şah artıq qəzəbini, hirsini-

hikkəsini cilovlaya bilmirdi. Sanki içərisini bürüyən alov gözlərindən püskürürdü. Oğlunu qarşısında görürmüş kimi söyləndi: «Vecsiz... axmaq. Bir Naxçıvan qalasını almaqda acizlik çəkir. Kor bir xanla bacara bilmir...». Birdən Abbas Mirzəni unudub sanki Kalbalı xanla üz-üzə dayandı. Qaşlarını çatıb onu qarşısında görürmüş kimi qanlı-qanlı baxdı: «Kalbalı xan... Sən mənim yaxşılıqlarımı çox tez unutdun. Qacar səni Tehran zindanına göndərdi. Sən altı il o zindanda çürüməyə məhkum idin. Amma mən taxt-taca yiyələnən kimi zindandan səni açıb buraxdım. İndi qala qapılarını üzümə bağlayırsan. Yadından çıxarırsan ki, İran şahlığının qüdrətli əli daim Naxçıvanın üstündə olub. Naxçıvan İran xəzinəsinə xərac verib... İndi mənə qarşı – Fətəli şah Qacara qarşı çıxırsan. Ruslara qoşulmusan. Bilirəm, gözlərini çıxaran Qacara görə sən bütün Qacar sülaləsinə nifrət eləyirsən...».

...Fətəli şah rusların İrəvan qalasını işğal etmək niyyətindən xəbər tutan kimi onları qabaqlamaq istəmişdi. Sərkərdə Əhməd xanın başçılığı ilə İran ordusunu İrəvan istiqamətinə göndərmişdi.

Kalbalı xan da öz ordusunu toplamışdı. İranlıların hücumunu dəf etmək üçün rusların tərəfinə keçmişdi. (Həmin vaxt rus ordusunun qərargahından ali baş komandana göndərilən raportda bu barədə belə yazılmışdı: *«...naxçıvanlı Kalbalı xan özünün atlı və piyadaları ilə iranlılara qarşı çıxdı»).*

Fətəli şahı da qəzəbləndirən Kalbalı xanın öz ordusu ilə rusların tərəfinə keçməsi və ona qarşı çıxması oldu. Fətəli şah onu üç dəfə Tehrana çağırdı. Kalbalı xan bu çağırışları saymadı...

Şah bezmiş, səbirsiz halda salonun rəngli şüşəli pəncərəsindən gülkarlığı seyr etdi. Həmişə bu vaxtlar Ağabəyim ağa gülkarlıqda olardı. İndi də xarı bülbül güllərinin arasında Ağabəyim ağanı görəndə sanki sahibi-ixtiyar olduğunu unutdu. Abbas Mirzə də, Kalbalı xan da yaddan çıxdı. Qarabağdan gətirilən bu qərib güllərlə qərib Ağabəyim baş-başa vermişdi. Ağabəyim ağanın ruhundan qopub könlünə pərişan duyğular, gözünə leysan yağışlar gətirən xarı bülbüldə gör neçə hikmət, neçə qüdrət vardı! Şah az qala tacını yerə qoyub özünü Ağabəyim ağaya yetirmək, kiçicik, zərif bir gülə pənah gətirən Qarabağ gözəlinin qərib könlünü almaq, qəmli gözlərinin yaşını silmək istədi.

Elə bu anda Abbas Mirzənin gəldiyini xəbər verdilər. Sanki bununla da şahın sahibi-ixtiyar hökmüranlığı özünə qayıtdı.

Abbas Mirzə şahın qarşısında iki qat əyilib təzim etdi, onun qiymətli daş-qaş taxılmış əlini öpüb alnına qoydu. Sonra da əllərini yanına salıb şahın hüzurunda müntəzir dayandı. Şah onun gödək, sarımtıl saqqalına, almacıq sümükləri çıxmış yanaqlarına, seyrək kirpiklərinə, qızarmış, yorğun gözlərinə baxanda qəflətən ürəyində duyduğu ata şəfqətindən kövrəldi. Oğlunu bağrına basıb toz qarışıq tərli boynunu qucaqlamaq, üz-gözündən öpmək istədi. Amma bacarmadı, qaşqabağını töküb sərt, amiranə soruşdu:

– Naxçıvan qalasından nə xəbər?

Abbas Mirzə udqundu, qızarmış gözləri iriləndi:

– Biz qalaya yaxın düşə bilmirik.

– Çünki Kalbalı xan sizdən güclüdür – şah bağırdı. Səsi sanki şüşə kimi çiliklənib Abbas Mirzənin başına yağdı, içinə töküldü. Vəliəhd qorxa-qorxa şahın gözlərinə baxdı:

– Kalbalı xan kor olsa da gözlü adamlardan tədbirlidi, müdafiəni elə təşkil edib ki, qalaya yaxın düşə bilmirik, şəhriyar.

Şah ağır-ağır yerindən qalxdı, əlini ağarmış saqqalına çəkib fikirli dedi:

– Knyaz Sisianovun Kalbalı xanla arası yox idi. Hətta o, Naxçıvanın keçmiş xanı Abbasqulu xanla birləşib Naxçıvanı işğal etmək istəyirdi. O, Abbasqulu xana Naxçıvan xanlığını vəd etmişdi...

Abbas Mirzə qızğınlıqla dedi:

– Xeyir, şəhriyar Abbasqulu xan rusların yox, bizim adamdır. Mən onu Naxçıvan taxtına əyləşdirməyə söz vermişdim.

Fətəli şah vəliəhdlə üzbəüz dayandı, iti, kəskin baxışlarla onun gözlərinin içinə qədər nüfuz elədi, sanki onu səssiz baxışı ilə məzəmmət etdi:

– Abbasqulu xanın bir əli rusların, bir əli isə iranlıların ətəyindən yapışmışdı. Bu iki qüdrətli əllərdən biri onu Naxçıvan taxtına oturtmalıydı. İnanmırsan? Bu dəqiqə sənə sübut da göstərim.

Şah masanın gözündən nə isə axtardı. Qat kəsmiş məktubu axır ki, tapdı:

– Bu məktubu knyaz Sisianov 1805-ci il avqustun 14-də Naxçıvanın din xadimlərinə yazıb. Knyazın məqsədi Kalbalı xanı gözdən salmaq, Abbasqulu xanı hörmətə mindirmək imiş. Sisianov yazıb: *«...Rusiyanın qanunu və müqəddəs rus dövlətinin sərbəstliyi ondan ibarətdir ki, hər bir hökumətin sərbəst həyatı*

*saxlanılsın, qorunsun və müdafiə edilsin. Əgər siz bu imkandan istifadə etmək istəyirsinizsə Abbasqulu xanla birləşin, onunla birlikdə mənim vasitəmlə özünüzə insanpərvər dövlətin simasında himayədar tapın».*

Abbas Mirzənin dodaqları qaçdı, gözləri yorğun təbəssümlə doldu:

– Bu rus tülküsünə işğal etdiyi Bakıda qələbəsinin keyfini dadmağa qoymadım. Bakıya gizlicə göndərdiyim adam ziyafət verdiyi vaxt onun başını kəsib mənə gətirdi.

– Düşməndən intiqam almaqda yaxşı iş görmüsən, amma...

Şah sözünün axırını deməyi sanki unutdu. Oturduğu yerdəcə qırışlar içində itmiş gözləri yumuldu. Xəyalı isə elə bil zülmət içində dördnala çapan at kimi baş götürüb getdi: «Abbas Mirzə Naxçıvanı ala bilmir. Kor Kalbalı xanı məğlub etməkdə acizdir. Niyə? Naxçıvan qalasını tanrımı qoruyur, yoxsa Kalbalı xan o qədər ağıllı, güclü, tədbirlidir ki, Abbas Mirzə bu qədər qoşunla, top-tüfənglə onunla bacara bilmir...».

Şah gözünü açıb ağır-ağır dedi:

– Abbas Mirzə, səni İran taxt-tacına vəliəhd təyin eliyəndə ağlına, bir də gücünə inanmışdım.

Abbas Mirzənin səsi titrədi:

– Mənə həmişə güvənməyinizi xahiş eləyirəm.

– Sən Naxçıvanı ovcunda daş kimi sıxıb, qum kimi ələkdən keçirməliydin...

– Şəhriyar...

– Sözümü kəsmə. Rusların başı indi türklərlə müharibəyə qarışıb. Naxçıvandakı rus polku Türkiyə sərhəddinə çəkilib. Naxçıvanı işğal etmək üçün əlverişli fürsətdi. Kalbalı xanın niyyəti rusların himayəsinə keçmək. İrana arxa çevirməkdir. *Baron Rozen 1806-cı il oktyabrın 10-da general Qudoviçə göndərdiyi məktubda yazıb: **«Naxçıvanlı Kalbalı xan öz xalqı ilə birlikdə rus ordusunun İrəvana gəlişini gözləyir ki, əlahəzrət imperatorun himayəsini qəbul etsin»***. İndi anladınmı mən Naxçıvanın işğalı üçün niyə bu qədər tələsirəm?

Abbas Mirzə acığından dişlərini qıcadı:

– Ağa Məhəmməd şah Qacar gərək onun gözlərini çıxarmazdı, əyilməyən başını vurdurardı.

– Naxçıvanı almağa qılıncımız işləmir. Qılıncın kəsəri olmayan yerdə ağılın kəsəri var. Hiyləyə əl atıb qala qapılarını açdırmalıyıq.

– Lakin necə? – Abbas Mirzənin yorğun gözləri parıldadı.

Şah usanmış, bezmiş kimi əlini yellədi:

– Bu daha sənin işindir.

...İki gün sonra dincəlmiş, qüvvə toplamış Abbas Mirzə başının atlıları ilə Təbrizdəki iqamətgahına yola düşdü.

* * *

Abbas Mirzə Təbrizə çatdı və üç gün sonra iki nəfər atlı İrəvana çaparaq getdi. Qayıdanda üç nəfər idilər. Gecəyarısı idi. Təbrizin küçələri səssiz və kimsəsiz idi. Yuxulu evlərdən zəif işıq gəlirdi. Süvarilər Abbas Mirzənin iqamətgahının qarşısında atdan düşdülər. Üçüncü atlı yuxuluydumu, ya huşunu itirmişdi, bilinmirdi, çünki at dayanan kimi sanki onu atın üstündən götürüb yerə çırpdılar. Sərbazlar özlərini ona yetirdi. Toz-torpağa bulaşmış saqqallı kişini həyəcan, təşviş içində arxası üstə çevirdilər. Sərbazlardan biri qulağını onun sinəsinə söykəyib gözlədi, sonra da sevincək dedi:

– Şükürlər olsun Allaha, ölməyib sağdı.

İkinci sərbaz əllərini dizinə vurub başını buladı:

– Hüseynqulu xanı Abbas Mirzənin vahiməsi basıb. Yazığın qorxudan ürəyi xarab olub – sonra da Hüseynqulu xanı üstubca silkələdi: – Hüseynqulu xan, əşi aç gözlərini, bizi xataya salma. İrəvandan bura uzaq yol gəlmişik. Əliboş Abbas Mirzəyə nə cavab verərik.

Hüseynqulu xan gözlərini açmadan inildədi, zəif səslə soruşdu:

– Mər hardayam? Başım möhkəm ağrıyır.

– Yəqin atdan yerə zərblə dəymisən. Hüseynqulu xan, deyirlər sən igid adamsan. İndi nə olub. Qorxma, dur, Abbas Mirzənin hüzuruna gedirsən.

– Ayaqlarım yerimir – Hüseynqulu xan fağır-fağır onların üzünə baxdı.

Sərbaz hirslə dişlərini qıcadı, yumruqlarını düyünlədi, amma yenə əlacsız qalıb iki qat əyildi, Hüseynqulu xanın qolundan tutub kürəyinə atdı.

...Abbas Mirzə Hüseynqulu xanı görəndə arıq sifətinə yüngül bir təbəssüm qondu. Qonağa oturmağı işarə elədi. Amma Hüseynqulu xan durduğu yerdəcə titrəyirdi, qanı qaçmış dodaqlarında, nəm çəkmiş kimi görünən yorğun yaşlı gözlərində qorxunun, əndişənin kölgəsi sürünürdü. Sanki Hüseynqulu xan təşviş və vahimə dolu baxışı ilə baş açmadığı günahına görə şahzadədən aman istəyirdi.

Abbas Mirzənin dodaqlarında soyuq, müəmmalı bir gülüş görünüb yox oldu. Mülayimliklə soruşdu:

– Səni yolda incitmədilər ki, xan? Sənə indi yemək və yatmağa yer verəcəklər. Yorğun olduğun halından bəllidir.

Hüseynqulu xan cavab verə bilmədi, udqundu. Sanki ürəyinin çırpıntısı gözlərinin qorxaq baxışında əks olundu. Abbas Mirzə birdən onu unutmuş kimi farsca qəliz söyüş söydü, sonra da Hüseynqulu xanın tüklərini ürpədən səslə bağırdı:

– Naxçıvanda baş verən hadisələrdən xəbərin varmı? Xəbərin varmı ki, dostun Kalbalı xan qala qapılarını üzümüzə bağlayıb. Bizi Naxçıvana yaxın qoymur. Bəlkə səndən də kömək istəyib?... Dinmirsən, susursan Hüseynqulu xan?

Abbas Mirzə Hüseynqulu xanın qarşısında dayandı. Onun bükülmüş qəddinə, itaətkar görünüşünə, aman diləyən qorxaq gözlərinə baxıb istehza ilə üzünü çevirdi:

– Kalbalı xan bizimlə müharibə eləmək fikrinə düşüb. Fətəli şahla müharibə haa.. 1801-ci ildə ruslar az qala Azərbaycan xanlıqlarının hamısını işğal etmişdilər. Onda xanlar atama – Fətəli şaha məktub yazdılar: ***«əgər İran Azərbaycana kömək etməsə onda burda müsəlmanların taleyi pisləşə bilər».***

Məktubu alan kimi Fətəli şah Azərbaycan xanlıqlarına, xüsusən də İrəvan və Naxçıvan xanlığına kömək üçün əlli min nəfərlik qoşun göndərdi. O qoşunun başında da mən – Abbas Mirzə dayanmışdı. Kalbalı xan bunları nə tez unutdu?

Hüseynqulu xan udqundu: «Olmaya şahzadə Kalbalı xanın acığını məndən çıxmaq istəyir?.. Kalbalı xanla duz-çörək kəsmişik. Dar məqamda duz-çörəyi tapdalaram, dostluğa arxa çevirərəm. Can şirindi...»

Abbas Mirzə kəskin, sərt baxışlarını onun gözünə zillədi, boğuq, təngimiş səslə dedi:

– Qala qapılarını açmaqda mənə kömək edəcəksən, Hüseynqulu xan.

– Mən... qoşunu gətirim?

– Qoşunsuz, topsuz-tüfəngsiz... Kalbalı xana məktub yazıb onu İrəvana çağır.

– Mən indi İrəvana qayıdıram?

– Yox, sən burda qalırsan. İrəvana mənim sərbazlarım gedəcək. Deyirlər Kalbalı xan mərd adamdır, o, sənin məktubunu alan kimi İrəvana gedəcək. Bizimkilər onu orda həbs edib Tehrana gətirəcəklər.

– Bəs mən?

– Sən isə iki yüz nəfər atlı sərbazla Naxçıvana gedəcəksən. Qalanın müdafiəçiləri səni tanıyıb qapıları bizim üzümüzə açacaq.

Hüseynqulu xanı indi də xəyanətin vahiməsi basdı. İsti tər içində buğlandı, dil-dodağı qurudu: «Kalbalı xan bunu mənə bağışlamaz» Abbas Mirzə əlləri arxasında gəzindi:

– Naxçıvanlılar sənin xəyanətindən xəbər tutanda artıq gec olacaq. Qala işğal olunacaq.

Hüseynqulu xanın gözləri sanki kirpik çalmağı unudaraq iflic olmuş kimi Abbas Mirzənin üzündə qaldı. Ürəyində isə dözülməz ağrı hiss eləyirdi, xəyanət qılıncı itiydi və onun bir ucu Kalbalı xanın ürəyinə işləyirdi, o biri ucu isə öz ürəyinə sancılırdı...

* * *

Kalbalı xan xanlıq iqamətgahından çıxanda günəş artıq narıncı rəngdəydi, Eynalı dağının zirvəsində alışıb yanırdı. Kalbalı xan ayaq saxladı, qoluna girmiş Əli xanın əllərinə toxundu:

– Naxçıvanda payızdır, Əli xan.

– Elədi Kalbalı.

– Yarpaqlar tökülürmü?

– Yarpaqlara təzə xal düşür.

– Leyləklər uçub gedibmi?

– Səfər üstədi, bir azdan yuvaları boş qalacaq.

Kalbalı xan ah çəkdi:

– Ömürdən bir payız da keçir.

– Elədi xan...

Kalbalı xan payızın gəlişini havaların soyuyan nəfəsindən, yarpaqların dəyişən ətrindən hiss eləyərdi. Bu anlarda yaddaşında payız öz lövhəsini çəkərdi: sanki zülmətin içinə qeybdən işıq sızardı. Bu işıqda elə bil payız alışıb yanan əlvan rəngləri ilə can-

lanıb Kalbalı xanı lap əvvəllərdə olduğu kimi valeh edərdi. Lap əvvəllərdə olduğu kimi... bu anlarda qulağına sanki həzin səs gələrdi:

– Kalbalı, Kalbalı heyyy...

Ayağını atın üzəngisinə qoymuş dəliqanlı o səsə cavab verərdi:

– Hardasan Tükəz... gəlirəmmm...

...Harda qaldı sarı yarpaq ətirli, həzin yağışlı payız? Küləklərdən qanad taxan, ürəyində duyğulardan od qalanmış o dəliqanlı?

Hər payız o həzin səs onu çağırardı:

– Kalbalı heyyy...

Kalbalı xan indi o səsə cavab verə bilmir. O səsə sarı at səyirdə bilmir. Qaranlıq bir zülmət içində duyğuları sanki yarpaq kimi xəzan olur, yağış vurur, külək döyür...

Kalbalı xan başını dağlara sarı çevirdi. Lap uzaqlarda mavi duman dərələrin qucağına axıb dolur, yamaclar çiskin yağışı şeh bilərək üzünə-gözünə çiləyir. Boş qalan leylək yuvasını, yarpaqların sarısını, qayaların xınasını, çayların selləmə axmasını görmək üçün xanın iynə ulduzu boyda işıq üçün ürəyi əsdi.

Birdən öz acizliyinə, zəifliyinə acığı tutdu. Gözləri işıqsız qalandan kimsə onun sındığını, qəhr olduğunu görməmişdi. İndi niyə belə kövrəkdi, acizdi?

Əli xan onun ürəyindən keçənləri duymadı, dodağındakı təbəssümü başqa yerə yozdu:

– Fətəli şahın çağırışına getmədin, bunun sonu peşimançılıq olmazmı, Kalbalı?

– Qacarların hamısı bir kökdəndir, Əli xan. Mən nə rus çarına inanıram, nə də İran şahına. Bir onu bilirəm ki, Naxçıvanı qorumalıyıq. Qala qapıları düşmənin üzünə açılmamalıdır.

Kalbalı xanın səsində bir qətiyyət, ötkəmlik vardı. Əli xanla atları minib qalaya tərəf getdilər.

...Qaladan aşağıda payıza bükülmüş gecə sanki işıqla bərabər səsləri də udmuşdu. Əslində qala qapıları bağlanandan hüznlü gecələrin hamısı bir-birinə oxşayırdı: yuxarıda göy qübbəsi qapqara buludlarla örtülürdü, aşağıda bu qara buludlara oxşar narahatlıq, nigarançılıq hökmüranlıq edirdi. Rusların işğalından yaxa qurtaran şəhər yenidən farsların zülmü, talanı, görün-

məmiş vəhşilikləri ilə üz-üzə dayanmışdı. Görəsən naxçıvanlılar axıra qədər davam gətirə biləcəkdimi?

Şəhər durğun, sakit idi, qala isə qaynayırdı. Başının üstündə tünd göy səmanın köynəyindən çıxmış ulduzlar elə bil əl çatacaq qədər yaxın idi. Qalanın içərisində məşəllər yanır, neftin tünd his qoxusu ətrafa yayılırdı. Sərbazların səsi, atların fınxırtısı, uzaqdan gələn tək-tək güllə səsləri eşidilirdi.

Kalbalı xan görünən kimi elə bil qala nəfəsini içinə çəkib səssizliyə büründü. At asta-asta gəlib meydanın ortasında dayandı. Kalbalı xan əlini atın sarğısına çəkib cəld, çevik hərəkətlə atdan düşdü. Əli xanın köməyini gözləmədən bir-iki addım irəli atdı və ucadan, gümrah səslə salam verdi. Salamına gur səslə cavab verdilər.

– Sakitlikdirmi? – Kalbalı xan üzünü səs gələn səmtə çevirdi.

Yüzbaşı Heydər irəli yeridi:

– Sakitlikdir, xan. İran sərbazları eyzən çəkilib gedib. Qalanın ətrafında bir nəfər də gözə dəymir. Topları da çəkib aparıblar.

– Burda bir iş olmaya? – Kalbalı xan kirpiklərini tez-tez çaldı. Abbas Mirzə yəni qaladan əl çəkdi? İnanmıram. Onun kələyi var. Amma nədi, bilmirəm.

– Bəlkə məğlub olmaqdan qorxub, xan?

– İnanmıram yüzbaşı... Amma nə bilim.

Bu anda Ehsan xan atasına yaxınlaşıb atdan düşdü, cibindən çıxardığı məktubu ona verdi:

– Dostun İrəvan xanı Hüseynqulu xandandır.

Kalbalı xan əlini məktuba toxundurub onu təkrar Ehsan xana qaytardı:

– Oxu görək nə yazır?

Ehsan xan məktubu ucadan oxudu: "Salamlar olsun əzizim, qardaşım Kalbalı xana. Bu məktubu sənə ümidlə yazdım. Hərçəndi bilirəm ki, Abbas Mirzənin qoşunu ilə müharibə apardığın bir vaxtda İrəvana gəlməyin müşküldür. Lakin sənin İrəvana gəlməyin çox vacibdir və yəqin eləyirəm ki, kəsdiyimiz duz-çörəyin xətrinə sən özünü mənə yetirərsən.

İmza: Hüseynqulu xan".

Məşəllərin solğun işığında yorğun, yuxusuz, qızarmış gözlər Kalbalı xana zilləndi. Qalada kimsə yoxmuş kimi dərin bir sükut yarandı. Kalbalı xan hiss elədi ki, bu şübhəli sükutdan ürəyinə

sazaq doldu. Sanki qaranlıq dünyasında üzünə zillənən yorğun gözlərin işartısı çaxmaq daşından çıxan qor kimi üstünə töküldü. Tez-tez kirpik çaldı, bir qərara gələ bilmədi. Hüseynqulu xanın nə işi ola bilər ki? Məktubu Ehsan xandan alıb döş cibinə qoydu.

– Fikrin nədir? – Ehsan xan soruşdu.

– Duz-çörək adı çəkib. Getmək gərəkdir. Getməsəm kəsdiyimiz duz-çörək bir paralıq olar.

– Abbas Mirzə Naxçıvandan çıxdığını bilsə qoşunu bura tökəcək – Ehsan xan onu fikrindən döndərməyə çalışdı.

– Abbas Mirzə hardan biləcək? Sən on nəfər sərbaz götürüb mənimlə gedərsən. Şıxəli burda qalsın.

...Gecəyarısı bir dəstə süvari İrəvan yoluna çıxdı. Kalbalı xanın ürəyini birdən-birə şübhənin soyuq kölgəsi bürüdü. Sövqitəbii ilə başını qalaya sarı çevirdi. Şübhəni ürəksiz, zorla özündən kənar elədi: "Hüseynqulu xandan mənə zəfər toxunmaz. Lənət şeytana. Ürəyim getməyə rüsxət vermir. Tükəzbanla görüşmədim. İrəvana getdiyimi nahaq ona demədim...".

* * *

Dan yeri ağarmamış qalanın ətrafında toz-dumana qarışdı. Sonra süvarilər görünməyə başladı. Qalaya tərəf sanki ucu-bucağı görünməyən atlı çapırdı. Qalanın üstə çıxmış yüzbaşı Heydər əlini gözünün üstə qoyub xeyli baxdı, atlılar yaxınlaşanda o, qışqırdı:

– Hüseynqulu xandır, bizə kömək gətirir.

Şıxəli xan da atlıları izlədi. Onlar qalaya tərəf sürətlə gəlirdi. Toplar görünmürdü. Şıxəli xan şübhə ilə gözlərini qıydı:

– Belə çıxır ki, Hüseynqulu xan atamla görüşməyib. Onlar yolda rastlaşmalıydı. O, İrəvana, bu Naxçıvana gəlib. Özü də böyük dəstə ilə. Əgər fikri bizə kömək gətirmək idisə atamı niyə çağırırdı?

– Atan Hüseynqulu xana inanır. Onun etibarlı dostudur – Heydər cavab gözlədi – qala qapılarını açaqmı?

Şıxəli xan qala qapılarını açmağı əmr etdi. Zindan kimi ağır qapılar açıldı. Atlar bir-birinə aman vermədən irəli soxuldu. Süvarilər hamıdan irəlidə gedən Hüseynqulu xanı sıxışdırıb geriyə atdılar. Sonra kimsə onu vurub atdan saldı. Az qala atların ayağının altına düşəcəkdi. Çaxnaşma, qovhaqov, atların kişnərtisi, bağırtı səsləri sanki ağır daş parçası tək başına çırpıldı. At ayaqla-

rının altından toz-torpağa bələnmiş halda sürünüb bir tərəfə çıxdı. Qalanın içində döyüş gedirdi. Kimsə var qüvvəsi ilə qışqırırdı:

– Xəyanətt. Hüseynqulu xanı tutun. Satqını tutun.

Hüseynqulu xan zorla ayağa qalxdı. Möhkəm əzildiyini hiss elədi, başı üstündə durmurdu. Gözləri axırdı. Sanki qaladan başına güllə yağmuru kimi daş yağırdı. Atı qalanın qapısından geri qayıtdı. Sahibinin yanında başıaşağı dayandı. Hüseynqulu xan atın başını qucaqladı, sonra zorla ayağını üzəngiyə qoyub atın belinə qalxdı, boz çöllüyə üz tutdu...

* * *

Naxçıvandan gedən süvarilər isə günbatanda İrəvana çatdılar. Kalbalı xanın çöhrəsi tutqun idi. İçərisindəki şübhə ötüb keçməmişdi. Saraydan xeyli aralıda dayandılar. Kalbalı xan Ehsan xandan soruşdu:

– Bax gör, sarayın həyətində çoxmu adam var?

– Seyrəklikdir, ata.

Kalbalı xan kirpiklərini tez-tez döydü, başını yuxarı qaldırdı:

– Hüseynqulu xan görünmürmü?

– Xeyir, görünmür.

Kalbalı xan içərisindəki əndişəni gizlətmədi, qaşları çatıldı, üzünü Ehsan xana çevirdi, peşimançılıqla köks ötürdü:

– Biz tələyə düşdük, Ehsan.

– Nədən bilirsən, ata?

– Hissiyatım deyir, Ehsan. Hüseynqulu xan məni bu dəfə qarşılamadı. Halbuki o, həmişə başının dəstəsi ilə pişvazıma çıxardı. İndi belə başa düşürəm ki, Abbas Mirzə Hüseynqulu xanı yoldan çıxarıb. Hüseynqulu xan canından qorxub duz-çörəyi tapdaladı...

– Sən ki, ona inanırdın.

– İnam çox vaxt bir eli güdaza verir, Ehsan. Mən yaman aldandım. Lakin məni ağrıdan Naxçıvanın əldən getməsidir. Elə bilirəm ki, Abbas Mirzə artıq onu işğal edib. Sən Muradla elə burdan geri qayıt. Gözə görünmə. Şıxəlidən nigaranam. Ruspərəst olduğu üçün o, Abbas Mirzənin qəzəbindən qurtarammaz. Ona deyərsən ki, vaxt itirmədən Qarabağa Mehdiqulu xanın (Xurşid Banu Natəvanın atası) yanına getsin. Sonra da rus çarına mək-

tub yazıb onun himayəsinə keçmək istədiyini bildirsin. Başqa yolumuz yoxdur.

– Mən səni qoyub gedə bilmərəm.

– Oğlum, kor xan Abbas Mirzənin nəyinə lazımdır? Qorxma o, məni öldürməyəcək. Qorxum ondandır ki, Şıxəli mənə görə güdaza gedər.

Kalbalı xan Ehsan xanı qucaqladı, ayrıldılar.

Ehsan xan Muradla geriyə qayıtdı. Batan günəşin zəif şöləsi altında uzaqlaşan iki atlı xəyal kimi görünüb sonra yox oldu...

* * *

Kalbalı xan atını xan sarayının həyətinə sürdü. O anda sərbazlar həyətə töküldü. Xanın sifətində indi təmkinli, sakit bir ifadə vardı. Səssizcə içəri keçdilər. Dəstəbaşı istehza ilə güldü:

– Hüseynqulu xanın çağırışına nə tez gəldin xan?

– Hüseynqulu xanın fatihəyə ehtiyacı vardı, gəldim onu oxuyum.

Kalbalı xanın üzündə istehzalı gülüş göründü.

– Bilmək olmaz kim kimə fatihə verəcək.

– Onu Allahımız daha yaxşı bilir.

– Həbs olunub Tehran zindanına gedirsən xan.

– Bilirəm.

– Uzaq yol gəlmisən. Müsəlmançılıqdır. Dincəlməyə ehtiyacın var. Sübhdən yola çıxırıq.

Kalbalı xan yerinə uzansa da yata bilmədi. Dərin peşimançılıq yuxunu gözlərinə yaxın qoymadı.

* * *

...Qalada döyüş gedirdi. Atılan güllələrin səsi sanki özü də gülləyə dönüb dolu kimi evlərin başına yağırdı. Bu evlərdə ağızları duada, baxışları qorxu, könülləri intizar içində olan adamların ürəyinin başına sanki səslərin gülləsi dəyirdi. Bu səssiz güllələr heç kimi öldürmürdü, amma öldürməkdən də ağır bir cəza verərək onları sarsıntı içində saxlayırdı. Bilirdilər ki, Abbas Mirzə savaş qurtaran kimi Kalbalı xanın acığını onlardan çıxacaq, Naxçıvan talanıb, diz çökəcəkdi...

Qalada sonuncu güllənin səsi eşidildi. Sonra qaladan aşağıya ildırım sürəti ilə gələn atlılar göründü. Az keçmədi ki, şəhərin dar, ensiz küçələri at nallarının səsləri ilə doldu. Toz-duman

qalxdı. Süvarilərin keçib getdiyi yerlərdə darvazalar qorxa-qorxa açılır, başlar görünür, qorxu çəkən təlaşlı gözlər ətrafa baxır və gedən süvarilərin arxasınca yana-yana qarğışlar tökülürdü. Oğlan uşaqları analarının əllərindən qurtarıb özlərini küçəyə atırdılar.

Şəhərdə müsafirsiz qalan karvansaralara, həmişə qələbəlik olan dördkünc bazara, yollardakı kiçik baqqal dükanlarına sanki dünyanın ən ağır və zəhmli sükutu çökürdü. Elə bil Kalbalı xanın Naxçıvanın başı üstdən çəkilən kölgəsi bu şəhəri yetim qoymuşdu, sanki onu adamları ilə birlikdə qara düyünçəyə bükübyeddi qat qaranlığın içinə atmışdı.

* * *

...Abbasqulu xan ayağını saraya qoyanda bir anlıq dayandı, içərisinə dolan sevincin dalğası bütün vücudunu bürüdü. Naxçıvan taxtına yenidən əyləşməklə hökmüranlığı qayıdırdı. Yenidən hakimiyyətə qayıdışın qalibiyyəti onun içində illərlə gürzə tək yatıb qisas almaq məqamını gözləyən canavar ehtirasını, Kalbalı xanı xışmalayıb əzmək, ayaqlar altına salmaq, can çəkən əzabını, örtülən kor gözlərini, susan lal dilini, yerə çırpılan kürəyini və iztirablarını görmək nəşəsini bir an içində sevinc dalğası tək püskürüb üzə çıxardı. Abbasqulu xan başını qaldırıb uca göylərə baxdı, sanki göylərin müqəddəs dərinliyində bu anı yaşamaq fürsətini ona vermiş uca tanrıya şükranlıq duyğularını səssiz dualarla izhar etdi...

Sarayda Kalbalı xanın adamlarından kimsə yox idi. Saray boş qucağını Abbasqulu xana açdı. Lakin xan Naxçıvana ayaq basan kimi sərbazlarını Ehsan xanla Şıxəli xanın arxasınca salmışdı. Ehsan xanı yaxalamışdılar. Şıxəli xan başının adamları ilə Qarabağa – ruslara pənah aparmışdı... Bu xəbər Abbasqulu xanın içindəki qəzəbi alovlandırmış, Şıxəli xanın əldən çıxması onu pəjmürdə buraxmışdı...

Abbasqulu xan çoxdan əyləşmədiyi qoltuq kürsüsünə yanaşdı. Əllərini ona sürtüb içəriyə göz gəzdirdi. Salonu necə qoyub getmişdi, eləcəydi. Sanki aradan illər keçməmişdi. Qoltuq kürsüsündə əyləşdi. Gözlərini yumub xəyalən Kalbalı xanı qarşısında mağmun bir görkəmdə təsəvvür etmək istədi. Amma bacarmadı. Əksinə elə bil Kalbalı xanın qüvvətli əllərini birdən boğazında hiss elədi və gözlərini açdı. Bayaq vücudunu bürüyən

sevinc dalğası bir anda yox oldu. Sanki hökmüran duyğularını zəhərli tikanlara büküb ürəyinin başında saxladı, Abbasqulu xan. İçindəki dumanlı narahatlıq əndişəyə çevrildi: «Kaş məni Naxçıvan xanlığının taxtına ruslar çıxaraydı, Abbas Mirzə yox. Rusların güclü ordusu var. Qorxuram ki, iranlılar bu müharibədə ruslara uduzub məğlub olalar. Mənə etibarını itirmiş ruslar isə məni taxtdan salalar. Bəlkə də məhv edərlər. Onların etibarını qazanan Şıxəli xanı taxta çıxararlar... Hələlik xanlıq taxtı mənim əlimdədir. Fürsəti əldən verməməliyəm. Abbas Mirzə ilə birləşib Kalbalı xanın adamlarını aradan götürməli, məni dar ayaqda tək buraxan naxçıvanlılardan intiqam almalıyam. İntiqamım dəhşətli olacaq...».

Bu anda Abbas Mirzənin gəldiyini ona xəbər verdilər.

* * *

Sarayda hamı bir-birinə dəydi. Sarayın qarşısında İran sərbazları cərgə ilə düzülüb farağat vəziyyətində dayanaraq baxışlarına qədər dondular. Vəliəhd başını çevirib onlara baxmadan saraya girdi. Abbas Mirzənin çatılmış qaşlarından, tutqun sifətindən, yorğun, sərt baxışlı gözlərindən Abbasqulu xanın içinə üşütmə düşdü. İrəli yeriyib başını sinəsinə əyərək ikiqat oldu və geriyə çəkilərək Abbas Mirzəyə yol verdi. Dodağının ucunda çəkingən yaltaq təbəssüm görünüb yox oldu. Abbasqulu xan vəliəhdə xoş söz demək, yaranmaq üçün həmin yaltaq təbəssümlə onun üzünə baxıb astadan dedi:

– Vəliəhd, naxçıvanlılar İran sərbazlarının bu zəfərindən çox pərişandır.

Abbas Mirzə başını ona çevirmədən nifrətlə cavab verdi:

– Kalbalı xana güvənirdilər. Güvəndikləri dağlara qar düşdü. Lakin qar hələ də yağmaqdadır. İrəlidə onları gözləyən fəlakətdən xəbərsizdi naxçıvanlılar.

Abbasqulu xanın sifətindəki yaltaq təbəssüm çəkildi: "Görəsən vəliəhdin ağlına nə gəlib? Naxçıvanlılar üçün nə cür cəza düşünüb görəsən?".

Abbas Mirzə sanki onun intizarını duydu:

– Naxçıvanlıları İranın cənub əyalətlərinə köçürmək fikrindəyəm. Bu fikir Fətəli şahın da xoşuna gəldi.

– Cənub əyalətlərinə? – Abbasqulu xan ixtiyarsız soruşub udqundu.

– Bu onlar üçün ağır cəza olacaqdır. Doğma yurd-yuvalarından ayrı düşmələri onlara cəhənnəm əzabı çəkdirəcək. Naxçıvan qalasını hiylə işlədib aldığıma görə, üstəlik Kalbalı xanı Tehran zindanına göndərdiyimə görə kəngərlilər məndən incikdir.

Abbasqulu xan ürəyindən keçirdi: "həm də məni xanlığın taxtına oturtduğuna görə...".

Abbas Mirzə ona baxmadan səsini ucaltdı:

– Mən bilirəm, ruslar Naxçıvana gəlsə onlar rusların himayəsinə keçəcək, bizə arxa çevirəcəklər. Çünki Kalbalı xan onları belə qandırıb. Üstəlik Şıxəli xan indi rusların himayəsindədir. Fikrim budur ki, əhalini İrana köçürüb qalanı rusların üzünə bağlayam.

Abbasqulu xanın üzünü, gözünü, dodaqlarını yaltaq təbəssüm, içini isə qəzəb qılıncı doğradı: "Naxçıvanlılarla mənim köhnə haqq-hesabım var, Abbas Mirzə. Onlar mənim arxamda dayanmadılar, Kalbalı xanı seçdilər, yüksəklərə qaldırdılar. Kor Kalbalı xan elə bil onlar üçün göylərdən yenmiş peyğəmbər idi. Mən bu taxtda yenidən əyləşmək, Naxçıvan xanlığının başına keçmək üçün ruslara yaltaqlandım, əyildim, sındım. Ona görə ki, hakimiyyəti öz əlimə alım. Sənə də az yaltaqlanmadım, Abbas Mirzə. Naxçıvanlıları İrana köçürməyə tələsmə. Şəhərdə Kalbalı xanın tərəfdarları var. Onları cəzalandırım, hayıfımı, acığımı çıxım... Sonra bəlkə yenə ruslara yol tapdım... Çünki belə görürəm ki, müharibədə onlar sizə üstün gəlir...".

Abbas Mirzə başını qaldırıb istehza ilə dedi:

– Nə yaman fikrə getdin, Abbasqulu xan?

Abbasqulu xan əlini sinəsinə qoyub vəliəhdin qarşısında ikiqat əyildi:

– Sizin ayağınız biləni bizim başımız bilməz. Naxçıvanı ellikcə köçürün.

Abbas Mirzənin qəfləti gülüşündən diksinən Abbasqulu xan yan-yörəsinə baxdı: "Mən görəsən səhvə yol vermədim ki...".

5

Dərya otağa girib-çıxdıqca Suat bəy kirpiklərini qaldırıb baxır, bu gizli baxışda sanki qəlbinin dərinliklərindən süzülüb gözlərinin parıltısına qarışan pünhan sevda boy verirdi. Hacı Əbülqasım karvansaradan hələ qayıtmamışdı. Hacının yubanmasından əndişəyə düşən Səbihə xanım əlləri qoynunda həyətə çıxır, yol-

lara baxır, sonra səbri tükənmiş həyətdə alışdırdığı sarı samovarın yanına qayıdırdı. Şəhər nehrə kimi çalxanırdı. İran sərbazları hər yerə baş vururdu. Şəhər meydanı boş qalmırdı. Abbasqulu xan Kalbalı xanın adamlarını meydana çəkir, cəzalandırırdı. Cəza vaxtı adamları meydana zorla yığırdılar. Sərbazlar evlərə soxulur, şallaq gücünə camaatı meydana sürükləyirdilər. Hacı Əbülqasım darvazanı bağlayıb bayıra çıxmazdı. Abbasqulu xandan zəhləsi gedirdi... Amma indi kişi birdən-birə karvansaraya baş çəkməyə getmişdi.

Hacı Əbülqasımın ikimərtəbəli yaraşıqlı evi şəhərin yuxarı hissəsində olduğundan ətraf aydın görünürdü. Səbihə xanım indi də əlini gözünün üstə qoyub baxdı: uzaqlarda boz qalın tüstü burula-burula qalxırdı. Qadının ürəyi narahatlıqla çırpındı: "Görəsən indi kimin evinə od vurdular?".

Suat bəy içəridə tək oturmaqdan darıxıb həyətə çıxdı. Odu sönmüş samovara od salan Səbihə xanımın gözləri yaşarmışdı. Günəş qüruba əyilirdi. Qürubqabağı narıncı rəngə boyanan günəş səmanın bir tərəfində sanki yanmış ocaq kimi köz salmışdı. Dərya stəkan-nəlbəkini həyətə gətirib çay süfrəsi üçün hazırlıq gördü. Başını qaldırıb səmanın döşündə gözqamaşdıran narıncı günəşə baxdı, tez də gözünü çəkdi. Bu anlarda qızın təmiz, sadəlövh baxışlarından sanki yaz mehi kimi qəmli bir duyğu axıb keçdi. Əllərini sinəsində çarpazlayaraq aşağıda aydın görünən gömgöy Araza, yaşıl vadilərə baxdı. Suat bəy hiss elədi ki, qızın gözləri vadidə olsa da xəyalı çox-çox uzaqlardadı. Səbihə xanım içəri keçən kimi Suat bəy pıçıltı ilə qızı çağırdı:

– Dərya...

Dərya diksinib qollarını sinəsindən çəkdi. Gülümsünərək oğlanın üzünə baxdı:

– Eşidirəm, Suat bəy.

– Dərya, bir söz soruşmağa izin verərsənmi?

– Buyur.

– İstəklin varmı?

– Mənim istəklim?

– Hə, sənin.

Dərya çaşıb özünü itirdi. İçində yaz tumurcuğu tək göyərən, təzə-təzə gumuldanan duyğularına hüzn, qəm qatan gizli sevdanın atəşi üzünə vurdu. Yanaqları dağ laləsi tək alışıb yandı. Qız

üzünü Suat bəydən gizləməyə çalışdı. Oğlan cavab almadığından təkrar soruşdu:

– Sizdə uzaq ölkədən gələnə qız verirlərmi, Dərya?

Dərya kürəyində qıvrılan qoşa hörüklərini sinəsinə atıb açdı, əllərinin titrədiyini gizləməyə çalışaraq təzədən saçlarını hörməyə başladı. Suat bəyin gözləri onun hörüklərindəydi. Sanki qız şeytan təbəssümü, süzgün gözləri ilə uzun, ipək kimi yumuşaq saçlarını tez-tez açıb hörərək onu tilsimə salırdı. Oğlanın sualı onun könlünü təlatümə gətirdi.

– Nə oldu Dərya, niyə dinmirsən?

Dərya alt dodağını dişləyib çiyinlərini çəkdi:

– Nə bilim? Baxır kimə?

– Mənə burda qız verərlərmi?

– Sən evli deyilsənmi, Suat bəy? – Dərya sanki bununla da çoxdan bəri onu incidən, əzab verən gizli sorğularına cavab almaq istədi.

– Evli olsam Naxçıvanda bu qədər qala bilərəmmi Dərya?

Dəryanın könlü rahatlandı. Şeytan təbəssümü ilə oğlanın üzünə baxdı:

– Bəlkə də verərlər. Amma burda səni yaxşı tanıyan varmı?

– Hacı Əbülqasım.

– O sənin yaxşı tacir olduğunu bilir.

– Bu nə sözdü Dərya? Bəyəm sən məni tanımırsan?

Dərya birdən-birə qaşqabağını tökdü. Sanki qəflətən içində əsən dəli rüzgardan əhvalı pozuldu, gözündən təbəssümü, dodağından gülüşü yox oldu. Soyuq-soyuq soruşdu:

– Sən burda kimə aşiq olmusan, Suat bəy?

– O mələk kimi bir qızdı. Mən onun tilsimindən çıxıb Naxçıvandan gedə bilmirəm. Getsəm də tez qayıdıram.

– Eləmi?

– Necə deyim, Dərya?

– Hər halda başa düşərik.

– Mənə acığın tutmur ki, Dərya?

– Niyə də tutsun...

– Bəs sənin necə istəklin varmı?

– Beşikkəsdiyik.

– Beşikkəsdi? Başa düşmədim, nə olan şeydi o?

Qız onun gözlərinin içində, qorxu, narahatlıq sezdi. Məmnun qalaraq şıltaq bir əda ilə sanki oğlanın gizli duyğularından qisas

alırmış kimi çiynini atıb cavab vermədi, hörüklərini kürəyinə atıb getmək istədi. Suat bəy qoymadı:

– Beşikkəsdi nədi, başa sal.

– Yəni mən də, o, da beşikdə ikən bir-birimizə ad olmuşuq.

Suat bəy rahatlıqla nəfəs aldı:

– Hər halda nişanlı sayılmırsız.

– Tutaq ki, elədi.

– Getmə Dərya. Sənə sözüm var.

– Anam atama görə narahatdır. Ağacın altında səninlə söhbətimiz onun xoşuna gəlməz. Qızın yad oğlanla söhbəti böyüklərin xoşuna gəlmir.

– Yaxşı, desəm ki, o mələk sənsən...

– Əstəğfurullah.

– Dərya...

– Atam məni uzaq ölkəyə verməz.

– Mən daim sizin barənizdə düşünürəm, Dərya. Naxçıvan indi çox qarışıqdır. Bu gün Naxçıvan farsların əlindədir, bəlkə də sabah rusların ixtiyarına keçəcək. Sabah taleyiniz necə olacaq, məlum deyil. Mən sizin üçün çox narahatam.

Qızın şıltaqlığı bir anda ötüb keçdi, lal olmuş kimi dinib-danışmadan gözlərini Suat bəydən çəkmədi. Sanki içərisində qəflətən qopmuş duyğu qasırğası odunu-atəşini, alovunu-istisini üz-gözünə səpələdi. Bu duyğular yanğın kimi bütün vücudunu bürüdü. Addım atmaq, Suat bəydən qaçmaq, aralanmaq, onu yaxıb-yandıran bu gizli atəşdən yaxasını qurtarmaq istədi. Amma duyğuları ilə bacara bilmədi. Titrək səslə bir gözü qapıda pıçıldadı:

– Anam görər.

– Səbihə xanım yəqin ki...

– Anam heç nə bilmir.

– Mənə cavab vermədin, Dərya.

– Ata-anamın bircəsiyəm, Suat bəy. Onları tək qoyub özgə məmləkətə gedə bilmərəm.

– Tale və qismətə mən çox inanıram, Dərya.

– Əgər qismətinizdə varsa, Suat bəy...

– Rəsul Allah ürəyimizdəki sevdaya dəyib toxunmaz. Allahın rüsxəti varsa, ayrılıq bizi imtahana çəkməz, Dərya.

Səbihə xanım çıraqları yandırıb ləmələrə düzdü. Çırağın qarşısında dizləri üstə oturub dodaqlarının altında pıçıltı ilə dua oxu-

mağa başladı. Sanki bununla ürəyi təskinlik aldı, əllərini üzünə çəkib ayağa qalxdı və həyətə çıxdı. Dərya ilə Suat bəyi baş-başa görəndə duruxdu, sonra ürəyindən keçirdi: "Çox şükür, heç kəsə yovuşmayan bu qızın üzü gülür. Suat bəy də çox abırlı, mərifətli oğlandır. Üstəlik də yaraşıqlı. Onu görən kimi qanım qaynadı. Hər dəfə Naxçıvana gələndə bizə də baş çəkir. Bu dəfə yazıq uşağın işi gətirmədi. İranlılar başımıza od ələdi. Yaxşı ki, Suat bəy bu dəfə əliboş gəlmişdi... Dəvə dolu yük gətirməmişdi. Yoxsa iranlılar tutub əlindən alardı... Suat Dəryaya çox yaraşır. Amma Hacı uzaq elliyə qız verərmi? Yox, yox verməz. Heç mənim də könlüm razı olmaz. Necə yaşarıq Dəryasız? Burasını heç düşünmədim... Elə bil oğlanın yaraşığı, mərifəti, kamalı ağlımı aldı. Yox, heç vədə Dəryanı vermərəm".

Səbihə xanım qorxu və hüznlə qızını səslədi:

– Atanın qayıdan vaxtıdı, süfrəni hazırla.

Dəryanın çöhrəsində şıltaq təbəssüm oynadı:

– Suat bəy, atamın yanında gözünü üzümə zilləmə. Özümü itirirəm.

– Yaxşı.

– Yaxşı deyirsən... amma.

– Bu dəfə çox şükür, Naxçıvandan əliboş qayıtmıram.

Dərya cavab vermədən içəri qaçdı.

...Şəhərə axşam çökürdü. Qara, çəhrayı buludlar sanki səmada duman kimi axırdı. Təzə sulanmış gül ləklərində ləçəklərdən elə bil iri şeh damlaları asılmışdı. Qızılgüllərin ətri duyulurdu. Suat bəyin gözləri qapıda qalmışdı. Səbəbsiz narahatlığına şirin bir hüzn qarışırdı.

* * *

Küçələrdə silahlı sərbazlardan başqa kimsə görünmürdü. İranlılar şəhəri işğal edəndən yaşlı, qoca adamlardan başqa kimsə küçəyə çıxmırdı. Şəhərin cavanları Muradgilin dəstəsinə qoşulmuşdu. Bu dəstənin harda olduğunu kimsə bilmirdi. Farslarla döyüşmək üçün çox güman ki, vaxtı, məqamı gözləyirdilər.

Şəhər üzdən sakit görünsə də əslində təlatüm içindəydi. Günün sakit vaxtında birdən səssizliyin sükutu pozulurdu. Bir həyətdən qopan qışqırtı, fəryad səsləri ətrafa yayılırdı. Sərbazlar günün-günorta çağı evləri qəraət edirdilər. Şallağın altına salınıb

döyülənlərin, işgəncə altında qışqıranların fəryadı tük ürpədirdi. Sonra yenə küçələrə dəhşəti içində gizlənmiş sükut çökürdü.

...İndi də küçələrdə silahlı sərbazlar gəzişirdi. Hacı Əbülqasım dar küçədən adlayıb genişliyə çıxdı. Dördkünc bazarın yanındakı karvansarasına çatanda dayandı. Karvansaranın geniş həyətinə çoxlu at bağlanmışdı. İçəri sərbazlarla dolmuşdu. Arı pətəyi kimi qaynaşırdılar. Hacı Əbülqasımın ürəyinə sıxıntı gəldi. Sanki ürəyinin başından asılmış daş bir az da ağırlaşdı.

Sərbazlardan biri Hacı Əbülqasıma yanaşıb tüfəngin qundağı ilə kürəyinin ortasından vurub itələdi. Hacı özünü zorla toplayıb saxladı. Çevrilib tərs-tərs sərbaza baxdı:

– Ağa, niyə vurursan ki, bura mənim karvansaramdır.

– Rədd ol, burdan.

– Ağa, bir az mərifətli danış.

– Az danış. Keyfimə soğan doğrama. Çəkil get. İrana köçəndə karvansaranın fikrini elərsən.

Sərbaz arxasını ona çevirib nifrətlə deyindi:

– Abbas Mirzə bilmirəm bunları niyə İrana köçürmək fikrinə düşüb?

Hacı Əbülqasımın durduğu yerdəcə başı dumanlandı: «Necə yəni İrana köçürmək... İran şahının başı xarabdı, nədi? Birdən bu xəbər səhih olar».

Hacı Əbülqasım dili-dodağı təpimiş irəli bir addım atdı:

– Ağa...

Sərbaz geri çevrildi, qan çəkmiş yumru bulaşıq gözlərini Hacı Əbülqasıma zillədi, sonra da tüfəngi yuxarı qaldırdı:

– Qanını tökərəm, rədd ol, pədər süxtə.

Hacı Əbülqasım irəli addım atmaq istərkən büdrədi, az qala yıxılacaqdı – qəddini düzəldib papağını yerdən götürdü, tozunu çırpıb başına qoydu və qan iyi gələn sərbazdan ayrıldı. Çayçı Rəcəbin çayxanasına çatanda ayaqlarını sürüdü, evdə nigaran qalsalar da, köçürülmək haqqında bir xəbər eşitmək istəyi ilə çayxanaya girdi.

Çayxana ağzına qədər doluydu. Buraya gələnlərin çoxu vaxtını keçirməyə yox, dərd-sərlərini bölüşməyə, təzə xəbər öyrənməyə gəlirdilər.

Hacı Əbülqasım keçib Xanvəlinin yanında oturdu. Xanvəli soruşdu:

– Tay karvansaraya müsafir gəlməz Hacı.

– Müsafir gəlib özünü oda atarmı Xanvəli. Malından, canından bezməyib ki.

Ələmşah tək gözünü qıyıb, gözünün içində gizlənmiş kədərlə Hacı Əbülqasımdan soruşdu:

– Təzə xəbəri eşitdinmi Hacı?

– Hansı xəbəri?

– İrana köçürülürük. Ey vay, başımız çəkmədiyi qalmadı. Bu İran şahları, rus padşahları bilmirəm bizdən nə istəyir? Deyirlər Abbas Mirzə Naxçıvan əhlini İranın cənub tərəflərinə köçürmək istəyir.

– Bu xəbəri mən də təzə eşitdim, Ələmşah – Hacı Əbülqasım qəhərləndi, gözlərinin bulağı yaşla doldu – yaşımızın bu vaxtında nə ölümümüz var İranda?

– Abbas Mirzə ilə Abbasqulu xan görmədiz Kalbalı xanın tərəfdarlarının başına nə oyun açdı? Tutulan tutuldu, ələ keçməyən Qarabağa Şıxəli xanın yanına qaçdı – Xanvəli köksünü ötürdü – Vallah qalmışıq əli qoynunda. Unun qiyməti qalxdı ceyran belinə. Pul-para göyə çəkildi. Bundan belə nə olacaq, bir Allaha agahdı.

– Gorun çatlasın, Kalbalı xan – Salavat əlini dizinə çırpdı, – çaqqallar səni uzaqda görüb meydan sulayır, at oynadır.

Hacı Əbülqasım da yanıb töküldü, isti çaydan ağzı yana-yana bir qurtum alıb başını buladı:

– Əşi, Abbasqulu xan taxta çıxmaqdan ötəri öz doğma oğlunun da başından keçər. Gah rusların arxasınca süründü, gah farsların. Kişi yorulub usanmadı ha.

Xanvəli:

– Görəsən Kalbalı xan Tehrandadır? Ya yeri-yurdu bilinmir?

Hacı Əbülqasım ciddiyyətlə:

– Tehranda şahın sarayında. Biz burda öz günümüzə ağlayırıq, o, orda sarayda keyfdə – dedi.

Ələmşah əlini göyə açdı:

– Çox şükür. Təki elə olsun. Yoxsa nigarançılıq məni öldürürdü ki, zindanda əziyyət çəkir – Sonra da sadəlövhlüklə gözünü Hacı Əbülqasımın ağzına dikib soruşdu:

– Sarayda nə işə baxır?

– Abbas Mirzəni əvəz eləyir.

Ələmşahın təəccüb və heyrətdən gözü böyüdü:

– Denən sən öl.

Hacı Əbülqasım ciddiyyətini pozmadı:

– Bir qonşum var, adı Fatmanisədi. İki oğlu var. Cəfər və Səfər. Həmişə and içəndə deyir: Səfər ölməsin, Cəfər ölməsin, sən öləsən. Amma mən sənə «sən öl» demirəm Ələmşah.

– Demək səhihdi. Onda biz köçürülmək xəbərindən təşvişə düşüb niyə qorxuruq? İndiki Kalbalı xan Fətəli şahla dizbədiz oturub.

Xanvəli ilə Salavat pıqqıldadı.

Ələmşah arxayınlıqla:

– Kalbalı xan qeyrətli kişidir – dedi – ya bizi İrana köçürməyə qoymaz, ya da İranda...

– Hərəmizə sarayda bir iş verər? – Xanvəli uğunub getdi.

– Gülmə ayə, hamı bizə baxır – Ələmşah him-cim elədi – camaat bu dəqiqə qan ağlayır, sən də özünü qoymusan arsızlığa. İndi gülmək vaxtıdı? Kalbalı xan öz aramızdır, təəssübkeş adamdır. Naxçıvanlıya iş verməsə də hər halda ev-eşik verər.

– Hə da bə – Salavat gülüşünü zorla boğdu. Amma gözlərinin içində yaş qaynadı.

Hacı Əbülqasım yanıb töküldü:

– Ələmşah...

– Can Ələmşah.

– Əşi, nə vaxta qədər avam olacaqsan?

– Avam niyə oluram, Hacı?

– Fətəli şah Kalbalı xanı vəliəhd götürdü?

– Onu sən deyirsən, mən yox. Mən də sənə inanıram. Əgər sən də yalan danışırsansa Hacı, tay bu dünyada kimə inanaq, hə, yalan deyirəm– Ələmşahın səsi titrədi.

Hacı Əbülqasımın bu fağır, məhzun görünüşlü kişiyə yazığı gəldi:

– Kalbalı xan indi Tehran zindanındadı. Hüseynqulu xan ki, Abbas Mirzəyə kömək eləyib onu İrəvana apartdırdı, orda sərbazlar Kalbalı xanı qolubağlı Tehrana götürdülər. Çünki Fətəli şah düz üç dəfə onu hüzuruna çağırmışdı, xan da onu saya salmamışdı. Üstəlik qala qapılarını üzünə bağlamışdı.

– Onları bilirəm Hacı.

– Bəs nəyi bilmirsən?

– Kalbalı xan peyğəmbər kimi bir adamdı. Dedim bəlkə Fətəli şah peşiman olub.

– Şahlar peşimançılıq nədi bilməzlər.

– Yazıq, yenə düşdü zindana – Ələmşah vaysındı.

Bu anda çayxananın qapısı çırpıldı. Bir dəstə adam içəri girdi. Yaşlı kişi ucadan dedi:

– Ay camaat arxayın oturmayın. Başınızın çarəsini qılın. İki-üç günə bizi köçürürlər İrana.

Çayxanadakılar bir-birinə dəydi. Hacı Əbülqasımla Xanvəligil həyəcan içində ayağa durdular. Sağollaşmadan çayxanadan çıxdılar.

...Hacı Əbülqasım həyətə girəndə dərindən nəfəs aldı. Alnında puçurlanmış buz təri sildi. Suat bəyi görəndə zorla gülümsəmək istədi. Amma təbəssüm sanki acı qəhər kimi dodağının küncündə qaldı. Hacının kədərli gözləri, tutqun sifəti sanki otağa da nigaran, əndişəli bir sükut gətirdi.

Süfrə açılsa da Hacı Əbülqasım çörəyə əl uzatmadı. Sanki otaqda hamını, üstəlik qonağı da unutmuşdu. Xəyalında bitib-tükənməyən yollar vardı. Bu yolların toz-dumanına bata-bata hara gedəcəkdi, kimə pənah aparacaqdı?

Səbihə xanım ahəstə səslə dedi:

– Hacı çörəyi gözlətmə. Bir qismət kəs.

Hacı Əbülqasım ah çəkdi:

– Siz də yaxın oturun. Dərya, kənarda durma. Suat bəy də özgə deyil. Boğazımdan tikə keçmir.

Səbihə xanım Hacıya təskinlik verdi:

– Dərd təkcə bizimki deyil Hacı. Allah böyükdür. Biz hamımız onun mərhəmətinə sığınmışıq. İnşallah bu qara duman başımızın üstündən çəkilər. Bir də hamı bizim günümüzdədir, Hacı. Hamı necə biz də elə.

– Abbas Mirzə camaatı İrana köçürmək niyyətinə düşüb, Səbihə?

Səbihə xanım udqunub gah qızına, gah da Suat bəyə baxdı. Qəhərləndiyindən gözlərində yaş buz kimi dondu.

– Bəs nə düşünürsən Hacı? – Suat bəy soruşdu.

Hacı Əbülqasım çiyinlərini çəkdi:

– Əgər Abbas Mirzə dediyini eləsə... Evindən-eşiyindən didərgin düşən naxçıvanlıların taleyi necə olacaq, bilmirəm.

Suat bəy xeyli müddət gözlərini ləmədə yanan çırağa zillədi. Nəyi isə fikrində götür-qoy elədi, sonra da çəkinə-çəkinə dedi:

– Hacı mən sabah yola düşürəm...

– Bu dəfəki gəlişin yaxşı vaxta düşmədi, Suat bəy.

– Mən sizə öz doğma ailəm kimi isinişdim, Hacı.

– Biz də sənə öz doğma övladımız kimi baxdıq. Ona görə də sənin karvansarada qalmana razı olmadım.

– İndi mən sizə görə narahatam, Hacı. Sizi bu ağır gündə qoyub getməyə ürəyim yol vermir.

– Nə etmək olar, Suat bəy.

– Hacı...

– Eşidirəm, Suat bəy.

– Mən sizi də özümlə aparmaq istəyirəm.

– Bizi?

Hacı elə ucadan təlaşla soruşdu ki, Suat bəy özünü itirdi:

– O tərəfdən ruslar, bu tərəfdən iranlılar. Üstəlik İrana köçürülmək qorxusu. Sizin taleyiniz indi açıq dənizdə üzən yelkənsiz gəminin taleyinə bənzəyir. Külək onu hansı səmtə atacaq məlum deyil. Ailənizin taleyini düşünün.

– Hə Dəryanın... – Hacının gözləri doldu. Bircə anlıq ona elə gəldi ki, top atəşləri evini dağıdır. Sərbazlardan biri Dəryanın saçlarından tutaraq onu sürüyə-sürüyə aparır. Dərya fəryad qoparıb onu köməyə çağırır...

Suat bəy çiyninə toxunmaqla sanki Hacını qorxunc xəyalatdan ayırdı:

– Nə düşünürsən, Hacı?

– Bu qarışıqlıqda əzilib məhv olarıq Suat bəy. Ürəyim rüsxət verməsə də ağlım «get» deyir.

– Yəni gedək deyirsən, Hacı? – Səbihə xanımın heyrətlə açılmış gözlərində inamsız bir ifadə, ağrı vardı.

Hacı Əbülqasım ağlamağa hazır olan yaşarmış gözlərini, titrəyən səsini gizlətmək üçün Suat bəyin qolundan tutdu:

– Gedək atlara baş çəkək, sabah uzaq yola çıxırıq, – sonra da başını arxaya çevirmədən zorla sözləri, kəlmələri bir yerə yığıb dedi: – çox şey götürməyin Səbihə. Yol uzaqdır...

* * *

Səhərə yaxın Karvanqıran ulduz Naxçıvanın başı üstdə göründü.

Sonra sübhün sazağında qızaran dan yeri sanki işığını Eynalı dağının zirvəsindən küləklərə qoşub aşağılara göndərdi. Şəhər də elə bil bu qızaran dan yerinin şafağına oyanaraq gözünü açırdı.

...Hacı Əbülqasım arvadını tələsdirdi:

– Səbihə, sərbazlar küçələrə çıxmamış özümüzü Şəkərabad körpüsünə yetirək.

Səbihə xanım cavab vermədi. Gözlərindəki islanmış kədər sanki ürəyinin içindən bir bayatını, ağrını tikan kimi çəkib çıxarmaq istəyirdi. Amma bacarmadı.

– Səbihə...

Hacının hövsələsiz, səbirsiz, bəlkə də ağlamağın, göz yaşının içindən qopub gələn səsini eşidəndə Səbihə xanım da gözlərini dolandırıb ev-eşiyinə axırıncı dəfə baxdı, əllərini göyə qaldırıb sanki bu ikimərtəbəli, yaraşıqlı evi, gül-çiçək ətirli geniş həyəti, aşağıda aydınca görünən evləri, evlərdən uzaqlarda yaşıl vadini – Arazacan hər şeyi Tanrıya tapşırdı. Elə bil tanrıya duaları, yalvarışları ilə qəlbindəki duyğuların gözünə bir zərrə inam işığı atdı. Bu inam işığında sanki təskinlik tapıb yüngülləşdi, darvazadan çıxmamış Hacı Əbülqasıma yanaşdı. Yaylığını gözünə basıb gümrah səslə dedi:

– Hacı...

– Ancaq ağlama, Səbihə.

– Ağlamıram, Hacı. Amma istəyirəm ki, qonağımız Suat bəyin məmləkətinə getməmiş bir məsələdən agah olasan. Sonrası sənin öz işindir. İstəyirəm biləsən ki, Suat bəyin gözü Dəryadadır. Bəlkə Suat bəy bizi ona görə aparır?

– Suat bəy Dəryanı istəyir? – Hacı Əbülqasım barmağını dodağının üstə qoyub içini çəkdi. Bu anda daxilində oyanan, baş qaldıran ikinci səs Hacını tənbeh elədi: «Özünü bilməməzliyə qoyma Hacı. Sən ki, bunu çoxdan duymuşdun. O vaxtdan Suat bəyin qanacağına, mərifətinə, oturuşuna-duruşuna göz qoyurdun...». Hacı Əbülqasım Səbihə xanımın gözlərinə baxmadan astadan dedi:

– Suat bəy mərifətli, qanacaqlı, zirək oğlandır.

– Demək xoşuna gəlir, Hacı?

– Qabağımı kəsən odur ki, özgə, yad yerdə yaşamağa təhamülüm yoxdur. Amma orası da var ki, Naxçıvanda müharibə gedəcək. Ocaqlarımız dağılacaq, evlərimiz talanacaq, Səbihə... Qorxum ondandır ki, sərbazlar qızımı da özləri ilə götürüb İrana aparalar. Yaxud bizi İrana köçürüb çöllərdə qoyalar.

Hacı Əbülqasımın dili-dodağı əsdi:

– Sən bu işə nə deyirsən, Səbihə? Suat bəy ürəyincədir?

– Nə deyim, Hacı? – Səbihə xanım əlacsız bir hüznlə başını tərpətdi.

– Qızılları götürdünmü?

– Götürdüm.

Hacı Əbülqasım bir addım irəli atıb dayandı. Sonra təzədən geri qayıtdı və pıçıltı ilə dedi:

– Toyu da orda elərik, Səbihə.

Suat bəy atları çıxarıb gətirdi. Dərya hamıdan əvvəl ayağını üzəngiyə qoyub yəhərli atlardan birinə aşırıldı, sonra yüyəni çəkib qamətini düzəltdi və gözaltı Suat bəyə baxaraq qımışdı...

...Atlar Mömünəxatun məqbərəsindən keçib Şəkərabad körpüsünü adladılar. Dərya atın cilovundan möhkəm yapışmışdı. Dinib-danışmadan irəliyə baxsa da ürəyi sanki onu geriyə, ocağa çəkirdi. Arxasınca gələn Səbihə xanım da göz yaşını gözünün içində zorla saxlamışdı.

Hacı Əbülqasım körpüdən keçəndə çevrilib son dəfə şəhərə baxdı, axırıncı evləri, Naxçıvan çayını, gül-çiçək bitirən torpağı sanki göz yaddaşına yığdı. Əlini atın sarğısına çəkmək istərkən dayandı. O birilər də atlarını yavaşıtdılar. Hacı Əbülqasıma elə gəldi ki, bu evlərin içində, bu şəhərdə, bəlkə də bu dünyada tək-tənha, yetim qalan ocağı insan kimi dil açdı və ona sarı əlləri uzalı qaldı, səsi-ünü dağlara-daşlara yayıldı, ürəyinin içində əks-səda verərək bütün duyğularını tufandan şahə qalxan dalğa kimi sinəsinə çırpdı, könlündə qasırğa qopdu: «Hara gedirsiz qayıdın... Ahım, naləm tutacaq sizi... Bu ağır gündə torpağını qoyub hara qaçırsan, Hacıı?..».

Sanki bu səsi Dərya da eşitdi. Atını Hacı Əbülqasımın yanına sürüb onunla yanaşı dayandı. Söz demək istəyirdi, amma dodaqları titrədiyindən sanki sözlər də qəhər kimi ilişib boşazında qalırdı.

Hacı Əbülqasım qulağının dibində Dəryanın ötkəm, sərt səsini eşitdi. Dəryanın zərif səsinə oxşamırdı bu səs:

– Biz evimizdən, torpağımızdan ayrıla bilmərik ata. Naxçıvansız yaşaya bilmərik. Qürbət ellərdə qəhr olub gedərik. Qürbət bizim üçün deyil ata. Bir də ağır gündə torpağımızı qoyub gedə bilmərik. Sonra bura qayıtmağa üzümüz olmaz.

Səbihə xanım Hacının gözlərinə baxaraq çəkingən halda dedi:

– Qürbətdə ömürlük qalmırıq ki? Savaş bitər, qayıdarıq.

Hacı birdən qəzəbləndi:

– Bəs mənim evimi yağıdan kim qoruyar Səbihə? Hər kəs öz evini, öz torpağını qorumalıdı. Şeytana allanıb qürbətə getmək həvəsinə düşdüm. Başımı bu qalmaqallardan, savaşlardan qoruyub salamat saxlamaq istədim. Səhv elədim. Qayıdırıq – sonra da üzünü Suat bəyə tutdu:

– Bizi bağışla oğul. Biz torpağımızı buraxıb gedə bilmərik.

– Hacı sonra peşiman olarsan, – Suat bəy narahatlıqla dedi.

– Getsəm peşiman olaram. Sən yolundan qalma, oğul. Qismət olsa yenə görüşərik.

Suat bəy Dəryanın gözlərinə baxdı. Lakin Dəryanın gözləri heç nə vəd eləmədi, bu gözlərdə ancaq ağrılı bir vida vardı.

Tək atlı Culfa yoluna çıxdı.

Sonra üçü də sanki içlərindəki şeytanı sıxıb çıxararaq, gələcək günahlardan azad olaraq atların başını şəhərə sarı döndərdilər...

* * *

Suzan zirzəmiyə yenib qaranlıqda Naqapeti səslədi. Naqapet qaranlığın dərinliyindən qışqırdı:

– Nə xəbər, nə bağırırsan, gəlirəm.

Suzan taxıl kisəsinin üstündə oturdu. Qaralıb boğulan sifətində, yağmurlu gözlərində xəyalları puça çıxmış insanın narahatlığı vardı. Bu anda yerin dibindən çıxmış kimi Naqapetin şişman bədəni qarşısında dayandı. Kişidən tünd şərab iyi gəlirdi.

– Nə olub? Ruslar gəldi?

Qadından cavab çıxmadığını görüb əli ilə onun çiyninə toxunaraq silkələdi:

– Səndən söz soruşuram, axçi...

Suzanı yaş boğdu:

– Yox Naqapet. Onlar qayıdıb gəldilər.

– Kimlər?

– Hacı Əbülqasım gil.

Naqapetin birdən-birə halı dəyişdi. Papağını başından çıxarıb yerə çırpdı, acığından tapdaladı. Suzan gözünün yaşını silib təəccüblə soruşdu:

– Başına hava gəldi kişi? Papağı niyə tapdalayırsan?

– Bəlkə papaq əvəzinə səni ayağımın altına alıb tapdalayım?

– Günahım nədi, Naqapet?

– Bəd xəbər gətirdin. Bəlkə onlara kimisə oxşatmısan?

– Qonşum Hacı Əbülqasımı tanımıram?
– Axı onlar birdəfəlik getmişdilər. Özü də o tacirlə bir yerdə.
– Peşiman olub qayıdıblar da Naqapet?
– O tacir ərəb də onlarla bir yerdə idi?
– Yox, ərəb qayıtmayıb.

Naqapet əlacsız halda tozlu papağını yerdən götürdü, eləcə başına qoyub Suzanın yanında oturdu, dilxor halda dedi:

– Görəsən Hacı niyə qayıtdı?

– Bilmirəm Naqapet – Suzan ah çəkdi – Hacının evində yaman gözüm vardı.

– Danışma Suzan. Danil Naxçıvana gəlib gedəndən sonra mən o evə öz doğma evim kimi baxırdım. Hərdən bir şeyi bəhanə eləyib Hacının evinə gedirdim. Sonra karvansaraya baş çəkirdim. Bu karvansara da mənim olacaqdı. Ah, Suzan necə arzularım, xəyallarım vardı. Bəlkə gedib görüm onlar həmişəlikmi qayıtdılar?

– Yox getmə Naqapet, Hacının acığına gələr.
– Eh, bu gecəni orda keçirəcəkdik...
– Bəlkə qismət oldu Naqapet. Ümidini yenə üzmə.
– Eh, ruslar gəlib çıxır ki...

Naqapet hirslə yerindən qalxdı, zirzəmidən çıxanda boylanıb Hacının həyətinə baxdı. Hacı Əbülqasımı həyətdə görəndə ilan çalmış kimi acığından fısıldadı.

6

...Abbas Mirzənin naxçıvanlıları İranın cənub vilayətlərinə köçürmək qərarı rus komandanlığından gizli qalmadı. Bundan xəbər tutan general-feldmarşal qraf Qudoviç Qarabağda olan rus qoşunlarının komandanı general-mayor Nobelsinə Naxçıvana hərəkət etmək əmrini verdi. Bununla da qraf naxçıvanlıların Arazın o tayına köçürülməsinin qarşısını almaq üçün rus əsgərlərini köməyə göndərdi. General Nobelsinə göndərdiyi məktubda yazmışdı: *«...Tezliklə ora getmək və Naxçıvana qarşı hərbi əməliyyata başlamaq lazımdır. Əgər müqavimət göstərilsə şəhəri tutun. Onlar könüllü şəkildə tabe olsalar yerli əhalini narazı salmamaq və sıxışdırmamaq lazımdır».*

...General-mayor Nobelsinin komandanlığı altında rus süvari dəstələri Qarabağdan Naxçıvana yenəndə 1808-ci ilin oktyabr ayı idi. Süvari ordusuna Mehdiqulu xanın komandanlığı altında

Qarabağ və Şəki qoşunları da qoşulmuşdu. Orduya Şıxəli xan bələdçilik edirdi.

* * *

...Süvarilər uzun yol gəlib yorulmuşdular. Batabat süvari dəstələrlə dolmuşdu.

General Nobelsin Batabat dikinin üstündə atın cilovunu çəkib dayandı. Aşağıda qalın meşəlik başlayırdı. Meşəlikdən ayrılan bir cığır təpələrin belinə dolanaraq uzanıb gedir, aşağıda düzənlikdə vadiyə qovuşurdu. Şıxəli xan atını irəli sürüb generalın yanında dayandı. General sanki bircə anlıq müharibəyə, savaşa getdiyini unutmuşdu. Göy gözlərində bir vurğunluq, gözəlliyə əsir düşən heyrət vardı. Payızın bütün əlvan rəngləri göz qabağındaydı. Sanki rənglər sükuta getmiş səslər idi. Elə bil general da ovsundan ayrılmayaraq rənglərə baxa-baxa ürəyinin içinə dolmuş səsləri dinləyirdi. General duyğularından ayrılmadan Şıxəli xandan soruşdu:

– Bura Naxçıvandırmı, xan?

– Naxçıvandır. Lakin şəhər burdan xeyli uzaqdır. Bu yerlər Biçənək adlanır, bir az aşağıda Şahbuz, sonra Naxçıvan şəhəridir. Xanlığın iqamətgahı ordadır.

– Bəs Qarababa? Aldığımız məlumata görə İran ordusu Qarababada düşərgə salıb.

– Qarababa Şahbuzun yaxınlığındadır.

General geri çevrilib əmr verdi:

– Əsgərlər meşəlikdə dincəlsinsər – sonra da Şıxəli xana çevrildi – Abbas Mirzə çox güman ki, döyüşü Qarababada başlamaqla bizi Naxçıvan qalasından uzaqlaşdırmaq istəyir. İrəliyə kəşfiyyatçılar göndərməliyik. Qoy onlar bizə İran ordusu barədə səhih məlumat gətirsinlər.

– General... – Şıxəli xan nüfuzedici iti baxışlarını generalın göy gözlərinə dikdi – naxçıvanlılar ruslara inanır. Əgər ruslar şəhərdə talana, qəraətə başlasalar, adamları incitsələr...onlar mübarizəyə qalxacaqlar.

General əlini yellədi. Eyni anda da qraf Qudoviçin məktubundakı tövsiyyələri xatırladı. Qraf Qudoviç sanki Şıxəli xanın ürəyindən keçənləri duyaraq bir daha Nobelsinə xatırlatdı: *«Sizə tapşırıram ki, siz də Mehdiqulu xana bildirəsiz ki, yerli əhali tabe*

*olduqda Naxçıvan kəndlərinin soyulub talanmasına imkan verməsin».*

Süvarilərin meşəyə girməsi ilə payızın sükutu pozuldu. Sanki hər ağac bir hava, hər yarpaq bir avaz çaldı. Şıxəli xanın ürəyi qubarlandı. Ona elə gəldi ki, qırmızı, sarı yarpaqların həzin uçuşunda bivəfa dünyanın əbədi olmayan həsrəti, sevinci, kədəri, hüznü var. Bu bivəfa dünya pəhləvan cüssəli, ağıllı və tədbirli Kalbalı xanın kürəyini yerə vurdu... Şıxəli xan qəhərləndi. Bu anda qulağına elə bil atasının gümrah, məğrur səsi gəldi: «Şıxəli, mən gözümü itirdimsə də sınmadım, əyilmədim. Kövrəlmək, ağlamaq nədi? Sən mənim – Kalbalı xanın oğlusan». Şıxəli xanın yanağında göz yaşı iki soyuq cığır açdı: «Qurban olum sənə, ay ata. İndi hardasan? Kaş bir dəfə üzünü görəydim, nəfəsini duyaydım, çiynimdə əllərinin gücünü, qüdrətini hiss eləyəydim. Hardasan, ata? Səni gör Naxçıvandan necə ayırdılar, yolunda gözlərini qurban verdiyin Naxçıvanı Qacar törəmələri necə müsibətə saldılar». Şıxəli xan yaşlı gözlərini dolandırıb meşəlikdən keçən dolama yollara baxdı. Bir vaxt gözləri çıxarılmış atasını arxası qatda bu yollarla Naxçıvana qaytarmışdılar. İndi bu yolla Naxçıvanı Qacar ordusundan xilas etməyə gedirdi. Şıxəli xanın dodaqları əsdi: «Mənə xeyir-dua ver, ata».

* * *

İran sərbazları Naxçıvan qalasını alan kimi ordu Qarababada düşərgə salmışdı. Bura Naxçıvan qalasına açılan qapı hesab olunurdu. Abbas Mirzə rusların hər an Naxçıvana hücumunu gözləyirdi. Buna görə də sərbazlar Qarababanın ətrafını sayıqlıqla qoruyur, qurulmuş çadırların ətrafında hər gün təlim gedirdi. Abbas Mirzə Ağa Məhəmməd şah kimi əsgərlərin təliminə xüsusi diqqət yetirərdi. Döyüşdən qabaq bunu qələbə üçün vacib məsələ hesab edərdi.

...Vəliəhd rus ordusunun yaxınlaşmaq xəbərini alan kimi sərbazları ayağa qaldırdı. Ordu hazır oldu. Abbas Mirzə zəfər qazanacağına inanırdı. O, burda rusları əzəcək, onların ayağını Naxçıvan torpağından birdəfəlik kəsəcəkdi.

Döyüşdən qabaq baş komandan ordu fərmandehləri ilə toplantı keçirdi. Hazırladıqları döyüş planlarını bir daha gözdən keçirdi. Orduda döyüş üçün kifayət qədər hərbi sursat vardı: üç min piyada, on min süvarinin ixtiyarında 12 top, 60 qədimi top.

Abbas Mirzə Ağa Məhəmməd şah Qacarın apardığı müharibələrdə dəfələrlə iştirak etmişdi. Ağa Məhəmməd şahın düşmənə qələbə çalmaq məharəti, zəkası Abbas Mirzəyə böyük təcrübə qazandırmışdı. Bir çox döyüşlərdə bu təcrübə vəliəhdə zəfər gətirmişdi... İndi də döyüşqabağı Abbas Mirzə nədənsə birdən-birə Qacar şahını xatırladı. Sanki bu anlarda həyəcan keçirdiyi döyüş üçün Qacar şahının gözəgörünməyən ruhundan xeyirdua istədi...

...Sabahkı döyüş Abbasqulu xanın da taleyini həll edəcəkdi. İçindəki hökmlü, hikkəli, şəhanə duyğuların hamısı bu anlarda sanki qəhr olmuşdu, narahatlıqdan, həyəcandan, qorxu, əndişədən savayı orda təskinedici heç nə yoxdu... Abbasqulu xan gecələr yatmadığından gözlərinin altı torbalanıb qaralmışdı. Həris, iti baxışları indi ölgünləşdiyindən içindəki narahatlıq, əndişə özünü asanlıqla biruzə verirdi.

İran sərbazları ilə Qarababaya gələn Abbasqulu xan az qala bütün günlərini namaz üstə keçirirdi. Tanrı ilə təkbətək qalaraq ürəyini yalnız böyük Tanrıya açırdı, zəfər qazanmaq üçün dualar oxuyurdu.

...Abbas Mirzə Abbasqulu xanın pərişan görkəmini, şişib tuluqlamış gözlərini görəndə yüngül bir istehza ilə dedi:

– Abbasqulu xan, bu halın xoşuma gəlmədi.

– Mən sizin zəfər çalmanız üçün Allaha daim dua edirəm, şahzadə.

Abbas Mirzə hökmlə soruşdu:

– Səncə Şıxəli xan da ruslarla üstümüzə gəlir?

– Kalbalı xan ruspərəstdir. Hər halda oğlu da rusların tərəfini saxlayıb üstümüzə gələr. Mənə çatan məlumata görə o, general Nobelsinin dəstəsinə bələdçilik edir.

– Şıxəli xan bilirmi ki, atası Kalbalı xan bizim əlimizdədir?

Abbasqulu xan rişxəndlə güldü:

– Onu rusların yanına göndərən Kalbalı xandır. Şıxəli xanın qeyrəti olsa sizin ayağınıza düşüb kor atasını zindandan qurtarmağa çalışar.

– Üstəlik Ehsan xan da bizim əlimizdədir. Nəzərəli xanın harda olduğunu, harda gizləndiyini isə kimsə bilmir.

Abbasqulu xan üzünü turşutdu:

– Kalbalı xanın gözünü çıxarmaq yox, başını vurmaq lazım idi. İndi Tehran zindanında öz ağılsız başının ağrısını çəkir Kalbalı xan. Görəsən ruslar çoxdurmu? Bu haqda məlumatınız varmı?

– Kəşfiyyatçıların gətirdiyi xəbərə görə çox azdır. Məlumata görə Mehdiqulu xanın da dəstəsi ruslara kömək edir. Biz onları burda son nəfərinə qədər qırmalıyıq ki, bir daha Naxçıvana yaxın düşməsinlər.

Abbasqulu xan bütün qəlbi ilə əllərini göyə açdı:

– İnşallah. Tanrı bizim köməyimiz olsun.

Abbas Mirzə aralandı.

Abbasqulu xan əlini saqqalına çəkib təkrar göyə baxdı, sonra ətrafa göz gəzdirdi. Düşərgənin içi qaynayır, at fınxırtısı, danışıq səsləri eşidilirdi. Farsca qışqıran, bağıran, əmr edən dəstə başçıları aşağı-yuxarı qaçırdılar. Abbasqulu xan onların hərəkətinə göz qoyurdu: sərbazlar döyüş mövqelərini tutmağa tələsirdilər. Onlar aşağı yenən rus əsgərlərinin qarşısını kəsəcək, qəfləti atəş yağmuru düşməni çaşdıracaqdı.

Axşamın qaranlığında Qarababadan yuxarı sıralanmış dağların üzünə qaranlığın qara örtüyü çəkilirdi.

Abbasqulu xanın dodaqları aramsız dualar oxuyurdu. Xan dualarının hikmətinə, möcüzəsinə inanırdı. Lakin bu anlarda qaranlığın qatı dumanı kimi ürəyinə çökən qara şübhə sanki zəfər çalmaq ümidini qara kölgəyə büküb dərin dərələrin dibinə atırdı.

Ürəyi nigarançılıq içində çırpınırdı: əgər iranlılar məğlub olsalar onun taleyi necə olacaq? Sürünə-sürünə qalxdığı xanlıq taxtını buraxıb İranamı qaçacaq?

Abbasqulu xan çiyinlərini qısıb təkrar qaralan göylərə baxdı. Sanki iç dünyasının göyləri də beləcə qaramtıl, payız sazaqlıydı. Dağların zirvəsi vaxtsız-vədəsiz qar gördüyü kimi, hələ döyüş başlamamış Abbasqulu xanın da şah duyğularını vaxtsız yağan qarın soyuğu, sazağı bürüyürdü. Bu dəfə Naxçıvan xanlığının taxtında oturmağı bir quş yuxusu qədər çəkdi: hökmünü, qüvvəsini naxçıvanlılara axıra qədər göstərə bilmədi. Yalnız Ehsan xan tutuldu, Kalbalı xanın tərəfdarları cəzalandırıldı. Bəzisi qətlə yetirildi. Lakin Abbasqulu xanın yaddaşında çox adamların adı vardı. Xan onlardan intiqam almağa macal tapmadı...

Abbasqulu xan Mahnuru da görə bilmədi... Bu anda təlatümlü bir duyğu onu bu savaş iyi gələn aləmdən qoparıb çox-çox uzaqlara apardı. O, yerlərə ki, Abbasqulu xanın hökmüdarlığı or-

da gücsüz idi. Orda bir könülü fəth etməyə Abbasqulu xanın hökmüdar gücü və tükənməz sərvəti kara yetmirdi. Məğrur Mahnur göylərdən də uca və əlçatmaz idi...

...Abbasqulu xan taxta çıxdığının üçüncü günü qəflətən yadına Mahnur düşdü. Mahnur elə qüvvətlə onun hisslərini yerindən oynatdı, ürəyinin başına elə köz saldı, könlündə elə həsrət tufanı yaratdı ki, xan Qara bəyi yanına çağırdı. Qara bəy içəri girib xanla üz-üzə dayananda onun gözlərində gördüyü pərişan, qəmli ifadədən çaşıb qaldı. Abbasqulu xan sanki yalvarırmış kimi pıçıltı ilə dedi:

– Qara bəy, mən sənə Mahnur haqqında danışmışdım...

– Bilirəm, yadımdadı, xan.

– O qız o vaxtdan bəri yadımdan çıxmır.

– Dediyinə görə çox gözəl imiş.

– Elə bilirəm ki, o qızda Kalbalı xanın da gözü vardı.

– İnanıram xan.

– O qız göylərdən yenmiş pərilərə oxşayırdı. İnanmıram ki, Kalbalı xan belə bir gözəlliyə göz yummuş ola. O qızın həsrəti məni incidir. O, mənə məhəl qoymadı... Qara bəy.

– Mahnur indi hardan yadına düşdü Abbasqulu xan?

– Mahnurun yadımdan çıxdığı vaxt heç olmadı, Qara bəy. O, həmişə mənim fikrimdə, xəyalımda yaşadı. İndi istəyirəm ki, Mahnuru tapıb saraya gətirəsən...

– Abbasqulu xan bu vurhavurda?...

– Qara bəy, sən mənim istəyimə qarşı çıxırsan?

– Xeyr xan. Mən kiməm ki?

Qara bəyi içində hirs boğdu: «Bu ağarmış saqqalınla, qırışmış sifətinlə qız sənə məhəl qoyarmı, Abbasqulu xan? Bu da Naxçıvan taxtı deyil ki, yapışıb əl çəkməyəsən. Köməyə farsları, rusları çağırasan?».

Aradan iki gün keçmiş Qara bəy Abbasqulu xanın ümidlərini şüşə kimi çiliklədi:

– Mahnur Murad adlı sərbaza qoşulub gedib, xan.

Abbasqulu xanın gözləri qəzəbdən, hikkədən qan çanağına döndü:

– O halda iksini də hüzuruma istəyirəm.

– Onları gördüm deyən yoxdur, xan. Amma deyəsən Murad Şıxəli xanın dəstəsindədir.

– Bəs Mahnurun atası, anası...

– Qapılar bağlıdır. Kimsə yoxdur xan.

Abbasqulu xanın sanki ürəyinin içində nə isə uçulub söküldü. Səssiz zəlzələdən, uçqundan sarsıldı. Elə bil könlündə yaşayan bir mələk qanadlarını çırparaq uçub getdi. Boş qalmış könlü sazaqdan üşüdü...

* * *

İran sərbazları gecə yarıdan ötmüş ay işığında Qarababanın qənşərindəki təpələrin, qayalıqların arxasına çəkilməyə başladılar. Topları əziyyətlə yuxarı qaldırıb pusqu qurdular. Bu yerlərdən düşməni aydınca görmək olurdu. Çox güman ki, gözlənilmədən açılan ilk atəş rusları çaş-baş salacaq, bununla da İran sərbazlarına üstünlük qazandıracaqdı. Toplar elə yerdə qoyulmuşdu ki, düşmən səflərini zəmi kimi biçə bilsin. Abbas Mirzə Ağa Məhəmməd şahın bir sözünü daim döyüşqabağı yadına salardı: "Hücum qalibiyyətin yarısı, müdafiə məğlubiyyətin hamısıdır".

...Dan yerinə ilk qızartı düşdü. Çəhrayı rəng artdıqca qaranlıq yavaş-yavaş ətəyini yığıb uzaq üfüqdə ağarmağa başladı. Payızın dağlardan axıb gələn soyuq küləyi gülü sovulub saralan çəmənlərə toxunur, yarpaqları saralıb tökülən ağacların budaqlarını silkələyirdi.

Sübhün sakitliyini at nallarının zəif səsi pozdu. Sanki hardasa uzaqlarda təbil döyülürdü və get-gedə bu təbilin səsi gurlaşırdı. Səhərin alatoranlığında toz-duman boz nəhəng tüstü kimi təpələrin başı üstə qalxdı. At nallarının səsini eşidən kimi qoşun fərmandehinin döyüşə hazır əmri eşidildi. Özlərini toplayan sərbazlar silahın tətiyini çəkərək döyüş əmrini gözlədilər.

Rusların ilk süvari dəstələri sərbazların gizləndiyi yerə çatarçatmaz döyüş əmri verildi. Sanki bir göz qırpımında göydə şimşəklər baş-başa gəlib çatladı. Süvarilərin arasına düşən top partladı, insan, at qarışıq yollar dağılıb sanki vulkan püskürdü. At kişnərtisi, inilti səsləri, komandirlərin bağırtısı bir-birinə qarışdı. Güllələrdən, atılan toplardan atlar kişnəyib şahə qalxdı. Rus əsgərləri özlərini düzəldib qeyri-bərabər döyüşə girdilər.

Qarababa düzü qanlı döyüş meydanına çevrildi. Rus əsgərləri təpələrdə gizlənərək onları aramsız top atəşinə tutan sərbazların yerini bələdlədilər. Arxadan təpələrə sarı sürünən əsgərlər çox keçmədi ki, süvariləri biçən topları bir-bir susdurdular. Saat-

lar keçdikcə Qarababa düzündə cəsədlər artır, başsız qalan atları güllə sağa-sola qovur, yaralılar çoxalırdı.

Axşama yaxın döyüş səngidi. Ruslar iranlıları üstələdi. Farslar xeyli tələfat verdilər. Çoxlu döyüş sursatı və at itirdilər. Çox sayda sərbaz əsir düşdü. Bu döyüşdə ruslar 37 nəfər zabit və əsgər itirdi, iyirmidən çox adam yaralandı.

...Şıxəli xan yorulmuşdu. Lakin ürəyində qalanmış nifrət, kin alovu damarlarında axır, qollarına qüvvət verirdi. Başının üstə güllələr çovuyub keçirdi. Lakin Şıxəli xan heç nə hiss etməyərək özünü göz görəti ölümün qucağına atırdı. Atasına düşmən kəsilən, onu dünya işığından məhrum edən, zindanlarda çürüdən Qacar tayfasına kini-küdrəti soyumaq bilmirdi. Bu anlarda sanki onlarla təkbətək döyüşürdü, Kəngərli tayfasının qüdrətini, qüvvəsini göstərmək istəyirdi. Atasının xilası, Naxçıvan xanlığının xilası üçün igidliklə döyüşürdü.

General Nobelsin Şıxəli xanın döyüş meydanında göstərdiyi şücaətə, qorxmaz və cəsurluğuna heyran qaldı, onun ölümdən qorxmayaraq özünü ən təhlükəli döyüş yerlərinə atması generalı heyrətləndirdi. Atını onunla yanaşı sürüb qışqırdı:

– Şıxəli xan, özünü qoru. Sən özünü təhlükəyə atırsan – sonra da gülümsünüb əlini yellədi və ürəyindən keçirdi: Şıxəli xanın şücaəti barədə mütləq qraf Qudoviçə raport yazacaqdır.

...Abbas Mirzə döyüş meydanından yaralıları götürmədən atının başını Naxçıvana çevirdi. Onun arxasınca məğlub olmuş süvarilər getdi.

...Qələbədən ruhlanmış general-mayor Nobelsin düşməni təqib etməyi əmr etdi. Polkovniklər Lisaneviçin, Kotlyarevskinin və Şıxəli xanın dəstələri farsların arxasınca düşdü. Şahbuz Naxçıvan yolunda toz-duman içində qovhaqov başlandı.

Abbasqulu xanın narahat, kədərli gözlərinə sanki matəm havası çökdü: əli yenə də Naxçıvan taxtından çıxdı...

Şeyx Mahmud kəndini keçib Naxçıvana yaxınlaşanda Abbas Mirzəyə xəbər gətirdilər ki, artıq rus əsgərləri onları təqib etmir. Vəliəhd atının başını çəkib saxladı. Sərbazlar da, atlar da əldən düşmüşdü. Vəliəhd dincəlmək əmrini verib başının atlıları ilə irəli getdi. Qarababa düzündə məğlubiyyətin acısı sanki tikan kimi ürəyinin içinə batırdı, gözlərinin içini göynədirdi. Ruslara məğlubiyyət o demək idi ki, Naxçıvan İran şahının əlindən çıxır. Şahzadə köks ötürdü: Fətəli şaha nə cavab verəcəkdi?

Abbasqulu xan vəliəhdi qanlı-qanlı, dərin peşimançılıq içində süzürdü. Ona elə gəlirdi ki, bu məğlub, sarsıntılı anlarında qulağının dibində yenə Kalbalı xanın gur, gümrah, istehzalı səsini eşidir: taxtı yenə də əlindən çıxardın, Abbasqulu...

Sanki göydəki qapqara buludlar parça-parça olub Abbasqulu xanın başına töküldü, qaranlığı, zülməti qəlbinin içini bürüdü: «Mən axmaq gərək rusların ətəyindən əlimi üzməyəydim. Bu qorxaq vəliəhddən mənə arxa çıxmadı. Ordusu ruslardan qat-qat çox idi. Hələ topu, gülləsi... Amma məğlub olub meydandan qaçdı... Eh... Kalbalı xan çox ağıllıdır. Fətəli şah ruslarla əlaqəsi olduğuna görə onu zindana atdırdı. Amma o, sözündən dönməyərək oğlu Şıxəli xanı rusların himayəsinə göndərdi. Ruslar Kalbalı xanı zindandan azad eləyib hakimiyyətə gətirəcək... kül mənim başıma...tamah, acgözlük məni uzağı görməyə qoymadı...».

Abbasqulu xan atını şahzadənin bərabərinə sürdü. İçindəki tufanı gizlədərək soruşdu:

– Nə etmək fikrindəsiz, vəliəhd?

Abbas Mirzə gözləri, baxışları tutan nifrəti ilə Abbasqulu xanı süzdü. Bütün acığını onun üstünə tökmək istədi. Amma Abbasqulu xanın gözlərində məhv olmuş ümidlərini ağrısını gördü, ürəyi yumşaldı və sakitcə dedi:

– Döyüşdə itkimiz çox oldu, Abbasqulu xan. İstəmirəm ki, sağ qalan sərbazları güdaza verim. Ona görə də geri çəkilməliyik. Biz gərək Arazı adlayıb Xoy istiqamətində hərəkət edək. Ruslar yaxınlaşmamış Naxçıvanı tərk etməliyik. Abbasqulu xan rəncidə olma, inşallah sən yenə Naxçıvan taxtına sahib olarsan... ruslarla qovğamız hələ qabaqdadır.

Abbasqulu xan inamsız halda, ağrısı içində gülümsündü.

* * *

Dördkünc bazara yaxın meydan getdikcə adamla dolurdu. Meydan sanki tufanqabağı dalğaları şahə qalxan dəniz kimi çalxanırdı. Xəbərlər şəhərin başı üstə qanad çalırdı. Xəbərlər bağlı qapıları döyürdü. Xəbərlər kiçikli-böyüklü hamını meydana qaçırırdı. Xəbərlər müdhiş, təşvişli, dəhşətli idi: iranlılar Arazı adlayıb Xoy istiqamətində qaçdılar... Ruslar şəhərə yaxınlaşır... Ruslar ucdantutma hamını qıracaq...

Xəbəri eşidib Xanvəli ilə Feyzullah da özlərini meydana yetirdilər. Hər ağızdan bir avaz gəlirdi. Yaşlı, kök, tösmərək bir kişi

ucadan birnəfəsə qışqırırdı. Boğazının damarları şişir, sifəti qıpqırmızı qızarırdı:

– Camaat, kimin silahı var götürsün, qala qapılarını urusların üzünə bağlayaq.

Yer-yerdən ona cavab verdilər:

– İlanın yuvasına çöp uzatmayaq. Bəlkə urus heç kəsə əl qaldırmadı...

– Düz deyir. Şıxəli xan onların yanındadı.

– Əgər Şıxəli xan orda olsa qorxumuz yoxdur. Çünki Şıxəli Kalbalı xanın oğludur. O, razı olmaz ki, ruslar bir kimsəyə güllə atsın...

– Gözləyək, əgər urusların arasında Şıxəli xan görünməsə onda biz savaşa hazır olaq.

– Gözləyək.

Səs dalğa-dalğa yayıldı. Sonra meydanda sakitlik yarandı. Bu sakitliyin içində Xanvəli ucadan dedi:

– Abbasqulu xan da iranlılara qoşulub getdi. Taxtı qaldı boş...

– Ay onun papağı da boş qalsın – qara çarşava bürünüb uzun burnu və işıldayan gözləri görünən yaşlı qadın nifrətlə dedi.

Xanvəli burnunu çəkdi:

– Papağı boş qalmaz, ay xala. Qorxuram Abbasqulu xan yolda farslara kələk gəlib qayıda urusun yanına.

Feyzullah nırç atıb başını buladı:

– Bala, urus tülküdən bicdi.

– Feyzullah, bu urusdan da ağlım bir şey kəsmir. Evdə külfətimə də demişəm. O ili erməni Dandili nəyidi, Kalbalı xan zindandan açıb buraxdırmışdı haa...

– Dandili nədi ə, Xanvəli?

– Dinsizin adı dilimə yatmır.

– Danil.

– Danil gəlib burda erməniləri ayağa qaldırmışdı. Az qalmışdı bu zatıqırıq ermənilər Kalbalı xanla taxt davasına çıxalar. Alekseyin dədəsini-anasın öldürüb atmışdılar mənim üstümə. Ehsan xan olmasaydı atamı yandırmışdılar.

– Danil hardan yadına düşdü, Xanvəli?

– Bə urusla ermənininin dini bir deyil?

– Hə da bə.

– Mən də elə bundan qorxuram, Feyzullah. Evdə külfətimə tapşırmışam ki, elə ki, urus qala qapısından içəri girdi, onda biz də Arazı adlayıb keçərik o taya.

– Düz sözündü, Xanvəli?

– Urusu biz başa sala bilmərik, Feyzullah.

– Onda hamımız keçək o taya?

– Hə da bə.

Xanvəli hirslə güldü:

– Urus da elə bunu istəyir də ay axmaq. Utandım sənin yerinə Xanvəli?

– Nahaq?

– Görürəm sən bu cür sözləri danışıb günaha batdığını hiss eləmirsən, utanmaq haqqında da düşünmürsən.

– Mən səhv düşünürəm, Feyzullah?

– Başdan-ayağa. Adam torpağını gavurun əlinə verib getməz.

Bu anda dördkünc bazarın böyründən Əli xanla Kərim xan çıxdı. Onlar atların cilovunu çəkib atın üstündə şax dayandılar və izdihamı diqqətli, davamlı baxışlarla süzdülər. İzdiham onlardan səs çıxmadığını görüb birdən hərəkətə gəldi və uğuldadı. Kişilər əllərində tutduqları tüfəngləri başları üstə qaldırdılar. Kimsə ucadan bağırdı:

– Rusları şəhərə buraxmayaq. Bu yolda ölmək var, dönmək yoxdur.

Kalbalı xanın qardaşı oğlu Kərim xan, Əli xan atlarını bir az da irəli sürdülər. Əli xan kütləni sakitləşdirmək, söz demək üçün əlini yuxarı qaldırdı. Səslər dalğa-dalğa yavaşıyıb kəsildi. Kərim xan ucadan dedi:

– Burda qızğın başlar yox, ağıllı başlar hökm verməlidi. Əgər ruslar bizə dəyib toxunmasalar, şəhəri talan və qəraət etməsələr, malımızı-pulumuzu əlimizdən almasalar, ocaqlarımızı dağıtmasalar onlara qarşı çıxmayaq. Mən təklif eləyirəm ki, əgər Şıxəli xan ruslarla gəlsə, qoy bizim sabahkı taleyimizə Şıxəli xan özü cavabdeh olsun. Çünki Şıxəli xan Kalbalı xandan dərs alıb, onun kimi ağıllı və tədbirlidi. O, düşməni heç vədə Naxçıvana gətirməz. Bir də yadınızdan çıxarmayın ki, Abbas Mirzənin taxtda oturtduğu Abbasqulu xan iranlılara xoş gəlsin deyə özünü Naxçıvan xalqının dostu kimi yox, düşməni kimi apardı, burda qan

tökdü, adamları incitdi, iranlılarla birlikdə bizim var-yoxumuzu talayaraq yenə də farslara qoşulub getdi.

Xanvəli Feyzullahı dümsüklədi:

– Əyə sol tərəfdə dayanan Davuda bax. Dinsiz yenə erməniləri yığıb başına.

Xanvəli onu nifrətlə süzüb Feyzullahın qulağına pıçıldadı:

– Bu dinsiz hər gecə evində qonaqlıq verir.

– Nə qonaqlığı?

– Mən də baş açammıram. Hər axşam hava qaralandan sonra şəhərdə nə ki, erməni var yığışır bunun evinə.

– Onlar... nə barədə danışa bilər, Xanvəli?

– Bəlkə Naxçıvan taxtında ermənilərin də gözü var, biz bilmirik.

– Ermənidən xan çıxmaz.

– Ermənidən padşah da çıxmaz. Çıxsaydı indiyədək ermənilərin də padşahı olardı. Gör qədimdən bu yana müsəlmanların nə qədər padşahı olub, Xanvəli .

– Maraq məni öldürür, Feyzullah. Dincliyim, rahatlığım gedib. Elə bilirəm ki, hər gecə bu ermənilər bir yerə yığışıb bizə dərin quyu qazır.

– Qazdıqları quyuya özləri düşər, inşallah.

– Feyzullah istəyirəm...

Xanvəlinin sözü ağzında qaldı. Bu anda qala tərəfdən eşidilən at ayaqlarının tappıltısı sanki üzüaşağı coşğun sel kimi şəhərin içinə axdı. Elə bil bununla da meydana qəfildən top düşdü. Gözləri qorxudan iriləşmiş, rəngi qaçmış adamlar rus əsgərlərinin gülləsinə tuş gəlməmək üçün özlərini yaxınlıqdakı həyətlərə saldılar. Dükan, bazar bağlandı. Sanki şəhərin üstə əsən dəhşətli səmum yeli hər şeyi silib süpürüb apardı. Bayaqkı izdihamdan nişanə qalmadı.

Az keçmədi ki, at nallarından qopan səslər yaxınlaşdı və əsgərlərin özləri göründü. Rus süvariləri atların cilovunu çəkib asta-asta küçələrə doldular. Onlar kimsənin qapısını döymədən, bağırmadan, kimsəyə toxunmadan keçib gedirdilər. Süvarilər meydana tərəf axışırdı. Onların arasından bir atrı ayrılıb meydanın ortasında dayandı. Bu Şıxəli xan idi. At bir yerdə durmur, şahə qalxır, dırnaqları ilə torpağı eşirdi. Şıxəli xan bilirdi ki, həyətlərdən, damların üstündən, güman gələn hər yerdən meydana təlaşlı gözlər baxır. Bu təlaşlı gözlər indicə tufan, qasırğa qopa-

cağını, rus süvarilərinin İran sərbazları kimi həyətlərə cumaraq talan, qətlə, qəraətə başlayacağını gözləyir. Şıxəli xan bunları bildiyindən iki əlini ağzına tutub gur səslə qışqırdı:

– Camaat qorxmayın. Ruslar sizə toxunmayacaq. Onlar bura xoş niyyətlə gəliblər. Onlar sizin İrana köçürülməyinizin qarşısını almaq üçün Abbas Mirzə ilə savaşa girdilər və İran sərbazlarını Naxçıvandan qovdular. Mən sizinləyəm. Mən sizi, torpağımızı qorumaq üçün rusların yanındayam. Onlardan sizə xətər toxunmayacaq.

Şıxəli xan atın üstündə yenilməyən bir cəngavər kimi dayanmışdı. Bu anlarda o, doğrudan da cəngavərə oxşayırdı. Onun mərdanə sifətində bir qətiyyət oxunurdu. Üzünün sərt cizgiləri Kalbalı xanı xatırladırdı.

...Meydanla üzbəüz həyətdə gizlənmiş Xanvəli Feyzullahın böyrünə dümsük vurdu:

– Nədən qorxuruq ə, çıxaq bayıra – sonra da çevrilib həyətə toplaşmış adamlara təşəxxüslə baxdı – güllə atarlar, güllə atarıq.

– Qoy görək kişi nə deyir, Xanvəli.

– Şıxəli xan gərək bizi ətrafında görüb ürəklənə. Görə ki, biz onun arxasında dayanmışıq.

– Birdən çıxdıq, urus da tüfəngi tuşladı üstümüzə?

– Qorxaq olma, sənə min dəfə demişəm, Feyzullah.

– Yaxşı qapını aç, çıxaq.

Xanvəli şəstlə irəli yeriyib qapının rəzəsini açdı, addımını bayıra qoydu. Meydana yaxınlaşanda rus süvarilərinin onlara güllə atmadığını görüb camaat gizləndikləri yerdən yavaş-yavaş çıxdı, meydana axışdı.

...Rus süvariləri şəhərin ən uzaq məhəllələrindən belə keçib gedirdi. Onları görən təki darvazalar açılır, böyüklərdən tez uşaqlar özlərini küçəyə atır, heyrət və maraqla açılmış gözlər süvariləri izləyirdi. Uşaqlardan biri daha ürəkli çıxdı, irəli qaçıb atı yorğa yerişlə gedən süvariyə çatdı, əlini atın sarğısına vurdu, əsgər gülümsəyərək əyildi, uşağa nəsə dedi və getdi...

Şəhər talandan, qəraətdən yan keçdiyini görüb sanki dərindən, rahatlıqla nəfəs aldı...

***

Rus ordusunun Naxçıvana gəlişinin ikinci günü general Nobelsin baş komandan qraf Qudoviçin adından xalqa müraciət etdi: *"...Siz böyük şöhrətə malik ordunun Naxçıvan vilayətinə*

*gəldiyini bilirsiniz. Rusiya ordusunun qalib silahının gücü ilə Abbas Mirzə Baba xan oğlu öz ordusu ilə birlikdə məğlub edilərək böyük itki hesabına Arazın o tayına Xoy yolu ilə qayıtmağa məcbur oldu. Naxçıvan bizim ordumuz tərəfindən tutuldu və Ümumrusiya imperiyasının himayəsinə keçdi.*

*Hörmətli ağsaqqallar, ali ruhanilər və bütün Naxçıvan xalqı!*

*Mən böyük və humanist imperator adından sizi Ümumrusiya imperiyasının yeni sədaqətli adamları kimi qorxmamağa və inandırmağa çalışıram ki, öz yerlərinizə qayıdasınız və qalib rus ordusunun himayəsi altında babalarınızın yurdunda yaşayasınız.*

*Mən sizi inandırıram ki, könüllü şəkildə qayıdanlar əvvəlki hüquqlarına və mülkiyyətlərinə malik olacaqlar. Bu gündən etibarən həmişəlik olaraq şöhrətli rus ordusunun himayəsi altında əmlakınız toxunulmaz qalacaqdır.*

*Mən sizdən tələb edirəm ki, həmişə Ümumrusiya taxt-tacına sədaqətli olasınız. Həmişəlik olaraq rus imperiyasının və mənim ordumun düşmənləri ilə hər cür əlaqəni kəsib sakit yaşayasınız. Əlahəzrət imperatorun ordusu həmişəlik olaraq Naxçıvan vilayətində qalacaqdır. Sizin verdiyiniz ərzağın, mal-qaranın və digər məhsulların dəyəri ödəniləcəkdir. Əgər siz qayda-qanunu sədaqətlə yerinə yetirsəniz, o halda mən imperator həzrətlərindən hər cür güzəştə getməyi xahiş edəcəyəm".*

General Nebolsinin müraciətini eşidəndə Hacı Əbülqasımın ürəyinə bir sərinlik gəldi: "Yaxşı ki, qayıtdım. Qürbət ellərdə qəribçilik çəkməkdən məhv olacaqdım".

Amma şəhərdə elələri vardı ki, rus gülləsindən qorxub qaçmışdılar. Onlar rus generalının dediklərini eşidib təzədən qayıdırdılar. Hər gün tək-tək at arabalarında şəhərə köç gəlirdi...

7

...Eynalı dağının zirvəsinə sanki çəhrayı gülab çiləmişdilər. Çəhrayı rəng getdikcə tündləşirdi. Aşağıda isə bu tündləşən çəhrayı rənglərin altında dağlar qapqara xəyal kimi görünürdü.

Şər vaxtının qaranlığında səbəbsiz bir sıxıntı, ölçüyəgəlməz bir qüssə dalğası vardı. Şər vaxtı düşən kimi sanki dünyanın bütün dərdi-qəmi, sıxıntısı, kədəri Mahnurun qəlbinə dolurdu. Elə bil gözəgörünməyən qara bulud könlünün göylərində bulanıb yağışını yağdırırdı, borana, çovğuna dönüb bütün hissiyyatını burulğan kimi təlatümə gətirirdi. Yadına düşən xatirələrin içində eləsi

vardı ki, qəfil bir mehdən oyanıb sızlayırdı, sanki unudulduğunun acığını çıxaraq, Mahnura həsrətin acısını çəkdirirdi. Sanki könlü şər vaxtı incik ovqatı, əzablı duyğusu ilə üzünü keçmişə sarı çevirirdi. Elə bil bununla da keçmişdən qalan xatirələrin içindən bir qor götürüb səbr, dözüm ocağını alışdırmaq, onun istisinə qızınmaq istəyirdi... Amma keçmiş elə bil ərköyün uşaq təki onun bütün könlüqırıq duyğularına toxunub, onların hamısını səsləndirməkdə, için-için ağlatmaqda idi...

Muraddan xəbər-ətər yoxdu...

Mahnura elə gəlirdi ki, aradan günlər, aylar yox, bəlkə də səbr yüklü əsrlər keçmişdi. Bu günlərin, ayların və əsrlərin başlanğıcı həmin o küləkli günə – İran sərbazlarının qafiləsində əsir getdiyi o müdhiş günə bağlanırdı.

Saqqallı, yumru gözü bayquş gözünə oxşar sərbazın vahimə doğuran kölgəsi daim onu təqib etməkdəydi. Sərbazın tikanlı baxışında, parıltılı gözlərinin içində biruzə vermək istəmədiyi canavar iştahı və ehtirası gizlənmişdi. Onda həris baxışlar üzünə zilləndikcə sanki daxilində pak, təmiz duyğular zədə alırdı. Heysiyyatını ayaqları altına salıb tapdalayırdı. Mahnur yaşadığı o ümidsiz anı da göz yaşı içində xatırlayırdı: onda hər şey birdən bitibtükəndi. Ümid və səbrin alışdırdığı ocaq qəfildən söndü və onu əsir götürdülər. Mahnur şüursuz halda atının cilovundan yapışaraq, üz-gözünü tikan kimi cızıb-dalayan baxışları duymadan özünü taleyin ixtiyarına verdi. Arazın o tayında isə məchul gələcək qara əjdaha kimi ağzını açaraq onu gözləyirdi... lakin qəflətən sanki göydən tanrının göndərdiyi dəliqanlı əlində qılınc bir göz qırpımında bu əjdahanın qarşısını kəsdi, Mahnuru atın üstündən götürüb qucağına basdı və atını dəhmərlədi... Sanki o dəliqanlı-ilahinin göndərdiyi o cəngavər yalın əllə ölümlə əlbəyaxa döyüşə girdi... Pəhləvan cüssəli oğlan comərd idi. Onu yağıların caynağından zorla qoparıb qaçırması, özünü qorxu bilmədən ölümün qucağına atması, lakin bununla belə üzünün ciddi, sərt cizgilərində qızı heyrətə salan təmkin və ciddiyyət Mahnurun dəlisov duyğularını silkələyib oyatdı. Onlar sanki nağıllardan çıxıb gəlmiş kimi qanadlı atın üstündə uçur, Mahnur qollarını oğlanın belinə dolayaraq ona sığınır, bu müdhiş qovhaqovda qorxu ilə eyni anda gözlərini yaşardan, duyğularını havalandıran gizli nəşə də duyurdu... Demə ölüm qorxusunun gətirdiyi nəşə ümidə, sevgi-

yə bağlanırmış... Mahnur ölümlə gizlənpaç oynadıqları o gecəni xatırlarkən ürəyindən xəfif bir qəm dalğası da ötüb keçirdi.

...Mahnurun qulağına anasının səsi gəldi. Fatimə namaz üstə tanrıya dualarını göndərirdi: "Ya Rəsulallah, sən bu torpağın başındakı qara buludları dağıt. Sən bütün cavanları qoru, onların arasında da Muradı..."

Mahnurun içinə dolmuş şər vaxtının qaranlığı sanki bu duaların işığına bükülüb əridi. Anası təsbeh çevirə-çevirə üzü tanrıya dualarını səssizcə oxuyurdu. Fatiməyə elə gəlirdi ki, bu duaları oxuduqca yüngülləşir, bu duaların hər biri zirehə dönüb onları qoruyur, düşməni tilsimləyərək bu torpağa yaxın buraxmır. Buna görə də Fatimə saatlarla namaz üstdən durmazdı, dodaqlarının altında bütün bildiyi, yaddaşına köçürdüyü duaların hamısını oxumamış ayağa qalxmazdı.

Mahnur da bu duaların gücünə, qüvvəsinə inanırdı. İndi də qara çarşava bürünüb təsbeh çevirən anasına baxa-baxa könül quşu təkrar Muradın yanına pərvazlandı. Bu anda qulağına sanki at çapan, nəmər aparan igidlərin səsi gəldi... O vaxt onların toyunu Kalbalı xan eləmişdi...

...İçəridə ağlayan körpə Mahnurun gözlərinin yaşını qurutdu. Körpəni ehmalca beşikdən götürüb bağrına basdı.

* * *

Osman şəhərdən təşviş, həyəcan içində qayıtdı:

– Ruslar gəldi. Hacı Əbülqasımın karvansarasından o tərəfdə düşərgə salacaqlar. Hacı Əbülqasımın karvansarasına toxunmadılar. Deyirlər ki, başqa məmləkətlərdən yenə tacirlər gələcək. Çünki daha narahatlığa əsas yoxdu.

– Çox şükür, – Mahnur rahatlıqla köks ötürdü. Gözaltı atasına baxıb nə isə soruşmaq istədi, amma dişləri ilə dodağını sıxıb ifallandı.

– Amma buna baxmayaraq hamı başını itirib – Osmanın baxışları kölgələndi.

Fatimə təlaş içində başını qaldırdı:

– Sən başını itirsən biz məhv olarıq ay kişi. Murad da yox...

Osman nə deyəcəyini indi xatırladı, gözündəki həyəcan, təşviş yox oldu:

– Murad Şıxəli xanın yanındadı. Görən olub.

Bu ani xəbərdən Fatimə sevinib gülümsədi:

– Səni min yaşayasan, bəs bu xəbəri vaxtında niyə vermirsən sevinək, gözümüz, könlümüz açıla. Əgər Murad Şıxəli xanla gəlibsə onda niyə evə baş çəkməyib?
– Çəkəcək.
– Bəs nə vaxt?
– Onu deyəmmərəm-Osman birdən Mahnura çevrildi:
– A bala, ay qızım, birdən at minib rusların içinə getmək fikrinə düşərsən.
– Qiyafəmi dəyişərəm – Mahnur aldığı xəbərdən uçunurdu.
– Olmaz. Muradı sən tapammazsan. Harda olsa gələcək.
Osmanın qayğılı gözlərini yenə duman-çən aldı:
– Xanvəli deyir ki, rusların gəlmək xəbərini eşidəndən ermənilər özlərini birtəhər aparır.
Fatimə gözlərini döydü:
– Yəni nə təhər, sevinirlər?
– Hə da bə.
– Sevinərlər də. Dinləri bir, məzhəbləri bir.
Osman başını buladı:
– Xanvəli ermənilər haqqında qorxulu şeylər danışdı. Xanvəli axı erməni Davudla qonşudu. Deyir hər gecə Davudgilə ermənilər yığışır. Xanvəli deyir ki, ayrı yerlərdən keşiş də gəlir.
– Davudun müsəlmanlarla arası yoxdu. Müsəlman görəndə gözləri cəllad gözünə oxşayır. Bəlkə də Davudun özü Alekseyin ata-anasını öldürüb Muradla Xanvəlinin üstə atırdı. Kalbalı xan olmasaydı...
Fatimə içini çəkdi, ağlamsındı:
– Ruslarla birləşib evimizi yıxarlar, Osman.
– Şıxəli xan qoymaz, Fatimə. Çünki urus Şıxəli xansız burda baş çıxarammaz.
– Hardan bilirsən, Osman?
– Şıxəli xan bir zad bilməsə urusa qoşulmaz. O, Kalbalı xanın oğludu. Amma Xanvəli ki, o sözü deyib demək ermənilər... Fatimə, onların qənimi Kalbalı xandır. İnşallah qayıdar, onda bilərik ki, bu ermənilər neynəmək istəyirmişlər.
– Bəlkə o vaxtacan gec oldu, Osman?
Mahnur ayağa qalxdı:
– Mən getdim, gecəniz xeyrə.
Fatimə ah çəkdi:

– Murad görəsən niyə gəlmədi? Bilsəydi ki, oğlu olub, quşun qanadında özünü yetirərdi...

Ər-arvadın pıçıltısı kəsildi. Ləmələrdə yanan çıraqların zəif işartısı özü ilə səssiz sükut gətirdi. Çox keçmədi ki, Osmanın xorultusu gəldi. Körpə gözünü açmadan üz-gözünü qırışdırıb ağladı. Mahnur beşiyi yırğaladı, qonşu otaqdan gələn xorultunun kəsilməyini gözlədi. Birdən hər şeyi unutdu. Sanki bu anlarda Murad ay işığına bələnmiş gecənin içindən çıxıb beşiyin başında dayandı. Əlini uzadıb körpənin şaftalıya bənzər zərif sarı tüklərlə örtülmüş sifətinə toxundu. Mahnur kirpiklərini çaldı və beşiyin başındakı xəyal yox oldu. Bayırda səssizlik içində güclə sezilən ayaq tappıltısını eşidəndə diksindi. Ona elə gəldi ki, beşik başında dayanan Murad xəyal deyil. Pəncərəyə yaxın gəldi, əyilib ətrafa diqqət kəsildi. Ağacların qalın qara kölgəsinin altından iki kölgə ayrılıb qapıya sarı süründü. Mahnurun içindən sanki soyuq sazaq əsdi: deyəsən bunlar ruslardır, gizlicə talana çıxıb.

Mahnur təşviş içində atasını oyatmaq istədi. Osman böyrüüstə çevrilib qollarını başının altına qoydu. Mahnur onu oyatmağa qıymadı. Tüfəngi götürüb qapının arxasına çəkildi. Beynində hər şey bir-birinə qarışdı. Muraddan ötəri ürəyi qəribsədi, könlü qubarlandı. Amma duyduğu həsrət yaz mehi kimi tez də ötüb keçdi.

Qapının arxasında pıçıldaşırdılar. Mahnur ay işığına bükülmüş sakitlikdə pıçıltıları zorla eşitdi:

– Yatıblar, Karo.

– Gecə yarıdan ötüb, indi oyaq adam olar?

– Bəlkə içəri keçməyək, evi yandırıb gedək.

– Birdən hamısı yanmadı, kül olmadı?

– Qapıya qıfıl vuracağıq. Qapını aça bilməzlər Karo.

– Birdən çığırıb-bağırdılar, köməyə adam çağırdılar?

– Onlar hay-küy salmağa fürsət tapmayacaq Karo, hamısı yanıb kül olacaq.

– Sən deyən olsun Davud. Murad Şıxəli xanın yaxın adamıdır. O vaxt o bizim ermənini qalada tutub Kalbalı xana təslim elədi. Bunun hayıfını ondan çıxmaq lazımdır. Ailəsinin məhv olduğunu eşitsə ürəyindən zərbə almış olacaq.

– Yaxşı, nefti ver bura. Şüşəni sındır və içəri at.

– Dayan Davud, tələsmə. Müsəlmanlar demiş, tələsən təndirə düşər.

– Vaxt ötür, səhərə az qalır...

Mahnurun ürəyi şiddətlə çırpındı. Sanki damarlarında qan əvəzinə alov axdı. Alnında tər buz bağladı. Amma özünü topladı, qəzəb qarışıq nifrətlə dodaqlarını bir-birinə sıxdı: «Bunlar urus yox, ermənilərdir...» Tüfəngi tutan əlləri titrəyirdi, durduğu yerdəcə uçunurdu: «Demək bunlar Muraddan hayıf çıxırlar. Ölmüşdü Mahnur...».

Ermənilərdən biri qıfılı qapıya vurub açarla bağladı, sonra açarı ağacların altına tulladı. İkinci alçaqboy, tösmərək kişi pəncərəyə sarı gəldi. Əllərini şüşəyə söykəyib içəri baxdı. Mahnur geri çəkilib tüfəngi kişiyə çevirdi. Güllə açıldı, şüşələr çiliklənib töküldü və kişinin iri əlləri pəncərədən üzüldü. Boğuq bir səs çıxararaq üzüqoylu düşdü. O biri erməni özünü itirdi. Naqafil güllə onu çaşdırıb qorxutdu. Gah hasara tərəf qaçdı, gah da arxası qatda düşmüş adamın üstə yüyürdü. Bu anda it hürüşməsi, oyanmış məhəllənin səs-küyü bir-birinə qarışdı. İkinci güllə hasara dırmaşan kişinin qolundan dəydi.

Osman hövlanak yuxudan ayılıb key-key gözünü döydü, ilk əvvəl nə baş verdiyini anlamadı. Oyanmış, qorxudan dizlərini qucaqlamış arvadını silkələdi:

– Fatimə, bizim evə hücum eləyiblər?

– Uruslar... – Fatimə qışqırmaq istədi, amma səsi düyünlənib boğazında qaldı, birdən əlini dizinə çırpıb bağırdı: – Mahnuru apardılar...

Mahnur əlində tüfəng başını içəri uzatdı:

– Əşi, qorxmayın, burdayam. Evə iki tülkü girmək istəyirdi. Birini öldürdüm, biri yaralandı.

Mahnur qorxmuş Fatiməni sinəsinə sıxdı:

– Özünə gəl, mən də, uşaq da sağ-salamatıq.

– Bə tülkü hasardan necə aşıb, Mahnur?

Mahnuru gülmək tutdu:

– Tülkü deyil ermənilərdir. Evi yandırmaq istəyirdilər.

Osman qapını açmaq istədi. Qapı arxadan bağlanmışdı. Həyət adamla dolurdu. Qapının qıfılını qırdılar. Karo qolunu tutaraq yerdə çabalayırdı. Osman onun ağlayıb-sıtqamasına əhəmiyyət vermədən boğazından tutub yuxarı qaldırdı, çənəsindən bir yumruq ilişdirdi:

– Erməni it oğlu, nə azarın vardı mənim qapımda?

Karo onun ayaqlarına sarılmaq, öpmək istədi:

– Osmancan, burax gedim. Məni Davud yoldan çıxardı. Davud da ölüb yerindən tərpənmir. Cəzasını aldı, nə olar, qurban olayım, burax gedim.

Pəncərənin altında Davudun başına xeyli adam yığışmışdı. Yuxudan kal oyanmış adamlar hələ də nə baş verdiyini anlamırdı. Davudun yanında qan gölməçəsi ay işığında qaralırdı. Osman nifrətlə onun böyrünə təpik ilişdirdi.

Karo astadan inləyirdi.

Osman onun başını yuxarı qaldırdı:

– De görüm mənim evimi niyə yandırmaq istəyirdiz?

– Düzünü desəm buraxarsanmı?

– De görək.

– Biz gözləyirdik ki, ruslar şəhərə girən kimi talana başlayacaq. Amma general rusları əl tərpətməyə qoymadı. Ermənilərin ovqatı pozuldu. Çünki onlar da ruslara qarışıb evləri yandıracaq, müsəlmanları qətlə yetirəcəkdilər. Qətlləri, yanğınları da rusların üstünə atacaqdıq. Bu Davudun fikriydi...

Davudun nəşini sürüyüb apardılar. Karo Osmanın əlindən qurtaranda çevrilib Mahnura qanlı-qanlı baxdı...

* * *

Keşiş Danil hərbi qərargaha keçmək istəyəndə əli tüfəngli iki rus əsgəri onun qarşısını kəsdi:

– Dayan müqəddəs ata, hara soxulursan? Bura kilsə qapısı deyil.

Keşiş Danil əsgərləri qəzəblə süzüb hökmlə dedi:

– Mən generalı görməliyəm.

– General istirahətdədir. Dayan sənin gəlişini ona xəbər verək.

Əsgərlər qımışdı. Keşiş onlara acıqlandı, göy gözləri hiddətlə qıyıldı:

– Yubanmadan qraf Qudoviçə mənim gəldiyimi xəbər verin.

Əsgərlər özlərini yığışdırdılar. Biri içəri keçib tez də qayıtdı, keşişi hörmətlə Qudoviçin yanına apardı.

Qraf Qudoviç yorğun, süst görünürdü. Günəşin istisi uzunsov arıq sifətini yandırıb mis kimi qızartmışdı. Son günlər xeyli sınıxmışdı: çənəsi bir az da uzanmış, göz qapaqları şişib qaralmışdı.

General keşişlə görüşəndə yorğun gözləri sanki dirilib parıldadı. Təbəssüm sifətinin sərt cizgilərinə mülayimlik gətirdi. Qraf keşişi yuxarı başa keçirdi. Keşiş otağa nəzər salıb canıyananlıqla dedi:

– Siz çox işləyirsiz, qraf? Mənə dedilər ki, siz gecə-gündüz at belindən düşmürsüz. Bizim ermənilər bundan çox narahatdır. Bizim ermənilər sizin səhhətinizə görə nigarandır. Amma siz... Acizanə xahiş eliyirəm, general, özünüzü qoruyun. Siz ermənilərə və bütün rus imperiyasına lazımsız.

General qımışıb əlini sinəsinə çəkdi.

Keşiş birdən özünü yığışdırdı, udqundu, sonra ehtiyatla sözünə davam etdi:

– Mən sizi, Allah xatirinə, tənbeh eləmirəm. Sizdən yalnız özünüzdən muğayat olmağınızı xahiş etmək istəyirəm – keşiş susdu, sonra generalın gözlərinin içinə baxıb sözlərinin təsirini yoxlamaq istədi və iltifatla gülümsədi – bizimkilər sizə ziyafət vermək istəyirlər, general. Onlar yaxşı şərab gətiriblər. Dadına baxsaniz məmnun qalarsız.

– Gələrik, Danil.

Keşiş gözlərini süzdürüb müdrikcəsinə gülümsündü, əlini ağlı-qaralı saqqalına çəkdi:

– Mən sözümü deyib qurtarmamışam, general. Yaxşı şərab və gözəl qadınlar...

General ürəkdən şaqqanaq çəkdi:

– Bundan vaz keçmək mümkünmü, keşiş?

Keşiş Danil qımışıb uzun ətəkli paltarının cibindən bükülü çıxardı. General onun əlini hərisliklə izlədi. Keşiş bükülünü açıb daş-qaşı ovcunun içində generalın parıldayan gözlərinin qarşısına gətirdi. Sonra üzüklərdən birini işığa tərəf tutub təntənəli bir sevinclə dedi:

– General, bunun şəffaflığına fikir verin. Çıraq kimi yanır. Bu üzüklə az qala bir ordunu satın almaq olar. Amma bizə ordunu yox, sizin xeyirxah qəlbinizi fəth etmək gərəkdir.

General səbirsiz halda üzüyü aldı, ovcunun içində xeyli baxdı, sonra da işığa tutdu, parıltısından gözü qamaşdı, heyranlıqla dedi:

– Çox qiymətlidi. Sən həmişə məni utandırırsan, keşiş.

Keşiş dodaqaltı qımışdı: «Sən heç də utancaq adama oxşamırsan, general», amma gözü üzükdə başqa söz dedi:

– Bunları sənə bizim ermənilər göndərib. Onların sizdən kiçicik bir xahişi var... Sizi bundan sonra daha qiymətli hədiyyələr gözləyir... general.

General

– Eşidirəm, Danil ermənilər nə istəyir?

– Ruslar artıq Naxçıvandadır...

– General Nebolsin Şıxəli xanın köməyi ilə Naxçıvana daxil oldu.

– Biz ordakı ermənilərin yanına bir dəstə göndərmişdik. O adamlar özləri ilə silah da aparmışdılar – keşiş yüngül bir hiddətlə dedi, sonra da təəssüf qarışıq kədərlə əlavə etdi: – bilmirəm ruslar niyə talana başlamadılar? Bizimkilər ruslara qoşulub talanda iştirak edəcək, qundaqdakı körpəyə qədər bütün müsəlmanları məhv edəcəkdilər. Onda Naxçıvan çox asanlıqla gələcək Ermənistan dövlətinə qatılardı...

General qaşlarını çatıb fikrə getdi. Əlindəki üzüyə baxa-baxa keşişin hirsini, qəzəbini soyutmaq üçün təmkinlə dedi:

– Naxçıvanı talan etmək indilikdə təhlükəlidir, Danil. Bu rus imperiyasının apardığı siyasətə ziddir. Mən general Nebolsinə göstəriş vermişəm ki, rusların gəlişindən Naxçıvanda kimsə ziyan çəkməməlidir.

Keşiş Danil gözaltı üzüyə baxıb əhvalı pozulmuş mızıldandı:

– Naxçıvana daxil olan rusların arasında çoxlu erməni əsgərləri də var. Onlar rus imperiyasına sidq-ürəklə qulluq edirlər.

– Bilirəm, Danil. Qarabağdan topladığımız bu erməni cavanları rus ordusunda xidmət etdiklərinə heç də peşiman olmayacaq, – general fikrə getdi – indi dovşanı da siyasətlə ovlamaq lazımdır. Azərbaycanlılar arasında çox qorxmaz, igid adamlar var. Kalbalı xanın oğlu Şıxəli xan kimi adamları biz öz tərəfimizə çəkməli, onların etimadını qazanmalıyıq. Şıxəli xan Nebolsinin ordusuna bələdçilik edib Naxçıvana apardı. Qarababa döyüşündə öz şücaət və cəsarətini göstərdi. Nebolsin mənə göndərdiyi raportda onun adını xüsusi olaraq çəkir. Mən Şıxəli xanın özünə məktub yazmışam. General keşişin üzündə yaranan ifadəyə fikir vermədən məktubu götürüb oxudu:

***«Hörmətli Şıxəli xan.***

***Sizin Ümumrusiya imperiyasına olan xidmətiniz və sədaqətiniz haqqında xəbərim var. Sizin xidmət naminə hazır olduğunuzu bilirəm. İndiki yürüşə general-mayor Nebolsinin***

*müşayiət olunmasında və Naxçıvan əhalisinin əvvəlki yerlərinə qaytarılmasında xidmətiniz böyükdür. Sizə öz minnətdarlığımı bildirmək mənə xoşdur və sizi inandırıram ki, bu xidmətləriniz haqqında əlahəzrət imperatora məlumat verməklə yanaşı həm də sizin xeyrinizə olaraq zəmanət verəcəm.*

*Dərin hörmətlə:*

*General-feldmarşal qraf Qudoviç.*

*27 noyabr 1808-ci ci il».*

Keşiş Danil özünü saxlaya bilməyib istehza qarışıq nifrətlə güldü:

– Belə çıxır ki, azərbaycanlıların üzünə gün doğur.

Qraf Qudoviç hiyləgərcəsinə qımışdı:

– Lakin siyasətlə alışan ocağın istisinə qızınmaq olmaz, keşiş Danil. Bunu da yadında saxla.

Keşişin təlx olmuş ovqatı rahatladı. Yaltaq təbəssüm sarımtıl sifətinin bütün qırışlarını açıb hamarladı və qraf Qudoviçin əlini ikiəlli sıxdı:

– Sizin ayağınız biləni erməninin başı bilməz, qraf.

General ciddiləşdi, qaşları çatıldı:

– Şıxəli xan bizə Naxçıvanın işğalı üçün gərəkdir, lazım gəlsə biz ona hərbi rütbə verəcək və göylərə qaldıracağıq. Hər halda bu siyasət də rus dövlətinə və ermənilərin gələcək taleyinə xidmət edəcəkdir.

General ayağa qalxdı, bununla da söhbətin bitdiyini bildirdi. Keşiş əlini sinəsinə qoyub iki qat əyildi, sağollaşdı və çıxıb getdi. Tək qalmış general brilliantları təkrar əlinə götürüb xeyli baxdı, məmnun halda qımışdı, sonra içəri otaqda gizlətdiyi kiçik sandıqçanı gətirib masanın üstə qoydu, qapağını qaldırıb içindəkiləri masanın üstə sərdi. Elə bil masanın üstə bərq vuran ulduz sərgisi açıldı. Onlara tamaşa etdikcə general gülümsəyir, sanki canından min ilin yorğunluğu çıxırdı...

***

...Hər gecə doğma evə qayıdanda sanki boş otaqlar səssiz hüznü, qəm dolu sükutu ilə Şıxəli xanı qarşılayırdı. Boş otaqlar elə bil onunla birgə Tükəzban xanımın asta, özü kimi kövrək yerişi üçün, Kalbalı xanın məğrur addımı, gur səsi üçün darıxırdı. Otaqların hamısında bu evin doğma adamlarının xəyalı, səsi, ye-

rişi, gülüşü yaşayırdı. Bir vaxt bu zəngin otaqlara gənc və gözəl Tükəzban xanım gəlin köçmüşdü. Burda gözü işıqlı, sözü kəsərli Kalbalı xanın cavanlığı keçmişdi. Sonra bir-birinin ardınca Kalbalı xanın övladları dünyaya göz açmışdı: Nəzərəli xan, Şıxəli xan, Ehsan xan, Fərəc ağa, Mehdiqulu xan, Seyidbəyim xanım, İsgəndər xan...

Bu evdə daim dəbdəbəli ziyafətlər verilərdi. Bu ziyafətə adlı-sanlı adamlar yığışardı. Dayısı – İrəvan xanlığının başçısı Məhəmməd xan, xalası – Xoy xanı Əhməd xanın arvadı Səltənət xanım... O vaxtlar eşitdiyinə görə anası Tükəzban xanım da Qacar sülaləsindən idi, Ağa Məhəmməd şah Qacarla uzaqdan-uzağa qohumluq əlaqələri vardı... atası Kalbalı xan istəsəydi bu qohumluq əlaqələrindən istifadə eləyib başını salamat saxlayar, göz işığından məhrum olmazdı. Lakin məğrur Kalbalı xan əyilmədi, Naxçıvanı müstəqil görmək istəyi daim yaşadı və xan bunu öz övladlarına da təlqin etməyi bacardı...

...Şıxəli xana elə gəlirdi ki, bu evdə Kəngərlilər tayfasının başçısı-babası Murad xanın ruhu daim dolaşır. Bu tayfanın qədimliyi barədə düşünəndə Şıxəli xanın ürəyi qürur hissi ilə dolurdu. Kəngərli tayfaları yüz illərlə Naxçıvanın hakimi olmuşlar. Onlar bu gözəl torpağı idarə etmiş, göz bəbəyi kimi qorumuş, yadellilərə qarşı daim mübarizə aparmışdılar. Kəngərlilər at minməkdə, qılınc oynatmaqda mahir idilər. Buna görə də İran şahları Kəngərli süvarilərindən çəkinmiş, Kəngərli xanları ilə hesablaşmış, onların sözünü eşitmişlər.

Bu qədim tayfanın başçısı indi atası Kalbalı xandır...

...Bu intizar, həsrət çəkən otaqların dolu sükutunda keçmişin bitməmiş yaşantısı qalırdı. Yenə də nə vaxtsa bu otaqlarda Kalbalı xanın, Tükəzban xanımın və onların övladlarının, nəvə və nəticələrinin yaşantısı davam edəcəkdi...

...Şıxəli xan yuyunub otağa keçdi. Yatağına uzanıb dincəlmək istədi. Amma yuxu əvəzinə sanki gözlərinin içinə bir ovuc qor doldu. Könlü dolandı, ürəyinin içini qəm havası aldı. Kalbalı xanı görmək, əlindən tutmaq, nəfəsini duymaq, səsini eşitmək üçün bu anlarda ayaqyalın dünyanın o başına getmək əzabına qatlaşardı. Təki bircə dəfə onu görsəydi... Çox güman ki, İran şahı onun rusların tərəfində İran sərbazları ilə döyüşdüyündən xəbərdardır. İran şahı onu da bilir ki, naxçıvanlılar Şıxəli xana görə rusları döyüşsüz şəhərə buraxdılar. Şahın gözlədiyi baş ver-

mədi: ruslar kimsəyə dəyib-toxunmadılar. Naxçıvanda sakitlikdir. Ordu üçün lazım olan mal-qaranı ruslar kəndlidən zorla deyil, pul ödəyib alırlar. Hər halda şah başa düşür ki, bunların hamısı Şıxəli xanın xidməti sayəsindədir.

Şıxəli xan dərindən köks ötürdü. Rusların cəbhədə üstünlüyü onun ümidlərinə qol-qanad verirdi: ruslar onun sədaqəti, təmənnasız xidməti müqabilində mütləq Kalbalı xanı şah zindanından azad etdirərlər. Necə ki, atası bir vaxt Sisianovun xahişi ilə keşiş Danili şah zindanından çıxarmışdı. Keşiş Danili xatırlayan kimi qara şübhə sızqa bulaq kimi ürəyinə axdı: keşişlər niyə Naxçıvandan əl çəkmirlər? Aldığı məlumata görə dünən təzə bir keşiş Naxçıvana təşrif gətirib. Keşişlər gecə-gündüz Nebolsinin yanında sadiq köpəklər kimi vurnuxur. Generalın yan-yörəsi yaltaq, işbaz ermənilərlə doludur. Bu anda Şıxəli xanın beyninin içində sanki şimşək tək nəsə çaxdı: bu bic, çoxbilmiş ermənilər Nebolsinin ətrafında dolaşaraq naxçıvanlılara gizli-gizli hörümçək toru qurmurlar ki? Görəsən Kalbalı xan burda olsaydı buna necə qiymət verərdi? Ermənilərin bu canfəşanlığı qarşısında necə addım atardı? Burda Kalbalı xanın ağlı, zəkası gərək idi. Kalbalı xan da uzaqlarda...

Şıxəli xanın yuxusu birdəfəlik qaçdı. Yorğanı üstündən çəkib yatağının içində dizlərini qucaqladı: Davud Karo ilə Osman kişinin evini yandırmaq istəyib. Mahnurun ayıqlığı, qoçaqlığı ermənilərə baha oturub.

Şıxəli xan elə bu gecə Əli xanı, Nəzərəli xanı, Muradı, Kərim xanı oyatmaq, üstlərinə gələn gizli bəladan onları xəbərdar etmək, ayıq salmaq istədi. Yadına düşdü ki, Murad evinə gedib, Kərim xanla Əli xan Ordubaddadır. «Öz içimizdə düşmən var...». Şıxəli xanın göz qapaqları ağırlaşdı. Yorğanı sinəsinə çəkdi...

* * *

Şəhərin ən böyük dördkünc bazarı rus əsgərləri ilə dolu olurdu. İlk günlər ruslarla alver eləməyə qorxan dükan sahibləri indi onları görəndə gözləri gülürdü. Mallarını ortaya töküb əl-qol ata-ata rus müştərilərini başa salmağa çalışar, xeyir götürüncə sevinərdilər. Generalın qorxusundanmı, ya nədənsə əsgərlər malları havayı götürməzdi, aldıqlarının hesabını gümüş pulla ödəyirdilər. Gümüş pulun isə bazarda hər zaman dəyəri vardı.

Generalın özü də boş vaxtlarda bazara baş çəkərdi. Bu gəzintidən o, dərin zövq və nəşə duyardı. Torpağın öz yetirdiyi məhsulların dadı-tamı Nebolsinin xoşuna gələrdi. Naxçıvan ustalarının istehsalı olan ipəyin, sapın, bezin, parçanın keyfiyyəti, məzənnəsi ilə maraqlanar, üzündə səbəbsiz bir təbəssüm görünərdi. Bu təbəssüm daim onun gözlərindəydi. Lakin Nebolsinin daxilində hər an atılmağa, parçalamağa hazır olan yatmış pələngdən kimsənin xəbəri yoxdu. Almacıq sümükləri çıxmış, saçlarını dibdən vurdurmuş, sarı kirpikli tünd mavi gözlü generalın üzündəki təbəssüm – istisi, şəfqəti olmayan aldadıcı qış günəşinə bənzəyirdi. Sanki general içindəki qəddarlığı, amansızlığı, qaniçənliyi üzünün xoş təbəssümünə büküb onların üstünü örtər, fürsət düşəndə isə yalançı təbəssüm yox olar, içindəki qəddarlıq üzə çıxardı... Və kimsənin xəbəri yoxdu ki, Naxçıvanın küçələrindən sakit keçən və ayaqlarını yerə bərk vuran generalın əsgər çəkmələri qana bələnib. Kimsə bilmirdi ki, rast gəldiyi uşaqların başını şəfqətlə tumarlayan generalın əlləri qanlıdır. Bu qanlı əllər Polşadan, Krımdan tutmuş Qarabağa qədər yüzlərlə uşağı, körpəni həyatdan məhrum edib. Nə qədər qocaya, cavana qıyıb. Naxçıvanda bunu kimsə bilmirdi. Heç Şıxəli xan da.

...General Nebolsin tək qaldığı anlarda ürəyi doğulub boya-başa çatdığı, uşaqlıq xatirələrini yaşadan Sankt-Peterburq üçün qəribsəyərdi. Nebolsinin atası varlı zədagan idi. At minməyi, yarışlara getməyi xoşlardı. Kiçik Pyotru da özü ilə aparardı. Sanki at çapmaqla, qılınc oynatmaqla atası onu hərbi sənətə hazırlamaq istəyirdi. Və Pyotr hərbiçi oldu...

Pyotr qəddar, amansız, insan qatili, sərvət düşgünü olan hərbiçi oldu...

O, rus hərbiçisinə xas olan bu xasiyyətləri Polşa və Krım torpaqlarının işğalında qazandı və sınaqdan keçirdi. 1780-ci ildə İzmail qalasının alınmasında Pyotr xüsusi qəddarlıq göstərdi. Onun əmri ilə qala güllələbaran edildi və müsəlmanların hamısı qətlə yetirildi. Sonra onun qanlı çəkmələri Qarabağı, Şəkini dolaşdı. Bu qanlı çəkmələrin izi ilə ermənilər Nebolsinin arxasınca sürünürdü. Qanlı çəkmələrin izi ilə sürünən kölgələr sonradan öz qanlı izlərini Azərbaycan torpaqlarında qoyurdular...

* * *

Adyutant Vasilyev əlini gicgahına aparıb həyəcanla generala məlumat verdi:

– Cənab general, keşiş Danil bir dəstə əsgərlə sizi görmək istəyir. Amma əsgərlər gözümə qəribə dəydi...

– Bəlkə hissədə qulluq edən ermənilərdir?

Vasilyev başını buladı:

– Xeyr general, bunlar... nə bilim?

– Keşişi burax. Əsgərlər isə gözləsin.

Keşiş Danil generalla ikiqat əyilərək görüşdü. Sanki uzun illər doğma, əziz adamından ayrı düşmüşdü. Hətta keşişin gözlərində yaş da göründü. Əlinin arxası ilə gözlərini silib ağlamsındı:

– Sizdən nigaran idim, general. Siz Qarabağdan çıxıb gedəndən sonra elə bil hər şey dadını-tamını itirdi. Biz sizə çox öyrənmişdik.

Nebolsin gözlərini yumub açdı, başını tərpədib ləzzətlə gülümsündü:

– Qarabağ başqa aləmdir, keşiş. Düz deyirsən. Sizin ermənilər çox qonaqpərvərdir. Onlar rus zabitlərini darıxmağa qoymurlar. Hər axşam ziyafət, şərab və gözəl qadınlar. Qızları bizə təqdim edəndə "Danilin bacısı qızlarıdır" deyirdilər. Bunlar doğruydumu keşiş? Belə çıxır ki, sənin bacın qızları düzü-dünyanı tutub? Elədirmi?

– Bizdə hamı erməni millətinə xidmət edir, general.

– Başa düşdüm.

– Onlar indi də sizin xidmətinizə gəlib. Çünki onlar olmasa Naxçıvan sizi tez darıxdırar.

General sözü dəyişdi:

– Qarabağda vəziyyət necədir, Danil? Mənə elə gəlir ki, keşişlər bütün dövrlərdə ən zirək və ayıq siyasətçilərdir.

– Doğrudur. Yadınızda saxlayın ki, ilk dəfə I Pyotrun da sarayına yol tapan erməni keşişi olub. O ki, qaldı Qarabağa... Biz qraf Qudoviçə çox borcluyuq. Artıq xeyli erməni ailələri Şuşaya və onun ətraf kəndlərinə, Əsgəran qalasına yerləşdirilib. Ermənilərin ardı-arası kəsilmir. Onlar ev-eşiklərini buraxaraq Qarabağa axışır. Əvvəl Mehdiqulu xan bunun qarşısını almaq istədi. Amma bacarmadı... Çünki o, ruslara yaxşı bələddir. Polkovnik Iisanoviç 1806-cı ildə onun atası İbrahimxəlil xanın bütün ailəsini, o cümlədən otuzdan çox qohumunu qətlə yetirdi. Qraf Qudoviç də bunu bacarardı...

– Yaxşı, bayırda gözləyən əsgərləri çağır.
– Baş üstə.
Keşiş Danillə bir neçə əsgər otağa girdi. Nebolsin onları görəndə çaşıb qaldı. Əsgər papaqlarının altından sürməli gözlər gülümsəyirdi.
General təəccüb və heyrətlə açılmış gözlərini qırpmadan başını çevirib Danili süzdü, sonra əllərini arxasında çarpazlayıb farağat vəziyyətində dayanmış bu qəribə qiyafəli əsgərlərin qarşısından keçdi. Əsgərlər dodaqlarını bir-birinə sıxaraq pıqqıldayıb gülməkdən özlərini zorla saxlamışdılar.
Danil başını əsdirə-əsdirə uğundu:
– Bunlar əsgər deyil, general.
– O halda kimlərdir və nə üçün rus əsgərinin paltarını geyiniblər?
Keşiş əllərini döşünə qoyub belini ikiqat əydi:
– Bunlar vətənpərvər erməni qızlarıdır. Onlar sizə xidmət etmək üçün gəliblər, general.
– Bəs niyə hərbi paltarda?
Keşiş Danil nifrətlə əlini yellədi, üz-gözünü qırışdırıb əlini saqqalına çəkdi:
– Naxçıvanlılar vəhşi millətdi, general. Müsəlmanların hamısı elədi. Onlar bu cür şeyləri sevmirlər. Guya islamda naməhrəmlərin bir yerdə olması qadağandır. Əgər naxçıvanlılar bilsələr ki, erməni qızları əsgər düşərgəsinə gəlir, onlar adamı daş-qalaq edərlər. Ona görə mən də hiylə işlədib qızlara əsgər paltarı geyindirdim ki, onlar ruslardan seçilməsin. Axı sizə bu darıxdırıcı və cansıxıcı vilayətdə xidmət lazımdır ki, siz öz işinizi lazımınca görə biləsiz.
Keşiş Danil içəri girən adyutanta gözücü baxıb qımışdı:
– Bizim ermənilər sizin üçün qoyun cəmdəkləri və şərab çəlləyi də göndərib.
Generalın keyfi duruldu:
– Sən həmişə bizim mənəviyyatımızı düşünürsən, keşiş. Əgər bu vəhşi dağların arasında şərab və qadın olmasa adamın ürəyi partlaya bilər...

* * *

1809-cu il fevral ayı.

Naxçıvanın sərt, soyuq qışı uzun çəkirdi. Bahar dağları adlayıb arana yenənə qədər qış bütün gücü, qüvvəsi ilə hökmüranlığını biruzə verirdi. Boz buludlar gah qaralıb bulanır, gah da qar yağdırırdı. Sazaq alov kimi üz-gözü qarsır, soyuq iliyə qədər işləyirdi.

...General Nebolsin gurhagur yanan sobanın qarşısında əyləşərək dərin fikrə getmişdi. Yolların bağlandığı, qışın tüğyan etdiyi bir vaxtda əsgərlərin ərzağı tükənirdi. Rusiyadan ərzaq gələcəyinə güman yox idi. Nebolsin düşdüyü bu ağır vəziyyətdən çıxış yolu axtarırdı. Amma çıxış yollarının hamısı üzünə bağlıydı. Bu anda adyutant Vasilyev içəri girərək Şıxəli xanın arabalarla dolu ərzaq gətirdiyini xəbər verdi. General müjdə xəbəri almış kimi yerindən dik qalxdı. At qoşulmuş arabalar yağan qara, tufana əhəmiyyət vermədən düşərgəyə yaxınlaşırdı. Ağır yükü sanki çiynindən atmış Nebolsinin üzündə təbəssüm göründü, minnətdarlıq duyğusu ilə Şıxəli xanı axtardı. Atı gözünə dəymədi. Ərzaqların anbara təhvil verilməsi haqqında göstəriş verdi. Bu ərzaq qışın sərt aylarında əsgərləri aclıqdan xilas edəcəkdi. Bununla da generalın ərzaq qıtlığından narahatlığı və təşvişi ötüb keçdi.

...Şıxəli xan özü gəlməmişdi. General axşam özü onun yanına getməyi, təşəkkürünü bildirməyi qərara aldı. Lakin qəlbinin dərinliklərində Şıxəli xana duyduğu minnətdarlıq duyğusundan çox yersiz bir nifrəti, səbəbsiz ədavəti təkrar hiss etdi. Sanki keşiş Danil bu minnətdarlıq duyğusunun qüvvətlənməsinə, nifrətə, ədavətə üstün gəlməsinə yol verməyərək qulağının dibində asta-asta pıçıldadı: "Siz Şıxəli xanı başınızdan rədd eləyin, general. Şlxəli xan atası Kalbalı xan kimi çox təhlükəlidir. Görürsüzmü, xan kor olsa da şah onu zindanda dustaq saxlayır. Şlxəli xan fürsət düşən kimi silahını ruslara çevirəcək..."

General Nebolsin keşişin sözlərinə aldanaraq Şıxəli xanın gözlərində gizlənmiş şeytanı axtarırdı. Lakin onun gözlərində uşaq sadəlövhlüyünə oxşar riyasız, yalansız bir inam vardı...

Nebolsin təkrar isti sobanın yanına qayıtdı. Üşümüş əllərini qızdırdı, sonra da elə bil içərisindən gələn vicdanın səsini boğa bilməyərək öz-özünə düşündü: "Keşiş Danilin sözlərinə inanıb Şıxəli xanı itirmək olmaz. Şıxəli xan rus ordusuna lazımdır. Onun

ağlı, zəkası, döyüş bacarığı, şücaəti rus imperiyasına çox lazımdır".

General vaxt itirmədən rus imperatoru I Aleksandra məktub yazmaq, Şıxəli xanı təqdim etməklə – həm də özünün rus taxttacına sədaqətini bir daha sübut etmək istəyirdi. Lakin məktubun ilk cümləsindən birdən-birə ruhdan düşdü və cürətini itirdi. Məktubu yarımçıq qoydu, otaqda var-gəl etdi, xeyli düşündü, məktubu yazmaq ona dağlar aşmaq qədər çətin gəldi. Sonra qəflətən ağlına gəlmiş fikirdən qaşlarının düyünü açıldı, göy gözləri parıldadı. Şıxəli xan haqqında baş komandan qraf Qudoviçə raport yazdı.

...General Qudoviç isə Nebolsinin göndərdiyi raport əsasında rus imperatorunun yaxın dostu olan qraf Saltıkova məktub yazdı. Qudoviçin fikrincə Saltıkov bu məktubu mütləq I Aleksandra çatdıracaqdı. Çünki qraf məktubda Şıxəli xanın sədaqətli, igid obrazını Saltıkovun gözləri qarşısında canlandırmağa səy göstərmişdi və buna müvəffəq olmuşdu. Onun Şıxəli xan barəsində yazdığı sözlər ürəkdən gəlmişdi: *«...Şıxəli xanın göstərdiyi sədaqət bir də bundan ibarətdir ki, Naxçıvan əhalisi arasındakı nüfuzdan istifadə edərək general-mayor Nebolsinin əsgərlərini zəruri olan ərzaq və başqa sursatla təmin etmişdir. Bir neçə dəfə İran qoşunları tərəfindən verilmiş həyəcan siqnalına Şıxəli xan öz atlılarını cəm edib bizim sərəncamımıza vermişdir. Onun dəstəsi Qarabağa qayıtdıqdan sonra Ümumrusiya dövlətinə hər cür xidmət göstərmiş və sədaqətli olduğunu sübuta yetirmişdir.*

*Qraf həzrətləri, Şıxəli xanın xidmətlərinə yüksək qiymət verərək xahiş edirəm ki, buna mükafat olaraq imperator həzrətlərindən ona polkovnik rütbəsi verilməsini xahiş edəsiniz.*

*Hörmətlə: general-feldmarşal qraf Qudoviç*
*14 fevral 1809-cu il».*

* * *

...Xanvəli Feyzullahın baqqal dükanına baş uzadıb salam verdi və həyəcanla dedi:

– Xəbərin var xəbərdən Feyzullah?

Feyzullah müştərini tələsik yola salıb Xanvəli ilə baş-başa qaldı.

– Hansı xəbərdən, Xanvəli?

– Urus padşahı Şıxəli xana məktub göndərib.

Feyzullahın heyrətdən gözləri böyüdü:
– İnanmaram. Deynən sən öl.
– Sən öl.
Feyzullah fikrə getdi, düşündü və birdən cin atına mindi:
– Ə, Xanvəli, yetim adamam, vicdanın olsun, yalannan niyə «sən öl» deyirsən. Urus padşahı nə tanıyır ə, Şıxəli xan kimdi? İşi-gücü qurtarmışdı...
– Feyzullah, erməni olsaydı milçək boyda adamını şişirdib eləmişdi fil boyda. Ə Şıxəli xan balaca adamdı? Ə, urus onun gücünə iranlıları Naxçıvandan çıxarmadı? Ə, Şıxəli xan olmasaydı biz qoyardıq urusun ayağı Naxçıvan torpağına dəysin?
– Bəs onda iranlıları niyə buraxırıq torpağımıza, Xanvəli?
– Sən məni dərinə çəkmə Feyzullah. Cin başqadı, şəyatin başqadı.
– Cin urusdu, şeytan farsdı?
– Mən bir onu səhih bilirəm ki, urus padşahı Şıxəli xana məktub yazıb. Amma Feyzullah... bu məktub məni şübhələndirir.
– Niyə?
– Belə başa düşürəm ki, urus padşahının Şıxəli xana işi düşüb.
Feyzullah uğunub getdi. Xanvəli qara, lopa bığlarına tumar çəkib xırda gözlərini qıydı:
– Sözümü qürbətə salma. Şıxəli xan Kalbalı xanın yanında kimdi ki, urus padşahı onu qoyub buna məktub yazsın. Urus getsin məktubu erməniyə yazsın ki, ondan yana sinov gedir.
– Amma Feyzullah, padşahın Şıxəli xana məktub yazmağı bütün şəhərə yayılıb. Elə bilirəm bu xəbər Fətəli şahın, Abbas Mirzənin də qulağına çatıb.
– Sən heylə bilirsən?
– Feyzullah, bu məktub Şıxəli xanı İran şahının gözündə yuxarı qaldıracaq.
– Yəni deyirsən Fətəli şah da sənin kimi sevinəcək, Xanvəli?
– Mən səni başa salmaqda acizəm, Feyzullah.
– Yəni mən qanmazam? Elə deyirsən Xanvəli?
– Əstağfurullah. Deyirəm bu məktuba görə İran şahı Şıxəli xandan çəkinəcək, bəlkə də bu məktuba görə Kalbalı xanı zindandan azad edəcək.

– Hə, burasını heç düşünmədim, Xanvəli – Feyzullah gözü Xanvəlidə fikrə getdi – yəni İran şahı başa düşəcək ki, urus Şıxəli xanın arxasında dayanıb. Onda Kalbalı xanı da zindandan azad eliyər. İnşallah.

– İnşallah. Kalbalı xan öz yurduna, elinə qayıdar. Gözünün işığı olmasa da ağlının, zəkasının işığı ilə bu milləti bir yerə çıxarar. Kalbalı xan bilir ki, bizim dostumuz kimdi, düşmənimiz kim? Urusa inanaq, ya inanmayaq? Yaxşı mən getdim, Feyzullah.

– Axşam çayxanada ol, Xanvəli.

– Ə çayxana nədi, camaat məscidə toplaşır. Urus padşahının və Kalbalı xanın ömrünə dua eliyir.

– Urus padşahına niyə?

– O olmasaydı bizi köçürmüşdülər İrana, ona görə.

Əlacsız qalan Feyzullah dedi:

– Dünyada çox işlər olur ey, Xanvəli. Yatmışıq fil qulağında.

– Fil nədi, şeytan qulağında.

Xanvəli sağollaşıb ayrıldı. Feyzullahın işləməyə hövsələsi gəlmədi. Baqqal dükanını bağladı. Sonra qonşu dükanın qapısından içəri boylandı. İçəridə şirin alver gedirdi. Feyzullah bir addım içəri atıb gur səslə sevinc içində dedi:

– Süleyman xəbərdən xəbərin yoxdu?

Süleymanın pul sayan barmaqları dayandı, gözləri böyüdü, içəridəkilər də əl saxlayıb Feyzullahın üzünə baxdılar. Süleyman səbirsiz soruşdu:

– Kalbalı xan gəlir? – əllərini göyə açdı. – Şükür Allaha. Bu günü gördük. Tez qaçım evə müjdəyə.

Feyzullah onun qolundan tutdu:

– Ə, Süleyman tələsmə. Kalbalı xan hələ gəlmir. Urus padşahı bizim Şıxəli xana məktub yazıb.

– Nə məktub, Feyzullah?

– Padşah padşaha necə məktub yazır, eləcə.

– Nə yazıb o məktubda?

– Yazıb ki, mənim adımdan baqqal Süleymana çatdır ki, əli ürəyinin başında olsun. Mən qoymaram ki, Abbas Mirzənin sərbazları onu incidə.

Süleyman Feyzullahı şübhə qarışıq qəzəblə süzdü:

– Feyzullah...

– Süleyman canı, məktub yazmağı düzdü. Qal salamat.

Süleyman Feyzullahın uzaqlaşmağını gözləmədən boyaqçı Vəlini səslədi:

– A Vəli, urus padşahı xana məktub yazıb ki, yaxın vaxtlarda Kalbalı xan zindandan azad olub Naxçıvana qayıdacaq.

Süleymanın ağzından çıxan söz sanki qanad açdı, bir anda dördkünc bazarı dolaşdı, baqqal dükanlarının qapısını döydü. Ürəklərdəki soyuq-sazaq isindi, sanki bir ümidi yüz yerə bölüb zərrə-zərrə Naxçıvanın başı üstə bir çimdik duz kimi səpdilər.

Rus imperatoru I Aleksandr isə Şıxəli xana göndərdiyi məktubda yazmışdı:

*«Allahın adı ilə.*

*Siz tərəfdən bizim imperator taxt-tacına göstərdiyiniz sədaqət və canfəşanlıq bizim diqqətimizi cəlb etdi. Bu münasibətlə sizin göstərdiyiniz xidmətə görə sizə rus ordusunun polkovniki rütbəsi və dövlət gəliri hesabına gümüş pulla maaş verilir. Güman edirik ki, bizim bu xeyirxahlığımız sizin daha sədaqətlə qulluq edəcəyinizə səbəb olacaqdır.*

*Sankt-Peterburq,*
*5 aprel 1809-cu il».*

8

Abbas Mirzə atası Fətəli şahı xeyli gözlədi. Şah hərəmxanasına baş çəkməyə getmişdi. Saatlar keçdikcə gözləməkdən səbri tükənmiş Abbas Mirzənin qəzəbdən, hikkədən ürəyi çırpınır, yerində sakit oturmağa hövsələsi çatmırdı. Cəbhədə işlər ürəkaçan deyildi. Ruslarla müharibə aparan İran sərbazları İrəvan qalasını əllərində zorla saxlamışdı. General Qudoviçin əsgərləri hücum etsə də hələ ki, sərbazların sərt müqaviməti ilə üzləşirdilər. Amma sərbazlar axıra qədər davam gətirə biləcəkmi? Abbas Mirzənin buna şübhəsi vardı. Sarayda isə müharibənin gedişini izləmək, tədbir tökmək əvəzinə Fətəli şahın başı eyş-işrətə, hərəmlərinə qarışmışdı... Naxçıvanda Nebolsinin əsgərləri yerini möhkəmlətdi. Ruslar Naxçıvan qalasını qoruyurlar. Əhali əsgərlərlə yaxşı münasibətdədir. Şıxəli xanın rusların tərəfinə keçməsi Abbas Mirzənin ümidlərini qırdı. Çətinliyə düşən Abbas Mirzə Fətəli şahdan kömək istəyirdi...

Axır ki, Abbas Mirzəni şahın hüzuruna çağırdılar.

Fətəli şah vəliəhdin arıqlamış sifətinə, kölgələnmiş gözlərinə baxıb bütün sifətinə yayılan xoş təbəssümlə gülümsədi. Qırışlar içində itib-batmış gözlərindəki parıltı Abbas Mirzənin xoşuna gəlmədi. Şah hələ də öz aləmindən ayrılmamışdı. Nəşə içində dodaqları qaçdı:

– Hərəmxanaya təzə hind gözəli gətiriblər. Onu görməyə getdim. Çox lətifdi. Su pərilərinə bənzəyir. Alnının ortasında da zərif xalı.

Abbas Mirzə yerində qurcalandı. Şaha xoş gəlsin deyə içərisinin tutqun göylərindən zəif bir işıq tapıb üz-gözünə çilədi. Amma qaşlarının düyününü aça bilmədi. Acı bir gülüş xəncər tiyəsi tək içərisini doğradı: «Yaşın ötüb Fətəli şah. Amma yenə də gözlərin doymur. Bu əhvalla İran taxt-tacına hökmüdarlıq eləyirsən. Hərəmlərin sayını iki yüz altmış dördə çatdırdın. Çoxunun adını, soyadını unutmusan. Hind gözəli də burdan çıxdı. Hərəmlərə xərclədiyin sərvətlə müharibələri uda bilərdin. İranı başdan-başa abadlaşdıra bilərdin. Amma eyş-işrət, qadınlar başını qatdı. Hərbi bacarığını müharibələrə sərf etmədin. Bu yaşında günlərini keyf məclislərində havayı yerə xərcləyirsən, Fətəli şah.

Əmin-Ağa Məhəmməd şah Qacar vahid İran dövləti yaradana qədər çoxlu qanlar tökdü. Saysız-hesabsız döyüşlər apardı. Ağa Məhəmməd şah taxtını sənə etibar etməklə səhvə yol verdi. Sən onun qoyub getdiyi xəzinəni hərəmxanalar yaratmağa sərf etdin, Fətəli şah. Bu hərəmlərdən bilirsənmi neçə oğlun, qızın var – yüz əlli nəfərdən çox. Amma sən öz doğma övladlarını tanımırsan, adlarını bilmirsən. Onların bəzisi dünyasını dəyişib – sən bundan da xəbərsizsən, Fətəli şah. Sən İran taxt-tacının gələcək taleyini heç düşünmədin...».

Oğlunu qaş-qabaqlı, keyfsiz görən Fətəli şah özünü yığışdırdı, hökmlə soruşdu:

– İrəvan qalasında vəziyyət necədir?

– Rusların hücumu hələ ki, dəf olunur. Sərbazlarımız mərdliklə döyüşür. Qraf Qudoviçin planları hələlik boşa çıxır.

– Səncə ruslar qalanı ala bilərmi? Daha doğrusu sərbazlar qalanı axıra qədər müdafiə edə biləcəkmi?

– Qışın sərt keçməsi bizim xeyrimizə oldu. Ruslar bu yerlərin qışına alışmayıb. Üstəlik İrəvan qalası möhkəmdir. Vaxtı ilə bu qalanı fransız sənətkarları tikib. Onlar düşmən hücumlarının qarşısını almaq üçün qalaya qədər iki hasar çəkmişlər. Birinci hasa-

rın içində qazılmış xəndəklər su ilə doldurulub. Bu düşmənin hücumunu ləngidir. Düşmən bu xəndəklərin üstündən atılıb ikinci hasara yaxınlaşınca biz vaxt əldə edirik. Sərbazlarımız xəndəklərin üstündən keçən əsgərləri arxayınlıqla güllə və top atəşinə tuturlar.

– Mənə çatan məlumata görə general Qudoviç qaladakı İran sərbazlarına müraciət edərək onları təslim olmağa çağırıb. Bu doğrudurmu?

– Doğrudur, şəhriyar.

– Rus generalının müraciəti sərbazları yolundan çıxara bilər.

– Qudoviç İrəvan qalasına gedən bütün yolları kəsərək sərbazların iradəsini qırmağa çalışıb. O vəd edib ki, təslim olsalar heç kəsə xətər toxunmayacaq. Amma sərbazlar son nəfərinə qədər, son nəfəslərinə qədər vuruşacaqlar.

– Birdən sərbazlar silahı yerə qoysalar, vuruşmaqdan imtina etsələr?...

– Onlar təslim olmaqdansa ölümü seçəcək, şəhriyar. Çünki sərbazlara mənim fərmanım çatdırılıb: əgər vuruşmaqdan boyun qaçırıb təslim olsalar, o halda onların ailələri son nəfərinə qədər qətlə yetiriləcək.

Şah bir anlıq susdu, gözləri yumuldu. Abbas Mirzəyə elə gəldi ki, şah oturduğu yerdəcə dərin yuxuya getdi. Amma o, gözləri qapalı düşünürdü, kirpiklərini qaldırdı, gözlərini Abbas Mirzəyə zillədi və sərt səslə, hökmlə dedi:

– Naxçıvan tezliklə ruslardan alınıb İranın himayəsinə qaytarılmalıdır.

Abbas Mirzə şahın sərt hökmü müqabilində sustaldı, çəkinə-çəkinə dedi:

– Bu tezlikdə bu mümkün deyil, şəhriyar. Nebolsinin əsgərləri qalanı möhkəm qoruyur. Şıxəli xanın rusların tərəfinə keçməsi bizim planlarımızı alt-üst etdi. Naxçıvanı yenidən işğal etmək üçün biz Şıxəli xanı öz tərəfimizə çəkməliyik. O halda Naxçıvanı rusların əlindən almış olarıq.

– Şıxəli xanı öz tərəfimizə çəkmək asandır, lap bir içim su kimi. Çünki onun atası Kalbalı xan bizim əlimizdədir.

Abbas Mirzə başını buladı:

– İnanmıram ki, Şıxəli xan əqidəsindən əl çəksin.

– Onda Kalbalı xanın üzünü bir daha görməz. Mən onun qətlinə fərman verərəm.

– O halda biz səhv addım atmış olarıq, şəhriyar. Kalbalı xan sağ qalmalıdır. Mən istəyirəm ki, xəfiyyələrdən gizlicə Şıxəli xanın yanına göndərim. Xəfiyyələr onu yola gətirməyin qaydasını bilirlər – Abbas Mirzə özündən razı halda gülümsündü.

* * *

...Zindanbaşı içəri girəndə Kalbalı xanı dizləri üstə oturmuş gördü. Kalbalı xan nə dəmir qapının açılmasına, nə də başının üstə duran adamın kimliyinə əhəmiyyət vermədi. Halını da pozmadan iki əlini gicgahına aparıb səssizcə «la ilahə illallah» pıçıldadı.

Zindanbaşı ona xeyli tamaşa eləyib rişxəndlə güldü:

– Qibləyə düz oturmamısan, xan. Qiblən düz deyil.

Kalbalı xan səs gələn tərəfə başını çevirmədi. Sakitcə namazını qurtarıb möhürü yaylığa bükdü, öpüb gözləri üstə qoydu. Sonra da təsbehi çevirə-çevirə qalxıb öz yerinə getdi. Zindanbaşı onun çöhrəsindəki sərtlikdən alındı, mülayim dedi:

– Qibləni bilmirsənmi, xan?

– Mənim qibləm torpağıma sarıdır, ağa.

– Naxçıvana?

– Mənim qibləm torpağımdır, ağa. Üzümü ona sarı çevirirəm ki, tanrı dualarımı tez eşitsin.

Zindanbaşı başını yırğaladı. Kalbalı xan bu halında da məğrur idi. Başını dik tutaraq zindanbaşıya məhəl qoymadan təsbeh dənələrini səbrlə çevirirdi. Göz qapaqları titrəyir, kirpiklərini tez-tez çalırdı. Zindanbaşı nədənsə birdən-birə məğrur xanın qarşısında özünü günahkar, zəif hiss etdi. Xana qarşı ürəyində bir hörmət, ehtiram duyğusu oyandı:

– Naxçıvanda nələr olduğunu bilirsənmi, xan?

– Hardan bilim ağa, nə gələn var, nə gedən. Bu neçə müddətdə qapını açıb içəri girən sənsən?

Zindanbaşı pıçıltı ilə dedi:

– Təsadüfən eşitmişəm ki, Ehsan xan Tehrandadır.

Xanın görünüşündəki məğrurluq birdən qeyb oldu, sanki qəddi büküldü, təsbeh dənələri barmaqlarının arasında dayandı, təlaş, üzüntü içində soruşdu:

– Şıxəli xan haqqında da eşitmisənmi?

– Şıxəli xanın ruslara qoşulmağı şahı qəzəbləndirib.

Xan rahatlıqla köks ötürdü, qəddi düzəldi və təzədən məğrur görünüş aldı:

– Bəs iranlılar Naxçıvanı işğal etmədilərmi? Abbasqulu xanı təzədən taxta çıxarmadılarmı?

Zindanbaşı dustaqla söhbəti uzatdığına peşiman oldu, Kalbalı xandan aralanıb qapının yanında durdu və hökmlə ucadan dedi:

– Kalbalı xan, vəliəhd Abbas Mirzə səni hüzuruna istəyib, hazırlaş.

Dəmir qapı gurultu ilə örtülüb arxadan qıfıllandı. Sonra elə bil dünyanın ən ağır sükutu Kalbalı xanın zülmət dünyasına çökdü.

Zindana düşəli elə bil zülmət dünya onun yaddaşından bütün səsləri pozmuşdu. Qürbətə düşmüş kimi ən doğma səsləri də unutmuşdu. Lakin hərdən Kalbalı xana elə gəlirdi ki, lap yaxınlıqda, bəlkə də bir addımlıqda çapan atların nal səslərini, fınxırtısını, kişnəməsini eşidir. Onda Kalbalı xan dirsəklənib yatacaqdan qalxır, bütün diqqətini səs gələn tərəfə toplayır, lakin səssizlikdən, qulaq batıran qara sükutdan savayı heç nə duymurdu. Birdən də dərinlikdən gəlirmiş kimi bağırtı, qışqırtı səsləri eşidirdi. Tükləri ürpənir, bu dəhşətli səsləri duymamaq üçün qulaqlarını tıxayırdı. Bu qışqırtı, bağırtı səsləri də yaddaşında başqa bir ağrının qaysağını qoparırdı. Bu anlarda ona elə gəlirdi ki, Əsgəran qalasında cəllad ona yaxınlaşır... və bu dəhşətli anı təzədən yaşamamaq üçün Kalbalı xan yatacaqdan qalxır, əllərini ətrafında gəzdirə-gəzdirə bir-iki addım atır, sanki bununla da zülmət dünyasına ilan kimi sürünüb girmiş bu qışqırtı, bağırtı səslərinin ağzına daş basırdı...

Bəzən də sındığını, ruhdan düşdüyünü hiss etdiyi anlarda qoltuq cibinə qoyduğu düyünçəni açır, möhürü, təsbehi çıxararaq üzü Naxçıvana tərəf namaz qılmağa başlayırdı. Sanki bu anlarda – tanrı ilə üz-üzə qaldığı anlarda dualara bükülmüş səbri, dözümü bir içim su kimi ürəyinə çiləyirdi. Duaları onun ölgünləşmiş ruhunu dirçəldir, tükənmiş dözümü, yorulmuş səbri ilahidən yeni qüvvə, güc alaraq təzədən özünə qayıdırdı.

...Kalbalı xan aradan nə qədər keçdiyini bilmədi. Xəyalın çapar atı onu hər yerə apardı. Axırda Şıxəli xanın yanında qərar tutdu: «Çox şükür Şıxəli xandan arxayın oldum. Demək Qarabağdan ruslarla bir yerdə Naxçıvana qayıdıb». Birdən kirpiklərini tez-tez çaldı və sanki zülmətin içindən iynə ulduzu boyda bir işıq

sezdi: Kalbalı xan bu ümid işığının istisinə qızındı: «Şıxəli xan məni zindanda qoymaz. Rusların köməyi ilə məni zindandan qurtaracaq. Bir az da səbr elə, Kalbalı. Bir az da səbr elə. İnşallah yenə Naxçıvana qayıdarsan. Oğullarınla, ailənlə, camaatla görüşərsən. Yəqin ki, onlar da mənim xiffətimi eləyir. Görəsən indi Naxçıvan taxtında kim əyləşib? Qardaşım Cəfərqulu xan taxtdan bir dəfəlik əl çəkdi. Abbasqulu xan isə hələ də taxta çıxmaq iştahasındadır. Məni İrəvandan Tehrana gətirən kimi o, Abbas Mirzənin köməyi ilə yenə Naxçıvan taxtına yiyələndi...Əgər iranlılar əllərini ordan çəkiblərsə Abbasqulu xan da rusların gözündən düşdüyünə görə burdadır... Məni Abbas Mirzənin əlinə verən Hüseynqulu xan görəsən hardadır? Yəqin ki, iranlılar ona... etimad... İnanmıram elə bir satqına, xəyanətkara Abbas Mirzə bel bağlamış ola...».

Bu anda dəmir qapının qıfılı açıldı, sonra zindanbaşının səsi gəldi:

– Dur Kalbalı xan, Abbas Mirzənin hüzuruna gedirsən.

Kalbalı xan əllərini yerə dayaq verib qalxdı. Hiss elədi ki, ürəyinin içində yanan işıq zülmət dünyasını uçurur, onu sınmağa, yıxılmağa qoymur və Kalbalı xan zindanbaşının qolundan tutaraq Abbas Mirzənin yanına həmin işıqla getdi...

* * *

Abbas Mirzə qaşları çatılmış, ürəyində nifrət, dilində zəhər düyünü Kalbalı xanı qarşıladı. Xanı qoltuq kürsüsünə əyləşdirdilər. Kalbalı xanın məğrur görünüşü, başını dik tutması, qəddini şax saxlaması Abbas Mirzəni özündən çıxardı. İçindəki nifrət qaynayıb üzə çıxdı. Gözləri kinlə parladı. Amma o, bunu səsində biruzə vermədən rişxəndlə soruşdu:

– Nə var, nə yox xan? Səni incitmirlər ki?

Kalbalı xan üzünü səs gələn tərəfə çevirdi:

– Nəyin var, nəyin yox olduğunu mən bilmərəm. O ki, qaldı zindana. Çox rahatlıqdır, vəliəhd.

– Demək zindan həyatından bezməmisən xan?

– Qismətdən qanadlı atın belində də qaçıb qurtarmaq olmaz, vəliəhd.

Sükut.

Abbas Mirzə içində kükrəyib üzə çıxmaq istəyən acığını, hiddətini cilovladı, xanın qarşısında dayanıb hiddətlə dedi:

– Ağa Məhəmməd şah Qacarın vaxtında xəyanət eləmiş adamı sorğu-sualsız edam medanına çəkər, qətlə yetirərdilər.

Kalbalı xan başını dik tutaraq sərt cavab verdi:

– Əslində Ağa Məhəmməd şah Qacarın hökmü Naxçıvanda yerimirdi. Çünki Naxçıvan Azərbaycanın bir xanlığı idi. Qılınc, top-güllə gücünə Naxçıvan İrana tabe olurdu. Onun xəzinəsinə xərac ödəyirdi.

Abbas Mirzə bağırdı:

– Səfəvilər dövründən başlayaraq Naxçıvan daim İran dövlətinin nəzarəti altında olub. Nadir şah bunu qanuniləşdirdi. Sonra...

– Hər halda Naxçıvan müstəqil xanlıqdır.

Abbas Mirzə hiddətlə dedi:

– Niyə sözümü kəsdin, xan?

– Mən sözünü kəsmədim. Lakin sənin dediklərin... Haqqın ağzına daş basmaq kimi bir şeydi, vəliəhd. Torpağımızda vergi yığan iran sərbazları bizimlə işğalçı kimi davranıblar. Qətllər, qəraətlər, talanlar daim əhalinin rahatlığını pozub. Onları yoxsulluq və qorxu içində yaşadıb. Kəndli işləsə də çörək təknəsi həmişə boş qalıb. Buna görə də mən naxçıvanlıları dinc, əmin-amanlıqda insan kimi yaşatmaq üçün ruslara üz tutdum. Çıxış yolunu onların himayəsini qəbul etməkdə gördüm. Mən gözlərimi Naxçıvana qurban verdim, lazım gəlsə canımı da qurban verərəm.

Xan üzünün bircə əzələsi də tərpənmədən başını dik tutaraq Abbas Mirzədən uz çevirdi. Onun səsindəki məğrurluq, görünüşündəki mərdanəlik Abbas Mirzəni heyrətləndirdi. Xeyli müddət gözünü Kalbalı xandan çəkmədi. Ürəyinin dərinliklərində qaynayan nifrətin yox olduğunu, xana qarşı bir hörmət, ehtiram duyğusunun oyandığını duydu. O, hissin təsiri ilə də mülayim səslə dedi:

– Mən səni bunun üçün çağırmamışam, xan. Sən mərd adamsan.

Xan başını Abbas Mirzəyə çevirmədən incik səslə dedi:

– Lakin ağılsız başların qılınc çaldığı yerdə mərdlik, kişilik işə yaramır, vəliəhd.

– Umu-küsü söhbətini qurtaraq, xan. Mən sənin həyatının təhlükədə olduğunu xəbər vermək istəyirəm. Şah hər an səni qətlə yetirmək haqqında fərman verə bilər.

– Başa düşürəm.

– Sənin sağ qalmaq fürsətin var.

– Necə yəni vəliəhd?

– Şah istəyir ki, Şıxəli xan ruslardan əl çəkib bizim tərəfimizə keçsin. Əgər belə olsa sən də zindandan azad olub öz doğma torpağına qayıdarsan. Bəlkə də yenidən Naxçıvan taxtına əyləşərsən.

Kalbalı xan cavab vermədi. Saqqalı uzanmış, üzünü tük basmış, göz çuxurunda yumulu göz qapaqları titrəyən xan fikrə getdi, sonra handan-hana cavab verdi:

– Şıxəli xan Naxçıvanda, mən burda, hökmüm yeriməz... vəliəhd.

– Məktub yaz... Daha doğrusu sənin adından məktub yazarıq. Şıxəli xanı Tehrana çağırarsan. Sən o məktuba barmağını basarsan.

– Oğlanlarımdan biri – Ehsan xan Tehrandadır.

– Bizə Şıxəli xan lazımdır.

– Bağışla, vəliəhd mən o məktubu göndərə bilmərəm. Mənim kor gözlərim heç nə görmür. Mən hadisələrdən baş çıxara bilmirəm. Qorxuram ki, Şıxəli xanı sizin əlinizə verməklə böyük bir səhvə yol verəm və bunun peşimançılığını çəkəm. Çünki şahlara inanmaq bilə-bilə özünü oda çırpmaq kimi bir şeydir.

– Amma ruslara inanmaqla bir dəfə səhvə yol vermisən, xan.

– Lakin istəmirəm ki, ikinci səhvin cəzasını tanrı özü mənə göndərsin.

– Demək Şıxəli xanın bizim tərəfimizə keçməsini istəmirsən?

Kalbalı xan ayağa qalxdı. Sərt səslə dedi:

– Əmr et, məni zindana aparsınlar, vəliəhd.

– O halda zindanda oğluna yer saxlamağı unutma xan – Abbas Mirzə rişxəndlə güldü.

– Zindan genişdir, oğlum üçün yer tapılar.

Sərbaz Kalbalı xanı qapıdan çıxaranda Abbas Mirzə hirsindən farsca qəliz söyüş söydü, sonra da əlləri ilə başını tutdu:

– Zindanda çürüsə də xanlıq taxtından yerə düşmür, kor Kalbalı xan. Amma biz Şıxəli xanın Tehrana gətirilməsi yolunu bilirik.

Abbas Mirzənin gözlərində hiyləgər bir təbəssüm göründü...

## 9

...Şıxəli xan ayağını üzəngidən çəkib atdan aşırıldı, yüyəni əlində dəstəkləyib atı bağlamaq istəyəndə arxadan başına dəyən zərbədən səntirlədi. Kimsə onu yıxılmağa qoymadı. Başına kisə keçirib harasa sürüdülər. Sonra əllərini, ayaqlarını sarıyıb eləcə atın üstə aşırdılar. Şıxəli xan huşunu itirdi.

...Gözünü açanda başının üstə qara saqqalı, pırpız qaşlarının altından xırda qonur gözləri parıldayan xoşsifət adam gördü. Dikəlib qalxmaq istəyəndə kişi əlini onun çiyninə qoydu:

– Ayağa durma ağa, uzaq yoldan gəlmisən, dincəl hələ.

Şıxəli xan təşvişlə üstündəki örtüyü atıb key-key ətrafa baxdı. Bütün əzaları sızladı. Başı möhkəm ağrıyırdı. Qarasaqqal kişidən hökmlə soruşdu:

– Siz kimsiz, mən hardayam?

Kişi mülayimliklə dedi:

– Bura İran torpağıdır, ağa.

– Məni bura kim gətirib?

– Onu mən bilmərəm ağa. Sən hələlik burda dustaqsan. Məni tək görüb qaçmaq istəsən özünü bəlaya salmış olarsan. Çünki bizi bayırda onlarla sərbaz qoruyur.

– Bura İranın hansı şəhəridir?

– Təbrizdir. Mən sənə yaxşılıq eləyib bircə onu deyə bilərəm ki, səni vəliəhdin yanına aparacaqlar.

Abbas Mirzənin adını eşidən kimi Şıxəli xan ürəyinə daman qara şübhədən sarsıldı. İçində elə bil nə isə ovxarlanıb töküldü. Sanki ürəyi çırpınmaqdan qaldı, ağrı gicgahlarına qədər yeridi: «Bəlkə atasını qətlə yetiriblər?». Bu bəd, nagahani duyğudan başı dumanlandı, ona elə gəldi ki, damarlarında qanı donur, əlləri əsir. Ata itkisi, Kalbalı xanın itkisi ürəyinin içini göynətdi, qəhər yığışıb boğazında düyün bağladı. Udqunub ağrı, hüzn içində soruşdu:

– Atam Kalbalı xanı qətlə yetiriblər?

Kişi çiyinlərini çəkdi, sonra bayıra çıxdı. Tək qalmış Şıxəli xan əlləri ilə başını tutdu. Boğazında düyünlənmiş qəhər dolmuş gözlərindən iki damla yaş çıxardı. Kişi təkrar içəri girəndə Şıxəli xanın pərişan görkəminə baxıb rəhmdar bir səslə dedi:

– Öldürmüş olsaydılar sənə ancaq xəbər göndərərdilər, ya da...

Şıxəli xan onun ağzından söz oğurlayıb ümidlə soruşdu:

– Ya da nə olardı, ağa?

Kişi birdən-birə dustaqla yaxınlıq etdiyinə görə qorxdu, əlində gətirdiyi şam yeməyini masanın üstünə qoydu, bir də çevrilib Şıxəli xanın ağlar gözünə baxdı. Şıxəli xan bu gözlərdə bir təskinlik oxudu. Kişi dinməz-söyləməz bayıra çıxıb qapını qıfılladı. Şıxəli xan təzədən fikirlər burulğanına düşdü: «Bəs onda onu niyə oğurlayıb Təbrizə gətirsinlər?».

Şıxəli xan yenidən başını əlləri ilə tutub boğazındakı qəhəri göz yaşına çevirərək damla-damla əritdi. Ürəyində bir yüngüllük duydu. Atasının sağ olması barədə söz eşitmək, müjdə xəbəri almaq üçün tanrıya üz tutdu. Əllərini göyə qaldırıb dodaqları altında səssizcə dualar oxudu: «böyük Allah, sən Kalbalı xanı düşmən qılıncından qoru»...

* * *

Şıxəli xanı gecə yarısı Abbas Mirzənin hüzuruna apardılar. Abbas Mirzə Təbrizdəki iqamətgahında idi. Şıxəli xanı görcək ayağa qalxdı, arıq sifətinə xoş bir ifadə verdi, gözləri təbəssümlə qıyıldı. Şıxəli xanın hüzn dolu gözləri, ağarmış bənizi, alnında üst-üstə düşmüş qırışlar, əyilmiş qəddi onun içindəki zəlzələdən xəbər verirdi.

Şıxəli xan Abbas Mirzəni qabaqlayaraq təlaş içində soruşdu:

– Atam Kalbalı xan sağdırmı, vəliəhd?

Abbas Mirzə cavab verməyə tələsmədi. Sanki bununla da elə bil əlini uzadıb onun boğazını var qüvvəsi ilə gözləri hədəqəsindən çıxınca sıxdı, onun əzabından, nigarançılığından gizli bir nəşə duyaraq məhbusunu başdan-ayağa, gözlərinin içində gizlənmiş soyuq nifrətlə süzdü:

– Kalbalı xanı soruşursan?

– Sağdırmı?

– Nə qədər vaxtdı görüşmürsüz?

– Hüseynqulu xanın xəyanətindən sonra görüşməmişik.

– Hüseynqulu xanın addımını xəyanətmi bilirsən?

– Xəyanət və satqınlıq bilirəm. O, atamla kəsdiyi duz-çörəyi namərdliklə tapdaladı. Arxadan kürəyinə xəncər sapladı...

– Eləmi?

– Bağrımı çatlatmayın, atam sağdırmı?

– Belə-belə işlər...

– Cavab verin, vəliəhd.

– Sağdır... Amma təəssüf ki, başının üstə daim ölüm təhlükəsi dolaşır.

Şıxəli xan gözlərini yumub çırpınan ürəyinin sakitləşməsini gözlədi, dərindən nəfəs aldı:

– Atamla görüşə bilərəmmi?

– Bəlkə də mümkündü. O da mümkündü ki, elə bu gəlişinlə Kalbalı xanı da özünlə qaytarıb aparasan. Zindan kor bir adam üçün deyil. Əslində o, taleyin məhkum etdiyi zindandadır. Lakin bu ikiqat zindan onun həyatını puç edir. Ömrünü bir ovuc xəzan yarpağı tək havaya sovurur. Çox əziyyət çəkir Kalbalı xan... Amma şərtimiz var.

– Şərtiniz nədir, vəliəhd? Hansı şərtlə atamı mənə qaytararsız?

Abbas Mirzə Şıxəli xanla üz-üzə oturdu. Danışmağa tələsməyərək gözlərini Şıxəli xanın pərişan, yağmur havalı gözlərinə dikib asta-asta dedi:

– Ruslarla əlaqəni kəsib bizimlə işləməlisən. Sən Qarababa döyüşündə rusların tərəfində bizimlə vuruşdun. Rusları Naxçıvana gətirdin. Əhali sənə görə rusları qaladan içəri buraxdı. Bizə məlumdur ki, bunlar azmış kimi sən rus əsgərlərini ərzaqla təmin etdin. Yoxsa Naxçıvanın sərt qışı ərzaqsız qalan rusları aclığa məhkum edər, düşmən qılıncından da betər məhv edərdi. Biz bunları sənə bağışlayırıq.

– Rusların Naxçıvana gəlişini biz istədik.

– Ruslar əsil canavar təbiətlərini gizlədib. Gəncəni xatırla. General Sisianov Gəncə xanı Cavad xanı öldürdü, əhalini qırdı, şəhəri talan elədi. O, Bakını da işğal etmişdi. Əgər mən vaxtında onun başını kəsdirməsəydim, gör o, Bakıda necə talanlar, qırğınlar törədəcəkdi...

– Lakin biz iran sərbazlarından da az çəkmədik. Onların zülmü daha betər idi, vəliəhd. Əgər ruslar olmasaydı siz naxçıvanlıları doğma ocaqlarından didərgin salıb İranın içərilərinə köçürtmüşdünüz. Ruslar bunun qarşısını aldı. Əgər ruslar gəlməsəydi sizin taxtda oturtduğunuz Abbasqulu xan Naxçıvana qənim kəsiləcəkdi.

– Ruslar bizim dinimizin düşmənidir.

– Zalımlar, qaniçənlər insanlığın düşmənidir.

– Şıxəli xan, qardaşın Ehsan xan Tehrandadır. O, şahın qayğısı altındadır. İran ordusunda xidmət edir. Şah ona sərhəng rütbəsi verib.

– Mən atam Kalbalı xanın qoyduğu yolla gedirəm.

– Deməк ruslardan ayrılmaq istəmirsən?

– Naxçıvan İran sərbazlarından çox çəkib, vəliəhd. Şəhər dönə-dönə dağılıb, viran qalıb. Əhali əsir-yesir düşüb. Amma indi sakitlikdir, əmin-amanlıqdır.

– Sən bizim tərəfimizə keçsən, Kalbalı xan sağ qalacaq.

– Əgər mən razılıq versəm atam məni bağışlamaz.

– Yaxşı düşün.

– Siz nə mənə, nə də Kalbalı xana barmaq toxundura bilməzsiz, vəliəhd. General Nebolsin mənim oğurlanıb Təbrizə gətirilməyimdən xəbər tutan kimi rus imperatoruna məlumat verəcək. Bu elə bilirəm ki, sizə peşimançılıq gətirəcək.

Abbas Mirzənin bu baxışları kölgələndi: «Bizi ruslarla qorxudur». Amma vəliəhd içindəki qəzəbi biruzə vermədi, ayağa qalxıb arxasını Şıxəli xana çevirərək nifrətlə dedi:

– Get, bir daha yaxşı düşün.

...Şıxəli xan gecəni yata bilmədi. Sanki gecə qara tikana çevrilib gözlərinin içinə doldu: «Görəsən Kalbalı xan mənim yerimə olsaydı necə addım atardı? Naxçıvan xanlığının başçısı, ağıllı və zəkalı Kalbalı xan hansı yolu seçərdi: atasını xilas edərdi, yoxsa Naxçıvanı qoruyardı? Yox... yox. Kalbalı xan doğma torpağını Qacar sülaləsinə güzəştə getməzdi... heç vaxt. O, da farslarla barışmayacaq. Onu qətlə yetirsələr belə».

...Abbas Mirzə Şıxəli xanın Naxçıvana qayıtdığını eşidəndə dodaqlarında zəhərli bir gülüş qaynadı: «Şıxəli xan sürünə-sürünə geri qayıdarsan. Könüllü Kalbalı xanın arxasınca gələrsən...».

* * *

– Hazırlaş, sabah səni edam edəcəklər, Kalbalı xan... Edam edəcəklər eşitdin...e...dam... e...dam... Əgər gözlərin olsaydı edamdan yaxanı qurtarardın. Gözün yoxdu, odu ki, e...dam e...dam...

Zindanbaşı bəlkə də bu sözü bir dəfə demişdi. Amma xəbər zülmət dünyasında əks-səda kimi qaldı və dönə-dönə təkrarlandı.

Zindanbaşı qapının ağzında dayandı. Gözləri görməyən, köməyə möhtac olan adama ürəyi yandı. O anda da dəmir qapını arxasınca örtüb qıfılladı. Sanki xana çatdırdığı ağır, dəhşətli kəlməni də onun ürəyində beləcə qıfıllayıb öz dərdi ilə qoca xanı təkbətək qoydu.

Kalbalı xan bir xeyli müddət otağın ortasında dayandı. Üzünün bir əzələsi də tərpənmədi. Sanki taleyin başına yağdırdığı daşları mərdliklə rəf etməyə çalışdı. Amma «edam» kəlməsi dağdan ağır daş kimi üstünə gəlirdi. Kalbalı xan zindana düşəndən yaddan çıxardığı, itirdiyi səsləri birdən-birə eşitdi. Bu səslər sanki canlı insan kimi ona həyan durdu, həyatla, insanlarla vida anında onu sınmağa, diz çökməyə qoymadı. Dözümün tükəndiyi, səbrinin daşdığı bu anlarda bu səslər «edam» sözünün zəhmini, dəhşətini üstündən götürdü. Kalbalı xanın tükənmiş həyat qüvvələri təkrar özünə qayıtdı... Amma bu qərib, kimsəsiz yerdə yadların qolundan tutub ölümə getmək... Kalbalı xanın az qala ürəyi dayandı. Zülmət dünyası sanki ürəyini sıxacaq qədər daraldı, könlünü ağladacaq qədər qara buludla doldu. O vaxt... Qacar şahı onu edama göndərəndə heç olmasa işıqlı gözləri ilə Naxçıvana gedən yollara baxdı. Heç olmasa işıqlı dünyanı yaz biçimində yaddaşına yığa bildi. Bəs indi bu qaranlıq dünyası ilə heç olmasa doğma səsləri eşitməmiş həyata necə əlvida desin?

Sanki bu anlarda qulağına at kişnərtisi gəldi. Yatacaqdan dik qalxıb qulaq verdi. Ona elə gəldi ki, ölgün ruhu at kişnərtisini eşidib dirçəldi, ürəyinin çırpıntısı artdı, küsmüş səbri təzədən qayıtdı. Titrəyən dodaqlarında zəif bir gülüş işartısı göründü: «Kalbalı xan ölümdən qorxdun nədi? Yaxşı ki gözlərin görmür. Tanrıya min şükür. Cəllad qolundan tutub aparanda nə sən onun idbar sifətini görəcəksən, nə də o sənin gözündəki saralmış qorxunu. Amma... bilsəydim ki, ölümüm burda çatacaq Naxçıvan torpağından bir ovuc götürərdim...».

Bu anda zindanın dəmir qapısı gurultu ilə açıldı. Zindanbaşının bayaqkı mülayim səsə oxşamayan sərt səsini eşitdi:

– Kalbalı xan ayağa dur, yanına gələn var.

Xan yatacağından durmadan başını səs gələn səmtə çevirdi. Kirpiklərini tez-tez çaldı:

– Eşidirəm, ağa.

Yanında kiminsə dayandığını duydu. Qalın səsli adam əlini onun çiyninə qoydu:

– Zəhmət çəkib qalxma, ağa. Məni Abbas Mirzə göndərib. Vəliəhd sənin edam olunmağını istəmir. O, səni ağıllı adam hesab edir. Abbas Mirzə istəyir ki, sən oğluna məktub yazıb onu Tehrana çağırasan. Əgər vəliəhdin dediyini qəbul etsən, edamdan yaxanı qurtararsan.

Zindanbaşının dərindən nəfəs almasını eşitdi. Kalbalı xanın tutqun çöhrəsində sevinc işartısı görünmədi. Üzünü səs gələn səmtə çevirib köks ötürdü:

– Şahlara inanıb bel bağlamaq olmaz, ağa. Yoxsa yarı yolda qalarsan – Xanın səsində bir inciklik, pərişanlıq vardı.

– Bu daha sənin öz işindir. Hər halda edam meydanında peşiman olacaqsan.

– Təki Şıxəli xana sədəmə toxunmasın...

– Vəliəhdə bunlarımı çatdırım?

– Bu da sənin öz işindir, ağa.

Dəmir qapı təkrar gurultu ilə örtülüb qıfıllandı. Kalbalı xanın uzanmağa hövsələsi çatmadı. Ayağa qalxıb əllərini divarlara sürtə-sürtə qapıya qədər gəldi, sonra geri qayıtdı. Fikrində xəyalları, düşüncələri bir-birinə qarışdı. Xəyalı Naxçıvana qanadlandı. Duyğuları intizar içində qovruldu: «Görəsən Naxçıvanda vəziyyət necədir? Bizimkilər hardadır? Tükəzban yəqin ki, mənim fikrimdən yuxu da yatmır... Abbas Mirzə necə olursa-olsun Şıxəli xanı öz tərəfinə çəkmək istəyir. Bu yolla da Naxçıvanı rusların əlindən çıxarmaq fikrindədir...

Mənim ölümüm mənasız bir ölüm olacaq, heyif... Amma mənim sağ qalmağım Naxçıvan xanlığına gərək olardı... Bəlkə.. Bəlkə məktub yazıb Şıxəli xanı çağırım? Birdən Şıxəli xan gəlsə onu da zindana atsalar?.. Düşün, Kalbalı xan, düşün. Ağlını, dərrakəni işlət. Əgər Şıxəli xanı zindana salsalar, çox güman ki, ruslardan qorxub onu edam etməzlər. Yox etməzlər! Çünki ruslar cəbhədə iranlıları üstələyir. Rus-İran müharibəsi çox güman ki, rusların xeyrinə qurtaracaq. Ruslar da Şıxəli xanın xidmətlərini nəzərə alıb onu İran şahından tələb edəcəklər. Demək Şıxəli xan zindanda çox qalmayacaq.

Demək Kalbalı xan edamı qəbul etməməlidir».

Kalbalı xan yüngülləşmiş halda rahatlıqla nəfəs aldı.

...Ucsuz-bucaqsız çöllükdə cavan süvari atını var qüvvəsi ilə çapırdı. Günəşin istisi onun cavan və yaraşıqlı sifətini yandırıb mis kimi qızartmışdı. İri ağıllı gözlərində iradəsini əks etdirən cəsarət və mərdlik vardı. Atı möhkəm sürdüyündən sanki vaxt müddətini itirmişdi – axşamın düşməyindən xəbərsiz idi. At fınxırıb dayananda, süvari başını qaldırmadan atın yüyənini çəkdi, lakin at qabaq ayaqlarını yerə dirədi və bir addım da irəli getmədi. Süvari başını qaldırıb göylərə baxdı. Günəşin şafağı indi qara buludların arxasına düşmüşdü. Sonra günəş öz parlaq işığı ilə sanki bütün üfüqü tutdu. Süvari yalnız bu an möhkəm yorulduğunu, qatlanmış dizlərinin keyləşdiyini, qollarında, kürəyində, boynunun damarlarında kəskin ağrı başladığını indi duydu. Günəşin çəhrayı alovu getdikcə göy üzünü bürüyürdü. Sanki yer üzü də çəhrayı rəng alırdı. Hətta elə bil dırnaqları ilə yorğun-yorğun yer eşən at da üfüqün altında çəhrayı rəngdə görünürdü.

Cavan süvari yorğun atla, özü də süst və heysiz halda bir addım da irəli gedə bilməyəcəyini başa düşdü. Cəld atın yəhərini belindən götürdü. Elə çöllükdə yəhəri başının altına qoydu və sanki çəhrayı rənglərin işığında dərin yuxuya getdi. At süvarinin başı üstə xeyli dayandı, yorğun gözlərini sahibinin üzünə dikdi, sonra otları qırpa-qırpa yavaş-yavaş aralandı.

Ətrafda dinc bir sakitlik vardı. Küləyin səsindən savayı heç nə eşidilmirdi. Bu dinc sakitlik elə bil yuxuda olan süvarinin ruhundakı yorğunluğu çıxarırdı, qoluna qüvvət, ürəyinə təpər verirdi.

Gecənin tən yarısı süvari yuxudan qəflətən diksinib ayıldı. Yuxulu olduğundan key-key ətrafa baxdı. Ay işığı ilə dolu çöllüyün ayağında ağacların qaraltısı görünürdü. Süvari cəld sıçrayıb ayağa qalxdı. Sahibinin oyandığını hiss edən at qayıdıb gəldi. Bu dəfə çəhrayı rənglərin yerinə göy üzü ulduzla dolmuşdu. Süvari yəhəri təkrar atın belinə qoydu, sonra əlini astadan atın sarğısına çəkdi, at sanki qaranlığın içindən sıyrılıb çıxdı və irəli getdi. Bu dəfə çöllüyün sükutunu möhkəm qaçan atın nallarından qopan səslər pozdu...

* * *

Şıxəli xan Tehrana gedirdi. Atı yollarda dəyişə-dəyişə Tehrana tez çatmağa tələsirdi. Kalbalı xandan aldığı məktub onu

sarsıdıb sanki içini laxlatmışdı. Kalbalı xan yazmışdı: «Şıxəli, özünü tez mənə yetir. Əgər yubansan və məni edam olunmuş görsən, özünü itirmə, nəşimi mütləq Naxçıvana apar ki, o torpaqda – atamın yanında dəfn edəsən. Amma gəlməyin vacibdir, gözləyirəm». Məktubun axırında atasının kağıza basdığı barmağının möhürü vardı. «Gəlməyin vacibdir, gözləyirəm» kəlməsini Şıxəli xan səssizcə yenə təkrar etdi. Və bu anda Kalbalı xanın gizli eyhamını tutdu. Başa düşdü ki, atasının çağırışı ölüm qorxusunun yox, ağılın çıxardığı hökümdür.

...Şıxəli xan yubanmamaq üçün atını möhkəm çapır, gecələr də yol gedərək özünü vaxtında Tehrana çatdırmağa tələsirdi.

* * *

...Zindanın dəmir qapısı açıldı. Zindanbaşı Kalbalı xanın başı üstə dayandı:

– Qalx, sənin arxanca gəliblər.

– Edam etməyə?

– Bəli, xan-zindanbaşı vüqarını itirməyən, qamətini şax tutmuş məğrur adama heyrətlə baxdı. Həsəd, ehtiram duyğusu ilə qolundan yapışıb qulağına pıçıldadı: «Allahdan ümid kəsilməz ağa. Saatın hökmü şahın yox, tanrının əlindədir». Kalbalı xan istehza ilə xəfifcə qımışdı. Dar ayaqda ona təskinlik verən zindanbaşının əlini sıxdı.

...Kalbalı xan öz qaranlıq dünyasının fəhmi ilə qolundan yapışmış sərbazların arxasınca haraya getdiyini bilmirdi. Amma nə dizi titrəyirdi, nə ürəyi əsirdi. Dodaqlarını bir-birinə sıxaraq addımlarını gümrah atıb başını dik tutaraq düşmən qarşısında öz məğrur görkəmini saxlamağa çalışırdı. Qoy düşmən onun əyildiyini, sındığını görməsin. Lakin son anda yaddaşında yaşayan səsləri xatırlamağa, onun üçün əziz olan adamların surətlərini yada salmağa çalışırdı. Elə bil bununla da son vidaya hazırlaşırdı.

Sərbazlar dayandı. Kalbalı xan da tez-tez kirpiklərini çaldı. Ona elə gəldi ki, indicə cəlladın soyuqqanlı «kəlmeyi şəhadətini de» kəlməsini eşidəcək. Amma Abbas Mirzənin tanış səsi gəldi:

– Xoş gördük, Kalbalı xan.

Kalbalı xan başını aşağı əyib kinayə ilə güldü:

– Həmişə belə xoş günlərdə görüşək, vəliəhd.

– Dilindəki tikanları çıxar.

– Tikanlar daim ürəyimdən su içdi. Gözümdə göyərən tikanları biçdilər. Qaldı ürəyimdəki...

– Sən həmişə Qacar sülaləsinə qarşı çıxdın. Əgər ürəyində nifrət toxumları əvəzinə barış olsaydı, bu gün edam meydanına çəkilməzdin, xan.

– ...

– Nə oldu, fikrə getdin?

– Tanrının hüzuruna getməmiş günahlarımı və savablarımı özüm tərəziyə qoyuram.

– Hər halda günahın savabından ağır gələr. Çünki şahın üzünə ağ olanı tanrı bağışlamır.

– Çox şükür ki, şahın üzünə ağ olmaqla səvab qazandım. Çünki qala qapılarını üzünüzə bağlamaqla Naxçıvanı sərbazların qılıncından, qətl və talanlardan qorudum.

Abbas Mirzə hiddətləndi:

– Ölüm ayağında da özünü dikbaş və məğrur aparırsan. Halbuki ayaqlarıma düşüb yalvarsan bəlkə də korluğuna görə ürəyim yumşalar, səni əfv elərəm.

– Mən xoşbəxt adamam ki, mənin edamımda vəliəhd özü iştirak eləyir. Gözlərimin çıxarılmasına isə Ağa Məhəmməd şah Qacar baxırdı. Çünki şah və vəliəhd qarşısında dayanan yazıq və miskin bir adam deyil, qüdrətli Kalbalı xandır... Bir də ayaqlar altında sürünən bəndəsindən Allahın özünün də xoşu gəlmir.

– Tanrıya bu qədər inanırsan... Qoy səni edamdan xilas eləsin.

– Alnımıza yazılan yazıdan qaça bilmərik.

– Bilirəm, xan, indi ürəyində Qacar sülaləsinə nifrətin aşıbdaşır. Çünki biri gözlərini çıxardı, o biri canını alır. Oğulların da özünə oxşadı, Şıxəli xan rusların tərəfinə keçdi. Halbuki biz Şıxəli xana bizimlə işləməyi məsləhət gördük və ona mənsəb verəcəyimizi vəd etdik. Əgər təklifimizi qəbul etsəydi səni zindandan azad edərdik...

Kalbalı xan daha onu eşitmirdi. Bu dar məqamda sanki vaxt fürsəti tapıb düşündü: «Ruslar Naxçıvanı tərk etsələr çox güman ki, İran şahı başıboş və yelbeyin Abbasqulu xanı yenidən taxtda oturdacaq. Əhalinin vəziyyəti pisləşəcək. Naxçıvan yenidən dağılacaq. Heyif... gördüyümüz işlərdən. Şıxəli xan vaxtında gəlib çata bilmədi. Məni edamdan qurtarsaydı, sağ qalıb çox iş görərdik. Qala qapılarını yenidən İran sərbazlarının üzünə bağlardıq.

Rusların himayəsinə sığınıb torpağımıza onun möhtac olduğu əmin-amanlıq gətirərdik. Naxçıvanda gedən bu müharibələr daim novrağımızı, dinc həyatımızı pozdu. Dünyadan gedən ata-babalarımızın ruhu da dinclik tapmadı... Tükəzban xanımdan halallıq almadan dünyanı tərk eləyib gedirəm...».

Abbas Mirzə dərin fikrə getmiş Kalbalı xanı kinlə, nifrətlə başdan-ayağa süzdü, sonra da əlini yuxarı qaldırıb cəllada «başlayın» işarəsi verdi.

İki sərbaz dinməz-söyləməz Kalbalı xanın qollarından yapışıb edam meydanına çəkdi. Cəllad iliklərinə qədər işləyən cır, hökmlü səslə dedi: «Kəlmeyi-şəhadətini de».

Kalbalı xan var qüvvəsi ilə özünü toplayıb şəhanə vüqarını pozmamağa, məğrurluğunu son ana qədər saxlamağa çalışdı. Başını yuxarı qaldırıb kirpiklərini tez-tez çaldı və bu anda sanki tanrıdan zülmət dünyasına süzülən işıq gördü. Dodaqları asta-asta pıçıldadı: «Əşhədü ənna ilahə illəllah. Əşhədü Ənnə Mühəmmədin Rəsulullah. Əşhədü ənnə əmirəlmöımininə əliyyən vəliyül-lah». Kəlmələri ağır-ağır deyə-deyə əlini üzünə çəkdi. Son anda yenə də səslərlə bərabər doğma çöhrələri, gözləri xatırlamağa çalışdı. Və bir addım irəli atdı. Yaddaşındakı son səslərlə birgə.

Bu anda qəfildən qarışıq səslər, at ayaqlarının tappıltısını eşitdi. Sonra kimsə onu sinəsindən vurub geri itələdi. Kalbalı xan özünü yıxılmaqdan zorla saxladı. Əl atıb kiminsə qolundan tutmaq istədi. Amma əli boşa çıxdı. Onu atlara tərəf sürüdülər. Əlini yanında durduğu atın böyürlərinə çəkib nə baş verdiyini anlamaq istədi. Yalnız bu zaman vəliəhdin səsini eşitdi:

– Kalbalı xan, oğlun gəldi. Qismətində ölüm yoxmuş.

Düşmənə əyilməyən Kalbalı xan gözləmədiyi xəbəri eşitdiyindənmi, ya sağ qalmağın sevincindənmi başı dumanlandı, müvazinətini itirib səntirlədi, dizləri üstə çökdü. Səbri, dözümü tükənmiş xan içindən tufan kimi gələn, kükrəyən hönkürtü səsini var qüvvəsi ilə dişlərini bir-birinə sıxaraq geri qaytardı. Tufan içini oydu. Ona elə gəldi ki, çeşməsi quruyan iki çuxur sanki qeybdən gələn kimi göz yaşı ilə doldu. Əlini kirpiklərinə çəkdi. Amma qurumuş çeşmədə heç nə yoxdu... Sərbazlar Kalbalı xanı ayağa qaldırdılar.

– Ölümə gedəndə ayaqların heç belə əsmədi, xan?

Vəliəhdin səsində bayaqkı sərtlik, amiranəlik yoxdu.

Kalbalı xan başını döndərmədən cavab verdi:
– Sənin qarşında mən Kalbalı xan idim. Oğlumun qarşısında isə həsrət çəkməkdən qəhr olan ata.
Abbas Mirzədən səs çıxmadı. Bir anda məğrurluğunu, vüqarını itirib yumaq kimi bükülən, iki qat olan xana hələ də heyrətlə baxırdı. Handan-hana rişxəndsiz-kinayəsiz dedi:
– Şıxəli xan bizim tərəfə keçməyə razılıq versə səni Naxçıvana aparacaq, xan, başa düşdünmü?
Abbas Mirzənin sözü Kalbalı xana çatmadı. Susuzluqdan təşnə adam kimi əlləri ilə qaranlıq boşluğu yoxlaya-yoxlaya, nəyi isə tutmağa çalışaraq oğlunun səsini, nəfəsini axtarırdı. Atı onun yanına çəkdilər. Kalbalı xan əlləri titrəyə-titrəyə, ürəyi quş ürəyi tək partlayaraq aşırılıb özü ata mindi, at onu edam meydanından götürüb apardı...

* * *

Ata-oğul görüşdülər.
Bir-birinə sarılaraq dinib-danışmadan, sorğu-sualsız bir-birinin nəfəsini, qoxusunu duydular. Şıxəli xan atasına hiss etdirmədən göz yaşını tez-tez sildi. Amma dolmuş ürəyi leysan yağdırırdı. Ürəyindəki daş əridikcə gözündəki çeşmə daşır, damlalar yaz yağışı kimi Kalbalı xanın kürəyinə tökülürdü. Söz qəhətə çıxmışdı. Həsrətdə bişən, intizarda qovrulan ürək elə çırpınırdı ki, söz aciz, qüvvədən, qüdrətdən düşmüş kimiydi.
Kalbalı xan oğlunun əllərini sığallayıb ürəyinin başına qoydu. Handan-hana toxtadı, yaddaşın dumanı çəkildi, yalnız indi doğmalarını xatırladı:
– Hamı sağ-salamatdı?
– Salamatlıqdır. Bütün Naxçıvan əhli sənə dualarını və salamlarını göndərirdi.
– Tükəzban...
– Tükəzban xanım səndən çox nigarandır. Əlləri qoynunda, gözləri yolda, axşam səhər yol gözləyir.
– İnşallah, görüşərik. Rus-İran müharibəsi davam eliyirmi?
– Ruslar hələlik Naxçıvandadır. General Qudoviçin əsgərləri İrəvan qalasına hücum elədilər, möhkəm savaş oldu, amma ruslar oranı ala bilmədilər.
– Yəni qala elə möhkəm qorunur?
– Bildiyin kimi İrəvanda qış çox sərt keçir. Pəmbəklə İrəvan qalasının arasında qalan ruslar da çətin vəziyyətə düşdü. Onlar

sərt qışa tab gətirməyərək qalanın mühasirəsini dayandırdılar. Üstəlik ruslar ərzaq sarıdan korluq çəkirdilər. Bəlkə də elə ərzaq qıtlığına görə general Nebolsinə Naxçıvanı tərk etmək əmri verilib. Onlar Naxçıvanı tərk edəcək.

– O halda iranlılar yenə Naxçıvanı asanlıqla işğal edəcək.

– Elə görünür, ata.

– İnanmıram ki, ruslar Naxçıvanı və İrəvanı farslara güzəştə gedələr.

– Rusların gəlməyi ilə ermənilərin Naxçıvana axını başlayıb. Erməni keşişləri elə bilirəm ki, gizli-gizli işlər görür, ata. Amma bu nə işdi, baş aça bilmirəm.

– Ermənini dedin, nigaran qaldım, Şıxəli. Ermənilərin Naxçıvanla nə işi ola bilər? Onlar ruslarla din bir, qan bir millətdir. Deyirəm bəlkə... – Kalbalı xan bu qaranlıq mətləblərə işıq salmaq, bu gizli məkrlərin, hiylələrin özəyinə nüfuz edərək ondan baş çıxarmaq üçün dərin fikrə getdi. Yadına birdən-birə erməni keşişi Danil düşdü. Danili İrəvana buraxmayan İrəvan xanı qaynı Məhəmməd xanın sözlərini xatırladı: «erməniləri başına yığaraq aranı qarışdırır».

– Sən ermənilərin Naxçıvana toplaşmağından şübhələnmirsən? – Şıxəli xan soruşdu. Kalbalı xan fikirli cavab verdi:

– Qorxuram ki, ruslar Naxçıvanı işğal edib ermənilərin əlinə tapşıra.

– Onlar ki, Naxçıvanda azdır.

– Ermənilər acı toxumdur, harda yerə düşsə kökünü kəsmək olmaz. Sən Naxçıvana qayıdan kimi özgə torpaqlardan ermənilərin Naxçıvana köçməsinin qarşısını al. Yerli erməniləri göz dustağı elə... Bizi nə vaxt buraxacaqlar, Şıxəli?

Şıxəli xan atasının boynunu qucaqlayıb üzünü onun sifətinə sıxdı:

– Əsası odu ki, sən sağ qaldın ata.

...Görüş qurtardı. Şıxəli xanı Kalbalı xandan ayırıb zindanın qaranlıq, nəmişli hücrəsinə atdılar. Kalbalı xanı isə öz köhnə yerinə qaytardılar. Oğlundan xəbəri olmayan xan əllərini göyə açıb kövrək halda dua etdi: «Ya Allah, sən Şıxəlinin sağ və salamat Naxçıvana çatmasına kömək ol...».

Ay işığında Naqapetin həyətindən iki-üç kölgə sürünüb keçdi. Sıx qollu-budaqlı ağacların altında gizləndi. Evin kiçik pəncərəsindən çıraq işığı yanıb-söndü, sonra yanılı qaldı. Suzan qorxu içində soruşdu:

– Çırağı niyə yandırıb söndürürsən, Naqapet?

– Bizimkilərə işarə verirəm.

– Nə işarəsi?

– Yəni ətraf sakitlikdir.

– Ətrafın adamsız olmağı onların nəyinə lazımdır, Naqapet?

– Ruslar gedirlər. Nebolsin tapşırıq verib ki, şilahları ermənilərə təhvil versinlər. Onlar bir də bu yerlərə qayıdanda biz həmin silahla ruslara kömək edəcəyik. Üstəlik bu silah bizə Naxçıvanın özündə lazım olacaq, Suzan.

– Yəni Kalbalı xanla vuruşacaqsız?

– Kalbalı xan zindandan qayıtmayacaq!

– Niyə Naqapet?

– Çünki şah ona qarşı çox qəzəblidir. Ola bilsin ki, artıq oğlu Şıxəli xanla onu edam elətdirib.

– Yəni Kalbalı xan ölə bilər?

Naqapet hirsləndi:

– Padşah ölə bilir, Kalbalı xan ölə bilmir?

– Onun qorxusu canımdadı, Naqapet. İndi deyirsən bizimkilər silahı zirzəmiyə daşıyacaq? Birdən gəlib tapsalar, onda necə olsun Naqapet? – Suzan təlaş içində Hacı Əbülqasım gilin evinə tərəf boylandı. Gecə yarıdan ötmüşdü. Amma Hacı Əbülqasımın işığı yanırdı. Suzan dərindən, nisgili içərisini yandırırmış kimi köks ötürdü:

– Amma bu ev də, karvansara da yaman əlimizdən çıxdı, Naqapet. Ruslar burda olanda ümid yeri vardı.

– O ev əlimizdən çıxmaz, Suzan.

– Bu gün o ərəb də qayıdıb gəlib, Naqapet. Deyəsən Hacı Əbülqasım qızını o ərəbə verəcək?

– Ərəb qayıdıb? – Naqapet diksindi, sanki ürəyinin başından gürzə ilan çaldı, – o ki, birdəfəlik getmişdi.

– Hə də. Yəqin eşq, məhəbbət sevdası sönmək bilməyib. Bilirsənmi neçə dəvə yükü mal gətirib? Özü də deyəsən həmişəlik gəlib. Hacı Əbülqasımın varı birə-beş artıb, Naqapet. Hacı Əbülqasıma bundan belə heç kəs bata bilməz.

Suzan təkrar elə ah çəkdi ki, bu ahın yanğısı sanki sinəsində tüstüsüz-alovsuz ocaq qaladı. Naqapet ona təskinlik verdi:

– Darıxma, Suzan. Ruslar gec-tez İrəvan xanlığının yerində biz ermənilər üçün təzə dövlət yaradacaq. Bu Naxçıvan ki, var ha onu da verəcəklər həmin dövlətə ki, torpağı çox olsun. Ermənilərin hamısını tutsun.

– Adını nə qoyurlar Naqapet?

Naqapet çiyinlərini çəkdi:

– Xalis ermənilər olduğuna görə yəqin ki, Ermənistan.

– Bu barədə çox eşitmişəm. Keşişlər çox danışıb. Yəni sən inanırsan ki, bizim də nə vaxtsa erməni padşahımız olacaq?

– Bəs biz hansı millətdən əskiyik, Suzan?

– Əskik olmasaq da onların əvvəldən padşahları olub.

– Bəs biz də çalışırıq ki, bizim də öz torpağımız, öz padşahımız olsun.

– Nə bilim, İrəvan bəlkə də nə vaxtsa ermənilərin oldu, amma mən inanmıram ki, Kalbalı xan Naxçıvanı verə bizə.

– Kalbalı xan yoxdu, qandın, o şahın zindanındadı.

– Amma onun nəfəsi bu torpağın üstündədir. Mən onun zəhmini, qorxusunu daim hiss eləyirəm, Naqapet. O günü bizimkilər bir müsəlmanı qətlə yetirdilər, sonra da rusların üstünə atdılar. Mən hələ də Kalbalı xanı düşünüb qorxudan əsirəm. Elə bilirəm ki, Kalbalı xan bunun qisasını çıxacaqdır.

– Suzan...

– Eşidirəm.

– Yuxularında səni qara basmır ki?

– Gözümün açıq vaxtında da məni qara basır, Naqapet.

– Heyif mənim çörəyimə ki, onu bir qeyrətsiz, qorxaq arvad yeyir. Sən gərək şir ürəkli, aslan ürəkli olasan... Suzan.

Bu anda Naqapeti astadan harayladılar. Naqapet zirzəminin qapısını açdı:

– Silahları gətirirlər. Qaç süfrə aç, yaxşı şərab qoy.

Suzan qorxa-qorxa xaç çəkdi, sonra evə keçdi...

* * *

1809-cu ilin martı.

General Qudoviç ali baş komandan vəzifəsindən götürüldü. Beş minə yaxın rus əsgəri ilə İrəvan qalasını ala bilməyən generalın fərsizliyi çar sarayında imperatoru qəzəbləndirmişdi.

General Qudoviç Azərbaycan torpağını tərk edirdi... Ermənilər onunla yarıkönül vidalaşırdı. Çünki knyazın işləri yarımçıq qalmışdı: vəd etdiyi Ermənistan dövlətini yarada bilmədi, İrəvan qalasını almaqda acizlik çəkdi, erməniləri bütünlüklə Naxçıvana köçürə bilmədi... Arzular, xəyallar şüşə kimi çilikləndi. Vəzifəsindən çıxarılmış Qudoviçin özü də sarsılmışdı. Sərvət topladığı bu yerləri dərin təəssüf, peşimançılıq duyğusu ilə tərk edirdi...

* * *

Knyaz Qudoviçin yerini Aleksey Petroviç Tormasov tutdu.

General Tormasov iliyinə, qanına qədər sərt və qəddar hərbiçi idi. Bəlkə də elə buna görə çar I Aleksandr baş komandan təyin etmək üçün qələmini generalların siyahısı üzərində gəzdirərkən Tormasovun adının üstündə dayandı. Yüngülcə qımışdı: yalnız yaltaq və qəddar olan bu adam Azərbaycanı diz çökdürməkdə, sərvətlərini talan edib xəzinəyə göndərməkdə onun layiqli köməkçisi ola bilər.

I Aleksandr öz fikrində yanılmadı. General Tormasovun doyumsuz iştahı, yaltaq xisləti, qəddar təbiəti Azərbaycana qarşı Rusiyanın işğalçılıq siyasətində kara gəldi. Lakin çox keçmədi ki, çar sarayına bəd xəbərlər axmağa başladı: deyəsən generalın özbaşınalığı, qəddarlığı həddini aşırdı. Buna görə də xalq ayağa qalxmışdı. Xalqın üsyankar ruhunu məhv etmək, buxovlamaq gərək idi. I Aleksandr bilirdi ki, general özü bunun öhdəsindən gələcək.

Doğrudan da Tormasov soyuqqanlılıqla düşünməyə başladı. O, ilk əvvəl Quba xanlığını seçdi. Rus əsgərlərinin Qubada özbaşınalığı, qətllər, qəraətlər, sərvətlərin talan edilib daşınması, adamların ah-naləsi son həddə çatdı. Quba xanı Şeyx Əli xan igidləri başına toplayıb rusları xanlıqdan çıxarmaq üçün ölüm-dirim savaşına girdi. Yollar bağlandı. Quba alınmaz qalaya çevrildi. Şeyx Əli xanın başçılıq etdiyi müdafiəçilərlə Tixonovskinin və Lisanoviçin qoşun hissələri Ərpəlidə üz-üzə gəldi. Qubalılar mərdliklə vuruşurdu. Lakin onlar sayca üstün olan düşmənə qalib gələ bilmədilər. Ərpəlidə qanlı döyüş rusların qələbəsi ilə başa çatdı.

Quba xanlığı, köməksiz-arxasız insanları ilə rus əsgərlərinin ixtiyarına keçdi.

Quba ev-ev dağıldı, ocaq-ocaq alışdı. General Tormasov qonşu xanlıqlara dərs olsun deyə Qubanı diz çökdürdü. Şeyx Əli xanı edama çəkmək üçün çox axtardılar. Şeyx Əli xan Dağıstana qaçmışdı... General Tormasov qisas alsa da qəzəbi soyumurdu. Rus əsgərlərinin ağır çəkmələri altında əzilən, qanına qəltan olan qubalıların çoxu əsir getdi. Bazarlarda qul kimi satılmaq üçün...

* * *

General Tormasov həmişəki kimi keşiş Yefremi özü qarşıladı, qoluna girib içəri apardı, gözlərinin içində sevinc qaynayıb tez də yox oldu. General hərbiçiyə məxsus sərtliklə soruşdu:

– Təzə xəbər varmı, keşiş?

– Sizin Quba xanlığındakı zəfərinizi ermənilər qeyd edir, general. Əgər mən rus padşahının yerinə olsaydım sizin başınıza qızıldan tac qoyardım. Deyilənlərə görə Şeyx Əli xan xanlığın qapılarını rusların üzünə bağlamaq niyyətindəymiş.

– Amma niyyətləri boşa çıxdı. Bəs keşiş İonesyan hardadır? Mən onu gözləyirdim.

– Vacib iş arxasınca gedib-keşiş bic-bic göz vurdu.

Keşişin nəyə işarə etdiyini anlayan generalın da dodaqları qaçdı. Asta, xəfif gülüşü mis kimi yanmış sifətinin qoca qırışlarını açdı, əlini ağarmış seyrək saçlarına çəkib utanırmış kimi başını buladı:

– Siz çox qonaqpərvərsiz, keşiş. Burda adamı darıxmağa qoymursuz. Mən indi başa düşürəm ki, Qafqaza gələn rus generalları nə üçün özlərinə məsləhətçini ermənilərdən seçir, ermənilərlə oturub-dururlar. Siz burda bu vəhşi tatarların (azərbaycanlıların) arasında adamı darıxmağa qoymursuz.

Keşiş Yefremin birdən-birə üzü tutuldu, gözləri yaşardı, alt dodağı əsdi:

– Müsəlmanlar vəhşi və qaniçəndirlər. Ah, yazıq ermənilər, onların əlindən nələr çəkib. Onlar bizim torpaqlardan heç cürə çıxmaq istəmirlər, general.

Keşiş Yefremin əsəbilikdən ağzı köpükləndi, boğazının damarları şişdi, saqqalını tumarlayan əlləri əsdi:

– Allah sizi bizə xilaskar göndərib, ona görə də biz ermənilər öz xilaskarımızı ...

General keşişin söhbətindən darıxıb onun sözünü kəsdi və təkrar soruşdu:

– İonesyan harda qaldı?

Keşiş pərt halda öskürdü. Gizli qəzəblə Tormasovu süzdü: «Bic tülkü. Mən buna torpaq dərdimi danışıram, bu İonesyanı soruşur. Bilir ki, keşiş ona qiymətli daş-qaş, gözəl pərilər gətirəcək... Amma bilmir ki, biz bunların müqabilində torpaq istəyirik. Eh qraf Qudoviç, bizdən ötəri canını verərdi». Keşiş özünü saxlaya bilmədi, dərindən ah çəkdi:

– Qraf Qudoviç bizim üçün ayrıca dövlət yaratmaq istəyirdi. O bütün erməniləri Qarabağa, Naxçıvana və İrəvana köçürmək fikrindəydi. Heyif ki, onun İrəvana hücumu uğursuz oldu. Bizimkilər bu uğursuzluğu matəm kimi qeyd etdilər...

– Yefrem! – generalın səsində əsəbilik duyuldu.

– Eşidirəm, cənab.

– Qraf Qudoviçi gözümə soxma.

– Mən əslində rus imperatoru demək istəyirdim. Qraf Qudoviçə tapşırıqları axı o, verirdi. Uca Tanrı imperatoru başımızın üstündən əskik eləməsin. Biz onun qulu və nökərləriyik.

General əlini arxasında çarpazlayaraq təşəxxüslə Yefremin qarşısında dayandı. Dodaqlarını bir-birinə sıxıb soyuq, sərt baxışlarını xeyli müddət keşişin saqqallı sifətində, hiyləgər göy gözlərində saxladı, sanki verəcəyi şad xəbərin dəyərini ona anlatmaq istədi.

– Keşiş...

– Eşidirəm cənab...

– Yaxın vaxtlarda rusların İrəvana hücumu gözlənilir.

– Ermənistan dövlətini yaratmaq üçünmü?

General cavab vermədi. Yefrem udqundu, gözlərinin içində sanki şimşəklər oynadı, qığılcımı içinə töküldü. Ayağa qalxdı, təkrar oturdu, sonra ikiəlli generalın əllərindən tutub öpdü və dodaqaltı nə isə pıçıldayıb sinəsinə düşmüş zəncirli xaçı öpdü:

– Bu şad xəbəri... – keşiş dayandı, nə isə düşünüb generalın üzünə baxdı – lakin...

– Sözün var, keşiş?

– Siz İrəvandan əvvəl Mehrini işğal edin, general. Orda azərbaycanlılar yaşayır. Mehrinin ermənilərin əlində olması iki cəhətdən ruslara sərfəlidir: əvvəla Naxçıvanın Azərbaycanla əlaqəsi kəsiləcək və İrəvanın işğalında bizimkilər sizə kömək edə biləcəklər.

– Yəni Mehri strateji cəhətdən bu qədər əhəmiyyətlidir?

– Əgər Mehri yolu açıq olsa Naxçıvan və İrəvan xanlıqları özgə xanlıqlardan kömək ala biləcəklər. Əgər Mehri rusların işğalında olsa onlar bu köməkdən məhrumdur. Mehri gələcəkdə yaranan Ermənistan dövləti üçün açıq qapı olacaqdır. Elə bilirəm ki, bu rusların da marağını təmin edəcəkdir.

Bu anda keşiş İonesyan da gəlib çıxdı. Generalın gözləri onun əlindəki bağlamada qaldı...

* * *

Keşiş Yefremin Mehrini işğal etmək təklifi general Tormasovun ağlına batdı... Məsləhətləşmək üçün köməkçisi general Pauliççini yanına çağırdı.

...Pauliççi ondan xeyli cavan və zirək idi. Daim qaynayan mavi gözlərində sanki bir iblis məkri gizlənirdi. Dodaqlarının ucundakı istehza, sarıbəniz sifətindəki təkəbbür Tormasovu özündən çıxarardı. Ona elə gələrdi ki, bu arzuolunmayan köməkçi gizlicə onun ətrafında hörümçək toruna bənzər tor qurur.

General Pauliççinin ətrafında daim ermənilər vurnuxardı. Pauliççi boş vaxtlarında onların keyf məclislərində iştirak edər, bolluca şərab içər, ertəsi gün işə gözlərinin altı torbalanmış halda işə gələrdi. Belə anlarda Tormasovu qısqanclıq və paxıllıq hissi alov kimi bürüyərdi. Cavan və sağlam köməkçisinə həsəd aparardı. Yavaş-yavaş canına yeriyən xəstəliyi ört-basdır eləsə də bu gizli xəstəlik onun gözlərinin içindən boy verirdi, əzgin, yorğun görünüşündə özünü göstərirdi. Tormasov gecələr yerinə qor dolmuş kimi yata bilmirdi. Pauliççini yanından uzaqlaşdırmaq istəsə də imperatorun qorxusundan səsini çıxarmırdı. Çünki bu bic adamın I Aleksandrın yanında xüsusi etimadı vardı. Hərdən Tormasova elə gələrdi ki, imperator qəsdən Pauliççini onun yanına köməkçi qoyub. Bu qılıqcıl general çox keçməz ki, hərbi işdə bir az da təcrübə qazanar və ali baş komandan Tormasovun yerini tutar... Bu şübhə Tormasovun qəzəb hissini coşdururdu, içərisində köməkçisinə qarşı dərin bir nifrət və düşmənçilik yaradırdı. Lakin o, ürəkdən gəlməyən saxta təbəssümünü üz-gözünə çiləyərək Pauliççi ilə işləmək, onu eşitmək məcburiyyətində idi...

İndi də general Tormasov saxta təbəssümü gözündə, nifrəti içində keçib masanın arxasında əyləşdi. General Pauliççi onun yorğun gözlərinə, əyilmiş qamətinə, halsız görkəminə baxıb qımışdı: «İstefaya getməyinə az qalıb general. Sən xəstəliyi gizlət-

sən də xəstəlik özü səni ələ verir... Sənə bolluca istirahət lazımdır general» Pauliççinin xəyalı uzaqlara getdi. Nədənsə general Zubovu xatırladı: «Əsil baş komandan Valerian Zubov idi. Rəhmətlik Yekaterina onu çox sevərdi. Mən ilk dəfə Qafqaza general Zubovla gəldim. Onda Azərbaycan bizi valeh etdi.

Mən o zaman gənc bir zabit idim. Nəfsimi saxlayaraq yalnız Zubovun sərvət toplamasına çalışardım. İstəyirdim ki, döyüşlərdə fərqlənim və imperatorun diqqətini cəlb edim. İstədiyimə nail oldum. General Zubov o vaxt mənim şücaətim barədə çariçaya raport yazdı. Mən general rütbəsinə görə həmin o qızılayaq Zubova minnətdaram...».

General Tormasov onu xəyaldan ayırdı:

– Keşiş Yefrem İrəvan xanlığından əvvəl Mehrini işğal etməyimizi məsləhət bilir.

Pauliççi yerində qurcalandı. Sevinc hissindən rahat otura bilmədi. Ermənilər artıq çoxdan idi ki, ondan Mehrinin azərbaycanlıların əlindən almasını xahiş etmişdilər. Bu xahişin dəyərində aldığı daş-qaşın qiyməti Pauliççini çaşdırmışdı da.

– Ermənilər çox ağıllıdır – Pauliççi mənalı gülümsündü.

– Elədir. Onların məsləhəti biz ruslara həmişə xeyir gətirir – General Tormasov da fikrində keşiş İonesyanın gətirdiyi bağlamadakı daş-qaşları xatırladı. Ürəyinə xoş bir istilik yayıldı.

– Hücum planını hazırlamaq üçün kimi məsləhət bilirsiz? – Pauliççi soruşdu.

General Tormasov düşünmədən cavab verdi:

– Kotlyarevskini. O, cəsarətli və təcrübəli hərbiçidir. Üçlükdə Mehriyə hücum planını hazırlayaq.

...General Tormasovun yanından çıxanda artıq gec idi. Yorğun olsa da Pauliççi dincəlmək əvəzinə erməni kilsəsinə üz tutdu. O, şad xəbəri ermənilərə yetirməyə tələsdi...

* * *

...Qəflətən atılan topların arxasınca güllələr yağış kimi Mehrinin başına yağdı. Dağlar hələ gecə çarşavını üzündən götürməmişdi. Ulduzların səhmanı pozulmamışdı.

Mehrinin müdafiəçiləri silaha sarıldı. Qəddar hərbiçi olan Kotlyarevskinin əsgərləri kimsəyə rəhm etmirdi. Sağ qalan mehrililər dağlara üz tuturdular. Lakin günahsız insanların ah-naləsi

də Kotlyarevskini tutdu. Müdafiəçilərin atdığı güllə onu tapdı və ağır yaraladı.

...Mehridən qələbə xəbərini alan general Tormasov sevindi. Sanki canından bütün ağrılar ötüb keçdi. İlk zəfər yeni zəfərlərə yol açmaq iştahını artırdı. O, çar sarayına Mehrinin ruslar tərəfindən işğalı barədə raport yazdı, eyni zamanda bu qələbədə xüsusi əməyi olan Kotlyarevskini təltifə təqdim etdi.

* * *

Mehrinin asanlıqla işğalı general Tormasovu şirnikləndirdi. İndi onu İrəvandan çox İran cəzb edirdi. Tormasov düşünürdü: «Rus imperatoru İranla münasibətləri yaxşılaşdırmaq siyasəti yeridir. Müharibəyə yol vermədən, silaha əl atmadan İranı yerində oturtmaq lazımdır. Fətəli şah bir də gözünü açıb görsün ki, Şimali Azərbaycan artıq Rusiyanın himayəsindədir. Əgər mən bu işi bacara bilsəm çar sarayında böyük nüfuz sahibi olaram».

General Tormasov vaxt itirmədən İran şahzadəsi Abbas Mirzəyə isti məktub yazdı. Abbas Mirzə məktubu oxuyan tək qəzəbləndi. Cümlələrin, kəlmələrin arxasında gizlənmiş rus hiyləsini anladı. Rişxəndlə gülümsəyib məktubu bir tərəfə atdı:

– General Qudoviç uzun illər mənimlə müharibə apardı, lakin məğlub oldu. İndi bu sarı rus tülküsü istəyir ki, mənim başımı sığallayaraq aldatsın, Azərbaycan torpaqlarına sahib olsun. Sözə bax ha... *«Rusiyanın İranla ədavəti yoxdur»*. Əgər biz Şimali Azərbaycandan əl çəksək... Rusiyanın bizimlə işi olmayacaqdır. Tormasov üstəlik Naxçıvan və İrəvan xanlıqlarının başçılarına məktub göndərərək bildirib ki, guya rusların bu torpaqları işğal etmək niyyəti yoxdur. Yalnız bu xanlıqlarda qoşunun beş il saxlanmasına razılıq istəyir. Guya bu torpaqlar rus generalına strateji cəhətdən lazımdır... Yox bu ancaq hiylədir... Onun sözlərinə inanmaq sadəlövhlük olar...

Məktubu oxuyan Fətəli şah da oğlunun sözünü təsdiqlədi.

Abbas Mirzənin gözlərində yüngül bir istehza göründü:

– Onun nə demək istədiyini başa düşdünmü, şəhriyar?

– Bu Qudoviçdən daha hiyləgərdir. Qudoviç müharibə, savaş tərəfdarıydı, bu isə topsuz, tüfəngsiz siyasət yeridir. Azərbaycanı yağlı tikə kimi asanlıqla udmaq istəyir...

– Azərbaycan xanlıqları onsuz da rusların əlindən cana yığılıb. Aldığım məlumata görə Qubada ruslara qarşı üsyan qaldırılıb.

Lakin Quba hakimi Şeyx Əli xan ruslarla bacara bilməyib. Çünki polkovnik Tixanovskinin və Lisanoviçin dəstələri üstün gələrək üsyançılara divan tutub. Quba darmadağın olub, xarabazara çevrilib, çoxlu azərbaycanlı öldürülüb. Sağ qalanları bazarlarda qul kimi satmaq üçün əsir götürüblər.

– Şeyx Əli xan rusların əlinə keçibmi görəsən?

– Deyilənlərə görə o, Dağıstana qaçıb.

Fətəli şah fikrə getdi, sonra handan-hana dedi:

– Aldığım məlumata görə Tormasov bu məktubdan birini də Türkiyə sultanlığına göndərib – şah qaşlarını çatdı – türklər sadəlövhdür. Onlar çox güman ki, bu rus tülküsünün tələsinə düşəcəklər.

– Düz buyurursan, şəhriyar – Abbas Mirzə təsdiqlədi – Türklər doğrudan da aldanaraq ruslarla barışığa razı olub. Amma onlar yaxşı bilirlər ki, hələ I Pyotrun vaxtından rusların gözü daim türk torpaqlarında olub.

Şah nifrətlə başını bulayıb kəskin dedi:

– Cavab yaz ki, biz onların dediklərini qəbul etmirik.

...Çox keçmədi ki, general Tormasov Abbas Mirzədən onun təklifini rədd edən kəskin yazılmış cavab məktubu aldı. Tormasov bunu gözləmədiyi üçün özündən çıxdı, yumruğunu düyünlədi və hirsindən dişlərini qıcadı. Lakin farsların rədd cavabı Tormasovu sülh danışıqları aparmaq fikrindən döndərmədi.

...1810-cu ilin yayında Əsgəran qalasında İranla Rusiya arasında danışıqlar aparmaq üçün görüş keçirildi. Fətəli şah bu görüşə nümayəndəsi Mirzə Bozürkü göndərdi. Danışıqlar on səkkiz gün davam etsə də Tormasovun xəyalları puç oldu. İran Şimali Azərbaycanı, xüsusi ilə İrəvanı və Naxçıvanı ruslara verməkdən qəti imtina etdi.

Danışıqlarda İngiltərənin nümayəndəsi Horford Conson da iştirak edirdi. O, guya İranın mənafeyini müdafiə etməklə İranla Rusiyanın bir araya gəlməsinə, barış olmasına imkan vermədi.

Danışıqlarda iştirak edən general Tormasov Əsgəran qalasından uğursuz qayıtdı. O, quyruğu tapdanmış ilan kimi qəzəbliydi.

## 12

...Şəhərin başı üstündə buludlar getdikcə sıxlaşıb qaraldı. Sonra buludlar başdan-başa göy üzünə çökmüş qara tüstüyə

çevrildi. Bu tüstünün arxasında günəşin narıncı işığı solğun şüa kimi yerə süzürdü. Sanki buludların tüstüsü də qara şüa kimi aşağı çökürdü. Az keçmədi ki, günəşin narıncı işığı qaraldı, sanki qara duman yer üzünü aldı. Şimşək çaxdı. Şimşək göylərin qara bağrını parlaq qılınc kimi doğrayırdı, bir anlıq göy üzü işıqlanır, sonra yenə qara buludlarla örtülürdü.

Həyətə çıxıb qonaqları qarşılayan Nəzərəli xan bir anlıq çevrilib göy üzünə baxdı, sifətinə düşən soyuq yağış damcısından xoşhallandı:

– Yağış yağan kimi göy üzü təmizlənəcək – dedi.

Əli xan da tutulmuş, qaralmış göylərə baxdı;

– Naxçıvan indi bağrı qan olan bu göylər kimidir. Amma bizə nə yağışın, nə şimşəyin köməyi çatar.

Nəzərəli xan qonaqları salona apardı. Əli xan həmişəki kimi baş tərəfdə oturdu. Onun ağarmış bənizində, qızarmış yuxusuz gözlərində gizli bir əndişənin kölgəsi sürünürdü. Kalbalı xanın qardaşı oğlu Kərim xan da fikirli, dalğın görünürdü. Sükutu Əli xan pozdu:

– Bu ağır gündə Kalbalı xanın Naxçıvanda olmamağı camaatı ruhdan salıb.

Kərim xan söhbəti dəyişdi:

– Bəlkə Kalbalı xanın, Şıxəlinin zindandan buraxılması üçün ağsaqqalları şahın hüzuruna xahişə göndərək?

Təəssüf hissi bir yanğı kimi Əli xanın içindən ötüb keçdi:

– Şıxəli xan Tehrana getməkdə səhv elədi.

– Getməsəydi atamı edam edərdilər. Bir də şahın fikri Şıxəlini Tehrana aparmaq idi – Nəzərəli xan dedi.

Əli xan süfrəyə gələn isti çaydan birini qarşısına çəkdi – vəziyyət pisdir, Kərim xan. Aldığım məlumata görə general Qudoviçin yerinə gələn Tormasov soyadlı general yaman meydan sulayır. O, Naxçıvanı və İrəvanı işğal etmək niyyətindədir.

– İşğal niyə? Kalbalı xan da rusların tərəfindədir ki?

– Vallah bu işlərdən mən də baş çıxara bilmirəm, Kərim xan – Əli xan əlini ağarmış saqqalına çəkdi, gözlərində yenə həmin əndişəli kölgələr göründü – Şıxəli xanla ruslar buraya gələndə heç kəsə dəyib toxunmadılar... Amma indi aldığım məlumata görə həmin bu təzə general Mehriyə qoşun yeridərək orda qırğın törədib. Daşı daş üstə qalmayıb Mehrinin. Ölənlərin sayı-hesabı yoxdur. Deyilənə görə onun fikri Naxçıvanı və İrəvanı Azərbay-

candan ayrı salmaq, sonra bizim torpaqları işğal etməkdir. Əgər Tormasov dostluqla torpağımıza ayaq qoyursa qan niyə töksün?

Ortalığa çökmüş ağrılı sükut hamısını düşündürdü.

Nəzərəli xan handan-hana dedi:

– Bu vəziyyətdən ancaq Kalbalı xan baş çıxarardı.

Əli xan yaranmış sükutu pozdu:

– Hələlik İran sərbazları Naxçıvandadır. İnanmıram ki, ruslar buraya qoşun yeritsin. Aldığım məlumata görə ruslar Naxçıvanı və İrəvanı xoşluqla İranın əlindən almaq istəyir. Təzə rus generalı Tormasov da Əsgərana bu məqsədlə getmişdi. Amma ingilislər İranla urusun dostluğuna razı deyil. İngilis istəyir ki, farslar rusların başını əzsin. Nədən ki, bu müharibədə onların da marağı var. Buna görə də Əsgəranda danışıqları pozublar.

– Mən başa düşmürəm əgər urusla fars Əsgəranda danışıqlar aparırsa ingilisin orda nə işi? – Nəzərəli xan təəccübləndi.

– Hər işdə gərək ingilisin də barmağı ola – Əli xan istehza elədi.

– Mən urusun Mehridə törətdiyi vəhşiliyə görə belə başa düşürəm ki, Tormasovdu, nədi azərbaycanlıların qəddar düşmənidi. Elə bilirəm ki, urus padşahının da onun işləklərindən xəbəri yoxdur.

Əli xan Kərim xanın sözünü təsdiqləmədi:

– Rus padşahının Mehrinin işğalından xəbəri yoxdur? Səncə Tormasov vəhşilikləri özbaşına törədib?

– Deyirsən xəbəri var?

– Mehri Ordubadın bir parçasıdır. Mehrinin işğalı onu göstərir ki, Naxçıvan da onun gününə düşə bilər. – Əli xan qətiyyətlə dedi: – Belə vaxtda Kalbalı xan Kəngərli süvarilərini ayağa qaldırardı.

– Naxçıvan qalasını möhkəmlətmək, qala qapılarını Tormasovun ordusunun üzünə bağlamaq lazımdır.

– Doğrusu da elə budu.

Yer-yerdən Əli xanın sözünü təsdiqlədilər.

...Lakin Tormasov gücünü nə İrana, nə də Naxçıvana göstərməyə macal tapdı. I Aleksandr xəstəliyinə görə onu baş komandan vəzifəsindən azad etdi və bununla da generalın xəyallar dünyasını uçurub dağıtdı.

Tormasovun şübhələri doğruldu: general Filipp Osipoviç Pauliççi onun yerini tutdu.

Ermənilər sevinirdi... Kilsələrdə Pauliççinin şərəfinə şamlar yandırıldı, dualar oxundu. Keşiş Yefrem xüsusi canfəşanlıq göstərirdi: avazla oxuduğu dualarda rus imperatoru I Aleksandrın adı ilə birgə Pauliççinin də adını çəkdi və əyilib Pauliççinin əlini öpərək ona xeyir-dua verdi. General kövrəldi. Zədagan atasını xatırladı: kaş o, bu təntənəli anları görə biləydi. Heyif ki, atası onun Qafqaz qoşunları ali baş komandan olduğunu görmədi. Halbuki atası Osip hələ uşaqlıq illərində Filippin böyük adam olacağını, Rusiyanın həyatında mühüm sima sayılacağını duymuşdu. Buna görə də ciddi-cəhdlə onu hərbi məktəbdə oxutdu. General Valerian Zubovla ilk dəfə Azərbaycana yola düşəndə gözləri yaşara-yaşara oğluna xeyir-dua verdi. Filipp Azərbaycan torpaqlarının işğalı zamanı əlinə keçən qəniməti Valerian Zubova verirdi. Bununla da özünü generala yaxın və gözütox adam kimi göstərirdi. Yaltaqlığı axır ki, kara gəldi: onu əvvəlcə polk komandiri təyin etdilər, sonra isə Tormasovun köməkçisi qoydular və nəhayət, Pauliççi sürünə-sürünə çıxdığı zirvəni fəth etdi: ali baş komandan oldu.

* * *

Bakı sıxıntılı günlərini yaşadı. General Pauliççinin gəlişi ilə ermənilər fəallaşdı.

Lakin Pauliççi də ermənilərə gün ağlaya bilmədi. Çarın 1812-ci il 16 fevral tarixli fərmanı ilə o, vəzifəsindən azad olundu.

13

Gecəyarısı həyətdə at ayağının səsini eşidəndə Mahnur səksəkə içində yatağından dik qalxdı. Murad atdan düşdü, yüyəni həyətdəki ağaca bağlayıb içəri keçdi. Yorğun, qaşqabaqlı idi. Mahnuru görəndə qaşlarının düyünü açıldı, zəif bir gülüşü sanki zorla qəmli çöhrəsinə səpdi. Amma gülüşü ürəksiz olduğundan o anda da silinib getdi. Pıçıltı ilə soruşdu:

– Hamı yatıb?

– Hamı yuxudadı. Səni çox gözlədik. – Mahnurun sorğulu-suallı gözləri onun tutqun çöhrəsində, narahat, qayğılı baxışlarında qaldı. Ürəyini təskin edəcək bir söz umdu. Amma Murad Mahnurun baxışlarına əhəmiyyət vermədi. Mahnur çəkingən soruşdu:

– Qalada çoxmu adam var, Murad?

– Çoxdur. Amma hamı nəyi isə gözləyir. Sərbazlar arasında ruh düşgünlüyü var.

– Şıxəli xandan xəbər çıxmadımı?

– Deyilənə gərə Şıxəli xanı zindana salıblar.

Mahnur içini çəkib əlini dodağına apardı:

– Şıxəli xan zindandadı?

– Hər ağızdan bir avaz gəlir. Kimi deyir ruslar qayıdır, kimi də deyir ki, Abbas Mirzə rusların getməyindən istifadə eləyib qoşunu yeridir Naxçıvana. Bizə çatan məlumata görə Abbas Mirzə burda möhkəmlənmək və ruslarla müharibəni davam etdirmək istəyir.

– Ruslarla döyüşdə axı onlar məğlub oldular.

– Lakin bu məğlubiyyət Abbas Mirzəni yerində oturtmadı. Deyilənə görə o, qüvvə toplayıb bu dəfə rusların üstə özü gedir.

– Onlar qüvvəni hardan alıb Murad?

– Deyirlər ki, İngiltərə İrana silah, ərzaq verir, üstəlik iki yüz min tümən də yardım göstərib. Təki İran Rusiya ilə müharibə aparsın və ruslara zəfər çalsın.

– Niyə urus ingilislərin düşmənidir?

– Ona görə ki, iki qoçun başı bir qazanda qaynamır.

– Bəs onda ingilisin bu qədər qüvvəsi varsa urusla özü niyə müharibə aparmır?

– İranı verir qabağa. Deyir qoy bir-birlərini qırsınlar.

– İngilis onda bicdi, Murad.

– Bicdi ki, belə siyasət yeridir. Amma İran urusa öz torpağında güllə atmayacaq. Müharibəni keçirəcək Naxçıvana. Urusun atdığı top, güllə bizim başımıza yağacaq. Rusiya ilə İran Azərbaycan torpaqları üstdə vuruşur, biz də kənardan dayanıb baxırıq. Eh dünya... Yenə ayaqlar altında qalan, yurd-yuvası dağılan bizik. Belə dar gündə arxasız-köməksiz qaldıq.

– Nə Kalbalı xan var, nə də Şıxəli xan. Nəzərəli xan nə deyir?

Murad başını buladı. Səsə Osman da durub gəldi.

Çırağın işığı alındığından otaq yarıqaranlıq idi. Ləmədəki çıraqdan qaranlıq otağa zəif işıq süzülürdü. Osman kal səslə öskürdü, əlini ağzına tutdu, sonra da kədərli, hüznlü səslə dedi:

– Feyzullah külfətini də götürüb ucqar kəndə gedir.

Murad başını qaldırmadan astadan dedi:

– Qorxuram ki, Abbas Mirzə qeyrətsiz Abbasqulu xanı təzədən gətirib əyləşdirə taxtda.

– Yəni Abbasqulu xan bir də qayıdıb gələr? – Osman heyrətlə soruşdu.

– Onun üzündə heç abır-həya yoxdu – Mahnur nifrətlə üz-gözünü turşutdu – Naxçıvanın bir düşməni də odu. Az qala burda bir edam meydanı düzəltdi. Kalbalı xanın qisasını günahsız adamlardan aldı.

– Eh, onda abır-həya olsa Naxçıvan torpağına bir də ayaq qoymaz. Gəlsə də faydasızdır. Xalq onu istəmir.

– Onu görüm urusun qəfil gülləsinə gəlsin. Elə başabəla xanı. Qarababa düzündə vurub öldürmədilər. Taxta çıxmağa görə iranlılara quyruq bulayır.

– Boşla Mahnur. Elə satqın adamlar axıra qədər Naxçıvanın çörəyini yeyə bilməz.

Ortalığa sükut çökdü. Sanki bu ağrılı sükut dağların, qayaların daşını kürüyüb onların üstünə tökdü. Qapılarını döyməkdə olan fəlakət addım-addım yaxınlaşırdı. Murad Mahnurun ocaqda qaynatdığı çaydan bir qurtum alıb astadan dedi:

– Gəldim sizə xəbər verim ki, biz qaladan çəkilirik – sanki səsini qəhər boğub zədələdi – Murad öskürüb bu qəhərin ötüb keçməsini gözlədi.

Mahnur təlaş içində soruşdu:

– Demək qala qapıları iranlıların üzünə açılır?

– Biz Abbas Mirzənin ordusunun qarşısında duruş gətirə bilmərik. Qüvvəmizi toplayıb Kalbalı xanın qayıtmağını gözləməliyik.

– Yəni Kalbalı xanı zindandan buraxacaqlar?

– Məcbur qalıb buraxacaqlar. Elə Şıxəli xanı da.

Mahnur atasına gözaltı baxıb amiranə dedi:

– Mən də sənnən gedirəm.

– Hara, Mahnur? – Murad gülümsəyib təəccüblə soruşdu.

– Sən hara, mən də ora. Sən ki, bilirsən mən yaxşı at çapıram, qılınc çalıram.

– Yox, yox olmaz.

– Səninlə qalada azmı qalmışam, Murad? Bir yerdə düşmənə qarşı vuruşmuşuq. İndi nə olub?

– İndi... körpə var. Onu qoyub bir yerə gedə bilməzsən.

– Uşaqdan nigaran qalmayın. Bir də elə bilirəm ki, Mahnur səninlə getsə yaxşıdı. Abbasqulu xan axmaq adamdır. O, sənin qisasını Mahnurdan ala bilər.

Murad xeyli müddət Mahnurun gözlərinə baxdı. Orda həsrət, intizar, yalvarış gördü. Dodağı qaçdı:

– Yaxşı hazırlaş. Sübhdən yola çıxırıq.

Mahnur sevincək yerindən qalxdı. Məfrəcə sarı gedib Muradın yatması üçün yorğan-döşək çıxardı. Yatağı hazırlaya-hazırlaya üzünü içəri otağa tərəf tutdu:

– Mənim getdiyimi görən kimi o biri qızlar da bizə qoşulacaq. Onlara da bələdsən. Döyüş vaxtı hərəsi bir igidə arxadı...

* * *

...Gözü Xanvəlinin üzündə qalan Mədinə qorxa-qorxa soruşdu:

– Abbas Mirzədən nə xəbər var, Xanvəli?

– Abbas Mirzə yenə Naxçıvana qoşun çəkir.

– Deynən sən öl.

– Sən öldən keçib Mədinə.

– Urus burdan birdəfəlik çıxdı?

– İnanmıram. Nə bilim bəlkə də qayıtdı. Mən belə başa düşürəm ki, urus Naxçıvanı əldən verməz. Əh, bizim üstümüzdə qırğındı...

– Bizim niyə, Xanvəli? Biz kimə lazımıq ki? Naxçıvanın üstündə qırğındır.

– Sən onu deynən ki, bazarda unun məzənnəsi qalxır, ərzaq bahalaşır, Mədinə. Özü də bazarda gümüş puldan başqa tay özgə pullar işləmir.

Mədinə elə ah çəkdi ki, bu ahın alovu sanki Xanvəlini də bürüdü. Çevrilib arvadını məzəmmətlə süzdü:

– Aaaz, Mədinə niyə mən ölmüşəm ki, sən Kərəm kimi alışıb yandın?

– Allah eləməsin, Xanvəli. Bilmirəm Abbas Mirzə bu torpaqda nə görüb ki, əl çəkmir.

– Abbasqulu da hakimiyyətdən əl götürmür, nə olsun ki?

Mədinənin əli üzündə qaldı:

– Abbasqulu xan da qayıdır?

– Qayıdır.

– Qara günlərimiz başladı ki.

Mədinə ağlamsındı. Xanvəli də təsirlənib başını aşağı saldı:

– Kaş o günlər olaydı Mədinə. Qala qapılarını Abbas Mirzənin üzünə bağlayıb, sərbazlarına meydan oxuyurduq. Kalbalı xan qalada atın belində görünəndə elə bil bizə aslan gücü gəlirdi. Biz şir kimi savaşa atılmağa hazır idik. Hüseynqulu xanın xəyanəti kürəyimizi yerə vurdu.

– Biz Kalbalı xanın ağlına güvənib qorxu-zad bilməzdik Xanvəli.

– Bu tərəfdən də Şıxəli bəyi tutub qatdılar zindana.

– Sən Allah,

– Hə da bə.

– Bəs nə təhər oldu, Şıxəli xanı tutub apardılar Tehrana?

– Şıxəli xan ora özü öz ayağı ilə mərdi-mərdanə getdi Mədinə. Tehrandan Kalbalı xan məktub göndərdi ki, əgər gəlib özünü mənə yetirməsən məni qətlə yetirəcəklər.

– Şıxəli xan dayana bilməzdi...

– Hə da bə.

– Görən Tükəzban xanım bilirmi?

– Onu deyəmmərəm. Şıxəli xan da həmən dəqiqə atını minib sürdü Tehrana. Düzdü Kalbalı xana bir zad eliyə bilmədilər, amma namərdlər Şıxəli xanı tutub saldılar zindana.

Mədinə xeyli müddət dinib-danışmadan gözlərini məlul-müşkül, ağlamsınmış halda Xanvəlinin üzünə dikdi, sonra da qorxa-qorxa soruşdu:

– Onu öldürməzlər, Xanvəli?

Xanvəli müdrikcəsinə başını tərpətdi:

– Nə danışırsan aaaz Mədinə? Bir şey ki, urus padşahı özü Şıxəli xana məktub yazıb. Urus padşahının qorxusundan İran şahı Şıxəli xana zəfər yetirə bilməz.

– Demək heç zad eliyə bilməzllər.

– Nə danışırsan? Bəlkə hələ onu zindana atdığına görə İran şahı qorxu içindədir. Nədən ki, adlı-sanlı urusların hamısı Şıxəli xanı tanıyır.

– Şükür Allaha, Xanvəli.

– Papaq altında oğullar var, Mədinə.

– Biri də Şıxəli xandı.

– Hə da bə. Mədinə, uşaqları küçəyə çıxmağa qoyma. Abbas Mirzənin qoşunu bir də baxdın qəflətən qarğa-quzğun kimi doluşdu şəhərə. Uşaqlar atların ayaqları altında qalıb məhv olar.

– İraq olsun...

– Camaatın əl-ayağı işdən soyuyub. Şəhərdəki karvansaralar boşalıb.

Qəflətən Xanvəlinin qarayanız çöhrəsini gülüş bürüdü:

– Mədinə, gələndə yolda Sedanı gördüm. O özündən müştəbeh erməni qızını. İstədi salam verə, üzümü tutdum o yana...

– Niyə Xanvəli, yazıqdı, salamını alaydın. Davud öləndən...

– Gorbagor olandan.

– Hə, da Davud gorbagor olandan Seda qəm dəryasındadır. Üzü heç gülmür.

– Sən onu deynən ki, Davud öləndən elə bil top düşüb şeytan yuvasına. Ermənilər tay yığışmır ora. Amma vaxt vardı ki, bu yazıq bildiyin Seda xanımın əl-ayağı yerə dəymirdi. Feyzullah deyir ki, indi də ermənilər Naqapet gilə yığışırlar. Hərdən keçisaqqal keşiş də gəlir. Amma urusların getməyi erməniləri yaman məyus qoyub.

– Ay onları məyus ilanlar vursun – Mədinə ürəkdən qarğış elədi.

– Yaxşı mən getdim, amma sən qarğışından qalma. Qarğışı deyib qurtarandan sonra naharı hazırla, mən də qayıdıram. Deyirəm bir tay un alım. Baha da olsa. Ataq qalsın ağır günümüzə. Sabah başımıza nə gələcək, bilmirik. Heç olmasa təknəmiz boş qalmasın.

– Erməniləri görüm...

Xanvəli daha onun qarğışını eşitmədi. Qapını örtüb çıxdı.

* * *

Naqapet az qala Suzanı itələyib həyətə saldı:

– Get, get onlara, öyrən görək Hacı Əbülqasım da gedir, ya yox?

– Getməz, Naqapet-Suzan az qala yalvardı, Naqapetin güclü qollarını kənar eləyb bir də həyətə girmək istədi – Məni ora göndərmə.

– Niyə? Qonşuyuq da. Hacı Əbülqasımın atası Abbas kişi ilə mənim atam Markar, babası ilə mənim babam Ayrapet, ulu babası...

– Ölmüş babaları bura yığma.

– Hacı birdən gedər, Suzan xəbərimiz olmaz, o boyda mülk əlimizdən çıxar. Başqa bir erməni gəlib yiyələnər. Çünki Hacı Əbülqasımın mülkündə çox ermənінin gözü var.

– Getmək istəmirəm, Naqapet, məcbur eləmə.

– Qorxursan?

– Dəryadan qorxuram.

– Dünənki uşaqdan?

– Qorxuram ki, o, mənim gözümdən hər şeyi oxuya.

– Elə danış sorğu-sual apar ki, o, sənin onlara hansı niyyətlə getməyini başa düşməsin. Bir də eşitmədin, keşiş Danil nə dedi? Dedi ki, bizim işimizdə kişi-qadın söhbəti yoxdur. Hamı ümumi işə xidmət eləməlidi. Amma... Suzan mənim Hacı Əbülqasımın evində də, karvansarasında da gözüm var. Karvansaranı əlimizə keçirsək yaxşı pul vurarıq.

– O gün hələ eyyy uzaqdadır – Suzan əlini gözünün üstə qoyub uzaqlara baxdı.

– Ruslar qayıdıb gələn kimi ermənilər Naxçıvana sahib olacaq, Suzan.

– Yaxşı onda mən gedim – Suzan Hacı Əbülqasımın həyətinə tərəf baxıb köks ötürdü.

Naqapet onun qolundan tutub qulağına tərəf əyildi və pıçıldadı:

– Lazım gəlsə gözünün yaşını leysan kimi axıt.

Suzan cavab vermədən qorxaq addımlarla Hacı Əbülqasımın evinə tərəf getdi və darvazanın ağzında dayandı. Ətrafa baxa-baxa darvazanı ürəksiz döydü. İçəridə it hürüşü, sonra isə Dəryanın səsini eşitdi:

– Kimdi?

– Canım-gözüm qızım, mənəm Suzan xaladı.

Dərya qapını açdı. Suzan onun qaşqabaqlı sifətini, kəskin iti baxışını görən təki özünü itirdi. Amma irəli yeriyib gülümsədi, Dəryanı istiqanlılıqla qucaqlayıb bağrına basmaq istədi. Dərya nədənsə ürəyi götürmədiyi bu balacaboy, qonurgöz, qarayanız arvadın mehrindən xoşlanmadı, bir addım geri çəkildi. Suzan özünü onda qoymadı:

– Anan evdədi?

– Evdədi.

– Şəhərdə elə hadisələr baş verir ki... Tək qaldım, ürəyim partladı. Gəldim dərdləşim – Suzanın dili topuq vurdu, sanki bu qəfil gəlişi ilə özünə bəraət qazandırmaq istədi.

Həyətə çıxmış Səbihə xanım da Suzana elə mehr göstərmədi. Suzan bir də çəkinə-çəkinə dedi:

– Naqapet evdə yoxdu, sıxıntıdan ürəyim partladı. Dedim qonşuma baş çəkim, çoxdandı görmürəm.

– Naqapet ki, indicə həyətdə idi Suzan xala? – Dərya onu şübhə ilə süzdü. Suzan qızarıb sözü uzağa saldı:

– Ruslar burda olanda arxayınçılıq idi. İndi gündə bir xəbər eşidirik. Deyirlər ki, Abbas Mirzə qoşunu çəkir bura. O, heç kəsə rəhm etməyəcək, ucdantutma hamını qılıncdan keçirəcək.

– Bu haqda məlumat var, Suzan? – Səbihə sadəlövh bir təşvişlə soruşdu.

– Məlumat deyəndə ki, – Suzan dilini sürüdü – rusların acığını bizdən çıxacaq. Eşitməmisiz, ruslarla yaxın olduğuna görə Şıxəli xanı edam ediblər.

– Vay evimiz yıxıldı ki, – Səbihə xanım zəif bir fəryad qoparıb əllərini dizinə çırpdı.

– Bunu hardan bilirsən, Suzan xala? – Dəryanın da səsində təlaş duyuldu.

– İranda yaşayan ermənilər xəbər göndərib.

Suzanın çəkingən baxışları Dəryanın gözlərində qaldı. Verdiyi xəbərin necə ağrılı təşviş oyatdığını görüb bir az da ruhlandı:

– Şıxəli xanı edam edənlər hələ gör bizdən necə qisas alacaqlar. Buna görə də hamı köçüb gedir.

– Hara gedir? – Səbihə xanım sadəlövhlüklə soruşdu.

– Hamı başını götürüb qaçır, Səbihə xanım. Biz heç, barı balalarımızı sərbazların iti qılıncından qoruyaq. Deyirlər Nəzərəli xan, Əli xan, Kalbalı xanın qardaşı oğlu Kərim xan da gizlənib. Naqapet deyir ki, ağlı olan elə gecəykən şəhəri tərk edər. Bir də geri dönməz. Deyir sərbazlar varlı adamların malını-mülkünü əlindən alacaq. Tabe olmayanları elə yerindəcə qətlə yetirəcəklər. Naqapet bir də onu deyir ki, cavan qızları da yığıb əsir kimi İrana aparacaqlar. Gözəllərini Fətəli şahın hərəmxanasına verəcəklər, – gözaltı Dəryaya baxıb yenə sözünə davam etdi – Naqapet sizin xatirinizi çox istəyir, Səbihə xanım. Sizin üçün çox narahatdır. Gecəsi-gündüzü yoxdu Naqapetin. Deyirəm kaş o vaxt elə ərəb tacirinə qoşulub gedəydiz. Yarı yoldan qayıtmayaydız...

– Sən hardan bilirsən bizim ərəb tacirinə qoşulub getməyimizi?

– Bəs qonşu deyilik, Dərya?

Dərya istehza ilə dedi:

– O vaxt kaş Naqapetlə məsləhətləşərdik, Suzan xala.

Suzan ürəkləndi:

– Naqapet çox ağıllıdı, maşallah. O, sizə elə yol göstərərdi ki...

– Gedib bir də qayıtmazdıq? – Dəryanın nifrətəoxşar istehzası Suzana çatmadı. Əl-qolunu oynadaraq hərarətlə bir də dedi:

– Naqapetin ağlına bütün ermənilər heyrandır.

– İndi o, bizə nə məsləhət görür, biz də qaçaq, yoxsa gözləyək?

Dərya iti baxışını kirpik çalmadan neştər kimi Suzanın gözünə sancdı.

– Nə bilim? – Suzan dilini sürüdü, dolu ev-eşiyə, ləmələrdəki gümüş şamdanlara, xalı-xalçaya həsrətlə baxdı: «Bunların hələ karvansaraları da var. O karvansara Naqapetin yuxusundan çıxmır». Amma duyğularını biruzə vermədi – Naqapet sizə görə qorxu, əndişə keçirir. Naqapetin çox kövrək ürəyi var. Deyir ki, Suzan Şıxəli xanla Hacı Əbülqasımın yaxınlığı vardı. Qorxuram ki, Abbas Mirzə bunun hayıfını ondan çıxa.

– Onda Abbas Mirzə Hacı Əbülqasımdan ötəri gəlir? – Dəryanın gözlərində sanki iti şimşəklər çaxdı.

– Deməк Naqapet məsləhət görür ki, biz köçək? – Səbihə xanım da nə isə duymuş kimi sərt soruşdu.

– Naqapet sizə görə səhərə qədər kirpiklərini yuma bilmir. Eh, Naqapet çox insan adamdır. Hamının fikrini çəkə-çəkə gözümün qabağında şam kimi əriyir. Deyirəm Naqapet bu qədər incə düşüncəli, həssas ürəkli olma. Xasiyyətini dəyiş, axı biz sənsiz neyniyərik? – Suzan ağlamsındı. Amma nə qədər elədi gözündən bir damla yaş çıxara bilmədi.

Dərya bu arıq, çəlimsiz, lakin içi cin-şəyatinlə dolu arvada diqqətlə baxıb rişxəndlə güldü:

– Naqapet axır vaxtlar çox dəyişib, Suzan xala. Biz də elə hey bu barədə fikirləşirik. Ağır xəstə-zad olmasın...

Suzan özünü yığışdırdı. Kinli-kinli Dəryanı süzdü, sonra kinli baxışlarını zəif bir təbəssüm işığına bükdü: «Naqapetə nə olub

ki, qoşsan bir öküz arabasını çəkib aparar». Səbihə xanımın fikrə getdiyini görüb təkrar soruşdu:

– Hacı Əbülqasımın getmək fikri yoxdurmu, Səbihə xanım?

Dəryanın şübhəli baxışlarından bir nifrət alovu axıb keçdi:

– Fikrimiz var, Suzan xala.

Suzan sevinib canlandı:

– Nə vaxt gedirsiz Dəryacan?

– Gecəyarısı.

– Bəs ev-eşiyi kimə tapşırırsız?

– Atam sizi məsləhət görüb. Atam deyir ki, Naqapet çox vicdanlı ermənidir. O kimsənin bir çöpünə əyri baxmaz. Atam pulları, qızılları da sizə vermək fikrindədir. Suzan xala, mənim qızıllarımı ayrıca saxlarsız. Bunlar nadir brilliantlardır. Atamın ulu nənəsindən qalıb. Biz onları uzaq yola götürməyə qorxuruq.

Suzanın həyəcandan boğazı tutuldu. Gözləri işıqlanıb yaşla doldu. Əllərini sinəsinə qoyub səsindəki sevincə, üzündəki təbəssümə hüznlü bir ifadə verməyə çalışdı və hərarətlə dedi:

– Arxayın ol, Dəryacan. Naqapet kimi insan bu dünyaya gəlməyib Dəryacan. Naqapet həmişə keşişlərlə durub-oturar. Onlardan Allah kəlamlarını öyrənər, Əgər qayıdıb gəlsəniz...

Dəryanın səbri axıra qədər tablaşmadı. Sifəti pörtdü, hirshikkə birdən içərisini laxladıb, sanki tufan kimi Suzanın üzünə çırpıldı:

– Suzan xala hardan bilirsən ki, Şıxəli xan öldürülüb?

– Erməni keşişi...

– Keşiş sizə yanlış məlumat verib. Şıxəli xan da, Kalbalı xan da sağ-salamatdır. O ki, qaldı qaçmağımıza, Naxçıvandan heç kəs getmir. Lazım gəlsə biz düşmənlə döyüşəcəyik.

– A...aa...aaa,-qıza bax haaa...

– Naqapetə de ki, Hacı Əbülqasımın ocağına göz dikənin gözünü oyarıq.

– Naqapetin...

– Rədd ol, bir də ayağın bura dəyməsin...

Suzan dodaqaltı mızıldandı. Sanki içindəki şeytanlar bu dəfə gizlənə bilməyib gözlərinin içindən boy verdi. Qapıdan çıxanda Səbihə xanım onun əli toxunan stəkan-nəlbəkini götürüb arxasınca küçəyə atdı...

* * *

...Abbas Mirzənin ordusu üzü Naxçıvana tərəf irəliləyirdi. Süvarilərin ucu-bucağı görünmürdü. At nallarından qopan toz-duman ətrafı bürüyür, süvarilərin keçib gəldiyi yerlərdə naxışlı izlər qalırdı.

İrəlidə Abbas Mirzənin özü gedirdi. Bu dəfə Naxçıvanın üstə dirçəlmiş ümidlə, bir fateh ədası, inamı ilə gedirdi. İngiltərənin dəstəyi ata-oğula qol-qanad vermişdi. 1809-cu ildə bu qüdrətli dövlətlə bağladıqları müqavilə arzu olunan gələcək üçün təminat verəcəkdi: ingilislər İran ordusunu silah və ərzaqla təmin edəcək, ingilis mütəxəssislər möhkəm ordu yaratmaqda İran şahına kömək edəcək, üstəlik iki yüz min tümən yardım farsları yenidən ayağa qaldıracaqdı.

Ordunu Naxçıvana çəkəndə Fətəli şah şahzadəyə demişdi:

– Ruslar artıq Talış xanlığını işğal etdilər...

Fətəli şah təmkinlə sözünə davam etmişdi:

– Lakin bu bizi ruhdan salmamalıdır. Bizim arxamızda İngiltərə kimi böyük, qüdrətli bir dövlət dayanıb. Bizim əsas dayaq məntəqəmiz Naxçıvandır. Biz onu heç cürə ruslara güzəştə gedə bilmərik. Əgər Naxçıvanı versək müharibəni ruslara uduzmuş olarıq.

– Abbasqulu xan ümidlərimizi doğrulda bilmədi, şəhriyar. Mən onu birdəfəlik hakimiyyətdən uzaqlaşdırmaq niyyətindəyəm.

– Ora layiqli bir adam tapmaq lazımdır.

– Bu layiqli adam elə bilirəm ki, yenə də Kalbalı xandır, şəhriyar.

– O, Qacar sülaləsi ilə heç vaxt barışmadı. O, bizə düşməndir. O, satqındır... – Fətəli şah səsini qaldırdı.

Abbas Mirzə şahın sakitləşməyini gözlədi. Sonra da asta səslə dedi:

– Kalbalı xanın nüfuzundan istifadə edib biz orda çox iş görə bilərik, şəhriyar.

– O, məni qəzəbləndirib. O, bizi ruslara satıb. Mən yenə Abbasqulu xanı məsləhət bilərdim.

– Şəhriyar, Abbasqulu xanın Naxçıvanda nüfuzu yoxdur. Kimsə ona etimad göstərmir. Qorxuram ki, Abbasqulu xanı yenidən Naxçıvan taxtına çıxarmaqla biz özümüz də nəzərdən düşək və naxçıvanlıların qəzəbinə səbəb olaq.

Şah istehzayla güldü:

– Yəni kor xan gözlü adamdan o qədərmi nüfuzludur?

– Bəli, şəhriyar, onun bir işarəsi ilə bütün Naxçıvan əhli ayağa qalxıb silaha sarıla bilər. Ruslara qarşı döyüşə bilər. Bir də Kalbalı xanın mənsub olduğu Kəngərli tayfası Naxçıvanda böyük nüfuz sahibidir.

Fətəli şahın gözləri yol çəkirmiş kimi bir nöqtəyə zilləndi:

– Mən onu Tehran zindanından sağ buraxmaq niyyətində deyiləm. O, ki, qaldı Şıxəli xana... ruslarla müharibədə zəfər qazandıqdan sonra onun da taleyi mənim əlimdə olacaq.

– Şəhriyar, qeyd elədim ki, Naxçıvan taxtı boşdur...

– Abbasqulu xanı özünlə apar – Şah hökmlə sözünü deyib ayağa qalxdı, zəfərlə qayıtmağını arzu edirəm, vəliəhd.

...Abbas Mirzə indi qarmaqarışıq duyğular içində çevrilib onunla yanaşı atını sürən Abbasqulu xanı süzdü: «İnanmıram ki, Abbasqulu xan bu dəfə də taxtda duruş gətirə bilə. Yıxılır, yenə sürünə-sürünə taxta çıxmağa can atır. Biz də bu vecsiz adamdan əl çəkmirik. Atam onu nahaq Naxçıvana göndərir... nahaq...».

* * *

Abbas Mirzənin qoşunu şəhərə daxil olan kimi Naxçıvan rahatlığını itirib sanki nehrə kimi çalxandı. Hər ağızdan bir avaz gəldi. Səhih bir xəbər öyrənmək marağı ilə çayxanalar, məscidlər adamla doldu. Karvansarada yubanıb yolundan qalan müsafirlər tez-tələsik ticarət işlərini yarımçıq qoyub yola çıxmağa tələsdilər. Dükan bazar bağlandı. Camaat hadisələrin gedişatını gözlədi.

...Çayxanadan çıxan Xanvəli həyəcan içində özünü ancaq evinə yetirə bildi. Yeyin getdiyindən nəfəsi tıxanırdı. Qapını açıb, başını içəri uzatdı və tutula-tutula qışqırdı:

– Mədinə Abbasqulu xan yenə qayıdıb gəldi, təzədən taxtda əyləşdi.

Qapıya çıxan Mədinə əlini ağzına aparıb mat qaldı:

– Boy, lap elə keçib oturdu taxtda?

– Hə da bə.

– İndi Naxçıvanın xanı Abbasqulu xandı?

– Hə da bə.

– Xanvəli görən onun xanlığı çoxmu çəkər?

– Nə bilim, bunu yenə arvadlar bilər.

– Arvadlar münəccimdi, Xanvəli?

– Arvadlar münəccimdən çox bilir, Mədinə. Abbasqulu xanın gələcəyini birinci arvadlar danışmadımı? Bir də Abbasqulu xanın arxasında şah dayanıb.

– Bizim arxamızda da uca Tanrı. Bəs Abbas Mirzənin qoşunu harda yerləşdi, Xanvəli? Bayaqdan biz qoşunun şəhərə girməyinə tamaşa eləyirdik. At nallarının səsindən yer-göy titrəyirdi.

– Hara düşəcəkləri hələ bəlli deyil. Hər halda həmişəki yerlərində düşərgə salarlar. Deyirlər ki, Abbasqulu xan vergiləri artıracaq ki, qoşunu saxlaya bilsinlər.

– Xanvəli o bir tay unu samanlıqda gizlət... Bir də baxdıq ki, sərbazlar evləri taladılar.

– Düz deyirsən, Mədinə. Sərbazlar bizi boğaza yığacaq. Qara günlərimiz bundan belə başladı...

## 14

1810-cu il.

...Naxçıvan hüzn, səksəkə dolu həyatını yaşayırdı. Şər qarışan kimi küçələrdən əl-ayaq çəkilir, çıraqların sarımtıl işığında oyaq qalan gecələr əriyirdi. Küçələrdə sərbazların qorxusundan kimsə başını bayıra çıxarmırdı. Təkcə ümid küllənmiş ocaqda zəif köz kimi işarırdı...

* * *

İşrət məclisinə yubandığından oğlunun qarasınca deyindi. Məclisdə onu pərilər gözləyirdi... Lakin şah birdən-birə ürəyinin dərinliklərində oğluna qarşı bir şəfqət, intəhasız bir narahatlıq duydu: Abbas Mirzə Ağa Məhəmməd şah Qacarın vaxtından indiyədək daim at belində, döyüşlərdə, müharibələrdə olmuşdu. Fətəli şahın aludə olduğu işrət məclisləri onun döyüşkən ruhundan çox-çox uzaq idi. Şah işrət məclislərində qayğısını, borcunu unudanda Abbas Mirzə İran taxt-tacının taleyi barədə düşünürdü. Şah hərəmlərin sayını gündən-günə artıranda Abbas Mirzənin beynində işğalçılıq müharibələri, xəzinəni doldurmaq düşüncələri yer eləyirdi.

...İndi də Fətəli şah keyf məclisinə tələsirdi. Keyf məclisindən dişarıda – dünyanın o biri üzündə güllələr, toplar atılır, qılınclar sıyrılır, atlar kişnəyir, insanlar tələf olurdu. Dünyanın bu biri üzündə – keyf məclisinin içində isə Fətəli şah içdiyi şərabdan məst olur, gözləri yarıqapalı qanını qaynadan musiqini dinləyir,

yarıçılpaq rəqqasələrin naz-qəmzələrini sərxoş duyğular içində izləyirdi.

...Abbas Mirzəni qarşısında görəndə şah şirin xəyalətdən ayıldı. Ayağa qalxıb çoxdan görüşmədiyi oğlunu bağrına basdı. Üz-üzə oturdular. Abbas Mirzə müharibənin gedişi barədə məlumat verdi. Şah onu diqqətlə dinlədi, xeyli düşündü və dedi:

– Abbas Mirzə, məğlubiyyətdən heç də ruhdan düşmə. Bu dəfə sənə əlli min nəfər sərbaz verirəm. Sərbazlara ingilislər hərbi təlim keçib. Bu xüsusi bir ordudur. Mən inanıram ki, bu ordu ilə sən bu dəfə Qarabağı işğal edəcəksən. İngilislər dübarə bizə altı yüz min tümən yardım veriblər. Bunun müqabilində sərbazlarımız gərək yaxşı döyüşüb Qarabağ torpaqlarını İranın himayəsinə götürələr. Əgər bu dəfə də məğlub olsaq ruslar bizə üstün gəlib müharibəni udacaqlar.

– Şəhriyar, arxayın ol, sərbazlarımız Qarabağı ruslara güzəştə getməyəcək.

– Mən buna inanıram – şah yerindən qalxdı, salonda ağır-ağır gəzişdi, sonra Abbas Mirzənin qarşısında dayanıb iti baxışlarını onun gözlərinə dikdi:

– Mənim fikrim belədi ki, Qarabağı alan kimi Qafan, Gorus, Tativ və Bərgüşad əhalisini zorla İrana köçürək. Bu yerləri möhkəmlədək ki, ruslar bu torpaqlara yaxın düşə bilməsinlər.

– Mən istəmirəm ki, zorla köçürülmədə əhalini özümüzdən incik salaq, şəhriyar.

– Əgər əhalini köçürməsək, bu yerləri işğal etsək də onlar yenidən əlimizdən çıxacaq, Abbas Mirzə.

– Onda sizin dediyiniz kimi elərik, şəhriyar.

– İndi isə yubanmadan ordunu götür və Naxçıvana yola düş. Qarabağla müharibə üçün Naxçıvan əlverişli mövqedir. Abbasqulu xan xanlığı idarə eliyə bilirmi?

– Abbasqulu xanın orduya köməyi az dəyir. Vergiləri yığmaqda çətinlik çəkir. Mən sizə dedim ki, nüfuzdan düşmüş bu adamı Naxçıvanda istəmirlər. Elə bilirəm ki...

Şah onun sözünü yarıda kəsib etinasızlıqla əlini yellədi:

– Kalbalı xan hələlik zindanda qalsın...

* * *

Abbas Mirzənin süvariləri Qarabağ torpağına qədəm basan kimi sanki göydən yağan güllə yağmuruna düşdülər. Atlar şahə

qalxıb ürkdülər. Atların kişnərtisi, süvarilərin bağırtı səsləri toz-duman içində ətrafa yayıldı. Rus əsgərləri ilə qəflətən üz-üzə gələn sərbazlar çaşqınlıqdan özlərini itirdilər. General-mayor Xotumsevin iki batalyon əsgəri ilə Mehdiqulu xanın süvariləri İran sərbazlarının yolunu kəsdi. Təpələrin, qayaların arxasından atılan güllələr, toplar özünü itirmiş, haraya, hansı səmtə üz tutacağını bilməyən, gülləleri hara gəldi atan sərbazları aşağı-yuxarı qovurdu. Böyrüüstə yıxılıb çapalayan atlar, piyada qalmış sərbazlar, sahibini itirmiş başsız atlar, yaralıların bağırtısı... Məğlub olmuş Abbas Mirzə sağ qalmış sərbazlara geri çəkilməyi əmr etdi. Döyüşdən sınıq-salxaq çıxmış, ruhdan düşmüş İran sərbazları qələbə ümidi ilə gəldikləri yerləri məyusluqla tərk etdilər. Məğlubiyyətin acısı, ağrısı Abbas Mirzəni sarsıtdı, sanki ürəyinin başından yaraladı.

Ruslar döyüş meydanını tərk edən Abbas Mirzədən əl çəkmədi. Dolama dağ yollarında atlarını sürətlə çapan süvariləri general-mayor Lisanoviçin əsgərləri təqib edirdi. Dağ yollarında qovhaqov başlanmışdı. Hərdən atılan güllələr at nallarının səsini pozur, dağa-daşa dəyərək əks-səda verirdi. Rus əsgərlərinin atdığı güllələr tək-tək sərbazlara dəyirdi. Başsız qalmış atlar yüngülləşmiş halda irəli qaçırdı. Ruslar yaralı sərbazları götürməyə imkan vermirdi.

Dağ yollarında birdən-birə qar başladı. Sonra külək, yağış atların sürətini ləngitdi. Sisyana çatanda ruslar təqibdən əl çəkdilər. İqlimdən-iqlimə düşən əsgərləri dağların sərt havası yarı yolda qoydu. Sisyana çatanda rahat nəfəs aldılar. Abbas Mirzə dincəlmək əmri verdi.

Sağ qalmış sərbazlar özlərini Naxçıvan qalasına yetirdilər. 1811-ci lin payızında ruslarla iranlılar arasında gedən bu döyüşdə yenə də iranlılar məğlub oldu...

***

...Abbasqulu xan başının adamları ilə Xəlilli kəndinə çatanda günəş dağları aşıb uzaq üfüqdə gözqamaşdıran parlaq narıncı rəngə çevrildi.

Uzaq yol gəlib yorulmuş Abbasqulu xan kəndin içindəki bulaq başında xeyli qız-gəlin görüb susadığını hiss elədi, qurumuş dodaqlarını islatdı. Atlılar aralıda dayandılar. Abbasqulu xan irəli getdi. Qız-gəlin çalsaqqal kişinin atını bulağa tərəf sürdüyünü gö-

rüb yol verdilər. Təkcə bulağın gözündən sənəyini söykəyib su dolduran qırmızı yanaqlı, uzun hörüklü qız geri çəkilmədi. Səhəng doldu, qız ehmalca sənəyi özünə tərəf çəkib başını qaldırdı. Abbasqulu xan sanki qaynar ala gözlərin tilsiminə düşdü. Gözünün içində çaxan qığılcım ürəyinin içinə od saldı. Bu oddan elə bil içi alışıb yandı. Gözünü qızın gözündən çəkmədən dəyişilmiş, titrək səslə dedi:

– Ay qız, bir parç su ver. Ciyərim alışıb yandı.

Qız hörüklərini kürəyinə atıb yaylığını alnına tərəf çəkdi, sanki bununla da üzünə zillənən həris baxışların alovundan özünü qorumaq istədi.

Abbasqulu xan buz kimi suyu başına çəkdi. Sanki içində alışıb yanan alov bu sərinlikdən səngidi. Əlinin arxası ilə dodaqlarını silib parçı qıza uzatdı, sonra həmin həris baxışlarla qızı başdan-ayağa süzdü. Xəfif pıçıltı meh kimi qızların arasında dolaşdı:

– Bunlar kimdisə böyük adamlardı...

– Hamısının ağası deyəsən su istəyən çalsaqqal kişidi...

– Çalsaqqal olsa da gözdən xarabdır.

– Gözünü Ceyrandan çəkmir. Ceyrana bələd deyil haa. Bilmir ki, xoşuna gəlməyən söz desə səhəngi çırpacaq təpəsinə...

Ceyran səhəngi götürüb bulaqdan çəkilmək istədi. Abbasqulu xan atını irəli sürüb onun qabağını kəsdi:

– Adın nədi qız?

– Ceyran.

– Kimin qızısan?

– Rəncbər Kərimin.

– Məni tanıdınmı?

– Yox, sən kimsən ki?

– Mən Abbasqulu xan.

– Nə olar, Abbasqulu xan olanda, çəkil yolumdan.

– Məni tanımadın, qız?..

– Hardan tanıyım? – Ceyranın tükənmiş səbri sifətinə ciddilik, sərtlik verdi. Qızın davakar ötkəmliyi Abbasqulu xanın heysiyyatına toxundu. Baxışlarındakı heyranlığı, gözlərindəki hərisliyi birdən sazaq vurdu, çevrilib onu kənarda gözləyən atlılara baxdı, üzünü təzədən qıza çevirdi:

– Ay qız sən Naxçıvan xanı Abbasqulu xanın qarşısında hansı cürətlə belə danışırsan?

Ceyran bir an çaşqınlıqla gözlərini döydü, sonra göyçək sifətinə istehzalı bir gülüşün kölgəsi düşdü:

– Mən hardan bilim sən Abbasqulu xansan? Naxçıvan xanı biz Kalbalı xanı bilirik. Onu tanıyırıq.

Qız həyəcanı biruzə vermədən səhəngi götürüb xandan aralanmaq istədi. Abbasqulu xanın içinə girmiş şeytan yavaş-yavaş onu yoldan çıxarmağa başlayırdı:

" – Bu qız az qala Mahnurun özüdü. Neçə illər Mahnuru ürəyimdə yaşatdım. Amma Mahnura əlim yetmədi. İndi bu qız yerdənmi çıxdı, göydənmi düşdü, məni ovsuna salıb ürəyimi çaldı..."

Abbasqulu xan təkrar atı qızın arxasınca sürüb yolunu kəsdi. Ceyranı hürkütməmək üçün mülayim bir ifadə ilə soruşdu:

– Bu il atan çəltik sahələrindən yaxşı məhsul götürə bildimi?

Ceyran səhəngi yerə qoyub əllərini belinə vuraraq xanın qarşısında şax dayandı, davakar bir görkəm aldı:

– Onu məndən yox, atamdan soruş.

– Atan vergini ödəyə biləcəkmi? Bu adamlar vergi yığmağa gəlib.

– Bəs deyirdilər Kalbalı xan qayıdacaq? – qızın gözlərindəki nifrət Abbasqulu xanı od kimi yandırıb tökdü:

– Atan vergini ödəyə bilməsə cəzası ağır olacaq.

– Hər gün dua eliyirik ki, Kalbalı xan qayıtsın.

– İran sərbazları heç kəsə rəhm eləmir – qısqanclıq duyğusu ürəyinin başına neştər kimi sancıldı, Kalbalı xanın adını çəkən bu göyçək qıza bəslədiyi qısqanclıq qarışıq kin duyğusu Abbasqulu xanı alov kimi bürüdü. Hirs-hikkə içində dişlərini qıcadı:

– Sizin arxanızda mən varam, qüdrətli Abbasqulu xan. İran şahı Fətəli şahın mənə xüsusi etimadı var – əlini sinəsinə vurdu, içindəki şeytan isə onu rahat buraxmadı: "Dəli şeytan deyir ki, bu qızı götür bas atın tərkinə, çıx get buralardan... Yox, bu ağılsız hərəkətim Abbas Mirzəni qəzəbləndirər. Bəs qız... Necə olsun?.. Mahnur kimi Ceyran da əlimdən çıxacaq...".

Atının başını adamlarına tərəf çevirdi. Qız-gəlin bulaq başından pərən-pərən düşmüşdü. Yenidən Ceyrana tərəf çevrildi və qızı yerində görmədi. Quduz canavar tək öz içində qıyya çəkdi: "Rəncbər qızı məni saya salmadı. Kalbalı xanı, kor xanı üzümə çəkdi..."

Abbasqulu xan qəzəb içində boğularaq atını kəndin içinə sürdü. Süvarilər də ona qoşuldu.

...Xəlilli kəndi o gün ən dəhşətli gününü yaşadı. Abbasqulu xan hər yerə baş vurdu. Adamları Ceyranı hər yerdə axtardılar. Qız yoxa çıxmışdı.

Abbasqulu xan acığını Xəlillidən çıxdı. O gün soyuldu, talandı Xəlilli.

Vergi yığanlar Abbasqulu xanın əmri ilə dağıtmamış ocaq, ağlatmamış göz, sındırmamış ürək qoymadılar.

Rəncbər Kərimin evindən isə yalnız yanmış kösövlər qaldı...

* * *

Abbas Mirzə xan sarayının qarşısındakı izdihamı görəndə çaşıb qaldı. Vəliəhd atdan düşüb başının adamları ilə saraya girdi. Abbasqulu xan istirahət otağında dincəlirdi. Abbas Mirzənin hüzuruna gələndə şişmiş gözləri yuxuluydu. Abbas Mirzəni heyrət aldı: "Sarayın qarşısında izdiham qan-qan deyir. Bu yatıbb? Məni də qarşılamır...". Abbas Mirzə qəzəbindən boğularaq soruşdu:

– Rəncbərlər, rəiyyətlər xan sarayının qarşısına toplanıb. Xəbərin varmı?

Abbasqulu xan başını aşağı saldı:

– Xəbərim var – etinasızlıqla əlini yelləyib vəliəhdi sakitləşdirmək istədi:

– Onlar qanmaz rəncbərlərdir.

– Bu qanmaz rəncbərlərin nə istədiyini bilirsənmi, Abbasqulu xan?

– Bilirəm.

– Nədir istədikləri?

– Onlar sizə məndən şikayətə gəliblər, vəliəhd.

– Şikayətə? – Abbas Mirzə qaşlarını çatdı – sərbazlara ki, əmr vermişdim, kimsəyə dəyib toxunmasınlar. Onlar mənim əmrimi pozmuşlar?

– Xeyr vəliəhd. Mənim adamlarım vergi yığarkən narazı olanları cəzalandırdı. Nadir şahın dövründə haqlı olaraq vergi verməyənlərin gözlərini çıxarardılar.

– Biz camaatı özümüzdən narazı salmamalıyıq. Mən ki, bu barədə sənə demişdim.

Bu anda sarayın qarşısında səs-küy qalxdı, sonra səs güclənərək dalğa-dalğa sarayın yerləşdiyi dikdən aşağılara getdi, sanki Arazın üstündə qanad çaldı:

– Kal...balı xanı istəyirik. Kal...balı xanı...

Bu səbri daşan, Naxçıvanın ürəyindən, qəlbindən qopan üsyan hayqırtısı idi. Adamlar sanki könüllərində düyünlənib qalmış ağrıya üstün gələrək bükülən dizləri üstə qalxır, əyilmiş qəddini düzəldir, yumruğunu düyünləyərək bu torpaqda yaşamağa haqqı olan qeyrətli oğlunu tələb edirdi.

Səslər Abbasqulu xanı qəzəbləndirdi. Gömgöy göyərərək dodaqlarını bir-birinə sıxdı. Bu coşan, kükrəyən insanları qanlarına qəltan etmək üçün silahlı sərbazlarını çağırmaq istədi.

Vəliəhd başını bulayıb üzünü çevirdi:

– Sən yenə etimadı doğrultmadın Abbasqulu xan. Dəfələrlə xanlığın başına keçdin, amma...

Abbasqulu xanın bənizi ağardı, dili topuq çaldı, iriləşmiş gözlərində qorxu kölgə kimi süründü:

– Vəliəhd mən...

Vəliəhd əlinin işarəsi ilə onun sözünü kəsdi, sonra da qəzəbini cilovlaya bilmədi, sərt baxışlarla onu başdan-ayağa süzdü, təəssüflə dedi:

– Sən bu taxta heç vaxt layiq olmadın Abbasqulu xan. Sənin topladığın sərvət, gördüyün xəlvət işlər barədə mənim məlumatım var. Biz səni hakimiyyətə gətirməkdə səhv elədik...

...Xan sarayının geniş həyətindən isə səslər hələ də dalğa-dalğa yayılır, bu səslər sanki yumruq kimi Abbasqulu xanın başına çırpılır, güllə kimi üstünə yağırdı.

* * *

1812-ci il.

Zindanın qıfılı şaqqıltı ilə açıldı. Kalbalı xan başını qapıya tərəf çevirmədən soruşdu:

– Yenə nə xəbərlə gəlmisən, ağa?

Zindanbaşının boğuq səsində bir sevinc işartısı duyuldu:

– Bu dəfə sənə müjdə xəbəri verəcəyəm.

Zindanbaşı Kalbalı xanın qarşısında dayanıb başını azca sinəsinə əydi. Bu əyilməz, mərdanə insana ürəyində bəslədiyi gizli ehtiram hissini sanki bununla da biruzə vermək istədi. Onun

bu iltifatı sövqi-təbii ilə Kalbalı xana çatdı və o, uzandığı yerdən azca dikəldi, açıqca həsrət yanğısı duyulan titrək səslə soruşdu:

– Şıxəli xan gəlib?

«Azadlığa çıxacağını soruşmur, oğlundan nigarandır...» – zindanbaşının heyrət duyğusu məyusluğa çevrildi: «bəlkə azadlığa çıxacağına inanmır, ona görə oğlunu soruşdu?». Bu hissin təsiri ilə də həmin həyəcanlı səslə müjdə xəbəri verdi:

– Yox xan. Səni azadlığa buraxırlar.

– Buraxırlar? Doğrudan? – Kalbalı xanın səsi titrədi. Sonra bu həyəcan sanki qara qızdırma kimi bütün vücudunu bürüdü. Amma Kalbalı xan birdən özünü yığışdırdı, zəifliyini, acizliyini biruzə verməmək, dəyanətini axıra qədər hifz etmək üçün boğazına toplaşmış qəhəri acı loxma kimi uddu, içində qəflətən tüğyana gələn duyğu qasırğasının ötüb keçməsini gözlədi. Yaxşı ki, göz çuxurundakı çeşmə qurumuşdu. Yaxşı ki... Kalbalı xan əlini saqqalına çəkib qımışdı, dərindən sinədolusu nəfəs aldı:

– Demək ağa, ölmədik çıxdıq azadlığa.

– Çıxdın. Şükürlər olsun tanrıya.

– Amma mən sənin adını bilmədim, ağa. Üzünü görməsəm də... Sən yaxşı adamsan. Məhbusların üstə hökmüran olanlar sinələrində ürək əvəzinə daş parçası gəzdirirlər. Sən onlara oxşamırsan.

– Ürəyində daş gəzdirənlər daş ağırlıqda da günah qazanırlar. Adım Mehdidir, ağa.

– Ağa Mehdi...

– Olsun elə.

– Bəs bilmədin arxamca kim gəlib? Məni Naxçıvana kim aparacaq?

– Oğlun Şıxəli xan.

Şıxəli xanın adını eşidən təki qəlbinə dolmuş hüznlü bir sevincin dalğasına Kalbalı xan tab gətirə bilmədi. Dodaqları əsdi, ürəyi elə şiddətlə çırpındı ki, zindanbaşının əlindən tutdu. Sanki içindən gələn sözlər, kəlmələri dodağında iflic vurdu.

– Narahat olma ağa-zindanbaşı əlini onun çiyninə qoydu – indi oğlunla görüşəcəksən. Özünü topla. Səni bu halda görsə övladın xiffət elər. Bu qədər zindanda qaldın heç belə qəhr olmadın.

Kalbalı xan əlini onun əlinin üstündən çəkdi. Sanki zindanbaşının tənbehindən utanıb qamətini düzəltdi. Əlləri ilə yatağına,

məbhəsin divarlarına toxundu, bununla da elə bil bir insan kimi qoxusuna adət etdiyi hər şeyə – məhbus otağına səssizcə vida etdi.

...Zindanbaşının qolundan tutub otağa girəndə Şıxəli xan ayağa qalxdı:

– Ata...

– Oğul...

Kalbalı xan bu doğma səsdən müvazinətini saxlaya bilmədi, dizləri qatlandı. Amma titrək əllərini irəli uzadıb oğlunu sanki bükub bürmələyib ürəyinin içinə, bağrının başına basmağa tələsdi. Şıxəli xan onu qucaqlayıb üzünü enli sinəsində gizlətdi. Kalbalı xanın titrəyən əlləri oğlunun boynunda, çiyinlərində, kürəyində gəzdi. Əlini saxladı, sonra da ağrılı, hüznlü bir səslə dedi:

– Çox arıqlamısan, Şıxəli.

Şıxəli xan başını onun sinəsindən çəkmədən dedi:

– Təki can sağ olsun, ata.

– Naxçıvandan nə vaxt çıxmısan, Şıxəli?

Şıxəli xan gülümsəyib səssizcə cavab verdi: «Zindandan elə indicə buraxılmışam» – atasını intizarda saxlamadı, asta səslə gülə-gülə dedi: Naxçıvandan buraya xeyli yoldu, ata, nə bilim iki-üç gün... olar.

– Ehsan xan hardadı?

– Tehranda, şah qoşununda xidmət eləyir. Hərbi rütbə də veriblər ona – polkovnikdi. Amma çoxdandı görüşmürük.

– Tükəzban xanım yaxşıdımı?

– «Anamdan ötəri burnumun ucu göynəyir. Səni qucaqlayanda burnuma anamın da qoxusu gəldi» – Tükəzban xanım yolunu gözləyir, ata.

– Naxçıvanda vəziyyət necədir? Farsların əlindədi, yoxsa rusların?

– «Mən hardan bilim? İkimiz də zindanda dustaq idi» – gedib görərsən, ata.

Kalbalı xan darıxdı, dərindən nəfəs aldı, sanki alışdığı qaranlığın içində işıqlı nə vardısa bircə anda hamısını üfürüb söndürdü:

– Mümkün olsa elə indicə, bu saat çıxaq, Şıxəli. Mən yaman darıxdım.

– Bizə üç gün dincəlmək izni veriblər, ata.

– Yox, yox, elə indi çıxaq. Dustaqxanada neçə illərdir ki, dincəlirəm. Bu yerlərin havası məni yaman sıxdı, Şıxəli. Zindanda

ölməkdən çox qorxurdum. Çünki özümlə bir ovuc torpaq götürməmişdim. Şükür tanrıya, məni vətən torpağı ilə qovuşduracaq.

Kalbalı xan tez-tez kirpik çala-çala əllərini göyə açdı, şükranlıq duyğusu içində köks ötürüb rahatlıqla nəfəs aldı. Sonra da Şıxəli xanın qolundan tutdu. Ona elə gəldi ki, bu doğma təmasdan ürəyinə tükənməz qüvvət gəldi. Qaranlıq dünyasında işıq yandı və zehninə süzülən nurdan gumrahlaşdı, qamətini şax saxlayıb başını dik tutdu. Addımlarını yerə möhkəm basdı...

* * *

– Bu gün Kalbalı xan Naxçıvana gedir – Abbas Mirzə bildirdi.

Fətəli şah gözlərini pəncərənin rəngli şüşələrindən çəkmədən əsəbi cavab verdi:

– Mən onu ömürlük zindan dustağı edəcəkdim. Lakin sənin xahişinlə açıb buraxdım. Üstəlik Şıxəli xanı da. Sən dediyindən əl çəkməyib Kalbalı xanı yenidən Naxçıvan taxtına oturtmaq istəyirsən.

– Abbasqulu xan ümidlərimizi yenə boşa çıxardı. Bu adam özünə sərvət toplamaqdan savayı başqa bir iş görmür. Kalbalı xanın Naxçıvan əhli arasında böyük nüfuzu var. Üstəlik Kəngərlilər tayfası da qüdrətli tayfa sayılır. Bu tayfa Kalbalı xanın arxasında dayanıb. Biz onu hakimiyyətə yenidən gətirməklə bu tayfanın etimadını qazanacaq, həm də Naxçıvanı əldə saxlayacağıq.

– Xanla sənin bu barədə söhbətin oldumu?

– Xanla bərabər Naxçıvana mənim də adamlarım gedir.

Fətəli şah qiymətli daş-qaş taxılmış əllərini arxasında çarpazlayaraq salonda gəzişdi. Sanki içəridə Abbas Mirzənin olduğunu unutmuş kimi öz-özünə söyləndi:

– İngilislər və fransızlar Rusiya ilə müharibədə uğursuzluğa görə bizi tənbeh etdilər. Haqları da vardı. Çünki İngiltərə ordumuzu yenidən qurmaq üçün bizə hərbi mütəxəssislərini göndərdi. Üstəlik alacağımız altı yüz min tüməni – üç illik yardım pulunu birdəfəlik ödədi. Lakin biz bütün bunlardan istifadə edə bilməyib ruslara məğlub olduq. Qarabağ, Gəncə, Talış xanlıqlarını əlimizdən çıxardıq...

Abbas Mirzə istehza ilə dedi:

– İndi fransızlar özləri Rusiya ilə müharibə aparır. Lakin mən özündən müştəbeh olan Napaleon Bonapartın rusları məğlub edəcəyinə inanmıram.

Fətəli şahın baxışları sərtləşdi:

– Nahaq sevinirsən. Napaleonun məğlubiyyəti bizim məğlubiyyətimizdir.

Abbas Mirzə ayağa qalxdı:

– Allaha dua eliyək ki, fransızlar zəfər qazansın.

– İnşallah. Lakin sən Kalbalı xana çox da etibar eləmə. Neçə illər qaldığı zindan onun Qacar sülaləsinə nifrətini artırmış olar. O, bəlkə də fürsət düşən kimi yenə rusların tərəfinə keçəcək.

– Oldu, şəhriyar. Mənim adamlarım onu gözdən buraxmayacaq. – Abbas Mirzə sağollaşıb çıxdı...

* * *

Xanvəli özünü hövlanak həyətə saldı. Dərindən nəfəs alıb həyəcan içində arvadını səslədi:

– Mədinə, Mədinə...

Mədinə qapıdan boylandı. Xanvəlinin pörtmüş sifətini, həyəcandan iriləşmiş gözlərini görəndə dizləri əsdi. Elə durduğu yerdəcə ikiqat olub əllərini dizlərinə çırpdı:

– Müharibə başladı, Xanvəli?

– Aaaz müharibə-zad yoxdu, qorxma.

– Bəs niyə bu gündəsən, Xanvəli?

– Nə gündəyəm aaz, sevinirəm, Kalbalı xan gəlir ey, Kalbalı xan, sən öl.

Mədinə özünü itirdi, bilmədi şaqqanaq çəkib gülsün, yoxsa hönkürüb ağlasın. Dəyişilmiş səslə soruşdu:

– Düz sözündü, Xanvəli?

– Aaaz şəhərdə toy-bayramdır. Bu xəbəri eşidən kimi camaat daha dayanmayıb Araza üz tutur. Yollar eyzən atla, ulaqla, piyada gedən adamla doludur.

Mədinə içini çəkib yaşarmış gözlərini sildi:

– Xəbəri eşidib mən də bihal oldum, Xanvəli.

– Gəldim deyəm yığış biz də gedək Kalbalı xanın pişvazına.

– Toy paltarımı geyinim də Xanvəli.

– Ay canım nə geyinirsən geyin, təki tez ol, yubanma – Xanvəli səbirsiz dedi – Zənən xeylağı ilə bayıra çıxmayasan.

Mədinə ona məhəl qoymadı:

– Kalbalı xanın pişvazına çoxmu adam gedir, Xanvəli?
– Bütün şəhər, Mədinə.
Mədinə əllərini göyə açdı:
– Şükür Xudaya, ölmədik Kalbalı xanın sağ və salamat Naxçıvana qayıtdığını gördük – sonra gözlərindən sevinc yağışı Xanvəlidən təkrar soruşdu:
– Şıxəli xan da gəlir?
– O, da gəlir. At tapmasaq Araz qırağına necə gedək, Mədinə?
– Piyada gedək Xanvəli. Allaha şükür canımız sağ...
– Onda çörəkdən-sudan götür.
– Hə da bə.
Mədinə sandıqda püləyə-püləyə saxladığı qırçınlı tumanını, qolları büzməli qanovuzdan tikilmiş qoftasını götürüb üstünə tutdu, bayırda Xanvəlinin səsini eşidincə geyinib hazır oldu, qapqara saçlarına sığal çəkib evdən çıxdı. Xanvəli gözünü Mədinədən çəkə bilmədi: «Vallah gözəllikdə tayı-bərabəri yoxdu bu qızın. Gərək deyəydim bu paltarı geyinmə. Allah eləməsin İran sərbazlarına rast gələk. Lənət şeytana... Mədinə də toy paltarını geyinməyə yer tapdı..."
...Göylər sanki qıpqırmızı günəş işığı içindəydi. Bu günəş zərrələrə bölünüb sis-duman içində olan ürəklərin içinə dolmuşdu. Darvazalar açılır, sevincə bürünmüş insan seli sanki küçələrdən axıb gedirdi.
Çox keçmədi ki, Şəkərabad körpüsündən adlayan süvarilər və piyadalar Araz qırağına üz tutdu.
Şəhər görünməmiş bir həyəcan, sevinc, intizar içində çırpınırdı.

* * *

...Kalbalı xan gedəli elə bil Təbriz yollarında tikanlar göyərmişdi. İndi bu göyərən tikanlar sovulub tökülürdü. Sanki gözəgörünməyən çiçəklər bitirirdi Təbriz yolları. Gözlər həsrətdə, ürəklər intizarda, ağızlar duada, əllər tanrının dərgahına uzalı... tikanlar biçilir, yerinə çiçəklər səpilirdi.
Səbrin daş ovcunda vaxt ərimək bilmirdi.
Axır ki, uzaqda atlılar göründü. Araz qırağındakı izdiham dalğalandı. Tükləri ürpədən uğultu səsindən sanki Araz da diksinib ləpələndi. Sevinc izdihamın içindən tufan kimi kükrədi, səsləri, harayları, hayqırışları alıb külək yaylığına bükdü və o taya yetirdi.

Bu səsi Kalbalı xan da eşitdi. Atın cilovunu çəkib saxladı. Şıxəli xan atını onunla yanaşı sürdü. Həyəcandan boğula-boğula dedi:

– Naxçıvan əhli səni qarşılayır, ata.

– Səslərini eşidirəm – Kalbalı xanın dodağı əsdi:– Körpünü piyada keçirəm. Ayağımın altında torpağımın istisini, gücünü hiss eləmək istəyirəm, Şıxəli.

Körpüyə yaxınlaşanda Kalbalı xan atdan düşdü. Şıxəli xan atasının qolundan tutdu. Kalbalı xan başını dik tutaraq gümrah addımlarla körpüdən keçib Naxçıvan torpağına qədəm qoydu. İnsan seli sanki bir anlıq hərəkətsiz dayandı. Kalbalı xan kimsə ilə görüşmədən dizini yerə vurub alnını möhür əvəzi torpağın üstə qoydu. Dodaqları kimsənin eşidə bilməyəcəyi sözləri pıçıldadı və Kalbalı xana elə gəldi ki, ürəyinin özəyində, qəlbinin gözəgörünməyən işığında yoğrulub bişən sözləri tanrı özü də eşitdi. Başını qaldıranda isə sanki baş vermiş möcüzədən Kalbalı xan özü də heyrətə gəldi. Göz çuxurundakı qurumuş çeşmədən yaş axırdı...

* * *

1813-cü ilin payızı...

Günortadan keçmiş qalada bir atlı göründü o, asta-asta atını şəhərin içinə sürdü və dördkünc bazara girdi. Dükan-bazarda xeyli adam vardı. Atlı bazarın düz ortasında dayandı, əlini ağzına tutub ucadan qışqırdı:

– Camaat, agah olun, ruslarla farsların müharibəsi qurtardı.

Atlı bunu deyib daha dayanmadı, atını sürüb Hacı Əbülqasımın karvansarasının arxasında yox oldu.

Xəbər sanki bir göz qırpımında şəhərə yayıldı. Adamları evlərindən, məscidlərdən, çayxanalardan, dükan-bazardan çıxarıb xan sarayının qarşısına yığdı. İntizar, nigarançılıq bir anda rahatlığı pozub, onları əndişəyə saldı: "Naxçıvan ruslara qalacaq, yoxsa farslara?".

...Xanvəli Feyzullahı xan sarayının qabağında görəndə çiçəyi çırtladı, qaşlarının düyünü açılıb gözləri sevinclə parıldadı:

– Neçə vaxtdı hardasan Feyzullah? Dedim bəlkə sən də köçüb getmisən?

– Biz dar gündə vətəni atanlardan deyilik.

– Çayxanaya da gəlmirdin...

– Getmişdim Ərəbistana.

– Deynən sən öl. Ərəblərin içində nə işin vardı ə?

– Dedim görüm onlar da bizim kimi vurhavurdadı? Gördüm yox, sakitlikdir, qayıdıb gəldim.

– Dolama görək.

– Bir tacirlə iş qururdum. Ordubad ipəyi aparmışdım.

– Allah xeyirin versin. Eşitdiyin xəbərdən ağlın nə kəsir, Feyzullah?

– Heç zad. Urus Naxçıvanı qurbanlıq quzu kimi verir İrana. İran da urusa deyir "malades". Yəni çox sağ ol.

– Deyirlər Şıxəli xan da gedib Qarabağa – Xanvəli ah çəkdi, bir xeyli Feyzullahın üzünə baxdı, sonra titrək səslə dedi:

– Ələmşah da getdi...

Feyzullah qeyzləndi:

– İşi-gücü qurtarıb Ələmşahın. Deynən qoca adamsan otur yerində. Xanvəli təəccüblə soruşdu:

– Niyə Ələmşah hara gedib ki, Feyzullah?

– Demirsən Qarabağa?

– Əşi, Ələmşah rəhmətə gedib.

Feyzullahı gülmək tutdu, sonra özünü yığışdırıb ciddiləşdi "Allah rəhmət eləsin" dedi. Yan-yörədə durmuş kişilər maraqlandılar:

– Hansı Ələmşahdı?

– Boyaqçı Ələmşah.

Yaşlı kişi əlini yellədi:

– Əşi o şah Abbası bələkdə görüb.

Feyzullah söz atdı:

– Nadiri də taxtda. Nadirdən çox yanıqlıydı. Bu işıqlı dünyaya tək gözlə baxdı Ələmşah. Səbəbi olub ki, rəhmətə gedib, yoxsa o, çox yaşayardı.

Xanvəli burnunu möhkəm sildi, içini çəkdi:

– Amma nigaran idi ki, farsla urusun müharibəsi necə qurtaracaq?

Bu anda xan sarayının qarşısındakı izdiham birdən hərəkətə gəldi. Sarayın külafirəngisində Kalbalı xan göründü. Onun arxasında Əli xan, Nəzərəli xan, Kərim xan dayandılar.

Kalbalı xan əlini yuxarı qaldırdı və eyni anda uğultu səsləri kəsildi... Onun gümrah və qətiyyətli səsi adamların içindəki qorxu və təlaşı sıxıb çıxardı, gözlərdə ümidi qov kimi alışdırıb yandırdı:

– Mənim üçün əziz olan naxçıvanlılar. Taleyimiz həll olunan bir vaxtda mən sizinləyəm. İki böyük dövlət–Rusiya və İran əsrin əvvəllərindən savaşdadır. Ruslar və farslar onlara aid olmayan Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana sahib olmaq üçün bir-birinin qanını tökür. Aldığımız məlumata görə savaş artıq qurtarıb. İran şahı ilə Rus imperatoru axır ki, bu savaşdan yorulub razılığa gəliblər. Onlar Qarabağın Gülüstan kəndində barışığa imza atacaqlar. Biz hansı tərəfin himayəsi altında qalacağıq, bilmirəm. Sizə bircə onu deyə bilərəm ki, ürəkli olun, biz lazım gəlsə öz torpağımız uğrunda vuruşacağıq. Çünki bu torpaqda babalarımızın ruhu dolaşır. Kimsə burada at oynatmayacaq Öz evimizi, öz ocağımızı, torpağımızı qoruyacağıq. Vaxt gələcək ki, bizim nəvələrimiz, nəticələrimiz bu torpaqda azad-asudə yaşayacaqlar. Onda nə rus olacaq, nə də fars. Bunu mən – Kalbalı xan sizə deyir.

Kalbalı xanın hər sözü, kəlməsi sanki adamların içində əzilən, qəhr olan mərdanə duyğuları tərpətdi, babaların döyüşkən ruhunu onlara qaytardı və bununla da sanki şəhərin başı üstə sıxlaşan qara buludları bir şimşək qılıncı ilə vurub dağıtdı...

5

Pauliççidən sonra Qafqaz qoşunları ali baş komandan yerini Nikolay Fyodoroviç Rtişşev tutdu. İyirmi doqquz yaşlı bu cavan general Rusiyanın apardığı müharibələrdə iştirak etmiş və göstərdiyi şücaətə, ən başlıcası sərtlik və qəddarlığına görə çarın diqqətini cəlb etmişdi. O, general-feldmarşal Çernışevin adyutantı işləmiş, Rusiyanın siyasətini həyata keçirəcək qədər təcrübəli və mükəmməl bir hərbiçi olmuşdu.

* * *

...General Rtişşev pəncərənin qarşısında dayanıb Tiflisin gözəlliyini seyr edirdi. Əslində isə gözlər baxır, düşüncələr onu imperator sarayına çəkirdi. Rusiyanın sərhədlərini genişləndirmək üçün gördüyü tədbirlər sarayda hələ ki, razılıqla qarşılanırdı. General ilk növbədə Azərbaycanın Türkiyə ilə sərhəddini möhkəmlətmiş, əsgəri qüvvələri buraya çəkərək sərhədlərin qorunmasını general Orbelianiyə tapşırmışdı. Çardaxlı, Şəmkir, Gəncə və Şəki xanlıqlarına general Lisanoviç, Bakı, Dağıstan, Quba

xanlıqlarına general-mayor Xatunsov, Lənkərana isə kapitan Veselaqonun əsgərləri nəzarət edirdilər.

Rtişşev üçün Qarabağın xüsusi əhəmiyyəti vardı. Vaxtı ilə Qudoviçin gördüyü işi – ermənilərin buraya köçürülməsini ondan əvvəlki generallar da davam etdirmişdilər. Qarabağın erməniləşdirilməsi, azərbaycanlıların bu yerlərdən köçürülməsi ruslar üçün vacib idi. Buna görə də baş komandan qəddar adam kimi ad çıxarmış general Kotlyarevskini Qarabağa göndərmişdi.

İmperatoru maraqlandıran Xəzər dənizi idi. Vaxtı ilə I Pyotrun arzu və xəyallarını fəth edən Xəzər indi Rtişşevin hərbi bacarığı sayəsində qucağını ruslara açmışdı.

Lakin bütün bunlar Rtişşevi qane etmirdi. Rus-İran savaşında Rusiyanın altı nəfər zabiti, yüzdən çox əsgəri farslara əsir düşmüşdü. Onların taleyi Rtişşevi narahat edirdi. Buna görə də o, İran şahına məktub yazaraq əsirlərin azad olunmasını tələb etdi və bunun üçün şaha qırx gün möhlət verdi.

Fətəli şah generalın məktubuna məhəl qoymadı və möhlət başa çatsa da o, əsirləri azad etmədi. Bunun da səbəbi o idi ki, Qarabağ xanı Mehdiqulu xan rusların yerli azərbaycanlılarla rəftarından cana yığılaraq onlardan kömək istəyirdi. Bu xəbəri eşidəndə şah təbəssüm içində düşündü: "Demək qarabağlılar ruslara qarşı çıxırlar. Onları öz torpaqlarından qovmaq niyyətinə düşüblər. Belə görünür ki, Şimali Azərbaycan xanlıqlarının hamısında xalq ayağa qalxaraq bizim himayəmiz altında olan torpaqlara şərik çıxan rusları qovmaq istəyirlər... Biz yaranmış narazılıqdan istifadə edib həmin torpaqlara yenidən sahib olmalıyıq. Mehdiqulu xanın çağırışını cavabsız qoymaq olmaz... Abbas Mirzəyə göstəriş verim ki, qoşunu Qarabağa-ruslarla savaşa hazırlasın...".

...Mehdiqulu xanın İran şahından kömək istəməsi xəbərini eşidəndə general Rtişşev özündən çıxdı. Məsləhətləşmək üçün köməkçisi general Portnyagini yanına çağırdı.

Portnyagin qaşqabaqlı idi. Onun sərt üzü, şüşə kimi soyuq görünən parıltısız gözləri Rtişşevi acıqlandırdı. Lakin o, hirsini biruzə vermədən soruşdu:

– Qarabağdan bir xəbər eşitmisənmi, general?

Portnyaginin şüşə gözləri sanki birdən-birə isinib parıltı ilə doldu. O, generaldan gözünü çəkmədən bir nəfəsə dedi:

– Xəbərlər ürəkaçan deyil. Ruslarla azərbaycanlılar üz-üzə dayanıb. Azərbaycanlıların rusları görməyə gözü yoxdur. Mən axı sizə demişdim ki, general Kotlyarevski yerli azərbaycanlılarla çox sərt davranır. Ermənilər Kotlyarevskiyə arxalanaraq müsəlman evlərini yandırır, günahsız adamları qətlə yetirirlər. İş o yerə çatıb ki, Qarabağ xanı Mehdiqulu xan imperatora şikayət etmək fikrinə düşüb.

– Mənə verilən məlumata görə Mehdiqulu xan İran şahına da müraciət edib. Rusları Qarabağdan çıxarmaq üçün şahdan kömək istəyib.

– Bu xəbəri mən də eşitmişəm, general.

– Səncə şah Qarabağa ruslarla döyüşə qoşun göndərərmi?

– Mənə elə gəlir ki, Fətəli şah üçün bu göydəndüşmə fürsətdir. Mənə çatan məlumata görə şahın ordusu artıq Qarabağa hərəkət etməyə hazırdır.

– Mən farslarla münasibətlərin pozulmasını istəmirdim. Mən müharibə tərəfdarı deyiləm – general qaşqabağını tökdü, sonra da köməkçisinə tapşırıq verdi – lakin farsları Qarabağ torpağında qarşılamağa və onlara həddini bildirməyə məcburuq. Otuz min nəfərlik ordu ilə mən Qarabağa gedirəm. Hazırlıq işləri gör.

Portnyagin ayağa qalxdı:

– Əmriniz yerinə yetiriləcəkdir, general.

...Avqust ayında general Rtişşev otuz min nəfərlik ordusu ilə Qarabağda İran ordusunu qarşılamağa hazır oldu. Lakin o, müharibənin başlanmasını istəmirdi. Buna görə də Abbas Mirzə ilə sülh danışıqları aparmağa cəhd etdi. Danışıqlar baş tutmadı. Abbas Mirzə ordusu ilə dayanmadan Qarabağa hərəkət edirdi.

* * *

1812-ci il sentyabrın 6-sı.

İki ordu Aslandüzdə üz-üzə gəldi. Atılan top və güllə səsləri bir anda Aslandüzün sakitliyini pozdu. Sanki yer-göy lərzəyə gəldi. Qarşı-qarşıya gələn süvarilər amansız döyüşə girdilər. Güllə səsinə qılınc səsləri də qarışdı. Aslandüz dəhşətli müharibə meydanına çevrildi. Həlak olmuş döyüşçülər, güllə dəymiş atlar, topların açdığı dərin çuxurlar, ətrafda ağacları, kövşənləri bürüyən yanğınlar, havadan gələn barıt, tüstü, xız iyi Aslandüzün görkəmini dəyişdi. Döyüş meydanının ortasında sahibini itirmiş

atlar vurnuxur, sanki təhlükəni duyur, qabaq ayaqları üstə qalxaraq kişnəyir, lakin qaçmağa yol tapmırdılar.

İran ordusu xeyli itki vermişdi. Ruslar onları üstələyirdi. Nəhayət uduzduqlarını hiss edən farslar məğlubiyyət bayrağını qaldırdılar. Sonuncu güllə də atıldı və toplar susdu. Aslandüzə axır ki, sakitlik çökdü.

Əzilmiş, sınmış İran ordusu geri çəkildi.

Zəfər qazanmış general Rtişşevin gözləri gülürdü. O, döyüşdə şücaət göstərmiş əsgərlərini təbrik etdi.

Aslandüzdə farsların üzərində qazanılmış qələbə çar sarayında sevinclə qarşılandı. Bu döyüşdə xüsusi bacarıq və sərkərdəlik məharəti göstərmiş Rtişşevə imperator general-leytenant rütbəsi verərək onu mükafatlandırdı.

***

Rtişşev keşiş Yefremi nəşəli bir sevinclə qarşıladı:

– Hardasan Yefrem? Xəbərin varmı rus əsgərləri farslarla döyüşdə daha bir zəfər qazandılar.

Keşiş barmağını ərklə silkələdi:

– Təkcə ruslar yox. Bu qələbədə bizim ermənilərin də payı var, general.

– Elədir keşiş. Rus ordusunda çoxlu ermənilər var.

– Onlar siz rusların dayağıdır – Yefrem qımışdı.

– Ermənilər həm də çox qonaqpərvərdi, – keşiş masanın üstündəki şərabı göstərdi – onlar az qala bir ordunu bu şərabla nəşələndirdilər. Ermənilər Mehrinin, Talışın, Şəkinin, Şirvanın alınmasında çox böyük şücaət göstəriblər. General Kotlyarevski bu barədə mənə məlumat verib. Ermənilər ruslarla çiyin-çiyinə vuruşaraq farsları Qarabağ torpağına qoymadılar. Fətəli şahın ordusunu Qarabağa çağıran Mehdiqulu xan tək və köməksiz qaldı...

Keşiş Yefrem sinəsinə düşən ağlı-qaralı uzun saqqalını tumarlayıb dərin ağıl və parlaq zəka nümayiş etdirirmiş kimi təmkinlə dedi:

– Savaş başlayanda mən İranda idim. Eşitdim ki, fransız Drüvilin başçılığı altında on min nəfərlik İran ordusu Qarabağa ruslarla döyüşə gedir. Mən onda sizi və Kotlyarevskini xatırladım. Fransız Drüvilin ağılsız hərəkəti məni məyus etdi. Əgər o, sizin və Kotlyarevskinin sərkərdə məharətinə və şəxsi qəhrəmanlığına

bələd olsaydı mən and içirəm ki, o, ayağını Qarabağ torpağına qoymaq fikrinə düşməzdi.

Keşişin tərifi generalın ürəyinə yatdı:

– Düz deyirsən, Yefrem. Fransız Drüvil İran sərbazlarını rus gülləsinə hədəf gətirdi. Onların çoxu Aslandüzdə həlak oldu. Allah özü şahiddir ki, mən müharibənin başlanmasını istəmirdim. Mən sülh tərəfdarı idim. Farsların atdığı bu yanlış addım imperatoru qəzəbləndirib. Bu dəfə müharibəni biz davam etdirəcəyik.

– Çox düzgün qərardır, general. Lakin bu acı məğlubiyyətdən sonra Fətəli şah ordusunu Qarabağa çəkməyə peşimandır. Şah mənim çar sarayında böyük nüfuz sahibi olduğumu bilir. Buna görə də mən İranda ikən Fətəli şah məni yanına çağırtdırdı və xahiş etdi ki, sizə çatdırım: İran Rusiya ilə barışığa hazırdır.

General Rtişşev dərindən nəfəs aldı, nəşə içində gözlərini yumdu və qəflətən bağırdı:

– Deməк farslar rus əsgərinin gücünü hiss etdilər.

Bu bağırtıdan Yefrem diksindi, xaç çevirdi və şəhadət barmağını ərklə silkələdi:

– Ermənini yaddan çıxarma, general.

Rtişşev ona məhəl qoymadı. Özündən razı halda dodağının altında nə isə zümzümə etdi, nəşəli sevincini cilovlaya bilmədi. Çevrilib təkrar keşişdən soruşdu:

– Fətəli şah elə belə də dedi: İran Rusiya ilə barışığa hazırdır?

– Eyni ilə Fətəli şahın sözüdür, general. O, sizdən cavab gözləyir. General dodağının altında yenə zümzümə etdi və ucadan dedi:

– Biz axır ki, istədiyimizə nail olduq.

...Az keçmədi ki, general öz qərargahında İrandan gələn nümayəndələri qəbul etdi. Onlar özlərini təqdim edəndə Rtişşevin çöhrəsinin ifadəsi dəyişdi, o, qaşqabağını turşudub nümayəndələrə sərt bir nəzər saldı:

– Mən sizinlə danışıq apara bilmərəm. Axı siz kimsiniz? Fətəli şah sizi buraya niyə göndərib? Sizin heç birinizin İran dövlətində yüksək səlahiyyəti yoxdur. Gəldiyiniz yerə qayıdın və Fətəli şaha mənim sözlərimi yetirin.

...Fətəli şah bu dəfə Rtişşevin yanına böyük nümayəndə heyəti yox, yaxın adamı Məhəmmədəli bəyi göndərdi. Generalla

onun söhbəti uzun çəkmədi. Rtişşev Rusiya imperatoru adından barışığa razı olduğunu bildirdi.

Lakin sülh müqaviləsinin harada bağlanması məsələsi generalı xeyli müddət məşğul etdi. Çünki Fətəli şah Rtişşevə müqavilənin bağlanması üçün İrəvanı, Naxçıvanı və Qarabağın Gülüstan kəndini təklif etmişdi. General nəhayət Gülüstan kəndi üzərində dayandı. Bu yeri general ona görə seçdi ki, Qarabağda rusların böyük ordusu yerləşirdi. General bu qüvvəyə arxalanaraq sülh müqaviləsinin Gülüstan kəndində bağlanmasına razılıq verdi...

* * *

1813-cü il 24 oktyabr.

Gülüstan kəndi ömründə bəlkə də bu qədər hərbiçi görməmişdi. Onu dörd bir tərəfdən İran sərbazları və rus əsgərləri əhatə etmişdi. Ruslar və farslardan başqa azərbaycanlı gözə dəymirdi. Yadlar Gülüstan kəndinə toplaşaraq Azərbaycanın taleyini həll edirdi.

Masanın bir tərəfində Rusiya dövlətini təmsil edən general Nikolay Fyodoroviç Rtişşev, masanın o başında isə İran tərəfdən Mirzə Əbülhəsən xan üz-üzə oturmuşdu. Söhbət uzun çəkmədi...

Barışıq bağlandı...

İmzalar atıldı...

İran dövləti Dağıstan, Gəncə, Şəki, Şirvan, Qarabağ, Lənkəran, Bakı, Quba, Dərbənd torpaqlarından tamahını çəkdi. Rusiya Xəzər dənizinə də şərik çıxdı. Onun hərbi gəmiləri dənizdə üzmək hüququnu aldı.

Rusiya isə öz növbəsində Naxçıvan və İrəvan xanlıqlarından əl çəkdi (yalnız kağız üzərində).

* * *

Gülüstan kəndindən alınan xəbər sanki Naxçıvanın başında ildırım kimi çaxdı. Alovu elə bil dəli-dolu sel kimi içi insan qarışıq evləri bürüdü, könülləri tarı-mar elədi, ümidləri daşa çırpıb çiliklədi, gözlərdə yaşı dondurdu, ürəklərdə işığı söndürdü...

Kalbalı xan diz çökdü. Ona elə gəldi ki, on yeddi il əvvəl çıxarılmış gözlərinin ağrısı təzədən başladı, itirilən işıqlı dünyasının qaranlığı ruhundakı işığı söndürdü. Ürəyinin başına saplanmış xəncəri kimsə çıxarmadı, kimsə əyilmiş qəddini düzəltməyə kömək etmədi. Təkcə dodaqları bir-birinə sıxılaraq dərin nifrət içində sözləri tikan kimi bağrının içindən çəkib çıxardı:

– Mən ölsəm də İran şahına əyilmərəm.

# BEŞİNCİ HİSSƏ

## MÜBAHİSƏLİ NAXÇIVAN

1816-cı ilin yazı.

İrəvandan keçib gələn Yermolov Naxçıvan torpağına qədəm qoyanda ovsuna düşmüş kimi atın yüyənini çəkib saxladı. Onun arxasınca gələn üç nəfər süvari də nə baş verdiyini anlamayaraq Yermolovun arxasında dayandı. Səssiz çöllükdə, dağda-daşda kimsə görünmürdü. Yermolovun göy gözlərində heyrətli bir ifadə donub qalmışdı. Onu yolundan saxlayan ilk dəfə gördüyü və heyrətə gəldiyi təbiətin rəngləriydi. Məxmər kimi yaşıl çəmənlərlə örtülmüş vadilər, baharın sanki can verdiyi dərə-təpələr, vadilərdən xeyli uzaqda tərtəmiz mavi duman içində görünən dağlar, günəşdən bir qucaq qızılı qığılcım yığıb sularında əks etdirən Araz... General bir anlığa haraya, nəyə getdiyini unutdu. Təbiətin səssiz, həzin gözəlliyi elə bil yaddaşından müharibəni, top-tüfəng səsini, ağır əsgər çəkmələrinin iz saldığı yerləri silib apardı. İranda qorxu, təşviş içində yaşadığı səfirlik həyatı yaddan çıxdı.

Arxada atlar fınxırır, qabaq ayaqlarını yerə döyərək elə bil generalı öz aləmindən qoparmaq istəyirdilər.

Yermolov axır ki, atın yüyənini tərpətdi və atlar bunu gözləyirmiş kimi ox kimi yerlərindən götürüldülər. Təbiətin musiqi ahəngi pozuldu və at nallarından qopan toz-duman hər yeri bürüdü.

Yermolov atını möhkəm sürsə də doyumsuz, iştahlı gözlərini ətrafdan çəkə bilmirdi. Sanki onun hökmüran hisslərinə qısqanclıq duyğusu da qarışırdı. Bu yerlərin mütləq hakimi ruslar olmalıdır – bu hissdən Yermolovun ürəyi pərvazlandı...

* * *

Aleksey Petroviç Yermolov ilk dəfə rusların Polşa və İtaliya ilə apardığı müharibələrdə iştirak edəndə yeniyetmə idi. Müharibə onun xoşuna gəlirdi. Çünki məhz döyüşdə o, şücaətini göstərə bilərdi. 1796-cı ildə baş komandan Valerian Zubovun başçılıq etdiyi ordunun tərkibində Qafqaza gələndə Alekseyin on səkkiz yaşı vardı.

Aleksey Yermolov Dərbəndin və Gəncənin işğalı zamanı hünər göstərdi və Rusiyanın gələcəyi üçün ümid verən hərbiçi olduğunu döyüşlərdə isbat etdi. O, işğal zamanı talanlarda yetərincə sərvət topladı.

Aleksey otuz yeddi yaşına çatarkən artıq döyüşlərdə bərkimiş, təcrübə toplamış və buna görə də yüksək hərbi rütbəyə layiq görülmüş general oldu. Şəxsi xidmətlərinə görə çar I Aleksandr onu yaxşı tanıyırdı. O, imperator sarayının nüfuzlu adamlarından biri sayılırdı. Buna görə də qarşıda Aleksey Petroviçi parlaq gələcək gözləyirdi. Tale onu çox intizarda qoymadı.

İran və Rusiya arasında «Gülüstan» müqaviləsi bağlandıqdan bir il sonra gözlənilmədən Yermolovu çar sarayına çağırdılar və onu İrana Rusiyanın səlahiyyətli müvəkkili göndərdilər.

...1814-cü ildə general Yermolov İranda öz təzə işinə başladı. Lakin səlahiyyətli müvəkkil burada – bu qərib ölkədə təkcə öz vəzifəsini yerinə yetirməyəcəkdi. O, burada ikili həyat yaşayacaqdı: həyatının bir tərəfi hamıya məlum olan müvəkkil, o biri tərəfi isə naməlum olan casusluq idi. Çünki rus çarının İran haqqında yeni düşüncələri, məkrli planları vardı və onları həyata keçirmək üçün Yermolova gizli tapşırıqlar verilmişdi: səlahiyyətli müvəkkil çevik və sayıq olmalı, daim Tehranın yüksək dairələrində dolaşmalı, ən gizli mətləblərdən xəbər tutmalı, iti ağılı və zəkası ilə eşitdiklərini, öyrəndiklərini vaxtında dəyərləndirməli və yerinə çatdırmalı idi. Yüksək dairələrdə isə elə adamla yaxınlıq etməliydi ki, o adam şaha və saraya yaxın olsun, özü də hiss etmədən sirləri səlahiyyətli müvəkkilin «ovcuna qoysun».

Aleksey Yermolov İran həyatına tez alışdı, fars dilini mükəmməl öyrəndi və saraya yaxın olan adamla da münasibət yarada bildi; bu şahzadə Abbas Mirzə idi.

* * *

Fətəli şahın başı öz hərəmlərinə qarışdığından Yermolov Rusiyanı maraqlandıran bütün məsələləri Abbas Mirzə ilə həll edirdi.

Şah bütün səlahiyyəti vəliəhdinə vermişdi.

General Abbas Mirzə ilə tez-tez görüşürdü və aralarında isti münasibət yaranırdı.

Bir dəfə Yermolov İran ermənilərinin ona hədiyyə gətirdiyi qiymətli daş-qaşı şahzadəyə apardı. Brilliantların şafağı Abbas

Mirzənin gözlərini qamaşdırdı. Lakin o, brilliantlara baxa-baxa nə isə düşündü və onları təkrar generala qaytardı:

– Bunlar çox qiymətlidi. Hədiyyə üçün sağ olun. Lakin mən onları qəbul edə bilmərəm.

Yermolovun pərtlikdən üz-gözünün ifadəsi dəyişdi. Lakin o, özünü tox tutaraq yüngülcə qımışdı, gözləri daş-qaşda olan şahzadəni təəssüflə, məzəmmətli baxışlarla süzdü və ərkyana dedi:

– Bu kiçicik dost hədiyyəsidir, vəliəhd. Biz ruslar təmənnasız dostluqda sədaqətliyik. Qorxmayın bu dostluqdan sizə zəfər toxunmaz.

Abbas Mirzə əlini uzadıb daş-qaşları götürdü, yenə də işığa tutaraq baxdı və dedi:

– Elə biz də dostluqda möhkəmik, general.

Aralarında söhbət xeyli çəkdi. Yermolov vidalaşanda guya qəflətən nə isə xatırlamış kimi ayaq saxladı və təzədən şahzadənin yanına qayıtdı:

– Vəliəhd, «Gülüstan» müqaviləsi bağlanarkən Talış xanlığının bəzi kəndləri sizin nəzarətiniz altına düşüb. Onlar Rusiyanın tabeliyinə verilməlidir.

– Hansı kəndlərdir elə?

– Bibyanı, Andurma, Bandagüc kəndləri.

– Oldu general, həll edərik.

...Və Yermolov verdiyi daş-qaşların müqabilində həmin kəndləri Rusiyanın himayəsinə qaytarmağa nail oldu.

2

Aleksey Yermolov İrana qayıdarkən I Aleksandrla İrandakı vəziyyəti müzakirə etdi. İmperator dedi:

– Farslar deyəsən müharibəni yenidən başlamaq istəyirlər.

– Sizdə belə bir məlumat varmı, əlahəzrət?

– Onlar Talış və Muğan xanlıqlarını Rusiyaya güzəştə getdiklərinə çox peşimandırlar. İndi bu torpaqları yenidən tələb edirlər.

– Farslar ruslarla apardıqları müharibəni daim uduzmuşlar.

İmperator narazı halda başını buladı:

– Əslində farslar müharibə istəmirlər. Onları bizimlə müharibəyə təhrik edən İngiltərədir. İngilis hərbi mütəxəssislərinin köməyi ilə İran ordusu təzədən qurulub, möhkəmlənib. İngilis zabitlərinin keçdiyi hərbi təlimlər şaha belə bir ümid verib ki, onlar

müharibəni başlasalar bu dəfə bizi məğlub edə biləcəklər. Lakin mən müharibə tərəfdarı deyiləm. Mübahisəli məsələlərin sülh yolu ilə həll olunmasını istəyirəm. Buna görə də Abbas Mirzə ilə söhbətində diqqətli ol. Əgər Muğan və Talış torpaqlarını tələb etsə...

İmperator susdu, sərt baxışlarını Yermolovun üzünə dikdi və asta-asta sözünə davam etdi:

– O zaman Qarabağ və Talış torpaqlarını İrəvan və Naxçıvanla dəyişmək fikrini irəli sür. Naxçıvan və İrəvanı geri qaytarmaq Rusiya üçün çox vacibdir. Bunun üçün səni səlahiyyətli nümayəndə adı ilə İrana göndərirəm. Bilirəm, Fətəli şah heç vaxt Naxçıvanı güzəştə getməyəcək. Eləcə də İrəvanı. Şah buna razılıq versə də İngiltərə və Fransa buna mane olacaq. Onlar şahı qızışdıraraq bizimlə yeni müharibəyə təhrik edirlər. Yolüstü Naxçıvan xanı Kalbalı xanla da görüş. O, İran şahından narazıdır. Rus imperiyasına üstünlük verir və daim bizim himayəmiz altına keçməyə can atıb.

– Oldu əlahəzrət.

...İndi Aleksey Yermolov həmişə olduğu kimi İrana getmək üçün Volqa-Xəzər yolunu seçmədi, çarın tapşırığı ilə bu dəfə İrəvandan Naxçıvana keçib Kalbalı xanla görüşmək istədi.

* * *

1816-cı il 16 may.

Rus generalı Yermolovun Naxçıvana yetişmək xəbəri sürətlə yayıldı. Gözlənilməz qonaqları qarşılamağa Kalbalı xanın qaynı Maqsud xan, oğlanları, onlarla bərabər xeyli adam getdi.

Şəhər sanki üç illik sıxıntısını, nigarançılıq və hüznünü unudub xoş bir sevinc içində qaynayırdı. Dükan-bazar bağlanır, təzə xəbər eşidənlər xan sarayının qarşısına yığışırdı. Gözlər ümidli, çöhrələr təbəssümlü idi. «Gülüstan» müqaviləsi bağlanan kimi İran əlini Naxçıvanın üstə qoymuş, xanlığı ləğv etmişdi. Lakin Naxçıvanı İranın bir əyaləti kimi yenə də Kalbalı xan idarə edirdi.

...Xan sarayı son üç ildə bu qədər təmtəraqlı olmamışdı. Gümüş şamdanlar yandırılmış, salonlara zərif Təbriz xalıları döşənmişdi. İri buta güllü xalılar isə sarayın pillələrindən aşağı həyətə qədər salınmışdı. Bu təntənə qonaqların Kalbalı xan üçün xüsusi əhəmiyyət daşıdığını göstərirdi.

Xan özü salonun baş tərəfində qoltuq kürsüsündə oturaraq qonağını gözləyirdi. Əlindəki təsbeh dənələrini səbrlə çevirərək

sanki düşüncələrini, xəyallarını da bu təsbeh dənələri kimi bir-birinin ardınca sapa düzürdü. Ötən əzablı illər elə bil xanın sifətini ağ işığa bükmüşdü. Qaşları ağarmış, gümüşü rəngdə görünən saqqalı onun qırışlarla bəzənmiş sifətinə nurani bir görkəm vermişdi. Lakin o, əvvəlki kimi gümrah və şax qamətli idi. İti zehni əvvəlki kimi xanın qaranlıq dünyasını işıqlandırır, onu sıxıntı çəkməkdən və bədbinlikdən qoruyurdu.

General Yermolovun İrana gedərkən yolunu Naxçıvandan salması Kalbalı xanın içində qaranlığa gömülmüş ümidlərinin gözünə bir işıq kimi sızmışdı: «Generalın yolunu Naxçıvandan salması o deməkdir ki, ruslar yenə nə isə düşünür. Bəlkə Naxçıvanı, İrəvanı əldən verdiklərinə peşiman olublar, onları İranın əlindən almaq istəyirlər? Bura gəlməkdə də məqsədləri odur ki, camaatın əhval-ruhiyyəsini öyrənsinlər. Buna Fətəli şah razı olmaz. İrəvanı versə də Naxçıvanı verməz. O halda yazıq bu millətə...». Kalbalı xan yanında oturmuş Əli xana tərəf əyilib soruşdu:

– Ruslar Naxçıvanı təzədən farsların əlindən ala bilərmi?

– Elə bilirəm ki, yox.

– Mənə çatan məlumata görə İran ruslarla təzədən müharibə eləmək, verdiyi torpaqları geri qaytarmaq fikrinə düşüb. Bunun üçün müharibəyə hazırlaşır.

– Səhihdirmi, xan?

– Doğru olduğunu bilmirəm. Amma ağlım mənə deyir ki, Rus-İran müharibəsi təzədən başlayacaq. Çünki Naxçıvanda həm farsların, həm də rusların gözü var. Onlar bu torpağın üstə didişirlər. Bir-birlərinin qanını içməyə hazırdırlar.

Əli xan köks ötürdü, ağarmış saqqalını tumarlayaraq başı əsə-əsə Kalbalı xana tərəf əyilərək astadan dedi:

– İranı qızışdıran, müharibəyə təhrik edən ingilislər, fransızlardır. Onlara nə var ki... Müharibə torpaqlarında getmir, əhalisi qırılmır, ocaqları dağılmır.

– Eşitdiyimə görə ingilislər müharibənin başlanması üçün canfəşanlıq göstərirlər. İngilislər bicdi, onların bu müharibədə mənafeyi olmasa İran ordusuna o qədər pul, silah verməzlər.

– Kalbalı, amma bu üç ildə sərbazlar hələ ki, Naxçıvana dəyib dolaşmadı.

Kalbalı xan sanki Əli xanın sədalövhlüyünə rişxənd eliyirmiş kimi istehza ilə dedi:

– Vergini vaxtında verməsək, onda gör sərbazlar Naxçıvanın daşını daş üstə qoyurlar, ya yox?

– O da düzdü, xan – Əli xanın üzündə bir kədər, ələm kölgəsi göründü – müharibə, atılan toplar, gedən döyüşlər Naxçıvanı xarabazara çevirdi. Hasarlar uçub dağıldı, məscidlər sıradan çıxdı, karvansaralar boş qaldı. Zəmilərimiz at ayaqlarının altında məhv olub getdi. Əhali zülüm çəkdi...

Kalbalı xan köksü alovlanmış kimi elə ah çəkdi ki, sanki bu alov onun bütün vücudunu bürüdü – Yaxşı ki, mənim gözlərim bu dağılmış, köksü paralanmış Naxçıvanı görməkdən məhrum idi – səsində intəhasız bir kədər duyuldu – Mən ancaq mənə verilən məlumatlar əsasında dağıntıları aradan qaldırırdım. Lakin sabahkı günə ümid eləmək olmaz. Farslara inanmaq, bel bağlamaq sadəlövhlük olar, Əli xan. Ona görə də mən bu rus generalının gəlişində bir ümid işığı görürəm. Əgər biz Rusiyanın himayəsi altına keçsək Naxçıvanın müstəqilliyi bərqərar olar, əhali rahat yaşar. Böyük zəhmət bahasına dirçələn Naxçıvan daha xarabazara çevrilməz. Yoxsa mən məzarda da rahat yata bilmərəm.

Bu anda xan sarayının qarşısındakı izdiham canlandı, qarışıq səslər içində at nallarından qopan səslər ətrafa yayıldı. Kalbalı xan cəld ayağa qalxdı:

– General gəldi, qarşılayın onu.

Əli xan çıxdı. Kalbalı xan təkrar yerinə qayıdıb oturdu.

General Yermolov əlini yuxarı qaldırıb xoş, məmnun bir ifadə ilə izdihamı salamladı, sonra hərbiçilərə məxsus şax addımlarla xalıların üstündən keçib saraya girdi. Qapıda sıra ilə düzülmüş saray adamları, şəhərin adlı-sanlı xanları onu gözləyirdi. General yüngülcə baş əyərək onlarla görüşdü və salona keçdi. Kalbalı xan ayağa qalxdı. General irəli yeriyib xanla ikiəlli görüşdü və bu görüşdən məmnun olduğunu bildirdi. Generalın tərcüməçisi Əlixanov deyilənləri Kalbalı xana çatdırdı.

...Söhbət başlandı. Onlar qarşı-qarşıya oturmuşdular. Kalbalı xan danışığı, hafizəsi, mühakiməsi ilə Yermolovu heyrətləndirdi. General gözünü ondan çəkə bilmirdi. Ömrünün çoxunu at belində keçirən, gözləri çıxarılıb dünya işığına həsrət qalan, zindanlara atılan, amma yenə də ayaqları üstə qalxıb bu kiçik məmləkəti idarə etməyə qadir olan bu nurani qocada nə qədər ağıl, zəka, qüvvət və qüdrət vardı. Yermolov dərin heyrət içində ona

baxırdı. Baxışlarını çəkə bilmirdi. Kalbalı xanın nurani çöhrəsində rus qonağının aydınca gördüyü saf, sağlam, işıqlı bir təbəssüm vardı. Lakin bu təbəssüm bütün həyatı boyu çəkdiyi əzabları onun gülümsər çöhrəsindən silib apara bilməmişdi. Bu əzablar elə bil üst-üstə yığılaraq qırışlarla onun üzünə həkk olunmuşdu.

Qonaqları masaya dəvət etdilər. General qızılı işləməli, kiçik, zərif dolu bardaqları əlinə götürərək qoxladı və təəccüblə soruşdu:

– Bu hər halda çay deyil.

Kalbalı xan da bardağı götürüb burnuna yaxınlaşdırdı və ləzzətlə ətrini sinəsinə çəkdi:

– Bu çay deyil, general, bu ancaq Naxçıvanda hazırlanan qızılgüldən çəkilmiş qəhvədir.

General qızılgül qəhvəsini aram-aram, dərin bir zövq və ləzzət duyaraq içməyə başladı. Qəhvə canındakı yorğunluğu çıxardı, əsəblərinə bir yüngüllük gətirdi.

Sonra qonaqları süfrəyə dəvət etdilər. Süfrədə hər şey bol və zəngin idi. Hazırlanmış şirniyyatlar ətri, dadı ilə qonaqları heyran etdi.

Generalla yanaşı oturmuş Kalbalı xanın üzü gülürdü. Bu anlarda o, sisi-dumanı başından çəkilmiş əzəmətli dağ kimi qürur içindəydi. Sanki daxilində onu yaşadan işığı indi aşkara çıxararaq hamıya göstərirdi. Dodaqları gülür, məzəli əhvalatları bir-bir danışaraq qonaqlarını da güldürürdü.

Kalbalı xanın qardaşı oğlu Kərim xanın evində isə şam yeməyinə hazırlıq görülürdü. Ertədən kəsilib doğranmış qoyun ətindən şəhərin məşhur aşbazları çeşid – çeşid xörəklər hazırlayırdılar. Plovlar dəmə qoyulur, kababçılar ocaq başında növbənöv kabab çəkirdilər.

General Yermolov şam yeməyindən sonra Kərim xanın evində qalacaqdı.

* * *

Ertəsi gün günortadan sonra Yermolov xan sarayında onu gözləyən Kalbalı xanla görüşdü. Xan bu dəfə qayğılıydı. Gülərüz çöhrəsi tutulmuş, büruşük, dodaqları bir-birinə sıxılmışdı. Sifətinin cizgilərində çəkdiyi əzablar açıq-aşkar görünürdü. O, ikitağlı, rəngli şüşə vurulmuş pəncərə ilə üzbəüz oturmuşdu. Bu pəncərədən Arazın yaşıl ətəkləri, uzaqda isə xəyal kimi maviliyə bürünmüş dağlar görünürdü.

Sükutu xan pozdu:
– Bildiyimə görə Naxçıvanda ilk dəfə olursuz, general.
Əlixanov xanın dediklərini rus dilinə çevirdi.
General səmimiyyətlə cavab verdi:
– Bu yerləri görməyə xüsusi marağım vardı. Naxçıvanda olmuş rus generalları bu gözəl diyar haqqında mənə danışmışlar. Allah arzuma qovuşdurdu.
Kalbalı xan sanki onun sözlərini eşitmədi. Məyus halda dedi:
– Müharibələr Naxçıvanı xarabazara çevirdi. Vaxt var idi ki, bizim sənətkarların hazırladıqları məhsulların sorağı uzaq məmləkətlərdən gələrdi. Amma indi o şöhrətdən heç nə qalmayıb. Biz çox çətinliklə ayağa qalxırıq. Hüquqi cəhətdən İrana tabe olduğumuzdan tələb olunan vergiləri əhalidən zorla yığırıq. Çünki bu vergilər həddən artıq çoxdur.
– Eşitdiyimə görə bir oğlunuz şah ordusunda qulluq edir. Deməki, şah sizə xüsusi etimad göstərir.
Kalbalı xan əlini yellədi. Səsində bir kədər, hüzn duyuldu:
– Bu şahın mənə etimadı yox, inamsızlığıdır. Oğlum Ehsan xan girov saxlanılır. Əgər mən onun hakimiyyətinə qarşı çıxsam, o, mənim oğlumu qətlə yetirər. Şah yaxşı bilir ki, mənim Qacar sülaləsinə nifrətim sonsuzdur. Gün keçdikcə bu nifrət daha da dərinləşir. Ağa Məhəmməd şah Qacar məni göz işığından məhrum elədi. Dünyanı mənim üçün qaranlıq zindana çevirdi. Lakin mənim güclü əllərim hələ də qisas almağa hazırdır.
Kalbalı xan susdu. Çöhrəsini yenidən kölgə bürüdü.
– Bir vaxt Araz çayı vadisinin gözəlliyinə və zənginliyinə heyrətlə baxardım – xan sanki içəridəkiləri unutdu, səsində bir həzinlik duyuldu – Gözəl bağları və meşəlikləri olan vadini çoxsaylı əhali canlandırardı. İndi mənə deyirlər ki, vadi boş səhralığa çevrilib. Keçmiş zənginliyindən əsər belə qalmayıb. Yaxşı ki, tale mənim gözlərimi bağladı. Vadinin belə bədbəxt gününü və tarmar olmasını gözüm görmür – səsindəki məyusluq xanın bütün çöhrəsini bürüdü.
General onun üzünə diqqətlə baxırdı. Xanlığı bütöv bir ömür idarə etmiş, at belində döyüşlərdə mərdanəliklə vuruşmuş, şaha əyilməmiş, onunla döş-döşə gələrək vüqarlı başını dik tutmuş xan indi bu anlarda – sözünü böyk bir məyusluqla deyərkən sanki birdən-birə qocaldı, məğmun bir görkəm alaraq yumaq kimi büküldü. Səsində elə bir bədbinlik, kədər duyuldu ki, elə bil ilk

görüşdə Yermolovun gördüyü şax qamətli, məğrur adam deyildi. Xan təəssüflə, içini alov kimi qarsan yanğı ilə sözünə davam etdi:

– Bu vadini üç əsr mənim nəslim – Kəngərlilər nəsli idarə edib. Əvvəllər ara müharibələri, sonra isə şah ordusu bu gözəl torpağı xarabazara, vadini səhraya çevirdi. İşğalçıların hücumları xalqı bədbəxtliyə, yoxsulluğa sürüklədi.

Kalbalı xan üzünü pəncərədən çəkib generala tərəf tutdu:

– Bu yerlərdə rus ordusu da olub. Amma onlar burda göz yaşı tökdürməyiblər. Ona görə də burda heç kim rusları nifrətlə yad etmir.

Kalbalı xanın son sözləri Yermolovun ürəyinə yatdı. Gülümsəyərək Əli xanla, Nəzərəli xanın üzünə baxdı, sonra da əlini Kalbalı xanın dizinə qoyduğu əllərinin üstünə çəkdi:

– Bildiyimə görə bizim imperatorun oğlunuz Şıxəli xana xüsusi etimadı var. Göstərdiyi xidmətə görə ona hərbi rütbə vermiş və maaş kəsmişdir.

– Elədir general – Kalbalı xan əvvəlki düşüncələrdən ayrılmayaraq astadan dedi.

– Ruhdan düşməyin. Ruslar yenə Naxçıvanda və İrəvanda əmin-amanlıq yaratmaq arzusundadır.

Kalbalı xan qətiyyətlə başını buladı:

– Şah Naxçıvanı ruslara güzəştə getməz.

Yermolov sözünü dəyişdi:

– Biz başqa fikirdə deyilik. Biz İranla dostluq münasibətlərini pozmaq istəmirik.

– Dostluq münasibətlərini? – Kalbalı xan istehza ilə güldü – İranlıları tanıdığıma görə bilirəm ki, sizin dostluğunuz gec-tez pozulacaqdır. İnanıram ki, ya onlar xəyanət edib bu dostluğu pozacaq və yaxud da sizi buna məcbur edəcəklər.

General baxışlarını gözdən məhrum olmuş qoca xandan çəkmədən heyrətlə düşündü: «O hardan bilir ki, bu dostluq artıq pozulmaqdadır? İran bağlanmış sazişə xəyanət edərək yavaş-yavaş döyüş təbilini çalmaqdadır. O, sanki mənim daxilimə nüfuz edərək düşüncələrimdən xəbər tutdu. Yox bu insanda qeyri-adi, sirrili nəsə var. Onun gözləri görməsə də heyrət doğuran zəkası hadisələrdən baş çıxarmağa kömək edir. Yoxsa o, bu vəziyyətində tez sınardı, sevdiyi torpağı da, özü də tapdalanardı, məhv olardı...».

Yermolov ayağa qalxdı, xanın əllərini ikiəlli çıxdı:
– Mən sizin qonaqpərvərliyinizdən məmnun qaldım, xan. Sizə təşəkkür edirəm.
Kalbalı xan da ayağa qalxdı:
– İrana nə vaxt getmək fikrindəsiz, general?
– Elə bu gün.
– Qalsanız...
– Yox vacib işlər məni gözləyir. İki gün qaldım...
– Onda mən sizi Araza qədər müşaiyət elərəm.
– Mən narahat olaram, xan.
– Bu halıma baxmayın general, mən hələ güclü və qüvvətliyəm.
– Elə isə yaxınlarınızın mənimlə Araza qədər getməsinə izin verirəm.
– Olsun.
Qucaqlaşdılar. Yermolov gedərkən bir də çevrilib Kalbalı xana baxdı. Məğrur qoca xan ona, kökləri dərinə işləmiş qocaman palıdı xatırlatdı...

***

Bir ildən sonra – 1817-ci il sentyabrın 26-da Rusiyanın İranda səfiri olan general Yermolov təkrar Naxçıvana qayıtdı. Lakin bu dəfə o, təşviş içindəydi. Özünü Peterburqa çatdırmağa tələsirdi. Çünki İranla Rusiya arasında olan dostluq telləri qırılırdı. İngiltərə bütün qüvvəsi ilə İranla Rusiya arasında yeni müharibə ocağı yaratmaqda idi. Yermolov İranda baş verən hadisələr, müharibəyə hazırlıq haqqında imperatoru xəbərdar etməyə gedirdi.
Yolüstü yenə Kalbalı xanla görüşdü. Onu qızıl güldən çəkilmiş qəhvəyə qonaq etdilər. Yermolov qəhvəni içə-içə Kalbalı xana baxır, onun bir il əvvəl dediyi sözləri xatırlayırdı: «İranlıları tanıdığım üçün bilirəm ki, sizin yaratdığınız bu dostluq uzun müddət davam etməyəcəkdir. Ya onlar xəyanət edib bu dostluğu pozacaq və yaxud sizi bu dostluğu pozmağa məcbur edəcəklər».
Kalbalı xan haqlı imiş...
Yermolov daha Naxçıvanda yubanmadı, həmin gün vidalaşıb İrəvana yola düşdü.

1820-ci il.

Kalbalı xan bir səhər yatağından zorla qalxdı. İçində sanki hər şey sınıb tökülürdü. Səbəbini bilmədiyi sıxıntıdan az qala ürəyi dayanacaqdı. Əllərini yerə dayaq verib zorla qalxdı. Kal öskürdü, sonra ucadan Tükəzban xanımı çağırdı. Qadın özünü yetirdi, əllərindən tutub təşvişlə soruşdu:

– Nə olub, Kalbalı?

– Məni bayıra çıxar. Qoy üzümə təmiz hava vursun.

– Narahatlığınmı var, Kalbalı?

– Yox. Ehsan hardadı?

– Ehsan Tehrana getməyə hazırlaşır.

– Getməsin.

– Kalbalı...

Tükəzban xanım onun əllərindən möhkəm yapışıb üzünə diqqətlə baxdı, nə baş verdiyini anlamağa çalışdı.

Kalbalı xan onun qolundan tutaraq eyvana çıxdı. Sübhün sərin mehi üzünə toxunanda dərindən nəfəs aldı. Ağarmış bənizində çəhrayı qızartılar göründü. Tükəzban xanımın gözü hələ də üzündəydi. Arvadını qorxutmamaq üçün gülümsündü:

– Qorxma, Tükəz. Yuxu görürdüm. Yuxudan sonra ürəyimə sıxıntı gəldi. Yuxuda pirani bir qoca mənə dedi ki, Məkkə ziyarətini çox yubatma, xan. Deyirəm bəlkə ömrüm çıraq kimi yanıb sona yetməkdədir. Mən Məkkə ziyarətinə hələ cavan vaxtımdan can atmışam. Amma başım qovğalara qarışdığından arzuma yetə bilməmişəm. Bu səhər birdən-birə qocalığı hiss elədim... Birdən deyirəm vaxt çatmaz...

– Kalbalı...

Arvadının təskinlik verəcəyini duyan Kalbalı xan qaşlarını çatdı, birdən-birə zənən xeylağı qarşısında zəiflik göstərdiyinə görə özünə acığı tutdu, səhvini düzəldərək həmişəki hökmlü səslə dedi:

– Tükəzban, mənim atımın kişnərtisi hələ dağlardan çəkilməyəcək. Amma Məkkə ziyarətinə getsəm ruhumdakı işıq bir az da artar, zehnim itiləşər, ürəyimə təpər gələr.

– Elə indi ziyarət hazırlığına başlarıq, Kalbalı.

...Ziyarətqabağı Kalbalı xanın ikimərtəbəli yaraşıqlı sarayı dolub boşalırdı. Ocaqlar çatılır, erkəklər kəsilib doğranaraq ehsan verilir, xan az qala bütün Naxçıvan əhlindən xeyir-dua alırdı.

Dan yerinə qızartı düşməmiş Kalbalı xan kiçik bir qafilə ilə yola çıxacaqdı. Axşam sarayın böyük salonu qonaqlarla dolmuşdu. Əlvan xalıların üstündəki ipək döşəkçələrdə oturmuş adlı-sanlı xanlar Kalbalı xanla vidalaşmağa gəlmişdilər.

Qonaqlar dağılışandan sonra Kalbalı xan üzünü Ehsan xana tutdu:

– Deyilənə görə Abbasabad qalasında çoxlu əcnəbilər işləyir.

– Elədi – Ehsan xan qonaqların arasından cavab verdi – Abbasabad qalasında ingilislər təmir işi aparırlar.

Kalbalı xan kirpiklərini tez-tez çaldı: – əl-ələ verib silah tutan adamları başınıza yığarsız. Şah bizə sərbaz saxlamağa icazə vermədi. Çünki bu Naxçıvanın müstəqilliyinə bir işarət olardı. Ruslar və farslar yenə də nə vaxtsa Naxçıvan torpağı uğrunda bir-birinin qanını tökəcək. Hansı tərəfdən ziyan görsəniz onu torpağımıza yaxın buraxmayın. Ana-bacılarımızdan muğayat olun.

– Elə bil vəsiyyət eləyirsən, ata?

– ...

– Ata...

Kalbalı xan cavab vermədi, birdən-birə öz içinə, öz qaranlıq dünyasına çəkildi. Sanki qəflətən mürgülü xatirələrin üstünə xəzan yarpağının saraltısına oxşar bir işıq düşdü. Bu işıqda Kalbalı xan açıq-aşkar Mahnuru gördü. Çox-çox illər əvvəl əsirlikdən qaçıb ona pənah gətirən qızı elə o halında da xatırladı. Pırtlaşıq, pərişan, uzun saçları çiyinlərinə, üz-gözünə tökülmüş, qızarmış göz qapaqlarına, üzünün kədərli cizgilərinə elə o an sanki əsirliyin məşəqqətli, əzablı həyatı həkk olunmuşdu. Ötüb keçmiş köhnə duyğunun oyanışı sanki bu anlarda ürəyinin qoca simlərinə toxunub yüz səs, yüz hava çaldı.

Ehsan xan onu öz aləmindən ayırmağa cəsarət etmədi. Kalbalı xan cavanlığında olduğu kimi indi də onu yoldan çıxaran şeytan duyğunu rədd elədi: «Gərək qalaya da baş çəkəm. Qalada çox at çapıb, çox düşmən qabağına çıxmışam...». Kalbalı xanın ürəyi elə bir hisslə çırpındı ki, sanki bu onun Naxçıvandan son gedişi idi. Gəzdiyi, dolandığı, at çapdığı, qılınc çaldığı, güllə atdığı bu yerlərlə son vidası idi. İçində hüznlə çırpınan bir duyğu elə bil onu bu yerlərə çəkməklə son ayaq izlərini həkk etmək istəyirdi...

Kalbalı xanın sağ tərəfi boş idi. Xeyli vaxt idi ki, burda heç kəs oturmurdu. Əli xan dünyadan köçəndən sonra onun boş qalmış yerindən Kalbalı xanı soyuq sazaq üşüdürdü. İndi də sağ tərəfində bu sazağı hiss edib üzünü Ehsan xana tutdu:

– Muradla qalaya getmək istəyirəm.

Ehsan xan cavab verməmiş Murad xana yaxın gəldi, əlini onun əllərinin üstə qoydu:

– Oldu xan.

Köhnə duyğu yenə xanın içindəki sanki küllənmiş közü eşələdi:

– Külfətin yaxşıdırmı Murad?

– Mahnur da sizinlə vidalaşmağa gəlib. Qadınlar olan tərəfdədir.

– Mahnur?

Xanın dodaqları qaçdı:

– Mahnur yenə at çapırmı?

– Bəli, xan.

– Oğul-uşaqdan nəyin var, Murad?

– Bir nökəriniz...

– Demək bir igid.

– Bəli xan. Cəngavər yaxşı at minir, qılınc çalır.

– Demək Naxçıvan düşmən tapdağında qalmayacaq. Təzə nəsillər onu bizim kimi qoruyacaq.

– Elədi xan. Biz cavanlara təlim keçirik. Düşmənlə döyüş qaydalarını öyrədirik.

– Kaş bu gedişimdə mən Naxçıvanı salamat gözlə bircə dəfə görə biləydim...

Kalbalı xan bu həsrətlə də sanki ilk dəfə özünün qaranlıq, zülmət dünyasına üsyan etdi...

* * *

Arazı adlayanda Kalbalı xan atının başını Naxçıvana sarı çevirdi. Kiçik qafilə də dayandı. Xanın dodaqları bir-birinə sıxılmışdı. İçərisində elə tufan, elə qasırğa vardı ki, xan dodaqlarını bir-birinə sıxaraq elə bil gizli, pünhan duyğuların kükrəyərək üzə çıxmasına aman vermədi. Bu ana qədər kimsə onun kövrəldiyini görməmişdi. Kor bulaqların suyu yer altına axdığı kimi onun da xəyalları, düşüncələri, duyğuları özünə bəlliydi. Bu vida anında Kalbalı xan yenə də məğrurluğunu saxlamaq istəyirdi.

Araz sahilində isə onu bütün Naxçıvan əhli yola salırdı. Kalbalı xan əlini yuxarı qaldırdı, vidalaşdı, sonra əlini atın sarğısına çəkərək üzünü Təbrizə sarı çevirdi. İrəlidə Məkkəyə qədər uzun bir yol vardı...

* * *

Fətəli şahın Abbas Mirzə ilə söhbətində kürəkəni və birinci vəziri olan Allahyar xan da iştirak edirdi. Pırpız qaşlarının altından qırğı gözləri ilə sanki ətrafına kin, nifrət qığılcımları səpən, sərt baxışlı Allahyar xan son vaxtlar şahı tək buraxmırdı. İranın daxilində və xaricində baş verənlər onun da ağlının süzgəcindən keçir, Allahyar xan ciddi-cəhdlə siyasət meydanında özünü göstərməyə çalışırdı.

Oğlu ilə söhbətində Fətəli şah birdən-birə yorulduğunu hiss etdi, ayağa qalxanda yadına nəsə düşdü:

– Abbasabad qalasını möhkəmləndirmək haqqında tapşırıq vermişdim. Onun uçuq-sökük, dağılan yerləri çoxdur.

– Mən artıq bu barədə göstəriş vermişəm – Allahyar xan tələsik cavab verdi – ingilis ustaları artıq xeyli vaxtdır ki, qalanın uçub tökülən yerlərini təmir edirlər.

Fətəli şah zirək və ağıllı kürəkəndən razı qaldı. Əlini onun kürəyinə çəkdi:

– Əhsən, Allahyar xan.

Şahın tərifi sanki Allahyar xanın qırğı gözlərindəki nifrət qığılcımlarını yuyub apardı, qımışıb Abbas Mirzənin üzünə baxdı:

– Qalaya tez-tez baş çəkirəm. İngilis ustalar ürəklə çalışır, fransızların gördükləri işləri bəyənmirlər.

– Lakin fransızlar çox möhkəm qala tikib – Abbas Mirzə etirazını bildirdi.

– Hər halda qalanı bizim dostlarımız tikib. Vəliəhdin nəcabət və şöhrətinə layiq tikiblər – şah onların arasında başlanacaq mübahisəyə yol vermədi.

(Abbasabad qalası 1805-ci ildə İran-Rusiya müharibəsi dövründə Naxçıvanın on kilometrliyində tikilmişdi. Abbas Mirzə rusların hücumunu dəf etmək üçün Astabad kəndində fransız mühəndislərinə qala tikdirdi. Onu Abbas Mirzə özü tikdirdiyinə görə qala Abbasabad adlandı.

Qala beş bucaqlı idi. Hündür divarların yanında az məsafədə daha iki cərgəli divarlar hörülmüşdü. Atəş açmaq üçün divarlar-

da yuvalar qoyulmuşdu. Qalaya yaxın yerlərdə isə dərin xəndəklər qazılaraq su ilə doldurulmuşdu. Həm ikicərgəli divarlar, həm də su dolu xəndəklər düşmənin qalaya hücumunu ləngitmək, müdafiəni gücləndirmək məqsədi daşıyırdı.

Qalanın özündə yenə də sığınacaqlar vardı. Bu da düşmənin top atəşlərindən qorunmaq üçün idi.

Abbasabad qalası Naxçıvanın yaxınlığında tikilsə də üzü Araza tərəf idi. Qalanın qapısı Cənubi Azərbaycana açılırdı...

Naxçıvanla İran arasında müştərək Araz SES tikilərkən Abbasabad qalası suyun altında qalmışdır).

Abbas Mirzə söhbəti dəyişdi:

– General Yermolov bizdən narazı getdi.

– O, başa düşdü ki, İran «Gülüstan» müqaviləsinin şərtlərini gec-tez pozacaqdır. Çünki biz Qarabağ və Talış xanlıqlarını Rusiyaya güzəştə gedə bilmərik. Ona görə ki, bu torpaqlar Nadir şahın dövründən İranın tabeliyində olub – Allahyar xanın qırğı gözlərinə yenə həmin nifrətin parıltısı qayıtdı – Mənim rusları görən gözüm yoxdur. Onlar «Gülüstan» müqaviləsini bağlamaqla əsas torpaqları əlimizdən çıxardı. Biz bunun qisasını almalı, ruslara həddini göstərməliyik. Bizim arxamızda İngiltərə kimi qüvvətli və qüdrətli bir dövlət dayanıb.

Fətəli şah inamsızlıqla dedi:

– Bu müharibədə biz yenidən uduzsaq, necə? Ruslar da yəqin ki, Naxçıvan və İrəvan xanlıqlarını bizə verməkdə peşimandırlar. General Yermolov həmişəki kimi Volqa – Xəzər yolu ilə İrana gəlmədi. O, İrəvan və Naxçıvandan keçib gəldi. Deməli burda gizli bir rus siyasəti var...

– Naxçıvanda isə Kalbalı xanla görüşüb, onun qonağı olub. – Allahyar xan əsəbi bildirdi.

Abbas Mirzəni maraq götürdü:

– Görəsən Yermolovla Kalbalı xan nə barədə danışıb?

Allahyar xan nifrətini gizlətmədi:

– Kalbalı xanı Tehrana gətirmək və ömürlük zindana salmaq lazımdır.

– Kalbalı xan Məkkə ziyarətinə gedib, Allahyar xan. O, Məkkə ziyarətindən sonra məni görməyə gələcək – Abbas Mirzə sakitcə dedi: – Gözaltı Allahyar xanı acıqla süzərək üzünü çevirdi. Şahın qılığına girərək son vaxtlar ondan ayrılmayan bu

adama qarşı ürəyində səbəbsiz bir nifrətin yarandığını hiss edirdi.

Fətəli şah söhbətin qurtardığını bildirərək son sözünü dedi:

– Abbasabad qalası müharibədə həlledici rol oynayacaq, orda gedən işlərə xüsusi nəzarət edin.

– Baş üstə, şəhriyar.

İkisi də bir ağızdan dedi və eyni vaxtda ayağa qalxdılar, təzim etdilər, dəhlizə çıxanda isə sağollaşmadan bir-birinə arxa çevirdilər.

* * *

...Kiçik qafilə ziyarəti bitirib geri dönürdü. Təbrizə çatmağa az qalmış Kalbalı xan birdən-birə zəiflədiyini, qüvvədən düşdüyünü, bütün vücudunu soyuq tər basdığını hiss edib atın cilovunu çəkdi. At dayandı. Kərim xan yetirib yıxılmaqda olan xanı tutdu. Hamı təlaş, qorxu içində özlərini Kalbalı xana yetirdilər.

Arxası üstə uzanmış, kirpikləri hərəkətsiz, bəyaz çöhrəsində buz kimi tər damlaları görünən xan çətinliklə nəfəs alırdı. Sinəsi tez-tez enib qalxır, göz qabağında şam təki əriyib yox olurdu. Tükəzban xanım göz yaşı içində onun başını dizinin üstünə aldı. Alnındakı soyuq tər damlalarını silə-silə asta səslə «Kalbalı» – deyə çağırdı.

Birdən Kalbalı xana sanki qeybdən qüvvə gəldi. Ona elə gəldi ki, yanından sürətlə bir atlı ötüb keçdi. İşıqsız gözləri bu atlının sifətini aydınca gördü. Əli xan idi. Arxaya çevrilib əlini havada oynatdı, sanki bu səssiz hayqırışla onu arxasınca səslədi. Kalbalı xan başını qaldırdı, zəif səslə qışqırdı:

– Əli xan, dayan getmə, məni də gözlə.

Sonra başı yenə Tükəzban xanımın dizinin üstə düşdü. Tükəzban xanım hüzn içində heyrətlə dedi:

– Əli xan hardan yadına düşdü? Elə bil o, Əli xanı aydınca gördü. Əli, neçə ildir vəfat eləyib?

– Əli xan gözünə görünüb – Kərim xan əmisinin üzünə baxa-baxa kirpiklərinin yaşını sildi.

– Bu yaxşı əlamət deyil – Tükəzban xanım titrədi.

– Həyatının son anını yaşayır – bunu da kimsə dedi. Tükəzban xanımın içini dəli bir hönkürtü aldı.

Nəzərəli xan anasını ovutmağa çalışdı:

– Ürəyinə dammışdı ki, son günlərini yaşayır. Ona görə də Məkkəyə ziyarətə getdi. Çox şükür ki, Allah onun son arzusunu yerinə yetirdi. Məkkə ziyarətini qismət elədi.

Bu anda Kalbalı xan yerində çırpındı. Başını qaldırmaq istədi. Amma bacarmadı. Heysiz əlini zorla sol döşünün üstə qoydu. Barmaqlarının altında götürdüyü torpağın təmasını hiss edərək dərindən köks ötürdü və dünyadan ayrıldı...

* * *

Kalbalı xanı Kəngərli tayfasına aid olan məzarlıqda dəfn etdilər.

Naxçıvanda ilk yazın duyulan nəfəsində bir payız soyuqluğu, xəzan ovqatı vardı. Göylər elə bil yaz yağışı yağdırmırdı – qapqara buludlar göz yaşı tökürdü. Dağlardan aşıb gələn küləklər sanki dağların soyuğunu ətəyinə büküb gətirir, küçə-bacaya, ev-eşiyə dolaraq könülləri üşüdürdü.

Sanki səma da, torpaq da, insanlar da hələ heyrət içindəydi: Kalbalı xan da ölərmiş... Kalbalı xan da yox olarmış... Kalbalı xanın da atının kişnərtisi bu dağlardan kəsilərmiş...

* * *

Kalbalı xandan sonra Naxçıvan taxtı yenidən əldən-ələ keçdi. Xanın böyük oğlu Nəzərəli xan atasının yerinə keçdi. Lakin zəif və cəsarətsiz olduğundan hakimiyyəti əldə saxlaya bilmədi.

Nəzərəli xan taxtdan yendi. Kalbalı xanın qardaşı oğlu Kərim xan taxta çıxdı. Amma axıradək hakimiyyəti idarə edə bilmədi.

Sonra Hüseyn Mirzə...

Yenə Kərim xan...

Məhəmməd Bağır...

Yenə Kərim xan...

Və Kalbalı xandan sonra hakimiyyət tez-tez dəyişdi, Naxçıvan taxtı və Naxçıvan xalqı yenidən rahatlığını itirdi...

## ALTINCI FƏSİL

## ÖLÜMƏ BƏRABƏR AYRILIQ

1

...Vəliəhd Abbas Mirzə Fətəli şahı şad-xürrəm görəndə çaşıb qaldı: qaşlarının düyünü açılmış, sanki çəhrayı bir sevincin işığı bütün sifətini bürümüşdü. Elə bil şahın daxilində hansı bir duyğudansa od alıb körüklənən alovdan bir çınqı da gözlərinin içinə düşmüşdü. Abbas Mirzə həm də bu gözlərdə itilənmiş iştahın parıltısını gördü.

– Xəbəri eşitmisən? – şah yerində otura bilmədi, qalxıb gəzindi, yerişində fatehlərə məxsus bir təkəbbür, özündən müştəbehlik vardı.

– Hansı xəbəri, şəhriyar?

– Deməк bilmirsən – şah Abbas Mirzənin gözlərinin içinə baxdı, başını buladı, sonra da üzünü çevirib sanki eşitdiyi xəbərin sevincinə kimsəni şərik etmək istəmədi.

Maraq Abbas Mirzənin səbrini daşırdı:

– Yoxsa xəbəri məndən gizli saxlamaq istəyirsən, şəhriyar? – səsindəki gizli məzəmmət şaha toxundu. Üzündə xəsisliklə görünən təbəssüm gülüşə döndü:

– Sən bu məmləkətin tacı, mənim vəliəhdimsən. Ola bilərmi ki, mənim səndən gizli saxlancım ola.

– Amma bu xəbər sizi büsbütün dəyişib, şəhriyar.

Fətəli şah məmnun halda qiymətli daş-qaş taxılmış barmaqları ilə saqqalını tumarladı, sonra da Abbas Mirzənin baş açmadığı gizli bir məna ilə xeyli müddət onun gözlərinə baxdı və handan-hana dedi:

– I Nikolay başını itirib.

– Necə itirib, şəhriyar? Qətlə yetiriblər onu? – heyrətdən Abbas Mirzənin gözləri iriləndi.

– Mən başını itirib, dedim Abbas Mirzə. Başını vurublar deмədim.

– Başa düşdüm. Rusiyada... nəsə baş verib?

– Rüsiyada dekabristlər üsyan edib. I Nikolayı taxtdan salmaq istəyirmişlər.

Fətəli şahın sanki içində qaynayan sevincə bələnmiş ümid bütün çalarları ilə gözlərində əks olundu:

– Peterburqda ara qarışıb, məzhəb itib.

Sevincə bələnmiş ümid Abbas Mirzəyə də sirayət etdi:

– Bu xəbər səhihdirmi?

– İngilis kəşfiyyatı yaxşı işləyir.

– Onda Şimali Azərbaycan torpaqlarını ruslardan geri almaq üçün yaxşı fürsət düşüb. Allah özü bu fürsəti bizə verir, şəhriyar.

– Orduda təcili hazırlıq işlərinə başlayın. Daxildə iğtişaş, xaricdə müharibə... Rusiyanı diz çökdürmək üçün yaxşı məqamdır. İngilislər məsləhət görürlər ki, biz yubanmadan müharibəni başlayaq. Onlar bizə hər cür yardıma hazırdır – şah düşündü, sonra da fikirli halda əlavə etdi – Abbasabad qalası döyüşlərdə xüsusi rol oynayacaq. Qalanı sərbazlarla möhkəmlətmək və oraya hərbi sursat daşımaq lazımdır.

– Bəs qalaya komandan kimi məsləhət bilirsiz, şəhriyar?

– Bu işdə düşünmək lazımdır. Komandan inanılmış, etibarlı və cəsur adam olmalıdır. Belə adamların varmı?

– Bilmirəm – Abbas Mirzə tanıdığı adamları xəyalından keçirdi.

– Bəlkə kürəkənlərdən...

– Allahyar xan dikbaşdır. Məncə qalanın baş komandanı mənim kürəkənim Məhəmməd Emin xan olsa yaxşıdır.

– Qalanın mühafizəçisi... kimi məsləhət bilirsən?

– Məncə Ehsan xanı... qalaya mühafiz təyin etsək yaxşı olar.

Fətəli şah özündən çıxdı:

– Ehsan xanı? Kalbalı xanın oğlunu? Onun atası ölənə qədər Qacar sülaləsi ilə barışmadı. Elə bilirəm ki, üzdə özünü bizə sədaqətli göstərsə də bu nifrət Ehsan xanın da qanına işləyib. Halbuki mən ona rütbə verdim, qardaşı Şıxəli xanı isə Ordubada hakim göndərdim.

– Ehsan xan uzun illər İran ordusunda xidmət edib, şəhriyar. Zaman bu köhnə ədavəti çoxdan onun ürəyindən silib aparıb. Ehsan xan istedadlı hərbiçi, cəsur adamdır. Xahiş edirəm, onun İran şahına və mənə olan sədaqətinə şübhə etməyəsiniz.

Şah yumşaldı:

– Əgər Ehsan xana bu qədər inanırsansa etirazım yoxdur. Amma ehtiyatlı ol.

Abbas Mirzə məmnun halda gülümsünərək ikinci namizədin adını çəkdi:

– Qalanın ikinci mühafizəçisi isə istərdim ki, Məmmədrza xan olsun. O, müharibələrdə özünün sədaqət və şücaətini isbat edib. Məmmədrza xan əslən təbrizlidir.

– Olsun.

Fətəli şahla Abbas Mirzənin söhbəti xeyli çəkdi. Hər ikisi çar I Nikolay dekabristlər üsyanından özünə gəlməmiş müharibəni başlamaq qərarına gəldilər.

* * *

1826-cı ilin yayı.

Günəşin yandırıcı istisi sanki torpağı, yeri, göyü gözəgörünməyən alov ətəyinə bükür, çöllərin, düzlərin gül-çiçəyini qovuraraq xəzan nəfəsi tək sovurub töküdü.

Arazdan xeyli uzaqda titrəşən ilğımın içindən bir dəstə süvari çıxdı, sonra süvarilərin sayı artdı və elə bil düzü-dünyanı möhkəm çapan atların nal səsləri bürüdü. At nallarından qalxan toz-duman sanki ordunu ikiyə böldü. Atlar dayanmadan gedirdi. Fətəli şahın altmış minlik qoşunu Arazı keçdi, Şimali Azərbaycanın içərilərinə doğru irəlilədi.

Fətəli şah savaşa tələsirdi, ruslar qüvvə göndərməmiş xanlıqları işğal etmək, qüvvətlənərək rusların qarşısına çıxmaq və işğal olunmuş torpaqları geri qaytarmaq üçün ikinci rus-İran müharibəsini başlamaq istəyirdi...

* * *

Peterburqda isə çar I Nikolay dekabristlər üsyanının alovlanaraq bütün Rusiyanı bürüməsinə imkan vermədi. Üsyanı amansızlıqla yatırtdı və dekabristləri qəddarlıqla cəzalandırdı.

Fətəli şahın Şimali Azərbaycana hücumu imperator sarayına çatanda artıq üsyanı yatırtmış I Nikolay vaxt itirmədən öz ordusunu farslarla müharibəyə səfərbər etdi.

Fətəli şahın qoşunu rusların qarşısında davam gətirə bilmədi. Məğlubiyyət bir-birini izlədi. Farslar geri çəkilərək xanlıqları tərk etdilər.

1827-ci ilin mart ayında şah ordusu ilə döyüşlərdə zəfər qazanmış Qafqaz canişini İvan Fyodoroviç Paskeviç I Nikolayın

29 mart tarixli fərmanı ilə Qafqaz qoşunlarının ali baş komandanı təyin olundu.

* * *

İvan Fyodoroviç Paskeviçin vətəni Poltava şəhəri idi. 1782-ci ilin may ayında burada dünyaya göz açan İvan hələ lap uşaqlıq illərindən diribaşlığı və fərasəti ilə yaşıdlarından fərqlənirdi. Atası Fyodor onun gələcəyinə böyük ümid bəsləyirdi. O, ticarət sahəsində tanınmış tacir idi. Ətrafında çoxlu ermənilər çalışırdı. Onların arasında Sərkis adlı bir erməni tacir ailəsinə daha yaxın və mərhəm idi. Sərkis İvana atalıq şəfqəti göstərirdi. Onun bütün səyi ondaydı ki, bu zirək və diribaş uşaq erməni dilini mükəmməl öyrənsin, erməni ailəsinin tərbiyəsini alsın. Sanki Sərkis bir münəccim uzaqgörənliyi ilə, bu uşağın başı üstə yanan parlaq ulduzu görürdü və buna görə də atası Fyodor kimi Sərkis də onun gələcəyinə ümidlə baxırdı.

İvan yeniyetmə ikən öz gələcək yolunu seçdi: hərbi məktəbdə oxuyub hərbiçi olacaqdı. Sanki uşaq ağlı və fəhmi ilə başa düşürdü ki, varlanmağın, sərvət toplamağın və hərbi şan-şöhrətə çatmağın yolu hərbidən, savaşlardan, müharibələrdən keçir.

Atası Fyodor oğlunun arzusuna qarşı çıxmadı, əksinə sevindi və zədagan uşaqlarının oxuduğu hərbi məktəbdə onun təhsil almasına yardım etdi. Hərbi məktəbi qurtaran İvan Paskeviç Rusiyanın apardığı müharibələrdə iştirak etdi, təcrübə topladı, bacarıq və qabiliyyətini göstərərək gələcəkdə Qafqaza göndərilmək fürsəti qazandı.

Qafqaz... Bu ad ona lap uşaqlıq illərindən tanış idi. O vaxtlar Sərkis İvana çoxlu qorxulu nağıllar danışardı. Bu nağıllar Sərkisin xəstə ağlının qızdırmalı xülyaları idi və nədənsə bu nağıllardakı hadisələr daim Qafqazda vaqe olardı. Sərkisin söylədiyi nağıllarda yeddibaşlı əjdahalar, üçgözlü divlər yaşardı. Onlar çox zalım və rəhimsiz idilər. Fağır və məzlum millətin qanını içirdilər. Sərkis sözarası bildirirdi ki, bu zalımlar müsəlmanlar, fağırlar isə Sərkis kimi ermənilərdir.

Bu nağılları dinləyən kiçik İvan gözləri yaşarmış halda soruşardı:

– Bəs onlar niyə divləri, əjdahaları öldürmürlər?

Sərkis gülümsünər, İvanın sarı saçlarını tumarlayıb göy gözlərindən öpər, deyərdi:

– Onlar səni gözləyir, İvancan. Gözləyir ki, igid bir oğlan olub, öz arxanca bir ordu apararaq müsəlmanları məhv edəsən, fağır millətimizi ağ günə çıxarasan.

– Düz deyirsən Sərkis. Mən bizim erməniləri daim müdafiə edəcəyəm.

Dərindən mütəəssir olan Sərkis göz yaşlarını silərdi:

– Mən bütün ümidlərimi sənə bağlamışam, İvancan.

...Tanrı sanki doğrudan da erməni Sərkisin dualarını eşitdi. Və çar I Nikolay İvan Paskeviçi Qafqaza göndərdi. Verdiyi fərmanda isə xüsusi olaraq bu sözləri yazdı: «...Bizim general-adyutant Paskeviç». Bununla da Paskeviçin saraya və imperatora yaxın, mərhəm bir adam olduğunu nəzərə çatdırdı.

Paskeviçin Qafqaza canişin göndərilməsi hamıdan çox Sərkisi sevindirdi. O, kilsəyə gedərək İkona qarşısında diz çökdü, dualar oxudu və xaç çevirdi. Tanrı doğrudan da, bütün ermənilərə Paskeviçi bir «xilaskar» göndərmişdi...

...Paskeviç canişin vəzifəsinə qədər birinci rus-İran müharibəsində fəal iştirak etmiş və xüsusi rol oynamışdı. Ən başlıcası çara sədaqətini göstərmiş, topladığı sərvət və qənimətləri saraya göndərmişdi. Bununla da çarın və yüksək rütbəli məmurların rəğbətini qazanmışdı. «Gülüstan» müqaviləsinin bağlanmasında da onun böyük xidməti olmuşdu.

Müharibə vaxtı Şimali Azərbaycanı qarış-qarış dolaşan Paskeviç Naxçıvanın hərbi strateji əhəmiyyətini qiymətləndirərək onu işğal etmək və burada ordu saxlamaq fikrinə düşdü.

Çox-çox qədimlərdə güclü dövlətlərin diqqətini çəkən və savaş meydanına çevrilən Naxçıvan rus çarının da iştahını itilədi.

Naxçıvandan İrana getmək asan idi...

Naxçıvandan şərqə də yol gedirdi...

* * *

Fətəli şah ingilislərin fitvası ilə ikinci rus-İran müharibəsini başladı. Bu müharibədə zəfər qazanacağı təqdirdə umacağı çox idi. Lakin Şimali Azərbaycan xanlıqlarında yerli əhali şah ordusunun arxasında dayanmadı. Çünki bu ordu onlara dərddən, yoxsulluqdan başqa heç nə verməmişdi. İran ordusu öz işğalçılıq yürüşləri ilə onları daim qorxutmuş, işgəncə çəkdirmiş, yurd-yuvalarını kor qoymuşdu.

Əhali üzünü rus ordusuna çevirirdi. Üstəlik ruslar güclü idi. Onlar farsları geri çəkilməyə məcbur etdilər. İran ordusu Şimali Azərbaycan torpaqlarını tərk etdi. Lakin həmişəki kimi bu torpaqlardan əliboş geri dönmədi, özündən sonra dağılmış, viran olmuş xarabalıqlar qoydu.

* * *

General Paskeviç neçə gün idi yuxusuz idi. Günlərlə at belindən düşmədiyindən indi birdən-birə yorğunluq güc gəlirdi, şişmiş göz qapaqları öz-özünə yumulurdu. Paskeviç çadırına girib iki saatlığına da olsa dincəlmək, gözünün yuxusunu almaq istədi.

Çadırdan xeyli aralıda isə əsgərlər dincəlirdi. Naxçıvanın qora bişirən istisinə öyrənməmiş əsgərlər süst və yorğun görünürdü. Amma toz qonmuş kirpiklərinin arasından gözləri işıldayır, işğalçılıq ehtirası hamısına yayın qızmar istisini unutdururdu.

Müharibənin bu qızğın vaxtı Paskeviçdən ayrılmayan Sərkis də yorğunluğunu hiss etdi. Generalın ayağı altında uzandı və dizlərini qarnına yığıb gözlərini yumdu. Paskeviç onu evinə getməyə dilə tuturdu. Lakin Sərkis qocalığa və xəstəliyə üstün gələrək rusların İrəvana hücumunu səbirsizliklə gözləyirdi. O, bu sevincin nəşəsini yaşamaq istəyirdi.

Paskeviçin ayağı altında qoca Sərkisi dərin yuxu haqladı. Yuxu şirin və cəzbedici idi. Sərkis qəflətən özünü I Nikolayın sarayında gördü. «Nikolay salonun baş tərəfində özünün möhtəşəm imperator kürsüsündə oturmuşdu. Nikolayın kürsüsündən qapıyadək iki cərgədə saray əyanları özlərini qurudaraq dayanmışdılar. Sərkis salona girəndə bütün başlar ona tərəf çevrilib sonra da aşağı əyildi.

Nikolay ayağa qalxıb Sərkisin yaxınlaşmasını gözlədi. Cavan və gümrah Sərkis başını dik tutaraq əyanların önündən keçib getdi və çarın hüzurunda dayandı. Aşağı əyilib Nikolayın əllərin-

dən və ayaqlarından öpmək istədi. Nikolay onun qolundan tutub öz yanında oturtdu, nəvazişlə, məzəmmətlə başını buladı:

– Sərkis, əlimdən öpmək sənin işin deyil, Sərkis.

Sərkis ürəkləndi:

– Nikolaycan, biz ermənilər sizin sadiq qulunuzuq.

İmperator barmağını silkələdi:

– Sərkiscan, qulumuz yox, dayağımız. Ulu babamız I Pyotr erməniləri çox sevirdi. Bu sevgi ondan bizə ərməğandır.

– Mənim İvanım indi İrəvana yürüş edir.

– İvan kimdir?

– General İvan Paskeviç.

– Xeyir-duamı qəbul edin – Nikolay xaç çevirdi – Ora sizin vətəndir, Sərkiscan.

– İrəvan bizim vətəndi?.. vətəndi?..»

Sərkis səsinə gözünü açdı. Tərin içində buğlanırdı. Key-key ətrafa baxdı. Sanki imperator sarayından birdən-birə çadıra düşməyi onu təəccübləndirdi. Sərkisin vücudunu qəflətən sevinc dalğası bürüdü: «çar xeyir-dua verdi...». O, ayağa qalxıb yuxunun sehri içində generala şam süfrəsi üçün hazırlıq gördü: «Ermənilər şərab və qızardılmış ət gətirib». Paskeviç gözünü açanda qaş qaralmışdı. Onu gözləyən zəngin şam süfrəsini görüb sevindi.

...Dincəlmiş, yorğunluğu çıxmış general əsgərlərə hərəkət əmrini verdi. İrəvana gedən yolda saysız-hesabsız rus əsgərləri durmadan qalalara tərəf irəliləyirdi.

* * *

Rus qoşunları Sərdarabad qalasının yaxınlığında dayandı. General Paskeviç daha irəli gedə bilmədi. Çünki top atəşi, güllə yağmuru rusları geri çəkilməyə məcbur etdi.

Abbas Mirzə İrəvan və Sərdarabad qalalarını möhkəmlətmişdi. İngilislərin verdiyi hərbi sursat sərbazlara yeni qüvvə vermişdi. Ruslar irəliyə hərəkət edən kimi güllələr dolu kimi başlarının üstünə yağırdı. Sərbazlar göz açmağa aman vermirdi.

* * *

General Paskeviçin qərargahında general-leytenant Krassovski, general-adyutant Bakendorf qısa müşavirə keçirdilər. Vəziyyət ağır idi. Generallar başa düşürdülər ki, Abbas Mirzənin

yaxşı silahlanmış, sayca üstün olan ordusu onların qüvvəsini parçalayacaq, rüsvayçı məğlubiyyətə aparacaqdır.

Paskeviç təklifləri dinlədi, götür-qoy etdi, sonra da qərarını verdi:

– Bizim burada qalmağımız heç bir fayda verməyəcək. Əsgərlərimiz qalalara yaxınlaşa bilmir. Üstəlik qorxuram ki, İrəvan xanı Türkiyədən kömək alsın. Ona görə də biz geri çəkilirik, Naxçıvana tərəf – general üzünü Krassovskiyə tutdu – sən öz əsgərlərinlə burada qal. Sənin vəzifən Sərdarabad və İrəvan qalalarını, Eçmiədzin kilsəsini nəzarət altında saxlamaqdır.

Paskeviç Naxçıvana tərəf hərəkət etdi.

Krassovski isə öz ordusu ilə Sərdarabad qalasının yaxınlığında qaldı.

1827-ci il iyun ayının 28-də Abbas Mirzənin sərbazları Şahtaxtıdan adlayıb Xok kəndində rus əsgərlərinin qarşısını kəsdi. Onların məqsədi rusları Naxçıvana buraxmamaq idi.

Qəfləti hücumdan ilk əvvəl ruslar özlərini itirdilər. Lakin qısa döyüşdə iranlıları məğlub etdilər. Farslar geri çəkildi.

Naxçıvana yol açıldı...

2

İyun günəşi yeri, göyü, torpağı yandırırdı.

Bürküdən nəfəs almaq olmurdu. Günortalar şəhərə sanki ölgün bir səssizlik çökürdü. Bu vaxtlar dükan-bazar bağlanır, küçələrdə kimsə görünmürdü. Ağacların isti qarsmış yarpaqları günəşin altında qovrularaq saralırdı. Sanki yay isti nəfəsi ilə payızın saraltısını təbiətin üz-gözünə çəkirdi.

...Hacı Əbülqasım evə günorta namazına tələsirdi. Xan sarayının yanından ötəndə qəflətən şəhərin yuxarı başından qalxan toz-dumanı görüb qorxu içində ayaq saxladı: «Allah sən saxla. Bu nədi?» Toz-duman lay-lay şəhərin üstə yayıldı. Sonra toz-dumanın içindən çıxan süvarilər göründü. At kişnərtisi, nal səsləri ətrafı bürüdü. Sanki qorxunc bir sel şəhərin üstünə gəlirdi. Süvarilər Hacı Əbülqasımın yanından ötüb Mömünəxatun məqbərəsindən aşağı getdilər. Süvarilərdən biri az qala Hacı Əbülqasımı atın ayağının altına salacaqdı. Hacı vaxtında özünü kənara atdı və dizləri titrəyə-titrəyə süvarilərin arxasınca baxdı. Şəhər bir anda rus əsgərləri ilə doldu.

Süvarilərin gətirdiyi toz-torpaq bürkülü havanı bir az da ağırlaşdırdı. Hacı Əbülqasım addımlarını yeyinlətdi, nə düşündüsə bir-iki addım geriyə qayıtdı: «Urus karvansaranı zəbt eləməsin?..». Yenidən üzünü evinə tərəf çevirdi: «Cəhənnəm olsun. Əgər karvansaraya doluşublarsa urusu başa salmaq çətindi».

* * *

General Paskeviç xan sarayına düşdü.

Süvarilər isə şəhərdən kənarda düşərgə saldılar.

Paskeviç Abbasabad qalası ətrafında kəşfiyyat aparan zabitlərin məlumatlarını dinlədi. Bu məlumatlar qaladakı qoşunun sayı, qalanın mühafizəsi, topların sayı barədə müfəssəl xəbər verirdi. Yüksək rütbəli generallarla müzakirələrdən sonra Paskeviçin qərarı bu oldu; korpus qərargahının rəisi Muravyovun piyada hissəsi qalanın sağ tərəfində mövqelərini möhkəmlətsin. Bakendorfun süvariləri Qızılvəng tərəfdən, Eristovun başçılıq etdiyi artilleriya isə mərkəzdən hücum etsin. Bu hücum qaladakı sərbazları çaşdıracaq. Çaşqınlıqdan istifadə edən ruslar qalanı işğal edə biləcəklər. Paskeviç belə düşünürdü...

...Gecə yarıdan ötmüş rusların piyada və süvari hissələri Naxçıvan şəhərindən on kilometr məsafədə olan Abbasabad qalasına tərəf hərəkət etdi.

Arazın vadiləri sərin idi. Gündüzkü bürkünü Arazın sərin mehi qovub aparmış, ətrafa xoş bir sərinlik çökmüşdü.

Piyadalar səssizcə qalanın sağ tərəfində yerləşdi. Bakendorfun süvari hissələri və artilleriya isə qalanı mühasirəyə aldı. Lakin qalaya yaxın qazılmış su dolu xəndəklər irəli getməyə imkan vermədi.

Sübh tezdən ilk top atəşləri açıldı. Eristovun əsgərləri qalaya tərəf qaçaraq hücuma keçdilər. Arxadan isə toplar atılır, qala divarlarına dəyərək, toz-duman qaldırırdı. Topların atəşinə sərbazların dolu kimi yağdırdığı top atəşləri cavab verirdi. Qalanın hər tərəfindən əsgərlərin üstünə güllə yağırdı. Qalaya yaxınlaşan ruslar tələfat verərək geri çəkildi. Qalaya daha yaxın düşmək mümkün olmadı.

Sanki qala ilə əsgərlər arasında odlu sahə yarandı. Sərbazlar bu odlu sahənin alovunu sönməyə qoymurdu. Ruslar çoxlu itki vermişdi. Torpağı qucaqlamış, arxası üstə düşmüş əsgərlərin ovucladıqları torpaq bükülmüş barmaqlarının arasından görü-

nürdü. Döyüş meydanında başına qalmış sahibsiz atlar top atıldıqca diksinir, qabaq ayaqları üstə şahə qalxaraq kişnəyir, ölüm və qan qoxusunu duyaraq hürküb qaçırdılar. Kənarda dayanmış at arabalarına isə yaralıları daşıyırdılar.

Ara-sıra qaladan atılan toplar sanki yeri-göyü silkələyir, odalova bürünmüş torpaq top atəşinin zərbindən sovrularaq göydən yerə qum kimi ələnirdi. İsti, qan qoxusu, irəlidə ölüm təhlükəsi, topların açdığı dərin çuxurlar, havanı ağırlaşdıran barıt tüstüsü... Araz vadisinin mənzərəsini büsbütün pozmuşdu. Vadiyə gözəllik gətirən çəmənlər at ayaqlarının altında məhv olmuş, top atəşləri dərin yarğanlar açmışdı. Ağaclar kökündən baltalanmış kimi başını yerə qoymuşdu.

Sərbazların atəşi rusları irəli getməyə qoymur, ruhdan salırdı.

Qaşqabaqlı, gözləri sərt bir nifrətlə dolan, məğlubiyyətin acığını tökməyə bəhanə axtaran general günahı fərsiz əsgərlərdə görürdü. Qışqırıb-bağırmaqdan səsi kallaşmışdı. Əlindən düşməyən durbinlə qalanı seyr edirdi. Qalada elə bil kimsə yox idi. Sərbazlar görünmürdü. Çünki qala elə tikilmişdi ki, topların harada yerləşdiyini kənardan görmək çətin idi. Buna görə də sərbazlar asanlıqla düşmən tərəfi atəşə tuturdular. Rusların atdığı toplar qalanın divarlarına dəyir, toz-duman qalxsa da yalnız divarları yüngülcə zədələyirdi.

Ruslar farsların atəşindən qorunsa da əsil düşmən yayın bürkülü istisi idi. Bu istiyə alışmadıqlarından əsgərlər susuzluqdan yanır, haldan düşür, əzgin, süst olurdular.

Məğlubiyyət, görünməmiş isti, döyüşdə acizliyini hiss etmək və bundan qəhr olmaq duyğusu baş komandanı çıxılmaz vəziyyətə saldı: qalanı necə işğal etməli? Ümumiyyətlə, işğal edə biləcəkmi? Qalanı nə vaxtadək mühasirədə saxlaya bilər?

General Paskeviç düşünürdü: əgər mühasirə uzansa ola bilsin ki, qızmar hava əsgərlər arasında xəstəlik yaysın. Çünki susuzluğa tab gətirə bilməyən əsgərlər Arazın suyundan ovuclayıb içir, yanğılarını rəf edirdilər. Paskeviç bunu qadağan etsə də əsgərlərlə bacara bilmirdi.

General üz-gözündən axan təri silir, acizliyini hiss etdirməməyə çalışırdı. Onun səbri, dözümü tükənməkdə idi. Paskeviç bilirdi ki, I Nikolay imperator sarayında bu anlarda onun kimi səbirsizdir. Rus-İran müharibəsində həlledici olan Abbasabad qala-

sının alınması haqqında zəfər müjdəsini intizarla gözləyir. Paskeviçin yorğun göy gözlərində əzablı bir ağrı istehza parıltısı kimi görünüb yox oldu: imperator bilsəydi ki, Abbasabad qalasının ətrafında nələr baş verir? Bu qalanı almaq üçün rus əsgərləri necə çətin və qaynar bir savaş içindədir.

Paskeviç durbini yenidən əlinə aldı. Bu anda kəşfiyyatçıların gəldiyini xəbər verdilər. Nagahani bir duyğudan Paskeviçin ürəyi sıxıldı.

General kəşfiyyatçıların komandirini qəbul etdi. O, həyəcan içindəydi. Atı möhkəm sürdüyündən sifəti mis kimi qızarmış, gözlərinin içinə qan sağılmış kimi qıpqırmızı qızarmışdı. Kəşfiyyatçı yaxşı xəbər gətirməmişdi: Abbas Mirzənin ordusu İrandan Şahtaxtı kəndinə adlayaraq Xok kəndi tərəfdən rusları mühasirəyə almaqda idi.

Paskeviç başa düşdü ki, əgər qalanın mühasirəsindən təcili əl çəkməsə, ordunu geriyə çəkməsə onsuz da istidən və susuzluqdan başını itirmiş əsgərlər düşmənin hücumu qarşısında duruş gətirməyərək məhv olacaqlar. Buna görə də general vaxt itirmədən Abbasabad qalasının mühasirəsindən əl çəkdi və orduya Naxçıvana tərəf geri çəkilmək əmrini verdi.

Abbas Mirzənin ordusu yaxınlaşmamış döyüş meydanı boşaldı.

* * *

Abbasabad qalasının mühafizəçisi Ehsan xan rusların geri çəkilməsini həyəcan qarışıq təlaş içində izləyirdi. Ona elə gəldi ki, ürəyinin içindəki ümidin son şöləsi alovlanmadan söndü və qapqara bir kölgəyə büküldü. Yayın bürküsündə soyuq bir sazaq canına doldu. O, müharibənin gedişini əvvəldən dördgözlə izləyirdi. İçindəki gizli, pünhan sevinci kimsəyə hiss etdirmədən qaladakıların ruslara təslim olacağı anı gözləyirdi. Axır ki, Qacar sülaləsinin məğlub olduğunu gözləri ilə görəcəkdi. Daxilində, ürəyinin içində illərlə korun-korun yanan, sönmək bilməyən qisası, intiqamı alacaqdı. Atası Kalbalı xan ömrünün sonunadək Qacar sülaləsinə düşmən kəsildi, bu düşmənçilik hissi oğullarına keçdi. Amma yox, Qacarların məğlubuna sevinməyi təkcə Kalbalı xana görə deyildi, Naxçıvanda şahın zülmü son həddə çatmışdı. Ehsan xan da atası kimi Naxçıvanı kimsədən asılı görmək

istəmirdi. Hər halda Rusiyanın himayəsinə keçsələr savaşlar, qovğalar bitəcək, bu kiçik torpaq müstəqillyini qoruyacaqdı.

Rus ordusu geri çəkilirdi.

Ehsan xan düşünürdü: «ruslar yenə qayıdacaq. Amma qala qapıları açılmasa onlar Abbasabadı işğal edə bilməyəcək. İngilislər qalaya çoxlu hərbi sursat verib. Xeyli ərzaq var. Uzun müddət mühasirədə qalsalar da qaladakılar korluq çəkməyəcək. Üstəlik Abbas Mirzənin qoşunu Xok tərəfdən rusları rahat buraxmayacaq. Necə etməli ki, ruslar Abbasabadı farsların əlindən ala bilsin. Təbrizin yolu rusların üzünə açılsın. Naxçıvan fars zülmündən yaxasını qurtarsın. Fikirləş Ehsan xan, fikirləş...». Sanki Ehsan xanın ürəyində ikinci bir Ehsan xan da səsini çıxardı. İkinci Ehsan xan hökümlü, hikkəli idi. Sanki içində – birinci qərarsız və ehtiyatlı Ehsan xanla ikinci arasında savaş gedirdi:

– İkinci:

– Nəyi gözləyirsən? Fürsətdi, qala qapılarını rusların üzünə aç. Sonra peşiman olarsan.

Birinci:

– Qapıları açsam və farsların əlinə keçsəm şah mənim dərimi diri-diri soydurar.

İkinci:

– Həlledici məqamdı, burax qorxaqlığı

Birinci:

– Fətəli şah bizə çox inanır. O, Şıxəlini Ordubada hakim göndərdi, məni isə Abbasabad qalasına mühafiz.

İkinci:

– O, böyük və qudrətli Kəngərli tayfasının etimadını bir daha qazanmaq istəyir.

Birinci:

– Buna aldanmaq olmaz.

İkinci:

– Ona görə də yaranmış fürsəti qaçırma, qalanı ruslara təslim et.

Birinci:

– Sən məni satqınlığa sürükləyirsən.

İkinci:

– Sənin atan Kalbalı xan qorxmadan, gözünü qırpmadan ölümün üstünə yeridi. Çünki Naxçıvanı Qacar zülmündən qorumaq istəyirdi. Ruslar məğlub olsalar torpağımızda savaşlar, mü-

haribələr bitməyəcək. Naxçıvan əzilib məhv olacaq, ayaqlar altında sürünəcək. Sən ruslara kömək etsən bu torpağa yeni həyat gətirərsən. Kalbalı xanın da ruhu şad olar.

Birinci:

– Yox qorxuram. Şeytan kimi qəlbimə girib ağlımı başımdan çıxarma.

İkinci:

– Cəsarətli ol. Qalanı ruslara təslim et.

Birinci:

– Cəsarətim çatmır. Tarixdə adım ləkəli qalar. «Müsəlmanlara xəyanət edib üzünü xristianlara çevirdi» deyərlər.

İkinci:

– Fars zülmündən azad olmağın yolu ruslara yaxınlaşmaqdır. Kim bilir, bəlkə də Kalbalı xanın arzuları çin oldu, Naxçıvan nə farsdan, nə də rusdan asılı oldu. Amma indi onun gələcəyi naminə farsların ayağınıza, əlinizə vurduğu zəncirləri qır at, qalanı ruslara təslim et. Sonra... sonra peşiman olarsan... Kalbalı xanın rühü incik düşər səndən».

Ehsan xan odla su arasında çırpınırdı. Hansı səmtə gedirdi, sanki gözəgörünməyən alov üz-gözünü qarsırdı. Tərəddüdlə peşimançılıq bir-birini üstələyirdi. Görəsən Kalbalı xan sağ olsaydı, ona hansı yolu göstərərdi. Çox güman ki, «içindəki ikinci hökümlü Ehsan xanı eşit» deyərdi.

Ehsan xan çəkilib gedən rus əsgərlərinin arxasınca baxırdı. Axırıncı atlı da gözdən itdi. Əsgərlər şəhərin ətrafında düşərgə salmışdılar. Aldığı məlumata görə Paskeviçin qərargahı xan sarayında idi. Ehsan xan onu da eşitmişdi ki, orduda azərbaycanlılar da var. Kapitan Mirzə Adıgözəl bəy və Abbasqulu ağa Bakıxanov generalın dilmancıdır. Kapitan Mirzə Adıgözəl bəy əslən Qarabağlıdır. Ehsan xan sevindi: «bəlkə Mirzə Adıgözəl bəylə əlaqə yaratsın? Amma bu işdə kimsə ona kömək etməlidir? Kim, Ehsan xan xeyli düşündü. Fikri qalanın birinci mühafizi, yaxşı tanıdığı Məmmədrza xanın üstündə dayandı. Ehsan xan bilirdi ki, Məmmədrza xan üzdə Fətəli şahın tərəfdarı olsa da nifrəti dərindədir. Naxçıvanda olduğu kimi şah Təbrizdə də azərbaycanlıları rahat yaşamağa qoymur. Azərbaycanın şimalı kimi cənubu da şah zülmündən əziyyət çəkir.

Ehsan xan Məmmədrza xanla danışmaq üçün qalanın bürcünə çıxdı.

...Məmmədrza xan qaşqabaqlı, fikirliydi. Rusların geri çəkilməsi ilə qalada sakitlik, arxayınlıq yaranmışdı. Sərbazlar tüfənglərini silib təmizləyir, topların yerini dəyişir, zarafatlaşıb gülüşürdülər. Qalanın baş komandanı Məhəmməd Emin xanın da keyfi saz idi. Qaşlarının düyünü açılmış, qara, zəhmli sifətində xoş bir ifadə yaranmışdı.

Ehsan xan Məmmədrza xanla qalanın hər tərəfini gəzdilər. Rusların atdığı toplar qalaya çox da ziyan vurmamışdı. Yuxusuzluqdan çox içərisində gedən savaşdan yorulmuş Ehsan xanın kədərli, pərişan sifəti Məmmədrza xanın gözündən yayınmadı:

– Gözümə bir təhər dəyirsən, Ehsan xan.

Ehsan xan diqqətlə onun gözlərinin içinə baxdı, orda inam, etibar axtardı. Məmmədrza xan sözunü bir də təkrar edəndə Ehsan xan köksünü ötürdü:

– Uşaqlarımdan çox nigaranam, Məmmədrza xan – dedi.

– Neçə uşaqdı Ehsan xan?

– İki oğlum var. Böyüyü İsmayılın səkkiz yaşı var. Kiçiyinə atam Kalbalı xanın adını qoymuşam. İsmayılın hərbi sənətə böyük marağı var. Kiçik olsa da yaxşı at çapır, qılınc oynadır. İnanıram ki, o, gələcəkdə yaxşı hərbiçi olacaq. (İsmayıl xan rus ordusunda general-leytenant rütbəsinədək yüksəldi, Kalbalı xan isə general-mayor rütbəsi aldı).

– Mənim də ailəmdən, uşaqlarımdan xəbərim yoxdur, Ehsan xan. Kim bilir, bu müharibə nə qədər sürəcək, taleyimiz necə olacaq? Şahdan çəkdiyimiz zülüm...

Məmmədrza xan qəflətən ağzından çıxan kəlmələrdən qorxdu, dilini dişləyib sözünün arxasını uddu, ehtiyatla ətrafa nəzər salıb qorxu içində Ehsan xanın üzünə baxdı.

Ehsan xan əlini onun çiyninə qoydu:

– Məndən çəkinmə, Məmmədrza xan. Şahdan ən çox zülmü biz çəkmişik. İran şahları daim Naxçıvanı kor qoyub, Qacar atamın gözlərini çıxarıb, üstəlik kor atamı, qardaşım Şıxəli xanı Tehran zindanında neçə illər dustaq saxlayıb. Qorxuram ki... – Ehsan xan səsini alçaltdı – qorxuram ruslar uduza, Naxçıvan yenə İranın himayəsində qala. Bu fikir məni rahat buraxmır. Məmmədrza xan da ürəkləndi:

– Azərbaycan xanlıqlarının heç biri şahı istəmir. Onlar rusların himayəsinə keçməyə fürsət axtarırlar. Mənə çatan məlumata görə Vedinin Şadlı qəbiləsinin başçısı Kalbayı üç yüz nəfər ailə

ilə Paskeviçin yanına gələrək Rusiyanın himayəsinə keçmək istədiyini bildirib.

Ehsan xanın ürəyində sönməkdə olan ümid təzədən qor alıb şölələndi:

– Deyilənə görə Azərbaycanın cənubundan da qırx ailə rusların himayəsinə keçib.

Ehsan xan Məmmədrza xanı qalanın gözdən uzaq küncünə çəkdi. Ətrafa baxıb pıçıltı ilə dedi:

– Məmmədrza xan, mənim fikirlərim çox qarışıb. Bizə etibar edilən üç min nəfər sərbaz bu qalanı qoruyur. Üstəlik şahzadənin ordusu da ruslardan bir neçə dəfə çoxdur. Əgər farslar qalib gəlsələr mən qorxuram ki, Fətəli şah Arazın şimal tərəfində olan əhalini İranın içərilərinə köçürsün. Mən bundan çox qorxuram, xan.

Məmmədrza xan da udqundu və dərin fikrə getdi. Handan-hana pıçıltı ilə cavab verdi:

– Azərbaycanın şimal tərəfi kimi cənubu da farsların ayaqları altında əzilir.

– Sən mənimlə həmfikirsən, Məmmədrza xan?

– Bizim ikimizin də torpağı tapdaq altındadır.

– Bunun bir yolu var ki, biz farsların zülmündən azad olaq, balalarımız rahat yaşasın. Müharibələr, savaşlar evlərimizi dağıdıb, ocaqlarımızı kor qoyub, adamların dizini qırıb. Elə bir ev yoxdur ki, əzizini itirməmiş olsun.

Məmmədrza xan səbirsiz soruşdu:

– Çıxış yolu hardadır? Rusların himayəsi altında yaşamaqdamı?

– Atam Kalbalı xan uzun illər farslardan yaxa qurtarıb rusların tərəfinə keçməyə can atmışdı. Biz də o yolu seçməliyik.

– Biz səhv eləmərik ki, Ehsan xan?

– Mən çox düşünmüşəm. Başqa yolumuz yoxdur.

– Ruslarla necə əlaqə yarada bilərik?

Ehsan xan arxayınlıqla nəfəs aldı. Başını qaldırıb göylərə baxdı. Günəş artıq istisini, alovunu yığıb çəkilib gedirdi. Onun son şüaları Arazın sularında əks olunurdu.

– Məmmədrza xan, – Ehsan xan səsini alçaltdı – bilirsən ki, farsların gücü indi Abbasabad qalasındadır. Nə qədər ki, qala farsların əlindədi, ruslar onlara bata bilməyəcək.

– Sən neynəmək fikrindəsən, Ehsan xan?

Ehsan xan diksindi: «Məmmədrza xana inanmaqda səhv eləmirəm ki? Məhəmməd Emin xanın adamı olsa... hər şeyi baş komandana xəbər versə? Bəlkə Məmmədrza xan şeytan kimi qəlbimə girib məndən söz çəkir? Baş komandan xəyanətimdən xəbər tutsa»... Ehsan xanın çəkəcəyi cəzadan tükləri ürpədi.

Ehsan xandan cavab çıxmadığını görən Məmmədrza xan onun tərəddüd etdiyini anladı, incik, küskün səslə dedi:

– Sənin kimi mən də Qacar sülaləsi ilə düşmənəm, Ehsan xan. Mən mərd və cəsarətli adamam. Pislik eləmək nakişilikdir. Sözünü çəkinmə de. Əgər qurtuluş budursa mən səninləyəm.

– İstəyirəm qalanı ruslara təslim edəm.

– Qalanı təslim edəsən?

– Bu fikir məni rahat buraxmır. Ruslar ona yaxın düşə bilməyəcək. Qala Cənubi Azərbaycanın yolunu bağlayır. Onu işğal etmədən ruslar Təbrizə girə bilməz.

– Elədir. Bəs Paskeviçlə necə əlaqə yarada bilərsən?

– Eşitdiyimə görə Paskeviçin dilmancı qarabağlı bir kapitandır. Mirzə Adıgözəl bəy. Mən yaxın, inandığım adamlardan birini gecəyarı qaladan gizlicə bayıra buraxacam. Həmin adam Adıgözəl bəyi tapacaq və mənim sözlərimi eyni ilə ona çatdıracaq. Sözüm isə belədir: «Knyaza bildirin ki, bu tərəfə hərəkət etsin. Buraya gələn kimi qalanı ona təslim edəcəyəm».

– Amma ehtiyatlı ol, Ehsan xan. Şah ona xəyanət eləmiş adamları bağışlamır, onlardan amansız intiqam alır.

– Çalışaram Məmmədrza xan. Sən indi yerinə get və işinlə məşğul ol. Mən isə o adamı tapım və gecə gizlicə qaladan çıxması üçün təlimatlandırım.

– Tanrı köməyimiz olsun, Ehsan xan.

Ehsan xan üzünü qaralmış göylərə tutdu:

– Amin.

* * *

Knyaz Paskeviçi qərargahda daha bir qanqaraldıcı xəbər gözləyirdi: general-adyutant Bakendorf Sərdarabad qalasına nəzarət edən general Krassovskidən aldığı məktubu Paskeviçə təqdim etdi. Krassovski məlumat verirdi ki, İrəvan qalasını müdafiə edən sərbazlar qəflətən orduya hücum etmiş, qeyri-bərabər döyüşdə yüzlərlə əsgər həlak olmuş, sağ qalanlar isə əsir götürül-

müşdür. Əsgərsiz, ordusuz qalan general Krassovski necə hərəkət etməsi barədə baş komandandan əmr gözləyirdi.

Məktubu axıradək oxuyub qurtaran Paskeviç əlləri ilə gicgahını tutdu. Məğlubiyyətdən sarsılaraq bir an iflic olmuş kimi dayandı. Sanki yayın bürküsündən də ağır, isti bir ilğım onu od-alova bükərək nəfəs çəkməyə qoymadı. Paskeviçə elə gəldi ki, bu anda kimsə onun gözlərinin qarşısına ağır, qapqara pərdə tutdu. Gözləri qaraldı, ağlında hər şey bir-birinə qarışdı: «Bu nə uğursuzluqdur addım-addım məni kölgə kimi izləyir? Sərdarabad, İrəvan qalalarını ala bilməyib ordunu çəkdim Naxçıvana. Abbasabad qalasına hücum məğlubiyyət gətirdi. Krassovskinin ordusu darmadağın edildi? Bəlkə mən daha yorulmuşam, ordunu idarə edə bilmirəm? Ah, Krassovski, əsgəri güdaza verən generalı öz əllərimlə güllələrdim...». Paskeviç hirsindən qəliz rus söyüşü söyərək oxuduğu məktubu parça-parça etdi, ayaqları artında tapdaladı. Amma qəzəbini cilovlayaraq içindəki tufanı biruzə vermədən pəncərənin qarşısına gəldi. Şəhərdən on kilometr uzaqda Abbasabad qalası görünürdü. Xan sarayından aşağılarda isə Arazın yaşıl vadiləri göz oxşayırdı. İndi o yerlərdə savaş bitdiyindən vadilər bütün gözəlliyini üzə çıxarmışdı...

Paskeviçin düşüncələri yenidən qarışdı. Krassovskini, onun dağıdılmış ordusunu yaddan çıxardı. Fikri Abbasabad qalasının üstə gəldi: «Qalanı necə, hansı yolla işğal etmək olar?». General Sisianov bir vaxt yaxşı müdafiə olunan Gəncə qalasını işğal etmişdi. Bu xarüqə bir qələbə idi. Lakin Sisianov bu zəfəri ermənilərin satqınlığı nəticəsində qazandı... İndi Paskeviçin də ordusunda çoxlu ermənilər döyüşürdü. Onlar rus dövlətinə sadiq idilər. Lakin ermənilərin əli Abbasabad qalasının içərisinə çatmırdı. Paskeviç təəssüflə başını buladı... Azərbaycanın bütünlüklə işğalında ermənilərin umacağı var. Qafqazda ermənilərin istədiyi Ermənistan dövlətini yaratmaq çar I Nikolayın da arzusu idi.

Amma onlar hələlik Abbasabad qalasını almaqda çətinlik çəkirlər. Qala cənubi Azərbaycana açılan qapıdır. Amma indi bu qalanın qapıları rusların üzünə elə bağlanıb ki, onu açmağa Paskeviçin hərbi bacarığı kara gəlmir. Halbuki Azərbaycanın bütövlükdə işğalı Rusiyanın qüvvətlənməsinə, onun I Pyotrdan üzübəri gələn, nəsildən-nəslə keçən vəsiyyətinin həyata keçirilməsinə xidmət edəcəkdi. Lakin indilikdə Abbasabad qalasının müdafiəsi

elə möhkəm idi ki, əsgərlər onun həndəvərinə belə yaxın düşə bilmirdilər.

Paskeviç əlləri ilə ağrıyan gicgahlarını ovuşdurdu. Ona elə gəldi ki, qarmaqarışıq fikirlərlə dolu beynində onu yaşadan, ruhlandıran, irəliyə aparan hər nə varsa hiss olunmadan, yalnız ürəyində dərin bir zədə buraxaraq ölür... Otağa çökmüş sükuta sanki səssiz güllələr dəyir. Elə bil bu səssiz güllələr onu da yüz yerdən yaralayır, öldürür, yenidən diriłdir...

Handan-hana başını qaldırıb ətrafa baxdı və qarşısında onun əmrini gözləyən Bakendorfu gördü. Tabeliyində olan generalın qarşısında zəiflik göstərdiyinə, acizlik və gücsüzlüyünü büruzə verdiyinə görə Paskeviçin özünə acığı tutdu. Gülümsəməyə çalışaraq yumruğunu masaya çırpdı və bağırdı:

– Ruhdan düşmək olmaz. Biz hələ vuruşacağıq. Biz farslara öz gücümüzü göstərəcəyik. İranı işğal edəcəyik. Fətəli şah görəcək...

General Bakendorf birdən-birə dəyişilən, gözləri nifrət atəşi ilə yanan Paskeviçi süzüb gümrah səslə dedi:

– Cənab Paskeviç, sizin müharibə sınağından çıxmış sərkərdəlik istedadınız var. Bu istedad və hərbi bacarıq rus ordusunu zəfərlərə aparacaq.

General tərifdən xoşlandı, sanki ruh düşgünlüyü qəfil ağrı kimi ötüb keçdi. Başını bulayıb təəssüflə dedi:

– Krassovski kimi fərsiz generallar əsgəri həmişə güdaza verər. Axmaq... üç min əsgər məhv oldu, əsir düşdü. Gərək bu savaşda Krassovskinin özü də həlak olardı.

Bakendorf cavab verdi:

– Əslində Krassovskinin günahı azdır, general. Krassovskinin ordusu xüsusi Qafqaz korpusunun 20-ci diviziyasından gəlmiş əsgərlərdən ibarət idi. Bu əsgərlər isə orduya yenicə alınmışdı. Onlar hələ hərbi təlim görməmiş, güllə atmağı bacarmayan təcrübəsiz əsgərlər idi. Onları döyüşə aparmaq – labüd ölümə aparmaq kimi bir iş idi. Ona görə də farslar bu təcrübəsiz əsgərləri asanlıqla məhv etdilər.

Paskeviç bağırdı:

– Onların əvəzinə mənmi döyüşməli idim?

– Mən sizə məğlubiyyətin səbəbini dedim, general.

Paskeviç cavab vermədi. Yenidən pəncərənin qarşısında dayandı. Bu anda adyutant içəri girərək dilmanc kapitan Mirzə Adıgözəl bəyin onu görmək istədiyini bildirdi.

Paskeviç laqeydliklə əlini yellədi:

– Özünüz qəbul edin, general məşğuldur, – deyin.

Adyutant əlini gicgahına apardı, qapıdan çıxdı və yenidən qayıtdı:

– Cənab general, məxfi söhbətdir deyir. O, sizi görmək istəyir.

General razılıq verdi. Kapitan Mirzə Adıgözəl bəy Paskeviçə Ehsan xanın sözünü eyni ilə çatdırdı: «Knyaza bildirin ki, bu tərəfə hərəkət etsin. Buraya gələn kimi qalanı ona təslim edəcəyəm».

Paskeviç yerində rahat otura bilmədi. Xəbər elə gözlənilməz oldu ki, sanki şimşək kimi çaxıb içərisindəki qara buludları dağıtdı, inamsızlığı, ümidsizliyi, rüh düşkünlüyünü, qanıqaralığı sıxıb çıxardı. O, bir müddət nə düşündüyünü, nə etdiyini bilmədi. Mirzə Adıgözəl bəy generalın qarşısında farağat dayanıb onun cavabını gözləyirdi.

Paskeviçin tutulmuş qaşqabağı açıldı, zəhər yağan gözlərinin içindən zəif bir təbəssüm şöləsi göründü və o, xəsisliklə gülümsünərək mülayimliklə Mirzə Adıgözəl bəyi oturmağa dəvət etdi. Sonra da soruşdu:

– Kapitan, sizin o adamla şəxsi tanışlığınız varmı?

– Yoxdur, cənab general – lakin mən onun haqqında məlumat topladım. Ehsan xan naxçıvanlıdır. Şah ordusunda xidmət edir. Qalanın mühafizlərindən biridir. Şah idarəçiliyinin düşmənidir. Ruslara rəğbəti var. Onun atası Kalbalı xan otuz il həmin siz oturduğunuz xan sarayında Naxçıvan xanlığına başçılıq edib. Naxçıvan İrana tabe olsa da Qacar sülaləsi ilə barışmayan kor Kalbalı xan daim rusların himayəsini qəbul etməyə hazır olub. Ehsan xanın qardaşı Şıxəli xan da rus ordusunun tərkibində farslara qarşı döyüşüb. Çar I Aleksandr ona hərbi rütbə verib və ömürlük təqaüd kəsib.

– Demək Ehsan xana inanmaq olar.

– Ehsan xan özü də sizinlə görüşmək istəyir. Qalanı təslim etmək üçün onun şərti var.

– Hansı şərti?

– Mən bilmirəm, general. O, bu şərtləri sizinlə danışacaqdır.

General susdu. Otaqda gəzindi. Sonra da Mirzə Adıgözəl bəyin qarşısında dayandı:

– O halda Ehsan xan mənim müvəkkilim Qriboyedovla görüşər. Görüş qalanın yaxınlığında olacaq. Gecəyarısı onu orda gözləyəcəklər.

Sonra general səmimiyyətlə Mirzə Adıgözəl bəyin əlini sıxdı və dedi:

– Yaxşı baxaq görək, Ehsan xanın şərti nə olacaq və o, sözünün üstə duracaqmı?

...Gecə Paskeviçin yanında çağırılan müşavirə çox çəkmədi. Ordu generalları əvvəl Krassovskiyə kömək göndərilməsini təklif etdilər. Generalların dediklərini səbrlə dinləyən Paskeviç axırda öz qərarını bildirdi:

– General Bakendorf öz ordusu ilə İrəvana hərəkət etsin. Krassovski ilə birləşib İrəvan və Sərdarabad qalalarını nəzarət altında saxlasınlar ki, Abbas Mirzə oraya əlavə qüvvə göndərə bilməsin.

Eristov isə öz ordusunu Abbasabad qalasının yanında saxlasın. Burda yenə məqsəd odur ki, Abbas Mirzə qalaya əlavə kömək göndərə bilməsin. Ehsan xanla danışıqlarımız baş tutarsa bu o deməkdir ki, qalanı asanlıqla işğal edə biləcəyik.

* * *

...Ay buludların arxasına keçdi. Lakin yay gecəsi ulduz işığına bürünmüşdü. Sonsuz göy qübbəsində sakit ulduz işığında buludlar tünd mavi görünürdü, elə bil səssizcə mavi tüstü layları kimi axıb gedirdi.

Qalada sakitlik idi. Təkcə keşikçilərin addım səsləri eşidilirdi. Ehsan xan yanındakı adamla qalanın ensiz, dar pillələrindən aşağı düşdü. Səssizcə, nəfəslərini içəri çəkərək ətrafa qulaq verdilər. Qalanın küncündən çıxan iki nəfər sərbaz onlara tərəf yaxınlaşırdı. Ehsan xan və üzünü gizləmiş adam pillələrə tərəf çəkilib gizləndilər. Sərbazlar onların yanına çatmamış geriyə döndülər və uzaqlaşdılar.

Ehsan xan dərindən nəfəs aldı. Əlini qara paltarlı adamın çiyninə qoydu:

– Dediklərimi tez-tez təkrar et ki, yadından çıxmasın. İki saat keçmiş mən səni burda gözləyəcəm. Onların da dediklərini eyni ilə yadında saxla.

– Baş üstə, xan.

– Qalanın yaxınlığında səni gözləyəcəklər.

– Oldu, xan.

Ehsan xan açarı çıxarıb qala qapısını səs salmadan ehtiyatla açdı. İkisi də qapıdan boylanıb ətrafı süzdü. Ehsan xan üzünü bürümüş adamın çiyninə toxundu. O, cəld və çevik hərəkətlə qapıdan uzaqlaşdı, ay buludların arxasından çıxmamış özünü qaranlığın qucağına atdı.

Ehsan xan kürəyini qalanın divarına söykədi. Ürəyi şiddətlə çırpınırdı. O, özündən yox, sərbazın ələ keçməsindən qorxurdu. Lakin vaxt keçdikcə qorxu hissi də sakitləşdi. Ürəyinin şiddətli çırpıntısı dayandı. Ehsan xan – pillələri ehtiyatla, səs salmadan çıxdı, gözətçilərin gözünə görünmədən qala bürcünə qalxdı. Ətrafı gəzdi, gözətçilərə baş çəkdi.

Məhəmməd Emin xan dincəlirdi.

Aradan xeyli keçdi. Ehsan xan narahatlıqdan, nigarançılıqdan özünə yer tapa bilmirdi. Sərbazın qayıtmaq vaxtı yaxınlaşdıqca bütün vücudunu bir həyəcan dalğası, qasırğası bürüyürdü. Yenidən ətrafa diqqətlə nəzər salıb kimsənin gözünə görünmədən aşağı yendi. Qalanın qapısını azca aralayan kimi qulağına dəyən pıçıltılı səsdən diksindi:

– Ehsan xaaan...

– ...Yavaş. Mənəm Ehsan xandır.

Ehsan xan sərbazın qolundan tutub içəri atdı.

Gizlənməyə macal tapmamış keşikçiləri üç addımlıqda gördülər. Ehsan xanla sərbaz divara sıxıldılar və nəfəslərini içlərinə çəkdilər. Keşikçilər əmr almış kimi ikisi də eyni anda ayaq saxladı:

– Gözümə qaraltı dəydi – biri diqqətlə irəli baxdı.

– Qalanın içində bizdən başqa kim var? Bəlkə gözünə rus əsgəri göründü? – o biri rişxəndlə güldü.

– Urus, padşahın da yanına yol tapar. Amma nə bilim... bəlkə də qara basır...

Keşikçilərin addım səsləri uzaqlaşdı.

Ehsan xanla sərbaz alınlarında buzlamış təri sildilər. Ehsan xan gülümsündü:

– Yaxşı qurtardıq. Söylə görək nə oldu? – səbirsiz soruşdu.

Sərbazın həyəcanı titrəyən səsində, tövşüyən nəfəsində hiss olundu. Əlini sinəsinə qoyub dərindən nəfəs aldı və pıçıltı ilə dedi:

– Ehsan xan, dediyiniz kimi orda məni gözləyirdilər. Qaranlıqda iki nəfər çıxıb mənə yaxınlaşdı, rusca nə dedilərsə başa düşmədim. Onlar mənim gözlərimi bağladılar və hara isə apardılar. Atdan düşüb otağa girdik. Gözümü açdılar. Masanın başında eynəkli rus oturmuşdu. O, deyəsən böyük adam idi. Yanında dilmancı da vardı. Mən eynilə sizin sözlərinizi onlara çatdırdım. Onu da dedim ki, qala qapılarını rusların üzünə açmaq üçün Ehsan xanın şərti var. Yalnız bu şərtlər yerinə yetirilsə o zaman Ehsan xan Abbasabad qalasını sizə təslim edəcəkdir.

Eynəkli buyurdu ki, onda Ehsan xanın şərtini söylə.

Mən cavab verdim ki, Ehsan xan özü sizinlə şəxsən görüşmək və şərtlərini bildirmək istəyir.

Ehsan xan səbirsiz soruşdu:

– Eynəkli razılaşdımı?

– Razılaşdı.

– Eynəkli generalın özü deyildimi?

– Xeyr, Ehsan xan. O, özünü təqdim edəndə Qriboyedov dedi.

Ehsan xan fikrə getdi: «Bu İranda Rusiyanın səlahiyyətli nümayəndəsi işləmiş Qriboyedovdur. İndi isə Paskeviçin müvəkkilidi».

– Onlar sizi sabah həmin vaxt orda gözləyəcəklər, xan.

Keşikçi sərbazların ayaq səsləri yenidən yaxınlaşdı.

Ehsan xan sərbazın qolundan tutub onu pillələrə tərəf çəkdi:

– Sən öz yerinə get. Mən də sərbazlara yaxınlaşım. Onların nəzərini yayındırım. Gün ərzində mənə yaxınlaşma. Gecə yarıdan sonra isə məni elə burda gözlə.

– Oldu xan. Gecən xeyrə.

– Gecən xeyrə.

Keşikçilər yaxınlaşmamış Ehsan xan onları qabaqladı...

* * *

Ertəsi gün gecəyarısı qaladan gizlicə çıxan iki nəfəri ruslar qarşıladı. İkisinin də gözlərini bağladılar. Lakin at addımlarını atdıqca Ehsan xan sövqi-təbii ilə haradan keçdiklərini təxmin edirdi. Sonra onları atdan düşürdülər. Qollarından tutub irəli apar-

dılar. Otağa girəndə gözlərini açdılar. Ehsan xan otaqda iki nəfər gördü. Onlardan biriyaşlı adam general rütbəsində idi. Digəri isə mülki geyimdə eynək taxmış orta yaşlı sarıbəniz adam idi. İkisi də ayağa qalxıb Ehsan xanla səmimiyyətlə görüşdülər və özlərini təqdim etdilər:

– General Paskeviç ...

– Qriboyedov.

Ehsan xan diqqətlə yaşlı adamı süzdü: «Demək Paskeviç budu».

Sərbazı bayıra çıxardılar. Üçlükdə masanın arxasında oturdular.

Söhbət başlandı. Rusları Ehsan xanın şərtləri maraqlandırırdı...

* * *

Ehsan xanla sərbaz ehtiyatla qaladan içəri girəndə sərbaz çəkingən soruşdu:

– Xan qaladan çıxmağa yenə ehtiyac varmı?

– Onlar mənim şərtlərimlə razılaşmaq istəmir.

– O halda...

– Sabah yenə getməliyik. Həmin vaxtda elə burda məni gözlərsən.

– Baş üstə, xan.

Keşikçilər gözə dəymirdi. Sakitlik idi. Ehsan xanla sərbaz ətrafı gözdən keçirib hərəsi bir tərəfə üz tutdu.

...Və Ehsan xan üç gün Qriboyedovla gizli danışıqlar apardı. Onların qarşısında hansı şərtləri qoydu, bunu kimsə bilmədi (bu danışıqlar bu günədək açılmayıb). Lakin şərtləri Paskeviç qəbul etdiyindən Ehsan xan Abbasabad qalasını təslim etməyə razılıq verdi...

* * *

1827-ci il 1 iyul gecəsi.

Ruslar gizlicə qalaya yaxınlaşırdı.

Abbasabad oyaq idi. Ehsan xan qaladan aşağılara diqqətlə baxırdı. Ay işığında qaladan xeyli kənarda rus əsgərləri aydınca görünürdü. Sanki ay işığında Araz vadisində saysız-hesabsız kölgələr dolaşırdı.

Qalanın baş komandanı Məhəmməd Emin xan da rusların qalaya yaxınlaşmasını diqqətlə izləyirdi. Əvvəl təşviş, qorxu hissi keçirsə də özünü sakitləşdirdi: qalanı işğal etmək çətindir. Bunu ruslar artıq bir dəfə sınaqdan çıxarmışdılar. Əgər onlar qalanı yenidən mühasirəyə alsaydılar Abbas Mirzə onların özünü mühasirə halqasına salacaqdı.

Gecənin qaranlığında ruslar səngər qazmağa başladılar. Onlar işi səssiz görməyə, qaladakıları duyuq salmamağa çalışırdılar, amma daşa-torpağa dəyən külünglərin səsi eşidilirdi.

Səhərə yaxın ruslar səngərləri qazıb qurtardılar. Sübhün gözü açılanda qalanın yaxınlığına qədər qazılmış torpaq layları göründü. Əsgərlər bu torpaq topalarının arxasında – səngərlərdə gizlənmişdilər. Səngərlərin yanına sürüyüb gətirdikləri toplar aydınca görünürdü.

Məhəmməd Emin xanın təşvişi getdikcə artırdı. Bu ruslar görəsən nəyə arxayındılar ki, ikinci dəfə Abbasabad qalasına hücum etmək fikrinə düşdülər? Bəlkə onlara güclü kömək gələcək? Görəsən Paskeviç kimə arxalanır, kimdən kömək umur?

Məhəmməd Emin xan durbinlə Abbasabad qalasının ətrafını diqqətlə gözdən keçirərək üzünü qalanın mühafizəçiləri Ehsan xanla Məmmədrza xana tutdu;

– Paskeviç yəqin ki, təzə qüvvə alıb. Yoxsa qalaya hücum etməyə cürət etməzdi... Xəbəri yoxdu ki, Abbas Mirzə köməyə gəlir

Məmmədrza xan birdən qorxu içində ucadan dedi:

– Ruslar Arazı keçirlər, komandan.

– Arazı?

Məhəmməd Emin xan yalnız indi Arazdan tuluqlarla o biri sahilə keçən rusları gördü, hirslə əlini dizinə çırpdı:

– Bu Paskeviç çox bic adamdır. Hava doldurulmuş tuluqlarla Arazı keçmək onun ağlına hardan gəldi?

Məmmədrza xan başını buladı:

– Vəziyyət ağırdır, Məhəmməd Emin xan.

Ehsan xan gizli bir sevinc hissi ilə Arazı seyr edirdi.Ruslar onun köməyinə arxalanaraq yenidən Abbasabad qalasına yaxınlaşırlar. Qalada isə Məmmədrza xandan başqa kimsənin bundan xəbəri yoxdur. Məhəmməd Emin xan bir addımlığında dayanan Ehsan xanın qisas almaq, intiqam almaq duyğusundan xəbərsizdir. Görəsən bunu biləndə baş komandan hansı hissləri keçirə-

cək? Çox güman ki, quduzlaşmış canavara dönəcək. Onu əlləri, dişi-dırnağı ilə parçalamaq həddinə çatacaq. Eləcə də Abbas Mirzə. Qoy olsun. Qoy onlar başa düşsünlər ki, Kalbalı xan yoxdusa onun yerində oğulları var. Onlar Qacar sülaləsindən axır ki, amansız intiqam aldılar... Ən başlıcası isə Naxçıvan farsların zülmündən qurtarıb azad nəfəs alacaq...

Lakin səbəbini bilmədiyi gizli həyəcan hissi Ehsan xanın bütün vücudunu bürüyürdü. O, ağır günah işləyən adamlar kimi gözlərini Məhəmməd Emin xanın baxışlarından yayındırırdı.

Məhəmməd Emin xan qorxusunu biruzə vermədən arxayınlıqla dedi:

– Ruslar bizə bata bilməz. Abbas Mirzə qalaya əlavə qüvvə göndərə bilməsə də burada xeyli döyüş və ərzaq sursatı var. Ruslar da qalanı mühasirədə çox saxlaya bilməz. Biz özümüz qalanı könüllü verməsək bura bir quş da səkə bilməz. Abbasabad alınmaz qaladır.

Ehsan xanla Məmmədrza xan baxışdılar.

Məmmədrza xan baş komandanın dediyinə etiraz etdi:

– Düşmənin zəifliyinə bel bağlamayın, komandan.

– Aldanış məğlubiyyətə aparır – Ehsan xan da əlavə etdi.

– Sərbazlar döyüşə hazır olsun. Ruslar artıq topları da Arazdan keçirirlər – Məhəmməd Emin xan sözünü deyib getdi.

* * *

1827-ci il 5 iyul.

Dan yeri ağarmamış rusların qalaya atdıqları ilk top yerigöyü titrətdi. Və Abbasabad qalasının yaxınlığındakı Cavan bulağı adlanan yerdə ilk savaş başlandı. Abbas Mirzənin süvari qoşunu ilə rusların piyada və süvari dəstələri üz-üzə gəldilər.

Günəş yerə od ələyirdi. Bu isti ilğım içində qanlı savaş gedirdi. At nallarından qalxan toz-duman içində toplar atəş açır, torpaq göyə sovrularaq iri çalalar yaradırdı. Ətraf cəsədlərlə dolmuşdu. Sahibini itirmiş atlar yağan güllələr, açılan top atəşləri altında hürkür, hara gedəcəyini bilməyərək cəsədlər arasında vurnuxur, şahə qalxaraq kişnəyir, sonra da toz-duman içində qaçıb gedirdilər. Cəsədlərin arasında ölmüş atlar da gözə dəyirdi. Hər iki tərəfdən yaralıları daşıyırdılar.

Cavan bulağında savaşda Abbas Mirzənin on altı minlik süvarisi vuruşurdu. Tərəflər bir-birinə üstün gələ bilmirdi. Müharibə qızışırdı.

* * *

Cavan bulağında atılan toplar şəhərin içində aydınca eşidilirdi. Evlər bu dəhşətli partlayışdan silkələnir, şüşələr çiliklənir, köhnə divarlar çat verirdi. Müharibənin zəhmi isə insanların içindəydi. Kimsə sabah başına nələr gələcəyini bilmirdi. Bazarlarda alış-veriş dayanmış, karvansaralar boşalmış, küçələrə savaşın vahiməsi çökmüşdü. Sanki şəhərdə gecə və gündüz qorxulu iblislər dolaşırdı. Məscidlər ağzınadək doluydu. Bu məscidlərin hüznlü görünüşü vardı: həzin-həzin azan səsi gəlsə də basırıqdan, səs-küydən namaz qılmağa, dua oxumağa macal yoxdu. Dəhşət və vahimə içində olan uşaqlar bir tərəfdə dizlərini qucaqlayaraq səslərini çıxarmağa qorxurdular. Qadınlar çarşavlarına bərk-bərk bürünmüş, gözlərində sanki buz parçası saxlayaraq eləcə oturmuşdular. Solğun bənizlərində, qanı qaçmış dodaqlarında elə bil həyat işartısı yoxdu. Təkcə kişilər sakit, toxdaq görünürdü.

...Atılan top məsciddən xeyli uzağa düşsə də divarları silkələdi. İçəridə hamı bir-birinə dəydi. Xanvəli qorxu ilə içini çəkib Feyzullahın üzünə baxdı:

– Elə bilirəm bu top düz bizim evin üstünə düşdü.

Mədinə yaşmağını ağzının üstündən çəkib təşviş içində yerindən qalxdı, iri gözlər yaşla doldu:

– Evimiz kül oldu, Xanvəli... Dur gedək, dur.

– Hara? Top indi də bizim başımıza düşüb bizi kül eləsin? Otur yerində Mədinə.

Feyzullah Xanvəliyə göz ağardıb Mədinəni sakitləşdirmək istədi:

– Ay bacı, farsın və yaxud urusun ağlı yoxdu ki, topu havayı yerə atıb Xanvəlinin evini dağıtsın? Onlar bir-birini qırırlar. Topu bir-birinə atırlar.

Molla Zeyqəm təsbehini çevirib üzünü göyə tutdu:

– Qoy bir-birlərini qırsınlar. İşiniz yoxdu. Bəlkə Allah üzümüzə baxıb ikisini də məhv eliyəcək?

Xanvəli əlini yellədi:

– Hardadı bizdə o baxt?

– Gorun çatdasın Kalbalı xan – kimsə ucadan dedi.
– Kalbalı xan da urusa gah inanırdı, gah inanmırdı.
– Deyilənə görə Kalbalı xanın oğlu Ehsan xan Abbasabad qalasının böyüyüdür – Xanvəli dedi.
– Heylə şey olmaz – Feyzullahın heyrətdən ağzı açıq qaldı – yəni şah Ehsan xana o qədər etibar eləyir?
– Hə da bə.
– Onda yandı Fətəli şahın atası – Feyzullah nırç atıb qətiyyətlə dedi.
– Necə yəni? – camaat dərdini unudub Feyzullahı sorğu-suala tutdu.
– Dedim yandı, demək yandı! Fətəli şah bu müharibəni urusa uduzdu!
Molla Bədirxan məscidin aşağı başından qışqırdı:
– Şah ingilislərdən kömək alır. Ehsan xan ona heç zad eliyə bilməyəcək.
– Burda ingilislərin şəltəsi işləməyəcək, molla Bədirxan – Feyzullah təslim olmadı. – Fətəli şah müharibəni udacaq – molla Bədirxan sözünün üstündə durdu.
– Mən də deyirəm Ehsan xanın köməyi ilə bu müharibəni urus aparacaq.
– Mən deyirəm farslar...
– Mən də deyirəm uruslar.
– Gəl mərcləşək.
– Mərcləşək. Bax bu millətin yanında.
– Nədən?
– Ları xoruzdan.
– Oldu.
Molla Zeyqəm təsbeh dənələrinin şaqqıltısını kəsdi:
– Savaş belə getsə hamımız ölüyük, diri qalan olmayacaq.
Xanvəli hirsləndi:
– Əşi, ağzını xeyirliyə aç. İndiyə qədər Naxçıvanda belə müharibələr azmı olub? Arvad-uşağın ürəyini tökmə.
– Neçə gündü arvad-uşaq məsciddə gecələyir, savaş da ki, qurtarmır.
Xanvəli daha ona cavab verməyib Mədinənin qucağında yuxulamış nəvələrinin üstünü örtdü.

Bir an içəriyə səssizlik çökdü. Sanki Molla Zeyqəmin dediklərinin xofu içərini bürüdü, adamları dübarə qorxuya, təşvişə saldı.

Qadınlar tərəfdə oturmuş bir-iki arvad ayağa qalxdı. Molla Zeyqəm hirsləndi:

– Haraya gedirsiz? Görmürsüz toplar şəhərin lap yaxınlığına düşür?

Xanbikə deyilən yaşlı qadın bezmiş, usanmış üzünü molla Zeyqəmə tutdu:

– Demirsən hamı öləcək? Biz gedirik evimizdə ölək.

Hacı Əbülqasım kişilərin arasından dilləndi:

– Xanbikə bacı, siz molla Zeyqəmə fikir verməyin. Bu adamı diri-diri qəbrə qoyan molladır. Savaş indicə qurtaracaq. Hamı da durub gedəcək evinə.

Bu anda yaxınlıqdakı güclü partlayışdan məscidin divarları silkələndi. Xanbikə qıyya çəkib əlini üzünə atdı:

– Bu top deyəsən mənim evimi dağıtdı.

Kimsə Xanbikənin ətəkli tumanından tutub aşağı dartdı:

– Otur aşağı.

Uşaqlar qorxudan ağız-ağıza verib ağlaşdılar. İçərini səs-küy götürdü.

Mədinə yuxudan diksinib oyanmış nəvələrini bağrına basdı:

– Uşaqlarda ürək-göbək qalmadı...

Feyzullah ayağa qalxıb məscidin həyətinə çıxmaq istəyəndə Qumru onun əlindən tutub çəkdi və yaşmağın altında pıçıltı ilə dedi:

– Evimi yıxma, kişi.

– Qumruuu – Feyzullah arvadını qınaqlı baxışlarla süzdü, camaata gözaltı baxıb astadan dedi.

– Mən savaşa getmirəm ki, Qumru. Şəhərdə neçə yerdə yanğın var.

Qumru inadından dönmədi:

– Topdu da, dili yox, ağzı yox– yanındakı qadının qulağına nəsə pıçıldayıb, təkrar Feyzullaha sarı döndü-birdən topun biri gəlib düşdü sənin başına, səni kül elədi?

– Düşməz.

– Düşər.

– Sən qoymadın məndə qeyrət qala, Qumru.

– Mən göz görə-görə qoymaram ki, sən gedib girəsən odun içinə.

Molla Zeyqəm Feyzullahın üzünə baxıb qımışdı:

– Mənimki olsaydı itələmişdi odun içinə, demişdi get Zeyqəm-Feyzullah gözlərini ağartdı:

– Molla Zeyqəm...

Atılan top yenə harasa yaxınlığa düşdü. Xanvəli diqqət kəsilib ağarmış saçını tumarladı:

– Vallah elə bilirəm ki, şəhərə düşən toplar farslarındır.

– Hardan bilirsən Xanvəli?

Xanvəli ona zillənmiş gözləri müdrikcəsinə süzdü, sonra da təmkinlə, doğru-dürüst bilirmiş kimi dedi:

– Farslar uduzmaqdadır, topun birini urusa atanda, birini də şəhərə atıb dağıdır. Qisas alır Naxçıvandan.

İçəridəkilər dərindən nəfəs aldı.

Xanvəli daha yerində otura bilmədi. Ürəyi sinəsində elə çırpındı ki, havası çatmadı, adamları yara-yara məscidin həyətinə çıxdı. Şəhərin çox yerində yanğın vardı. Sanki qalanmış nəhəng ocaqdan boz, qara tüstü layları qalxıb şəhərin başı üstə dayanırdı. Tüstü, xız iyi ətrafı bürümüşdü. Yaxınlıqda bir ev də alışmışdı. Xanvəlinin ürəyi qubarlandı, sıxıntıdan, qüssədən, alışan evlərin səssiz harayından, dağılan komaların tüstü, alov yanğısından başından ağrı qalxdı, içərisindən hönkürmək, ağlamaq keçdi. Dizlərini yerə vurub yumruqla sinəsinə döymək, bu yanmış evlərə, başıbəlalı torpağa, dərbədər olmuş insanlara ağı demək, bayatı çağırmaq istəyi alovlandı. Kirpiklərinin ucundan soyuq yaş damlası əlinin üstə düşəndə elə bil ayıldı, özünə gəldi, özünü töhmətləndirdi: «Utan ə, Xanvəli, öl ə, Xanvəli. Arvad kimi gözünün suyunu niyə tökürsən? Cavanlar səndən ürəkliymiş. Tüfəng, qılınc götürüb Ordubada – Şıxəli xanın köməyinə gedirlər... Sən də burda... Utan, vallah utan Xanvəli... Bəlkə elə uruslar farslara üstün gələcək, canımız bu davalardan, savaşlardan birdəfəlik qurtaracaq...»

* * *

Məsciddən xeyli aralıda Madatın evinə yığılmış ermənilər də savaşın gedişini izləyirdilər. Amma ermənilərə Xan sarayından səhih məlumatlar gəlirdi.

Madatın qaynayan gözlərindən elə bil çaxmaq daşından çıxmış kimi qığılcım tökülürdü. Ortalığa açılmış süfrədə qızardılmış toyuqdan, hinduşqadan, soyutma yumurtadan, motal pendirindən tutmuş hər şey vardı. İki cərgə açılmış süfrənin ətrafında aşağıda yerli ermənilər, yuxarı başda isə qonaqlar oturmuşdu. Lap başda yanaşı oturmuş iki keşiş əllərini sinələrinə düşən iri xaçın üstünə qoyaraq dodaqlarının altında nə isə oxuyurdular. Başlarını tərpətdikcə uzun saqqalları da tərpənirdi.

Şəhərə düşən topların sayı artanda keşişlərdən birinin başı dayandı, əlini xaçdan çəkərək Madata tərəf əyilib təlaş içində dedi:

– Nədənsə toplar tez-tez düşür şəhərə. Bəlkə zirzəmiyə yenək?

Madat təmkinlə başını yırğaladı:

– Qorxusu yoxdur. Farslar atır. Ermənilər elə məhəllələrdə yaşayır ki, ora top düşməz.

Bayırdan gələn qara, topa saqqallı erməni həyəcanla dedi:

– Şəhərdə çox yerdə yanğın başlayıb. Ən çox da müsəlman məhəllələrində.

Madat müdrikcəsinə güldü:

– Bir-iki dığaya tapşırmışam ki, müsəlmanlar arasında vahimə yaratmaq üçün bəzi evlərə od vursunlar. Yanğınları törədən bizimkilərdir. Müsəlmanlar məscidlərdə dua oxumaqla məşğuldur.

Keşişin sifəti gülüşlə işıqlandı:

– Sən çox ağıllısan, vətənpərvərsən, Madat.

Madat tərifdən xoşlanıb qımışdı, sonra da əlini süfrəyə uzatdı:

– Başlayın, çörəyi gözlətməyin.

Keşiş süfrəyə qoyulmuş şərab şüşəsini əli ilə geri itələdi:

– Mən rusların zəfər müjdəsini almayınca bir qətrə də şərab içmərəm.

– Lakin şərabımız çoxdur, müqəddəs ata. Bir orduya bəs elər. Zirzəmi şərab çəlləkləri ilə doludur. Biz onları rus əsgərlərinə peşkəş eləmək üçün oraya yığmışıq.

Keşiş gözü şərab şüşəsində zorla udqundu:

– Biz dözərik.

– Bizim mərd oğullarımız indi savaşın qaynar yerindədir – qoca Osip iftixarla bildirdi – Naxçıvanda bir nəfər də cavan er-

məni qalmayıb. Onlar rus ordusunda könüllü farslara qarşı dö yüşür.

Keşiş özünü saxlaya bilməyib qırmızı şərabdan süzdü, badəni yuxarı qaldırdı:

– General Paskeviç ermənilərin köməyi üçün mənə təşəkkürünü bildirib... Ordunun yarısı ermənidir. Onlar çox ləyaqətlə vuruşurlar.

Keşiş aclığa dözməyərək bir tikə çörək götürdü, qızardılmış toyuq ətini parçalayıb lavaşa bükdü, ovurdunda o tərəf bu tərəfə atıb üzünü ermənilərə tutdu:

– Biz İosif Arqutinskiyə çox borcluyuq. O, vətənpərvər ermənidi. Çarın ən yaxın adamıdı. Çar I Nikolay ermənilərin Türkiyədən və İrandan Azərbaycanın ən münbit torpaqlarına köçürülməsi planını hazırlamağı ona tapşırıb. Bu işdə hazırda Naxçıvanda olan və Paskeviçin sağ əli sayılan Aleksey Qriboyedov da ona kömək edir. Onlar rus-İran müharibəsinin qurtarmağını gözləyirlər.

Ermənilər ayağa qalxıb şərab badələrini başlarının üstə qaldırdılar və tükürpədici səslə bağırdılar;

– Yaşasın erməni millətinin atası İosif Arqutinski!

Keşiş tikəsini udub şərabını içdi və təntənə ilə bildirdi:

– Köçürülmə xərclərini rus çarı I Nikolay özü ödəyəcək. O da ən münbit torpaqlar ermənilərə veriləcək.

– Axı onların çoxunda müsəlmanlar yaşayır.

– Nikolay Azərbaycanı işğal etdikdən sonra bir müsəlman da səsini çıxara bilməyəcək.

Naqapetin köhnə dərdi təzələndi:

– Mənim gözüm hələ də qonşum Hacı Əbülqasımın evindədi. Qocalıb getdim, amma arzum yerinə yetmədi. Mənim üçün o ev şah sarayından da qiymətliydi. Amma təəssüf ki, mən ona sahib ola bilmədim...

– Niyə? – keşiş təəccüblə soruşdu.

– Mən ona necə sahib ola bilərdim? Hacı Əbülqasım şəhərin ən hörmətli və varlı adamlarından biridir.

– Sən fərsiz adama oxşayırsan, Naqapet – ikinci keşiş özünü saxlaya bilmədi – Gecənin birində Hacı Əbülqasımın ailəsini qətlə yetirib cinayəti də fağır bir müsəlmanın üstə atardın.

Madat başını buladı:

– Naqapet o işi görə bilməzdi.

Keşiş alovlandı:
– Çünki qorxaqsız.
Madat özünə haqq qazandırmaq istədi:
– Bir vaxt Naxçıvana Danil adlı bir keşiş gəlmişdi...
İkinci keşiş birdən yerindən dikəldi, gözləri böyüdü:
– Danil mənim atam idi.
– Sağdırmı?
– O, məni erməni millətinə varis qoyub getdi. Mən onun oğlu Vardanam.
– Tanrı o dünyasına işıq bağışlasın.
– Atam bu işığı özü ilə aparıb, – keşiş Vardan qətiyyətlə dedi: – elə bilirəm ki, onun ruhu bu anlarda narahatdı, nigarandı, – sonra da əlini Naqapetin çiyninə qoydu:
– Hacı Əbülqasımın evi sənindi, Naqapet. O evi keşiş Danilin oğlu keşiş Vardan verdi sənə. Sağlıqla yaşa.
– Nə danışırsan müqəddəs ata? Onun iki nəvəsi məni diri-gözlü parçalar. Hacı Əbülqasımın yurdunda iki cavan var. Özləri də qan-qan deyir.
Atılan top söhbəti yarımçıq kəsdi.
Keşiş xaç çevirdi:
– Bu axırıncı topdur, ki, atıldı. Bununla da savaş bitdi,– keşiş badəni yuxarı qaldırdı – mən müjdə xəbərini eşidən kimi ilk badəni erməni qadınlarının sağlığına qaldıracağam. Çünki indi, bu anda onların oğulları rus əsgərləri ilə çiyin-çiyinə vuruşaraq erməni millətinin adını yüksəklərə qaldırır. Onlara həyat bəxş edən erməni qadını – bizim analarımızdır.
Madat da əlində badə ayağa qalxdı:
– Keşiş Vardan, mən bizim erməni anaları haqqında bir rəvayət danışmaq istəyirəm. Rəvayət belədir: – Bir müsəlman cavanı yol ilə gedirmiş. Yolda bir-biri ilə savaşan iki cavana rast gəlir. Bu cavanlar möhkəm döyüşmüş, bir-birlərini qana bələmişdilər. Cavanlardan biri müsəlman, o biri isə erməniymiş.
Cavan oğlan onları aralaşdırır, öyüd-nəsihət verir. Lakin vuruş yenidən qızışır. Bu anda cavan oğlan müsəlmanın yox, erməninin tərəfinə keçərək öz din qardaşının kürəyini yerə vurur.
Yer-yerdən bağırdılar:
– Ah nə gözəl.
Madat oturanlara şəhanə bir nəzər salıb soruşdu:

– Sizcə o müsəlman niyə din qardaşını yox, bizim erməni müdafiə elədi?

– Yəqin ki, anası erməni imiş...

Madat başını buladı:

– Müsəlman cavan evə gəlir. Bu hadisə onu çox sarsıdır. Axı nə üçün o, öz din qardaşını yox, ermənini müdafiə elədi? Evdə hər şeyi anasına danışdı və çox peşiman olduğunu, sarsıldığını söylədi.

Ana barmağını dişləyib dərin fikrə getdi, sonra da oğlunun üzünə baxıb günahkarcasına dedi:

– Oğlum, sənin qəbahətin yoxdur. Sən özündən asılı olmadan bu addımı atmısan. Sən anadan olanda qonşum erməni qızı Sonya da təzəcə ana olmuşdu. Südüm az olduğundan səni doyura bilmirdi. Əlacsız qalıb səni Sonyaya verdim. O üç gün sənə döşündən süd verdi. Səni müsəlmana düşmən, erməniyə dost eliyən həmin o üçgünlük süd olub.

Məclis uğuldadı, şərab badələri yuxarı qalxdı:

– Yaşasın erməni qadını.

Keşiş Vardan fəxrlə gülümsədi:

– Analarımızın südündəki hikmətə bax.

Bu anda yaxınlığa düşən topun partlayışından ev silkələndi. Madat hamıdan qabaq özünü bayıra atdı.

* * *

Xan sarayından Cavan bulağında gedən vuruşmanı izləyirdilər.

General Paskeviçin yaxın qohumu, səkkiz il əvvəl İranda Rusiyanın səlahiyyətli nümayəndəsi işləmiş Aleksey Sergeyeviç Qriboyedov da burada idi. Sarayın külafirəngisində dayanaraq savaşın gedişini diqqətlə izləyirdi. O, savaş adamı, siyasət adamı deyildi. Lakin fars dilini yaxşı bildiyindən vəzifəsindən getmək istəsə də onun yaxasını buraxmırdılar.

Aleksey Qriboyedovun yanında dayanmış dilmanc Abbasqulu ağa Bakıxanov da durbini gözündən yerə qoymurdu.

Döyüş meydanı ovuc içi kimi aydın görünürdü. Sanki Cavan bulağı bir cəhənnəm idi. Güllələr atılır, top atəşlərindən qalxan tüstü, alov meydanı bürüyür, hürkmüş atlar görünürdü. Top atəşinin açdığı çuxurlar da aydınca seçilirdi.

Qriboyedovun hövsələsi tükəndi. Sanki qan görməkdən gözləri ağrıdı. Durbini çevirib Arazdan çox-çox uzaqlarda görünən dağlara, yamaclara, təpələrin yaşıl ətəklərinə baxdı. Bu yerlərdə sakitlik idi və müharibənin nəfəsi bu yerlərə toxunmurdu...

...Qriboyedov gözlərini Arazboyu vadilərdən çəkmədən Naxçıvana gəldiyi 1819-cu ili xatırladı. O vaxt payızın xoş bir çağıydı. İrəvandan keçib Naxçıvana tərəf atını çapırdı. Onu xeyli əsgər müşaiyət edirdi. Buradan da İrana adlayacaqdı. Qriboyedovun yadında qalan yolboyu gördüyü yamyaşıl bağlar idi, bir də məhsulu hələ də üstündə qalan bostanlar. Bostanları görəndə əsgərlər özlərini saxlaya bilmədilər. Onlar bostanlara girmək, məhsulu yığmaq istəsələr də Qriboyedov bunun oğurluq olduğunu onlara başa saldı və kimsəni cızığından çıxmağa qoymadı.

Qriboyedov mehmandar Məhəmməd bəyi də xatırladı. Məhəmməd bəyin ondan xoşu gəlmədiyini açıq-aşkar hiss etmişdi. Qriboyedov bunun səbəbini sonralar da bilmədi. Lakin buna baxmayaraq mehmandar onunla mehriban davranırdı.

Naxçıvanda Qriboyedov və əsgərləri onlar üçün ayrılmış otaqlarda yerləşdilər.

Aleksey Sergeyeviç hələ o vaxt Kalbalı xan haqqında çox eşitmişdi. Naxçıvana gələn kimi də onunla görüşmək istədi. Amma Kalbalı xan onunla görüşə o qədər də maraq göstərmədi. Qonağı xeyli gözlətdikdən sonra nəhayət qəbul etdi.

...Kalbalı xan öz sarayında geniş, zəngin salonda qoltuq kürsüsündə oturub xəyala getmiş kimi görünürdü. Sinəsinə düşən ağappaq saqqalı onu müqəddəs övliyalara oxşadırdı. Sifətinin cizgiləri sərt və ciddi idi. Zahirən o, heç də müti və taleyinə boyun əymiş bədbəxt adama oxşamırdı. Görünüşündə elə bir məğrurluq vardı ki, bu halında da kimsəyə boyun əyməyən, meydan oxuyan Kalbalı xan idi. Həyat onu çox sınaqlardan çıxarmışdı. Xan çoxlu işgəncə görmüş və iztirab çəkmişdi. Bütün bunlar onun alnının qırışlarında sıx-sıx yazılmışdı. Lakin başına gələnlər gözlərinin işığını itirmiş bu məğrur adamı polad kimi bərkitmiş, onun iradəsini möhkəmlətmişdi. Qriboyedov dinib-danışmadan heyrətlə ona baxırdı.

Kalbalı xan nəhayət qonağı salamladı, sonra da hökmlə soruşdu:

– Bizdən tələbiniz nədir?

– Bizə dedilər ki, İrana keçənə qədər siz bizim adamları ərzaqla təmin edəcəksiniz.

Kalbalı xanın gözləri yumulu idi. Yalnız çöhrəsində bezmiş, usanmış kimi bir ifadə yarandı. Dodağının altında nə isə söylənib başını tərpətdi.

Qriboyedov özünü təhqir olunmuş kimi hiss etdi və bundan ürəyi sıxıldı. Birdən-birə bu məğrur adam onun gözündən düşdü və özü də bilmədən ürəyinin dərinliyində ona qarşı gizli bir ədavət hiss etdi.

Kalbalı xan başını Qriboyedova çevirmədən əsəbi halda dedi:

– Biz Naxçıvana gələn hər kəsi yedirib-içirməyə borclu deyilik – Kalbalı xanın səsində açıq-aşkar bir ötkəmlik və kobudluq vardı.

Qriboyedov xan sarayından acıqlı və narazı çıxdı. Həmin gecə çara yazdığı raportda Kalbalı xan haqqında bu sözləri yazdı: *«yüz şallağa layiq olan Kalbalı xan...».*

...Qriboyedov sonra onu da xatırladı ki, Kalbalı xanla görüşünün ertəsi günü ermənilər şərab gətirərək onun adamlarını yaxşıca içirtdilər. Ermənilərin məqsədi rusları öz tərəflərinə çəkmək idi. Qriboyedov əsgərlərin qaldığı otağa girəndə çaşıb qaldı: hamı sərxoş idi. Ortalıqda şərab şüşələri, çörək qırıntıları, qızardılmış ət tikələri... hamısı bir-birinə qarışmışdı. Qriboyedov başa düşdü ki, sərxoş əsgərlərlə indi danışmaq faydasızdır. Onların ağılları başlarında deyil. Yalnız ertəsi günü Qriboyedov onları möhkəmcə tənbeh etdi və şərab içməyə qadağa qoydu. O zaman çara yazdığı raportda baş verən bu hadisəni yazmaqla bərabər qeyd etdi ki, *«ermənilər naqis adamlardır. Onlar iki gün əvvəl iki müsəlmanı diri-diri yandırmışlar».*

...Aradan doqquz il keçib. O yenə də Naxçıvandadır. Ədavət bəslədiyi Kalbalı xan artıq həyatda yoxdur. Onun oğlu, bir vaxt çar I Aleksandrın xüsusi etimad göstərdiyi Şıxəli xan isə sonralar rusların tərəfində vuruşarkən Qriboyedov onunla tanış oldu və xan xoşuna gəldi. Qərargaha göndərdiyi raportda yazmışdı: *«Mən belə hesab edirəm ki, Şıxəli bəyin tərəfini saxlamaq lazımdır. Onunla hörmətlə və mehribancasına davrandım».*

Qriboyedov general Paskeviçin arvadının əmisi oğlu idi. Buna görə də baş komandan onu İrana Rusiyanın səlahiyyətli nümayəndəsi kimi göndərmək istəyirdi. Lakin hələlik ruslarla

farsların müharibəsi gedirdi və Paskeviçə görə Cənubi Azərbaycanın işğalından sonra ermənilərin Azərbaycana köçürülməsi planının hazırlanmasında Qriboyedovun böyük köməyi olacaqdı...

* * *

1827-ci il 6 iyul.

Cavan bulaqda savaş davam edirdi.

İki qüvvətli ordu üz-üzə dayanmışdı. Bu döyüşdə şahzadə Abbas Mirzənin on altı minlik qoşunu rusların çoxsaylı ordusuna zəfər çalmağa çalışırdı.

Cavan bulaq od-alov püskürürdü. Topların açdığı dərin çalalar, top düşən yerlərdə başlayan yanğınlar Cavan bulağın mənzərəsini dəyişmişdi. Tüstünün, od-alovun içində şahə qalxıb kişnəyən atlar güllə altına düşərək arxası qatda yerə dəyir, eləcə də qalırdı. Sahibini itirən atlar isə od-alovun içində vurnuxur, ya gülləyə tuş gəlir, ya da od-alovun içindən çıxaraq qaçıb gedirdilər.

Cəsədlər getdikcə çoxalırdı.

Rusların üstünlüyü hiss olunmağa başladı.

Farslar çoxlu itki verirdi. Abbas Mirzə özü də döyüşürdü. Vəliəhd sanki sərkərdə olduğunu unutmuşdu. Qarşısına çıxan rus əsgərlərini atəşə tutur, üstünə güllə yağınca atın yalmanına yatır, yenidən savaşa girirdi. Hələ Ağa Məhəmməd şah Qacarın vaxtında iştirak etdiyi çox sayda müharibələrin təcrübəsi ona cəldlik və çeviklik aşılamışdı. O, gülləni sərrast atır, güllədən yayınmağı bacarırdı.

Süvarilər onu göz bəbəyi kimi qorusalar da Abbas Mirzə özünü göz-görəti təhlükəyə atır, qoçaqlığı ilə sərbazlarını ruhlandırırdı. Qəflətən bir güllə qulağının dibindən ötüb keçdi və şahzadə yalnız həmin an ölümün soyuq nəfəsini hiss etdi, qəhrəmanlıq nümayiş etdirməkdən çəkindi və ehtiyatlı tərpəndi.

Ruslar Abbas Mirzənin süvarilərin arasında olduğundan duyuq düşdülər. Bir dəstə əsgər hiss olunmadan Abbas Mirzənin ətrafında mühasirə halqası yaratmağa çalışdı. Bunu vəliəhd də başa düşdü. Yaralanmış sərbazlardan biri qışqırdı:

– Şahzadə, sizi mühasirəyə alırlar, tutmağa çalışırlar.

Şahzadə özünü itirmədi. Onu yaxalamaq istəyəin iki süvarini sərrast güllə ilə atdan aşırdı və başını çevirmədən, artıq məğlubiyyəti hiss edərək əmr etdi:

– Geri çəkilirik.

Rus süvariləri, onların arxasınca piyadalar Abbas Mirzənin ətrafında getdikcə sıxlaşırdı. Komandirdən şahzadəni diri tutmaq tapşırığını alan əsgərlər bütün qüvvələri vəliəhdin ətrafına cəmlədilər. Bu anda farsların atdığı top arxadan süvariləri çaşdırıb dağıtdı, tüstü-alov atları hürkütdü. Bu qarışıqlıqdan istifadə edən Abbas Mirzə mühasirəni yarıb çıxdı.

Və Cavan bulaqda savaş – rusların zəfəri, farsların məğlubiyyəti ilə başa çatdı.

Farsların məğlubiyyəti Abbasabadın işğalına yol açdı.

Ehsan xan qala qapılarını rusların üzünə açmağa hazır oldu.

* * *

1827-ci il 7 iyul.

Abbasabad məğlubiyyət gecəsini yuxusuz yola salırdı. Qaladakıların hamısı oyaq idi.

Cavan bulaq savaşını izləyən qalanın baş komandanı Məhəmməd Emin xan farsların geri çəkilməsini təşviş qarışıq həyəcanla izləmişdi. Lakin içində bir ümid işartısı yenə də közərirdi: Abbas Mirzə yenidən qayıdacaq, o, qalanı köməksiz qoya bilməz. Lakin şahzadə bu dar məqamda düşmənə əyilməyən Abbasabad qalasını tək, arxasız buraxdı...

Abbas Mirzənin ordusu ilə bərabər həmin an Abbasabad da sanki ümidini itirib məğlub oldu. Elə bil qala içindən sarsılaraq laxladı. Müdhiş bir zəlzələdən silkələnərək sanki göy qübbəsini bütün ağırlığı ilə Məhəmməd Emin xanın başına çırpdı. Qala havasız, işıqsız bir məbhəsə çevrildi. Məhəmməd Emin xan ürəyinin başından vurulmuş kimi bu məbhəsin soyuq daş divarları arasında çırpınırdı.

Qalanın başı üstdə azad göy qübbəsində ulduzlar sayrışırdı.

Aşağıda savaş səsindən qulağı dincəlmiş Araz sakit-sakit axırdı. Elə bil bu yerlərdə qanlı döyüş getməmişdi.

Məhəmməd Emin xan sabah başına nə gələcəyini bilmirdi. Ruslar onunla necə rəftar edəcəklər? O, Fətəli şahın, qaynatası– vəliəhd Abbas Mirzənin qarasınca söyləndi: «Qalanın mühafizəsini tapşırmağa elə bil bir fars tapa bilmədilər. Unutdular ki, Ehsan xan Qacar sülaləsi ilə barışmayan Kalbalı xanın oğludur. O, fürsət düşən kimi atasının qisasını aldı. Satqın, xəyanətkar Ehsan xanı öz əlimlə tikə-tikə doğrardım, görən gözünü çıxarardım, danışan dilini şişə çəkərdim. Lap indi, bu saat, bu an ... Amma

ruslardan qorxuram. Onlar məndən Ehsan xanı tələb edərlər... Abbas Mirzə on altı minlik qoşunla ruslara məğlub oldu. Bununla da qaladakı sərbazların döyüş ruhunu öldürdü».

Məhəmməd Emin xan Ehsan xanın saxlandığı hücrəyə gəldi. Sərbaz tüfəngi çiynindən aşağı salıb baş komandanı içəri buraxdı. Hücrədə zəif şam közərirdi. Əlləri arxasında bağlı Ehsan xan divarın dibində uzanmışdı. Məhəmməd Emin xanı görüb üzünü çevirdi, ayağa da qalxmadı.

Məhəmməd Emin xan yorğun, kal səslə soruşdu:

– Qalanı niyə ruslara təslim etmək fikrinə düşdün, Ehsan xan?

– ...

– Sən axı farsların çörəyini yeyirdin. Şahın sənə xüsusi etimadı vardı. Uzun illər şah ordusunda xidmət eləmişdin, sərhəng rütbəsi almışdın. Abbas Mirzə səni mərd, cəsarətli, sədaqətli hərbiçi bilirdi. Buna görə də şaha iltimas edib səni qalanın mühafizi qoydu. Amma sən xəyanət, satqınlıq yolunu tutdun. Qapıları kafirlərin üzünə açmaq xəyalına düşdün.

Ehsan xan Məhəmməd Emin xanın ittihamına dözə bilmədi. Qalxıb oturdu, hiddətlə dedi:

– Mən satqın deyiləm, Məhəmməd Emin xan. Mən ancaq öz torpağımı İran şahının zülmündən qorumaq istədim. Mənim atam Kalbalı xan, qəbri nurla dolsun, Naxçıvanın müstəqilliyi uğrunda daim çarpışdı. Bu yolda gözlərini itirdi. Qacar sülaləsi bizə yoxsulluq, zülüm və əzabdan başqa bir şey vermədi. Varımız, dövlətimiz, sərvətimiz talan oldu, İran xəzinəsinə daşındı.

– Yox, sən atanın intiqamını aldın. Sənin Qacarlara nifrətin bizi ağ bayraq qaldırmağa məcbur etdi.

– Fars zülmündən canı boğazına yığılmış təkcə naxçıvanlılar deyil, bütün Azərbaycan xanlıqlarıdır.

Məhəmməd Emin xan əlini qılıncın qəbzəsində zorla saxladı, rişxəndlə dedi:

– Elə bilirsən ki, ruslar sizə yeni həyat gətirəcək, sizi ağ günə çıxaracaq?

– Hələlik farslardan yaxa qurtarmağın yolu rusların himayəsinə keçməkdir.

Məhəmməd Emin xan əlacsız hiddətlə dedi:

– Fətəli şah sənə inanmaqda səhv etdi.

– Səhv şahın, kəramət Allahındır. Allah zülm çəkən bəndəsini daim zülümkarın fitnəsindən qoruyur.
– Mən səni öz əllərimlə öldürərdim.
– O halda mənim ölümüm gec açılmış gülləyə bənzəyərdi. Çünki mənim ölümümlə nə dəyişəcək ki?... Olan olub. Abbasabad qalası artıq rusların əlindədir.
– Sabahdan rus çörəyi yeyərsən, Ehsan xan.
– Bizim süfrəmizdə daim yadların gözü olub Məhəmməd Emin xan. Doğru-dürüst danış. Mənim süfrəm – mənim torpağımdır. Sən İrandan – ruslar Rusiyadan gəlib. Döyüş mənim torpağımdadır. Demək süfrəmə göz dikənlər farslar və ruslardır. Sabah rusların təhvil alacağı bu qala da mənim torpağımdadır.
– Heyif səni öldürmək fürsəti əlimdən çıxır... – Məhəmməd Emin xan əlini silahının üstə qoydu.
Ehsan xan ayağa qalxdı, dodaqlarında kinayəli təbəssüm göründü:
– Sübhə az qalır, xan. Yaxşı olar ki, məni bu qaranlıq, havasız hücrədən çıxarasan.
– Hədədi?
– Yox, məsləhətdi.
– Bir şərtlə buraxaram – Məhəmməd Emin xan nifrət dolu baxışını güllə kimi Ehsan xanın gözünün içinə sıxdı – Eşitdiyimə görə sən Paskeviçin sağ əli olan Qriboyedovla üç gün danışıqlar aparmısan. Bu danışıqlar nədən ibarət olub və sən onların qarşısında hansı şərtləri qoymusan?
– Bunun indi əhəmiyyəti varmı, Məhəmməd Emin xan?
– Əsir düşsəm İran şahı məni tələb edib geri alacaq. Çünki mən vəliəhdin kürəkəniyəm. Əsir düşsəm də yenidən İrana qayıdacağam. Bir də ruslar əsirləri öldürməyəcək. Çünki farsların da əlində çoxlu rus əsirləri var, başa düşdünmü Ehsan xan? İndi de görək Qriboyedovla nə danışdın?
– Onun adını birinci dəfə eşidirəm.
– Gizlətməyə səbəb yoxdur. Çünki səninlə gedən adam tutulub. Bu gecə onu edam ediblər.
Ehsan xan yumruğunu divara çırpdı, sarsılaraq inlədi:
– Günahı günahsız adamın boynuna qoydun, xan. O, binəva heç nə bilmirdi. O, işgəncələrə tab gətirməyərək ağzına gələni danışıb. Sizi də inandırıb.
– Demək istəmirsən?

– Səhər açılır. Heyif, burdakı bütün hərbi sursat rusların əlinə keçəcək... Sən bunu düşün Məhəmməd Emin xan.

Məhəmməd Emin xan sanki üzünün bütün əzələsinə, gözlərinin içinə qədər, nifrətli baxışınadək iflic oldu, sonra donu yavaş-yavaş açıldı, Ehsan xanın üzünə baxmadan keşikçiyə onu sərbəst buraxmağı əmr etdi.

* * *

Dan yeri ağaranda ruslar sel kimi qalanın içinə axışdı. Sərbazlar müqavimət göstərmədi. Qalanın bürcündə tək-tək güllə səsləri gəlsə də kəsildi. Rus süvari hissələri qalanın ətrafına sanki canlı çəpər çəkdilər.

Əllərini arxasında çarpazlamış, gözündə məyusluq duyulan sərbazlar qaliblərin yazılmamış hökmünə tabe olaraq qaladan aşağı yenir, meydana toplaşırdılar. Meydanın baş tərəfində silahlar üst-üstə qalanır, yerə atılmış fars bayrağı diqqəti cəlb edirdi. Rütbəli zabitlər ortalıqda vurnuxur, rusca əmrlər verir, sərbazların üstə çımxırırdılar.

Günortaya yaxınlaşdıqca bürkü artırdı. Göy üzündən sanki meydanın ortasına od-alov tökülürdü. İsti əsgərləri karıxdırsa da qaladan ələ keçmiş qənimətləri tər dabanlarından süzə-süzə aşağı, meydanın bir tərəfinə daşıyırdılar. Qalada olan on səkkiz topu çətinliklə çıxarıb apardılar.

Meydanda əsir düşən sərbazların sayı çoxalırdı. Onlar iki yüz nəfərdən çoxdu. Yuxarıda atışma zamanı ölənlər və yaralılar vardı. Meydan darısqallıq edirdi. Üst-üstə qalaqlanmış silahlar, yerə atılmış bayraqlar, yuxarıdan səs-küylə daşınan qənimətlər, sərbazların dalğın, tutqun çöhrələri, pərişan görkəmləri, məchul taleyin gözlərində əks olunmuş əndişəsi...

Ehsan xan, əsgərlərin yanında sərbazlarla üz-üzə dayanmışdı. Rütbəli rus zabitləri onunla ehtiramla davranırdı. Ehsan xan gözlərini sərbazların baxışlarından qaçırırdı. Çünki baxışlar onu ittiham edir, hər baxış sanki xəncər tiyəsi kimi gözlərinin içinə sancılırdı.

Günortanın boğunuq, bürkülü istisi əsgərləri əldən saldı. Sanki hasar çəkilmiş meydanda hava dayanmışdı. Arazın sərin mehi bu hasarların içini tutmurdu. Buna görə də meydan sanki təndir kimi alovlanırdı. İstidən gözlərinin içi qızarmış, üz-gözlərindən sel kimi tər axan, kürəkləri çim tər içində islanan əsgərlər

ağır çəkmələrini zorla sürüyürdülər. Amma tamah istinin verdiyi işgəncədən daha üstün idi və əsgərlər bir yerdə dayanmadan qənimət daşıyırdılar. İstidən köpək kimi dilləri bir qarış bayıra çıxsa da onlar əllərinə düşən fürsəti qaçırmaq istəmirdilər.

Əsgərlər həm də ona görə tələsirdi ki, Abbas Mirzə ordusunu buraya çəkib müharibəni yenidən başlaya bilərdi.

Üç-dörd nəfər əsgər qalanın hücrələrindən Məhəmməd Emin xanı və Məmməd Rza xanı çıxarıb gətirdi. Onların pərişan, dalğın görkəmi vardı. Məhəmməd Emin xan Ehsan xanın yanından ötəndə ayağını sürüdü, dodağının altında nə isə dedi, sanki nifrətli, kinli baxışlarındakı səssiz gülləni Ehsan xanın gözünün içinə sıxıb keçdi.

Məmməd Rza xanın gözü Ehsan xandaydı. Ehsan xan onun əndişə, qorxu dolu gözlərinə baxıb başını hiss olunmadan tərpətdi. Bununla da Məmməd Rza xanı sakitləşdirdi.

Əsgərlər tər dabanlarından süzə-süzə indi də qənimətləri qatır qoşulmuş arabalara daşıyırdılar. Ortalıqda qalmış fars bayraqları əsgərlərin ayaqları altında tapdanırdı, əsgərlərdən biri bayraqları götürdü, əl-ayağa dolaşmasın deyə onları gərəksiz bir şey kimi kənara tulladı.

...Günortadan xeyli keçmiş əsgərlər arasına birdən-birə çaxnaşma düşdü. Qənimətləri arabalara daşıyan əsgərlər cəld əllərindəkini yerə atıb çevik hərəkətlə sıraya düzüldülər.

Əsir götürülmüş sərbazlar da maraqla qala qapısına baxdılar. Atın üstündə qaliblərə məxsus şəhanə oturmuş general Paskeviç atdan düşməyə tələsməyərək meydanın hər tərəfinə göz gəzdirdi. Əsir götürülmüş sərbazlar, üst-üstə qalaqlanmış silahlar, qala qapısının ağzında toz-torpağa bələnmiş bayraqlar, əsgərlərin daşıyıb qurtarmağa macal tapmadığı qənimətlər... Paskeviç dodağının ucunda razılıqla qımışdı. Atdan düşüb meydanın ortasına qədər gəldi. Generalın arxasınca hərbi qərargahın rütbəli zabitləri onu müşaiyət edirdilər. Paskeviç əllərini arxasında çarpazlayaraq sərbazların üzünə baxa-baxa sıranın axırına qədər gəlib çıxdı.

General sonra başını qaldırıb qala bürclərinə baxdı. Bu möhtəşəm qalanın da pərişan görkəmi vardı. Sanki qala da insan kimi məğlubiyyətin acısını yaşayırdı. Kimsə tələm-tələsik qalanın başında dalğalanan fars bayrağını çıxarıb rus bayrağını sancmışdı.

Paskeviç başını aşağı salıb məmnun halda gülümsündü, əsir sərbazlara qalibanə bir nəzər saldı. Gözləri Ehsan xanın üzünə zillənəndə qımışdı. Baxışları sanki mehribanlaşıb istiləndi. Yaxınlaşıb Ehsan xanla səmimiyyətlə görüşdü:

– Bu qalanın təslim olmasında sizin xidmətiniz böyükdür, Ehsan xan – dedi. Mən bu barədə imperatora məlumat verəcəyəm.

Ehsan xan cavabında dedi:

– Mənim atam Kalbalı xanın Rusiya dövlətinə etimadı vardı, general.

Paskeviçin yanında dayanmış Abbasqulu ağa Bakıxanov Ehsan xanın dediklərini rus dilinə tərcümə edərək generala çatdırdı.

Paskeviç yenə də onun əlini hərarətlə sıxdı:

– Bəlkə bir istəyiniz var?

Ehsan xan narahatlığını gizlətmədi:

– Bu əsirlərin taleyi necə olacaq, general? Mən onlara zəfər toxunmasını istəməzdim.

– Bunu niyə soruşursan, Ehsan xan?

– Onların arasında olan qala mühafizi Məmməd Rza xan mənim qədər sizə xidmət göstərib. O, mənim qalanı ruslara təslim etmək istəyimdən xəbərdar idi və bunun üçün mənə kömək etdi.

– Hə, demək belə.

Paskeviç başını qaldırıb yenə də qalaya baxdı, sonra onun əmrini gözləyən əsgərləri, üz-gözündən yorğunluq, pərişanlıq yağan, gözlərindəki qorxunu, əndişəni gizləməyən sərbazları süzdü, sonra da ağır-ağır dedi:

– Məhəmməd Emin xanı Tiflisə göndərəcəyəm. Məmməd Rza xanı azad edərik. O ki, qaldı əsir götürülmüş sərbazlara... bizim əsgərlərdən də farslara əsir düşən olub. Başa düşdünmü, Ehsan xan?

Kənarda dayanmış Məhəmməd Emin xan Paskeviçlə Ehsan xanın söhbətini nifrətlə izləyirdi. Gözləri yenə də qala qapılarında idi: Abbas Mirzənin köməyə gələcəyi ümidini itirmirdi. Ümidi bir tanrı möcüzəsi gözləyirdi.

Sonra Məhəmməd Emin xan qala qapılarının açarını Paskeviçə təqdim etdi...

* * *

General Paskeviç yubanmadan Abbasabad qalasının alınması haqqında Peterburqa imperator sarayına – I Nikolaya teleqram göndərdi. Teleqramda çara çoxdan bəri gözlədiyi müjdə xəbəri verən Paskeviç bununla da çar sarayına qələbə sevinci bəxş etdi. Çox keçmədi ki, qraf Paskeviç çardan cavab teleqramı aldı. Qələbə münasibəti ilə generalı təbrik edən I Nikolay öz sevincini bir cümlə ilə ifadə etmişdi: *«Nakones sozdalsya velikaya Armeniya» (Axır ki, böyük Ermənistan yaradıldı).*

* * *

Abbasabad qalasının alınmasında göstərdiyi xidmətə görə Ehsan xan Naxçıvan xanlığının naibi təyin olundu. Müharibədə iştirak etmiş Abbasqulu Ağa Bakıxanova ştabs-kapitan rütbəsi verildi, tərcüməçi mayor Mirzə Məhərrəm Hacıbəyov adlı başqa bir azərbaycanlı isə ordenlə təltif edildi və I Nikolay ona ömürlük təqaüd kəsdi.

* * *

Ordu Naxçıvana tərəf hərəkət edirdi.

Yollar toz-duman içində idi. Atlar bir-birinə aman vermədən irəli keçir, toz-duman içində görünməz olurdu. Sanki onlar da savaşın bitdiyini duymuşdular. Onların da dincəlməyə ehtiyacı vardı...

İrəlidə gedən Ehsan xan atını qraf Paskeviçin atı ilə yanaşı sürürdü. Onun üçün savaş hələ bitməmişdi. Savaş hələ irəlidə idi. Naxçıvan öz müstəqilliyinə qovuşana qədər savaş davam edəcəkdi... Lakin bu anlarda ürəyinin dərinliklərində səbəbini bilmədiyi ağrılı bir sıxıntı vardı.

...Abbasabad qalasında rus əsgərlərinin atəşfəşanlığı hələ də davam edirdi.

Ehsan xanın içində ikinci Ehsan xan sanki zülmətə üstün gəlməyə çalışaraq ona ürək-dirək verirdi: – «Niyə sevinmirsən Ehsan xan? Şükürlər olsun ki, Naxçıvanın yaxası İran şahından qurtardı. Küçələrdə daha İran sərbazları görünməyəcək. Onlar daha camaata döyib-dolaşmayacaq, onları var-yoxdan çıxarmayacaq.

– Birdən sənin inandığın, etibar etdiyin ruslar da farsların yolu ilə getdi?

– Kalbalı xan, Şıxəli xan onlara çox inanırdı...
– Bu inamın özündə də bir sadəlövhlük olmaya?
– Kalbalı xan hər halda ağıllı, uzaqgörən adam idi.
– Elə mən də buna görə onun yolu ilə getdim. Amma mənə gəlib çatan məlumata görə qaynatam Kərim xan rusları qəbul etmək istəmir. Buna görə də tərəfdarlarını yığıb Ordubad dağlarına çəkilib. O, məni də düşmən bilir. Kərim xan niyə bu addımı atdı, bilmirəm?
Abbasabad qalasının qapılarını rusların üzünə açmaqda görəsən mən səhv eləmədim ki? Birdən ruslar da iranlılar kimi oldu? Atam Kalbalı xan, qardaşım Şıxəli xan ruslara çox inanırdı. Nicat yolunu rusların himayəsinə keçməkdə görürdülər»...
Ehsan xan üzünü göylərə tutdu, bütün qəlbi ilə səssizcə dua etdi: «Ya Allah, böyük Allah, sən məni tarixin lənətindən, nəsillərin töhmətindən qoru».
Bu anda arxada – Abbasabad qalası yaxınlığında atılan topların səsi eşidildi. Ehsan xan atının cilovunu çəkib dayandı: «Olmaya Abbas Mirzə təzədən qayıdıb gəldi?».
Paskeviç də dayandı. Ehsan xanın təlaşını görüb göy gözlərinin içinə qədər yayılan, qırışlı çöhrəsini bürüyən hiyləgər təbəssümlə dedi:
– Bizimkilərdir, ermənilər...
– Ermənilər? – Ehsan xanın qəfildən ürəyi sancdı – Ermənilər niyə?
– Savaşda erməni əsgərləri böyük şücaət göstərdilər. Onların bir çoxunu mən təltifə təqdim etmək fikrindəyəm Qalanın alınmasında onların xüsusi əməyi var.
Paskeviç Ehsan xanın dəyişən, boğulan sifətini görüb sözünü dəyişdi:
– Lakin hər halda sən olmasaydın biz qalanı işğal etməkdə acizlik çəkərdik. Mən təbii ki, sənin bu fədakarlığını və rus imperatoruna sədaqətini I Nikolaya çatdıracağam.
Paskeviç geriyə boylanıb gizli bir məna ilə qımışdı:
– Bu gün ermənilər üçün ikiqat bayramdır...
Ehsan xan onu eşitmədi. Birdən-birə sifəti alışıb yanmağa başladı. Sanki qəfildən içində qalanmış ocağın istisi üzünə, gözlərinin içinə vururdu, üşütmə kimi canına yayılırdı. O, neçə il əvvəl Naxçıvana gəlmiş keşiş Danili xatırladı. Atasının şah zindanından azad etdirib Naxçıvana gətirdiyi Danilin əməlləri sonra-

dan üzə çıxdı. Atasının ermənilərə güvənci yoxdu. Paskeviçin ətrafında isə Danil kimi hiyləgər erməni keşişləri dolanırdı. Qoca Sərkis... Nerses və yüzlərcə ermənilər. Rus çəkmələrinin açdığı yolla irəliləyən ermənilərlə üstlərinə təzə bəla, fəlakət gəlmirmi?

Ehsan xanın ürəyində bir şübhə toxumu düşüb qaldı...

***

Rus süvariləri dayanmadan şəhərə girdilər.

Mömünəxatun məqbərəsinə çatmamış süvarilərin qarşısını ermənilərdən ibarət dəstə kəsdi. Böyük şərab çəlləyini çəkib ortaya gətirdilər. Ağzı söz tutmayan, boğazının damarları şişincəyədək qışqıran, sonra da əlindəki badəni generalın şərəfinə qaldırıb şərabı sinəsi aşağı tökə-tökə içən və qələbənin sevincindən ağlını, huşunu itirən bu insan sürüsü Ehsan xanı iyrəndirdi...

O, üz-gözünü turşudaraq ikrahla üzünü çevirdi. Ermənilərin arasında Madatla Artur adamları itələyə-itələyə irəli çıxmağa can atırdılar. Madat axır ki, Paskeviçə yaxınlaşa bildi, iri bədənini aşağı əyib onun sağ əlini qamarladı, dodaqlarına sıxdı, sonra da çəkmələrini öpməyə cəhd elədi. Lakin buna macal tapa bilmədi. Kimsə onu itələdi. O, üzüqoylu düşdü. Gözləri vəhşi canavar gözləri tək alışıb yanan, bir-birini itələyib generalın əlini, çəkmələrini öpmək şərəfinə nail olmaq istəyən ağlını itirmiş bu insan sürüsü sevincin şiddətindən basabas salaraq az qala atların ayaqları altına düşəcəkdilər.

Səs-küydən, bağırtıdan hürkmüş atlar bu ağlını itirmiş, özünü idarə edə bilməyən insan sürüsünü az qala tapdalayıb keçəcəkdi. Bu anda basabasdan şərab çəlləyi aşdı, iki-üç nəfər çəlləyin altında qalaraq bağırdı, boş çəllək üzüaşağı diyirləndi, axıb gedən şərabın tünd qoxusu ətrafa yayıldı.

İnsan sürüsünün bağırtısından səbri daşan Paskeviç nəhayət sağ əlini yuxarı qaldıraraq qışqırıq, bağırtı səslərinin kəsilməsinə işarət verdi. İnsan sürüsü özü də elə bil dartışmadan, bağırmaqdan yorularaq dayandı. Generalın «tovarişi» deyən səsi sanki başlarının üstündən xəfif külək tək əsib keçdi. Bir anlıq çökən sakitliyin içində qoca Sərkis yaşına uyuşmayan bir gümrahlıqla bağırdı:

– Yol verin, general keçib getsin. General bilir ki, bu qələbə təkcə rusların deyil, həm də biz ermənilərindir. General sizinlə görüşəcəkdir. Hələlik isə o dincəlməlidir. Müharibənin ağrı-acısı canındadır. Tez olun, yol verin.

Qoca Sərkisin bağırtısından sonra insan sürüsü ikiyə bölündü. Ordu hərəkətə gəldi. İrəlidə gedən süvarilər xan sarayına çatanda Paskeviç atdan düşdü. Burada onu Naxçıvanın adlı-sanlı xanları, ağsaqqalları qarşıladı.

* * *

Ehsan xanla Şıxəli xan Kəngərli tayfasının məzarlığında Kalbalı xanın qəbrini ziyarət etdilər.

Ehsan xanın ürəyi qarmaqarışıq duyğularla doluydu. Bu duyğuların hamısına Kalbalı xanın yoxluğundan doğan bir hüzn çökmüşdü. Baş daşına söykənərək qazandığı günah və ya savabları sanki atasının ruhu ilə danışmaq, bölüşmək istədi: «Abbasabad qalasını ruslara təhvil verməkdə səhv eləmədim ki? Bəlkə də nəsillərimizi İran şahlarının zülmündən birdəfəlik qurtardım. Sağ olsaydın buna sən necə qiymət verərdin, ata?». Ürəyində pünhan bir duyğu da danışdı: «Mən sənin qisasını Qacar sülaləsindən aldım, Kalbalı xan».

Şıxəli xan da xeyli müddət başını atasının başdaşına söykəyib eləcə qaldı.

İki qardaş məzarlıqdan çıxanda Şıxəli xan soruşdu:

– İndi neynəmək fikrindəsən, Ehsan?

Ehsan xan əlini qardaşının çiyninə qoydu:

– Böyük qardaşımız Nəzərəli olsa da sənin məsləhətinə ehtiyacım var, Şıxəli.

Şıxəli xan köks ötürdü:

– Atamın arzusu Naxçıvanı müstəqil görmək idi. Biz də ələ verib bu yolda çarpışmalıyıq. Paskeviç də məni Ordubada hakim təyin elədi. Amma orda hələlik İran sərbazları ağalıq eləyir.

– Paskeviç məni də Naxçıvana hakim qoydu.

– Bu ki, şad xəbərdi...

– Heç kəsə deyə bilmədiyimi sənə deyirəm, Şıxəli.

– Çəkinmə de.

– Mən Abbasabad qalasının qapılarını həm də elə bil ermənilərin üzünə açdım. Rus ordusunun tərkibində çoxlu erməni əsgəri var.

– Hə... Demək belə.

...Şıxəli xan fikrə getdi:

– O vaxt atamın ermənilərdən xoşu gəlməzdi. Erməni Danil yadındamı?

– İndi erməni Danildən də təhlükəliləri var. Xəbərin yoxdu, Naxçıvan erməni keşişləri ilə doludu. Fəlakətin soyuğunu indidən canımda hiss eləyirəm, Şıxəli.

– Yəni bu ermənilər İran sərbazlarından da təhlükəlidi?

– Qorx gizli düşməndən. Üzünə gülə, ayağının altını qaza.

– Eləsə ayıq olmalıyıq Ehsan.

Ehsan xan üzünü uca göylərə tutdu:

– Allah bizə yar olsun.

– Amin – Şıxəli xan da sidq-ürəklə dedi.

Atlara minib xan sarayına tərəf çapdılar.

* * *

General Paskeviçin əsgərləri şəhərin bürküsünə tab gətirmədilər. Paskeviçin əmri ilə ordu Şahbuzun Qarababa düzündə düşərgə saldı.

Qarababa Şahbuzun səfalı yerindəydi. Qarababadan yuxarı bir-birinə arxa olan dağlar, dağların yamyaşıl ətəkləri bir tamaşaydı. Daim əsən sərin küləklər sanki bu yerləri yayın istisindən, bürküsündən qoruyurdu. Axşamlar dağlardan əsən küləklər dağların gül-çiçək ətrini gətirirdi.

Qarababa düzündən aşağıda-dağlardan axıb gələn Naxçıvançayın suyu yayda azalsa da yenə kara gəlirdi.

...Paskeviç Qarababa düşərgəsində bir neçə gün dincəlmək, sonra İran şahı Fətəli şahla sülh danışıqları aparmaq istəyirdi. General müharibəni davam etdirməyə lüzum görmürdü. Lakin Sərdarabad və İrəvan qalaları hələ də farsların əlindəydi. General Qarababada dincələrkən qalalara hücum planını da hazırlamaq istəyirdi.

3

Fətəli şah Abbasabad qalasının alınması xəbərini eşidəndə ürəyinin başından vurulmuş kimi sarsıldı. Gözlərinə qaranlıq çökdü. Zəngin sarayında yaralı aslan tək inildədi, hikkəsindən çırpındı. Günlərlə hərəmlərin qapısını açmadı, keyf məclislərindən üz döndərdi. Məğlubiyyətin səbəblərini öyrənmək, müharibənin gedişində dönüş yaratmaq üçün oğlu – İran taxt-tacının gələcək

varisi, İran ordusunun baş komandanı Abbas Mirzəni yanına çağırdı.

Rusların zəfəri Fətəli şahın içini laxlatmışdı, sanki gözə görünməyən, bir-birindən ağır olan dəhşətli uçqunlar onun iç dünyasının altını üstünə çevirmişdi. Elə bil qızılı rəngdə uca göy qübbəsi zəlzələdən parça-parça olub başına tökülmüşdü. Fətəli şah hiss eləyirdi ki, Ağa Məhəmməd şah Qacarın taxta çıxmağı ilə özülü qoyulan qüdrətli Qacar sülaləsinin başının üstünü qara buludlar alır. Onun isə əlinə qılınc alaraq bu qara buludları doğramağa, dağıtmağa hünəri çatmır. Şah rahatlıq tapa bilmir, Abbas Mirzənin arxasınca söylənirdi: «Gör kimə inandıq, kimə etibar etdik? Kor Kalbalı xanın oğlu Ehsan xana. Heç birimizin ağlına gəlmədi ki, o, bizdən atasının intiqamını ala bilər...». Şah birdən Ehsan xanı yanında görürmüş kimi gözləri hədəqəsindən çıxdı, alt dodağı sallandı, dişlərini qıcayıb sanki onun hülqumundan tutub var qüvvəsi ilə sıxdı: «Sən İran ordusunda sərhəng idin, Ehsan xan. Sənin nəyin çatmırdı? Mən sənin qardaşın Şıxəli xana da etimad göstərib Ordubada hakim göndərdim. Rus-İran müharibəsi başlayan kimi səni Abbasabad qalasının mühafizi təyin etdik. Bizim etimadımız müqabilində sən İran şahlığına xəyanət etdin. Xain, satqın... Sən üzünü xaçpərəstə çevirdin. Axı nə üçün? Nəyə görə?»

Sanki Fətəli şah bağrının başına sancılmış iti xəncərin ağrısına dözə bilmirdi.

...Abbas Mirzə atasının başı üstə dayananda Fətəli şah hələ də ağrıdan inildəyirdi. Xəyanət qılıncı onun gələcək arzularını, xəyallarını məhv edirdi – əli Şimali Azərbaycandan üzülürdü.

Abbas Mirzə atasının rəngi qaçmış bənizini, qan çəkmiş gözlərini görəndə canından bir üşütmə keçdi. Ona elə gəldi ki, şah onu görən təki çığırıb bağıracaq, saray əhli qorxudan zağzağ əsəcək, bəlkə hələ şah onun qətlinə fərman da verəcək...

Amma Fətəli şah yorğun halda başını qaldırdı, əlini dizinin üstə qoydu və oğluna oturmaq işarəsi verdi. Sanki özü ilə çarpışmaqdan yorularaq zəif səslə soruşdu:

– Cavan bulaqda çoxmu sərbaz tələf oldu?

Abbas Mirzə şaha yaxınlaşmağa cürət etməyərək ondan xeyli aralı oturdu və asta səslə dedi:

– Ruslar bizdən çox tələfat verdi, şəhriyar.

– Qalanın alınmasında kürəkənin Məhəmməd Emin xanın günahı varmı?

Abbas Mirzə cavab verməyə çətinlik çəkdi. Atasının gözlərindəki ağrını görməmək üçün başını aşağı saldı və başqa söz dedi:

– Mən Ehsan xana çox inanırdım, şəhriyar. Mən onun satqın çıxıb ruslarla əlbir olacağını ağlıma da gətirməzdim.

– Məhəmməd Emin xan sağdırmı?

– Sağdır, lakin ruslar onu əsir götürüb. Elə bilirəm ki, onu əsirlikdən azad edə biləcəyik. Çünki bizdə də rus əsirləri çoxdur.

Abbas Mirzənin qəfildən üzü işıqlandı, gözləri parıldadı:

– Sərdarabad və İrəvan qalaları hələ əlimizdədir. Ruslar bir dəfə bu qalaları almağa cəhd etdilər, lakin bacarmadılar. Üstəlik general Krassovskinin ordusu son nəfərinə qədər məhv edildi.

Fətəli şahın tutqun çöhrəsində bir əzələ də tərpənmədi. Ürəyinin dərinliyindəki ümidsizlik onun gözlərində əks olundu:

– Ehsan xanı zindana atmalıydın. Mən atası Kalbalı xan kimi onun da gözlərini çıxartdırardım... Ürəyim onda soyuyardı...

– Ruslar buna imkan verməzdi, şəhriyar.

– Ya da Məhəmməd Emin xan onu qaladaca qətlə yetirərdi.

– Ruslar onu tələb edəcəkdi.

– Qorxaqlar – Fətəli şah bağırdı.

Abbas Mirzə atasını sakitləşdirmək, içindəki ümidi yenidən alışdırmaq üçün yerindən dikəldi, təbəssüm içində dedi:

– Mən sizə şad xəbər də vermək istəyirəm, şəhriyar.

Fətəli şah canlandı, gözlərində ümid işartısı göründü:

– Söylə görək.

– Ruslar geri çəkilir.

– Xəbər səhihdirmi?

– Səhihdir. Məlumatı kəşfiyyatçılarımız gətirdi. Ruslar hazırda Qarababa düzündə düşərgə salıb. Onlar Abbasabad qalasını işğal etsələr də nədənsə Təbrizə qoşun çəkmədilər. Əksinə Qarababaya tərəf geri çəkildilər. Elə bilirəm ki, onlar qorxaraq müharibəni davam etdirmək istəmədilər.

Fətəli şah ayağa qalxıb gəzindi. Xəbər birdən-birə onda ruh yüksəkliyi yaratdı. Bayaqkı qanqaralıq çəkilib getdi. Şah düşünüb üzünü Abbas Mirzəyə çevirdi:

– Qoşun fərmandehlərini topla. Məsləhətləşib yenidən hücum planını hazırlayın. Ruslar özlərinə gəlməmiş başlarının

üstünü alın. Onları son əsgərinə qədər məhv etməliyik ki, gözlərini birdəfəlik Azərbaycandan çəksinlər.

Abbas Mirzə tez qərar çıxarmağa cəsarət etmədi:

– Mən müharibəni yenidən başlamaq tərəfdarı deyiləm, şəhriyar. Biz məktub yazaraq öz nümayəndəmizi Paskeviçin yanına göndərək və tələblərimizi qoyaq.

– Bəs tələbimiz nə olsun?

– Naxçıvan və İrəvan xanlıqlarından əl çəksin.

– Səncə Paskeviç bu tələbimizə əməl edərmi? – Fətəli şah inamsızlıqla soruşdu – Yəqin ki, bu tələbimizə qarşı onlar öz şərtlərini irəli sürəcəklər.

...Doğrudan da rusların şərti ağır oldu: Şimali Azərbaycanı işğal etmiş Rusiyanın mənafeyini ifadə edən Paskeviç Araz çayının sərhəd olması şərtini irəli sürdü. Üstəlik İrandan otuz min gümüş pul dəyərində təzminat istədi.

* * *

General Paskeviç İran tərəfdən şərtlərinə cavab gözləyirdi. Cavab isə yubanırdı.

Fətəli şah Rusiyanın irəli sürdüyü tələbi qəzəb hissi ilə qarşıladı. O, bu şərtləri qəbul etmədi.

Müharibənin yenidən başlanması gözlənilirdi.

Lakin Rusiya müharibəni Türkiyə ilə başladı və İranla savaşı davam etdirmək ruslar üçün sərfəli olmadığından çar I Nikolay Paskeviçə farslarla təcili sülh müqaviləsi bağlamağı tapşırdı.

General Paskeviç vəliəhd Abbas Mirzə ilə danışıqlara müvəkkili Aleksey Sergeyeviç Qriboyedovu göndərdi.

* * *

1827-ci il 20 iyul.

Aleksey Qriboyedov kiçik bir dəstə ilə Abbasabad qalasından çıxıb axşama yaxın Arazdan 49 verst aralıda yerləşən Qaraziyəddinə çatdı. Burda farsların düşərgəsi yerləşirdi. Abbas Mirzə Qriboyedovu burada gözləyirdi.

... Axşam düşürdü. Qaranlıq tünd mavi örtük kimi dağların, dərə-təpələrin üzünə çökürdü. Axşam düşsə də hava yenə bürkülü və cansıxıcı idi.

Farslar Qriboyedovu başının dəstəsi ilə ehtiramla qarşıladılar. Onları hörmət əlaməti olaraq xüsusi çadıra apardılar.

Çadırda ürəkaçan səliqə-səhman vardı. Xalı döşənmiş və döşəkçələrin kənarına mütəkkələr qoyulmuşdu.

Aleksey Qriboyedova bildirdilər ki, şahzadə onu hüzuruna çağırana qədər o, bu çadırda gözləməli olacaqdır.

...Səhərisi gün Qriboyedov ətrafa gəzməyə çıxdı. O, özünü sərbazların arasında birdən-birə tənha və dünyadan təcrid olunmuş kimi hiss etdi. Fars dilini yaxşı bilsə də sərbazlara yaxınlaşmadı. Rusların yerləşdiyi xüsusi çadırı iki gözətçi qoruyurdu və bayıra çıxan kimi bu iki gözətçi Qriboyedovun arxasınca düşürdü.

İyulun 21-də sübh tezdən düşərgənin sakitliyini möhkəm çapan at nallarının səsi pozdu. Birdən-birə sanki savaş havası yarandı. Qriboyedov başını çadırdan bayıra uzatdı və Xoy tərəfdən bir dəstə atlı sərbazın düşərgəyə yaxınlaşdığını gördü.

Qriboyedov çadırdan çıxmayaraq başının adamları ilə hadisələrin gedişini izlədi. Bayırdan ara-sıra güllə səsləri, fars dilində ucadan danışıqlar və möhkəm gedən atların nallarından qopan səslər gəlirdi.

Günortaya yaxın çadırın pərdəsi qaldırıldı. Abbas Mirzənin eşik ağası yekəpər naib Qriboyedovu şahzadənin yanına apardı.

Vəliəhdin çadırı lap yaxınlıqda idi. Qriboyedovla birlikdə şahzadənin yaxın adamları – Mirzə İsmayıl və Mirzə Saleh də onunla birlikdə vəliəhdin çadırına gedirdilər. Ətrafa çoxlu sərbaz toplaşmışdı. Qriboyedov onların gözündə parlayan nifrət şöləsini lap yaxından gördü. Bu səssiz və amansız nifrət sanki güllə kimi üstünə yağırdı və Qriboyedovun canına üşütmə salırdı. Lakin o, qorxduğunu və çəkindiyini biruzə verməyərək sərbazların gözünə baxmamağa çalışdı. Onların yanından sakitcə ötüb keçdi və şahzadənin çadırına daxil oldu.

Çadırda Abbas Mirzə tək idi. Qriboyedov yaxınlaşıb onunla səmimiyyətlə görüşdü. Bir anda içəri şahzadənin yaxın adamları ilə doldu.

Qriboyedov Abbas Mirzəni çoxdan, Təbrizdə olarkən tanıyırdı. Buna görə də söhbətə elə Təbrizdəki tanışlıqdan başladılar.

Söz birinci rus-İran müharibəsinin üzərinə gələndə Qriboyedov narahatlıq hissi keçirdi. Şahzadə isə sanki çoxdan bəri içində yığılıb qalmış və onu narahat edən məsələləri açıb tökməyə fürsət tapdı. General Yermolova olan nifrətini açıqca biruzə ver-

ıı. Qriboyedov şahzadəni hörmət xatirinə təmkinlə dinləsə də ıirsini zorla cilovlayır, özünü sakit aparmağa çalışır və ürəyində iüşünürdü: «Axı ötüb keçmiş müharibənin mənə dəxli yoxdur. ndi ikinci rus-İran müharibəsi gedir. Söhbət də indiki müharibə ıaqqında olmalıdır, əlahəzrət şahzadə. Mənə verilmiş tapşırığa ıörə sizin yanınıza gəlmişəm...».

Qriboyedov axır ki, vəliəhdi lüzumsuz söhbətdən ayırıb əsas nəsələyə keçdi:

– Ötən il İran ordusu bizim sahib olduğumuz Qafqaz istiqanətində çox irəlilədi. İndi isə biz İrəvan və Naxçıvan vilayətlərini keçərək Araz çayına çatdıq və Abbasabada sahib olduq.

Abbas Mirzə yerində sakit otura bilməyib azca dikəldi və bağırdı:

– Sahib olduq! Siz onu götürdünüz! Abbasabadı sizə mənim kürəkənim verdi. O, qorxaqdır. Arvaddır. Arvaddan betərdir – şahzadə nə danışdığının fərqinə varmadan kimi isə töhmətləndirnəyə, uğursuzluğun acısını üstünə tökməyə adam axtarırdı.

– Siz də biz etdiyimizi edin – Qriboyedov onu sakitləşdirməyə cəhd etdi.

– Yox, siz qala divarları yanında ölərsiz, amma onu verməziz. Əgər bizimkilər də bunu etməyi bacarsaydılar o halda siz Abbasabada sahib ola bilməzdiz.

Söhbət baş tutmurdu.

Abbas Mirzə sinirli, əsəbi idi və axır ki, tələbini irəli sürdü:

– O halda Naxçıvan və İrəvan xanlıqlarını geri qaytarın.

– O xanlıqlar artıq Rusiyanındır.

– Siz ümumdünya işğalçısı kimi hər yeri işğal etmək istəyirsiniz. Vilayətləri tələb etməklə yanaşı həm də pul istəyirsiniz. Amma bunun müqabilində heç bir şərtlə razılaşmaq istəmirsiz.

– Hər hansı müharibə qurtardıqdan sonra, baxmayaraq ki, bu müharibəni birinci siz ədalətsiz olaraq başlamısınız, biz öz sərhədlərimizlə bərabər sizin də sərhədləri müəyyənləşdirəcəyik. Buna görə də hazırkı vəziyyətdə İrəvan və Naxçıvan vilayətlərini bizə güzəşt edilməsini tələb edirik. Pul isə elə bir silahdır ki, onsuz nə müharibə etmək olar, nə də ticarət... Pul tələb etməklə biz öz rəqibimizi bizə zərər vurmaq imkanından məhrum etmək istəyirik.

Qriboyedov qəti sözünü deyib şahzadənin gözlərinin içinə baxdı. Abbas Mirzə yorulmuş halda başını buladı:

– Bu dünyada haqq-ədalət yoxdurmu?

– Əlahəzrət şahzadə, bu işdə siz özünüz öz taleyinizi silahla həll etməyə qərar verdiniz. Sizdə olan ağıla, cəsarətə, qüvvətə şübhə etmədən təkcə onu deyə bilərəm ki, müharibəni birinci başlayan onun necə qurtaracağını deyə bilməz.

Həmin gün söhbət baş tutmadı. Tərəflər bir-birindən narazı halda ayrıldı.

...İyulun 22-də Qriboyedov ikinci dəfə Abbas Mirzənin yanına görüşə getməli idi. Lakin sübh tezdən yatağından qalxa bilmədi, hərarəti birdən-birə qalxdı, möhkəm başağrısı gözlərinə qaranlıq kimi çökdü. O, təkrar yatağına uzandı. Qriboyedovla birlikdə Qaraziyəddinə gəlmiş Abbasqulu ağa Bakıxanov hərarətin yenməsi üçün türkəçarə dərmanlar hazırladı.

Qriboyedovun görüşə gəlmədiyini görən Abbas Mirzə iyulun 23-də ona məktub göndərdi. Bu məktubda şahzadə təklif edirdi ki, ruslar Abbasabaddan başqa Naxçıvan vilayətini, həmçinin Eçmiədzini də tərk etsinlər. Vəliəhd yazırdı: *«Allahın bu iqamətgahını qorumaq üçün burada iki pristav – həm bizim, həm də onlar tərəfdən saxlamaq kifayətdir. Orada nə rus, nə də İran qoşunu saxlanmalıdır»*.

Abbas Mirzənin məktubunu oxuyan Qriboyedov şahzadənin təklifini qəbul etmədi. Üstəlik məğlub olan tərəf kimi onun israrı Aleksey Sergeyeviçin xoşuna gəlmədi. Qaraziyəddini tərk edərkən Qriboyedov Paskeviçin fikrini ifadə edərək son sözünü son güllə kimi atıb getdi:

*«– Biz əməliyyatı davam etdirərək Azərbaycanı ələ keçirdikdən sonra bu geniş vilayətin (yəni Naxçıvanın) müstəqilliyini təmin edəcək və heç kimə də imkan verməyəcəyik ki, on fərsəng belə sərhəddə yaxın gəlsin»*.

Naxçıvana gələn Qriboyedov iyulun 24-də Qaraziyəddində vəliəhd Abbas Mirzə ilə apardıqları danışıqlar və son nəticə barədə raport yazaraq baş komandan general Paskeviçə təqdim etdi.

İran tərəfi ilə danışıqlar aparan Paskeviç gözlənilmədən aldığı xəbərdən çaşıb qaldı: «Rus təbəəliyini qəbul etmək istəməyən Kərim xan başının dəstəsi ilə Ordubad dağlarına çəkilib. O rus hərbi hissələrinə ziyan vurur. Kərim xan vaxtı ilə Naxçıvan xanlığının başçısı olub».

Paskeviçin diqqəti indi də dağlarda gizlənən Kərim xanın dəstəsinin ləğvinə yönəldi. Lakin ruslar dəstəni məhv edə bilmirdi. Ordubadın dağ kəndlərinə, yollarına, cığırlarına nabələd olan əsgərlər qəflətən dəstə ilə üzləşir, itki verərək geri çəkilirdi. Kərim xan qənimətləri götürərək yenidən dağlara üz tuturdu.

4

...Ocağa çırpı atıldıqca alov gurlaşır, sonra öləziyərək tez də köz salırdı.

Kərim xan ocağa yaxın oturmuşdu. Ocağın istisi gecənin ayazında ona xoş gəlirdi. Gözü ocağa baxdığından alov gözlərində əks olunur, sanki bəbəklərində saysız-hesabsız nizələr oynaşırdı. Kərim xan qaşqabaqlı olduğundan kimsə danışmağa cürət etmirdi. Aralıda bağlanmış atlar fınxırır, hərdən də ayaqlarını yerə döyərək gecənin ayaza bələnmiş sükütunu pozurdular.

Kərim xanın içərisini sanki ocağın alovu kimi qarışıq, gözəgörünməz bir alov qarsırdı. O, kürəkəni Ehsan xana acıqlı idi. Ehsan xanın rusların tərəfinə keçməsi xəbəri Kərim xanı sanki arxasından vurulan zərbə kimi sarsıtmış, ağrıdan qıvrılaraq az qala bağırmaq, hayqırmaq istəmişdi. Kərim xan özünü toxtatmağa, ovutmağa çalışırdı: «Ehsanda günah yoxdu, Kərim xan. O, atasının intiqamını Fətəli şahdan aldı. Bir də Naxçıvan fars zülmü altında zillət çəkirdi. Farslardan yaxasını qurtarmaq üçün Kalbalı xan da daim ruslara can atırdı. Bəs indi niyə Ehsan xanın hərəkəti səni təbdən çıxarıb? Yox... O, gərək gəlib mənim dəstəmə başçılıq edəydi! Biz rusları Naxçıvana yaxın buraxmazdıq. Nə rusları, nə farsları...».

Kərim xan başını qaldırıb ocağın istisinə əllərini qızdıran, yorğunluğunu çıxaran adamları diqqətli, davamlı baxışlarla süzdü. Çoxu cavan idi, aralarında yaşlılar da vardı. Üz-gözlərini tük basmış, dağda-daşda gecələyən, rahatlıq və dincliyini itirmiş bu adamlarla bu dağlarda hələ nə qədər vuruşacaqdı, bilmirdi. Kərim xan köksünü ötürüb gözlərini təkrar ocağın alovuna zillədi. Bir az əvvəl onlar döyüşdən qayıtmışdılar. Rus süvariləri ilə Vənənddə üz-üzə gələn Kərim xan qeyri-bərabər döyüşə girmişdi.

Yaxşı silahlanmış ruslar kol dibindən, qaya arxasından çıxaraq onları mühasirəyə almaq istədilər. Kərim xan yaşlı olsa da cəld, çevik idi. Atın yalmanına yataraq sağdan və soldan atəş açır, müdafiəçiləri ruhlandırırdı.

Ruslar tərəfdən atılan güllələr axır ki, seyrəldi. Əsgərlər geri çəkildi. Kərim xan dəstəsi ilə Vənəndi tərk etdi *(Vənənd döyüşündə Kərim xanın dəstəsi əlli beş nəfər əsgəri məhv etmişdi).*

Lakin bu döyüşdə göstərdikləri hünər Kərim xanın qaşlarının düyününü açmadı. Onun qaralmış çöhrəsində, qıyılmış gözlərində gizlətmədiyi kin və nifrət şöləsi titrəyirdi. Bir-birinə sıxılmış qalın göyümtül dodaqları, dən düşmüş qısa topa saqqalı onun sərt xasiyyətini sanki cizgilərlə çöhrəsinə həkk etmişdi.... Gecənin qara çarşavına bürünmüş dağlar, bü dağların arxasında çox-çox uzaqlarda qalan ev-eşiyi, uşaqları, nəvələri sanki səssiz bir hayqırışla onu çağırırdı. Kərim xanın ürəyini didən, qəlbini parçalayan, onu hamı kimi yaşamağa, düşmənlə barışmağa qoymayan bir duyğudan yaxasını qurtara bilmirdi. Bu duyğu onun içində bayatı harayı tək səssiz ağlayırdı...

– Xan...

Kimsə onu çəkinə-çəkinə astadan çağırdı. Kərim xan başını qaldırdı. İlk əvvəl qarşısında küllənmiş ocağın soyuduğunu gördü. Ucadan söyləndi:

– Deyirəm axı, niyə sazaqdı? Ocağı keçirməyin.

Həmin səs bir də astadan dedi:

– Uşaqlar bayaqdan oduna gedib. Çırpı bir göz qırpımında alışıb yanır.

Xan üşüyürmüş kimi çiyinlərini qısdı:

– Keçmə bu dağların soyuğundan.

Kərim xanla üzbəüz oturmuş Gülmalı çəkinə-çəkinə güldü:

– Aranda da uruslar istidən başını itirib.

Kərim xan acığını zəhər kimi içindən sıxıb çıxarmaq istədi, istehza ilə dedi:

– Ehsan xan qoymaz urus başını itirə.

– Hə da bə. Qarababada düşərgə salıblar. İsti onları şəhərdən qaçırıb. Eh, heyif Ehsan xandan, igid adam idi – Gülmalı köks ötürdü – qoşulardı bizə. Qovub çıxarardıq urusu Naxçıvandan... Sonra da Kərim xanı aparıb oturdardı Naxçıvan xanlığının taxtında.

– Yox, yox mən istəmirəm – Kərim xan qeyzlə dedi – aldığım məlumata görə Paskeviç onu Naxçıvana naib qoyub. Ehsan xan indi Naxçıvanın ağasıdı.

– Belə baxanda Ehsan xanda da günah yoxdu – Gülmalı gözünü Kərim xana dikdi – Naxçıvan İranla Rusiyanın arasında qalıb. Farsdansa...

– Kəs səsini – Kərim xan acıqlandı – urus kafirdi, mən urusla son nəfəsədək vuruşacağam. Gördüz də bu günkü döyüşü, savaşı. Onlar bu dağlarda bizə qalib gələ bilməzlər. Çünki bura bizim öz yurdumuzdu, biz burda hər cığıra, izə bələdik. Mənə çatan məlumata görə Paskeviç Qarababadan Biçənək aşırımlarına qədər, Batabata qədər yol çəkdirir.

– Biz əvvəllər o yolu qatırla, atla gedərdik. Düz Qarabağa qədər. Araba çox çətinliklə gedərdi – Məmmədxan da söhbətə qoşuldu.

– Paskeviç yolu ona görə genişləndirir ki, Qarabağdan Naxçıvana arabalarla hərbi sursat daşısın – Kərim xan köks ötürdü.

Çırpı, odun arxasınca gedənlər qayıtdılar. Bir azdan ocaq yenə alovlandı. Kərim xan birdən fikirdən ayıldı. Üzünü arıq, ucaboy kişiyə tutdu:

– Həmzə...

– Eşidirəm xan.

– Ağlıma bir şey gəldi.

– Buyur, xan.

Həmzənin tük basmış sifətində gözləri işıldadı.

– Deyirəm burdan Əlincə tərəfə adlayaq. Əvvəla ruslar bu dağlarda bizi iynə kimi axtaracaq. Çünki bu dəfəki döyüşdə onlar çox itki verdi. Onlar çalışacaq ki, bizim axırımıza çıxsınlar. İkinci– qabaqdan payız gəlir. Dağların payızı da elə qış deməkdi. Ona görə də Əlincədən Keçili dağlarına yenib Qarababaya keçək, rus düşərgəsinə qəflətən hücum edib onları məhv edək, çoxlu qənimətlə yenidən Əlincəyə qalxaq. Qışı burda keçirək.

– Xan, amma... – Həmzə dilini sürüdü.

Kərim xan acıqlandı:

– Nə amma?

– Birdən basıldıq? Çünki Qarababada rusların güclü ordusu yerləşir.

– Bu dağlarda kimsə bizə bata bilməz. Çünki ruslar bu yerlərə nabələddir. Mən bir şeydən qorxuram – Kərim xan düşüncəli halda gözlərini qıydı – mən qorxuram ki, Paskeviç bizimlə döyüşə Ehsan xanı göndərə.

Həmzə sevindi:

– Əslində mən onu demək istəyirdim, cürətim çatmadı.

– Amma bilmirəm Ehsan xan mənə – qaynatası Kərim xana qarşı çıxarmı? İsmayılın, Kalbalının babası Kərim xana silah qaldırarmı? – Kərim xan təəssüflə, dərin yanğı hissi ilə başını buladı: – bu zəmanədə hər şey gözləmək olar, Həmzə.

– Xan, ya oyanlıq olarıq, ya buyanlıq. Əgər qarşımıza Ehsan xan çıxarsa biz onunla da döyüşə hazırıq.

Xeyli müddət kimsədən səs çıxmadı. Hamı Kərim xanın qərarını gözlədi. Handan-hana Kərim xan başını qaldırdı:

– Onda dincəlin. Sübh tezdən yola düşürük. Bu günkü savaşdan çoxlu qənimət götürmüşük. Onlar bizə lazım olacaq.

Ocağın başındaca hərə necə gəldi qalın kürkə bürünərək silahlarını başlarının altına qoydular və dərin, dinc bir yuxuya getdilər. Təkcə Kərim xan oyaq qaldı, yata bilmədi...

5

...Qarababadan aşağıda rusların keşikçi məntəqəsi yerləşirdi. Keşikçi məntəqəsinin sağ və sol tərəflərində – xeyli uzaqda alçaqlı-ucalı təpələr, təpələrdən aralıda isə dağlar sıralanmışdı. Ətraf çöllük idi. Ortadan axan Naxçıvançayın aşağı hissəsində uca təpələrin arxasında keşikçi məntəqəsinə yaxın olan Şahbuz kəndi yerləşirdi. General Paskeviç kənddən beş-altı nəfəri orduda işə götürmüşdü. Onlar xidmət işlərinə baxırdılar. Kəndə gediş-gəliş çətin olduğundan və xeyli vaxt apardığından həmin adamlar keşikçi məntəqəsinə yaxın yerlərdə özləri üçün kiçik daxmalar tikmişdilər. (Sonralar bu kiçik daxmaların yerində evlər tikilməyə başladı. Kənd Şahbuz kəndindən və qışda yolları bağlanan ən ucqar kəndlərdən buraya ailələr köçdü. Çünki yeni salınan yaşayış məntəqəsi mərkəz idi – buradan həm uzaq kəndlərə, həm də şəhərə getmək asan idi. Naxçıvançaya yaxın olduğundan yeni salınan yaşayış yeri Çay Şahbuz adlanmağa başladı. Keşikçi məntəqəsinə yaxın olan kənd isə Kənd Şahbuz adlandı. Hazırda Çay Şahbuz Şahbuz rayonunun mərkəzi Şahbuz qəsəbəsidir).

* * *

...Paskeviç keşikçi postunda dayanmadı. Onun arxasınca general Eristov, Ehsan xan və bir neçə əsgər gedirdi. Yollarda xeyli əsgər vardı. Onlar yolları genişləndirirdi. Atların və araba-

ların rahat gedib gəlməsi üçün Biçənək aşırımlarından da yuxarıda yolu xeyli genişləndirmişdilər. Bu yollarla Qarabağdan Naxçıvana hərbi sursat daşımaq asan olacaqdı.

...Qarababaya axşamın sərinliyi çökürdü. Yamyaşıl çəmənlərin üzərindən günəş son saçaqlarını yığırdı. Naxçıvançayın sağ sahilindən üzüyuxarı qollu-budaqlı ağaclar görünürdü. Çayın qırağında isə qoca söyüdlərin çılpaq kötükləri, cadar-cadar olmuş quru budaqları qaralırdı. Bu quru budaqların ucunda yarpaqlar titrəşirdi. Bu yerlərdə təbiətin – dağların zirvəsində qarı, ətəyində baharı saxlamağa qüdrəti çatırdı...

...Ehsan xan atını Paskeviçin arxasınca sürürdü. Paskeviç onu Naxçıvanın naibi təyin edəndən qayğıları başından aşırdı. Rus-İran müharibəsi şəhərə xeyli ziyan vurmuşdu: evlər dağılmış, küçələr bərbad olmuşdu. Daim xarici tacirlərin məskəni olan Naxçıvan indi suyu sovulmuş dəyirman kimiydi. Şəhərin simasında bir hüzn duyulurdu. Xanlıqda bahalıq və yoxsulluq şahlıq edirdi. Üstəlik qaynatası Kərim xan başına dəstə yığıb meydan sulayırdı, ruslarla müharibə aparmaq həvəsinə düşmüşdü...

Alınan xəbərlərə görə Kərim xan artıq Əlincədə idi. O, Qarababada yerləşən rus düşərgəsinə basqına hazırlaşırdı. Ruslar bu yerlərə nabələd olduğundan Paskeviç Kərim xanın dəstəsi ilə döyüşə Ehsan xanı göndərmək istəyirdi.

...Paskeviç süvarilərlə çadırların yanından keçib Qarababa düzünə qalxdı. Əsgərlər orda təlim keçirdilər.

Ehsan xan içindəki sıxıntıdan darıxırdı. Sanki ürəyinin başında ərimək bilməyən daş parçası vardı. Abbasabad qalasını təslim edəndə bu qədər pərişanlıq duymamışdı. Rus ordusunun gücünü qiymətləndirməyən, sabahı görmək istəməyən Kərim xana Ehsan xanın acığı tuturdu: «Kişi yaşlaşdıqca ağlını itirir. Soruşan gərək: Kərim xan sənin o qədər gücün, qüvvən, ordun, top-tüfəngin varmı ki, sən rusun, yaxud farsın qabağına çıxasan? Başına yığdığın adamları da ev-eşiyindən didərgin salıb ağılsız döyüşlərə girirsən. Atam Kalbalı xan Naxçıvanın müstəqil olmağını istəyirdi. Amma düşünürdü ki, farsın zülmündənsə rusun təbəəliyi yaxşıdı. Ona görə də ruslara can atırdı. Elə biz qardaşlar da onun yolunu tutduq. Kim bilir, bəlkə zaman gələcək bizim heç kəsdən asılacağımız olmayacaq... Amma sən indi səhv yoldasan, Kərim xan».

Paskeviç atdan düşdü. Bu anda sulu, qızarmış göy, qıyıq gözləri sifətinin qırışları içində zorla seçilən, qəddi əyilmiş bir qoca özünü Paskeviçə yetirdi.

General aşağı əyilib qocanın çiyinlərindən tutdu, üzünə sığal çəkdi, sonra da qulağına ucadan dedi:

– Yaxşısanmı, Sərkis?

– İvancan, bayaqdan yolunu gözləyirəm – sonra qırışlı, solğun əli ilə Paskeviçin belini qucaqladı, altdan yuxarı Ehsan xana baxdı.

– Bu kimdi, İvancan, mən onu tanımadım . Müsəlmandırmı?

– Müsəlmandır, Sərkis. Naxçıvanın naibi Ehsan xan Kəngərlidir. Kalbalı xan haqqında eşitmisənmi, onun oğludur.

Qıyıq, suluqlu gözlər o anda sərtləşdi, parıltısı sanki iti, kəskin nizəyə oxşadı. Elə bil daxilində bir göz qırpımında alışıb yanan nifrət şöləsi gözlərində əks olundu. Qocanın diqqətli baxışları Ehsan xanın içindəki sıxıntının üstə soyuq qar tək ələndi.

Sərkis üzünü Paskeviçə çevirdi:

– Naxçıvanda bildiyimə görə çox az erməni var...

Paskeviç onun sözünü kəsdi:

– Ehsan xan bizim dostumuzdur.

Sərkisin ağzını nifrətə oxşar təbəssüm əydi:

– Abbasabad qalasını sizə təslim edən Ehsan xan?..

Sərkis sözünü axıra qədər demədi, çəkingən halda generalın üzünə baxıb bu dəfə dərindən nəfəs aldı, gülüş gözlərinin içinə qədər yayıldı:

– İvancan İrəvanı da... Allahın köməyi ilə...

Ehsan xanın içində elə bil soyuq küləklər əsdi, qocaya baxan gözləri göynədi, nifrətlə üzünü çevirdi: «Atamın erməniləri görən gözü yox idi. «Zatıqırıq millətdi» deyərdi... Bu erməni qoca vaxtında az qalır Paskeviçin ayaqlarının altından öpsün».

* * *

... Gecənin gözündə vaxt əriyirdi.

Ay Qarababanın başı üstə dayanmışdı. Hər yer süd işığa bürünmüşdü. Keşikçilərin addım səslərindən, at fınxırtısından savayı özgə səs eşidilmirdi.

Ehsan xan öz dəstəsi ilə burda Kərim xanı gözləyirdi. Dəstə onlara ayrılmış çadırlarda yerləşmişdi. Qarababadan yuxarı –

Kərim xanın dəstəsinin gələcəyi güman olunan yerlərdə Ehsan xanın sərbazları keşik çəkirdi.

Ehsan xan yuxulamağa çalışsa da kirpikləri qovuşmurdu. Gözlərini yuman təki əli qılınclı, gözü nifrətli Kərim xanı görürdü. Bir də qəddi əyilmiş qoca Sərkis titrəyə-titrəyə üstünə gəlirdi: «Deməк İrəvanın işğalını ermənilər də gözləyir. O vaxt dayısı – İrəvan xanlığının başçısı Məhəmməd xan Danili İrəvana buraxmadı. «Bu erməniləri siz tanımırsız Kalbalı – demişdi. Onlar Eçmiədzin kilsəsinə yığışıb şeytani işlərlə məşğul olurlar».

Bu anda elə bil sakitlik içində qəfil çaxan şimşəkdən göy qübbəsi parça-parça olub Qarababanın üstə töküldü. Əsgərlər vahimə içində çadırlardan bayıra tökülüb, əllərində tüfəng hara gəldi güllə atmağa başladılar. Düşərgəyə yağan güllə isə təpələrin arxasından gəlirdi.

Ehsan ucadan qışqırdı:

– Hücum edən Kərim xandır.

Ehsan xanın sərbazları döyüşə hazır oldular. Onlar atlarını üzüyuxarı çapdılar.

Kərim xan Əlincədən adlayıb Qarababanın üst təpələrinə qədər gəlib çıxmışdı. Dəstə gülləni dolu kimi düşərgəyə yağdırırdı.

Ehsan xan süvariləri ilə Kərim xanın dəstəsinin qarşısını kəsdi. Atəş ara verən tək qışqırdı:

– Kərim xan. Uşaqları havayı ölümə vermə. Aşağıda rusların güclü ordusu var.

Kərim xan eşitdiyi səsdən diksindi: «Bu ki, kürəkənim Ehsan xanın səsidir. Ürəyimə daman başıma gəldi. Paskeviç mənim qarşıma öz kürəkənimi çıxardı. Ehsan xan tədbirliymiş. Buralara bələd olduğundan bizi tez tapdı... Paskeviç tülkü kimi biclik işlədib...».

Kərim xanın dəstəsi gözəgörünmədən iri daşların, qayaların, təpələrin arxasında gizləndi. Tək-tək güllə atılırdı. Kərim xan döyüşə girməyə tərəddüd etdi. Ehsan xanın səsini eşidən kimi ruhdan düşmüş Kərim xanın səsi gecənin sakitliyində əks-səda verdi:

– Ehsan xan, sən rusların tərəfinə keçməklə məni öldürdün, məhv elədin.

Ehsan xan cavab verdi:

– Sənin ruslarla savaşının xeyri yoxdur, xan. Eşidirsən? Sən uşaqları havayı gülləyə qurban vermə.

– Ehsan xan, sən də, Şıxəli də nahaq urusa inandız. Vaxt gələr bunun peşimançılığını çəkərsiz. O vaxt məni, əlinə silah alıb dağlarda təkbətək ruslara qarşı döyüşən, kafirləri qəbul etməyən Kərim xanı yada salarsan.

– Mən sənə bu ağılsız savaşı qurtarmağı məsləhət bilirəm, Kərim xan.

– Mən neynədimsə torpağım üçün elədim, Ehsan xan.

– Bizim də savaşımız hakimiyyət savaşı deyil, Kərim xan. Sən yanlış yoldasan.

Ehsan xanın sözünü dolu kimi daşların üstə yağan güllələr pozdu. Bir anda təpəliklər savaş meydanına çevrildi. Sübhə yaxın atışma səngidi.

Kərim xan atının başını üzüyuxarı çevirdi. Onun sifətində bir məyusluq və pərişanlıq vardı.

Həmzə son gülləni atıb arxasını onlara çevirən Kərim xandan soruşdu:

– Hara gedirik, xan? Biz Əlincədən, Keçili dağlarından belə dolanıb o uzaqlıqda yolu gəlmişik. Düşərgəyə hücum etmirikmi?

– Yox. Mən bu savaşdan əl çəkdim, Həmzə. İrana adlayırıq.

Ehsan xan əlini gözünün üstə qoyub baxdı. Təpənin qaşında xəyal kimi bir-birinin arxasınca sıralanmış süvarilər göründü. Onların başı üstdə göyün bir üzü sübhün şəfəqinə bürünürdü.

Ehsan xan atını üzüyuxarı çapdı: kimsəni görmədi. Ürəyinin içindəki sıxınıı da sanki sübhün şəfəqinə büküldü. Dərindən rahatlıqla köks ötürdü...

* * *

Murad atları yəhərləmək üçün həyətə çıxanda oğlunu görmədi. Astadan onu çağırdı. Amma cavab almadı.

Muradın səsinə Mahnur evdən çıxdı:

– Nə olub, Murad?– həyəcanla soruşdu.

– Cəngavər yoxdu, bu uşaq hara getdi, nə oldu? Axı bizi gözləyirlər.

Mahnurun yorğun ala gözləri təbəssümlə doldu, zərif qırışlar düşmüş gözəl çöhrəsi işıqlandı. Əllərini sinəsində çarpazlayıb tut ağacına söykəndi və mənalı gülümsündü:

– Heç cavan olmamısan, Murad?

Muradın narahatlığı bir anda sovuşdu, yaraşıqlı çöhrəsinə təbəssüm qondu:

– Ağlıma gəlmədi ki, istəklisi olar, Mahnur.

Mahnur ərklə şəhadət barmağını onun alnına dayadı:

– Sənin ağlında savaşdan, döyüşdən savayı heç nə yoxdu.

– Düz deyirsən, Mahnur. Savaşlar, müharibələr qurtardı ki, bizim də ağlımız sevginin, məhəbbətin yanında qalsın. Ruslar farsları məğlub eləsə də savaş hələ qurtarmayıb. Biz Ordubada Şıxəli xanın köməyinə getməyə bilmərik. Deyilənə görə Abbas Mirzə Ordubadı ruslara güzəşt eləmir. Üstəlik əhalini də İran tərəfə köçürür. Xeyli adam köçürülüb.

Mahnurun gözləri doldu:

– Mən sizi tək buraxmaq istəmirəm, Murad. Cəngavər gözümüzün ağı-qarası bircə oğuldur.

– Sən məni də döyüşə tək buraxmaq istəməmisən. Həmişə arxamda dayanmısan. Mən sənin at minib, qılınc oynadıb, güllə atmağınla iftixar eləmişəm, Mahnur.

– Eləcə də mən, Murad. Sən o dəliqanlı cavanların içində seçiləndə mən özümü dağ başında hiss eləmişəm. Uçmağa qanad axtarmışam.

– Boynuna al ki, o vaxtlar... qısqanclığın da vardı, Mahnur.

– Boynuma alıram. Mən səni az qala yerə, göyə qısqanırdım. Axı, sən məni ölümün ağzından, əsirliyin caynağından qurtarmışdın. Mən o qorxunc, müdhiş gecəni unuda bilmirdim. Onun soyuq nəfəsini daim hiss eləyirdim. Bəlkə də ona görə qüvvətliydim... Ona görə döyüşlərdə səninlə çiyin-çiyinə vuruşmaq istəyirdim. Əslində mən o müdhiş gecənin soyuq nəfəsini üzərimdən bir dəfəlik silib atmaq, ona qalib gəlmək istəyirdim. Qalib gəldim də.

– Bu bizim alın yazımız idi.

– Yox, bizim sevgimiz alın yazısı idi. Yaxşı ki, tanrı onu başqa cürə yazmadı.

Murad riqqətləndi. Mahnurun başını sinəsinə sıxdı. Ona elə gəldi ki, Mahnuru gördüyü ilk anda qəlbinə, könlünə hakim kəsilən o qüdrətli, döyüşkən və tilsimkar duyğular təzədən geri döndü. Əslində bu duyğular heç dəyişməmişdi. Murad Mahnurun uzun hörüklərinə sığal çəkdi. Saçlarına dən düşürdü. Yorğun ala gözlərində daim ovunmaq bilməyən hüzn vardı...

Murad qolunun üstə düşən soyuq damladan diksindi. Mahnurun çöhrəsini ovuclarının arasına alıb diqqətlə baxdı. Yaşlı kirpiklər sanki gözlərinə dolmuş qara buludları sıxaraq göz yaşını yağış kimi ələyirdi. Mahnur özünü saxlaya bilmədi. Başını Muradın sinəsinə sıxaraq için-için ağladı.

Murad da kövrəldi. Mahnur ilk dəfəydi savaşa onu belə gözüyaşlı yola salırdı.

– Mən səni belə bilməzdim, Mahnur.

– Bəlkə ağlamağım yaxşıdı – Mahnur göz yaşı içində gülümsədi – Sizi dolmuş ürəklə yola salmıram. Göz yaşı da yağış kimidi. Yolunuza aydınlıq gətirər.

Mahnur gözlərini quruladı. Sonra dolmuş, qaralmış Muradın sinəsinə sığındı. Bir müddət heç biri tilsimli sükutu pozmadı. Sonra Mahnur gülümsünərək Muradın qolundan tutdu:

– Gəl sənə gələcək gəlinimizi göstərim.

– Gəlini? Qonşu qızıdı?

Muradın aynası açıldı. Mahnur onun qolundan tutub bağçanın içinə apardı. Murad ağacların altında Cəngavəri görəndə dayandı. Çəpərin o üzündə dayanmış qızın üzü görünmürdü.

Muradın pıçıltısında bir fərəh duyuldu:

– Deməк Cəngavər qonşu qızına sevdalanıb, Mahnur?

Mahnur gözünü cavanlardan çəkmədən dedi:

– Hə də. Hacı Səmədin qızıdır.

– Kəngərli tayfasındandır Hacı Səməd. Bu tayfa zarafat deyil Heydərqulu xanı, Kalbalı xanı yetirib.

Mahnur öz aləmində idi:

– Qız çox yaraşıqlıdı, Murad.

– Nişan-zad aparmaq...

– Tələsmə. Qoy torpağımızdan savaş birdəfəlik qurtarıb getsin.

– Oğul toyunda oynamaq yaman könlümə düşüb, Mahnur.

– Elə mənim də, Murad.

Murad nə düşündüsə birdən-birə ruhdan düşdü, gözü yol çəkdi, səsində bir təşviş duyuldu:

– Deyəsən ruslarla Abbas Mirzənin danışığı baş tutmayıb. İran şahı Naxçıvanı əldən vermək istəmir. Axşam Ehsan xan bu barədə xeyli danışdı.

– Gördüm səhərə yaxın gəldin. Daha səni sorğu-suala tuta bilmədim.

– Ruslar farslara Arazı sərhəd təklif edir. Yəni Cənubi Azərbaycanla Şimali Azərbaycan arasında sərhəd.

– Deməkk Azərbaycanı ikiyə bölmək istəyirlər?

– ...

– Murad...

– Eşidirəm.

– Səncə Arazı sərhəd eləsələr şahın hökmü bir də Naxçıvana çatarmı? Yəni sərbazlar Arazı keçib yenə Naxçıvanda at oynadarmı?

– Yox, ruslar imkan verməz ki, sərbazlar Arazdan biz tərəfə ayaq qoyalar. O taylı, bu taylı sərhəddi qoruyacaqlar.

– Hə...

– Hə da bə.

– Bu başqa məsələ. Farslar sərhəd məsələsinə razı olmazlar! Ehsan xan sizə daha nə dedi, Murad?

– Ehsan xan dedi ki, general ağsaqqalların məktubundan çox razı qalıb.

– Hansı məktubdan?

– Paskeviç Abbasabad qalasını alıb öz ordusu ilə şəhərə daxil olanda şəhərin əlli nəfər hörmətli ağsaqqalı generala məktub verib. Həmin məktubu da dilmanc Abbasqulu ağa Bakıxanov rus dilinə çevirərək generala təqdim edib.

– Yoxsa ermənilər kimi – Mahnur üz-gözünü turşutdu – deyirlər ermənilər küçələri şərabla yuyub.

– Bilmirəm.

Mahnur birdən darıxıb sözü dəyişdi:

– Murad gəlinimiz ürəyincədir?

– Cəngavər bəyənsin...

– Gəl qayıdaq. Bizi yaxında görüb utanarlar.

– Oğlunu çağır. Yubanırıq Mahnur.

– Onları söhbətdən ayırmaq günahdı.

...Murad atları yəhərləyib qurtarınca Cəngavər də özünü yetirdi. Sifətdə anasına, boy-buxunda atasına çəkən Cəngavərin üzü gülürdü...

* * *

1827-ci il, avqust.

Ruslar hələ də Qarababa düşərgəsini tərk etməmişdilər.

Aleksey Qriboyedov da burada idi. Günlərini sayırdı. O, ya nız axşamlar çadırından bayıra çıxardı. O vaxtlar günəşin isti soyuyurdu. Qarababadan yuxarıda baş-başa vermiş dağlarda sanki kəkotu ətirli sərin meh əsərdi. Bu dağlı-təpəli, yaşıl çəmən yerlər Qriboyedovun xoşuna gəlirdi. Çadırlardan aşağıda ax gedən Naxçıvançayına düşər, sal daşın üstündə oturub ayaql rını sərin suya qoyardı. Qarababanın xoş mənzərəsini gözünə könlünə köçürərdi. Xəyalı burdan çox-çox uzaqlara gedərdi. Yaz masası arxasında oturub əsərlərini yazmağa, düşüncələrini a vərəqə köçürməyə fürsət, məqam axtarardı. Lakin düşüncələ top, güllə səslərindən dağılardı, yoxa çıxardı. Qələm-kağız i onu başqa bir dünyaya – dinc, sakit dünyaya çağırardı. Yox, o siyasət adamı deyildi. Müharibələr, savaşlar, bir-birini öldürən qan tökən insanlar, döyüş meydanları onun xəyallarından çox çox uzaq idi. Əslində onun döyüş meydanı – kağız, silahı-qələm idi. Bu anlarda da gördüyü mənzərədən vəcdə gələn, ürəyi pər-vazlanan, duyğuları coşa gələn Qriboyedov yazı masasının arxa-sına keçərək yorulmadan yazmaq, düşüncələrini ağ vərəq köçürmək istərdi. Naxçıvançaydan xeyli yuxarıda rusların düşər-gəsi yerləşirdi. Gündüzlər adamı alov kimi qarsan isti hamı çadırlara qovurdu. Yalnız günəş dağların arxasına çəkilən kim düşərgədə canlanma yaranırdı. Hələ ki, İran tərəflə danışıq baş tutmurdu. Ona görə də general Paskeviç əsgərlərə istiraha vermişdi.

...Axşamlar ətraf kəndlərdən düşərgəyə xeyli uşaq gəlirdi. Onlar əvvəl kənarda dayanıb əsgərlərə qorxa-qorxa, amma ma-raqla tamaşa edirdilər. Yaxına gəlməyə cürətləri çatmırdı. Lakin ruslardan zaval gəlmədiyini görüb yavaş-yavaş yaxınlaşdılar, düşərgənin içinə qədər gəlməyə cəsarət etdilər. Sonra əsgərlə onları başa saldılar ki, düşərgəyə əliboş gəlməsinlər. Onlar da axır vaxtlar əliboş gəlmirdilər. Uşaqlar qatıq, süd, təndirdə bişiril-miş lavaş gətirir, bunun dəyərində pul alırdılar.

Bu vaxtlar Aleksey Qriboyedovun da təzə tanışı onu gəlib ta-pırdı. Bu arıq, sısqa, nimdaş geyimli qarayanız bir uşaq idi. Əlin-də gətirdiyi bağlamanı səssizcə Qriboyedova verər, azca ürkək təbəssümlə gülümsünər və deyərdi:

– Qatıqdı, anam göndərdi.

Farsca səlis danışan Qriboyedov Azərbaycan sözlərinin qol-qanadını qıra-qıra oğlanı sorğu-suala tutardı. Oğlan ayrılıb ge-

dəndə isə ovcuna gümüş pul sıxardı. Oğlan pulu alan kimi yerindən elə götürülərdi ki, Qriboyedov onun yalın ayaqlarının altını görərdi.

...İndi də başını qaldıranda dikin üstündə dayanmış Mehmanı gördü. Oğlan bağlamanı yanına qoyub yalın ayaqlarını dikdən aşağı sallamışdı. Qriboyedov başını qaldırıb ona baxanda Mehman da azca dikəlib əlini yellədi və bağlamanı göstərərək qışqırdı:

– Qatıq... Qriboyedov əmi.

– Ah, katık – Qriboyedov qımışdı. Üzüyuxarı oğlanın yanına qalxdı.

Oğlan yamaqlı finkasının arxasını çırpdı və əl verdi:

– Salam, Qriboyedov əmi.

– Salam.

– Bu qatığı sənə anam göndərdi. Heç-zad istəmirəm. Pul-zad yox. Qriboyedov əlini cibinə atdı:

– Olmaz.

– Anam inciyər – Mehman bunu deyib yalın ayaqlarını yerə bərk basdı və qaçıb getdi.

Aleksey Qriboyedov onun arxasınca xeyli baxdı. Sonra əsgərlərin arasından keçib çadırına girdi. Bayırda səs-küy, atların kişnərtisi, nal səsləri bir-birinə qarışmışdı. Ara-sıra güllə atılırdı. Sərin düşəndə əsgərlər təlim keçirdilər. Atı çapa-çapa hədəfə güllə atırdılar.

Bunlar hamısı Qriboyedovu darıxdırırdı. İndi də çadırında kiçik bağlamanı açdı. Qazançanı çıxardı. Qatıq sərin idi. Çox güman ki, sərin qalsın deyə onu quyuya sallamışdılar.

Çadırın açıq qalmış qapısından artıq qaralan səma və bu səmanı işıqlandıran ulduzlar görünürdü. Onlar gecənin qara köynəyini çırtıb üzə çıxmışdılar. Bu sakit, parlaq ulduzlara baxanda Qriboyedov müharibəni unudurdu. Belə anlarda qəribsədiyi, həsrət çəkdiyi doğmalarına məktub yazmağa ehtiyac duyurdu. O, doğmaları Kixelbekerə, Bestujev – Marlinskiyə, Axverdiyevaya, Odayevskiyə çoxlu məktublar yazmışdı. İndi də bir qəriblik havası sanki dalğa kimi ürəyinin içindən keçib getdi və o, çox yaxın dostu rəssam Praskovya Nikolayevna Axverdiyevaya məktub yazmaq, duyğularını onunla bölüşmək ehtiyacı duydu. Şamı yandırıb masanın üstünə qoydu. Qriboyedov Naxçıvana gələndən birinci məktubunu iyulun 3-də Abbasabaddan göndərmişdi. On-

da müharibə gedirdi və general Bakendorfun iki min əsgəri Arazdan o taya keçirdi. Döyüşdə çoxlu kazak və erməni ruslara kömək edirdi. Bütün bunlar haqqında, döyüşün gedişi barədə Qriboyedov Axverdiyevaya yazmışdı. İndi yenə də məktub yazmaq istəyirdi. Və ilk cümləni yazmağa başladı:

*«P. N. Axverdiyevaya.*

*14 avqust 1827. Qarababa.*

***Dərin hörmət bəslədiyim Praskovya Nikolayevna. Yeqoruşkanın gəlişi münasibəti ilə sizi təbrik edirəm. Siz bizdən xoş və bəd xəbərlər eşitmək istəyirsinizmi? Mən sizi ən çox maraqlandıran məsələlərdən danışmaq istəyirəm. Muravyov dəmir kimi möhkəmdir. Məni soruşmaq istəsəniz onu deyə bilərəm ki, üç dəfə qızdırmadan halım pisləşib. İndi isə istidən əziyyət çəkirəm. Kölgədə civə sütunu 33-dən aşağı yenmir, günəşdə isə 50 dərəcədən yuxarıdır. Mən buna daha tab gətirə bilmirəm. Mənim bu cəhənnəmdən çıxıb getməyimə imkan vermirlər. Deyəsən yuxarıda oturan rəhbərliklə münaqişəyə girməli olacağam. Əks halda mən istidən ölərəm, bunun isə heç bir kəsə xeyri olmayacaqdır.***

***Mənə elə gəlir ki, tapşırığa əsasən Abbas Mirzə ilə görüşümdən xəbəriniz var. Orada mənimlə bir şahzadə kimi davrandılar. Və iş o məqama çatdı ki, gizlənməyi savaşdan üstün tutan düşmən artıq bizim bütün şərtləri qəbul etməyə hazır idi.***

***Əclaflar, hələ də sülh yoxdur.***

***Məni çağırırlar. Gecəniz xeyrə qalsın. Sabah mən bir dərədə tapılan Dəmirli suya gedirəm. (Dəmirli su Şahbuz rayonunun ərazisindədir. Dəmirli sudan indi də əhali istifadə edir). Oradan Salvartıya qalxıb gedəcəyəm Rayevskinin yanına. Oradan isə dünyanın təlatümlərindən azad olmaq üçün yuxarıya xahişnamə göndərəcəyəm. Əgər yenə də etiraz etsələr cəsarətimi toplayıb sizin yanınıza icazəsiz gələcəyəm.***

*Sizin Qriboyedov».*

Qriboyedov məktubu göndərmək üçün hazırladı və şamı söndürüb çadırdan bayıra çıxdı. Onu şam yeməyinə çağırırdılar.

General Paskeviç Sərkisin canfəşanlıqla hazırladığı dolu süfrədən tez qalxdı. Qarababa düşərgəsində bir neçə günlük istirahət onun yorğunluğunu çıxardı. Qarabağdan Naxçıvana çağırdığı

Vladimir Osipoviç Qudkonun və Vladimir Sergeyeviç Qalibsinin polkları bir gün əvvəl Qarababa düşərgəsinə gəlib çatmışdı.

...General vaxt itirmədən hərbi qərargahda İrəvan və Sərdarabad qalalarına hücum planlarını generallarla müzakirə etdi. İrəvan xanlığını işğal etmədən Cənubi Azərbaycana qoşun çəkməyi general lüzumsuz saydı. Baş komandan eyni zamanda general Kristovun ordusunu Naxçıvanda saxlamaq qərarına gəldi. Çünki rus ordusunun İrəvan istiqamətində hərəkətini eşidən kimi Abbas Mirzə Naxçıvanı yenidən işğal edər və Cənubi Azərbaycanın qapılarını bağlayardı.

* * *

İrəvan xanlığının işğalına cəlb olunmuş Vladimir Osipoviç Qudko Qarabağda çoxdan yurd salmışdı. O, acgöz və tamahkar çar generallarından biriydi. Feldmarşal Kutuzovun əlinin altında hərbi rütbəsini artıran Qudko hələ 1796-cı ildə Valerian Zubovla birlikdə öz qanlı çəkmələrini Qafqaza basmış, Dərbəndin, Şirvanın, Qubanın və Bakının işğalında cəllad kimi öz məharətini göstərmişdi.

Qudko hələ gənclik illərindən daş-qaş hərisi idi. O, daş-qaş yığmağa xüsusi həvəs göstərərdi. Qafqaza işğalçılıq yürüşündə onun bu doyumsuz iştahı da artdı. Qudko Bakı xanına hədə-qorxu gələrək ondan xeyli daş-qaş ala bildi. Sisianovla Bakıya gələn, lakin burada az qalan Qudko arzularına çata bilmədi. Çünki Sisianov qətlə yetirildi və Qudko daha Bakıda duruş gətirmədi. Polkunu çoxdan bəri onu cəzb edən Qarabağa çəkdi.

***

...Vladimir Çergeyeviç Qalibsin Qudko kimi çoxlu müharibələrdə iştirak etməsə də acgözlükdə, tamahkarlıqda ondan çox-çox irəli getmişdi. O, Qarabağda yerləşən Yeqor polkunun komandiri idi. Bu polkun əsgərləri ermənilərin fitvası ilə müsəlmanlara düşmən kəsildi. Qalibsinin iki əli daim açıq idi. Bu əllərdən biri ermənilərdən qiymətli daş-qaş alır, o biri isə ermənilərin istəyi ilə günahsız müsəlmanların qanını tökürdü.

Qarabağda Qalibsinin adı uşaqdan-böyüyədək hamıda vahimə doğururdu.

...Paskeviç Qudko ilə Qalibsini İrəvan xanlığının işğalına çağıranda generalların iştahı itiləndi, canavar gözləri alışıb yandı: burada əsil müharibə gedəcəkdi, sərvət toplanacaqdı...

6

Şıxəli xan Ordubadın küçələrini atla səssiz gəzib dolaşırdı. Hər yerdə sərbazlar gözə dəyirdi, onlar vurnuxur, təlaş içində harayasa qaçırdılar. Rusların Abbasabad qalasını işğal etməsi və ordunun Naxçıvana çəkilməsi sərbazları çaşdırmışdı.

Ordubad Şıxəli xan üçün əziz idi. Bu yerlərin daşı-torpağı onun üçün doğmaydı. Çünki onun hər küçəsində, hər döngəsində, şərq üslubunda tikilmiş binalarında, çəkilən bulaqların hamısında (Ordubadda 70 bulaq vardı) onun əməyi vardı.

Şıxəli xan hələ atasının sağlığında Ordubadın hakimi olmuşdu. O vaxt dağların ətəyində yerləşən Ordubadın ərazisi çox geniş idi. Qafan və Mehri də bu əraziyə daxil idi. Sonralar ruslar Mehrini işğal etdilər. Atasının sağlığında hakim olan Şıxəli xan Ordubadın sürətli inkişafını elə bir həddə çatdırdı ki, ipəyinə, meyvəsinə, arıçılığına görə dünyada məşhur oldu. Şərqdən gələn tacirlər dəvə karvanlarını bir başa Ordubada çəkərdilər. Sonra ipəklə yüklənmiş dəvə karvanları öz zərif məhsullarını dünyanın bir çox bazarlarına dağıdardılar. İpəyin ən yaxşı alıcıları Moskva, Nijni-Novqorod və İran idi.

İpəkçilik Ordubad sənətkarlarına böyük mənfəət gətirirdi. Şıxəli xan da ipəkçiliyi daha da genişləndirmək, dünya bazarına çıxarmaq üçün böyük işlər görürdü. İki müəssisə ipək məhsulları istehsal edirdi. On dabbaq zavodu gön, dəri sənətkarlarının istehsal etdikləri məhsullara alıcıların marağını artırırdı.

Kalbalı xanın qonaq süfrələrini daim Şıxəli xanın Ordubaddan göndərdiyi meyvələr bəzəyərdi. Xüsusən, növbənöv əriklər ətrinə, dadına görə xarüqə idi. Sanki hər birinin içində bir işıq yanardı. Şəffaf olduqlarından içərisindəki çərdək aydınca görünərdi. Şıxəli xan alma, armud tinglərinin xüsusi növlərini seçdirib Ordubada gətirərdi. Bu torpaqda yetişən meyvələr ətirli, dadlı olardı. Buna görə də bağçılıq, meyvəçilik ordubadlıların ən əsas məşğuliyyətlərindən biri idi.

Güllü-çiçəkli dağ ətəkləri isə arıçılığa rəvac verdi. Ordubadın sapsarı, ətirli kəhraba balı həm də can dərmanıydı. Əylisdə,

Dəstədə, Çənnəbdə, Biləvdə arıçılıqla məşğul olan xüsusi arıçılar vardı.

Şıxəli xanın dövründə Ordubad daha da məşhurlaşdı, Naxçıvandan xeyli uzaq olmasına baxmayaraq Ordubada tacirlərin ayağı açıldı... ticarət bu yerlərə bərəkət və ruzi gətirdi.

Şıxəli xan atası Kalbalı xandan dərs alaraq Ordubada əsil övlad qayğısı göstərirdi. Ordubadlılar bu ağıl və zəka sahibinə inanır, onun arxasınca gedirdilər.

Xalqın Şıxəli xana etibarı, inamı və sevgisi böyük idi. Hətta ordubadlı şair Əndəlib Qaraca Daği ona şer də yazmışdı. Bu şer birdən-birə Şıxəli xanın yadına düşdü, narahatlıq və nigarançılığına baxmayaraq bu şeri son misrasınacan xatırladı:

Hakimi Şeyx Əli xan, Kani Səxavət, nə deyim,
Yoxdur Kəngərli kimi mərdi şücaət, nə deyim,
Görmədim bir belə sultani ədalət, nə deyim,
Sahibi – təblü aləm özgə qiyamət, nə deyim,
Çıxsa cəng eyləməyə, nadiri-dövrana, nə deyim...

Sanki şer ruhunu təzələdi... Rus İran müharibəsindən əvvəl Fətəli şah etimad göstərərək yenidən onu Ordubada hakim təyin etmişdi. Lakin Ehsan xanın şaha «xəyanəti» Şıxəli xanı da gözdən saldı. Çünki Paskeviçin ordusu İrəvana hərəkət edən kimi Abbas Mirzə Ordubada qoşun yeritmək fikrinə düşdü.

Şıxəli xanın köməyinə Naxçıvandan xeyli süvari gəlirdi. Onların arasında Murad da vardı...

* * *

Sentyabrın əvvəllərində Abbas Mirzənin süvariləri Arazı keçərək Şərurdan Xoka adladılar.

Abbas Mirzə irəlidə gedirdi. Onun arıq sifəti sərt və ciddi idi. Arxasınca böyük bir ordu ilə irəliləyir, tezliklə zəfər müjdəsini atasına çatdırmağa tələsirdi. Vəliəhd düşünürdü: «Ruslar Abbasabad qalasını alsalar da onlar İran ordusunun həmləsindən qorxub geri Qarababaya tərəf çəkildilər. Amma mənim yanıma nümayəndə göndərərək böyük tələblər irəli sürdülər.

Paskeviç, elə düşünürsən ki, Naxçıvanı və İrəvanı sənə asanlıqla güzəştə gedəcək, üstəlik də təzminat verəcəyik? Bunu heç ağlına da gətirmə, Paskeviç. Sən ordunu ikinci dəfə Sər-

darabad qalasının üstə aparırsan. O qalanı yenə işğal edə bilməyəcəksən. Çünki o qalada Ehsan xan kimi xəyanətkar adam yoxdur. Sərdarabad qalasından əliboş geri qayıdanda Naxçıvanı işğal olunmuş görəcəksən. Yəqin ki, Ordubadda Şıxəli xan da qardaşı Ehsan kimi rusların tərəfindədir. Əgər o, da xəyanət yolunu tutsa kimsə Şıxəli xana kömək edə bilməyəcək. Çünki biz ordubadlıların çoxunu İrana köçürmüşük. Bu dəfə zəfər bizimdir...».

...Lakin Abbas Mirzə Ordubada qoşun yeritməkdə səhv etdi. Qarababa düşərgəsində olan Eristov Abbas Mirzənin böyük bir ordu ilə Naxçıvana yaxınlaşmaq xəbərini alan kimi qoşunu ayağa qaldırdı. Qrenader və piyada polkları gecə ikən Naxçıvana tərəf hərəkət edib pusquda dayandı.

Sentyabrın 15-də sübh tezdən Abbas Mirzənin ordusu qəflətən ruslarla üz-üzə gəldi. Pusqudan çıxan rusların ilk atəşi sərbazları çaşdırdı. Güllə səslərindən, top atəşlərindən ürküb şahə qalxan atlar, özünü itirən süvarilər xeyli tələfat verib geri çəkildi. Arzuları, xəyalları çiliklənmiş, planları boşa çıxan Abbas Mirzə süvarilərə Ordubada tərəf hərəkət etməyi əmr etdi. Ordubad dağları strateji cəhətdən əlverişli olduğundan dağda-daşda, qayaların arxasında gizlənib döyüşmək və düşməni məhv etmək asan idi.

Lakin Abbas Mirzə burda da səhv etdi...

* * *

Naxçıvandan kömək alan Şıxəli xan farsları qarşılamağa hazır oldu. Düşmənlə savaşa Ordubad elliklə ayağa qalxmışdı. Şıxəli xan dəstə başçılarına axırıncı tapşırığı verib Muradın yanına qayıtdı.

Murad Şıxəli xanla qucaqlaşıb görüşdü. Yaşanmış ağır, çətin illər hər ikisinin çöhrəsində qırışlardan iz salmış, üstəlik Şıxəli xanın iri, ağıllı gözlərində gizli bir hüznü nəqş etmişdi. Gödək, topa saqqalına dən düşmüşdü.

Şıxəli xan Muradın yanında dayanmış yaraşıqlı, iti baxışlı oğlana diqqətlə baxıb soruşdu:

– Bu cavan sənə oxşayır. Elə bil sənin cavanlığını gördüm, Murad.

Murad oğluna qıyqacı, gizli bir qürurla baxıb qımışdı:

– Düz tapmısan, Şıxəli xan.

– Oğlundurmu?

– Bəli xan. O, da düşmənlə döyüşə gəlib.

– Mənim də oğullarım burdadır. (Şıxəli xanın dörd oğlu, 3 qızı vardı).

Bu anda bir dəstə atlı toz-duman içində görünüb yox oldu və Şıxəli xan gözünü yumub-açınca onları yanında gördü. Dəstəbaşçısı həyəcan içində gətirdiyi xəbəri xana çatdırdı:

– Abbas Mirzənin ordusu yaxınlaşır.

Şıxəli xan çevrilib Muradın üzünə baxdı və mənalı gülümsündü:

– Abbas Mirzə elə güman edir ki, Ordubadda qoyub getdiyi sərbazlar onu gözləyir. Amma xəbəri yoxdu ki, onlar rusların Abbasabad qalasını aldığını eşidən kimi Arazı adlayıb o taya keçdilər.

İkinci süvari bildirdi:

– Bizə çatan məlumata görə Naxçıvanda İran ordusunu darmadağın edən Eristov Ordubadın köməyinə rus süvarilərini göndərib. Abbas Mirzənin arxasınca ruslar gəlir.

Şıxəli xan Murada tərəf çevrildi:

– Biz Abbas Mirzənin ordusunu qarşılayan kimi ruslar özlərini yetirəcək. Biz sərbazları şəhərə buraxaq. Döyüş başlayan kimi ruslarla birləşib farsları mühasirəyə alaq.

– Mən də elə düşünürəm, xan.

Şıxəli xanın baxışları kölgələndi, gözləri yol çəkdi:

– Ehsan xan kimi mən də Qacar şahına heç vaxt sədaqətli olmadım. Atam Kalbalı xanı göz işığından məhrum edən Qacar sülaləsinə nifrətim ötüb keçmədi və mən qisas alacağım günü gözlədim... Ordubadlıların çoxu zorla dədə-baba yurdlarından didərgin salınaraq İranın içərilərinə köçürülüb. Farsları məğlub edən kimi biz onları yenidən öz doğma yurdlarına qaytarmalıyıq. Eyni zamanda Mehridən cənubda yerləşən Kürdad qalasını da işğal etməliyik. Əslində bu qalanı yerli əhali qoruyur. Biz onları öz tərəfimizə çəkməliyik. Kürdad qalası çox möhkəmdir. O bizim işimizə yarayacaq. Biz orda yüz əlli nəfərdən çox sərbaz saxlaya bilərik. Bununla da Ordubadı farsların hücumundan qoruya bilərik. Bildiyimə görə qalada çoxlu barıt və bir neçə top var. Biz onları rus qərargahına təhvil verərik. Çünki ruslar bizi onsuz da silahla təmin edəcəklər.

...İran ordusunun arxasınca özünü Ordubada yetirən Eristov farslara göz açmağa aman vermədi. Məğlub olmuş Abbas Mirzə ordusunu burdan da geri çəkməyə məcbur oldu.

## 7

Sərdarabad qalasında hələlik sakitlik idi.

İrəvan xanlığının başçısı Həsən xan Sərdarabad qalasından ətrafa elə həsrətlə baxırdı ki, sanki bu onun bu doğma yurda son vida baxışıydı. Göz qırpmadan doğma çöllərin son çiçəyinə, gərəksiz daşına, kəssək parçasına, tikanlı kollarına qədər yaddaşına köçürürdü. Sanki Həsən xan doğma yurdun işğal ediləcəyini fəhmlə duyurdu...

Qalanın baş mühafizi Sübhanqulu xan onu əzablı, ingəncə çəkdirən xəyaldan ayırdı:

– Tapşırığı yerinə yetirdim, Həsən xan. Sərbazlar düşməni qarşılamağa hazırdır. Kəşfiyyatçıların gətirdiyi xəbərə görə Paskeviçin ordusu yaxınlaşmaqdadır.

– Sübhanqulu xan...

Həsən xan içindəki tufanı biruzə verməmək, Sübhanqulu xanın da içini laxlatmaq, ruhunu öldürmək istəmədi. Dilini dişinə sıxdı. Söz sanki, inciyib dilinin ucundan geri qayıtdı.

Sübhanqulu xan yalnız indi Həsən xanın dolmuş gözlərini gördü, səsinin titrədiyini duydu:

– Həsən xan, yoxsa məğlub olacağımızı düşünürsən? Sərbazlara güvənmirsən? Bunlar həmin sərbazlardır ki, bir dəfə rusları burnundan vurub geri qaytardılar. Krassovskinin ordusunun axırına çıxdılar. İndi bu əndişə, narahatlıq nədi, Həsən xan?

Həsən xan ürəyinə dammış şübhəni yenə dilinə gətirmək istədi. Amma Sübhanqulu xanın ümidini qırmaq istəmədi, üzünə baxıb zorla gülümsündü:

– Dedim bir evə baş çəkəydik. Savaş başlamayıb, hələ ki, sakitlikdir. Bir də gavurların nəyindən qorxacam?

– Gərək sözümə qulaq asıb əhli-əyalımızı İrəvandan çıxarardıq, Həsən xan – Sübhanqulu xan da narahatlığını gizlədə bilmədi.

– Düz deyirsən, Sübhan. Xeyir onsuz da özümüzündü, biz gərək şəri qarşılamağa hazır olaq. Mənə çatan məlumata görə ruslar Ordubadı da işğal etdilər. Abbas Mirzə onların qarşısında duruş gətirə bilmədi.

– İşğal etmədilər xan. Ehsan xanın qardaşı Şıxəli xan özü rusları şəhərə buraxıb. Sonra da onların tərəfinə keçərək farslara qarşı döyüşüb. Şıxəli xan əvvəldən ruspərəst olub. Bildiyimə görə hətta 1809-cu ildə Rusiyanın o vaxtkı çarı I Aleksandr ona polkovnik rütbəsi verib. Onların atası Kalbalı xanı qeyrətli, igid bir adam deyirdilər...

– O igid, qeyrətli Kalbalı xan da həmişə rusların tərəfində olub. Məni qorxudan bir şeydi – Həsən xan astadan dedi:– ruslara məğlub olsaq qorxuram ki, İrəvanı əlimizdən alıb bütünlüklə verələr ermənilərə. Çünki mənə xəbər veriblər ki, son vaxtlar Eçmiədzin kilsəsinə Paskeviçin yaxın adamı olan ermənilər yığışır. Söz yox ki, onlar bura ibadət eləməyə gəlmirlər. Çünki onların Eçmiədzinə gəlişi ilə ətraf yerlərdən də kilsəyə ermənilərin axını başlayıb. Mənə onu da çatdırmışlar ki, rus padşahı ermənilər üçün bir dövlət yaratmaq, İranda, Türkiyədə olan erməniləri İrəvana köçürmək niyyətindədi. Yoxsa biz də farsların əlindən az zülüm çəkməmişik. Ona görə də ruslarla bu döyüş ölüm-dirim savaşı olacaqdır, Sübhanqulu. Allah haqq işimizdə bizə yar olsun.

– Amin! – Sübhanqulu xan əlini göyə açıb sidq-ürəklə dua etdi.

* * *

1827-ci il 17 avqust.

Paskeviçin ordusu Sərdarabad qalasına gedən yolun üstündə olan Aştarak və Uşqan kəndlərinə girdi. Kənd səssiz idi. Küçələrdə kimsə görünmürdü. Bu anda qəflətən sərbazlar gizləndikləri yerlərdən əsgərləri atəşə tutdular. Güllələr dolu kimi yağır, atılan top evlərin üstünə düşən kimi yanğınlar başlayırdı. Dəhşətə gəlmiş adamlar evlərindən çıxaraq baş götürüb qaçırdılar. Ruslar sərbazların müqavimətini qıraraq çətinliklə irəliləyirdilər.

Paskeviç döyüşün gedişini səbirsizliklə izləyirdi. O, gözləmədiyi savaşı bitirib Sərdarabad qalasının işğalına tələsirdi. General bu dəfə qələbə qazanacağına, düşməni məğlub edəcəyinə inanırdı. Çünki qala divarlarını dağıtmaq üçün mühasirə topları aparırdı. Bu toplar ən möhkəm qalaları belə dağıtmaq gücünə malik idi.

Bir neçə gün əvvəl isə aldığı məlumat Paskeviçin əsəblərini yerindən oynatmış, qanını qaraltmışdı. Orduya daim uğursuzluq gətirən general-leytenant Krassovskidən bu dəfə də bəd xəbər

gəlmişdi: Krassovskinin Eçmiədzinə hərəkət edən ordusunun qarşısını Abarin çayı yaxınlığında Abbas Mirzənin ordusu kəsmiş, iranlılarla döyüşdə rus əsgərləri xeyli tələfat vermiş, Krassovskinin özü də yaralanmışdı. Lakin onun yaralanması Paskeviçi narahat etmədi, rusların məğlub olaraq geri çəkilməsi Paskeviçi özündən çıxarmışdı.

Ruslarla döyüşdə zəfər qazanmış Abbas Mirzə isə Xoy şəhərinə tərəf hərəkət etmişdi.

...Nəhayət, Aştarak və Uşqan kəndlərində rusların qarşısını kəsən dəstələr məğlub edildi.

Rus ordusu Sərdarabad qalasına yaxınlaşırdı. Həsən xan rus əsgərlərini azca irəli buraxıb gülləni və top atəşlərini dolu kimi yağdırmağa başladı. Qalada sanki şimşəklər baş-başa gəlir, ildırımlar çaxırdı. Qaladan aşağıda yer göy-od tutub yanırdı. Sakitlik yaranan kimi rus süvari və piyadaları irəli yeriyirdi.

Həsən xan sərbazları döyüşə ruhlandırırdı. Onların döyüş ruhunu qaldırmağa çalışırdı. Durbini gözlərinə yaxınlaşdıraraq düşmənin hərəkətini izləyir, atəş əmri verirdi. Bu anda rusların atdığı top atəşindən sanki qala silkələnib dayandı. Atılan top dördguşəli orta bürcü zədələyib dağıtdı. Toz-duman qalanı bürüdü. Həsən xan çaş-baş qaldı. Yanında dayanmış Sübhanqulu xana təşvişlə dedi:

– Atılan bu top təzədi, Sübhan. Çox güclüdür.

– Bunlar deyəsən mühasirə toplarıdır, Həsən xan. Ən möhkəm qalanı belə dağıtmağa gücü çatır.

– Bu topları sıradan çıxarmaq lazımdır – Həsən xan acıqla dedi.

Lakin atılan toplar əsgərlərə təlafat versə də mühasirə toplarını susdura bilmədi. Qala divarları uçulub tökülürdü. Çox yerdə artıq divarların dibində yarğan açılmışdı. Lakin Həsən xanın ordusu düşmənə təslim olmurdu. Döyüş uzanırdı.

* * *

...Yay yerini payıza verirdi. Amma elə bil payız savaş gedən bu yerlərə qorxa-qorxa qədəm qoyurdu. Təkcə qaladan xeyli uzaqlarda çöl-çəmənə sarı xallar düşürdü. İsti, bürkülü yay gecələri getdikcə soyuyurdu.

Həsən xan məğlubiyyətin addım-addım yaxınlaşdığını duyurdu. İrəvanın işğal olunmaq qorxusu sanki bütün ağırlığı, acısı ilə

özünü büruzə verirdi. Zəifləmiş ürəyi bu ağır yükü çəkə bilmirdi. Arıqlamış, tük basmış çöhrəsində, məğrurluğunu itirməyən görünüşündə, ciddi iti baxışlarında yenə də düşmənə meydan oxuyan çılğın bir üsyan vardı.

Qala divarları mühasirə toplarının atəşinə davam gətirmirdi. Sərbazların döyüşkən ruhu sarsılırdı. Sentyabrın 19-da İran sərbazları qaladan çıxıb döyüş meydanını tərk etmək istədilər. Həsən xan təəssüflə dedi:

-Mühasirəni yarıb keçə bilməyəcəksiz. Yaxşı olar ki, döyüşü davam etdirin.

Dəstəbaşı dedi:

– Burda qalsaq da... axırımız yaxınlaşıb.

Səhərə yaxın qaladan çıxan sərbazlar əsgərlərlə üz-üzə gəldilər. Qısa döyüşdə çoxu həlak oldu, sağ qalanlar isə əsir düşdü.

Oktyabrın 2-də divarları dağıdılmış qala üzük qaşı kimi mühasirəyə alındı. Paskeviç Həsən xana məktub göndərərək təslim olmağı tələb etdi. Lakin aldığı cavab Paskeviçi hiddətləndirdi, eyni zamanda heyrətə gətirdi. Həsən xan yazmışdı: «Siz xam xəyaldasınız. İndiyə kimi itaətdə olmamışam. Nəfəsim qalana qədər ruslarla vuruşacağam».

Həsən xan axıra qədər vuruşdu və həlak oldu. Məğlubiyyətin acısını çəkmədi.

Və Sərdarabad qalası işğal olundu.

Ruslar buradan xeyli qənimət götürdülər: 13 ton barıt, xeyli miqdarda güllə. Buğda dolu anbar rusların əlinə keçdi. Anbarda 14 min çetvert buğda vardı. Qənimətlərin arasında külli miqdarda olan pambıq rusların işinə yaradı.

Qələbədən ruhlanmış Paskeviç ordusunu İrəvan qalasına çəkdi. Sərdarabad qalasını diz çökdürən mühasirə topları İrəvan qalasının da divarlarını dağıtdı. Qala tezliklə işğal olundu. Qənimət götürülən 48 top, 50 kiçik top rus ordusunun hərbi sursatını artırdı. Qalaları əldən getmiş İrəvan şəhəri təslim oldu. General Paskeviç bir fateh kimi şəhərə daxil oldu. Qələbə elə möhtəşəm idi ki, hətta knyaz soyadının axırına İrəvanski sözünü də əlavə etdi: Paskeviç-İrəvanski oldu.

I Nikolay general Paskeviçin İrəvan xanlığını işğal etməsinə böyük əhəmiyyət verirdi. Çünki gələcəkdə bu xanlıqda Ermənistan dövləti yaradılacaqdı. Bu «möhtəşəm» qələbə çar sarayında

xüsusi qeyd edilərkən Paskeviçə «Qraf İrəvanski» rəsmi sənədi verildi, qiymətli hədiyyələr təqdim olundu və orden aldı.

* * *

Eçmiədzin kilsəsi ömründə bu qədər qələbəlik, bu qədər ziyarətçi görməmişdi. Sanki dünyanın bütün ermənilərini yığıb bir ovuc qum kimi kilsənin həyətinə, ətrafa, bitib-tükənməyən yollara səpələmişdilər. Sevincdən ağlı başından çıxan adamlar bir-birini itələyir, özünü kilsənin həyətinə çatdırmaq, general Paskeviçi görmək, əllərini öpmək şərəfinə nail olmaq üçün irəli can atır, lakin ayaqlar altına düşərək əzilirdi. Daha güclülər irəli keçir, qan-tər içində kilsənin həyətində özlərinə yer tapırdılar.

Kilsənin qapısında dayanmış Stefanla Nersesin gözləri qaynayırdı. Əyinlərindəki uzun keşiş paltarı, sinələrinə düşən qızıl xaç, əllərindəki bəzəkli əsa bu günkü təntənənin ermənilərin həyatında xüsusi yer tutduğunu nəzərə çarpdırırdı.

İzdihamın içinə birdən çaxnaşma düşdü. Sonra izdiham iki yerə bölündü. Ortada açılmış yolla qoca Sərkisi qucaqlarına alan bir dəstə adam onu ehmalca gətirib kilsənin qapısına – Nerseslə Stefanın yanına qoydular. Qoca Sərkis onların qolundan tutub ayaqlarını yerə zorla, möhkəm qoyaraq ayağa qalxdı. Hıqqıldaya-hıqqıldaya əyilmiş belini düzəltmək istədi. Lakin onun qanı qaçmış dodaqları, saralan bənizi, çuxura düşmüş gözləri qocanın xəstə halını, sönməkdə olan ömrünün son həyat işartısını biruzə verirdi. Lakin o, butun qüvvəsini toplayaraq özünü gümrah göstərməyə, içində çağlayan sevincin möcüzəsinə güvənərək son həyat işartısını üfürüb alovlandırmağa çalışırdı.

Nerseslə Stefan onun qoluna girdilər. Sərkisin arıq, cansız bədəni əsirdi. Lakin o, əlini başının üstə qaldıra bildi və cığıltılı bir səs çıxardı:

– Əziz...l..ər..im.

Sərkisi boğuq, küt öskürək tutdu. Göy damarlı əlini heysiz halda dodağının üstə qoydu, qırıq-qırıq öskürdü, sakitləşdi, yenidən əlini zorla başının üstə qaldırıb var qüvvəsi ilə bağırmaq istədi. Lakin sözlər elə bil sevincin qaynar burulğanına düşmüş kimi batıb qaldı, boğazından xırıltılı səslər çıxdı. Nerses əyilib qoca Sərkisin qulağına pıçıldadı:

– Sizə qışqırmaq olmaz.

Sərkis hiddətlə onun üzünə baxdı, bu hiddətin özündə bir hökmüran ədası vardı və o, soyuq əli ilə Nersesin əlini sıxdı, xırıltılı səslə dedi:

– Paskeviç mənim oğlumdur. O, mənim tapşırığımla İrəvanı işğal etdi. Mən bu günü görmək üçün yaşadım. İndi dünyadan rahat gedə bilərəm. Nerses qorxu içində içini çəkdi:

– Nə danışırsan, Sərkis ağa. Sənin indi ölməyə ixtiyarın yoxdu. Sən onda erməni millətinə xəyanət etmiş olarsan...

Bu anlarda qocanın doğrudan da ölməyi gəlmirdi.

Sərkisi ağlamaq tutdu. Amma ağlamağa da qüvvəsi çatmadı. Ağzı əyildi, alt dodağı sallandı, gözləri yaşla dolub yazıq-yazıq Nersesin üzünə baxdı.

Bu anda kilsəyə gələn yolun üstündə xeyli süvari göründü. İzdiham həyəcana gəlib çalxandı. Kimsə bağırdı:

– Paskeviç...

Başqa birisi qışqırdı:

– Paskeviç – İrəvanski...

İzdiham uğuldadı:

– Yaşasın İrəvanski...

Uğultu payız küləyi tək sanki kilsənin divarlarına çırpıldı, dağlara, təpələrə qədər gedib çatdı. İzdiham parçalanıb fateh generala yol verdi. O, sanki ermənilər üçün göylərdən yenmiş xilaskar idi. Atın üstündə elə məğrur oturmuşdu ki, elə bil ayağının altında qalan ermənilər canlı çınqıl daşlarıydı. General şəhanə vüqarla irəli gedir, adamlar əllərini onun çəkmələrinə, paltarına toxundururdular. Paskeviçin göy gözlərində, sarımtıl sifətində sanki dünyanı fəth edən bir İskəndər hökmü vardı.

General atdan düşən kimi Nerseslə Stefanın qucağında qoca Sərkisi gördü. Sərkis gözlərinin içinə qədər titrəyirdi. Bozumtul gilələr bir yerdə qərar tutmurdu. Sanki qocanın içərisində ölümlə çarpışma gedirdi. Və Sərkis bütün qüvvəsini toplayaraq vaxtsız gəlmiş bu ölümə təslim olmaq istəmirdi. O, gücsüz qolları ilə Paskeviçi qucaqladı. Paskeviç onun qulağına pıçıldadı:

– Sənin uşaqlıqda mənə söylədiyin nağılların hamısı çin oldu, Sərkis. Mən divləri öldürüb milləti zalımlardan qurtardım.

– İvancan, İvancan...

Sərkis başqa söz də demək istəyirdi, amma bacarmırdı, sanki «İvancan» kəlməsi dilinin ucunda ilişib qalaraq özgə söz deməyə imkan vermirdi. Sərkis sevincin bolluğundan ağlamaq,

hönkürmək istəyirdi, lakin ürəyi həyəcana tab gətirməyərək ge-
gedə zəifləyirdi. Birdən onun baxışları Paskeviçin gözlərində do-
nub qaldı, sonra titrəyən didələri göz qapaqlarının altına getdi və
Paskeviç Sərkisin qollarının arasından halsız aşağı süründüyünü
hiss etdi.

Nerseslə Stefan qocanı yıxılmağa qoymadılar. O, çətinliklə
nəfəs alırdı. Qarası itmiş gözləri bircə anlığa Paskeviçin üzünə
baxdı. Sonra onu üsulca kilsənin içərisinə apardılar. Birdən elə
bil möcüzə baş verdi: Sərkis uzandığı yerdən dikəldi, Paskeviçin
əlindən tutub dodağına yaxınlaşdırdı, zorla gülümsündü, sonra
da sanki zorla dörd kəlmə sözü ürəyinin içindən çəkib çıxardı:

– İndicə erməni çarını gördüm...

Sərkis özü arxası qatda uzandı, əllərini sinəsində çarpazladı
və «erməni çarını görməyi ilə» gözlərinə yığdığı son işıqla kirpik-
lərini qapadı.

Paskeviç kövrəlmiş halda dedi:

– O, əsil erməniydi.

Paskeviç kilsədən bayıra çıxdı. Nerseslə Stefan onu tək bu-
raxmadı. İzdiham səssiz bir sükut içində generalı gözləyirdi. Onu
görən təki izdiham hərəkətə gəldi. Paskeviç əlini yuxarı qaldırıb
İrəvanın işğalından az qala ağlını itirmiş, qışqırmaqdan səsi kal-
laşmış adamları süzdü. Canavar gözü kimi alışıb yanan yüzlər
göz üzünə zilləndi. Paskeviç ucadan, təmiz erməni dilində dedi:

– Mən uzun danışmaq istəmirəm. Çünki indicə əziz və doğ-
ma adamım bizi tərk etdi. Sərkis illərlə mənim Qafqaza yürü-
şümü gözləmişdi. Daim qarda, boranda, istidə mənimlə bir yerdə
olmuşdu. Şükürlər olsun tanrıya ki, o, İrəvanın azad olmasını
gördü. Onun son arzusu erməni çarını görmək idi.

Keşişlər xaç çevirib Sərkisin ruhuna dua oxudular.

Paskeviç bir anlıq nitqinə ara verdi, üzünə zillənmiş canavar
gözü tək şölə saçan gözlərə baxdı və qımışdı: Biz artıq erməni-
lərin Azərbaycana və İrəvana köçürülməsi planlarını hazırlayırıq.
Bu planları İosif Arqutinski və Qriboyedov işləyir. Çox keçməz ki,
İrandan, Türkiyədən yüz minlərlə erməni çar I Nikolayın maddi
köməyi ilə bu yerlərə köçürülər...

İzdiham yenidən təlatümə gəldi.

8

Cavan bulaq savaşından xeyli keçmiş yenidən yollarda rus
süvariləri göründü. Ordu bu dəfə cənuba doğru gedirdi. Sayı-

hesabı bilinməyən süvarilərin keçib getdiyi yerlərdə toz-duman ətrafı bürüyür, qoşunun ucu-bucağı görünmürdü.

İrəvan xanlığını bütünlüklə işğal edən general Paskeviç general-leytenant Eristova Təbrizə hərəkət etmək əmrini vermişdi.

...Təbrizin göylərini qara buludların tufanı, qasırğası bürüyürdü. Sonra bu tufan, qasırğa qara duman kimi Təbrizin üzünə, gözünə, qəlbinin dərinliklərinə çökürdü.

...Qoşunun başında atını sürətlə Təbrizə çapan Georgi Yevseyeviç Eristov isə sanki şöhrətə, sərvətə doğru gedirdi. O, ayaqlarını atın böyürlərinə möhkəm sıxaraq ürəyində dərya kimi çalxanan, könlünü quş kimi pərvazlandıran, göy gözlərinin içini işıqla dolduran sevincin qanadlarında, yalnız özünün duyduğu məğrurluq hissi ilə Təbrizə doğru gedirdi. Onun arxasınca qalib rus ordusu gəlirdi. Bir azdan Təbriz-Azərbaycanın bu qədim, başı qovğalar çəkən gözəl şəhəri fəth olunacaqdı.

* * *

Georgi Eristov da bütün həyatını hərbi işə sərf etmişdi. Rus generallarına xas olan acgözlük, tamahkarlıq, sərvət toplamaq ehtirası onu Azərbaycanın işğalçılıq yürüşündə iştirak etməyə çəkib gətirmişdi. İndi o, Paskeviç Təbrizə gələnə qədər, işğalçılıq yürüşündə təkbaşına idi, ordunun başçısı o idi.

* * *

...1827-ci il oktyabr.

General Eristovun ordusu sübh tezdən Mərənd şəhərini mühasirəyə aldı. Lakin kimsə ordunun qarşısına çıxmadı, rus əsgərlərinə kimsə bir güllə atmadı. Mərəndi asanlıqla işğal edən ruslar Xoy yoluna çıxdılar.

Xoy şəhərinə gedən yollar rus süvari dəstələri ilə doldu. Abbas Mirzənin sərbazları görünmürdü. Xoy yolu açıq idi. Xoy ruslara müqavimət göstərmədi.

Təbriz yolları sanki dumanlı qollarını ruslara açdı.

İlk əsgərlər şəhərə daxil oldu.

Təbriz sanki için-için ağladı. Başında dumanı, içində sıxıntısı, gözündə yaşı...

* * *

Şəhər valisi Allahyar xan əli silah tutan bütün təbrizliləri ayağa qaldırmışdı. Müdafiə mövqelərində dayanan təbrizlilər düşməni qarşılamağa hazır idi. Ordunun ilk dəstələri şəhərə girəndə Təbriz sanki birdən vulkan kimi od püskürdü. Şəhər küçə-küçə, ev-ev düşmənlə döyüşən səngərə çevrildi. Binaların üstündə gizlənən müdafiəçilər düşmənin başına güllə yağdırdı, Təbrizin içərilərinə doğru hərəkətini dayandırdı.

Qeyrətli Allahyar xan təbrizlilərə müraciətində deyirdi: «Təbriz xalqımızın qeyrətidir. Bu yolda ölmək hər bir azərbaycan türkü üçün şərəfli iş olmalıdır. Çalışmalıyıq ki, kafirlər (ruslar) bu gözəl şəhərimizdə at oynatmasınlar. Sizi mübarizəyə səsləyirəm».

Təbriz elliklə ayağa qalxmışdı.

General Eristov Mərənd və Xoy şəhərlərini asanlıqla aldığından Təbrizə də bir qalib duyğusu ilə ayaq qoymuşdu. Lakin şəhərin girəcəyində təbrizlilər onu düşmən kimi qarşıladılar və əsl savaş başlandı.

Rusların atdığı toplar Təbrizin küçələrinə, meydanlarına, binaların üstünə düşürdü. Top düşən yerlərdə yanğınlar başlamışdı. Şəhər sanki gözçıxardan tüstüyə, alova bükülmüşdü. Qapqara tüstü burularaq göy üzündə bulud kimi dayanmışdı. Havadan kəskin xız iyi gəlirdi. Küçələrdə rus süvarilərini güllə yağmuru qarşılayırdı.

Müdafiəyə başçılıq edən Allahyar xan başa düşürdü ki, əgər Fətəli şah onlara kömək göndərməsə axıra qədər tab gətirməyəcəklər. Allahyar xan vuruşa-vuruşa gözlərini Tehrana gedən yollardan çəkmirdi. Lakin yollarda kimsə görünmürdü. Yollar bomboş idi. Onlar güclü, amansız, qəddar düşmənlə təktbətək idilər.

Təbrizlilərin müqavimətindən qəzəblənmiş general Eristov şəhərə artilleriya yeritdi. Əlavə olaraq altmış minlik rus qoşunu köməyə gəldi. Qeyri-bərabər döyüş, üstəlik güclü artilleriya şəhəri dağıtdı, təbrizlilərin müqavimətini qırdı.

Təbriz işğal olundu...

Yanmış, külü çıxmış evlər, top gülləsinin dağıtdığı xarabazara çevrilmiş şəhər, həlak olan saysız-hesabsız insanlar... bu işğaldan göz dağı tək qaldı.

Təbriz için-için qan ağladı.

General Eristovun ordusu məğlub olmuş təbrizlilərdən 40 top, 1000 tüfəng, 10 min qumbara qənimət götürdü.

...Eristov qazandığı qələbədən məmnun idi. Göy gözləri sevincini gizlətmirdi. O, qanlı çəkmələri ilə Təbrizin yanmış, külü çıxmış binalarına baxırdı, dağılan küçələri ilə gəzirdi. Bu anlarda ürəyində bu dağıntıdan, günahsız ölümlərdən, axan qanlardan dərin bir nəşə duyurdu.

General Eristov özünü şəhərin hakimi sayaraq hökumət idarəsi yaratdı. General Osten-Sakeni bu idarənin rəhbəri təyin etdi. General Bursovu isə qala komendantı qoydu. O, Təbrizdəki qərargahında Paskeviçi gözləməyə başladı.

* * *

Tehranda şah sarayında isə məyusluq idi.

Fətəli şah indiki kimi qəhr olmamışdı, özünü gücsüz, aciz hiss etməmişdi. Mərənddən, Xoydan keçən rus qoşunlarının hərəkəti barədə ona məlumat verirdilər. Lakin Fətəli şahda ordunu dayandırmaq, ruslarla yenidən savaşa girmək, onları geri qovmaq gücü yox idi. Məğlubiyyət Abbas Mirzəni də ruhdan salmışdı...

Son məlumat şahı qəzəbləndirməkdən çox düşünməyə məcbur etdi: «Təbriz dağıldı. Allahyar xan məğlub oldu. Ruslar Təbrizdə öz hökumətlərini yaratdılar. İndi isə qoşunun Tehrana gəlmək ehtimalı var... Təbrizi işğal edən general Eristov Cənubi Azərbaycanın şəhərlərinə hücum etmək niyyətindədir. Hazırda onun qoşunları Ərdəbili atəşə tutub.

General Paskeviçin də ordusu Cənubi Azərbaycana hərəkət edir. Bu isə o deməkdir ki, işğalın fəlakəti addım-addım yaxınlaşaraq İran taxt-tacını təhlükə altına almaqdadır».

...Fətəli şaha xəbər verdilər ki, İngiltərənin İrandakı səfiri Makdonald onunla görüşmək istəyir. Şah bu ağır gündə ingilis səfiri ilə görüşməyi, ondan məsləhət almağı və bununla da çıxış yolu tapmağı məqsədəuyğun saydı və razılıq verdi.

Fətəli şah özü də işğaldan yaxa qurtarmaq, taxt-tacı qorumaq üçün yollar axtarırdı. Qaraziyəddində Abbas Mirzənin imperiya xarici işlər naziri Qriboyedovla söhbəti baş tutmamışdı. Ruslar onların qarşısına çox ağır tələblər qoymuşdu. Bu tələbləri yerinə yetirmək Şimali Azərbaycanı, o cümlədən mühüm strateji əhəmiyyəti olan Naxçıvanı və İrəvanı itirmək demək idi.

Fətəli şaha elə gəlirdi ki, məğlubiyyətin acısını yaşadığı bir vaxtda Ağa Məhəmməd şah Qacarın ruhu onun başı üstə dayanıb, hətta şah əmisinin hökmlü səsini də eşidir: «Xanbaba Cahanbani! Apardığım saysız-hesabsız müharibələr sayəsində mən İran taxt-tacını elə bir zirvəyə qaldırdım ki, bu zirvəni fəth etməyə, qüvvətli və qüdrətli İran ordusunun qarşısına çıxmağa kimsənin gücü çatmazdı. Mən Azərbaycan xanlıqlarını cızığından çıxmağa qoymadım. Amma sən gör rusları hara qədər buraxdın. Axı Abbas Mirzənin iqamətgahı Təbrizdəydi... Sən düşməni Təbrizə qədər buraxdın Xanbaba Cahanbani...».

Fətəli şah Ağa Məhəmməd şah Qacarın ruhu qarşısında sanki öz günahını yüngülləşdirmək, özünə haqq qazandırmaq istədi:

«– Ruslar çox güclüdür, şəhriyar.

– Lakin İran ordusu ondan da qüvvətlidir. Üstəlik siz İngiltərədən və Fransadan hərbi sursat alırsız... Sənin tədbirsizliyin Qacar sülaləsinin qüdrətinə kölgə saldı, mənim sənə ərməğan verib getdiyim taxt-tacımı yerindən laxlatdı, Xanbaba Cahanbani...»

...Fətəli şah ingilis Maknolandla görüşdü. Səfir təşviş içindəydi. O, bir başa mətləbə keçdi:

– Tehran yolu rusların üzünə açıldı, əlahəzrət. Əgər bunun qarşısı alınmasa ruslar Tehranı da işğal edəcəklər. Bizim hökumətimiz bu xüsusda çox narahatdır. Mən hökumətin iradəsini ifadə edərək sizinlə görüşüb razılıq əldə etmək istəyirəm.

– Bəlkə biz sizin köməyinizlə Tehranın müdafiəsini təşkil edək?

– Artıq gecdir – səfir təəssüflə başını buladı.

– Onda... – Fətəli şah səfirdən təskinedici cavab gözlədi.

Səfir Maknoland sanki içindən gələn ağrı ilə dedi:

– Ruslarla təcili sülh danışıqları aparılmalıdır. Bununla da rus ordusunun Tehrana hərəkətini dayandırmış olarsız.

– Onlar bizim üçün ağır olan şərtlər irəli sürürlər, cənab səfir. Üstəlik 30 milyon gümüş pul təzminat istəyirlər. Bu qədər pulu ödəməyə imkanımız yoxdur.

– Təzminatı ödəməkdə İngiltərə hökuməti yenə də sizə öz xeyirxah əlini uzadar. Əgər barışıq baş tutmazsa, aldığımız məlumata görə, çar I Nikolay Paskeviçə Cənubi Azərbaycanı bütünlüklə işğal etməyi tövsiyə edib. Bu fikir eyni zamanda, bizə çatan

məlumata görə, həm də Qriboyedovundur. İmperiya xarici işlər naziri olan bu adam Şimali və Cənubi Azərbaycanı birləşdirmək və Rusiyaya tabe etmək niyyətindədir. Buna yol vermək olmaz.

***

1827-ci il 7 noyabr.

Toplar susmuş, savaş bitmişdi.

Lakin səssiz savaş, topsuz güllәsiz, əsgərsiz müharibə Dekarda davam edirdi. Danışıq stolu arxasında əyləşən ruslar və farslar müharibə meydanından siyasət meydanına keçərək bir-birinə öz şərtlərini qəbul etdirməyə çalışırdılar.

Dekarda danışıqlarda Rusiya tərəfdən İ.F.Paskeviç, A.C.Qriboyedov, A.M.Obrezkov, A.K. Amburker, N.D. Kiselyov, dilmanclar A.A. Bakıxanov və Q. M. Vlaqali, İran tərəfdən Abbas Mirzə, qaimməqam Fərrahani, bəylərbəyi Fətəli xan, Mirzə Məhəmməd Əli, dilmanc Mirzə Məsud iştirak edirdi.

General Paskeviç "Gülüstan" müqaviləsinə görə İrana verilmiş Naxçıvan və İrəvan xanlıqlarının yenidən Rusiyaya qaytarılması şərtini qoydu. Üstəlik Talış xanlığını da istədi.

Abbas Mirzə razılaşdı, lakin İran dövlətinin 30 milyon gümüş pul dəyərində təzminatı ödəməsinə gəldikdə tərəflər qarşı-qarşıya gəldi. Abbas Mirzə bu məbləği ödəməkdən boyun qaçırdı. Paskeviç I Nikolayın tapşırığını yada saldı: əgər İran tərəf təzminat ödəməzsə o halda Cənubi Azərbaycanı bütünlüklə Rusiyanın tərkibinə daxil edilməsi şərtini irəli sürün. (İngilislər təzminatın ödənilməsinə kömək etməyə söz vermişdilər). Abbas Mirzə əlacsız qalıb təzminatı qəbul etdi. Öz tərəfindən isə bu şərtlərin yerinə yetirilməsi müqabilində rus qoşunlarının Cənubi Azərbaycandan çıxarılmasını istədi.

General Paskeviç İran tərəfin şərtini qəbul etdi.

Sülh müqaviləsinin rəsmi olaraq imzalanması yeri seçildi. Bu Təbriz yaxınlığındakı kiçicik bir kənd olan Türkmənçay kəndi oldu.

Abbas Mirzənin saray münəccimi bunun üçün uğurlu günü və saatı seçdi: 1828-ci il fevralın 9-dan 10-na keçən gecə saat 24.00-da.

* * *

1828-ci il 9 fevral.

Fevral gecəsinin soyuğu iliklərə işləyirdi. Ətrafda hər şey bəyaz bir örtüyə bürünərək sərt və soyuq görünürdü. Hələ gündüzdən əsgərlər və sərbazlar kəndin ətrafına sanki canlı çəpər çəkmişdi. Sülh müqaviləsinin imzalanacağı yer qələbəlik idi. Tüfənglərini sinələrinə sıxmış, eləcə də quruyub qalmış əsgər və sərbazlar farağat vəziyyətində dayanmışdılar.

O tay bu tay Azərbaycanın diqqəti Türkmənçayda idi. Qanlı savaşlardan, ardı-arası kəsilməyən müharibələrdən yorulmuş, usanmış insanlar Türkmənçaydan barış xəbərini gözləyirdi. Bəlkə bu barış top-güllə səslərini birdəfəlik kəsə, dağılmış, viran olmuş yurdlarına sakitlik gətirə, qaysaqlana bilməyən yaralarına məlhəm ola...

Amma kimsənin ağlına da gəlmirdi ki, farsların və rusların barışıq qılıncı bir məmləkəti ikiyə böləcək, bir parasına ruslar, o biri parasına farslar sahib olacaq. İki işğalçı razılığa gəlib yağlı tikəni beləcə bölüşəcək.

Hələlik gözlər yolda, könüllər intizarda, ürəklər səksəkədə idi.

...Mərasim başladı. Farslar tərəfdən müqavilənin bağlanmasına Abbas Mirzə, Mənluccərxan, Mirzə Əbülhəsən xan, ruslar tərəfdən isə İ. F. Paskeviç, A. S. Qriboyedov və A. M. Obrezkov imza atdı.

Və Türkmənçay dünyada ən ədalətsiz bir hökmün şahidi oldu. Müqavilənin şərtlərinə görə Cənubi Azərbaycan bütünlüklə İran dövlətinin tərkibinə keçdi.

Şimali Azərbaycana, o cümlədən əsrlərlə mübahisəli olan, uğrunda müharibələr və savaşlar gedən Naxçıvan və İrəvan xanlıqlarına Rusiya sahib oldu.

İki işğalçının bölüşdüyü məmləkətin yeni sərhəddi müqavilənin 4-cü bəndində öz əksini tapdı. A. S. Qriboyedovun hazırladığı bu bənddə sərhəd xəttinin çəkilməsi barədə deyilirdi: *"Sərhəd xətti Türkiyə torpaqlarının ucundakı kiçik Araratın zirvəsindən aralıda düz istiqamətə ən yaxın nöqtədən başlayaraq o dağların zirvəsindən keçir; burada maillik üzrə kiçik Araratın Cənub tərəfindən axan Aşağı Qarasu çayının yuxarılarına düşür, sonra sərhədd xətti o çayın axarı üzrə Şərur qarşısında onun Araza töküldüyü yerədək davam edir, bu məntəqədən Abbasabad qalasınadək Araz çayının yatağı üzrə gedir, burada*

*qalanın Arazın sağ sahilində yerləşən xarici istehkamları yanında yarım ağac enində bütün istiqamətlərdə dövrə haşiyələnəcək və ətrafda olan torpaq sahəsi büsbütün məhz Rusiyaya məxsus olacaqdır və bu gündən sayılmaqla iki ay ərzində ən yüksək dəqiqliklə ayrılacaqdır..."*

Qriboyedovun hazırladığı on beşinci maddə isə xüsusi olaraq ermənilərin gələcək taleyində mühüm rol oynadı. Bu maddə rus hiyləgərliyi, üstüörtülü, incə diplomatik bir siyasətlə işlənərək ermənilərin Azərbaycana köçürülməsinə xidmət etdi. 15-ci maddədə deyilirdi: *"...bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir..."* (Sonralar A. S. Qriboyedov özünün "Zapiska o pereselenin armyan iz Persii v naşi oblasti" əsərində müqavilənin 15-ci maddəsində bir daha "İran ermənilərinin" Azərbaycana köçürülməsini nəzərdə tutduğunu qeyd edir).

Müqavilənin 8-ci bəndində isə Rusiya Xəzər dənizində tam sərbəst üzmək hüququnu aldı. Həmin bənddə deyilirdi: *"Rusiya hərbi bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilər; bu səbəbdən də əvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilmıəz".*

Sülh müqaviləsinin arxasınca-artıq dost olmuş dövlətlərin səkkiz bənddən ibarət daha bir müqaviləsi imzalandı. Bu müqavilə iki dövlət arasında ticarət əlaqələri yaratmaq və onu daha da genişləndirmək haqqında idi.

Türkmənçay müqaviləsinin bağlanmasına həsr olunmuş mərasim başa çatdı.

Böyük tarixi hadisənin rəmzi olaraq toplardan yüz bir dəfə atəş açıldı. Bu hər iki dövlətin tarixi qələbəsinin əks-sədası idi.

***

Tehranın şah sarayında böyük şadyanalıq idi. Fətəli şah qələbəni bayram edirdi. Bu dəfə o, məmnun və şad idi: Naxçıvan və İrəvan xanlıqlarını əldən versə də Cənubi Azərbaycanın qanuni sahibi oldu.

...Rusiyanın imperator sarayında da bayram təntənəsi hökm sürürdü. Türkmənçay müqaviləsinin bağlanması Rusiyanın hərbi tarixində görünməmiş bir qələbə idi. I Nikolay ulu babası I Pyotrun vəsiyyətlərini axır ki, həyata keçirdi. Azərbaycan bütünlüklə Rusiya torpaqlarına qatıldı. Lakin I Nikolayı daha çox sevindirən Naxçıvan və İrəvan xanlıqlarının farsların əlindən alınması idi. İmperator arzusuna çatırdı. O, İrəvan xanlığını ləğv edəcək, Cənubi Qafqazda özünə lazım olan bir dövləti yaradacaqdı. Bu yeni Ermənistan dövləti idi. Bununla da I Nikolay ermənilərin ruslara xidmətini mükafatlandıracaq və eyni zamanda onun arxasında dayanan bir məmləkət quracaqdı.

Tarixi qələbənin şadyanalığı davam edirdi. İmperator öz sarayında II Rus-İran müharibəsində xüsusi ilə fərqlənmiş hərbiçiləri qəbul etdi, mükafatı onlara şəxsən özü təqdim etdi: general Paskeviç "Sv. Vladimir" ordeninin birinci dərəcəsi və bir milyon gümüş pul adı. Müqaviləni işləyərkən Rusiya imperiyasının mənafeyini əks etdirməyə nail olmuş və onu şəxsən çara təqdim etmiş Qriboyedov almazla işlənmiş "Sv. Anna" ordeninin ikinci dərəcəsi və dörd min çervontes pul aldı.

...Qriboyedov mükafatdan məmnun qalsa da yenə siyasətdən qaça bilmədi. Müharibə, siyasi oyunlar onu yormuşdu. O, istirahət etmək, sakit bir guşəyə çəkilərək şerlərini yazmaq istəyirdi. Lakin buna müvəffəq ola bilmədi. 1828-ci ilin aprelin 25-də onu təkrar İrana göndərdilər. O, burada Rusiyanın səlahiyyətli səfiri təyin olunmuşdu.

Qriboyedov çar sarayı üçün yenə mühüm sima idi. O, erməni Arqutinski ilə birgə ermənilərin İrandan və Türkiyədən Azərbaycan torpaqlarına, o cümlədən yeni yaradılacaq dövlətə – Ermənistana köçürülməsi planlarını hazırlamışdı. Daha doğrusu bu planlar artıq işlənilib bəyənilmişdi.

***

...Araza tikanlı məftillər çəkilirdi. Cənubdan farslar, şimaldan ruslar.

Tikanlı çəpərlər çəkilirdi – elə bil naşı cərrahların bıçağı fağır, arxasız, köməksiz məmləkəti canlı insan kimi diri-diri ikiyə bölürdü. Canavar iştahı, ehtirası ilə ikiyə parçalayırdı. Sonra qanlı əllər tələsə-tələsə qanlı tikişlər qoyurdu – tikanlı sərhədlər çəkirdi.

Fağır məmləkətimiz... Bu qanlı tikişlər yüz yetmiş yeddi il əvvəl vurulsa da bitişmədi və yaralardan hələ də qan süzür...

8

İmperator I Nikolay vaxt itirmədən Ermənistan dövlətinin yaradılması haqqında 21 mart 1828-ci il tarixli fərmanını verdi. Fərmanda deyilirdi: *"...İran ilə imzalanan müqaviləyə görə İrandan ayrılaraq Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqları bundan sonra Rusiya daxilində Ermənistan vilayəti olaraq tanınacaqdır..."*.

Və bununla da İrəvan xanlığı süqut etdi.

Əsrlərdən bəri davamlı müharibələrdən, qanlı savaşlardan başı ayazımayan, göylərinin qara buludu çəkilməyən İrəvan bu sonuncu müharibə ilə də Azərbaycan torpağından qoparılaraq elə Azərbaycana qarşı şeytan yuvasına çevrildi.

* * *

Naxçıvan kimi İrəvanın da daim başı bəlalıydı. Sanki tale yazısında İrəvanın taleyi qara, bəxti kəm idi. Xarici işğalçılar, qüdrətli dövlətlər bu torpaq uğrunda daim didişmiş, qanlı savaşlar səngiməmişdi.

İrəvan torpağını işğal etmək üçün uğrunda ən böyük savaş Sultan Türkiyəsi ilə Səfəvilər arasında iki yüz ildən çox davam etmişdi.

...İrəvan adının yaranma tarixi haqqında belə yazmışdılar: 1501-ci ildə Şah İsmayıl Xətai Şərur düzündə Əmir Əlvəndiyə qalib gəldi. Bu yerlərin mənzərəsi, münbit torpaqları Şah İsmayıl Xətainin xoşuna gəldi. O, burada yurd salmağı qərara aldı. Rəvan adlı bir nəfəri təzə yurda xan təyin etdi. Beləliklə, təzə yurd Rəvan xanın adı ilə İrəvan adlanmağa başladı.

İrəvan hərbi strateji cəhətdən əhəmiyyətli olduğundan onun güclü müdafiəyə ehtiyacı vardı. Çünki yadellilər artıq yeni salınmış bu şəhərə diqqət yetirməyə başlamışdılar. Bunun qarşısını almaq üçün Rəvan xan burda qalalar tikdirdi.

1514-cü ildə Şah İsmayıl Xətai ilə Sultan Səlimin müharibəsi başladı. Bu döyüş Çaldıran döyüşü adı ilə tarixə yazıldı. Lakin bu döyüşdə Şah İsmayıl məğlub oldu. Sultan Səlimin qalib ordusu İrəvanı asanlıqla işğal etdi və Təbrizə girdi.

1521-ci ildə Şah İsmayıl Xətai yenidən qüvvətlənərək türklərlə müharibəni başladı, qalib gələrək İrəvanı türklərin əlindən aldı.

Sonra yenə türklər İrəvana sahib çıxdı.

Yenə səfəvilər qalib oldu.

İrəvan əldən-ələ keçdi. İki qüdrətli dövlət arasında bölünməz tikəyə çevrildi.

Qədim türk tarixçisi o dövrü təsvir edərək İrəvan haqqında yazmışdı: "Türk ordusu Şorayeldən Şərabxana deyilən mənzilə keçərək İrəvan şəhərinə çatdı. İrəvan Əcəmilər şəhəridir... Şaha, oğlanlarına, bir çox adlı-sanlı xanlara və sultanlara məxsus olan gözəl, bərli-bəzəkli sarayları, bağlar və bağçaları, ələlxüsus "Sultan bağı" deyilən məşhur cənnət bağını od vurub yandırdılar, yerlə yeksan etdilər...".

Nəhayət 1554-1555-ci illərdə axır ki, İran ilə Türkiyə uzun savaşlardan sonra bu yağlı tikəni-İrəvanı bölüşdürə bildilər. Türkiyə istədiyi torpağı götürdü, qalan torpaqlar isə İranın tabeliyinə keçdi.

On beş il bu yerlərdə sakitlik, əmin-amanlıq hökm sürdü. Müharibə və savaşlar səngidi. Əhali rahat nəfəs aldı. Dağıntılar, xarabalıqlar aradan qaldırıldı. Lakin müharibələrin vurduğu yaralar qaysaqlanmamış bu yerlərin rahatlığı yenidən pozuldu. Türkiyə-İran müharibəsi başladı. Bu dəfə o çox uzun çəkdi. On bir il aramsız davam edən müharibə İrəvanın başına od ələdi. Farslar türklərə üstün gələrək bu dəfə bütünlüklə İrəvana sahib oldular.

* * *

...Müharibələr ara vermirdi. Savaşlar səngimirdi.

İrəvan qaliblərin və məğlubların əlində nəhəng tonqal kimi alovlanırdı. Onun gözəl simasına xarabalıqlar hüzn və kədər naxışları salırdı.

1603-cü ildə osmanlılarla səfəvilər arasında başlanan müharibəyə Şah Abbas imza atdı. Müharibənin alovları İrəvanı və Naxçıvanı bürüdü. Osmanlılar işğal etdikləri Təbrizi buraxaraq İrəvan qalasına qədər çəkildilər. İrəvan qalasını isə türklər özləri

hələ 1583-cü ildə tikdirmişdi. Qala səkkiz bürcdən və bir məsciddən ibarət idi. Osmanlılar düşməndən müdafiə üçün qalanın cənub hasarına əlavə olaraq daha bir hasar çəkdilər. Bu hasarın uzunluğu əlli metrə çatırdı.

Şah Abbas İrəvan şəhərinə maneəsiz girdi və səfəvilərin olduğu qalanı mühasirəyə aldı. Lakin osmanlılar qalanı möhkəm müdafiə edirdilər. Onlar səfəvilərə heç cürə güzəştə getmək istəmirdilər.

Qalada türklərlə bərabər ermənilər də vardı və onlar səfəvilərə qarşı döyüşürdülər. Lakin ermənilər axıra qədər türklərə sədaqətli olmadı. Onlar farslarla gizlicə əlaqə yaratdılar, qalanı təslim etmək üçün yollar axtardılar. Ermənilərin xəyanəti baş tutdu: türklər axıra qədər davam gətirə bilmədi. Şah Abbas qalanı işğal etdi və Əmirgünə xanı İrəvana sərdar təyin etdi.

***

Səfəvilərin İrəvanda hakimiyyəti çox çəkmədi. Osmanlı Siğaloğlu Sinan paşa türklərin məğlubiyyətinin əvəzini çıxmaq üçün ordusunu İrəvana çəkdi. Sinan paşanın ordusunun qarşısında duruş gətirməyən səfəvilər məğlübiyyət bayrağını qaldırdılar. Əmirgünə xan məğlubiyyətin acığını irəvanlılardan çıxdı. Şah Abbasın tapşırığı ilə əhalini zorla İranın içərilərinə köçürməyə başladı.

1605-ci ildə savaş yenidən səngidi. Sülh haqqında barış imzalandı. Əlli il əvvəl bağlanmış sazişə görə İrəvan yenidən İranın himayəsinə keçdi.

Otuz il müharibə bu yerlərin sakitliyini, əmin-amanlığını pozmadı. İrəvan yenidən dirçəldi. Xarabalıqların, viran olmuş binaların yerində yeniləri tikildi. Yeni salınmış bağlar, bağçalar bu yerləri cənnətə çevirdi.

1635-ci ildə savaş yenidən başladı. Sultan III Murad İrəvanı səfəvilərin əlindən aldı. Bir ildən sonra – 1636-cı ildə Şah Abbasın nəvəsi I Səfi yüz minlik süvari ordu ilə İrəvan istiqamətində hərəkət etdi. Qanlı döyüşlər getdi və İrəvan qalası yenidən türklərdən geri alındı.

Sanki tanrı bu yerlərə gözəllik ilahəsi ilə birgə müharibə Allahını da bağışlamışdı. Başından qovğalar əskik olmurdu, göylərindən qara buludlar çəkilmirdi. Naxçıvan kimi əldən-ələ keçir,

dağılır, viran qalır, yenidən yaşlı gözlərini silərək ayaqları üstə qalxırdı İrəvan.

* * *

1639-cu ildə Türkiyə axır ki, İrəvanı İrana güzəştə getdi.

Aralarında otuz illik sülh müqaviləsi bağlansa da tale İrəvanlıların üzünə güldü – barış səksən il çəkdi.

...Nadir şahın taxta çıxması müharibələrin yeni başlanğıcını qoydu.

...1795-ci ildə Ağa Məhəmməd şah Qacarın əlli minlik qoşunu İrəvanı xarabazara çevirdi. O, İrəvan xanlığının başçısı Məhəmməd xanı zindana saldırdı, xanlığın idarəsini isə qardaşı Əliqulu xana tapşırdı. Lakin Əliqulu xan İrəvanda uzun müddət hakimlik edə bilmədi. Qacarın ölümündən sonra taxta çıxan Fətəli şah Əliqulu xanı hakimiyyətdən uzaqlaşdırdı, onun gözlərinə mil çəkdirdi, Məhəmməd xanı yenidən İrəvan xanlığının başçısı təyin etdi. Rusların Qafqaza işğalçılıq yürüşü İrəvan xanlığına yeni bəlalar gətirdi. Bir-birini əvəz edən rus çarları və generalları artıq İrəvan xanlığının yerində erməni dövlətinin yaradılması üçün planlar həyata keçirirdilər. Bu planların həyata keçirilməsinə I Nikolay və general Paskeviç xüsusi canfəşanlıq göstərdilər. Türkmənçay müqaviləsinin bağlanması və çar I Nikolayın 1828-ci il 21 mart tarixli fərmanı ilə İrəvan xanlığının taleyi həll olundu – burada erməni vilayətinin əsası qoyuldu.

## 8

...At qoşulmuş arabalar İran sərhəddində çox yubanmadan Araz körpüsünü keçib Naxçıvana adlayırdı. Uzaq yollardan keçib gəlmiş arabaların cırıltısı, yorğun-yorğun yeriyən atların fınxırtısı, arabaçının bağırtısı və atların böyürlərinə dəyən qamçı səsi günortanın istisində bir anlıq yüklərin üstündə mürgüləyən müsafirlərin yuxusunu qaçırırdı. Tənbəl-tənbəl yerlərində eşələnir, ağırlaşmış göz qapaqlarını zorla açaraq ətrafa iştahla, hərisliklə baxırdılar.

Arabalara yığılmış yorğan-döşək, pal-paltarın üstündə uşaqlar oturmuşdu. Böyüklər arabaçının arxasında kirli, toz basmış ayaqlarını aşağı sallayaraq sanki bu yerlərin qanuni sahibi kimi gördükləri hər şeyə maraq göstərirdilər. Uzun yollar, başlarının üstdə od tökən günəş, canlarına hopmuş yolların toz-torpağı mü-

safirlərin səbrini daşırsa da bu yolçuluqdan məmnun və şad idilər. Toz qonmuş kirpiklərinin arasından qızarmış gözləri – qaranlıqda işıldayan canavar gözü tək alışıb yanırdı. Naxçıvana yaxınlaşdıqca arabalara qoşulmuş atlar böyürlərinə dəyən qamçıdan diksinərək sürətlərini artırırdılar.

...Şəkərabad körpüsünü adlayıb şəhərə girmək istəyən köçü irəlidə kimsə dayandırdı. Qara saqqallı, qırğı gözlü adam köç sahibini əlinin işarəsi ilə yanına çağırdı. Köçdən sonrakı araba karvanları da dayandı.

Arabaçının arxasında oturmuş yaşlı, şişman bədəni ilə az qala iki nəfərin yerini tutmuş çirkin sifətli qadın ərini dümsüklədi:

– Oturduğun yerdən dursana. Bəlkə evi elə burda paylayırlar? Çalış evimizi yaxşı yerdən al.

– Biz birinci dəfədi, axçi, bu şəhərə gəlirik. Mən hardan bilim ki, ən yaxşı evlər hardadır?

– O qara saqqallı mütləq ermənidir. Sən onun qulağına pıçılda ki, biz general Paskeviçin ən yaxın adamlarıyıq...

– Nə olsun ki?

– Dayan, dayan, tələsmə. Tanış bir adam mənə dedi ki, hələ ev söhbətini ortaya atmayın. Burda Hacı Əbülqasım deyilən varlı bir adam var. Onun karvansarasına düşün.

– Biz karvansarada yaşayaq? – kişi hirsləndi – başın xarabdır?

– Ay kişi sənin başın xarabdır. Axı müsəlmanları buradan köçürəcəklər. Karvansara bizə qalar.

– Axçi. burda o qədər gözüaçıq erməni var ki... Əgər karvansara belə dəyərlidirsə yəqin ki, artıq onu götürüblər.

– Sən ermənilərin ən yazığı, ən bədbəxtisən – qadın hirsindən boğularaq qat-qat olmuş buxağının tərini kirli dəsmalla sildi, dərindən nəfəs aldı, sonra fərsiz ərinə sərt bir nəzər salıb hökmlə dedi:

– Hacı Əbülqasımın karvansarası...

– Yaxşı, – kişi əlacsız başını bulayıb arabadan düşdü, yorğun, tənbəl addımlarla arabaların yolunu kəsən qarasaqqallı adama yaxınlaşdı.

Şişman qadın yorğunluğunu unudub bir gözü kişidə arxaya tərəf çevrilərək soruşdu:

– Təzə yerimiz xoşunuza gəldimi?

– Bura Naxçıvandır?

– Bəli, mənim balam. Bura bizim doğma vətəndir. Siz onu sevməli və qorumalısız.

On altı-on yeddi yaşlı oğlan əlini ağzına apararaq əsnədi:

– Burda müsəlman çoxdurmu? Biz onlarla bir yerdəmi yaşayacağıq?

Qadın yenə də tənbəl-tənbəl əsnəyib əlini ağzına qoydu:

– Hələlik bir yerdə yaşayacağıq, oğlum. Bu yerlər bizim öz torpaqlarımızdır. Sən özünü burda əsil sahibkar kimi aparacaqsan, ən yaxşı evlərdə yaşayacaq, ən varlı adam olacaqsan.

– Bizi İrandan niyə köçürdülər?

Qadının kök, qırış-qırış sifəti birdən-birə qızarıb allandı, əsəbiləşib səsini qaldırdı:

– Mən sizə evdə yüz dəfə dedim. Bizim ermənilər bütün məmləkətlərə səpələnib. Biz bir yerə, bir məmləkətə yığışırıq ki, daha güclü, qüvvətli olaq. Başa düşdünmü?

– Birdən müsəlmanlar bizi qəbul etməsələr?

– Dediklərimi nə tez unutdun? – qadın daha danışmadı.

Kişi qayıdıb gəldi, əlini yelləyib sevincək dedi:

– Hələlik yerli ermənilərin evinə düşəcəyik. Onlar bizi irəlidə gözləyir. Bizim keşiş də burdadır.

– Bəs sən ona karvansara barədə heç nə demədin?

– Dedim.

– Nə cavab verdi?

– Saqqallı hirsləndi. Dedi ki, burda dövlət yoxdurmu?

Arabalar tərpəndi. Köç şəhərin içərilərinə doğru hərəkət etdi.

* * *

General Paskeviç mənzilinin qapısını açanda onu təzə xidmətçisi qarşıladı. Bu orta yaşlı, qılıqcıl bir erməni qadınıydı. Qadın çəkmələrini çıxarmaqda ona kömək etdi, sonra içəri otağa keçib nahar süfrəsini hazırladı.

Paskeviç yorğun idi. Son vaxtlar ermənilərin İrəvana və Naxçıvana köçürülməsi işləri onu yormuşdu. Lakin o, işindən məmnun idi. Arazdan bu tərəfə köç arabaları ilə gələn erməniləri gördükcə rahatlıqla nəfəs alır, dərin bir nəşə duyaraq gülümsünürdü. İndi də birdən-birə ona elə gəldi ki, qoca Sərkis otaqdan çıxacaq, onu bağrına basacaq, ona elə gəldi ki, hətta Sərkisin səsini də eşitdi:

" – Səni qoyub gedə bilmirəm, İvancan. Yaxşı tez ol, əl-üzünü yu, süfrənin arxasına keç.

– Yatmaq istəyirəm, çox yorulmuşam, Sərkis.

– Nə danışırsan, İvancan, olmaz. Mən sənə ermənilərin sənin üçün xüsusi hazırladığı şərab gətirmişəm. Bu şərabın bilirsən neçə yaşı var? Az qala babamla yaşıddır. O sənə həm möhkəm yuxu, həm də rahatlıq gətirəcək.

– Axı mən...

– Sən uşaqlıqda mənim bir sözümdən çıxmazdın. Mənə o qədər bağlanmışdın ki, mən səni özümlə işə də aparardım. Gecələr səni qoynumda yatırardım. Söylədiyim nağıllar sənin çox xoşuna gələrdi. Erməni dilini sənə öyrətdim. Sən az qala ana dilini yaddan çıxaracaqdın...".

Paskeviçə elə gəldi ki, kürəyinin donqarı çıxmış Sərkis sağ çiynini əyə-əyə indicə yaxınlaşacaq, bulaşıq, ifadəsiz gözlərinin içindən gülə-gülə yanında oturacaq, çörəkdən bir tikə kəsib içinə qızardılmış ət qoyacaq və duzlu xiyarı yaxına gətirəcək:

" – Özüm hazırlamışam İvancan. Yadındamı oğlum, səni həmişə özüm yedirərdim. Mən bundan böyük zövq alardım. Mənim öz uşaqlarım olmadığından bütün sevgimi sənə verdim. Atan tacir Fyodrdan daha çox mən sənin üstündə əziyyət çəkdim. Çünki mən sənə öz ümidim, gələcəyim kimi baxırdım, İvancan.

– Atamın başı daim ticarət işlərinə qarışdığından mənimlə məşqul olmağa vaxt tapmazdı.

– Lakin mən səninlə idim, İvancan. Sən çox zəkalı, ağıllı, dərrakəli bir uşaq idin. O vaxtlar mən hiss edirdim ki, sən bu ağıl və zəkanla çox böyük adam olacaqsan. Buna görə də Fyodra təklif etdim ki, səni hərbi məktəbdə oxutsun.

– Hərbiçi olmağa mənim də həvəsim vardı.

– O vaxt adlı-sanlı zədaganların uşaqları hərbi məktəblərdə oxuyurdu. Amma hamı sənin kimi irəli gedib general, baş komandan ola bilmədi. Bu fitri istedaddan irəli gəlirdi. Sən general olub biz ermənilərin gələcəyi üçün çox iş gördün. Kilsələrdə keşişlərimiz sənin ömrünə dua etməkdən yorulmurlar.

– Heyif, sən tez ölüb getdin, Sərkis. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsini görmədin.

– Amma ruhum daim sizinlədi, İvancan..."

Qapının döyülməsi ilə general düşüncələrdən ayrıldı. Gələn İrəvanda köçürməyə başçılıq edən komitənin rəhbəri general-

mayor Vasili Osipoviç Behbudov idi. Behbudov generalla səmimi görüşüb yemək süfrəsinin arxasına keçdi.

Səssizcə nahar etdilər. Paskeviç soruşdu:

– Naxçıvana köçürülən erməni ailələri məni qane etmir, Behbudov, onlar çox azdır.

– Naxçıvanda yaratdığımız erməni müvəqqəti komitəsinin başçısı polkovnik Qriqori Davudoviç Lazarev bütün imkanlardan istifadə edir. O çox işgüzar və bacarıqlıdır. Lakin Naxçıvanda erməni ailələrinin az olması işimizə əngəl törədir. Ona görə də çalışırıq ki, ermənilər buraya axınla gəlsin.

General başını tərpətdi:

– Ehsan xan bundan narahatdır. Naxçıvanın bütün xanları ermənilərin Naxçıvana çox sayda köçürülməsindən təşvişə düşüb.

– İrəvanda da ermənilərin sayı çox azdır, general-Vasili Behbudov təəssüflə başını buladı – müsəlmanlar əhalinin doxsan beş faizini təşkil edir.

– Onda təcili olaraq müsəlmanları İrəvandan başqa yerə köçürmək, erməniləri münbit torpaqlarda yerləşdirmək lazımdır.

– Biz Naxçıvanda da elə etməliyik ki, yeni salınan erməni kəndləri müsəlman kəndlərinin əhatəsində yox, müsəlman kəndləri ermənilərin əhatəsində olsun.

– Belə niyə? – Paskeviç maraqlandı.

– Gələcəyin işini bilmək olmaz general. Bu torpaqlardan müsəlmanlar qovulanda o zaman bunu eləmək çox asan olacaq. Erməni kəndlərinin mühasirəsinə düşmüş müsəlmanları asanlıqla məhv etmək olar.

– Siz ermənilər doğrudan da çox uzaqgörən millətsiniz, Behbudov.

Vasili Behbudovun gözlərində məkirli bir gülüş oynadı.

* * *

...Behbudov hiyləgər və cəllad xislətli bir erməni idi. Müsəlmanların qanlı düşməni olan general Behbudov İrəvanda yaradılmış müvəqqəti köçürülmə komitəsinə canfəşanlıqla rəhbərlik edirdi. Rusların yaratdığı fürsəti əldən qaçırmayan Behbudov İrəvanda ən çox diqqəti müsəlmanların başqa yerə köçürülməsinə, ermənilərin yerləşdirilməsinə yönəltmişdi. Onun cəllad xisləti bütünlüklə simasında cəmləşmişdi. Öz doğma ocaqlarını tərk et-

mək istəməyən müsəlmanlarla Behbudov amansızlıqla rəftar edirdi. Gecə ikən evlərə od vurulur, ailə qəddarlıqla qətlə yetirilirdi. Bundan qorxuya düşən əhali istər-istəməz doğma torpağından didərgin düşürdü. Behbudov özünü İrəvanın ağası kimi aparırdı.

...Vasili Osipoviç Behbudov 1793-cü ilə Qarabağın Tuğ kəndində anadan olmuşdu. Atası Osip Behbudov onu azərbaycanlılara qarşı nifrət ruhunda böyütmüşdü. Vasili azərbaycanlılarla təmasda olduğundan bu dili mükəmməl öyrənmişdi. 1806-cı ildə Şuşada oxudu. Sonra elə oradaca hərbi xidmətə başladı. Onun xidmət etdiyi hissə ermənilərdən ibarət idi. Bu hissəni ərzaqla erməni milyonçuları təmin edirdi. Çünki burada xüsusi təlim, dərs keçən erməni cavanları gələcəkdə yaradılacaq "Böyük Ermənistan"a xidmət edəcəkdilər.

Əsgər yoldaşları arasında Vasili Osipov çox-çox irəli getdi, yüksək vəzifə tutan Vasili Qriqoryeviç Madatovun köməyi ilə ali baş komandan Yermolovun yavəri oldu.

Vasili tezliklə Yermolovun etimadını qazandı, İrana göndərildi və buradakı ermənilərlə əlaqə yaratdı. Gələcəkdə bu ermənilərin Azərbaycana köçürülməsi üçün gizlicə, məxfi olaraq hazırlıq işləri apardı.

Yermolov bu əldən və ağıldan iti erməninin vəzifəsini artırdı. Azərbaycana rəhbərlik səlahiyyətlərini Behbudova verdi. İlan kimi çalmaq, zəhərini tökmək məqamını gözləyən Behbudov azərbaycanlılara öz yurd-yuvalarında ağlasığmaz cəhənnəm yaşatdı. Vergiləri həddindən artıq artırdı, vergi verə bilməyənləri amansız cəzalandırdı. "Çara qarşı çıxır" damğasını vuraraq onları dədə-baba yurdlarından didərgin salmağa, sürgün etməyə başladı. Beləliklə, Azərbaycan torpaqları boşaldıqca bu torpaqlara erməni axını başladı.

* * *

...Şəhərlərə, kəndlərə dolan araba karvanlarının isə ucu-bucağı görünmürdü. Rusların siyasətçil qüdrəti özünü göstərirdi: sanki düzü-dünyanı at qoşulmuş araba karvanları götürmüşdü. Yaz günəşi torpağın dərinliyindən qarışqaları üzə çıxardığı kimi sanki ruslar da işıq kimi şölələnib erməniləri üzə çıxarırdı. Ermənilər qarışqa kimi Azərbaycanın canına daraşırdı... Təkcə qırx min nəfər erməni Naxçıvan ərazisində yerləşdirildi. (Bir vaxt Ru-

siyanın Tehranda səfiri olmuş rus alimi Nikolay Şavrov yazırdı: *"...Biz köçürməyə Zaqafqaziyaya rusları deyil, digərlərini yerləşdirərək başladıq. 1826-1828-ci il müharibəsindən sonra, 1828-30-cu illər arasında iki ildə 40000-dən artıq İran ermənisi və 84000 Türkiyə ermənisini erməni nüfuzunun az olduğu ərazilərdə yerləşdirdik. Onların yerləşmələri üçün 20 min desyatin torpaq sahəsi ayrılmış və iki milyon rubl dəyərində şəxsi ərazi müsəlmanlardan satın alınmışdır. Qəbul edilməlidir ki, rəsmi olaraq yerləşdirilən 124000 erməni, qeyri-rəsmi olaraq yerləşdirilən ermənilərlə bərabər sayları 2000000-u keçməkdədir. Bu yüzilliyin sonunda Zaqafqaziyada 1,3 milyon nəfər olan ermənilərin I milyondan çoxu bu bölgənin yerli xalqı olmayıb bizim tərəfimizdən yerləşdirilənlərdir...").*

9

Xanvəli Feyzullahı Hacı Əbülqasımın karvansarasının yanındakı çayxanada tapdı. Feyzullahın başı qarışıq idi. Danışığına ara verən təki çayxananı gülüş səsi bürüyürdü. Ətrafdakılar gülməkdən qəşş eləsələr də Feyzullah özünü tox tuturdu. Yerdən kimsə yaşlı gözlərini silib əlini çənəsinə çəkdi:

– Feyzullah, o Pır Ədilin də əhvalatını danış.

Feyzullah başını bulayıb nırç atdı:

– Tay bəsinizdi. Səhərdən gülməkdən qırılırsız.

Xanvəli boş kətili çəkib oturdu:

– Camaat nə hayda, siz nə hayda.

– Dərdimiz yadımızdan çıxır ay Xanvəli, bir ucdan erməni də ha köçüb gəlir, bu urus ermənini Naxçıvana yığmaqda bizə nə hiylə qürur, başa düşmürük.

– Ehsan xan Kalbalı xanın oğludu. Ermənin Naxçıvana gəlməsi ziyan olsa Ehsan xan bu işə qol qoymaz.

– Bəlkə Ehsan xanın da başını alladırlar?

– Nə bilək, sən söhbətini elə.

– Əhvalat belə olur. Bir gün Ədil qışın tüğyan etdiyi bir vaxtda piyada kənddən şəhərə gedirmiş. Qar yağıb, düz-dünya ağappaq qar içində. Ədil baxır ki, daşın üstünə bir kəklik qonub, az qala deyir ki, gəl məni tut. Ədil kəkliyi görən təki üşümək yadından çıxır. Əlini üsulca uzadıb kəkliyi tutmaq istəyir. Kəklik "pır" eləyib başqa daşın üstə qonur. Ədil əl çəkmir, axır ki, kəkliyi tutur, qoyur qoynuna. Kəklik əti dadlı, ləzzətli olur axı.

– Onu deyim ki, qışda qar yağanda mən də kəklik ovuna çox getmişəm, – kimsə Feyzullahın sözünü kəsdi.

Yer-yerdən kişiyə hirsləndilər:

– Mərifətin olsun, görək mağmun Ədilin başına nə gəldi?

Feyzullah həvəsləndi:

– Ədilin qohumu varmış şəhərdə. Göyərçin adında. Yazıq şəhərə o vaxt çatır ki, üşüyüb, aclıq əldən salıb, hava da qaralıb. Əlacı yerdən-göydən üzülür gedir Göyərçin gilə. Göyərçin də tək qadın.

– Bəs kəklik nə oldu?

– Kəklik də qoynunda. Göyərçin buna yemək-içmək verir, yerini qapının ağzında salır, öz yeri də yuxarı başda. Tək, yaşlı qadındı, Ədilin nənəsi yerində. Ədil fikirləşir ki, əgər arvad bilsə ki, bunun qoynunda kəklik var, onda kəkliyə gözü düşər. Yaxşısı budu ki, kəkliyi üzə çıxarmasın. Qoynunda saxlayıb heç yerinə də girməsin. Göyərçin nə qədər dil tökürsə Ədil, bala yol gəlmisən, yorğunsan gir yerində rahat yat. O, dedikcə Ədil deyir, yuxum gəlmir. Arvad başını atır yerə. Ədil də elə yatdığı yerdə yuxulayır. Gecənin bir yarısı ayılır ki, kəklik yoxdu, həyəcan içində kəkliyi axtarır. Baxır ki, kəklik elə bil qəsdən gedib qonub Göyərçinin başına. Ədil arvadı oyatmasın deyə yavaş-yavaş arvadın yorğanının üstə uzanıb əlini kəkliyə atmaq istəyəndə Göyərçin hövlanak yuxudan ayılıb, başının üstə Ədili görür və qışqırır:

– Ədə, sən neynirsən?..

Ədil özünü itirir, əlini kəkliyə tərəf uzadıb dili topuq çala-çala deyir:

– Bacı pır, bacı pır.

Arvad hirslənir:

– Pır belə dədəndi, yeddi arxa dönənindi, dur çıx evimdən.

Ədil dəli olur:

– Bacı vallah pırı tuturam.

Arvad başının üstə kəkliyi görüb başlayır gülməyə. O vaxtdan da Ədilin adı qaldı Pır Ədil.

Çayxananın küncündə oturmuş Ədil cırnadı:

– Yalançının atasına lənət.

– Bıy Ədil sən də burdasan?

Ara qarışdı. Bu anda Xanvəli ucadan dedi:

– Pır Ədildən əl çəkin. Nehrəmdə deyirlər savaşdır.

Feyzullah ayağa qalxdı:

– Nə savaş əəə?
– Nehrəmlilər ermənilәri kəndə buraxmır.
Feyzullah papağını başına qoydu:
– Getdik, Xanvəli.
Çayxana boşaldı. Xanvəligil Şəkərabad körpüsünü keçib özlərini Nehrəmə yetirəndə yollar kəsilmişdi. Rus əsgərləri ilə nehrəmlilər üz-üzə dayanmışdı. Nehrəm yolunda ermənilərin yüklü arabaları gözləyirdi.
Namaz vaxtı olduğundan evə getməyə macal tapmayan mömün adamlar elə yolun ortasındaca rus əsgərlərini irəli buraxmayaraq kiçik örtüyü açmış, üstündə namaz qılırdılar. Əllərini qulaqlarının dibinə qoyaraq  ucadan "Allahü Əkbər" deyəndə Xanvəlinin tükü ürpəşdi.
Rus əsgərləri namaz qılanların başı üstə farağat dayanmışdı. Onlar bu anlarda müqəvva kimi hissiz və donuq görünürdü.
Xanvəli təəccüb içində pıçıldadı:
– Əşi, bu nehrəmlilər heç zaddan qorxmurlar.
Feyzullah göz elədi:
– Hacı Hüseynə bax "Allahü Əkbər" deyəndə rus əsgərlərinə gözlərini necə ağardır.
– Camaata ruh verən də odu. Yaşı yüzü keçib amma elə bil bığıburma cavandı.
– Xanvəli səncə ermənilər Nehrəmə girə biləcək?
– Məncə yox.
– Səncə niyə? Axı əli silahlı urus ermənini müdafiə eliyir?
– Nə olar. Allah da nehrəmlinin başı üstədir. Hacı Əbülqasım deyir ki, bu ermənilərin cəhənnəmdə də adamı var.
– Cəhənnəmdə ermənінin adamı urusdan başqa kim ola bilər? Deməli urusla erməni cəhənnəmə bir yerdə gedir. Nə olar, lap yaxşı, istəməyənin gözü çıxsın.
– Hacı Əbülqasım deyir ki, hər axşam şəhərin varlı erməniləri yığışır karvansaraya. Ermənilərdən də ora düşəni var.
– Pah nə ölümləri var orda? – Feyzullah hirsləndi:
– Bizim məhəllə erməni istəmir. Bilirsən də ən böyük məscid biz tərəfdədir. Hərgah ora bir nəfər erməni gələ və o erməni də məscidin yanından keçə, tay bir nəfər o erməninin ayaq qoyduğu yerdən keçməz.

– Bə nədi bə. Biz də heylə düşünürük. Şərab içən, ürəyi qurdlu millətlə bizim nə alış-verişimiz?

Hacı Hüseynlə birlikdə o birilər də namazı qurtaran kimi canamazlarını səliqə ilə büküb ciblərinə qoydular.

Namazın qurtardığını görən Lazarev səbirsiz halda irəli bir addım atıb Hacı Hüseynlə üz-üzə durdu:

– Siz bu yazıq millətdən nə pislik görmüsüz? Siz onları niyə kəndə buraxmırsız? Allaha yaxın olmaq istəsəniz də Allahdan uzaq düşmüsüz.

Hacı Hüseyn təmkinlə dedi:

– Biz elə indicə Allahla danışdıq. Allah ermənilərin Nehrəmdə yaşamasına izin vermədi. Çünki Allahın ermənilərdən xəbəri yoxdur. Əgər olsaydı Allah elə onların özünə torpaq verərdi. Gör yer üzündə nə qədər millət var və hər millətin özünün də torpağı, vətəni var. Nə təhər oldu Allah hamını gördü, amma ermənini görmədi, hamıya torpaq verdi, yaşamağa yurd verdi, amma erməniyə vermədi?

Dilmanc Hacı Hüseynin sözünü kəsib təəccüblə soruşdu:

– Niyə ermənini Allah yaratmayıb?

– Erməninin yaranması Allahın xoş saatına düşməyib – Hacı Hüseyn hazırcavablıq elədi – a bala sən mənim sözlərimi tərcümə elə. Ona de ki, əgər Allah izin vermədisə biz Allahın qanununu poza bilmərik.

Lazarevin səbri son həddə çatdı:

– Qanunu Allah yox, biz qoyuruq.

– Əstağfurullah de. Allah basıb gözünü tökər.

Dilmanc axırıncı sözü Lazarevə çatdırıb özü də əlavə etdi:

– Nehrəmlilər razı olmasa ermənilər silah gücünə orda yaşaya bilməz.

– General Paskeviç də bizə zor işlətməməyi tapşırıb.

Lazarev qəzəb qarışıq nifrətlə rus əsgərlərinin qarşısına çəpər olmuş adamları süzdü. Onların gözlərində ölümə meydan oxuyan bir cəsarət, mərdanəlik vardı. Bu adamların iradəsi sınana, əyilənə oxşamırdı. Lazarev əsəb içində, yüklü arabalara geri qayıtmaq işarəsi verdi.

Nehrəmdə yurd sala bilməyən ermənilər üçün Nehrəmə yaxın yerdə iki kənd saldılar.

10

...Xacə Yağuba elə gəldi ki, yatağına köz döşənib. Gecənin bir yarısına qədər bu köz səpilmiş döşəyin üstündə gah üzüstə, gah da arxası üstə uzandı, lakin köz soyumaq bilmədi, onu gözəgörünməyən atəşinə bükərək dabanlarından tutmuş, gözlərinin içinə qədər yandırdı. Seyrək kirpikli gözlərini bərk-bərk yumdu, çox-çox uzaqlarda qalmış uşaqlıq xatirələrini yığıb düşüncələrinin içinə qatdı, lakin yenə də özünü sanki yatağına döşənmiş közün istisindən, onu vahimə içində saxlayan fikirlərdən qurtara bilmədi. Elə bil kirpiklərinin hərəsi bir tikan olub gözünün içinə batdı. Xacə yorulub xeyli vaxt yatağın içində oturdu, sonra gödək, əyri ayaqlarını taxtdan aşağı sallayıb gözünü ağarmaqda olan pəncərəyə dikdi. Sonra səs salmadan, vərdiş etdiyi pişik çəldliyi və ehtiyatı ilə ayaqlarını döşəməyə səssizcə qoydu, qapını açıb uzun, yarıqaranlıq dəhlizə çıxdı. Otaqların hamısının qapısı bu yarıqaranlıq dəhlizə açılırdı. Xacə Yağub əyri ayaqlarını yerə asta-asta basaraq pəncələri üstə bağlı qapılara yaxınlaşdı, qulaqlarını şəkləyib bir xeyli qulaq asdı, sonra arxayın olub o biri qapılara adladı.

...Xacə Yağubun ağlı kəsəndən bütün ömrü hərəm qapılarını pusmaqda keçmişdi. Bəlkə də elə buna görə gözlərindən çox qulaqları həssas idi. Bu həssas qulaqlar bir cüt yelpazə kimi daim hərəkətdə idi və ən səssiz bir pıçıltını belə o anda eşidib sözləri qavraya bilirdi.

Xacə Yağub ürəyi istəməsə də yenə uzun illərin vərdişinə xilaf çıxa bilməyərək yarımqaranlıq dəhlizdə qapıların arxasında iti qulaqlarını işə saldı. Lakin otaqlar dərin bir səssizlik içindəydi. Amma Xacə Yağub bilirdi ki, bəzən bu dərin səssizlik də onun qulaqlarını aldadır. Xacənin də vəzifəsi bu səssizlik içinə gömülmüş xəyanəti bir tikan kimi çəkib çıxarmaq, günahkarı cəzalandırmaq idi. Bədbəxt xacənin həyatının ən xoşbəxt anı– tapıb cəzalandırdığı günahkarın qopardığı fəryadı, qışqırığı eşitdiyi an idi. Yalnız bu anlarda o, dərin bir zövq, nəşə duyurdu.

...Şaha xəyanət edən hərəm məşuqu ilə pıçıldaşdığı anda xacə Yağub yerin təkindən çıxmış kimi onların başı üstə qəfildən hazır olurdu. Həmin hərəm dünyanın daş-qaşını xacəyə versə də xacə cəza vaxtı duyduğu nəşəni dünyanın heç bir sərvətinə dəyişməzdi. Elə ki, cəza qurtardı, xacə Yağub həmin gecəni dərin, rahat yuxuya gedirdi, o gecə daha hərəmlərin otağını güd-

mürdü, sanki bununla da onları öz duyğuları ilə azad-asudə buraxırdı.

Lakin cəzalanmış hərəmin ruhu həmin gecə, sonrakı gecələrdə də sanki bir xəyal kimi yarımqaranlıq dəhlizi, otaqları dolaşır, hamını qorxu və səksəkədə saxlayırdı. Qaməti əyilmiş, kürəyinin donqarı çıxmış, üzü qırışlı, bulaşıq gözlərində daim bir nifrət parıltısı görünən xacənin özü isə hərəmlərin gözündə vahimə doğuran çirkin bir məxluqa çevrilirdi.

...Əslində Yağub çirkin bir məxluqdan savayı bir şey deyildi. Bu çirkinlik xacəlikdən çox onu ağrıdır, ürəyinin başında bir yara tək sızlayırdı. Göyçək simalı adam görəndə bu sızıltı sanki bir az da artırdı. Sızıltı ilə bərabər. qısqanclıq, paxıllıq xacənin qəlbini qurd kimi didirdi. Xacə üzünə zillənən baxışlarda bir ikrah hissi duyunca ürəyi sancır, sanki kürəyindən oxlanmış kimi başı dumanlanır, eybəcər vücudunu gizləmək üçün yer axtarırdı. Üzünə gülümsəyən xoş bir baxışa tamarzı idi. Bəlkə də elə buna görə hamıya, hər kəsə nifrəti içinə sızaraq damla-damla yığılmış və zəhər kimi bütün insanlıq heysiyyatını zəhərləmişdi. Bəlkə də elə buna görə Bəyaz xanımı cəlladın əlinə verəndə bir tükü də ürpəmədi. Əksinə ona elə gəldi ki, ürəyinin başına yığılmış bir topa zəhər axır ki, onu əzab çəkməkdən qurtararaq dağılıb getdi. Sanki xacə yüngülləşdi, nazik, solğun dodaqları gərilib qımışdı.

Bəyaz xanımı uzaq Rumdan gətirmişdilər. Kimsə onun adını bilmirdi. Ağlığına görə şah onu Bəyaz çağırırdı. Onu ilk dəfə görəndə xacə Yağubun sanki illərlə sükuta getmiş könlündə nə isə gumuldandı, qızın gözlərindəki cazibə xacəni ildırım tək vurdu. Əlini uzadıb qızın əllərini tumarlamağa cürət elədi. Bəyaz xanım əllərini qara, qırışmış əllərdən çəkib əsəbiliklə çığırdı:

– Bu çirkin adam neynir, burda? Rədd eləyin onu.

Hərəmlərdən biri gözlərini süzdürüb kinayə ilə xacəyə baxdı və güldü:

– Bu çirkin adam hərəmlər sarayının padişahıdır.

Bəyaz xanım da şaqqanaq çəkdi:

– Bu ha... bu çirkin adam haa, Fətəli şah bunu padişahmı qoyub? Məmləkətdə gözəl sulatlı adam yox idimi? Bu ki...

– Xacədir o. Yoxsa gözləyirdin ki, şahımız bizə yaraşıqlı, boylu-buxunlu cavanı gözətçi qoysun? O cavan, gözəl oğlan da cızığından çıxıb məhəbbətini bir alov kimi...

Bəyaz xanım onun sözünü kəsdi, xacəyə baxan gözləri iriləafter nib təəccüblə açıldı:

– Demək bu çirkin adam xacədir. Deyirəm axı, bu eybəcərlikdə insan olmaz.

Xacə Yağubun bütün vücudu sarsıldığındanmı, ya nədənsə buğ tərin içində isindi. Seyrək kirpikli gözlərinin içində sanki nifrətli baxışı iti xəncər kimi Bəyazın üz-gözünə sancıldı:

– Xanım mənə həqarət eləmə. Cavan vaxtı mən də yaşarıqlı bir oğlan idim. Anam məni xacə doğmamışdı. Bir də yadından çıxarma ki, Fətəli şahın əmisi Ağa Məhəmməd şah Qacar da xacə idi. Şərqdən qərbə bütün məmləkətlər onun qılıncının qarşısında əsirdi.

Bəyaz xanım yenə ucadan güldü:

– Lakin sən böyük bir məmləkətin deyil, hərəmlər sarayının padişahısan. Bədbəxt xacə... Gör ağlından nələr keçir? Gör kimi düşünüb təsəlli almaq istəyir?

Hərəmlər səs-səsə verdi. Gülüşlər sanki xacə Yağubun başına qapaz kimi yağdı. Bu gülüşlər, baxışlar həqarətə bükülüb onu ayaqlar altına saldı, əzdi, tapdaladı. Bəyaz xanıma sərt, qorxunc, kinli bir nəzər salıb əyri ayaqlarını yerə bərk-bərk döyədöyə çıxıb getdi. Amma gülüşlər yenə ondan əl çəkmədi, sanki ilan kimi arxasınca sürünərək onu beynindən, ürəyindən çaldı... Və xacə Yağub səbrlə Bəyaz xanımdan intiqam alacağı günü gözlədi.

...Gecələr daha o biri otaqlara yaxın getmədi. Yalnız bütün varlığı ilə Bəyaz xanımın otağını pusurdu. Bəyaz xanım Fətəli şahın bəlkə də nəticəsi yerindəydi. Lakin şahın ona xüsusi diqqəti, məhəbbəti vardı. Bu rum gözəli hərəmxanaya qədəm basandan Fətəli şah hərəmlərin heç birinin qapısını açmazdı, təkcə Bəyaz xanımın otağına gələrdi.

Bir gecə xacə Yağub yatağına girmək istəyəndə içindəki şeytan oyandı, xacəni yatmağa qoymadı, inadla onu Bəyaz xanımın qapısına apardı. İçəridə xısın-xısın danışırdılar. Hərdən həzin ağlamaq səsi də gəlirdi.

Xacə Yağuba bu anlarda sanki bir dünya dolusu sevinc bağışladılar. İçindəki şeytan isə onu dayanmadan dümsükləyirdi: "Nə durmusan, Yağub. O sənin eyibini üzünə vuraraq onsuz da yaralı qəlbini bir də amansızlıqla yaraladı. O, cavanlığına, gözəlliyinə güvənərək sənin nöqsanını şillə kimi üzünə çırpdı. Həmin

anda sən bu dünyadan yox olmaq üçün özünə ölüm arzuladın. İndi Allah sənə onu məhv eləmək, alçaltmaq, əzmək fürsəti verir. Nə durmusan, qaç xəbərə. Bir də səni bunun üçün buraya qoymayıblarmı? Sən indicə şaha edilmiş xəyanətin şahidi olmadınmı? Amma xəbərə getməzdən əvvəl qapını aç, gir içəri, xəyanətkarı gözlərinlə cəzalandır, həqarətini qaytar, şillə kimi çırp onun gözəl sifətinə".

Xacə bu anda özündə bir aslan gücü hiss elədi. Qapını zərblə çırpıb içəri girdi. Qabaq-qənşər oturub söhbət eliyən Bəyaz xanımla cavan oğlan xacə Yağubu görəndə özlərini itirdilər. Xacənin şəfəq kimi parlayan gözləri açıq pəncərəyə sataşdı. Cavan oğlan burdan özünü içəriyə salmışdı.

Xacənin sevincli, parıltılı gözlərini görən təki Bəyaz xanım özünü itirdi. Bu parıltılı gözlərdə üzə çıxan qəddarlığı hiss edib nitqi tutuldu. Bu anda dizləri qatlandı və eynən xacə kimi alçalaraq, kiçilərək dizin-dizin sürünüb Yağubun gödək, əyri ayaqlarını qucaqladı:

– Mənə rəhm elə, Yağub. Bu oğlan özgə deyil, mənim nişanlımdır. Məni şahın adamları zorla anamın-atamın əlindən alaraq şaha gətirdilər. Nişanlım mənim arxamca gəlib. Nə olar, məni öldürtsən də bu cavana qıyma. İzin ver, o çıxıb getsin. Qurbanın olum, Yağub.

Sanki Bəyaz xanımın yalvarışlarını dinləyib Yağubun içindəki şeytan da bir anlığa fikrə getdi. Lakin xacənin ürəyinin başına yığılmış bir topa kin, nifrət onun bütün duyğularını zəhərləməkdə idi. Yağub gözaltı cavana baxdı. O, qorxmuşdu. Şüşə kimi donuq gözlərində zəif, ölәzimiş bir parıltı vardı. Xacə gödək, əyri ayaqlarını Bəyaz xanımın ağappaq, şümşad qollarının arasından çıxardı, bürüşük, solğun dodaqları nifrət içində zorla aralandı:

– Çıxıb getsin. Amma səni bağışlamıram. Sən məni həqarətinlə təzədən öldürdün. Sən məni hərəmlərin yanında alçaltdın, ürəyimi bir də zədələdin. Mən ki, anadan xacə doğulmamışdım. Sən mənə həqarət elədin. Məni də sənin kimi şahın adamları əsir alıb İrana gətirdilər.

Xacə göz yaşını uddu. Sanki göz yaşı içindəki nifrətin üstünə yağdı, amma onun atəşini söndürə bilmədi.

...Və xacə Yağub Bəyaz xanımın qətlinə fərman verdirdi. "Gözü dağınıqdır" – dedi. "Qorxuram şahın namusuna kölgə

sala. Onu nökərlə xısınlaşanda gördüm" – dedi. Və bununla da Bəyazın canını dəhşətli işgəncələrdən xilas elədi.

...Xacə Yağub bir daha Bəyaz xanımın otağının həndəvərinə dolanmadı. Sanki inilti səsləri bu otağın sükutuna qarışaraq orda həmişəlik yaşadı...

* * *

Xacə Yağub Tiflis ermənilərindən idi.

Ağa Məhəmməd şah Qacar Tiflisi yandırıb kor qoyanda bu başı bəlalar çəkmiş şəhərdən xeyli əsir götürdü. Əsirlərin çoxu cavan və yeniyetmə idi. Yağub Markaryan bu yeniyetmələrin arasındaydı. Onlardan bir qismi saraya xidmətçi aparıldı. Yağub Markaryan isə xacə oldu. Fətəli şahın hərəmxanasının ikinci xacəsi... Kürəyinin donqarı çıxmış, ayaqları əyilmiş, üzünün eybəcər, çirkin cizgilərinə taleyin bədbəxtlik möhürü vurulmuş xacənin ürəyində vətən həsrəti ocaq kimi qalandı və sönmək bilmədi..

Rusların Türkmənçay zəfəri xacənin də ölmüş ümidlərini təzədən alışdırdı... O, rus səfəratxanasına ayaq açdı. Qriboyedov xacə Yağubu səbrlə dinlədi. Bu bədbəxt adamın göz yaşları səfirin ürəyini yumşaltdı, eyni dindən olan xristian qardaşının qərib ölkədə çəkdiyi zülümlər səfirin ürəyini kövrəltdi və o, erməni Yağub Markaryana vətənə getməyə kömək edəcəyini vəd etdi.

* * *

Xacə Yağub hərəmxanadan tez-tez oğurlanıb gizlicə Tehrandakı rus səfəratxanasına gedirdi. Hər dəfə də bir az dirçəlmiş halda geri qayıdırdı. Qriboyedovla söhbətdən sonra daha gecələr yüxüsünü pozub qapıları pusmurdu. Sanki uzun illər zövq və nəşə içində gördüyü bu iş onu birdən-birə bezdirdi, səbrini daşırdı. Elə bil qəflətən öz içini, öz içində illərlə yığılmış nifrət topasını, bir də onu dümsükləyib şər işlərə, gunah işlərə sürükləyən şeytanı gördü. Gördüyü günah işlərin peşimançılığını çəkərək başa düşdü ki, buradakı hərəmlər də taleyin qarğışına gəlmiş adamlardır. Həbsxana həyatı kimi bir həyata məhkum olunmuş bu qadınlar, bu seçmə gözəllər elindən-obasından qoparılaraq bu qızıl qəfəsdə zülüm və işgəncə çəkirlər. Bol günəş işığına belə həsrətdilər. Onların dodaqları gülsə də ürəkləri qan içindədir. Xacə çox-çox sonralar rus səfəratxanasına ayaq açanda bütün

bunları anladı və həmin vaxtdan da hərəmlərə göz olmağı buraxdı...

* * *

Tehranın mərkəzində yerləşən ikimərtəbəli, yaraşıqlı bina. İngiltərə səfəratxanasının otaqlarında həmişəki sakitlik hökm sürürdü. Müəyyən edilmiş vaxtda səfirliyin əməkdaşı Corc, (o, səfirin birinci katibi Uillokun qardaşı idi) həkim Maknil Uillokun otağına gəldilər.

Uillok kefsiz, qaşqabaqlı görünürdü. İçəri girənləri başı ilə salamlayıb oturmağa yer göstərdi. Həkim Maknil katibin nə deyəcəyini gözləmədən soruşdu:

– Deyəsən şefdən təzə tapşırıq almısız, mister Uillok?

Katib başı ilə təsdiqlədi:

– Bu dəfə bilmirəm bunun öhdəsindən gələrik, ya yox. Çünki bu cinayətdir, özü də beynəlxalq cinayət... Qorxuram ki, ələ keçsək... Ələ keçsək casusu olduğumuz Ost-Hindistan kampaniyası və Böyük Britaniyanın baş naziri Hersoq Vellinqton cinayətin üstü açılmasın deyə bizi özləri aradan götürər.

Həkim Maknilin rəngi qaçdı, dili dolaşa-dolaşa dedi:

– Lakin biz Böyük Britaniyaya, onun gələcəyinə xidmət edirik, mister Uillok.

Katib əlini onun çiyninə qoydu:

– Düz deyirsən Maknil. Amma nə olursa-olsun biz tapşırığı yerinə yetirməliyik. Tapşırıq isə belədir: Türkmənçay müqaviləsinin bağlanması, ruslarla farsların barışığı bizimkiləri möhkəm qəzəbləndirib, onları narahat edib. Sülh bizimkilərə sərf eləmir...

– Yəni istəyirlər ki, bu barışıq pozulsun, müharibə yenidən qızışsın? – Corc hırıltı ilə güldü.

– Elədir. Fətəli şah qorxaqdır. O, əfəldir, buna görə də İngiltərənin və Fransanın köməyindən istifadə edib müharibəni uda bilmədi. Uduzdu.

– Müharibəni aparan Abbas Mirzə atasının tapşırıqlarını yerinə yetirməsəydi, bəlkə də... – Corc qızğınlıqla onun sözünü kəsdi, gözlərində açıq-aşkar nifrət parıltısı göründü.

– Nəhayət, deyin görək şefin bizdən tələbi nədir? Onlar bu iş üçün yetərincə pul ayırıblarmı? – həkim Maknil səbirsiz soruşdu.

– Həmişəki kimi ortada çoxlu para var. İndi biz elə bir adam tapmalıyıq ki, o adam rus səfəratxanasına istədiyi vaxt gedib-gələ bilsin və kimsə ondan şübhələnməsin. Səfirlikdəki adamları öz tərəfinə çəkmək üçün həmin adama çoxlu pul təklif olunacaq.

– Bir sözlə səfirlikdə öz adamlarımız olmalıdır – Corc qardaşının sözünü kəsdi.

– Sonra müəyyən olunmuş vaxtda səfir Qriboyedov və səfirliyin bütün əməkdaşları gizlicə qətlə yetirilməlidir. Özü də işi xəncər və bıçaqla görmək lazımdır ki, güllə səsini kimsə eşitməsin.

– Öz tərəfimizə çəkdiyimiz adamlar da... – Corc yenə özünü saxlaya bilməyib soruşdu.

– Yox, onlar ingilis kəşfiyyatına kömək etdiklərinə görə sağ qalmalıdır. Qətldə onların da qüvvəsindən istifadə edəcəyik. Qatillər farsların geyimində olduqlarından çar sarayında şübhələr farsların üzərində dayanacaq. Onlar elə başa düşəcəklər ki, qətli Türkmənçay müqaviləsindən narazı qalan farslar törədib.

– Xüsusi ilə şahın kürəkəni Allahyar xandan şübhələnəcəklər. O, rusların əlindən qəzəblidir. Türkmənçay müqaviləsi ilə heç cürə barışmır.

Bununla da farslarla rusların münasibətləri pozulacaq və Qriboyedovun qətli müharibənin yenidən başlanmasına səbəb olacaq. Qətlləri törətməkdə məqsəd də müharibəni yenidən qızışdırmaqdır – Uillok sözünü tamamlayıb Corcla Maknilin üzünə baxdı.

Həkim Maknil özünü saxlaya bilmədi:

– Cənab Uillok, şər deməsən xeyir gəlməz. Birdən rus imperatoru səfirlikdəki qətlə biganəlik göstərdi? Onda necə? Axı indi Rusiyanın başı Türkiyə ilə müharibəyə qarışıb. Mən inanmıram ki, Rusiya İranla yenidən savaşa girsin. Bir də Türkmənçay müqaviləsi İranın marağını təmin edir...

Mister Uilllok əsəbiləşdi:

– Ay axmaq, bizə verilən tapşırığı biz yerinə yetirməliyik. İngilis kəşfiyyatı ilə sorğu-sual aparmaq, nəyi isə onlara sübut eləmək bizim işimiz deyil. Allah Qriboyedova və səfirliyin bütün əməkdaşlarına rəhmət eləsin.

Həkim Maknil xeyli düşündü və birdən sevindi:

– Rus səfirliyinin yaxınlığında qəhvəxana var. Mən ora tez-tez gedirəm. Həmin qəhvəxanaya son vaxtlar bir nəfər də gəlir. O eybəcər görünüşünə görə mənim diqqətimi cəlb etdi. Onun

gödək, əyri ayaqları, çox çirkin sifəti var. Onun son dərəcə bədbəxt bir adam olduğu kədərli gözlərindən görünür. İngilis marağı məni rahat buraxmadı. Mən onunla yaxınlıq elədim, biz bir masa arxasında oturaraq xeyli söhbət etdik. Öyrəndim ki, bu adam tez-tez rus səfəratxanasına gedir. Vaxtı ilə əsir düşərək Tehrana gətirilib. Hazırda şah hərəmxanasında xacədir. Fikri vətənə qayıtmaqdır. Çünki Türkmənçay müqaviləsi bağlandıqdan sonra ermənilər bu yerlərdən köçüb gedirlər.

– Onları köçürürlər – Uillok bildirdi.

– Bəli, elədir. Səfir Qriboyedov da Yağuba kömək edəcəyinə söz verib. Elə bilirəm ki, bu bizim axtardığımız adamdır. Onun ingilis casusu olduğu kimsənin ağlına gəlməz. Çünki o, mağmun və bədbəxt bir adamdır.

– Mən sənin zirək və ağıllı olduğunu çoxdan bilirdim, Maknil – Uillok razılıqla gülümsündü.

Maknillə Corc ayağa qalxdılar. Maknil daha otağına qayıtmadı, xacə Yağubun getdiyi qəhvəxanaya baş çəkmək istədi.

* * *

Xacə Yağub gözdən uzaq bir yer tapıb oturdu. Qəhvəxananın küncü yarımqaranlıq idi. Burdan içəri aydın görünürdü. Alçaqboy, kök kişi qəhvəni masaya qoyub vərdiş etdiyi zirəkliklə o biri masalara yaxınlaşdı.

Xacə Yağub qəhvənin tünd ətrini ləzzətlə sinəsinə çəkdi. Xoşladığı bu ətir sanki bütün yorğunluğunu canından çıxardı. Üstəlik xoş bir ümidi bol-bol üz-gözünə çilədi. O, rus səfirindən razı idi. Bu yumşaq, mehriban adam xacənin ağrılı hekayətlərini dinləyib təsirlənmişdi. Bu gün də Yağubun başını görən təki onu içəri çağırmışdı, qəhvə gətirtmişdi, sonra da sənədlərin artıq hazırlanmasına başladığını bildirərək onu arxayın salmışdı. Onu da demişdi ki, xacə uzağı bir aya qədər vətənə gedə biləcəkdir. Bu xəbər xacə Yağubu sanki göylərin yeddinci qatına qaldırmışdı. Qəhvəxanada şirin ümidlər içində yaşayan xacəyə elə gəlirdi ki, mələklər başının üstə dayanaraq yelpazələrini yellədir, onu qada-bəlalardan hifz edirlər. Ürəyinin dərinliyində elə bir hiss vardı ki, sanki bədbəxtliyi qara yuxu kimi ötüb keçmişdi. O burda hamıdan qüvvətli və qüdrətliydi. Elə buna görə də daha adamlardan çəkinmirdi. Çirkinliyini unudaraq lap yeniyetmə vaxtlarında olduğu kimi özünü qədd-qamətli və yaraşıqlı hiss edirdi.

...Qonşu masada kürən saçlı, göy gözlü, orta yaşlı bir adamın ona diqqətlə baxdığını görəndə sanki göylərdə uçan xəyalları birdən çiliklənib töküldü, özünü yığışdırıb xoflu-xoflu ətrafına baxdı: "Bu bəlkə mənim hərəmxanada işlədiyimi bilir? Qılığıma girib tanışlıq yaratmaq istəyir? Bəlkə bilmir ki, şahın hərəminə kəc baxanın gözləri çıxarılır? Deyəsən mənim masama yaxınlaşmaq fikrindədir. Üzümə baxıb gülümsəyir. Əh, cəhənnəm olsun hərəmlər, onsuz da gedirəm...".

Qonşu masada oturan kürən saçlı adam həkim Maknil idi. Maknil Yağuba yaxınlaşıb yüngülcə təzim etdi, salamlaşdı və onunla bir masada oturmağa ədəblə icazə istədi:

– Bağışlayın, sifətiniz mənə o qədər tanış və doğma gəldi ki...

Maknil fars dilində təmiz danışırdı. Gözlərindən mərhəm adam kimi xoş təbəssüm yağırdı – Sizi çoxdan tez-tez burda görürəm...

– İş üçün səfirliyə gedirəm. Bizim erməniləri öz vətənlərinə köçürürlər. Mən də getmək istəyirəm. Bəsdi daha qürbətdə yaşadıq... Amma siz farsa oxşamırsız... ingilissiz?

– Bəli, ingilisəm. Həkiməm. Adım Maknildir.

– Mənim işimimi bilməsəniz də olar. Amma biləndə nə olar, adım Yağubdur. Yağub Markaryan. Vaxtı ilə Tiflisdə yaşamışam. Mən sizi kürən olduğunuza görə rusa da oxşatdım.

– Lakin bizim hər ikimiz fars dilini gözəl bilirik. Qəhvədən başqa bir şey istəmirsiniz?

Xacə Yağub başını buladı.

Maknilin yaraşıqlı sifətinə, boylu-buxunlu qamətinə baxdıqca xacə Yağub hiss elədi ki, bayaqkı hisslər əriyib getdi, özü öz içində təzədən xırdaldı, cılızlaşdı, sanki utanaraq ovucları ilə yanaqlarını tutdu və sifətini gizləməyə çalışdı. Qəhvənin pulunu verib ayağa qalxmaq, bu şübhəli kürən adamdan canını qurtarmaq istədi. Amma Maknil onun qolundan tutub aşağı basdı:

– Məni pəjmürdə buraxma, bəradər. Otur söhbət eliyək. Sən də bu məmləkətdə qəribsən, mən də.

– Sən kimsən ki? – Yağub bu dəfə şübhə ilə soruşdu.

Maknil ehtiyatla ətrafa baxdı:

– Biz ki, tanışıq. Sən özün haqqında mənə danışmısan. Onu da demisən ki, rus səfiri sənə kömək edir. Bir xatırla.

– Deyəsən tanışıq...

– Çox şükür, yadına düşdü...

– Sən kimsən?

– Mən sənə dedim də, mən ingilisəm.

– Nə olsun ki, mən də erməni.

– Mənə etibar eliyərsənmi?

– Bu axmaqlıq olar.

– İngilislər sözü bütövdür. Çoxdanmı burda yaşayırsan?

– İyirmi dörd ildir. O vaxt əsir düşmüşəm – Xacə ah çəkdi – yəqin görünüşüm səni qorxuya saldı. Artıq bu iyrənc baxışlara adət eləmişəm – xacə nifrətlə üz-gözünü əydi – o vaxt mən də yaraşıqlı bir oğlan idim. Məni həyatın zövqündən məhrum edib bədbəxt, çirkin bir adama çevirdilər və şahın hərəmxanasına göndərdilər. Mən bir insanın çəkə bilməyəcəyi çoxlu acılar çəkmişəm. Rusların erməniləri Azərbaycana köçürmələri ölmüş ümidlərimə həyat verdi. Mən sanki bir insan kimi təzədən doğuldum və indi yeni həyata başlamaq istəyirəm.

– Bunları sən bir dəfə danışmısan. Lakin bəradər, təkcə bunun üçün azadlıq yox, həm də pul lazımdır. Sən indi ağıllı və tədbirli olsan o zaman çoxlu pul qazanarsan və bu pulla vətəndə çəkdiyin əzabların əvəzini çıxarsan.

– Pul qazanaram, necə?

Xacə Yağubun seyrək kirpikli gözləri geniş açıldı, ovuc içi kimi hamar, tüksüz çöhrəsinə bir işıq yayıldı.

– Gəl onda təzədən tanış olaq.

– Biz çoxdan tanış olmuşuq...

– Yox, bu dəfə bir-birimizə etibar etmiş adamlar kimi danışaq. Mən ingilis səfəratxanasında həkiməm. Həkim Maknil.

– Mən də Yağub Markaryan. Şah hərəmxanasının ikinci xacəsi.

– Deməli sən ermənisən. Rus səfəratxanasında da işləyənlərin çoxu ermənidi.

– Bəli, ermənilər indi az qala şahın da yanında çalışır. Səfirliyin tərcüməçisi Şahnəzərov da ermənidir. Mənimlə yaxındır.

– Şahnəzərov etibarlıdırmı?

– Ermənidirsə, deməK etibarlıdır.

– Səfirlikdə işləyən ermənilər daha kimlərdir?

– Dadaş bəy ermənidir. Vasili Dadaşyan, səfirliyin dəftərxana işçisi Bejakov, Qriboyedovun tərcüməçisi Mirzə Nəriman, ştabs kapitan Məlik Şahnəzərov, İsak Sərkisyan, Xaçatur Nazaryan. Bunların hamısı ermənidir.

– Səfirlikdə üç Şahnəzəryan var?
– Çox güman ki, onlar qohumdurlar.
Maknil söhbətdən məmnun qaldı, gözaltı ətrafa baxıb cibindən bir dəstə pul çıxardı və onu gizlicə Yağubun qarşısına qoydu:
– Bu hələlik kiçik xərclikdir.
– Mən pulu götürə bilmərəm. – Yaqub qızğın etiraz etdi.
– Biz ki, danışdıq.
– Sən axı demədin ki, mən nə iş görməliyəm?
– Biz tez-tez görüşəcəyik. Günaşırı eyni saatda burda. İndi isə heç kəs görməmiş pulu götür və gizlət. Danışdıqlarımız haqqında da kimsəyə bir kəlmə demə. Bizimkilər gəvəzə adamları xoşlamır. Başa düşdün? – Maknil əlinin tiyəsini boğazına çəkdi.
Xacə Yağub özünə gəlməmiş Maknil yox oldu. Xacə Yağub da ayağa qalxdı. İçində sanki sevinc çeşmə kimi qaynayırdı. Ona elə gəldi ki, illərlə qısılıb başıaşağı gəzməkdən əyilmiş kürəyinin donqarı düzəldi, parıltısı sönmüş gözləri yağ tökülmüş çıraq kimi alışdı. Xacə Yağub bu anlarda açılmış baxtından, üzünə gülən taleyindən razı qaldı: axır ki, onun içindəki qüvvəni gördülər. Axır ki, insanlar içində onu da insan bilib seçdilər. Demək onu birdəfəlik məhv etmək, həyatdan silmək tanrının yazısında yoxmuş...

* * *

Tehran gecələrini Aleksey Qriboyedov hərdən yatmış gözələ bənzədərdi. Uzaq göylərin səssiz sükutunda, qara məxməri deşib çıxmış kimi görünən aylı-ulduzlu gecələrində şairanə bir ovqat duyulardı. Bir qəriblik havası ilə ürəyi qubarlanan, həsrəti bitməyən bir intizarla ən uzaq ulduzun arxasınca düşüb gedərdi, anasına, uşaqlarına, zövcəsinə yetənə qədər yol gedərdi...
Tehran gecələrini Qriboyedov hərdən də başını pəncələri üstə qoyub üstünə atılmaq, onu didib parçalamaq fürsətini gözləyən qaplana oxşadardı. Bu anlarda ona elə gələrdi ki, kiminsə qara kölgəsi addım-addım onu izləyir, sanki bu qara kölgənin gözəgörünməyən uzun qolları onu boğmağa, öldürməyə çalışır. Son vaxtlar içindəki əndişə, təşviş gecələr də onu rahat buraxmırdı. Yuxusundan kal oyanır, otağın sakitliyinə, gələn hər səsə, şıqqıltıya diqqət kəsilir, sonra xaç çevirərək yenidən yatağına uzanırdı. Xüsusi ilə xacə Yağubun çirkin sifəti nədənsə qara bir kölgəyə bürünərək onu daim addım-addım izləyirdi.

...Son vaxtlar xacə Yağubun çirkin sifətində gördüyü gülümsər ifadə nədənsə Qriboyedova şeytan təbəssümünü xatırladırdı. Xacə Yağubu səfirliyin tərcüməçisi Şahnəzərovla tez-tez bir yerdə görürdü. Xısınlaşır, səfiri görən tək ciddi sifətlərinə mülayim bir təbəssüm verməyə çalışırdılar. Xacə isə özünü itirirdi. Xacə Yağub daha onun otağına gəlmir, göz yaşı töküb onu vətənə göndərməsi üçün Qriboyedova dil tökmürdü.

* * *

Qriboyedov yenə onları bir yerdə pıçıldaşan gördü. İkisi də özünü itirdi. Xacənin dili dolaşdı, amma həmin şeytan gizlənmiş təbəssümü ilə dedi:

– Ermənilər hər yerdə bir-birinə dayaqdır, cənab səfir. Şahnəzərov mənim keyfimi soruşurdu. Axı mən bədbəxt və məğmun bir adamam.

Qriboyedov onun çirkin sifətinə baxmaqdan iyrəndi, tələsik öz otağına keçdi və dərindən nəfəs aldı. Ona elə gəldi ki, xacə Yağubun gözlərində mağmunluqdan çox gizli bir qəddarlıq gördü. Kim bilir, uzun illər xacəlik etdiyi hərəmxanada nə qədər qadın öldürtmüş, günahsız adamların qanına bais olmuşdu. Qriboyedov Abbas Mirzənin çox yaxın adamının ona dediyi sözləri xatırladı: *"Abbas Mirzə mənə əmr etdi ki, sizə çatdırım ki, Abbas Mirzə sizin fəaliyyətinizdən və onunla olan əlaqələrdən razıdır. Onun istedadı və təcrübəsi ilə tanış olduqdan sonra mən əmin oldum ki, Qriboyedov elə bir hərəkət etməz ki, iki hökumət arasında yaradılmış xoş əlaqələrə xələl gətirə bilsin. Lakin məndə Qriboyedovu müşaiyət edən adamlara inam yoxdur. Bu adamların dini və şəxsi əhval-ruhiyyəsində düşmənçilik görürəm və bu məni çox qorxudur. Qriboyedovu başa salın ki, bu adamları tabeçiliyində möhkəm saxlasın".*

Qriboyedov 1828-ci il aprelin 25-də Rusiyanın İranda səlahiyyətli səfiri təyin olunanda işə könülsüz başladı. O vaxt Puşkinə narahatlıq hissi ilə demişdi: *"Siz farsları tanımırsız, iş bıçağa qədər gedib çıxacaqdır... Allahyar xan mənim şəxsi düşmənimdir. O heç vaxt Türkmənçay müqaviləsini mənə bağışlamayacaqdır".*

Abbas Mirzənin sifarişi Aleksey Qriboyedovun canına çökmüş qorxunu bir az da artırdı. O, Təbrizdən qayıdan kimi gözünə

şübhəli görünən hər kəsi, xüsusi ilə erməniləri nəzarətdə saxlamağa, yaxud işdən çıxarmağa qərar verdi...

Xacə Yağub qəhvəxanaya girib qapının ağzında bir an ayaq saxladı, gözaltı ətrafı süzüb kimsənin ona məhəl qoymadığını sezdi, keçib rahatlıqla yarımqaranlıq küncdə oturdu. Günorta olduğundan qəhvəxanada seyrəklik idi. Xacə yumşaq əlləri ilə yanaqlarını ovcunun içinə alıb masaya dirsəkləndi. Gözləri baxır, özü isə fikirlər burulğanında çırpınırdı. Hərdən həkim Maknillə rastlaşdığı günə lənət oxuyurdu. Çünki həmin gündən qorxu içindəki şeytanı çıxarıb orda özü kök salmışdı. İçindəki şeytan... onu yoldan çıxarıb Maknilə tuş etmişdi. İngilislərin casusuna çevirmişdi. Axı nəyinə gərək idi? İllərlə hərəmxanada ömrünün axırına qədər bəs eliyəcək sərvət yığmışdı. O, rus səfirinə – Qriboyedova niyə xəyanət elədi? Bu mehriban rus səfiri axı ermənilərə çox kömək eləiyrdi. Onların Azərbaycana köçürülməsi üçün dəridən-qabıqdan çıxırdı. Yurdsuz-yuvasız ermənilərə vətən adlı bir nemət bəxş eləyirdi. Qriboyedovun yaxşılıqlarının əvəzində niyə onun ölümünə fitva versin? Allah onu o dünyada bağışlayacaqmı?

Xacə Yağub özü də hiss etmədən qorxu içində xaç çevirdi. Sonra tələsə-tələsə qəhvə içməyə başladı. Sanki günahların ağırlığına tab gətirməyərək fikirlərini, düşüncələrini azdırmaq istədi. Amma bacarmadı... İki gündən sonra həkim Maknilin verdiyi çervonları səfirliyə aparıb ermənilərə verəcəkdi. Ermənilər bu çervonların müqabilində səfirliyin qapısını açacaq, fars geyimində olan silahlı adamları içəri buraxacaqdılar. Səfirlikdə həmin ermənilərdən başqa bir nəfər də sağ qalmayacaqdı. Sonra Şahnəzərov xacədən əlavə beş yüz çervon alaraq onu sərhəddən Rusiyaya keçirəcəkdi.

Xacə Yağubu nədənsə birdən-birə titrətmə tutdu. Qəhvəni başına çəkib ikincisini istədi.

* * *

Qriboyedov arvadına yazdığı məktubu yarımçıq qoyub ayağa qalxdı. Bu səhər qarmaqarışıq duyğular içində yuxudan oyanmışdı. Hər dəfə səfirliyin əməkdaşlarını dəyişməyə, inandığı, etibar etdiyi adamları səfirliyə gətirməyə qərar verirdi. Lakin iş elə bil düyünə düşürdü. Vaxt ona vacib saydığı məsələni həll etməyə imkan vermirdi.

Bu səhər də içindəki sıxıntı, Tehranın soyuq qış günü, duyğularını daim tarımda saxlayan qürbət havası səfirə səbəbini bilmədiyi qəmginlik, pərişanlıq gətirdi. Arvadına yazdığı məktubda da qürbət havalı duyğularını dilə gətirmək istədi, amma yazmadı...

Tehranın qışı çox sərt, ləng keçirdi. Hələ yanvar ayı idi. Yaza xeyli vardı.

...Qriboyedov yenidən qələmi əlinə aldı və yarımçıq məktubu bitirmək istədi. Amma ürəyi elə hisslə çırpındı ki, sanki bu doğmalarına yazdığı son vida məktubu idi, son cümlə son həyat işartısı idi. Bu anda səfirliyin otaqlarından qarmaqarışıq səslər, boğuq qışqırtı gəldi. Ayağa qalxmaq istəyəndə otağının qapısı zərblə çırpıldı, astanada əlində qılınc tutmuş xacənin çirkin sifəti, ağaran dişləri göründü. Xacə sanki cin qiyafəsində bir cəngavər idi. Arxasınca qapını örtdü, əlinin işarəsi ilə səfirə oturmağı əmr etdi. Masaya yaxınlaşdıqca qılıncının ucundan süzən qan döşəməyə ləkə salırdı.

Səfir heyrət içində iflic olmuş kimi yerində donmuşdu, nə baş verdiyini anlaya bilmirdi. Qapı yenə açıldı, əli qılınclı bir dəstə adam içəri girdi, onların üzü örtülüydü, təkcə gözləri işarırdı. Geyimlərindən farslara oxşayırdılar. Qriboyedov təlaşla soruşdu:

– Xacə, nə olub, əli silahlı bu adamlar kimdir? Onların səfirlikdə nə işi var?

Xacə irişdi:

– Bunlar farslardır, cənab səfir. Onlar səndən, bütün ruslardan Türkmənçay müqaviləsinin qisasını alırlar.

– Bunlar Allahyar xanın adamlarıdır?

– Elə hesab eləmək də olar.

– Onlar içəriyə necə girdilər?

– Bunları sizinkilər içəri buraxdı – xacə yenidən irişdi, – səfirliyin gözətçilərini səssizcə öldürdülər. Səfirlikdə çalışan ermənilər ingilislərə satılıb.

– Bunlar özlərini farsa oxşatmış ingilislərdir...

Həyəcan isti burulğan kimi Qriboyedovu yaxaladı: "İngilislər bu dəhşətli cinayətin açılması üçün şahid saxlamayacaq. Hamını qılıncdan keçirəcəklər. Dünən katib Maltsev ondan icazə alıb getdi. Bircə o, sağ qalacaq. Amma o, da bu müəmmalı qətldən baş aça bilməyəcək. Bəlkə Fətəli şah kömək göndərdi... Bəlkə...".

Dəhlizdə, otaqlarda vuruşma gedirdi. Qriboyedov da masanın yanından qılıncını çəkib götürdü və qarşısındakı çirkin sifətli adamın başına yendirmək istədi. Amma kimsə özünü səfirə yetirdi. Qılıncını yuxarı qaldırmış xacənin başını üzüb yerə saldı. Baş diyirlənib səfirin ayağının yanında dayandı. Qriboyedov bircə anlığa qanlı başa, açıq qalmış şüşə gözlərə baxdı, rusca söydü və qarşısına çıxan yekəpər adamla döyüşə girdi. Qılınc səsləri, fəryad və qışqırıq otaqlardan aşağı yayılırdı. Qriboyedov tez-tez qapıya baxırdı. Hələ də ümidini kəsməmişdi. Ona elə gəlirdi ki, ingilislərin rus səfirliyinə basqınından xəbər tutmuş Fətəli şah ona kömək göndərəcək. Kömək isə gəlmirdi. Yerdə cəsədlərin sayı artırdı. Bir çox əməkdaşlar qətlə yetirilmişdi. Səfirin özü də yaralanmışdı. Çətinliklə nəfəs alırdı. Bircə anlığa çevrilib masanın üstünə baxdı. Orda yarımçıq məktub ağarırdı. Yəqin ki, bu bitməmiş məktub arvadını ağrıdacaq, onu göz yaşına bükəcəkdi... Səfir ağır-ağır nəfəs alırdı. Xilas olmaq ümidi ürəyində zorla yaşatdığı son zəif işığa bənzəyirdi: ola bilməz ki, İran şahı onun təhlükəsizliyini qorumasın, bu çətin məqamda ona kömək göndərməsin... Əgər göndərməsə... Qriboyedov alnındakı buz kimi soyuq təri sildi: göndərməsə Rusiya ilə münasibətlər pozulacaq, bəlkə də yeni müharibə təhlükəsi yaranacaq... Və kimsə arxadan xəncəri Qriboyedovun kürəyinə sancdı, o çevrilməyə macal tapmayaraq üzüüstə düşdü...

* * *

Qatillər səssiz gəldikləri kimi səssiz də çəkilib getdilər.

Külək pəncərəni şiddətlə çırpıb açdı. Soyuq külək masanın üstündəki yarımçıq məktubu kəpənək kimi havada uçurdu, sonra məktub Qriboyedovun kürəyinə düşərək eləcə qaldı.

* * *

Səfirlikdə otuz yeddi nəfər adam öldürülmüşdü. Onların arasında bir nəfər də erməni yox idi. Cəsədlər arasında on doqquz nəfər isə fars geyimli adam vardı. Şəxsiyyətlərini öyrəndikdə ingilis olduqları aşkara çıxdı. Sağ qalan təkcə səfirliyin katibi Maltsev oldu. Bir gün əvvəl Qriboyedovdan icazə alaraq dostunun evinə getmiş, gecəni də orada keçirmişdi. Taleyin hökmündə ölümü yox imiş...

* * *

1829-cu il yanvarın 30-da Tehrandakı rus səfəratxanasında törədilmiş qətl hadisəsi martın 4-də Peterburqa imperator sarayına çatdı. Bu dəhşətli cinayətin qarşılığı olaraq ruslar farslarla yenidən müharibəni başlamalı idilər. Lakin ruslar savaşı başlayacaq vəziyyətdə deyildi. Çünki bir il əvvəl – 1828-ci il aprelin 12-də Türkiyə ilə başlanmış müharibə hələ davam edirdi, ruslar bütün qüvvələrini türklərlə savaşa vermişdilər.

Lakin bu dəhşətli cinayət də cavabsız qalmamalı idi. Əks halda rus imperatoru I Nikolay dövlətlər arasında nüfuzdan düşər, onu qorxaqlıqda töhmətləndirərdilər. I Nikolay bu ağır ittihamı üzərinə götürməmək üçün yollar axtarırdı. Çar sarayında gərginlik hökm sürürdü. Nəhayət I Nikolay qərara gəldi: Fətəli şaha müraciət edərək ölkəsində baş vermiş bu qətl hadisəsi üçün Rusiyadan üzr istəməsini təklif etdi.

Fətəli şah yaxasını asanlıqla qurtardığına sevindi və vaxt itirmədən üzürxahlıq üçün I Nikolayın yanına xüsusi nümayəndə heyəti göndərdi.

İmperator sarayında farsları hörmətlə qarşıladılar. Nümayəndə heyətinin başçısı Abbas Mirzənin oğlu Xosrov Mirzə idi. O gətirdiyi 88 karatlıq birilliantı imperatora təqdim etdi. Bu qiymətli hədiyyə I Nikolayın xoşuna gəldi. Farslara qarşı qəzəbini soyutdu. Birilliantlar onun vicdanını susdurdu və imperator bu cinayətin kimlər tərəfindən törədildiyini belə öyrənmədən bu dəhşətli qətlin üstündən sükutla keçdi.

* * *

1829-cu il mayın 1-i.

Təbrizdən keçib gələn kiçik qafilə Naxçıvanda dayandı. At qoşulmuş arabada gətirilən Qriboyedovun cənazəsi xan sarayının qarşısına qoyuldu. O anda bu xəbəri eşidənlər xan sarayının qarşısına axışdı. İzdiham Mömünəxatun məqbərəsinin yanına qədər uzanırdı.

Özlərini xan sarayının qarşısına yetirən Xanvəli ilə Feyzullah adamları yara-yara üstünə qara örtük salınmış tabuta yaxınlaşdılar. Saçları ağarmış, üzündə dərin qırışlar görünən Xanvəli təəssüflə dedi:

– Əyə, bu yazığı görən niyə öldürdülər?

– Deyirlər şahın kürəkəni Allahyar xan öldürtdürüb. Özü də səfirlikdə işləyən bütün urusların axırına çıxıb.

– Amma mənim eşitdiyimə görə bu qətldə ingilislərin barmağı var.

Xanvəli köks ötürdü.

– Bəlkəm elə Allahyar xan ingilislə sözü bir eləyib? Türkmənçay müqaviləsi farslara od qoyub. Naxçıvanla, İrəvan əllərindən çıxıb.

– Ağlabatandı – Feyzullah təsdiqlədi. Səndən yaxşı xan olardı, Xanvəli.

Xanvəli yanıqlı-yanıqlı ah çəkdi:

– Xan bir nəfər idi, o, da gəldi, getdi. Allah rəhmət eləsin, Kalbalı xana.

...Qriboyedovun cənazəsi iki gün Naxçıvanda qaldı. Ehsan xanla, Şlxəli xan, bütün Naxçıvan əhli ona son ehtiramlarını göstərdilər. İki gün sonra Qriboyedovun cənazəsi Peterburqa yola salındı...

12

...Ehsan xan sübh tezdən oğlu İsmayılı Şıxəli xanla Nəzərəli xanın arxasınca göndərdi.

İki qardaş Ehsan xanın çağırışına təlaş içində gəldi. Nə olmuşdu, nə baş vermişdi? Ehsan xan qardaşlarını susqun, pərişan qarşıladı. Üz-üzə oturdular. Ehsan xan qardaşlarını narahat baxışla süzdü və içindəki təlatümü biruzə verdi:

– Atamı yuxuda... çox dərdli gördüm.

– Necəydi o? – İkisi də eyni anda soruşdu: – Sənə bir söz dedimi?

Ehsan xan elə bil onları eşitmədi;

– Kalbalı xanı heç belə fikirli, dərdli görməmişdim. Çox qocalmışdı, beli bükülmüşdü. Elə bil heç o şax qamətli Kalbalı xan deyildi. Qəddi əyilmişdi. Amma gözləri yerindəydi. Elə bil gözlərindən min ilin qüssəsi yağırdı. Mən onun baxışını unuda bilmirəm. Bilmirəm bu baxışlar təlaşlıydı, acıqlıydı, ya tənəliydi? Baş aça bilmədim.

Mən ona yaxınlaşmaq, qucaqlamaq, bağrıma basmaq istədim. O, əli ilə sinəmdən vurub məni itələdi, yaxına getməyə qoymadı. Qışqırmaq istədim, səsim çıxmadı. Elə bil məni boğurdular. Qəddi əyilmiş atam birdən sis-dumanın içinə girdi. Yuxuda

onu həmişə atlı görərdim. Amma indi piyada idi. Gözümün qabağındaca dumanın içində yox oldu. Bu nə yuxudu, baş aça bilmədim. Yuxudan ayılıb salavat çevirdim.

– Gorda deмək rahat yata bilmir – Şıxəli xanın səsi titrədi.

Nəzərəli xan etiraz etdi;

– Gorda niyə rahat olmasın? Naxçıvanda savaş çoxdan qurtarıb...

– Elədi. Amma Naxçıvana ermənilərin köçürülməsi... xoşuma gəlmir. Şəhərdə, ətraf kəndlərdə bir ucdan ermənilər yerləşdirilir. Camaat təşviş içindədi. Amma atam sağ olsaydı onları xanlığa yaxın buraxmazdı. Rusiyanın himayəsini qəbul etsəydi də...

– Ruslar İrəvan xanlığını bir dəfəlik ləğv elədilər – Şıxəli xan ağrı içində dedi: – Dayım Məhəmməd xanın hakimiyyəti dövründə onun qorxusundan bir erməni də səsini çıxarmazdı. Gorun çatlasın, Məhəmməd xan. Ruslar xanlığı əkin torpağı tək şumladılar və yerində... Ermənistan dövləti əkdilər.

– İrəvan xanlığının yerində erməni dövləti, bizim torpaqlarda günü-gündən artan ermənilər... Bundan bizə zərər gəlməyə, Şıxəli?

– Əgər Kalbalı xan gorda rahat yata bilmirsə demək bunun bizə zərəri dəyəcək. Kalbalı xanın ruhu təlaş içindədirsə demək bu zərəri bir görməsək də nəvə, nəticələrimiz, nəsillərimiz görəcək. Şeytan yuvasına həmişə gürzələr yığışar...

Ehsan xan fikirli pəncərədən görünən Araz vadilərinə baxdı. Sanki bir anlıq hər şeyi unutdu – gördüyü gözəlliyə valeh oldu. Amma bu gözəlliyə yavaş-yavaş payızın nəfəsi toxunurdu. Əlvan rənglərdə hələ ki, bir istilik vardı. Amma bu əlvan rənglərin gözəlliyinə, istisinə aldanmaq olmazdı.

Çünki payız arxasını qışa söykəmişdi...

Rusların bu qədim torpağa gətirdiyi dinclik də eynən arxasını qışa söykəyən payıza bənzəyirdi.

Və o payızdan qan qoxusu gəlirdi...

# EPİLOQ ƏVƏZİ

Araz vadisində xəyal kimi görünən bir atlı çapırdı.

Atlı sanki başının üstündəki günəşdən qaçırdı. Çünki günəşin istisindən vadi elə bil od tutub yanırdı. Hələ bu azmış kimi Arazın suları da nəhəng köz kimi günəşin əksini aparırdı.

Axır ki, günəş atlını atdan saldı... Susuzluq yolçunu irəli getməyə, od tutub yanan vadidən uzaqlaşmağa qoymadı.

Atlı təşnə içində sahilə yaxın gəldi. Ovuclarını su ilə doldurub üz-gözünə çırpmaq istədi. Bu anda Şimaldanmı, Cənubdanmı atılan güllə ovcunun içindəki suyu qıpqırmızı qana boyadı.

Güllənin açılmağı ilə elə bil göydə günəş söndü və eyni anda vadini qaranlıq bürüdü.

Atlı qorxmuş halda ovcundakı qanlı suyu təkrar Araza atdı. Bir ovuc sudan sanki Arazın da suları qan rəngi aldı.

Yolçu həmin qorxu içində başını qaldırıb Şimala baxdı. Sonra Cənuba. Atını minib günəşi sönən qaranlıq vadidən çıxmağa tələsdi...

**2001-2006,**
**Naxçıvan**

# KİTABIN İÇİNDƏKİLƏR


**NAXÇIVAN XANLIĞI:**

Tariximizin bədii salnaməsi ***(İ.M.Hacıyev)*** ........................ 4

Taxt... uğrunda savaş ........................................................ 6

Xacə şahın sonu ................................................................ 46

Rus taunu ........................................................................ 107

İşğal və yaxud generalın ölümü ........................................ 145

Ermənistan belə yarandı... ................................................ 182

Mübahisəli Naxçıvan ......................................................... 322

Ölümə bərabər ayrılıq ....................................................... 339

Epiloq əvəzi ...................................................................... 457

## GÜLLÜ MƏMMƏDOVA

# *KALBALI XAN*

**(Tarixi roman)**

*Kompüter dizayneri:* ***Zahid Məmmədov***
*Texniki redaktor:* ***Rövşanə Nizamiqızı***
*Operator çapçı:* ***Elşad Hacıyev***

*Yığılmağa verilmiş 21.07.2007.*
*Çapa imzalanmış 17.09.2007.*
*Şərti çap vərəqi 28,5. Sifariş № 382.*
*Kağız formatı 60x84 1/16. Tiraj 1000.*

*Kitab* ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor:* ***prof. N.B.Məmmədli***
***E-mail: nurlan1959@yahoo.com***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*